# VƏHHABİLİYİN SİYASİ TARİXİ

**MÜƏLLİF: DOKTOR MƏNSUR HƏQİQƏTPUR**




Kitabın adı......................................“Vəhhabiliyin siyasi tarixi”
Müəllif:...............................................Doktor Mənsur Həqiqətpur
Tərcümə edən:...................................................................M. Əlizadə
Nəşr edən:........................................................................
Tiraj:....................................................................................3000
Çap növbəsi: ................................................................... Birinci

## MÜQƏDDİMƏ

İslamın əbədi ayini coğrafi cəhətdən Asiyanın cənub-qərbindəki quru və yandırıcı iqlimə malik olan Ərəbistan diyarında (610-cu miladi ilində) zahir oldu. Bu diyarın əhalisi İslamdan öncə cahiliyyət dövründə yaşayırdılar. Böyük əksəriyyət çirkin və insanlığa yaramayan əxlaqa malik idi. Ərəb cəmiyyətlərinə hakim olan qəbilə icması şəklində olan həyat tərzinin əsas xüsusiyyətlərindən biri daim çarpışma, müharibə və qan axıtma idi. Amma İslam dini zühur edərkən qəbilə icması formasında olan yaşayışa hörmətlə yanaşdı. Belə ki, İslam cahil ərəblərə onların qeyri-insani əməl və əqidələrinin tərk olunması üçün müəyyən yollar təyin etdi və sonuncu peyğəmbər Həzrət Məhəmməd (s) vahid bir ümmətin, nurani bir cəmiyyətin yaradılması üçün yol göstərdi. Peyğəmbəri-Əkrəm (s.ə.v.v) iyirmi üç il ərzində insanları İslam dininə dəvət etdi. O, təzə müsəlman olmuş cəmiyyətin genişlənib inkşaf etməsi və tərəqqiyə çatması üçün özünün var-qüvvəsi ilə çalışdı və cəmiyyətdə dərin dəyişikliklər yarada bildi.

Allah tərəfindən göndərilən sonuncu Peyğəmbərin (s) vəfatı ilə bünövrəsi təzəcə qoyulmuş İslam cəmiyyətinin vəziyəti tamamilə dəyişdi, Əhli-beytin (ə) hüquqlarının tapdalanması ilə yeni-yeni çətinliklər yarandı.

Bəni-Saidə səqifəsində baş verən hadisələr İslam ümmətində sonrakı təfriqələrin və nifaqların çoxunun mənşəyi oldu, Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) vəfatından sonra onun haqq canişini olan Həzrət Əlinin (ə) Qədir-Xumda təyin olunan məqamı unuduldu və o Həzrət (ə) iyirmi beş il müddətində öz haqqından məhrum qaldı.

O Həzrət (ə) bu müddət ərzində xəlifələrin (Əbu Bəkr, Ömər və Osman) işlərinə ciddi şəkildə nəzarət edir, daim onların həqiqi İslam yolundan çıxmalarının qarşısını alırdı. İnsaf və ədalət simvolu olan Həzrət Əli (ə) 35-ci h.q ilində müsəlmanların israrı ilə xilafətə çatdıqda, onun ədalətinə tab gətirə bilməyənlər müxalifətçiliyə qalxdılar. Nəhayət təəssübkeş və quru müqəddəslər (xəvaric) tərəfindən şəhid edildi.

Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) vəfatından sonra İslam cəmiyyətində baş verən dəyişikliklər, bir-birilə müxtəlif düşüncələrə və rəylərə malik olan firqələrin yaranmasına səbəb oldu və bu da öz ardınca çoxlu yeniliklər gətirdi.

## *BİRİNCİ BÖLMƏ*

## *VƏHHABİ FİRQƏSİNİN YARANMASI VƏ ONUN İDEOLOJİ RƏHBƏRLƏRİ*

### *ƏHLİ-SÜNNƏ VƏL-CƏMAƏT*

Əhli-sünnə İslam ümmətinin təqribən dörddə üçünü təşkil edən böyük bir müsəlman qrupuna deyilir. Onlar dörd sünnü məzhəbinin imamları olan Əbu Hənifə, Malik ibn Ənəs, Əbdüllah ibn İdris Şafei və Əhməd ibn Hənbələ tabedirlər.[1] Onlar özlərinin Allahın kitabı, Peyğəmbərin (s) sünnəsi, sahabə və tabeinlərinin yolunda olduqlarını deyirlər.[2]

İcma əhli barəsində bunu qeyd etmək lazımdır ki, imamın təyin olunmasında bəziləri inanırdılar ki, imam ittifaq və ixtiyar əsasında müəyyən olunur, başqa sözlə müsəlmanların əksəriyyəti fikir birliyi ilə bir kəsi imamətə seçsələr o, imam kimi tanınır. Buna görə də əhli-cəmaətə bəzən əhli-icma da deyilir.[3]

Tarixi araşdırmalardan aydın olur ki, hər kəs Raşidi xəlifələrin xilafətinə tabe olsa və Əbu Bəkr, Ömər, Osman və Əli (ə) kimi Raşidi xəlifələrini qəbul edib, onların imamətini qəbul etsə, istər onların dövründə olsun, istərsə də hal-hazırda yaşasın–sünnü, yaxud əhli-sünnə vəl-cəmaət adlandırılır.[4] Əhli-sünnə və cəmaət özlərini İslam əhlinin vasitəsi[5], yaxud orta ümmət adlandırır, yəni özlərini seçilmiş və nümunə bir ümmət hesab edirlər.

### *ƏHLİ-SÜNNƏ VƏ ONUN TARİXİNDƏKİ DƏYİŞİKLİKLƏR*

Tarixin müxtəlif dövrlərində sünnü məzhəbi[6] bir neçə mühüm

---

[1] Ticani, Seyyid Məhəmməd, "Həqiqi Əhli-sünnə", Abbas Əli Bəratinin tərcüməsi, "Məarifi İslami" təşkilatı, Qum, payız, 1373-ci il, birinci cild, səh.37

[2] Dörd məzhəbdə olan sünnülərin üsuli-dində və əqidə üsullarında bir-birilə ixtilaflı olmalarına baxmayaraq, hamısı aşağıda qeyd olunan dörd mənbədən əldə olunan əsas şəriət hökmləri və əqidələr barəsində fikir birliyindədirlər:

1.Quran, 2.Hədis, yaxud sünnə, 3.Ümmətin icması, 4.Qiyas.

[3] Xosrov Şahi, Seyyid Rza, "İslam məzhəb və firqələrinin zahir olma səbəbləri", Tehran nəşriyyatı, 1341-ci il, birinci çap, səh.16

[4] Ticani, "Həqiqi Əhli-sünnə", səh.37-38

[5] Xosrov Şahi, "İslam məzhəb və firqələrinin zahir olma səbəbləri", səh.17

[6] "Hədisi-ma" kitabının müəllifi Əhli-sünnə arasında hədis yazılması barəsində belə deyir: "Sonralar Əhli-sünnə adı ilə tanınan Bəni-Saidə səqifəsi tərəfdarları "Allahın kitabı bizə bəsdir!" sözünü əsas tutaraq əvvəllərdə hədis yazmırdılar." Müdir Şanəçinin inancına görə: "Əhli-sünnənin hədisi 2-ci hicri əsrinin ortalarına qədər şifahi şəkildə nəql olunub. Onun istinadı da ravilərin hafizəsi idi. Çünki sünnülər ikinci xəlifə Ömər ibn Xəttabın etdiyi qadağan nəticəsində hədis yazıb kitab şəklinə salmadılar. Lakin

dəyişikliklərə məruz qaldı. Həmin dəyişikliklər bu məzhəbə hər zamanda xüsusi bir forma verib müxtəlif cərəyanlar yaratdı. Qeyd olunan cərəyanların müştərək və fərqli cəhətləri onların arasında müəyyən təzadlar və anlaşılmazlıqlar yaratdı. Bunlar da əsas etibarı ilə əqidə bölməsində özünü daha qabarıq şəkildə göstərir və müəyyən hallarda fiqh və şəriət hökmlərində də büruz edirdi.

Qeyd olunan cərəyanların təkcə onların ideoloji məsələləri əsasında deyil, həm də onların tarixi seyri və hər bir dövrdə tutduqları mövqe əsasında araşdırılması bu məsələlərin düzgün şəkildə başa düşülməsinə lazımi kömək edir. Şiələrdən fərqli olaraq mötəzilə və xəvaricin sair müsəlmanlarla ixtilaflı və ya müttəfiq olmaları iki mühüm məsələ əsasında cərəyan edirdi: Onlardan biri hansı şəhərdə yaşamaları, digəri isə hakim rejimlə hansı münasibətdə olmaları, bəzi hallarda isə məntəqə daxilində baş verən qiyamlara münasibətləri idi. Onların Mədinə, Məkkə, Kufə, Bəsrə və Şamda yaşamaqları həmin yerlərdəki dini mərcəyə tabe olmaları ilə yanaşı idi. Bu şəhərlərdən hər biri səhabələrdən bəzilərinin orada olmasına, eləcə də siyasi məsələlərə diqqət yetirməklə özlərinin məxsus fiqhi və dini nəzəriyələrini təqdim edirdilər. Şəhərlərarası münasibətlərin genişlənməsi, elmi hövzələrin formalaşması ilə eyni zamanda bu təzadlar daha kəskinləşir, digər tərəfdən şəhərlərə hakim olan təfəkkürlər arasında bir növ ünsiyyət yaranırdı. Belə ki, həm Mədinədə olan bir şəxsin İraq əhli kimi düşünməsi, həm də bunun əksi mümkün idi. Bununla eyni zamanda III əsrə qədər yerli mərcəiyyət son dövrlərdə əhli-sünnə və cəmaət kimi tanınan şəxslərin arasında əksəriyyət təşkil edən məzhəb idi."[1] Yerli mərcəiyyət əsas etibarı ilə iki müxalif cərəyanın əsasını qoydu:

1.Hicaz əhli olan hədis səhabələri.[2]

2.Rəy səhabələri. Onların çoxu İraqlı idilər, sonralar İranın da bəzi şəhərlərində özlərinə çoxlu tərəfdar toplaya bilmişdilər. Sanki, əhli-

---

Əhli-beyt (ə) bu əqidə ilə müxalif idi. Onlar hədislərin yazılmasına dair göstəriş verməkdən əlavə, hədisləri də bir yerə toplayıb saxlayırdılar. Şiələr arasında ilk dəfə Həzrət Əmirəl-mö`minin Əliyyibni Əbitalib (ə) bu işi görmüş və hədisləri bir yerə toplamışdır."

"Hədisi-ma", Əli Əkbər Musəvi, səh.26 və "Elmul-hədis", Şanəçi, səh.47

[1] "Şenaxti-Ərəbistan", Vəliyyi-fəqihin həcc və ziyarət işlərindəki nümayəndəliyi, Məşhəd nəşri, bi.ta, bi.ca, səh.107-108

[2] Əhli-hədisin mərkəzi əsas e`tibarı ilə Ərəbistan, xüsusilə Məkkə və Mədinə şəhərləri idi. Seyyid Davud Ağayinin yazdığı "Siyasət və hökumət dər Ərəbistani Səudi" kitabı, səh.31

Əbul-fəth Məhəmməd ibn Əbdülkərim Şəhristani, "Əl-miləlu vən-nihəl", Seyyid Rza Nainin tərcüməsi, İqbal, bi.ca, deymah, 1350-ci il, birinci çap, səh.162

hədisin müqabilində geniş yayılmış termin “əhli-kəlam” idi.[1]

Bu məsələnin daha aydın olması üçün əhli-hədislə əhli-rəyin hər birini ayrı-ayrılıqda şərh edirik.

## ƏSHABİ-RƏY

Doktor Xosrovşahi əshabi-rəyi belə izah edir:

Əshabi-rəy İraq əhli olub İmam Əbu Hənifə Nöman ibn Sabit ibn Mərziban Kufi Farisinin ardıcıllarıdır (80-ci hicri ilində Kufədə dünyaya gəlmiş və 150-ci hicri ilində elə orada vəfat etmişdir). O, İmam Sadiqin (ə) şagirdlərindən idi və fiqhi məsələləri istinbat edirdi. Fiqh sahəsində çoxlu kitablar yazmışdı. Əbu Yusif Yəqub ibn Məhəmməd Qazi (182-ci ildə vəfat edib), Məhəmməd ibn Həsən Şeybani (189-cu ildə vəfat edib), Cəfər ibn Hüzeyr (158-ci ildə vəfat edib), Əbumut onun şagirdlərindən idi. Bu firqəyə ona görö “əshabi-rəy” adı vermişlər ki, hər hansı bir məsələni müəyyən qədər müqayisə etməklə əldə edir, bəzi hallarda da aşkar qiyası (müqayisəni) əhkamdan irəli keçirirdilər. Amma Əbu Hənifə əslən iranlı olmaqla İraqın mərcəyi idi və əksər hallarda deyirdi ki, “bu mənim rəyimdir və əldə etdiyim rəylərin ən yaxşısıdır. Hər kəs başqa bir rəy göstərsə mən yenə də öz rəyimdə sabit qalaram...” Bu öz məzhəbini “cəliyy” və “xəfiyy” qiyas (müqayisə), eləcə də əhkamların mənalarını istinbat etmək əsasında təşkil etdi. Buna görə də onun səhabələrinə əshabi-qiyas (müqayisə səhabələri) deyilir. Əbu Hənifə deyirdi: “Mənim elmim rəy ilədir və rəy qüdrət tələb edən işlərin ən yaxşısıdır[2].

## ƏSHABİ-HƏDİS

Əshabi-hədis Hicaz əhli olub Malik ibn Ənəsin ardıcıllarıdır (179-cu ildə vəfat edib). Məhəmməd ibn İdris Şafei (204-cü ildə vəfat edib), Süfyan Suri və Əhməd ibn Hənbəl (241-ci ildə vəfat edib), Davud ibn Əli ibn Məhəmməd İsfəhani Malik ibn Ənəsin ardıcıllarındandır.[3] Onların əhli-hədis adlanmasının səbəbi hədis əldə edərək rəvayətləri tərtibə salmaları və nəss (aşkar, heç bir yerə yozula bilməyən) əsasında olan hökmlərə malik olmaları, əsər və xəbəri tapmağa qadir olduqları vaxta qədər “xəfiyy” və “cəliyy” qiyası (müqayisəni) inkar etmələridir.[4] Şafei deyir: “Mənim məzhəbim xəbəri əhatə edən məzhəbdir.” Məşhur alimlərdən olan Şatibi deyir: “Nəsslərin sözləri bütün əhkamları ifadə

---

[1] Vəliyyi-fəqihin həcc və ziyarət işlərindəki nümayəndəliyi, Həmin mənbə, səh.108

[2] Xosrof Şahi, Həmin mənbə, səh.16

[3] Şəhristani, “Əl-miləlu vən-nihəl”, səh.162

[4] Xosrof Şahi, Həmin mənbə, səh.17

edir və qiyasa ehtiyac yoxdur.”[1]

Əshabi-hədis beş firqədən ibarətdir:

1. **Davudiyyə**
2. **Şafeiyyə**
3. **Malikiyyə**
4. **Əşəriyyə**
5. **Hənbəliyyə**

**Davudiyyə.** Bu firqə Davud ibn Əli İsfəhaninin ardıcıllarına deyilir. Onlar “əhli-zahir” də adlanırlar. Çünki, onlar rəvayətlərin və hədislərin zahiri mənalarına inanır və ona əməl edərək qiyası inkar edirdilər.

**Şafeiyyə.** Əbdüllah ibn İdris Şafeinin ardıcıllarına deyilir. Şafei Suriyanın Qəzzə şəhərində Əbu Hənifənin vəfat etdiyi ildə (150-ci h.q ilində) dünyaya gəlmiş və 204-cü h.q ilində (819-cu miladi ilində) Məmunun xilafəti dövründə vəfat etmişdir. O, İmam Əli ibn Musa Rizanın (ə) müasiri idi.”[2]

O, sünnülərin dörd məzhəblərindən birinin imamı və Şafei məzhəbinin müftisi idi. Onun ardıcılları üsuli-dində və tövhiddə bu məzhəbdən istifadə edirlər. Onların əqidələrinə görə imanın düzlüyünün üç şərti vardır:

a) Dildə iqrar etmək. b) Qəlbdə təsdiq etmək. v) Ərkanla (əzalarla) əməl etmək (əlbəttə, şiələr də bu üç şərti qəbul edirlər) . Qeyd etmək lazımdır ki, onların arasında əsaslı fərqlər də vardır. “Şafeilərin əqidələri ümumiyətlə Şimali Afrikada, müəyyən qədər Misirdə, Cənubi Ərəbistanda, Malaya və Seylon müsəlmanları arasında yayılıb.”[3]

**Malikiyyə**. Onlar Malik ibn Ənəs ibn Malikin, yəni İmam Əbu Əbdillah Malik ibn Ənəs ibn Əbi Amir ibn Ürvə Əl-haris ibn Nəmianın ardıcıllarıdır.[4] “Bəyanül-ədyan” kitabının müəllifinin yazdığına görə o, İraqın imamı və “Müvəttəə” kitabının sahibi idi. Onun məzhəbinin Yəməndə daha çox ardıcılları vardır. “Vəfəyatul-əyan” kitabının müəllifi yazır: «O, Mədinənin imamlarından idi. Onu dövrün alimlərindən biri hesab etmişlər. İmam Əbu Əbdillah qiraəti Nafe ibn Əbu Nəimdən, elmi isə Rəbiədən öyrənmişdi. Bu məzhəb ardıcılları ümumi halda Şeyxeynin (Əbu Bəkrlə Ömərin) vilayətinə inanır, Həzrət Əlini (ə) isə dördüncü

---

[1] Həmin mənbə, səh.18

[2] Əmir Əli, “Tarixi siyasi və ictimaiye İslam”, İrəc Rəzzaqi və Məhəmməd Məhdi Heydərpurun tərcümələri, Məşhəd, “Astani Qüds” nəşriyatı, 1371, səh.318

[3] Həmin mənbə, səh.318

[4] Şəhristani, “Əl-miləlu vən-nihəl”, səh.20

xəlifə hesab edirlər[1].

Malik ibn Ənəs İslamın əvvəllərindəki müsəlmanların sözlərinə, əməl və rəftarlarına əhəmiyyət verirdi. Hətta əgər Mədinə əhalisinin ona uyğun əməl etmədiyi bir hədis tapsaydı o da bir söz deməzdi.[2] O, 179-cu h.q ilində Harun Ər-Rəşidin xilafəti dövründə vəfat etmişdir.

**Əşəriyyə**. Əbu Musa Əşərinin nəvələrindən olan Əli ibn İsmail Əşərinin ardıcıllarına deyilir. İbn Xülləkan özünün "Vəfəyat" kitabında bu tayfanın əqidəsi barəsində belə yazır: "Onların bəziləri inanırdılar ki, Qurandakı möcüzələr məqsədin həyata keçirilməsi üçündür. O həm də deyirdi ki, imamət nəsb və təyin edilmə yolu ilə deyil, ixttiyar və ittifaqla həyata keçir. Quranı da qədim hesab edirdi..."[3]

**Hənbəlilər**. Əhməd ibn Hənbəlin ardıcıllarına deyilir. Sonrakı bölmədə onun barəsində geniş şəkildə söhbət olunacaqdır.

## *ƏHLİ-HƏDİSİN TARİXİNƏ BİR BAXIŞ*

Əvvəldə qeyd olunduğu kimi, Əshabi-hədis Hicaz əhli idi. Onların da müqabilində əhli-hədis ilə müxalif olan İranın və İraqın əhli-rəy səhabələri dayanırdı. Bununla belə əshabi-hədis Hicazda qalmamış, tədricən İran və İraqa nüfuz edərək digər qrupların müqabilində özlərini sünnülərin rəsmi nümayəndəsi kimi təqdim edə bilmişlər.

Əhməd ibn Hənbəlin rəhbərliyindən qabaq sünnülər əqidə və üsul məsələləri baxımından eyni fikirdə deyildilər və müxtəlif qruplara bölünmüşdülər. Əhli-hədisin mühəddisləri müxtəlif üsullara tabe idilər, lakin onların arasında mürciə, nasibi, xarici, qədəri, cühəmi və şiə çox idi və hamılıqla əhli-hədis kimi tanınaraq bu ünvan altında müəyyən məqam və mövqeyə malik idilər.[4]

Həqiqətdə əhli-hədis öz daxilində məhdud cərəyanlara şamil olan sünnü məzhəbini vahid bir etiqada malik olan firqə şəklinə saldı.

"Bu cərəyanı təşkil edənlər əsas etibarı ilə ikinci hicri əsrinin ortalarından üçüncü hicri əsrinə qədərki dövrdə Mədinədə və Bağdadda yaşayan bir sıra mühəddislərdən ibarət idi. Onların tanınmış şəxsiyyətlərindən ibn Mübarək (181-ci ildə vəfat edib), Nəim ibn Həmmad Mərvəzi (228-ci ildə vəfat edib), ibn Rahvəyh (238-ci ildə vəfat edib), Osman ibn Səid Darəmi (280-ci ildə vəfat edib) və onların

---

1 Həmin mənbə, səh.20

2 Əbdül-möhsün Mişkatül Dini "İslamda ideoloji istuplar fərqi", "Məcəlleyi ədəbiyyat və ülumi insani", Məşhəd, 2-ci nömrə, 1351-ci il yay, səh.509

3 Şəhristani, "Əl-miləlu vən-nihəl", səh.129

4 Cə`fər Sübhani, "Fərhəngi əqaid və məzahibi İslami", "Nəşri Tövhid", Qum, azərmah, 1371, birinci çap, 1-ci cild, səh.273

hamısından da mühüm Əhməd ibn Hənbəldir (241-ci ildə vəfat edib) . Onların bu firqə barəsində yazdıqları kitablardan "Ərrəddu ələl-cuhəmiyyəti vəz-zənadiqə" və "Kitabus-sünnə"ni qeyd etmək olar.[1]

Bu firqə əqidə və fiqhdə hədisə meyl edir, nəql olunan rəvayətləri qəbul edir, əqlin rolunu hər bir halda inkar edir, rəy ilə zidd mövqedə dayanır və mövcud hədislərdə hər növ irad tutulması ilə müxalif idilər.[2] "Həqiqətdə əhli-hədisin ilkin nəsli fiqhi istinbatlardan da uzaq gəzir və əsas etibarı ilə özlərini "mühəddis" kimi qələmə verirdilər. Bu məsələ Əhməd ibn Hənbəlin barəsində tamamilə doğrudur. Zamanın keçməsi ilə əhli-hədis öz nəzəriyyələrində də Hənbəli oldular. Əlbəttə, əhli-hədis müstəqil bir qrup şəklində yalnız dördüncü əsrə qədər davam gətirə bildi. Beşinci əsrdən etibarən sair sünnü qurpları tərəfindən təzyiqlərə məruz qaldılar. Əşairə, mürciə, hətta mötəzilə də özünə məxsus olan əhli-hədis nəzəriyyələrindən müəyyən qədər ayrılaraq özünə yeni bir sima aldı. Sünnülərin arasındakı çəkişmələr v əsrə qədər əsasən kəlami məsələlərlə əlaqədar idi. Amma tədricən fiqhi yönə malik olan çəkişmələrə çevrildi. Sonralar da İbn Teymiyyə və İbn Qəyyimin şagirdlərindən bir neçəsinin tutduğu yoldan əlavə əhli-hədisin Ərəbistana hakim olduğu son dövrlərə qədər heç kəs onların ifratçı nəzərlərini qəbul etmədi."[3]

III hicri əsrində əhli-hədisin əqidəsində iki məsələ daha çox əhəmiyyət kəsb edirdi: Onların biri hədisləri qeydsiz-şərtsiz qəbul etmək, digəri isə hər növ ictihad olsa belə, əql və şəxsi rəydən uzaq olmaqdır.[4] * Hədislər barəsində də yalnız özlərinin etimad etdikləri mühəddislərin nəql etdikləri rəvayətləri qəbul edirdilər. Şiəliyə, yaxud mötəziləçiliyə azacıq meyli olan rəvayətlərə əsla etimad etmirdilər. "Hənbəlilər bu işdə diqqətli olmaq üçün rical elmində geniş səviyyəli təhqiqata başladılar. Özləri ilə müxalif olanların hamısını "hədislərin zəifliyi", "nəql etmədə zəiflik" və "qondarma olması" ilə müttəhim etdilər. Onlar kufəli ravilərə

---

[1] Vəliyyi-fəqihin həcc və ziyarət işlərindəki nümayəndəliyi, Həmin mənbə, səh.108

[2] Həmin mənbə, səh.110

[3] Həmin mənbə, səh.110

[4] *Sünnülərin arasında əql və fəqahətin ziddinə hərəkatlar mövcud olduğu kimi, şiələrin arasında da bunun oxşarı olmuşdur. "Əxbarilik" nəzəriyyəsi ictihad və fəqahətin müqabilində olan bir məktəb kimi zühur etdi. Onlar Allahın kitabı və Peyğəmbər (s) sünnəsinin zahiri mə`nalarını inkar edir, əql və icmanı höccət bilmir və həm də ictihad və təqlidi haram hesab edirdilər. Əxbarilik Məhəmməd Əmin Əstərabadinin vasitəsilə 10-cu hicri əsrinin əvvəllərində tə`sis olunmuşdur. Əxbarilər də sünnülərin Hənbəli məzhəbi kimi yalnız sünnəni əsil və hökmlərin istixrac olunmasına qabil olan bir mənbə hesab edir və kitab, əql və icma kimi sair mənbələri qəbul etmirdilər.

Seyyid Mirağa Möhsininin "Nəqdi bər əxbarigəri" kitabından, səh.134

həmin meyllərə malik olmasına görə etinasız yanaşır və oranı "Darul-Hərbil-Hədis" adlandırırdılar. Əhli-hədisin digər bir əqidəsi də budur ki, Peyğəmbəri-Əkrəmin (s) səhabələrinin hamısı, heç bir istisna olmadan tam ədalətli hesab olunmalıdır. Onların hamısı adildir və onların heç birinə tənə vurmaq olmaz."[1]

Sonrakı bölmədə Vəhhabiliyin ideoloji rəhbərləri (Əhməd ibn Hənbəl, Əhməd İbn Teymiyyə və sairə...) barəsində söhbət olunacaqdır.

## *VƏHHAB İLƏRİN İDEOLOJİ RƏHBƏRLƏRİ*

## *ƏHMƏD İBN HƏNBƏL (164-241 HİCRİ QƏMƏRİ)*[2]*

Tərcümeyi-halı:

Hənbəli firqəsinin banisi Əbu Əbdillah Əhməd ibn Mhəmməd ibn Hənbəl ibn Hilal Şeybanidir. O, əshabi-hədisin ideoloji rəhbərlərindən sayılır. "O, nəinki əhli-hədisin tutduğu yolu əvvəlkilərdən irs aparmamışdı üstəlik onu bir daha dirçəltmiş, özünün təqdim etdiyi təlimləri ilə onların ideoloji bünövrələrini möhkəmlətməyə çalışmışdır. Buna görə də ondan sonra əshabi-hədis öz fikirlərini əsaslandırmaq üçün hamıdan artıq onun yazı və sözlərini dəlil olaraq gətirmişdir."[3]

Əhməd ibn Hənbəli onun öz şagirdi İbn Teymiyyənin vasitəçiliyi ilə Vəhhabi məzhəbinin rəhbəri və müəyyən qədər sələfilərin mühafizəkar məzhəb və hərəkatına ilham verən bir şəxs hesab etmək olar[4]. Əliəkbər Dehxuda onun əsil-nəsəbi barəsində belə yazır: "Əhməd ibn Məhəmməd ibn Hənbəl ibn Hilal ibn Əsəd ibn İdris ibn Əbdüllah ibn Həyyan ibn Əbdüllah ibn Ənəs ibn Ovf ibn Qasit ibn Mazin ibn Şeyban ibn Zühəl ibn Sələbə ibn Əkabət ibn Səb ibn Əli ibn Bəkr ibn Vail ibn Qasit ibn Hənəb ibn Əqsa ibn Dəmi ibn Cüdeylə ibn Əsəd ibn Rəbiə ibn Nəzar ibn

---

[1] Həmin mənbə, səh.112

[2] *Əhməd ibn Hənbəlin tərcümeyi-halına nəzər yetirdikdə, aydın olur ki o, öz təfəkkürünü elə bir vaxtda təqdim edirdi ki, artıq Abbasi xəlifələri əməvilərin yerinə keçərək qüdrəti əllərinə almışdılar. "Təhqiq dər tarixi fəlsəfə və məzahibi Əhli-sünnə" kitabının müəllifi bu dövrün ictimai və mədəni şəraiti ilə əlaqədar qələmə aldığı kitabının 184-185-ci səhifələrində belə yazır: "Abbasi xilafətinin başlanması ilə İslam mədəniyyətində böyük bir hərəkat və dərin dəyişiklik yarandı Müsəlmanların ideoloji və ictimai axarlarında böyük təkamül baş verdi. Müxtəlif İslam ölkələrində, xüsusilə İraqda, Misirdə, İranda hər bir əqidəvi, fiqhi, tarixi mövzularda mütəkəllimlər, fəqihlər, tarixçilər və müxtəlif məsələlərdə təhqiqat apardılar. Nəticədə İslam ölkələrində müxtəlif fiqhi məzhəblər və təriqətlər yarandı.

[3] "Böyük İslam Enskilopediyası", Kazim Musəvi Bocnurdinin nəzarəti altında, Tehran, 1373, 6-cı cild, səh.718

[4] "Danişnameyi İran və İslam", Ehsan Yarşatirin nəzarəti altında, "Bonqahi tərcümə və kitab" nəşriyyəsi, Tehran, 1357, 9-cu cild, səh.1240

Məhəmməd ibn İrfan əş-Şeybani əl-Mərvəziyyul-əsl Əl-mükənna ibn Əbiəbdillah..."[1]

Milliyyətcə ərəb olan Əhməd ibn Hənbəl İraq və Xorasanın fəthində mühüm rol oynayan Bənu-Şeyban qəbiləsindən (Rəbieyi Ədnani) idi. Onun nəsli əvvəlcə Bəsrədə yaşamış və sonra onun əcdadı Hənbəl Hilal Mərvə getmişdi. Əhmədin cəddə-babası əməvilərin xilafətində Sərəxsin valisi təyin edilmişdi və bəni-Abbasın xilafət iddiaçılarından birincisi idi.

Əhməd ibn Hənbəl 164-cü h.q ilinin rəbiül-əvvəl ayında (780-cı miladi ilində), atası Məhəmməd ibn Hənbəl (o Xorasan ordusunun tərkibində idi) Bağdada köçəndən sonra dünyaya gəlmiş[2] və orada da qalmışdır. "O, 179-cu ilin axırlarında əvvəlcə Əbu Yusifin, sonra Həşimin (Həşim ibn Bəşir) yanında hədis dinləmiş və elə həmin ildə də Əli ibn Haşim ibn Bəriddən də hədis öyrənmişdir."[3]

Əhməd ibn Hənbəl çox səfər edən bir fəqih idi. O, elm və hədis öyrənmək üçün Şama, Hicaza, Yəmənə, Kufəyə və Bəsrəyə səfərlər edərək çoxlu hədis toplamış, onları "Müsnədi-Əhməd ibn Hənbəl" adlı bir kitab şəklinə salmışdır."[4] Əhmədin fiqhdə və hədisdə çoxlu ustadları olmuşdur. Belə ki, "İbn Xülləkan onu imam Şafeinin xüsusi tələbələrindən hesab edirdi."[5]

O, özünün ilk elmi səfərində Kufəyə gedərək Vəki ibn Cərrahın yanında hədis öyrəndi. Sonra Bəsrədə Mötəmər ibn Süleymandan və Yəhya İbn Səud Qəttandan, Vasitdə isə Yəzid ibn Harundan hədis öyrəndi. 187-ci h.q ilində Məkkəyə səfər edib Süfyan ibn Üyəynədən, 199-cu ildə isə Əbdürrəzzaq ibn Həmmam Sənaninin yanında (Səna şəhərində) hədis öyrəndi. O, Şama və Cəzirəyə də səfərlər etmiş (209-cu h.q) və həmin ölkələrin məşhur hədis alimlərindən elm öyrənmişdi.[6] Amma İbn Teymiyyənin "Minhacüs-sünnə" kitabında qeyd etdiyi kimi, onun fiqhi təlimlərinin əsası "hədis məktəbi və Hicazdan idi."[7]

Əhməd ibn Hənbəl öz elmi səfərləri, fiqh və hədisin öyrənilməsində göstərdiyi səylər nəticəsində çox erkən fiqh və hədis tədrisində bir mərcə kimi tanındı. Xəbərlərdə qeyd olunduğu kimi o, hələ Süfyan ibn Üyeynənin sağlığında Məkkədə fiqh və hədis öyrənir və fətva verirdi.

---

[1] Dehxuda Əli, "Lüğətnamə", İntişarati daneşgahe Tehran, 1325 hicri-qəməri, 1-ci çap, səh.1291

[2] "Danişnameyi İran və İslam", 9-cu cild, səh.1240

[3] "Böyük İslam Enskilopediyası", 3-ci cild, səh.719

[4] Məşkur, Məhəmməd Cavad, "Tarixi şiə və firqəhayi islami", Tehran, 1362, səh.102

[5] Fəzai, Yusif, "Münazirati imam Fəxr Razi", səh.187

[6] "Böyük İslam Enskilopediyası", 6-cı cild, səh.718-719

[7] Ehsan Yarşatir, Həmin mənbə, səh.124

Bununla belə demişlər ki, o 40 yaşından əvvəl fətva verməmişdir.[1]

"Mühnə" hadisəsini Əhməd ibn Hənbəlin həyatında dönüş nöqtəsi saymaq olar. Belə ki, bəzən tərifləyənlər onun barəsində həddi aşmışlar. "Mühnə hadisələri barəsində verilən tarixi məlumatlara əsasən Məmun 218-ci h.q ilində Rüqqədən İshaq ibn İbrahimə bir məktub yazaraq ona əmr etdi ki, qazilərin və mühəddislərin Quranın məxluq olması ilə əlaqədar əqidələrini yoxlasın."[2] İbn Hənbəl Quranın məxluq olmasına etiqadı qəbul etməkdən şiddətlə imtina edir və onu sünnə ilə müxalif sayırdı.[3] O inanırdı ki, Qurandakı hərflər və səslər hazırkı formasında əzəldən sabit olmuş və Allahın zatı ilə qaim olmuşdur.[4] Beləliklə də o, Quranın qədim olmasına və məxluq olmamasına inanırdı. Bu xəbər Tusda Məmuna çatdıqda göstəriş verdi ki, ibn Hənbəli bu əqidə ilə müxalif olan Məhəmməd ibn Nuh ilə birlikdə onun hüzuruna göndərsinlər. Əhməd ibn Hənbəli zəncirə bağlayıb qaytardılar, lakin bir az sonra Rüqqədə Məmunun ölüm xəbəri gəlib çatdı. Yenidən hər ikisini Bağdada qaytardılar. İbn Nuh yol əsnasında (Mərvdə), ibn Hənbəl isə Bağdada çatdıqdan sonra əvvəlcə Yasirəyyədə, sonra Darül-İmarədə, daha sonra isə ümumi zindanda həbs edildi.[5]

Sonrakı xəlifə Mötəsim qərara almışdı ki, əqaid təftişçiliyindən əl çəksin. Lakin deyilənlərə görə, mötəzili qazisi olan Əhməd ibn Davud ona xəbərdarlıq etmişdi ki, rəsmi şəkildə qəbul olunan vəziyyətdən dönməsi xilafətə yaraşan iş deyildir.[6]

Əhməd, Mötəsimin dövründə də öz əqidəsini qoruyub saxlamaq üçün çox israr edirdi. Nəhayət 219-cu h.q ilində xəlifə onu üç gün müddətində camaatın hüzurunda öz əqidəsini tərk etməyə məcbur etdi. Bunun təsiri olmadığından ona şallaq vurulmasını əmr etdi. İki il həbs edildikdən sonra öz evinə qayıtmaq icazəsi verildi." Həbsdən xilas olduqdan sonra xəlifənin göstərişi ilə aşkar şəkildə hədis söyləməsi və elm tədris etməsi qadağan olundu. Yalnız 227-ci ildə Mötəsimin vəfatından sonra aşkarda qısa müddətli hədis yığıncaqlarını bərqərar etdi. Bu da tez bir zamanda bağlandı."[7]

Vasiqin dövründə Quranın məxluq olması əqidəsi barəsində bir kəs

---

[1] "Böyük İslam Enskilopediyası", 6-cı cild, səh.719

[2] Həmin mənbə, səh.719

[3] Ehsan Yarşatir, Həmin mənbə, səh.1240

[4] Fəzai Yusif, "Münazirati imam Fəxr Razi", səh.203

[5] Ehsan Yarşatir, Həmin mənbə, səh.1240

[6] Həmin mənbə, səh.1241

[7] "Böyük İslam Enskilopediyası", 6-cı cild, səh.720

Əhmədə toxunmadı. Amma buna baxmayaraq xəlifənin işarəsi ilə ömrünün axırına qədər gizlin şəkildə yaşadı. Məşhur ərəb yazıçısı Əmir Əli ibn Hənbəlin Məmunun və Mötəsimin xilafəti dövründəki vəziyyətini belə qeyd edir:

"...İbn Hənbəl Məmun və onun canişini Mötəsimin hökuməti dövründə... (hər ikisi mötəziləçi idi) məşhurlaşdı. İbn Hənbəlin ifratçı təəssübləri və bu barədə göstərdiyi səylər xalq kütlələrinin hakimlər əleyhinə təəssübünü şöləcləndirdi. Bu da onun hakimlərlə münasibətini gərginləşdirdi... İbn Hənbəl və onun təəssübçü və donuq ayini Məmunun mötəzilə firqəsinin islam imperiyasının hər yerində yaymaqda müvəffəqiyyət əldə etməməsinə, eləcə də əzab-əziyyətlə işgəncələrin yenidən təkrarlanmasına səbəb oldu ki, bu da İslam dünyasını müsəlmanların qanının rəngi ilə boyadı."[1]

Mütəvəkkilin xilafəti ilə eyni zamanda 232-ci h.q ilində "Əshabi-hədisin vəziyyəti birdən-birə dəyişildi və xəlifənin onları himayə edib mötəziləçilərlə mübarizə aparması nəticəsində Əhməd də xilafət aparatında izzətə malik oldu."[2]

Bağdadın intizam rəisi İshaq ibn İbrahimin ölümündən sonra yeni xəlifə ilə Əhməd ibn Hənbəlin yaxınlaşması üçün şərait yarandı. Əhməd ibn Əbudüvad işdən çıxarıldıqdan sonra əhli-hədisə meydan verilməsinə fürsət yarandı.

Mütəvəkkil 238-ci hicri ilində ibn Hənbəli Samirraya dəvət etdi. Zahirən o nəzərə almışdı ki, ibn Hənbəli öz övladı Mötəzzə hədis ustadı seçsin. Amma bəziləri demişlər ki, Samirraya daxil olduqdan sonra yaşının çox və xəstə olduğuna görə öz istəyi ilə xidmətdən götürüldü. "İbn Hənbəlin Mütəvəkkil tərəfindən onun üçün hazırlanan güzəştlər qarşısında etinasızlığı nəticəsində xəlifə Bağdad yolunu onun üçün açmağa razı oldu."[3]

Əslində isə Mütəvəkkil əvvəlki xəlifələrin əksinə olaraq hənbəliləri müdafiə etdi. Onları razı salmaq üçün lazım olan tədbirləri gördü. O, şiələri kütləvi şəkildə qətlə yetirməkdən əlavə, İmam Hüseynin (ə) qəbrinin ziyarətini onlara qadağan etdi və Kərbəlanın şumlanması və üzərinə su buraxılması əmrini verdi. Bu əqidə də məhz hal-hazırda Səudiyyə Ərəbistanında Vəhhabilərin icra etdikləri işdir. Onlar bu əqidənin ardıcılları və müdafiəçiləridir.

Ustad Cəfər Sübhani Abbasi xəlifələrindən olan Mütəvəkkilin

---

[1] Əmir Əli, Həmin mənbə, səh.318

[2] "Böyük İslam Enskilopediyası", 6-cı cild, səh.720

[3] Həmin mənbə, səh.720

hənbəliləri himayə etməsini belə qeyd edir: "...Mütəvəkkilin əsrində Əhmədin etiqadiyyat barəsində imaməti (rəhbərliyi) əhli-hədisin sair firqələrinin aradan qalxması və onların yalnız adlarının və nişanələrinin qalmasına səbəb oldu. Xüsusilə Mütəvəkkildən sonrakı Abbasi xəlifələri Əhməd ibn Hənbəl və onun şagirdlərini himayə etməkdə heç nəyi əsirgəmir, Əhmədin əqidə və hökmlərdə dediklərini qeydsiz-şərtsiz qəbul edirdilər. Təbii olaraq həyat və məişətləri əksər hallarda hökumət tərəfindən təmin olunan mühəddislərin vəziyyətləri ağırlaşdı. Öz adətlərini tərk etmək məcburiyyətində qaldılar və əqidələrini gizlətdiklərinə görə tədricən məhv oldular."[1]

Əhməd ibn Hənbəl 77 il ömür sürdükdən sonra 241-ci h.q ilinin rəbiül-əvvəl ayının 12-də doqquz günlük xəstəlikdən sonra Bağdadda öldü. Onun cəsədini "Babi-hərb" qəbiristanlığında torpağa tapşırdılar. "Böyük İslam Enskilopediyası" kitabında Əhmədin övladları barəsində belə qeyd olunur: "Əhmədin bir neçə övladı var idi. Onun özündən nəql olunanlara əsasən təqribən 40 yaşında evlənmişdi. Birinci həyat yoldaşı Fəzlin qızı Əbasə, Saleh adlı bir övlad dünyaya gətirdi. Onun vəfatından sonra Əhməd Reyhanə adlı bir qadınla evləndi ki, ondan da Əbdüllah dünyaya gəldi. Reyhanənin vəfatından sonra da Əhməd Hüsn adlı bir kənizdən Zeynəb, Həsən, Məhəmməd və Səid kimi övladlara sahib oldu. Əbülfəzl Saleh 203-cü ildə dünyaya gəldi və İsfəhanın qazisi oldu və 265-ci ildə elə həmin yerdə vəfat etdi. O, öz atasından çoxlu hədis eşitmişdi. Atasının çoxlu hədislərini rəvayət edən Əbu Əbdürəhman Əbdüllah da böyük və məşhur mühəddislərdən sayılırdı. O, 212-ci h.q ilində dünyaya gəlmiş və 290-cı ildə dünyadan getmişdi. Əhmədin ölümündən təqribən 50 gün qabaq dünyaya gələn Səid də 290-cı ildən qabaq vəfat etdi. O, bir müddət Kufənin qazisi olmuşdu."[2] "Bu zaman atasının əqli həyatı ilə yaxından tanış olan Saleh və Əbdüllah Hənbəli məzhəbi adlı cəmiyyətin bünövrəsini qoyan ilk şəxslərdən hesab olunur."[3]

Əhməd ibn Hənbəlin həyat tarixi sübut edir ki, o bacarıqlı bir mühəddis idi və təqribən otuz mindən artıq hədisi əhatə edən "Müsnəd" kitabını öz əsrində yazmışdır. O öz əsrində əqlə daha artıq yer verən mötəziləçilərin müqabilində bir dağ kimi dayandı və öz əqidəsini, yəni Quranın məxluq olmamasını isbat etmək üçün çoxlu zülmlərə və işgəncələrə düçar oldu. Əhmədin öz əqidəsi yolunda göstərdiyi müqavimət camaatın duyğularını, emosiyalarını canlandırdı, tədricən sünnülərin arasında

---

[1] Cə`fər Sübhani, "Fərhəngi əqaid və məzahibi İslami", 1-ci cild, səh.276
[2] "Böyük İslam Enskilopediyası", 6-cı cild, səh.720
[3] Ehsan Yarşatir, Həmin mənbə, səh.1242

etiqadi məsələlərində imamət məqamına çatdı və onun öz nəzərində mötəbər sayılan rəvayətlər əsasında sünnülərin əqidələrini yaya bildi. Bünövrəsini qoyduğu məktəb onun öz adı ilə–"Hənbəli" məzhəbi kimi tanındı. Bu məktəb 5 əsas üzərində qurulmuşdu: "Quran, sünnə, səhabələrin fətvaları, Quran və sünnə ilə müvafiq olduğu halda bəzi səhabələrin sözləri. Eləcə də bütün mürsəl və zəif rəvayətlər."[1] Can Nas Hənbəli məktəbini yerdə qalan üç məktəbdən, yəni Hənəfi, Maliki və Şafei məktəbindən "daha zahir", "daha quru" təqdim etmişdir.[2]

Tədqiqatçı alimlərin bəyan etdiklərinə əsasən, Əhməd ibn Hənbəl yalnız bir mühəddis idi. O, fiqhi istinbatlardan uzaq gəzirdi. "Deməli, o, istinbat nəzərindən Əbu Hənifənin və Şafeinin səviyyəsində deyildi ki, ictihad nəticəsində üsuldan_fürunu istixrac edə bilsin. Şübhəsiz ki, Əhməd fətva verib halal-haramı bəyan etməkdən çəkinirdi. Əgər zərurət tələb etsəydi, yalnız açıq-aşkar hökmün mövcud olduğu hallarda fətva verirdi."[3]

"Fərhəngi əqaid və məzahibi İslami" kitabının müəllifi bu barədə belə yazır: "Zəhəbinin "Siyərü əlamin-nübəla" kitabındakı geniş bəyanından məlum olur ki, Əhməd bir fiqh yazmamış dünyadan getmişdi. Onun şagirdlərindən biri olan Əbu Bəkr Xəllal Əhmədin nəzər və fətvalarını bir yerə toplamışdı. Əbu Bəkr onun fətvalarını ayırd etməkdə onun səhih rəvayətlər və onların sənədləri barəsindəki sözlərinə müraciət edərək, bu məsələ barəsindəki nəzəriyyəsini əldə etdi. O, bu məqsədlə müxtəlif məntəqələrə səfər edərək Əhmədin tanışlarından yüz nəfərlə görüşdü. Onun sahabə, köməçi və dostlarından müəyyən mətləbləri öyrəndi və hamısını tərtibə saldı. Sonra hər biri 3 cilddə tənzim olunan "Elm", "İləl", "Sünnə" kitablarını yazdı."[4]

Etiraf etmək lazımdır ki, "Əhmədin vəfatından sonra onun məzhəbinin yayılmasının iki əsas amili olmuşdur: İbn Hənbəlin xilafət tərəfindən işgəncələrə məruz qalmasından əlavə, mötəzilə ilə müxalifətçiliyi və əshabi-hədisə tərafdar olması onun başqalarından daha artıq diqqət mərkəzində olmasına səbəb oldu. Buna görə də onun yaratdığı məktəb sünnü müsəlmanları içərisində avam kütlələr tərəfindən qəbul olundu. Sonradan Abbasi xəlifələri də bunu qəbul edərək İslam ölkələrində

---

[1] Mübəlliği Abadani, Əbdüllah. "Tarixi ədyan və məzahibi cahan", "Məntiq" (Sina) İntişaratı, Qum, yay, 1373, 1-ci çap, 3-cü cild, səh.1193

[2] Nas Can, "Tarixi camieyi ədyan", Əliəsğər Hikmətin tərcüməsi, "İslam inqilabı İntişaratı", Tehran, 1370, 4-cü çap, səh.754

[3] Sübhani, Cə`fər, "Fərhəngi əqaid və məzahibi İslami", 1-ci cild, səh.277

[4] Həmin mənbə, səh.277

yaydılar. Əhmədin vəfatından sonra onun fiqhi məzhəbinin yayılmasının iki səbəbinin birincisi onun şagirdləri və tərəfdarları, digəri isə onun İslam fiqh rəvayətlərini və hədisləri ehtiva edən "Əl-Müsnəd" adlı mühüm kitabıdır."[1]

### *ƏHMƏD İBN HƏNBƏLİN ELMİ VƏ İCTİMAİ MÖVQEYİ*

Əhməd ibn Hənbəl öz müasiri olan böyük alimlərin çoxundan bəhrələnmişdir. Əvvəldə onların bəzilərinin adını qeyd etdik. "Əhmədin, adları bundan əvvəl qeyd olunmayan ən qədim ustadlarından bəziləri: Məhəmməd ibn Həmid Yəşkuri, Ziyad ibn Əbdüllah Bəkkayi, İbadullah ibn Əvamm, Məhəmməd ibn Sübeyh ibn Səmmak və Yusif ibn Yəqub Macişun."[2]

Onun şagirdləri və raviləri də çoxdur. Onlardan Əhmədin fikir və əsərlərini sonrakı nəsillərə nəql edənlərdən ən mühümlərinin adlarını qeyd edirik: "Əbul Abbas Əhməd ibn Cəfər İstəxri, Əhməd ibn Əbixəsimə, Züheyr ibn Hərb, Əbuyəla Musili, Əbu Bəkr Əhməd ibn Məhəmməd ibn Həccac Məzudi, Əbu Bəkr Əsrəm, Əbul Abbas Sələb, İbrahim Hərbi, Əbu İshaq İbrahim ibn Hani Nişapuri və sair."[3]

Əhməd ibn Hənbəl hədis elmində və bununla bağlı sair elmlərdə yüksək məqama malik idi. "Müsnəd" adlı kitabı və sair əsərlərinin araşdırılması onun bu barədəki mövqeyini göstərə bilər. Əbu Zərə Razinin yazdığına görə o, minlərlə hədis əzbərləmişdi. Əhmədin özündən də rəvayət olunur ki, o bu qədər hədisi əli ilə yazmışdı. Hələ bu, başqalarının onun üçün yazdığı hədislərdən tamamilə ayrı olan hədislərdir... Əhməd rical elminə, ravilərin tanınmasına, həmçinin hədisin səbəblərinə bələd idi. Xüsusilə onun rical elmindəki rəyləri həmişə ricalşünasların diqqət mərkəzində olmuşdur. O, qiraət elmində də dərin biliyə malik idi"[4] .

Əhmədin şagirdləri və ardıcılları onun elmi məqamı və əxlaqi

---

[1] Fəzai Yusif, "Münazirati imam Fəxr Razi", səh.191

[2] "Böyük İslam Enskilopediyası", 6-cı cild, səh.721

[3] Həmin mənbə

[4] Həmin mənbə

xüsusiyyətləri barəsində çoxlu mətləblər nəql etmişlər. Onun yaxın adamları və onunla eyni səviyyədə olan böyük dini şəxsiyyətlərdən də müxtəlif cür təriflər nəql olunmuşdur. Bu təriflərin hamısı əksər hallarda mübaliğə və şişirtmə ilə yanaşı olmuşdur. Belə ki, "Böyük İslam Enskilopediyası" kitabında bu barədə belə qeyd olunur: "Aydındır ki, bu cür hekayələrin yazılıb yayılmasında və nəql olunmasında dini məqsədlər və məzhəbi təəssüblər çox təsir qoymuşdur. Əhmədin "Möhnə" hadisəsində Quranın məxluq olmasını qəbul etmək qarşısında göstərdiyi imtina ilə əlaqədar məruz qaldığı əzab-əziyyətlər vasitəsi ilə yaranan sevimliliyi və hədis səhabələri arasında qazandığı məhəbbət təbii bir iş idi. Xüsusilə o, bəzilərinin yanında əsrlər boyu həmin ehtirama layiq görülməmişdi. Hənbəlilər onun məqam və qüdrətinə təzim etmək üçün bu cür rəvayətləri quraşdırırdılar."[1]

## *ƏHMƏD İBN HƏNBƏLİN ETİQADLARI*

Əhməd ibn Hənbəl barəsində müxtəlif kitablarda yaradılan təsəvvür adətən bu mehvər əsasında cərəyan edir: onu sünnəyə meyl edən, fəqahət və ictihadın əksinə olan bir mühəddis hesab etmişlər. O, rəyə istinad etməmiş, yalnız Allahın kitabına və hədislərə istinad etmişdir. Hədisə istinad edərkən çox şişirtməyə yol verdiyindən İslamın böyük şəxsiyyətlərindən bəziləri, o cümlədən, Məhəmməd ibn Cərir Təbəri, Məhəmməd ibn İshaq Ənnədim onu İslam müctehidlərindən deyil, hədis imamlarından hesab etmişlər. Amma bunu heç vaxt unutmaq olmaz ki, İbn Hənbəl heç olmazsa hədis məsələsi çərçivəsində müstəqil bir müctehid olmuş və İbn Teymiyyənin dediyinə görə böyük hədis toplumu, eləcə də ustadlarından öyrəndiyi çoxlu rəylərin arasından özü üçün xüsusi bir yol seçmişdir.[2]

İbn Hənbəl görkəmli bir mühəddis və əshabi-hədis təriqətinin ardıcılı kimi, Quran ayələri və Peyğəmbərə (s) mənsub edilən hədislər üçün hər hansı bir təvil (yozum) ilə müxalif idi. Rəy səhabələrinin böyükləri ilə müxalifətçilik edirdi.

Məlum olur ki, Hənbəli məzhəbi sünnülərin sair məzhəbləri ilə, xüsusilə Maliki məzhəbi ilə müqayisədə hədis ilə əlaqədar daha ciddi təəssüblərə malik olmuşdur. Məşkur bu barədə belə yazır: "Hənbəli məzhəbi 5 prinsip üzərində möhkəmlənmişdir: 1.Allahın kitabı. 2.Sünnə. 3.Peyğəmbəri-Əkrəm (s) səhabələrinin fətvaları. 4.Allahın kitabı və sünnə ilə müvafiq olduğu təqdirdə bəzi sahabələrin sözləri. 5.Bütün

[1] Həmin mənbə, səh.722
[2] Ehsan Yarişatir, Həmin mənbə, səh.1242-1243

mürsəl və zəif hədislər."[1]

İbn Hənbəl Kufənin, Bağdadın, Şamın və sair İslam məntəqələrinin hədis sahabələrini münhərif və azğın adlandıranlarla düşmənçilik edir, cühəmiyyə, mötəzilə, qədəriyyə və şiələrlə daha artıq mübarizə aparırdı. Həqiqətdə Əhməd və onun etiqadiyyatı "əshabi-hədisin bu qruplarla müxalifətlərinin tarixində dönüş nöqtəsi hesab olunur."[2]

Əhməd Peyğəmbəri-Əkrəm (s) sünnəsinə daha artıq əhəmiyyət verirdi. Onun ideoloji əsaslarını Qurandan sonra Peyğəmbəri-Əkrəm (s) sünnəsi, səhabə və tabeinlərin sözləri hesab etmək olar. O, sünnə ilə müxalifəti bidət adlandırır. Həvayi-nəfs və bidət əhli ilə müxalifətçilik edir, kəlam elmindəki elmi mübahisələrə də qarşı çıxırdı.[3]

Əhməd ibn Hənbəlin bəzi əqidələrini "Böyük İslam Enskilopediyası" kitabından nəql edirik: "Məhəmməd ibn Himyər Əndərabinin nəql etdiyinə görə, Əhməd sünnə və cəmaət əhlindən olan möminin xüsusiyyətlərini belə dəyərləndirir ki, mömin şəxs gərək Allahın yeganəliyinə, Peyğəmbərin (s) risalətinə iman gətirsin, ilahi peyğəmbərlərin dəvət etdikləri şeylərə inansın. Peyğəmbərin (s) bütün səhabələrinə ehtiram qoyub fəzilətlərinə inansın, onların arasında baş verən ixtilaf və münaqişələrlə əlaqədar heç bir söz deməsin, cümə və camaat namazını hər bir əmirlə – facir və günahkar olsa belə, qılsın. Mömin şəxs Quranı Allahın kəlamı və qeyri-məxluq hesab etməli və inanmalıdır ki, iman sözdən və əməldən ibarətdir, artıb azalmağa da qabildir. (Mömin) inanmalıdır ki, cənnət əhli qiyamətdə Pərvərdigarı görəcək.

(Əhməd Müsəddəd ibn Müsərhədə yazdığı risaləsində mühüm məsələlərə işarə edir və, o cümlədən, inanırdı ki, ) rafizilər, yəni Əlini (ə) Əbubəkrdən fəzilətli hesab edənlər, eləcə də Əlinin (ə) İslamı Əbubəkrdən qabaq qəbul etdiyinə inananlar Allahın kitabı və Peyğəmbəri-Əkrəm (s) sünnəsi ilə müxalifət etmişdir... Səhabələrdən birinin digərindən üstün olmasında yalnız bunu demək olar ki, onların arasında Əbubəkr, Ömər və Osman biri digərindən sonra ən fəzilətlidirlər." O, Həzrət Əlinin (ə) fəziləti barəsində isə sukut etmişdir. Çünki, Əbdüllah ibn Ömərdən rəvayət olunan hədisə əsasən Peyğəmbərin (s) dövründə ümmətin ən fəzilətlisi Əbubəkr, ondan sonra Ömər, ondan sonra isə Osman idi. Bu rəvayətdə Həzrət Əlinin (ə) adı çəkilməmişdir. Onun nəzərinə görə Peyğəmbəri-Əkrəm (s) sünnəsinə inanmaq müsəlmanların imamlarına itaət etməyi gərəkli edir və mömin

[1] Məşkur, Həmin mənbə, səh.104
[2] "Böyük İslam Enskilopediyası", 6-cı cild, səh.722
[3] Həmin mənbə

şəxs hədis səhabələrinin tutduğu yola inanmalıdır. O, deyir: "Hər kəs xəlifə, yaxud möminlərin əmiri olsa, camaat da onun hakimiyyəti barədə yekdil fikirdə olsalar, yaxud zorla və qılınc gücünə xilafətə çatsa ümmət ona itaət etməlidir. Ona itaət etmək sünnətdir. Belə bir əmir əgər günahkar da olsa onunla çiyin-çiyinə döyüşmək və cümə namazı qılmaq lazımdır." Əhməd təkid edirdi ki, hər kəs xəlifənin əleyhinə qiyam etsə müsəlmanların birliyini pozmuşdur və belə bir şəxs cahiliyyət ölümü ilə öləcəkdir... (Bundan əlavə) Əhməd Quranın və hədisin nəssinə xüsusi diqqət yetirir və bu xüsusda təvil və yozumu caiz hesab etmirdi..."[1]

Şübhəsiz, Əhməd dini işlərlə əlaqədar ciddi təəssübkeş və dünyəvi işlərdə isə nisbətən mülayim idi.

## *İBN HƏNBƏLİN ƏSƏRLƏRİ*

Əbu Hənifənin və Şafeinin əksinə olaraq, Əhməd üsuli və fiqhi məsələlərin yazılmasını dini baxımdan caiz hesab etmir, yalnız hədis yazılmasını mübah bilirdi. Onun kitab yazılması barədə nəzəri bir o qədər də müsbət deyildi. Öz ardıcıllarını da onun fətvalarını və müxtəlif məsələlər barəsində suallara verdiyi cavabları yazmaqdan çəkindirirdi. Bununla belə hədis, əqaid, Quran və rical elmində müxtəlif əsərlər yazmışdır. Çoxları "Əhməd ibn Hənbəlin məsələləri" adı altında fiqh və əqaid məsələlərindəki fətva və rəylərini yazmışlar.[2] Əhmədin ən məşhur kitabı "Müsnəd" kitabıdır. İbn Cozinin dediyinə görə bu kitab otuz min hədisi əhatə edir. Əmədin özü də bu kitaba müstəsna əhəmiyyət verirdi. Əmədin çap olunan və əsas etibarı ilə öz oğlu Əbdüllahın rəvayəti əsasında yazılan əsərləri aşağıdakılardan ibarətdir:

1.Əhkamun-nisa
2.Əl-əsami vəl-kuna
3.Əl-əşribə
4.Ər-rədu ələl-cühəmiyyə
5.Əz-zuhd
6.Əs-səlat
7.Əl-iləlu və mərifətür-rical
8.Fəzailüs-səhabə
9.Əlvərə[3]

---

[1] "Böyük İslam Enskilopediyası", səh.722-723
[2] Həmin mənbə, 6-cı cild, səh.624
[3] Həmin mənbə

## *ƏHMƏD İBN HƏNBƏLİN FİQHİ*

## *ƏHMƏD İBN HƏNBƏLİN ÜSULİ-FİQHİ*

Şafeinin əksinə olaraq Əhməd ibn Hənbəl üsuli-fiqh elmində heç bir kitab yazmamışdır. Ondan sonra başqa üslubda yazılan məktəbin, eləcə də başqa əsərlərinin də onun təfəkkür tərzinin dəqiq göstəricisi olmasını iddia etmək olmaz. Buna əsasən, "onun fiqhi nəzəriyyələri barədə ümumi bir görüş əldə etməyin yeganə yolu şagirdlərindən nəql olunan fikirləri təhlil etməkdir."[1]

Aydındır ki, Əhmədin şagirdlərinin ondan nəql etdikləri məsələlər hənbəlilərin sonrakı nəsillərinin əsərlərində çap olunmuşdur. Əhməd ibn Hənbəldən müxtəlif məsələlər barəsində bir-biri ilə təzadlı olan rəylər nəql olunmuşdur və bu məsələ də Əhməd ibn Hənbəlin öz nəzəriyyələri ilə hənbəli fiqhi arasında gözə çarpan fərqləri göstərə bilər. Əhmədin fiqhi və Hənbəli fiqhi çərçivəsində Əbu Yəla ibn Fərra, Əbul-Xəttab Kəluzani, İbn Teymiyyə və İbn Qəyyim Coziyyə kimi alimlər təhqiqat aparmışlar. Buna baxmayaraq, Əbu Hənifə, Malik və Şafei fiqhinin əksinə olaraq Əhmədin fiqhinin əsas bünövrəsi barəsində bir neçə rəyin arasından qəbul olunası bir təhlil əldə etmək çox çətindir.[2]

### *1. NƏQLİ DƏLİLLƏR*

**a) Kitab.**

"Əhməd ibn Hənbəlin fiqhində sünnə, Quranın bəyanedicisi kimi əsaslı təfəkkür olaraq daha artıq təkidlə irəli çəkilir. O, "Ərrəddu əla mən əxəzə bizahiril-Quran və tərəkəs-sünnə" adlı əsərində Peyğəmbəri-Əkrəm (s) sünnəsini Quranın zahir və batini, ümum və xüsusu, nasix və mənsuxundan Allahın əsas məqsədinin bəyanedicisi hesab etmiş və bunun ardınca Peyğəmbərə (s) itaət etməyin vacib olduğunu göstərən Quran ayələrini qeyd etmişdir."[3]

**b) Sünnə.**

"Peyğəmbəri-Əkrəm (s) sünnəsinə itaət etmək əshabi-hədisin fiqhində ümumi və Əhmədin fiqhində xüsusi şəkildə yüksək məqama malikdir. Həqiqətdə bu məktəb ardıcılları çox hallarda hədisi öz rəylərindən irəli keçirdiklərinə görə "əshabi-hədis" adı ilə məşhurlaşmışlar. Əhməd ibn Hənbəlin risaləsində qeyd olunur ki: "Bizim nəzərimizdə sünnə Allah Rəsulunun əsəridir..." "Sünnədə qiyasa və təmsilə yer yoxdur, əql və həva (nəfsin istəyi) ilə dərk olunmaz. Əksinə bu, ona itaət etmək və

[1] Həmin mənbə, 6-cı cild, səh.728
[2] Həmin mənbə
[3] Həmin mənbə

həvanı tərk etməkdən başqa bir şey deyildir."[1]

**v) Səhabə və tabeinlərin rəyi.**

"Müxtəlif mənbələrdə Allahın kitabı və Peyğəmbərin (s) sünnəsindən sonra səhabələrin nəzəri Əhməd ibn Hənbəlin etimad etdiyi dəlillər sırasında qeyd olunur. O, səhabələrin nəzərini qiyas və rəydən irəli hesab edir. Əgər Əhməd səhabələrin hamısından, yaxud təklikdə birindən hər hansı bir hökmü tapsaydı və onun qarşısında səhabədən bir müxalif tapmasaydı bu halda onu itaət edilməsi lazım olan hökm hesab edirdi. Səhabələrin ixtilaf etdiyi hallarda isə bəzi hənbəli alimlərinin dediyinə görə Əhməd Allahın kitabına və Peyğəmbər (s.ə.v.v) sünnəsinə ən yaxın olan nəzəriyyəni seçir və səhabələrin nəzəriyyələrindən xaricə çıxmırdı. Hansının seçilməsinin çətin olduğu halda isə, heç birinə üstünlük vermədən hər iki nəzəriyyəni irəli çəkirdi. Əhmədin ehtiyatlı davranması hətta bir səhabədən iki müxtəlif rəvayət nəql olunduğu halda belə, gözə çarpır. İbn Qəyyim inanır ki, Əhməd ibn Hənbəl səhabələrin ixtilaflı olduğu halda dörd xəlifənin nəzərini sair səhabələrdən üstün hesab edirdi."[2]

**q) İcma.**

Ümumiyyətlə, mövcud məlumatlara əsasən Əhməd ibn Hənbəlin səhabə və tabeinin icma və fikir birliyindən necə bəhrələnməsini belə bəyan etmək olar: Səhabələrin icması ixtilaf barədə agahlığın olmaması mənasına götürüldükdə Əhmədin nəzərində buna görö mötəbər sayılır ki, səhabənin nəzəri höccətdir, nəinki icma qeyd olunan mənada səhabənin sözünə höcciyyət vermiş olsun. Amma tabein və onlardan sonrakı nəsillərə gəldikdə isə, belə demək olar ki, Əhməd ibn Hənbəlin tutduğu üslub o zaman əshabi-hədisin fəqihlərinin arasında mövcud olan üslubla əşhər (ən məşhur) nəzəriyyəyə tabe olmaq idi. Yalnız "Qərineyi sarifə" mövcud olan hal istisna olunur. İcma iddiası etmək onun nəzərində cəsarətli bir söz və ehtiyatdan uzaq nəzər kimi cilvələnirdi."[3]

## 2. *QEYRİ-NƏQLİ YOLLAR*

"Böyük İslam Enskilopediyası" kitabında bu barədə belə qeyd olunur: "Şübhəsiz, Əhməd ibn Hənbəl əshabi-rəy fəqihləri ilə müqayisədə qiyası və ictihad rəyindən daha az və məhdud səviyyədə istifadə edir və ondan istifadə edilməsini nəqli dəlillərdən istifadə etməklə məhdudlaşdırırdı. Həqiqətdə o, qiyas və rəydən yalnız o zaman istifadə edirdi ki, sabit bir məna, yaxud səhabədən bir nəzəriyyə, yaxud zəif və ya mürsəl bir hədis

[1] Həmin mənbə
[2] Həmin mənbə, səh.729
[3] Həmin mənbə

tapılmırdı. Suallara cavab vermək üçün – “istishab”, “məsalihi-mürsələ”, “zəraye” və s. kimi üslublar da Əhmədin fiqhində çox çətin araşdırılmalı olan məsələ olduğundan başqa bir çarə də olmurdu. Amma, bunlar hənbəli fiqhində nəzərə çarpacaq dərəcədə istifadə olunmuşdur. Bu mühüm məsələyə də işarə etmək lazımdır ki, Əhmədin fiqhində”[1] * ibadət bölməsində əsl və ilkin qayda onun batil olması, müamilə bölməsində isə əsl və ilkin qayda onun səhih olmasıdır. Bu, o deməkdir ki, Əhməd ibadətlə əlaqədar məsələlərdə şəriət sahibinin əmrləri ilə uyğun olanlardan başqasını səhih hesab etmir və onun barəsində son dərəcə ehtiyat edirdi. Onun xüsusi hallarından biri kimi, hökmlər barəsində ehtiyatdan uzaq olması, orucun yeməklə və içməklə batil edilməsi zamanı kəffarənin lazım olmaması və qəzasının kifayət edilməsini qeyd etmək olar. İlk nəzərdə qeyri-təəbbüdi işlər olan müamilələr barəsində Əhmədin müqabilində (nəhyin gəlib çatdığı hallar istisna olmaqla) ilkin nəzəriyyənin səhih olduğu əsas götürülür.”[2]

## *ƏHMƏD İBN HƏNBƏLİN FİQHİNİN TARİXİ İNKİŞAFI VƏ YAYILMASI*

Bu məsələ ilə əlaqədar “Böyük İslam Enskilopediyası” kitabında belə qeyd olunur:

“Əhməd ibn Hənbəl əsas etibarı ilə onun öz rəylərinin yazılmasını xoşlamırdı. Bu işi onun şagirdlərindən bir neçəsi, o cümlədən, Əbdüllah ibn Əhməd və Hənbəl ibn İshaq aşkar şəkildə xatırlatmışdır. O, tam ciddiyyətlə inanırdı ki, kitab yazarkən şəxsi nəzəri, hədislərə qatmadan yazmaq lazımdır. Fiqhi kitabların yazılması tamamilə adi bir iş olan dövrlərdə Əhməd qeyd olunan səbəblər üzündən nə özü fiqh sahəsində kitab yazmağa başladı, nə də şagirdlərinə onun öz nəzarəti altında kitab yazmağa icazə verdi. Bununla belə, Əhmədin istəyinin əksinə olaraq

---

[1] * İbn Hənbəl öz dini əqidələrini Qur`anın və hədislərin zahirini heç bir yozum və təfsir olmadan götürür, hər növ təzə mətləbdən və kəlami bəhsdən uzaq olurdu. Buna görə də Hənbəli məzhəbinin fəqihləri və mütəkəllimləri ibn Hənbəldən sonra İslam məzhəbləri arasında ən çox sünnətə riayət edən yeniliklə və dini əqidələrdə istidlallarla müxalif idilər. İbn Teymiyyə, onun şagirdi ibn Qəyyim Coziyyə və ondan sonra vəhhabilərin rəisi Məhəmməd ibn Əbdül-Vəhhab Hənbəli məzhəbinin təəssübçü dini təfəkkürü və sünnətə yönələn üslubuna tabe oldu.

“Münazirati imam Fəxr Razi” kitabından, Yusif Fəzailin tərcüməsi, səh.206

[2] “Böyük İslam Enskilopediyası”, 6-cı cild, səh.129-130

onun şagirdlərinin yazdığı əsərlər yalnız hənbəli fiqhinin sonrakı nəsillərə nəql olunması üçün bir vasitə idi. Ümumi halda “Məsaili Əhməd” adlandırılan əsərlərdən Əbu Davud Sicistaninin yazdığı “Məsaili Əhməd”, həmçinin Əbdüllah ibn Əhməd ibn Hənbəlin də həmin adda yazdığı başqa bir kitabı qeyd etmək olar. İshaq ibn Mənsur Kusəcin öz dostu ibn Rahvəyhlə bir yerdə yazdığı “Məsaili-Əhməd” kitabını qeyd etmək olar.

“Məsaili-Əhməd” adlı kitablardan əlavə, bəzən Əhməd ibn Hənbəlin şagirdləri onun fiqhi rəylərini özlərinin yazdığı başqa kitablarda da irəli çəkmişlər. İbn Nədim onun şagirdlərindən olan Əbu Bəkir Əsrəmin bir əsərinə işarə etmişdir ki, onda fiqhi sünnələri Əhmədin məzhəbi əsasında və hədisdən olan şahidləri zikr etməklə bir yerə toplamışdır.

Əhməd ibn Hənbəlin fiqhi təlimləri onun öz həyatı dövründə əshabi-hədis məzhəbinin yayıldığı məntəqələrdə çox diqqət mərkəzində idi. Üçüncü hicri əsrinin ortalarında Əhmədin rəyləri ibn Rahveyin rəyləri ilə yanaşı, əshabi-hədisin nəzərində özünəlayiq əhəmiyyətə malik idi. Üçüncü hicri əsrin axırlarında və dördüncü əsrin əvvələrində “Əhməd fiqhinin yeniləşdiricisi” ünvanı ilə tanınan Əbu Bəkr Xəllal “Əl-camiul-ulum Əhməd ibn Hənbəl” adlı bir kitab yazaraq onda həmin vaxta qədər müxtəlif kitablarda “Məsaili-Əhməd” barəsində yazılan təlimləri bir yerə toplamışdı. Ondan bir qədər sonra onun müasiri Əbul Qasim Xərqi “Əl-müxtəsər” adlı bir kitab yazmaqla Hənbəli fiqhini sırf şəkildə fiqhi əsərlərin yazılması mərhələsinə daxil etdi.

IV hicri əsrinin ikinci yarısında Əhməd ibn Hənbəlin ardıcılları onların ən mühüm mərkəzləri olan Bağdaddan əlavə Cəzirədə, Xəzər dənizinin qərb və cənub məntəqələrində, Xuzistanda və Misirdə də çox yayılmışdı. Amma ilk dərəcəli fiqhi məzhəblər sırasında Əhmədin məzhəbinin adı çəkilmədən yalnız üç əsas məzhəblə əlaqədar mənbələr IV hicri əsrində çox gözə dəyir. Bəzən də Davud Zahirinin məzhəbinin artırılması ilə dörd məzhəbdən söhbət gedir. V hicri əsrində üç məzhəblə yanaşı Əhməd və Davudun məzhəbləri də ikinci dərəcəli məzhəblər adı ilə tanınırdı.

Şübhəsiz, bu barədə “Əhməd fəqih deyil, yalnız mühəddisdir” sözü barəsindəki qədim mübahisələr müxaliflərin arasında V hicri-qəməri əsrinə qədər davam etdi. Hətta Əbul-Vəfa ibn Əqili (513-cü h.q) şiddətli etiraza vadar etmişdir. Hənbəlilərin rəyasət və cəmiyyət səhnəsində nüfuzları genişləndiyi üçün VI hicri əsrinin birinci yarısından etibarən Əhməd ibn Hənbəl müxtəlif İslam ölkələrində əhli-sünnə immalarının dördüncüsü kimi təsdiq edildi. Bunun əks-sədası Vəzir ibn Hübeyrənin

"Əl-İfza" kitabında da gözə dəyir (560-cı h.q).[1]

Şübhəsiz, Əhməd ibn Hənbəl 150 ildən artıq bir müddət ərzində sünnülərin, xüsusilə əhli-hədisin əqidəvi rəhbəri olmuşdu. Sünnə və bidətin əsas meyarı Əhmədin sözləri sayılırdı. Onun əhli-hədis üçün tərtib etdiyi üsul (prinsiplər) sayəsində təcəssüm (Allahı cisim hesab etmək) və təşbih (Allahı məxluqata oxşatmaq) əqidələrinə olan meyllər daha da artmağa başladı. "Allahın müəyyən bir məkanda yerləşməsi", "Öz ərşində qərar tutması", "oradan ərşinin aşağısına baxması" və s. bu əqidələrin bir qismi hesab olunurdu. Belə ki, hənbəli məktəbinin əsası hədis barəsində təəssüb hədinə qədər tərəfdarlıq, eləcə də şəri və fiqhi hökmlərin əldə edilməsində rəy və qiyasdan istifadə olunması ilə müxalifət əsasında qurulmuşdu.

Əlbəttə, əhli-hədis müstəqil bir qrup şəklində yalnız IV əsrə kimi davam gətirə bildi və V hicri əsrindən bu tərəfə sair sünnü qrupları, o cümlədən, əşairə, mürciə və hətta mötəzilə də müəyyən qədər əhli-hədisin nəzərlərindən ayrıldı və özünə yeni sima aldı. Bütün bunlarla belə, hənbəli məktəbinin (sair sünnü firqə və ideologiyaları ilə müqayisədə) həmişə azlıqda olmasının və heç vaxt onlar qədər rəvac və əhəmiyyət tapa bilməməsinin səbəbi bu idi ki, "bu məzhəbin ardıcılları hədisə, Peyğəmbər (s) sünnəsinə və səhabələrin əməl və rəftarlarına qarşı ciddi təəssübə malik olduqlarına görə müəyyən qədər azad fikirləşən, onlar qədər təəssübə malik olmayan, öz məzhəblərində istidlal və yenilikçiliyə meyl edən hər hansı islami məzhəb və firqələrlə müxalifət edir, sair məzhəblərin, o cümlədən şafeilərə və şiələrə maneçilik törətməklə, əzab-əziyyət verməklə onlarla mübarizə aparırdılar."[2]

"Ümumiyyətlə, hənbəlilərin ifratçı təəssüblərə, çox donuq təfəkkürlərə malik olmaları, kəlamın zahiri mənalarını əsas götürüb ona istinad etmələri, əqidələrinin səthi olması, eləcə də onların fiqhi məktəblərinin tarixi reallıqlardan uzaq düşməsi, həyatda və ictimaiyyətdə mövcud olan gündəlik hadisələrdən uzaq qalmaları üst-üstə toplanaraq bu məzhəbin süquta, tənəzzülə uğramasına səbəb oldu. Buna görə də sair məzhəblərə nisbətən tərəfdarı az oldu."[3]

Həqiqətdə Əhməd ibn Hənbəlin (241-ci h.q ilində) ölümündən sonra təqribən bir əsr müddətində onun düşüncə və fikirləri sünnə ilə bidətin ayırd edilməsində əsas meyar sayılırdı. Amma əşəri məzhəbinin yayılması ilə Əhmədin əqaidi tədriclə səhnədən çıxarıldı və sələfiçilik unuduldu. Ustad Cəfər Sübhani bu barədə belə yazır: "(İbn Hənbəlin

---

[1] Həmin mənbə, səh.726 728
[2] Fəzai, Yusif, "Münazirati imam Fəxr Razi", səh.207
[3] Həmin mənbə, səh.208-209

düşüncələrinin rövnəqlənməsinin ardınca) mütəfəkkirlər bu məsələyə yenidən baxdılar, yəhudilərdən məsihilərdən bu məzhəbə irs keçən bidətlərdən təmizlənməsi sürətləndi. (Nəhayət Əbül Həsən Əşəri hənbəli məktəbinə yaxınlaşmaqla onda əsaslı dəyişikliklər aparmağa çalışdı.) Hər bir halda, əşəri məzhəbinin yaranması ilə sələfiçilik, təcəssüm və təşbihə təzahür etmək unuduldu."[1]

Dördüncü hicri əsrində Əbu Məhəmməd Həsən ibn Əli ibn Xələf Bərbəharinin sələfi məzhəbinin dirçəldilməsi uğrunda ciddiyyətlə çalışmasına baxmayaraq, camaatın onun əleyhinə olan qiyamları müqabilində heç bir tədbir görə bilmədi.[2]

Cənab Ənsari Lari onun barəsində belə yazır: "Bərbəhari Bağdad hənbəlilərinin rəisi və xüsusi rəylərə malik idi. Özünün düşüncə və əqidələri ilə müxalifətçilik edən hər bir şəxsi şiddətlə döyüb yaralayır və öz tərafdarlarını camaatla kobud rəftara vadar edirdi. Bərbəhari və onun tərəfdarlarının Quran ayələrinin zahiri və səthi mənalarını əxz edərək dərin mənalarına nəzər salmamaq, zehni çıxarlara və inanclara arxalanmaq, yersiz qürur, cəhalət və təəssübü onların yaydığı fitnə-fəsad səviyyəsinin genişlənməsinə, cəmiyyətin asudəlik və asayişinin pozulmasına səbəb oldu və camaat da onların əleyhinə qiyam edərək onlarla həmişəlik çarpışırdılar."[3]

Sonralar, VII əsrin axırlarında və VIII əsrin əvvəllərində əvvəlcə İbn Teymiyyə, daha sonra isə İbn Qəyyim Coziyyənin şagirdləri hənbəli əqidələrini daha artıq ifratçılıqla dirçəltdilər. "XII hicri əsrində hənbəli məzhəbi Məhəmməd ibn Ədül Vəhhabın təbliği və Ali-Səudun qılıncı ilə daha geniş səviyyədə yayıldı və "Vəhhabi məzhəbi" adı ilə bu ölkənin (Ərəbistanın) qanuni və rəsmi məzhəbinə çevrildi. Tədricən Fars körfəzi ölkələrində və Misirdə yayıldı."[4] Hazırkı dövrdə Məhəmməd ibn Əbdül-Vəhhabın törəmələri vəhhabiliyin İslama zidd olan əqidələrini dünya

---

[1] Cə`fər Sübhani, "Fərhəngi əqaid və məzahibi İslami", 1-ci cild, səh.279-280

[2] *4-cü hicri əsrinin əvvəllərində İraqda və Bağdadda mürtəce fikirli hənbəllilərin güclənməsinin amillərindən biri mö`təzilə firqəsinin əqli və istidlali məktəbinin məğlub olması idi. Bu da Mütəvəkkil Abbasinin xilafəti dövründən başlanmışdır. Mütəvəkkil əshabi-hədisin və Əhli-sünnənin avamcasına və ümumi mə`nasında onlarla bir fikirdə olmayan sair islami məzhəb ardıcılları ilə (əsasən mö`təzilə və şiələrlə) mübarizə edir, onları tə`qib edərək işgəncəyə mə`ruz qoyurdu. Buna görə də İslam firqələri arasında ən çox təəssübkeş, ciddiyyətli və sünnəyə həddindən artıq meyl edən hənbəli məzhəbi ardıcılları o zamanda Hənbəlilərdən başqalarına maneçilik törədirdi.

"Münazirati imam Fəxr Razi", səh.208

[3] Ənsari Lari, Məhəmməd İbrahim, "Pişineyi siyasi və fikriye vəhhabiyyət", bünyadi məarifi İslami, Qum, mehrmah, 1369, səh.25

[4] Məşkur, Həmin mənbə, səh.169

müsəlmanlarına qəbul etdirmək istəyirlər.

Əsas bəhsin davam etdirilməsindən və vəhhabiliyin ideoloji rəhbərlərinin işinin gedişatını araşdırmazdan əvvəl “sələfiyyə” sözünün lüğət və istilahdakı (termin kimi) mənasını bəyan etməyi zəruri hesab edirik. Bundan sonra sələfilərin etiqad üsulları barəsində müəyyən qədər bəhs aparacağıq ki, VII əsrin axırlarında və VIII əsrin əvvəllərində hənbəli fiqhini və sələfiçiliyi yeniləşdirən İbn Teymiyyə ilə əlaqədar bəhslərə zəmin yaransın.

### *SƏLƏFİLİYİN LÜĞƏTDƏKİ VƏ İSTİLAHDAKI MƏNASI*

Sələfi sözünün lüğətdəki mənası “köhnəpərəst və mühafizəkar müsəlmanlar”, bu günkü istilahda isə “ölüb gedənlərə təqlid etmək”, “ölülərə təqliddə qalmaq” mənasını verir.[1] Amma onun istilahdakı mənasına gəldikdə isə “IV hicri əsrində yaranan hənbəlilərdən bir qrupu özlərini sələfi adlandırırdılar. Çünki, onlar özlərini saleh sələflərin ardıcılları hesab edir və etiqad, əməl və fellərində Peyğəmbərə (s), səhabəyə və tabeinə tabe olduqlarını iddia edirdilər.[2] “Sələfilər öz sözlərində Əhməd ibn Hənbələ istinad edirdilər. Lakin bu xüsusda hənbəlilərin fəzilətli adamlarından bir qrupu bu sözlərin Əhməd ibn Hənbələ aid edilməsi xüsusunda onlarla münaqişəyə girişdi. Bu zaman sələfilərlə əşərilər arasında şiddətli mübahisə və münaqişələr başlandı. Bu iki firqədən hər biri özlərinin saleh sələflərin yoluna dəvət etdiklərini iddia edirdilər.

Sələfilər mötəzililərin tutduğu yol ilə müxalif idilər. Çünki, mötəzililər İslam əqidələrinin bəyan olunmasında yunan məntiqindən əldə olunan fəlsəfi yolla gedirdilər. “Sələfilər İslam əqidələrini səhabə və tabeinin əsrində mövcud olan qaydada bəyan etmək, yəni İslam əqaidindən istədikləri şeyi Kitab və sünnədən öyrənmək istəyirdilər. Eləcə də alimlərin Quran dəlillərindən başqa dəlillər barədə fikirləşməkdən məhrum edilmələrinin tərəfdarı idilər. Sələfilər əqli və məntiqi üslublara ümumiyyətlə etiqad bəsləmir, yalnız Quranın və hədisin aşkar göstərdiyinə inanır, Quranın nəssindən (aşkar, heç bir yerə yozula bilməyən bəyanlarından) başa düşülən dəlillərə istinad edirdilər.”[3] Onlar deyirdilər ki, “dini əqidələri və hökmləri əldə etmək üçün istər icmal, istərsə də təfsil yolu ilə, eləcə də istər etiqad, istərsə də istidlal ilə Quran və Quran əsasında olan sünnədən başqa, eləcə də Quran və sünnə

---

[1] Mişkatud-dini, Həmin mənbə, səh.509

[2] Ənsari Lari, Məhəmməd İbrahim, Həmin mənbə, səh.23

[3] Fəqihi, Əliəsğər. “Vəhhabilər”, “İntişarati-Səba”, Tehran, 1352, 1-ci çap, səh.20

əsasında olan üslubdan başqa bir yol mövcud deyildir."[1]

Məhəmməd Əbu Zöhrə "Tarixül-məzahibil-İslamiyyə" kitabının 245-248-ci səhifələrində yazır: "Başçıları İbn Teymiyyə olan sələfilər deyirlər: "Hər bir əməl Peyğəmbərin (s) dövründə mövcud olmayıb, yerinə yetirilməyibsə sonralar da yerinə yetirilməməlidir." İbn Teymiyyə bu ümumi qanundan digər üç qanunu da əldə edirdi:

a) "Heç bir yaxşı əməl sahibini, yaxud Allah dostlarından olan bir şəxsi Allah dərgahına yaxınlaşmaq üçün vasitə qərar vermək olmaz."

b) "Heç bir diriyə və yaxud ölüyə pənah aparmaq, heç bir şəxsdən kömək istəmək olmaz."

v) "Heç bir peyğəmbərin, yaxud əməli saleh şəxsin qəbrinə təbərrük etmək, təzim göstərmək olmaz."[2]

## *SƏLƏFİLƏRİN NƏZƏRİNDƏ TÖVHİD*

Sələfilər sair İslam firqələri kimi, tövhidi İslamın ilkin bünövrəsi və əsası hesab edirlər. Lakin müəyyən işlərin tövhidlə zidd olduğuna inanırlar. Başqa islam firqələri də onların bu əqidəsini qəbul etmirlər. Məsələn, məxluqlardan hər hansı birinin vəsitəsilə Allaha təvəssül etmək, Peyğəmbərin (s) rövzəsini ayaq üstə və ona dayanaraq ziyarət etmək, rövzənin ətrafında İslam şüarları bərqərar etmək, peyğəmbərlərin, ilahi övliyaların qəbirlərinə doğru dayanıb bir şey oxumaq və bu kimi işləri tövhidlə zidd hesab edir və inanırdılar ki, bu işləri tövhidlə ziddiyyətli hesab etmək saleh sələflərin məzhəbidir. Bundan başqa deyilən hər bir söz tövhid məfhumuna zərər yetirən bidətlərdir."[3]

## *SƏLƏFİLƏRİN NƏZƏRİNDƏ SÜBUTİ VƏ SƏLBİ SİFƏTLƏR*

Sələfilər deyirlər: "Alimlərin Allah-təalanın səlbiyyə və sübutiyyə sifətləri barəsində olan ixtilafları[4] həqiqətdə nəzər və fikirdə olan ixtilafdır və bu məsələ də müxtəlif firqələrin bir-birini kafirlikdə müttəhim etmələrinə səbəb olmamalıdır."

Onlar Allah-təalanın sifətləri xüsusunda yalnız Quranda və sünnədə gələnlərə etiqad bəsləyirlər. Buna əsasən, mütəal Allahın höccət, qəzəb, razı olmaq, nida etmək və danışmasına inanırlar. Həmçinin Allah-təalanın buludlardan olan kölgələr üzərində çıxıb camaatın arasına gəlməsinə, Özünün ərşdə qərar tutmasına, Allahın üz və əli olduğuna inanırlar. Halbuki, onlar ayələrin yalnız zahirinə baxır, yaxud təvil və

---

[1] Həmin mənbə, səh.20 21
[2] Mişkatut-dini, Həmin mənbə, səh.510
[3] Həmin mənbə
[4] Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati-Səba", Tehran, 1352, 1-ci çap, səh.21

təfsirə isə etina etmirlər. Amma bununla eyni zamanda Allah-təalanın zatını bu dünyadakı məxluqlar kimi olmaqdan, məxluqatın malik olduqları üz və ələ malik olmasından pak və münəzzəh bilirlər.[1]

## *SƏLƏFİLƏRİN ƏMƏL VƏ RƏFTARLARI*

IV hicri əsrində sələfilər çox böyük qüdrətdən faydalandılar və əhəmiyyətli fürsət əldə etdilər. İbn Əsirin sözü ilə desək, camaat arasında meaneçilik törədir, küçə-bazarda gəzirdilər. Misal üçün, əgər bir kəsin əlində musiqi aləti görsəydilər onu zorla alıb sındırır, sahibini də bərk-bərk kötəkləyirdilər. Sair məzhəb ardıcıllarına çoxlu əzab-əziyyətlər, müxtəlif növ işgəncələr verir, camaatın şəxsi işlərinə dəxalət edirdilər. Ümumiyyətlə, onlar cəmiyyətdə vəhşətli və boğunuq bir irtica fəzası yaratmışdılar. Onlar öz təfəkkürlərindən başqa heç bir şeyə dözmür, hər növ yenilikçilik və yeni fikirlərlə müxalifətçilik edirdilər. Əgər bir kəs onların fikirləri ilə müxalifətçilik etsəydi onu döyərək yaralayırdılar.

Mətləbin aydın olması üçün bu tayfa ilə qarşılaşan Məhəmməd ibn Cərir Təbəridən bir hadisəni nəql edirik. Təbəri məşhur bir tarixçi kimi Təbəristandan Bağdada etdiyi ikinci səfərində bu şəhərin “Came” məscidində hənbəlilərin (sələfilərin) bir qrupu ilə elmi mübahisəyə başladı. O, Allahın ərş üzərində oturmasını qeyri-mümkün hesab etdi və bu xüsusda hənbəlilərin əqidələrini rədd etdi. Nəticədə əshabi-hədis və sələfilər ona hücum edərək onun yaşadığı evi o qədər daş-qalaq elədilər ki, evinin qarşısında daşlardan böyük bir təpə yarandı.[2]

Qeyd etdiymiz kimi, sələfi məsləkinin yarandığı zamanda onlarla müasir olan məzhəb ardıcılları onlarla müxalifətə başlayırdılar. Misal üçün, əşairə qruplarını qeyd etmək olar. Bu hadisə müasir dövrə qədər davam etməkdədir və indiki dövrdə də müəyyən şəxslər sələfi əqidə və təfəkkürlərini tənqid edirlər. Hal-hazırda Suriyanın böyük alimlərindən olan Məhəmməd Səid Ramazan Əl-bəvəti onların təfəkkürlərini tənqid etmək məqsədi ilə “Sələfiyyə, bidət, yoxsa məzhəb?!” adlı bir kitab yazmışdır. O bu kitabda yazır: “Müsəlmanlar arasında ən çirkin bidət və bütün fitnələrin, pisliklərin ən mühüm amili olan iş budur ki, bir qrup adam dini hökmlər və üsul hövzəsində müəyyən rəylər və ictihadlardan ibarət olan bir məcmuəni bir yerə toplayıb ondan bir məzhəb düzəltmişlər[3]* və sonra saleh sələflərin onunla heç bir əlaqəsi olmayan

---

[1] Həmin mənbə

[2] Ənsari Lari, Məhəmməd İbrahim, “Pişineyi siyasi və fikriye vəhhabiyyət”, səh.24

[3] *Sələfi adlı bir məzhəbi seçmək bid`ətdir ki, bundan əvvəl onun misli görünməmişdir. Ramazan Əl-bəvəti bu mətləbi qeyd etməklə buna işarə edir ki, vəhhabi məzhəbi ilə Misirdəki “dini islahat də`vəti” arasında bə`zi müştərək cəhətlər var. Onlar aşağıdakılardan ibarətdir: bid`ətlərlə, xurafatlarla müharibə, xüsusilə vəhhabi

sələfiyyəni icad etdilər.[1]

IV hicri əsrində bu qrupun böyüklərindən biri olan Bərbəhari, ondan sonra da VII əsrin axırlarında İbn Teymiyyə bu məsləkin tərəfdarı və havadarı oldu. Biz sonrakı bölmədə İbn Teymiyyə və onun əqidə əsasları barəsində söhbət açacağıq.

## *ƏHMƏD İBN TEYMİYYƏ*

Əhməd İbn Teymiyyə hənbəli məzhəbinin fəqihi, mühəddisi və mütəkəllimi idi və hər növ azad düşüncəliklə və yenilikçiliklə mübarizəyə qalxmışdı. Onun gördüyü mürtəce fikir və tədbirlər hənbəli məzhəbinin tədrici olaraq geridə qalıb tənəzzülə uğramasına səbəb oldu. Belə ki, "Münazirati imam Fəxr Razi dər bareyi məzahibi əhli-sünnə" kitabında yazılır ki, İbn Teymiyyənin əsri "fəlsəfi təfəkkürün, məntiqi istidlalın süstlüyə və tənəzzülə uğraması, onun əsrində sünnü və ya şiə olmasından asılı olmayaraq, bütün müsəlmanların dinin zahiri mənalarına, quru maarif və məzhəbin səthi mənalarına üz gətirməsi" dövrüdür.[2] Həqiqətdə bu əsrdə "səthi təfəkkürə malik olan bəzi fəqih və mütəkəllimlər, hənbəli kimi "özlərinin xüsusi məzhəbi əqidələrini və dinlərini müdafiə etmək" adı ilə öz məzhəblərinə hərtərəfli bəraət qazandırmağa başladılar. Bu məqsədin həyata keçməsi üçün bəzi hallarda elm və fəlsəfənin əleyhinə qiyam etdilər. İbn Teymiyyə də hənbəli məzhəbində qiyam edənlərdən biri və onun müdafiəçisi kimi sair İslam məzhəbləri ilə mübarizə edirdi. O, "hənbəli əqidəsinin dirçəldilməsi" ünvanı ilə yazdığı çoxlu kitablarda öz əqidəsini bəyan etmişdir."[3]

## *TƏRCÜMEYİ-HALI*

Təqiyuddin Əbul Abbas Əhməd ibn Şəhabuddin Əbdül Həlim ibn Məcduddin Əbdüs Salam ibn Əbdüllah ibn Əbil Qasim Məhəmməd ibn Xizr ibn Məhəmməd ibn Xizr Hərrani Dəməşqi Hənbəli 661-ci h.q il (1263-cü miladi il) rəbiyül-əvvəl ayının onunda Abbasi xillafətinin

---

məzhəbinə tabe olan sufilərin bid`əti. Onlar sələf və sələfi kəlmələrini öz məzhəbləri üçün təbliğ edir, bununla da camaata demək istəyirlər ki, vəhhabi məzhəbinin təfəkkür və düşüncələri Məhəmməd ibn Əbdül-Vəhhabın malik olduğu əqidələrlə məhdudlanmır, əksinə "bunların hamısı sələflərə qayıdır!" (Rəmazan Əl-bəvəti, "Sələfiyyə, bid`ət, məzhəb", səh.259-260). Biz sonrakı bəhsdə, vəhhəbiyyətin banisi barəsində söhbət edərkən sələfiyyə və onun ardıcılları barəsində daha çox bəhs edəcəyik.

[1] Rəmazan Əl-bəvəti, Məhəmməd Səid. "Sələfiyyə bid`ət ya məzhəb", Həsən Sabirinin tərcüməsi, "Astani qüdsi Rəzəvi", Məşhəd, 1373, 1-ci çap, səh.277

[2] Fəzai Yusif, "Münazirati imam Fəxr Razi", səh.211

[3] Həmin mənbə, səh.148

Bağdaddakı süqutundan beş il sonra Şamın Hərran məntəqəsində dünyaya gəldi.[1] Bu şəhər İbn Teymiyyənin təvəllüdündən qabaqkı illərdə, eləcə də onun uşaqlıq dövrlərində həmişə monqol-tatarlar tərəfindən hücuma məruz qalırdı. Buna görə də şəhər əhalisi, o cümlədən, Əbdül Həlim (İbn Teymiyyənin atası) bu şəhəri tərk edib Dəməşqə getməyə məcbur oldu (667-ci h.q, 1269-cu miladi). Bu zaman İbn Teymiyyənin yaşı altıdan artıq deyildi.

Onun nə üçün İbn Teymiyyə adlandırılması barəsində "Böyük İslam Enskilopediyasında" belə qeyd olunur: "VI-VII hicri (XII-XIII miladi) əsrlərində Hərran şəhərində İbn Teymiyyənin ailəsindən hənbəli məzhəbli görkəmli şəxsiyyətlər çıxmışdı. Bu sülalənin İbn Teymiyyə adı ilə məşhurlaşan ilk şəxsi Fəxrud-din Xətib Məhəmməd ibn Xizr idi (542-621-22 hicri, 1147-1225 miladi). Onun nə üçün belə adlandırılması barəsində deyilmişdir ki, onun atası, yaxud ana tərəfdən olan babası həcc səfərində Teyma adlı yerdən keçəndə gözəl bir qızı görür. O, həcc səfərindən qayıdanda öz körpə qızının Teymadakı qıza oxşadığını görüb onu Teymiyyə adlandırır. O qızın övladları da İbn Teymiyyə adı ilə məşhurlaşırlar. İbn Fəxruddin də Məcduddin İbn Teymiyyənin babasının əmisidir (590-622-ci h.q, 1194-1252-ci miladi). O, hənbəlilərin böyük fəqihlərindən olmuş və çoxlu kitab yazmışdır. Məcduddinin oğlu Şəhabuddin Əbdül Həlim (627-682-ci h.q, 1230-1283-cü miladi) Təqiyuddin İbn Teymiyyənin atasıdır ki, o da Hərranın məşhur fəqihlərindən biri – Şeyxül-bələd, o yerin xətibi və hakimi sayılırdı."[2]

İbn Teymiyyənin atası Əbdül Həlimin hənbəli əqidələri səbəb oldu ki, onun öz övladlarını Dəməşqin hənbəli mədrəsələrinə göndərsin və hənbəli fiqhini öyrənməsinə səbəb olsun. Buna əsasən, Təqiyuddin İbn Teymiyyə özünün elmi və dini məlumatlarını ilk əvvəldən Dəməşqin hənbəli alimlərinin yanında təkmilləşdirdi və tədricən o dövrdə keçirilən elmlərdən, o cümlədən, fiqh, hədis, üsul, kəlam, təfsir, fəlsəfə, riyaziyyat, coğrafiya, eləcə də sair dinlərin əqidələri, xüsusilə məsihiyyət və yəhudiyyət əqidələri barəsində məlumatlar kəsb etdi.

"O, hənbəli fiqhində ictihad dərəcəsinə çatdı, sair fiqhi məzhəblər barəsində dərin tədqiqat və araşdırmalar apardıqdan sonra dördlük təşkil edən məzhəbin fətvaları ilə müxalif olan müəyyən fətvalar verdi və

---

[1] Yaqutun dediyinə görə, Hərran şəhəri Misirin bir qəsəbəsidir və Şam-Musil-Roma yolu üzərində (kiçik Asiyada) Cülab adlı şəhərin kənarında yerləşir. Oradan Ruha (Urfe) şəhərinə qədər bir günlük, Rüqqə şəhərinə qədər isə iki günlük yoldur. Hərran hal-hazırda Türkiyənin xarabalığa dönmüş şəhərlərindəndir. Keçmiş dövrlərdə çox əzəmətli mədəniyyətə malik olan bir şəhər olmuşdur. ("Böyük İslam Enskilopediyası", 3-cü cild, səh.171)

[2] "Böyük İslam Enskilopediyası", 6-cı cild, səh.171-172.

bununla da fiqhdə özünün rəy və nəzər azadlığını sübut etdi. Hələ 20 yaşına çatmamışdı ki, fətva vermək və tədris etmək məqamına çatdı və atasının 682-ci ildə vəfat etməsindən sonra 683-cü ilin əvvəllərində Səkriyyənin Darul-hədis mədrəsəsində tədrisə başladı... Onun ustadlarından İbn Əbdüd-daim Əli ibn Əhməd ibn Əbdüd-daim ibn Nemət Əl-müqəddəs əl-Hənbəlini (699-cu h.q, 1300-cü miladi), Məhəmməd ibn Əsakir (699 h.q, 1271-ci miladi), Yəhya ibn Seyrəfi (696-cı h.q), Qasim Ərbili (680-cı h.q), ibn Əbil Yüsür (672-ci h.q, 1273-cü miladi), Şəmsəddin Əbul Fərəc Əbdür-rəhman ibn Əbi Ömər Məhəmməd ibn Əhməd ibn Məhəmməd ibn Qüdamə Əl-Məqdisi Hənbəli (682-ci h.q)[1] , Müslüm ibn Əllan Şəmsəddin Əbul Ğənaim Dəməşqi (680-cı h.q), İbrahim ibn Dürca (681-ci h.q), Zeynuddin ibn Münəcca Əbul Bərəkat Tənuxi Hənbəli (695-ci h.q) və başqalarının adını çəkmək olar."[2]

İbn Teymiyyə 682-ci ildə atasının vəfatından sonra "Səkəriyyə" mədrəsəsinin rəhbərliyini öz üzərinə götürdü və ilk dərsini 683-cü ilin məhərrəm ayının ikisində başladı. Bir il sonra, 684-cü ilin səfər ayının 10-u Əməvi məscidində Quran tədrisi və təfsirinə başladı."[3]

691-ci h.q ilinin axırlarına yaxın həccə getdi və bu səfərdə "Mənasikul-həcc" kitabını yazmaq üçün lazım olan ləvazimatı özü ilə Dəməşqə gətirdi (güclü ehtimala əsasən bu kitabda həcc əməllərinin bəzi bidətlərini rədd etmişdir (692-ci h.q). "İbn Teymiyyənin siyasi həyata daxil olması ilk dəfə 693-cü ildə və Həzrət Peyğəmbəri-Əkrəmin (s) barəsində nalayiq sözlər danışmaqda müttəhim edilən isveçli Əssaf (Əssaq) adlı bir məsihi şəxsin barəsində olmuşdur ki, o, İbn Teymiyyənin göstərdiyi canfəşanlıqlar səbəbi ilə ilk dəfə olaraq Əzraviyyədə həbs edildi. Bununla əlaqədar İbn Teymiyyə özünün böyük "Əssarimul-məslulu əla şatimir-Rəsul" adlı kitabını yazdı.[4]

---

[1] Şəmsəddin Əbul Fərəc Əbdürrəhman ibn Məhəmməd Əhməd ibn Məhəmməd ibn Qüdamə Ali-Qüdamın ilk şəxsidir ki, 664-cü hicri-qəməri ilində (1266-cı miladi) Dəməşqdə hənbəlilərin qazül-qüzatlıq vəzifəsini öhdəsinə almışdı. O, hənbəli məzhəbinin rəyasətini və Əşrəfiyyənin "Darul-hədis" mədrəsəsinin şeyxliyini öhdəsinə almışdı. Təqiyüddin İbn Teymiyyə və Məcduddin İsmail ibn Məhəmməd Hərrani onun şagirdlərindən idi. "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.90

[2] "Böyük İslam Enskilopediyası", 3-cü cild, səh.172

[3] Himməti, Həmayun, "Vəhhabigəri", səh 45-46

[4] Peyğəmbəri-Əkrəmi (s) müdafiə etmək məqsədi ilə qələmə alınan bu kitabın əvvəlində yazılır: "Hər kəs Peyğəmbərə (s) nalayiq söz desə öldürülməlidir, istər kafir olsun, istərsə də müsəlman." Bu kitabda elə mətləblər vardır ki, həm özünün, həm də vəhhabilərin əqidələri ilə aşkar təzad təşkil edir və onlara heç cür bəraət qazandırıla bilməz. Nümunə olaraq, o kitabın 93-cü səhifəsində qeyd olunur ki, "Peyğəmbərə (s), vəfatından sonra, onun sağlığında olduğundan daha artıq ehtiram qoyulmalıdır."

İbn Teymiyyə Zeynuddin ibn Münəccanın vəfatından sonra onun yernə keçərək Dəməşqin "Əl-Hənbəliyyə" mədrəsəsində tədris kürsüsünə əyləşdi öz dərslərini İmad ibn Münəccanın həlqəsində Şəmsuddin Fəxr Bəəlbəkkiyə həvalə etdi (17 şəban 695-ci h.q). O, (Misirin hakimi) "Məlik Mənsur Lacinin hakimiyyəti dövründə Misir hakimi tərəfindən tapşırıq aldı ki, sultanın Kiçik Ermənistana qoşun yeritdiyi zaman müsəlmanları cihada təşviq etsin."[1] Bu qoşun yeritmənin ardınca Kiçik Ermənistanın istehkamlarından bəziləri Misir ordusunun əlinə keçdi.

Əhməd İbn Teymiyyə 698-ci ilə qədər Dəməşqdə qaldı və bir hənbəli ruhanisi kimi yaşadı. Onun haqq yoldan sapması ilk dəfə olaraq bu ildə baş verdi. Ayətullah Cəfər Sübhani bu barəda belə yazır:

"...Amma bu ildə Humat əhalisi (Suriyanın şəhərlərindən biridir) ondan kəlam məsələləri barəsində soruşduğu sualların cavabını "Kitabul-əqidətil-həməviyyətil-kubra" adlı bir risalədə yazdı. O, bu risalədə Əşərinin kəlam məzhəbini tənqid etmiş və aşkar şəkildə Allah üçün istiqamət və cəhət olduğunu demiş, Onu cisim hesab etməsini işarə ilə başa salmışdır."[2] Halbuki, Qurani-kərimdə Allah-təala hər növ cisim və cisim olmaqdan, eləcə də məxluqata hər növ oxşarlıqdan uzaq hesab edilərək buyurur: **"Ləysə kəmislihi şəyun – Onun oxşarı və misli olacaq bir şey yoxdur."**

Əşərinin kəlam məzhəbini tənqid etmə məqamında olan bu kitabın yazılmasının ardınca böyük bir iğtişaş yarandı.[3] Müxalifləri onu Allahı (məxluqata) bənzətməkdə müttəhim edirdi. O da Dəməşqin hənəfi qazisi Cəllaləddin Əhməd ibn Həssan ibn Ənuşirəvan Razinin hüzurunda (745-ci h.q, 1344-cü miladi) qazinin sultan tərəfindən əqidəvi məsələləri araşdırmaq üçün təyin olunmamasını bəhanə edərək onun hüzuruna getməkdən imtina etdi. "O dövrdə Dəməşqin ən nüfuzlu hakimi olan Əmir Seyfuddin Cağan İbn Teymiyyənin tərəfini saxladı və şəhərdə onun

---

Halbuki, İbn Teymiyyənin özü və onun ideoloji şagirdi Məhəmməd ibn Əbdül-Vəhhab Peyğəmbərin (s) qəbrini ziyarət etmək üçün gedilən səfəri günah səfəri sayır və o Həzrətin (s) qəbrinin kənarında namaz qılmağı bütpərəstlik adlandırır! Məhəmməd ibn Əbdül-Vəhhab həyasızcasına, aşkar şəkildə deyir: "Mənim əlimdəki bu əsa Məhəmməddən (s) yaxşıdır! Çünki o, ölmüşdür və heç bir tə`siri yoxdur, lakin mənim bu əsam indi faydalıdır, indi ondan istifadə edə bilirəm!" Doğrusu, görəsən insan bu cür təzadları necə yoza bilər?! (Doktor Həmayün Himmətinin yazdığı "Vəhhabigəri" kitabından, 115-ci, səhifəsinin vərəqaltı haşiyəsi)".

[1] Himməti Həmayun, "Vəhhabigəri", səh.46

[2] Sübhani Cə`fər, "Fərhəngi əqaid və məzahibi İslami", 3-cü cild, səh.20

[3] Həqiqətdə bundan əvvəl Əbul Həsən Əş`ərinin şəxsi fikirlərə meyl üslubu Əhməd ibn Hənbəli özü üçün yaratdığı məqamdan aşağı salmışdı. Lakin 8-ci hicri əsrində Əhməd İbn Teymiyyə bir daha Əhməd ibn Hənbəlin əqidələrini və sələfəlik məktəbini onun dövründə mövcud olan məfhumla irəli çəkdi və diqət mərkəzində saxladı.

iğtişaş yaradan müxaliflərini döyüb fitnəni yatırtdı."[1] Nəhayət, onunla hənəfi qazisi və şafei qazisinin (İmamuddin Ömər ibn Əbdürrəhman Qəzvininin) arasında olan məclisdə Əmir Seyfuddin İbn Teymiyyəni müdafiə etdiyinə görə onun əleyhinə daha artıq maneələr yaradıldı.

699-cu hicri ilində (1299-cu miladi) Qazan Xan (İranda Elxan Monqol) Şamı ələ keçirmək üçün qoşun yeritdi və (Misir padşahı) Məlik Nasir Qəlavunu məğlub etdikdən sonra) Dəməşqin əhalisi ciddi təhlükə hiss etilər. Bu zaman İbn Teymiyyə onları müqavimət göstərməyə təşviq edənlər sırasında idi. Lakin Dəməşq şəhəri monqollar tərəfindən kütləvi qırğına məruz qaldı.

Bunlardan əlavə, İbn Teymiyyə 699-cu h.q ilinin şəvval ayının 20-də franklara və monqollara kömək etməkdə ittiham olunan Kəsravan şiələrinin əleyhinə qoşun yeridilməsində iştirak etdi. 700-cü h.q ilində Şam bir daha monqollar tərəfindən təhdid olunmağa başladı. "İbn Teymiyyəyə tapşırıq verildi ki, camaatı cihada təşviq etsin. O, 700-cü h.q ilinin camadiyül-əvvəl ayında Qahirəyə getdi ki, sultan Məmluk Məhəmməd ibn Qəlavundan Şamın işlərinə müdaxilə etməsini istəsin. İbn Teymiyyə monqolların yenidən hücumu ərəfəsində, yəni 702-ci ilin Ramazan ayının 4-də Şəqhəbin fəthində iştirak etdi. Bu müharibədə İbn Teymiyyəyə əmr olunmuşdu ki, fətva verərək mücahidləri oruc tutmaqdan azad etsin."[2]

Bundan sonrakı illər İbn Teymiyyə üçün ağır mübahisələr dövrü olmuşdu. Belə ki, 704-cü ilin rəcəb ayında İbrahim Qəttan adlı bir şəxslə (o həşişdən istifadə etməkdə mühtəhim olunurdu), eləcə də yuxu təbiri və başqa şeylərlə mühtəhim olunan Şeyx Məhəmməd Xəbbaz Bəlasi ilə (İbn Teymiyyənin nəzərinə əsasən yuxu yozumunun heç bir elmi əsası yoxdur) münaqişəsi başladı və onlara bu işləri qadağan etdilər.

Bundan sonra 704-cü h.q ilində Dəməşqin müsəllasının yaxınlığında yerləşən "Narənc" (yaxud "Tarix") məscidinə getdi və üstündə həzrət Peyğəmbərin (s) ayaq izləri olan və camaatın təbərrük etdiyi bir daşı sındırdı və dedi ki, ona təbərrük etmək və öpmək caiz deyildir!"[3]

İbn Teymiyyənin bu düşüncə tərzində və fikirlərində dərindən diqqət yetirməklə məlum olur ki, onun fikrindəki təəssüb və donuşluq bütün əsər və fikirlərinə hakim kəsilmiş və bu da camaatın etiqadlarından çoxu, xüsusilə şiələrin etiqadı ilə müxalifətə qalxmasına səbəb olmuşdur. O, yaranan hər bir fürsətdən onlara zərbə vurmaq üçün istifadə edirdi. Belə aydın olur ki, İbn Teymiyyənin öz nəzər və təfəkkürlərini məhz

[1] "Böyük İslam Enskilopediyası", 3-cü cild, səh.172
[2] Himməti, Həmayun, "Vəhhabigəri", səh.47
[3] "Böyük İslam Enskilopediyası", 3-cü cild, səh.173

Dəməşqdə irəli çəkməsinin dəlillərindən biri də budur ki, onun şiələrlə çoxdan bəri yaxşı münasibəti yox idi (Dəməşq əhalisinin dini keçmişlərinə diqqət yetirməklə məlum olur ki, onların İslam barəsində kifayət qədər məlumatları yox idi və həqiqi İslamın əsl varislərini tanımırdılar). Buna görə də "704-cü ilin axırlarında Kəsrəvan rafizilərinin əleyhinə yeridilən qoşunlarda[1] iştirak etdi və Dəməşqə qayıdarkən rəisləri monqolları himayə etməklə mühttəhim olunan Əhmədiyyə Rəfaiyyə firqəsinə həmlə etdi."[2]

Qeyd olunmalıdır ki, bu dövrdə İbn Teymiyyə öz müxaliflərinə "monqollarla həmkarlıq" damğası vuraraq onları öz yolu üzərindən götürür, onlarla son dərəcə kobud rəftar edərək acı sözlər deyirdi. İbn Teymiyyənin əqidələrinə qarşı çıxmağa və onun həbs edilməsinə səbəb onun 703-cü ildə gördüyü tədbirlər olmuşdu. O, bu ildə Mühyiddin Ərəbini söyüb lənətləməyə başladı, onun yazdığı "Füsusül-hikəm" kitabını öz əqidələri ilə müxalif hesab etdi və ibn Ərəbinin ardıcılları olan firqələrlə mübarizəyə qalxdı. Misir sultanının canişini Əmir Bibris ona çox əqidə bağladığı Şeyx Əbul Fəth Nəsr ibn Süleyman Mənbəci Məqri və Qahirədə Şeyx Kərumiddin, Şeyx Xaniqah Səidus-Süəada Mühyiddin Ərəbinin ardıcıllarından və kəskin pərəstişkarlarından idi. İbn Teymiyyə onlara bir məktub yazaraq ibn Ərəbini çox məzəmmət etmişdi. "Nəsr Mənbəci bu məktubdan qəzəbləndi, Əmir Bibris Caşəngirin yanında malik olduğu ehtiram və hörmətə görə Qahirədə (malikilərin qazisi) qazi Zeynuddin Əli ibn Məxluf ibn Nahiz Malikini vadar etdi ki, Bibrisdən istəsin ki, İbn Teymiyyəni Misirə çağırıb onu mühakimə etsin, tövbə etdirib öz puç əqidəsindən dönməyə məcbur etsin."[3]

---

[1] Qeyd olunmalıdır ki, hənbəlilər şiələri Rafizi, yə`ni dindən xaric olan, kafir və müşrük hesab edirlər. Buradan da İbn Teymiyyənin əqidəvi ardıcılları olan vəhhabilərin şiəçiliklə qəddar düşmən olmasının səbəbi aydın olur. Məhəmməd ibn Əbdül-Vəhhab da vəhhabiyyətin banisi kimi şiəliyi rədd etmək üçün "Ərrəddu ələl-Rafizəti" adlı bir kitab yazmışdır.

[2] Əhmədiyyə firqəsinin qəribə nümayişləri vardır. Onlar odun içinə girir, ilan əti yeyirdilər. İbn Teymiyyə inanırdı ki, onların işləri Kitab və sünnə ilə müxalifdir. Nəhayət onları gördükləri işdən çəkindirdi. ("Böyük İslam Enskilopediyası", 3-cü cild, səh.174)

Amma yuxarıda qeyd olundu ki, İbn Teymiyyə (o zamanda münasib şəraitin olduğuna görə) öz müxaliflərini monqolları himayə edib və havadarlıq etməsi damğası ilə öz yolu üzərindən götürürdü. Bu ittihamla müttəhim olunan qruplardan biri də Şeyx Əhməd ibn Rəfainin ardıcılları olan Əhmədiyyə firqəsi idi. İbn Teymiyyə onları rədd etmək üçün "Münaziratu İbn Teymiyyə əl-ələniyyətid-dücacilətil-bətaihiyyətir-rəfaiyyə" adlı kitab yazaraq onları rəfahiyyə və bətahiyyə adlandırmışdı. (Həmin mənbə, səh.47-48)

[3] "Böyük İslam Enskilopediyası", 3-cü cild, səh.174

Bundan əlavə, İbn Teymiyyənin 705-ci h.q ilində yazdığı "Əl-əqidətul-vasitiyyə" kitabı onun mühakimə edilib əqidəsinin qarşısının alınmasının digər bir səbəbi idi. "Bu məsələnin araşdırılması üçün Dəməşqin hakimi Əfrumun vasitəsilə 705-ci ilinin 8 və 12 rəcəb tarixində Misirdə bir məclis təşkil olundu. Fəxruddin Razinin şagirdlərindən olan Səfuyiddin Hindinin[1] də iştirak etdiyi ikinci məclis[2] belə nəzər verdi ki, vasitiyyə əqidəsində Quran və sünnəyə müxalif bir mətləb yoxdur. Zahirən bu iş sona çatdırılmışdı. Lakin Mahmud İsfəhaninin şagirdi, şafei qazisi İbn Sərsəri bu işə yenidən baxılmasını tələb etdi və İbn Teymiyyənin şagirdlərindən bir neçəsinə şallaq vurdurub Mühəddis Mizzini zindana saldırdı. Bu işə yenidən baxılmaq üçün təşkil olunan digər bir məclis də 705-ci ilin şəban ayının 7-də sultanın əmri ilə və hakimin qərargahında təşkil edildi. Bu məclisdə vasitiyyə əqidəsi məhkum olunmadı və ibn Sərsəri öz işindən istefa verdi."[3] Bu zaman Misirə belə bir xəbər çatdı ki, "Dəməşqin səltənət müşaviri elan etmişdir ki, hər kəs İbn Teymiyyənin əqidəsi barəsində bir söz desə, edam olunacaqdır. Sonra qazi Şəmsuddin ibn Ədlan Kənani Misri (şafeilərin mötəbər və tanınmış qazisi) qəzəbləndi və qazi Əli ibn Məxlufla birlikdə İbn Teymiyyənin əleyhinə qiyam etdi."[4] Nəhayət, İbn Teymiyyəni və İbn Sərsərini Qahirəyə çağırdılar. 705-ci ilin Ramazan ayının 23-də (1305-ci miladi, aprel ayı) Qahirənin Cədəl adlı qalasında qazi başçılarının (Misrin dörd qazil-qüzatının), fəqihlərin və böyük dövlət işçilərinin iştirakı ilə məhkəmə təşkil olundu və İbn Teymiyyə özünün təşbih və təcəssüm əqidəsinə görə zindana məhkum edildi. Həmçinin, Dəməşqin Came məscidində qiraət olunmaq üçün bir məktub da yazıldı. Bu məktubda İbn Teymiyyə Allahı cisim bilmək, Allahın yuxarıda olmasına inanmaq, eləcə də Quranın səs və hərfdən ibarət olması, onun qədim olması əqidəsilə müttəhim edildi və belə hökm çıxarıldı ki, əgər hənbəlilər bu əqidədən əl çəkməsələr öz məqamlarından kənar edilməlidirlər.

İbn Teymiyyə 707-ci h.q ilinin rəbiyül-əvvəl ayının 26-a qədər (təqribən bir il yarım) Qahirənin "Ərk" zindanında həbsdə qaldı. Sonra o,

---

[1] Səfuyiddin Hindi (644-715) imam Əbul Həsən Əş`ərinin məzhəbi barəsində ən bilikli adam idi. O, 705-ci hicri ilində Darus-səadətdə İbn Teymiyyə ilə elmi mübahisəyə başlayan ilk şəxs idi. ("Fərhəngi əqaid və məzahibi İslami", 3-cü cild, səh.36)

[2] İbn Teymiyyənin "Vasitiyyə" adlı kitabında aləmdə feyz vasitəsi olan fikirləri araşdırır. Vəhhabilərin də əqidələri belədir. Onlar da Allah ilə bəndələr arasında vasitə və ya vasitələrin olduğuna inancı küfr, şirk və bütpərəstlik hesab edirlər. (Himməti, "Vəhhabigəri" kitabının 116-117-ci səhifələrinin vərəqaltı haşiyəsi. )

[3] Himməti Həmayun, "Vəhhabigəri", səh.48

[4] "Böyük İslam Enskilopediyası", 3-cü cild, səh.174

Bibrəs Caşəngirin rəqibi Əmir Səlların və bədəvi əmir Mühənna ibn İsanın vasitəçiliyi ilə azad edildi və məlum olmayan tarixdə "Əl-əqidətut-tədəmmuriyyə" adlı kitabını onların adına yazdı."[1]

İbn Teymiyyənin həbsdən azad olunmasına baxmayaraq Dəməşqə qayıtmağa haqqı yox idi. O, öz gümanı əsasında hər bir bidəti məhkum edir, bidətçini zındıq və dinsiz sayırdı. Buna görə də Misirin ən nüfuzlu sufiləri olan ibn Ətaullah (o, Əbul Həsən Mursinin şagirdi idi) və Kərumiddin Amuli ("Darus-səidis-süəda"nın rəisi) çəkişməyə başladı. Bunun ardınca 707-ci ilin şəvval ayında camaatın ümumi iğtişaşının ardınca onu şafei qazisi Bədruddin ibn Cəmaətin hüzuruna çağırdılar. Qazi ondan istədi ki, özünün təvəssül və istiğasə (Peyğəmbəri (s) və yaxud hər hansı bir övliyanı köməyə çağırma) barəsindəki nəzərini desin. Daha sonra Şama qayıtmasına icazə almasına baxmayaraq İbn Teymiyyəni Qahirənin qazilər zindanında bir neçə ay həbsdə saxladılar.

Cənab Himməti yuxarıdakı mətləbə işarə edərək yazır: "707-ci ildə Bibris Caşəngirin qüdrətə və hakimiyyətə çatması ilə eyni zamanda İbn Teymiyyənin əzab-əziyyətləri və işgəncələri yenidən başlandı. 709-cu ilin səfər ayının axır gecəsində onu ciddi nəzarət altında İsgəndəriyyəyə apardılar və orada da onu nəzarət altında saxladılar... Səltənət qəsrində həbsdə olduğu yeddi ay ərzində Misirdən keçən məğriblilərin çoxu onun görüşünə gəlirdilər. Bu müddət ərzində bir neçə mühüm kitab yazmışdı ki, onlardan "Ər-rəddu ələl-məntiqiyyin" kitabını qeyd etmək olar.

709-cu h.q ilinin şəvval ayının əvvəlində yenidən Məhəmməd ibn Qəlavun hakimiyyətə gəldi. O, İbn Teymiyyəni həbsdən azad etdi və Qahirədə öz hüzuruna qəbul etdi. İbn Teymiyyə təqribən 3 il ərzində o şəhərdə qaldı. Məhəmməd ibn Qəlavun (Əl-məlikün-Nasir) Şamla əlaqədar məsələlərdə bəzən onunla məşvərət edirdi. Bu müddət ərzində İbn Teymiyyə xüsusi şəkildə dərs verir və ondan soruşulan müxtəlif suallara cavab verirdi. Həmin dövrdə özünün məhkəmə işləri ilə əlaqədar olan "Kitabus-siyasətiş-şəriyyə" kitabını təkmilləşdirməyə başladı... Qısa müddət ərzində aradan gedən monqolların yeni təhdidləri İbn Teymiyyəni Dəməşqə çəkdi (712-ci h.q). Əl-məlukun-Nasir 713-cü ilin məhərrəm ayının 11-də həcc səfərindən qayıdanda bu şəhərin maddi və idari qurumunu yeniləşdirmək üçün müəyyən tədbirlər gördü. Bundan əlavə, 712-ci ilin rəbiüs-sani ayında Əmir Tənkəz bu şəhərə hakim təyin edildi. İbn Teymiyyə mədrəsənin rəyasəti məqamına təyin olundu. Havadarları ona müstəqil bir müctəhid gözü ilə baxırdılar. Bu dövrdə onun ən fəal şagirdi olan İbn Qəyyim Covziyyə onun fikir və əqidələrinin yayılmasında çox ciddiyyət göstərdi və nəticədə öz ustadı

[1] Himməti Həmayun, "Vəhhabigəri", səh.48

kimi giriftarçılığa düçar oldu. Təqribən 716-cı h.q ilinin axırlarında İbn Teymiyyə “Minhacüs-sünnətin-Nəbəviyyə” kitabını yazaraq[1] “bu kitabda Əllamə Hilliyə həmlə etdi. Bununla belə, onun azadlıq dövrü gəlib çatdı, 718-ci h.q ilində sultandan bir fərman gəldi. Bu fərman İbn Teymiyyəni hənbəli məzhəbindəki etiqadlarla müxalif olan təlaq barəsində hər növ fətva verməkdən çəkindirirdi. İbn Teymiyyəyə irad tuturdular ki, o bir məclisdə üç təlaqın səhih olmağını inkar edir və onunla təlaq vermək qəsdi ilə yanaşı olmadığı halda təlağa dair and içməyi mötəbər saymırdı. Bu xüsusda Tənkəzin rəyasəti ilə 718-719-cu illərdə iki məhkəmə məclisi təşkil olundu. Üçüncü məclis 720-ci il rəcəb ayının 20-də təşkil olundu və İbn Teymiyyə sultanın əmr və fərmanlarına itaət etməməkdə müttəhim olunaraq həbsə məhkum edildi. Məmurlar dərhal İbn Teymiyyəni tutaraq Dəməşqin “Ərk” zindanına saldılar. Orada 5 aydan çox qaldı, məhərrəmin 10-da Məlik Nasirin fərmanı ilə azad edildi. 726-cı il şəban ayının 16-da heç bir məhkəmə hökmü olmadan İbn Teymiyyə bir daha tutuldu və sultanın “Əməvi” məscidində hamı üçün oxunan əmri əsasında fətva vermək səlahiyyətindən məhrum edildi. Onun yazdığı “Ziyarətül-qubur” kitabına irad tuturdular. Çünki, o bu kitabda ilahi övliyaları müqəddəs saymağı haram bir iş hesab etmişdi. Onunla yanaşı şagirdlərindən də bir neçəsini zindana saldılar. Lakin İbn Qəyyim Covziyyədən başqa onların hamısı az bir müddətdən sonra azad edildilər...”[2]

Cənab Fəzai İbn Teymiyyənin Dəməşqin hakiminin əli ilə zindana salınmasının səbəbini belə bəyan edir: “İbn Teymiyyə müsəlmanların, eləcə də öz havadarlarının və şagirdlərinin arasında malik olduğu elmi şöhrətə görə özünə çoxlu tərəfdar toplaya bilmişdi. Həmçinin, mövcud siyasətə və məzhəbi əqidələrə qarşı etirazlı və tənqidçi fikirlərə malik olduğuna görə Dəməşqin hakimi onun özündən, həmçinin ardıcıllarının və etirazçı fikirlərinin çoxluğundan qorxurdu. Buna görə də ona əzab-əziyyət verib ağır təzyiqlərə məruz qoydu. Sonra da bir müddət onu həbs edib Dəməşqin zindanına saldı...”[3]

“Böyük İslam Enskilopediyası”nda qeyd olunanlara əsasən, “bu dövrdə İbn Teymiyyənin zindana salınmasının əsas səbəbi onun şagirdi İbn

---

[1] İbn Teymiyyə “Minhacüs-sünnə” kitabını Əllamə Hillinin yazdığı “Minhacül-kəramə” kitabını rədd etmək üçün yazmışdır. Vəhhabilərin əndişə və tə`limlərinin əsil mənbəyi də məhz həmin kitabdır. Xüsusilə onda təvəssül, şəfaət, ziyarət, dua və sair kimi məsələlər barəsində söhbət gedir və bu da İbn Teymiyyənin fiqhindən əxz olunmuşdur. (Doktor Himmətinin “Vəhhabigəri” kitabının 119-cu səhifəsinin vərəqaltı haşiyəsindən)

[2] Himməti Həmayun, “Vəhhabigəri”, səh.49

[3] Fəzai, “Təhqiq dər tarix və fəlsəfe məzhəbi əhli sünnə”

Qəyyim Covziyyə və onun öz ustadından öyrəndiyi fikir və düşüncələri idi. Məqrizinin yazdığına görə "sultanın fərman verməsinin səbəbi bu idi ki, İbn Teymiyyənin tanınmış şagirdi olan Şəmsəddin İbn Qəyyim Covziyyə Qüds şəhərində şəfaət və peyğəmbərlərə təvəssül məsələsi barəsində danışmışdı. Yəni ustadı İbn Teymiyyənin fətvasına əsasən onu caiz hesab etdi və o Həzrətin (s) məscidini nəzərə almadan sadəcə o Həzrətin (s) qəbrinə üz gətirməyi inkar etdi. Beytül-müqəddəsin əhalisi bu fətvadan narahat oldular və Dəməşqin qazil-qüzatı Cəlaləddin Məhəmməd Qəzviniyə məktub yazdılar. Bu xəbər sultan Məlik Nasir ibn Qəlavuna çatdı. O da məsələni hənəfilərin qazil-qüzatı Şəmsuddin Məhmməd ibn Osman Həriri Hənəfiyəyə göndərdi. Qazil-qüzat Hənəfi də İbn Teymiyyəni bərk məzəmmət etdi və Məlik Nasir də onun tutulub zindana salınmasına dair hökm verdi.

İbn Rəcəb "Təqabatul–hənabilə" adlı kitabında qeyd edir ki, Misirdə həva-həvəs (nəfsani istəklər) əhlindən 18 nəfər İbn Teymiyyənin əleyhinə fətva verdilər. Onların da başında maliki qazil-qüzatı Təqiyuddin Məhəmməd ibn Əbubəkr ibn İsa ibn Bədran Əqnai (750-ci h.q, 1349-cu miladi) idi. Misirin dörd məzhəbinin hər birinin qazisi də onun həbs olunmasına dair fətva verdi."[1]

İbn Teymiyyə 728-ci ilə qədər Dəməşq zindanında qaldı və elə orada da kitab yazıb fətva verməsini davam etdirdi. O, üsuli-fiqh barəsindəki "Məaricül-vüsul", eləcə də "Rəful-məlam" və "Ər-rəddü ələl-əfnai" kitablarını bu dövrdə yazmışdı. Onun bu dövrdəki ən qatı müxaliflərindən biri Qahirədə maliki qazil-qüzatı Təqiyüddin Əfnai və Dəməşqdə şafei qazil-qüzatı Əlauddin Qunəvi (İbn Ərəbinin şagirdlərindəndir) idi. "Əfnai sultana şikayət etdi. Sultanın fərmanı ilə İbn Teymiyyəni 728-ci hicri ili camadiyül-axır ayının 9-da kitab, kağız və qələmdən məhrum etdilər." Beş aydan sonra, zil-qədə ayının 20-də İbn Teymiyyə "Ərk" zindanında öldü və böyük bir kütlə tərəfindən Dəməşqin "Sufiyyə" qəbristanlığında dəfn edildi".[2]

Cənab Fəqihi İbn Teymiyyənin ölümü barəsində belə yazır: "...İbn Teymiyyənin dəfn mərasimində iştirak edənlərin sayını iki yüz min nəfər qeyd etmişlər. Bəziləri onun meyyit qüslunun suyunu təbərrük olaraq içir, ona aid olan hər bir şeyə ehtiram göstərirdilər. Bununla da demək olar ki, İbn Teymiyyənin tərəfdarlarından bir qrupu Şamda qaldı. Məhəmməd ibn Əbdül-Vəhhabın dövrünə qədər də onun ardıcılları Şamda olmuşlar. Ehtimal üzrə Məhəmməd ibn Əbdül-Vəhhab öz

[1] "Böyük İslam Enskilopediyası", 3-cü cild, səh.176
[2] Himməti Həmayun, "Vəhhabigəri", səh.52

əqidələrini ondan əxz etmişdir.”[1]

İbn Teymiyyənin tərcümeyi-halını şərh edərkən onun öz rəy və əqidəsində müəyyən ardıcıllıq görürük. Eyni halda, bunlar onun sözlərinin düzgün olmasına dəlalət etmir, əksinə, onun bütün İslam alimləri və dördlük təşkil edən sünnü məzhəbinin alimləri qarşısında inadkarlığını göstərir. Belə ki, o, danışıqda kobud, acıdilli olduğuna görə onun məktəbi çox da rəvac tapmamışdı. Onun ölümü ilə də məzhəbi süquta doğru sürüklənirdi. Baxmayaraq ki, onun məşhur şagirdləri, o cümlədən, İbn Qəyyim Covziyyə və ondan sonra İbn Kəsir bu məzhəbi yaymağa başladılar. Lakin bu barədə nəzərə çarpacaq dərəcədə müvəffəqiyyət qazana bilmədilər. Nəhayət, hicrətin XII əsrində Məhəmməd ibn Əbdül-Vəhhab İbn Teymiyyənin sərt və təəssübkeşlik əsasında olan düşüncələrini və rəylərini bir daha dirçəltdi.

## *İBN TEYMİYYƏNİN MÜXALİFLƏRİ VƏ MÜDAFİƏÇİLƏRİ*

İbn Teymiyyə kəlam, fiqh, irfan və s. kimi müxtəlif məsələlər barəsində özünün xüsusi əqidələrini izhar etdiyinə və İslam aləminin görkəmli şəxsiyyətləri qarşısında sərt mövqe tutduğuna görə həmin dövrlərdə özünə həm çoxlu müxalif, həm də mürid qazana bilmişdi. Onun müxaliflərindən aşağıdakıların adlarını qeyd etmək olar:

Onunla müasir olan zahid və fəqihlərdən Nəsr ibn Salman ibn Ömər Münbəhini (719-cu h.q.; 1319 miladi), təəssübkeş və səthi görüşlü şəxslərdən Nuriddin Əli ibn Yəqub ibn Cəbrəil Bikri Şafei (724-cü h.q.; 1324 miladi), sufilərin böyüklərindən olan Tacuddin Əbül-fəzl Əhməd ibn Məhəmməd ibn Əbdül-kərim İskəndərani Şazli (709-cu h.q.; 1309-cu miladi), Əbdül-Kərim Kərimuddin Əbulqasim ibn Əbdüllah Amuli Təbəri (710-cu h.q), “İbn Cümlə” adı ilə məşhur olan Cəmaluddin Əbul Məhasin Yusif ibn İbrahim Şafei Hövrani (O, Dəməşqdə şafeilərin qazisi idi və camaatın qorxusundan İbn Teymiyyənin dəfn mərasimində iştirak etmədi və özünü gizlətdi) İbn Zəmləkani adı ilə məşhur olan Kəmaluddin Əbul-məali Məhəmməd ibn Əli ibn Əbdül Vahid Ənsari (727-ci h.q.; 1327 miladi).[2] O, əvvəlcə İbn Teymiyyənin havadarlarından idi; Öz dövrünün böyük hədis, təfsir və nəhv alimlərindən olan Əbu Həyyan Məhəmməd ibn Yusif ibn Əli ibn Yusif Əndəlusi Nəhvi (745 h.q.; 1344 miladi). O da əvvəllər İbn Teymiyyəyə hörmət göstərirdi. Lakin sonralar İbn Teymiyyə, Sibəveyhə irad tutduğuna görə onların əlaqələri

---

[1] Fəqihi, Əliəsğər. “Vəhhabilər”, “İntişarati Səba”, Tehran, 1352, 1-ci çap, səh.28-29

[2] Kəmaluddin Zəmləkani 705-ci hicri ilində İbn Teymiyyə ilə elmi mübahisəyə başlayan ikinci şəxsdir. O “Əddürrətül-müfsiyə fir-rəddi əla İbn Teymiyyə” adlı kitabının müəllifidir.

gərginləşdi. Təqiyuddin Əli ibn Əbdüllah Kafi Səbki (683-756 h.q.; 1284-1355 miladi). O “Təbəqatuş-Şafeiyyə” adlı kitabının müəllifi Tacuddin Səbkinin atasıdır. Belə ki, o, İbn Teymiyyənin nəzəriyyələrini rədd etmək üçün bir neçə kitab yazmışdır. O cümlədən: “Əd-dürrətül-muziqiyyiqətu fir-rəddi əla İbn Teymiyyə”, “Nəqdul-ictimai vəl-iftiraqi fi məsailil-imani vət-təlaqi vən-nəzərul-mühəqqəqi fil-həlfi bit-təlaqil-müəlləq” (İbn Teymiyyənin şagirdlərindən olan İbn Qudamə Məqdisi (744 h.q) Səbkinin sözlərini rədd etmək üçün kitab yazmışdı). Onun digər müxaliflərindən İbn Cüheyl adı ilə məşhur olan Şahabuddin Əhməd ibn Yəhya Kilabidir (733 h.q). O da İbn Teymiyyəni rədd etmək üçün bir risalə yazaraq orada Allah-təalanın hər hansı cəhətə malik olmasını inkar etmişdir.[1] Onun müxaliflərindən biri də 705-ci ildə ilk dəfə İbn Teymiyyə ilə elmi mübahisəyə başlayan Səfiyuddin Hindidir (644-715). Əbu Bəkr Həsəni Dəməşqi (829 h.q) də İbn Teymiyyə barəsində yazır: *“İbn Teymiyyənin sözlərinə nəzər saldıqda hiss etdik ki, o, batilə meyl edir. Mütəşabih ayələrə istinad edərək fitnə-fəsad törətmək istəyir. Onun kitablarında elə şeylərə rast gəldik ki, dil onları bəyan etməyə, barmaq onları yazmağa həya edir.”*[2]

İbn Teymiyyənin müdafiəçilərindən aşağıdakı şəxslərin adını qeyd etmək olar:

“Əl-bidayətu vən-nihayə” kitabının müəllifi İbn Kəsir (744 h.q). O, öz kitabının hər yerində irəli gələn hər bir münasibətlə əlaqədar İbn Teymiyyəni müdafiə edərək təriflәmişdir... O, İbn Teymiyyənin müasiri olmaqla həmin əsrin böyük alimlərindən biri idi və onu müdafiə etdiyinə görə çoxlu əzab-əziyyətlərə qatlaşmışdır. Onun digər bir müridi “Təhzibul-kəlam” kitabının müəllifi (bu kitab sünnülərin rical kitablarının ən mötəbəridir), məşhur hafiz və mühəddis Əbul-Həccac Məzidir ki, 742-ci ildə vəfat etmişdir. Onun məşhur şagirdlərindən biri Əhməd ibn Məhəmməd Məzi Ləbli Hənbəlidir ki, İbn Həcərin dediyinə görə əvvəllər İbn Teymiyyənin müxaliflərindən idi. Lakin onunla görüşdükdən sonra onun yaxın dostlarından və şagirdlərindən biri oldu, onun kitablarını yazmağa başladı və onu müdafiə etmək üçün çoxlu israr etdi, sufilərin rədd edilməsində və ziyarət məsələsində onu şiddətlə müdafiə etdi. Nəhayət, sufilər qiyam edərək onu öldürmək qərarına gəldilər... Amma, şübhəsiz, İbn Teymiyyənin ən böyük şagirdi və müdafiəçisi İbn Qəyyim Covziyyə adı ilə məşhur olan Şəmsuddin Məhəmməd ibn Əbi Bəkr ibn Əyyubdur (691-751 h.q.; 1292-1350 miladi). Özünün bütün sözlərində və əqidəsində İbn Teymiyyənin mütləq

[1] “Böyük İslam Enskilopediyası”, 3-cü cild, səh.177
[2] Sübhani Cə`fər, “Fərhəngi əqaid və məzahibi İslami”, 3-cü cild, səh.42

şəkildə himayəçisi və ardıcılı idi. Belə ki, onun əqidələrinin həm onun həyatında, həm də ölümündən sonra nəşr olunub yayılmasını öz öhdəsinə almışdı. Buna görə ona şallaq vurulmuş, dəvəyə mindirilərək şəhərlərdə gəzdirilmişdir. O, İbn Teymiyyə ilə birlikdə Dəməşq qalasında həbs edilmişdi. O, 712-ci h.q ilindən (1312 miladi) İbn Teymiyyənin öldüyü vaxta qədər həmişə onunla yanaşı olmuş və onun müxalifləri ilə, o cümlədən, Təqiyuddin Səbki ilə mübarizə aparmışdır.[1]

İbn Teymiyyənin müəyyən qədər müxalif və tərəfdarları olmasına baxmayaraq, müvafiqləri onu tərifləməkdə həddi aşmışlar. Nümunə üçün "Nəzəriyyatu şeyxül-İslam İbn Teymiyyə fis-siyasəti vəl-ictima" adlı kitabın müəllifi Hanri Laost onu "İslamın böyük mücahidlərindən biri" adlandıraraq, onun monqollar qarşısında İslamı müdafiə edib müqavimət göstərməsini tərifləmişdir."[2] Bunun əvəzində də müxalifləri onun yaratdığı batil fikirləri, bidətləri və ideoloji azğınlıqları tənqid atəşinə tutaraq onu məzəmmət etmişlər. Amma şübhəsiz, Əhməd İbn Teymiyyə hənbəli mütəkəllimi, mühəddisi və fəqihi kimi tanınmış, "yenilikçiliyə və azad düşüncəyə qarşı qiyam etmiş, həm hənbəli firqəsi, həm sair məktəblər barəsində müxtəlif kitablar yazmışdır."[3] Dehxudanın dediyinə görə[4] o, sələfilikdən başqa bütün İslam firqələri ilə, əşairələrlə, filosoflarla, sufilərlə mübarizə aparmış və hamısını batil hesab etmiş, Allah övliyalarının qəbirlərini ziyarət etməyi bidət saymışdır. Onu bu məsələdə Vəhhabilərin rəhbəri hesab etmək olar.

Aydındır ki, İbn Teymiyyə əqaiddə kəskin təəssübə, məntiqsizliyə və donuqluqa malik idi. Onun sair həmfikirləri də (İbn Qəyyim, İbn Fərəm, İbn Bəttə, Bərbəhari, İbn Numərət və İbn Covzi) zahirə meyl etməyin, donu nəzərlərin və səthi məlumatların əsiri idilər. Onun təfəkkürü çox səthi və ibtidai olub fəlsəfi meyarlardan uzaq idi. "İbn Teymiyyə bir növ incə dini materialist təfəkkürə meyl etmiş və zahirpərəstliyin, materializmə yönəlmənin dəşhətli uçurumuna düşmüşdü."[5]

Doktor Himməti yuxarıdakı mətləbləri qeyd etdikdən sonra tam yəqinliklə deyir: "... Fəlsəfə elmi ilə tanış olmaq, İslam hikmətinin dərinliklərinə varmaq, əqli elmlərlə məşğul olmaq və İbn Teymiyyənin əsər və kitablarını araşdırmaqla aydın olur ki, o, fəlsəfi məsələləri dərk edə bilməmiş, ən ibtidai məntiqi məsələlərdə ilişib qalmış, tövhiddə və ilahiyyatda çox süst, möhkəm olmayan addımlarla irəliləmişdir.

---

[1] "Böyük İslam Enskilopediyası", 3-cü cild, səh.177-178

[2] Himməti Həmayun, "Vəhhabigəri", səh.53

[3] Çahardəhi Nuriddin, "Vəhhabiyyət və rişehayi an", sazimani çap və intişati fəthi, Tehran, payız 1363, 1-ci çap, səh.27

[4] Dehxuda Əli, "Lüğətnamə", səh.297

[5] Himməti Həmayun, "Vəhhabigəri", səh.54

Həmçinin hiss üzvlərinə meyl edənlər və aya pərəstiş edənlər kimi Allahı cisim təsəvvür edərək Onun cism olduğuna inanırlar. O, İslam dünyasında məntiq, fəlsəfə və irfanla mübarizə aparan məşhur adamlardandır. Biz bu kimi şəxslər timsalında dərindən düşünə biləcək bir şəxs görməmişik. Əqli elmlərdə, hikmət və irfanda dərin məlumatı olmayan bəzi sadəlövhlər onun barəsində mübaliğəyə, şişirtməyə yol vermişlər. Amma bizim nəzərimizə görə bu cür mühakimə yürütmək ifratçı səviyyədədir. Əgər İbn Teymiyyənin rəy və düşüncələrinə İslam təfəkkürünün hərtərəfliliyi və külliyyatı baxımından, xüsusilə şiəliyin dərin nəzəriyyələri və ali İslam meyarları ilə nəzər salsaq, onun zahirə nəzər salan və səthi yönlü fikir sahibi olduğunu, donuq, təəssübkeş və puç xəyalların əsiri, söyüş söyən, yalnız özünü haq bilən, sofistliyin əsiri, müğalitəçi (hər şeydə və hər kəsdə səhv tutan) və ən ibtidai, elementar və zəruri məsələləri belə inkar edən adam olduğunu, eləcə də əql və düşüncənin dəyərini aşkar şəkildə nəzərə almadığını, əqli hörmətdən saldığını görürük.”[1]

## *İBN TEYMİYYƏNİN ƏSƏRLƏRİ*

İbn Teymiyyənin hənbəli məzhəbindən son dərəcə ciddiyyətlə tərəfdarlıq etdiyini nəzərə alaraq qeyd etmək lazımdır ki, o, əksər hallarda sair İslam məzhəblərini və onların fəlsəfi əqidələrini rədd etmək yolunda çalışmış, nəhayət onların hamısını batil kimi qələmə vermişdir. Belə ki, o özünün “Minnahüs-sünnə fir-rəddiş-şiə” adlı kitabını məhz şiə məzhəbinin batil olduğunu isbat etmək üçün yazmışdır.

İbn Teymiyyənin İslam maarifində çoxlu risalə (traktat) və kitabları vardır (Quran təfsiri, fiqh, hədis, kəlam və sair). Onların sayı üç yüz cildə çatır və əksəriyyəti də təxribatçılıq yönünə və mənfi məqsədlərə malikdir.[2] Bu kitablarda bütün İslam alimlərinin, xüsusilə şiələrin qarşısında çox səthi və təəssübkeşlik əsasında olan nəzəriyyələrini bəyan edib. Onun yazdığı kitablardan bəziləri aşğıda qeyd olunur:

“Əs-siyasətuş-şəriyyə”, “Əl-fətava”, “Əl-iman”, “Əl-cəmu beynən-nəqli vəl-əql”, “Minnacüs-sünnə”, “Əl-fürqanu beynə övliyaillah və övliyayiş-şeytan”, “Əl-vasitətu beynəl-həqqi vəl-xəlq”, “Əs-sarimul-məslulu əla şatimir-Rəsul”, “Məcmu rəsail”, “Nəzəriyyətul-əqd”, “Ər-rəddu ələl-Bəkri”, “Ər-rəddu ələl-əfnayi”, “Rəful-məlal ənil-əimmətil-əlam”, “Şərhül-əqidətil-isfəhaniyyə”, “Əl-qəvaidun-nuraniyyə”, “Əl-fəqih”, “Məcmumətur-rəsaili vəl- məsail”, “Ət-təvəssəlu vəl-vəsilə”, “Nəqzul-məntiq” və bu barədə yazdığı çoxlu başqa risalələr və kitabların

---

[1] Həmin mənbə, səh.54-55

[2] Fəzai Yusif, “Münazirati imam Fəxr Razi”, səh.214

adını qeyd etmək olar.[1]

"Vəhhabigəri" kitabının müəllifi İbn Teymiyyənin yazdığı əsərlərin adını qeyd etməklə yazır: "...Bu Şeyxul-islam yalnız çox yazmağı, uzunçuluq etməyi və çox danışmağı bacarırdı. O, özünün bu qədər əsərləri ilə heç bir çətinliyi həll etməmiş, heç bir müşkülü aradan qaldırmamışdır."[2] Həqiqətdə Məhəmməd ibn Əbdül-Vəhhabın icad etdiyi "vəhhabi məzhəbi" məhz İbn Teymiyyə və onun şagirdi İbn Qəyyimin fikirlərinin törəməsi idi.

İbn Teymiyyənin şəxsi əqidə və rəylərini araşdırmaqla onun zindanlarda bu qədər qalmasının və İslam alimləri tərəfindən kafir elan edilməsinin, eləcə də onun rəy və düşüncələrinin öz ardınca nə üçün bu qədər müxalifət dalğaları yaratması, həmçinin həm öz əsrinin alimləri, həm də sonrakı əsrlərdəki alimlər tərəfindən qəbul olunmadığının səbəbi aydın olur.

## *İBN TEYMİYYƏNİN ƏQİDƏ VƏ RƏYLƏRİ*

### a) İbn Teymiyyənin nəzərində tövhid.

İbn Teymiyyə Allahdan başqasına təvəssül etmək və ona sığınmağı, övliya və peyğəmbərlərdən hər hansı birini Allah dərgahında şəfaətçi qərar verməyi, böyük din şəxsiyyətlərinin – peyğəmbərlərin və salehlərin qəbrini ziyarət etməyi, onların qəbrinin kənarında namaz qılmağı, həmçinin nəzir və qurbanlığı tövhidlə müxalif olduğunu və bu işlərin şirkə səbəb olduğunu hesab edirdi.[3] * Hətta böyük sünnü alimləri də cürbəcür xurafat və şirklə qarışan, tövhidə zidd olan bu kimi vəhhabi bidətləri ilə müxalifdilər. Onlar qəbirləri ziyarət etməyi, peyğəmbərlərə və salehlərə təvəssül etməyi, onlardan şəfaət diləməyi dini-şəri vəzifə hesab edirlər. Vəhhabilər isə nə sünnüdürlər, nə də şiə. Həqiqətdə heç bir İslam firqəsinin tərkibinə daxil deyillər. Onlar özlərini yalandan İslama mənsub etmişlər. Əslində isə qan axıdan, cinayətkar və İslamı təhrif edənlərdirlər ki, ilk əvvəldən indiyə qədər İslamın və müsəlmanların köksünə ağır zərbələr vurmaqdan başqa bir iş görməmişlər ("Vəhhabigəri" kitabının 214-cü səhifəsinin vərəqaltı haşiyəsi).

Buna əsasən, İbn Teymiyyənin nəzərində müvəhhid (tövhidçi) adı o şəxsə deyilə bilər ki, istədiyi şeyləri birbaşa Allahdan istəsin və heç bir şəxsi vasitə və şəfaətçi qərar verməsin, Allahdan başqasına əsla diqqət yetirməsin.[4]

---

[1] Himməti Həmayun, "Vəhhabigəri", səh.53
[2] Həmin mənbə, səh.56
[3] Himməti Həmayun, "Vəhhabigəri", Həmin mənbə, səh.57
[4] Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati-Səba", Tehran, 1352, 1-ci çap, səh.30

**b) Küfür və şirkin mənasının daha genişləndirilməsi.**

"Ümum müsəlmanların nəinki caiz, hətta müstəhəb hesab etdikləri əməllərin bir qismi İbn Teymiyyənin nəzərində şirkə və dindən çıxmağa səbəb olur. O cümlədən, o deyir: **"Hər kəs təkcə Peyğəmbərin (s) qəbrini ziyarət etmək üçün səfər etsə... Əgər Peyğəmbəri (s), yaxud başqasını ziyarət etsə, məqsədi də onu Allaha şərik qərar verməklə ondan bir şey istəmək olsa bu iş haram və şirkdir. Həmçinin, qəbirlərdən fayda almağı, qəbir sahbinin bəlanı onlardan dəf etməsini gözləyənlər bütpərəstlər kimidirlər ki, onlar kimi bütlərin fayda və ziyana malik olduğuna inanırdılar. Ziyarətə gedənlərin məqsədləri elə müşriklərin məqsədləridir ki, onlar da müvəhhid şəxsin Allahdan istədiyi şeyləri bütlərdən istəyirdilər..."** O, hətta məscidin qonşuluğunda olan, lakin öz iş və peşəsinə uyğun olaraq camaat namazına gedə bilməyən şəxslərin barəsində fətva verərək demişdir ki, **"onlar tövbə etdirilməlidirlər. Əgər tövbə etməsələr qətlə yetirilmələri vacibdir."**[1] İbn Teymiyyə "zöhr namazını gün batana qədər, məğrib namazını gecə yarısına qədər təxirə salanların hökmünü nəql edərək demişdir ki, **"əgər belə bir şəxs bu işi küfür bilməsə onun boynu vurulmalıdır"**. Beşlik təşkil edən namazların hər hansı birini qılmaqdan boyun qaçıran, yaxud namazın danılmaz vacibatını tərk edən həddi-büluğa çatmış şəxs barəsində hökm vermişdir ki, **"belə bir şəxsi tövbə etdirmək lazımdır. Tövbə etməsə öldürülməlidir"**. İbn Teymiyyə məxluqata and içməyi və Allahdan başqasına nəzir etməyi də şirk hesab edirdi."[2]

**v) Allahın zahiri hiss üzvləri ilə görünəcəyini və Allahın cəhətə malik olduğunu isbat etmək.**

İbn Teymiyyə özünün "Risalətül-həməviyyə" kitabını da məhz bu məsələni isbat etmək üçün yazmışdır. "O, Allahın məkanda və cəhətdə olmadığını nəql etdikdən sonra demişdir ki, sünnülüyə mənsub edilən bütün insanlar Allahın görünməsinin isbat olunmasında fikir birliyindədirlər. Sələf alimlərin də nəzəri budur ki, Allah-təalanı axirətdə

---

[1] Himməti Həmayun, "Vəhhabigəri", səh.58

*Ali-Səud əmirlərindən Türki adlı birisi hər məscid üçün iki imam tə`yin etmişdi. Birini camaatın ümumi imam camaatı, digərini isə ticarətlə məşğul olduqlarına və peşələrinə görə namazın əvvəl vaxtında məscidə gələ bilməyənlər üçün nəzərdə tutmuşdu. Bununla istəyirdi ki, heç kəs öz namazını fürada şəkildə qılmasın, hamı camaat namazında iştirak etsin. ("Vəhhabilər" kitabının 31-ci səhifəsinin vərəqaltı haşiyəsi)

[2] Həmin mənbə, səh.59

zahiri gözlərlə görmək olar. Amma Onu dünyada görmək olmaz.[1] Bununla belə, Onu məxluqların əzaları ilə müqayisə etmək olmaz."[2]

Cənab Himməti kitabının bir hissəsində bu etiqadı tənqid edərək yazır:

"İbn Teymiyyənin öz sözləri onun əqidəsində mövcud təzadı göstərdiyindən, bunu tənqid etməyə də ehtiyac yoxdur. Lakin işarə ilə deyirik ki, İbn Teymiyyənin sözündən belə çıxır ki, Allahın pak və müqəddəs Zatı cismdir, məkana malikdir və əzalardan təşkil olunmuşdur. Onun fikrinə görə Allahın zatında əzaların bir-biri ilə tərkibi vardır. Aydındır ki, hər bir tərkib özünün qalıb davam etməsində öz üzvlərinə ehtiyaclıdır. Deməli, hər mürəkkəb (tərkib tapmış şey) ehtiyaclıdır və ehtiyaclı şəxs Allah ola bilməz. Çünki, Allah Özündən başqalarından ehtiyacsızdır və Ondan başqa hər nə varsa ehtiyaclıdırlar: **"Vəllahu ğəniyyun ənil-aləmin (Allah bütün aləmlərdən ehtiyacsızdır)", "Ya əyyuhənnasu əntumul-fuqərau iləllahi vallahu huvəl-ğəniyul-həmid"** (**"Ey insanlar, siz hamılıqla Allaha ehtiyaclısınız və Allah ehtiyacsız və tərifə layiqdir").** Sonra qeyd edir: "Bu da elə dini materializmdir ki, bizim nəzərimizə görə İbn Teymiyyə, İbn Qəyyim və onun həmfikirləri, eləcə də bütün vəhhabilər bunun tələsinə düşmüşlər. Onların hamısı azğınçılıqdadırlar. Etiqadi məsələlərə dərindən yanaşmadıqlarına, əql qüvvəsinə hörmət qoymadıqlarına, həqiqi hikmət və imandan, əsl ilahi fəlsəfədən uzaq düşdüklərinə görə bu zəlalətə düçar olmuşlar. Həmçinin İbn Teymiyyənin əsassız sözləri sonralar Məhəmməd ibn Əbdül-Vəhhabın ideoloji bazasını təşkil edərək vəhhabi ayininin yaranmasına səbəb oldu.[3] "

**q) Allahın dünya asimanına nazil olmasına etiqad.**

İbn Teymiyyə Allahın hiss üzvləri ilə görünməsinə etiqad bəsləməkdən, Allahın müəyyən bir cəhətdə olmasını isbat etməkdən əlavə, həm də inanırdı ki, Allah dünya asimanına nazil olur.

**d) Besətdən qabaq peyğəmbərlərin günahsız olmasının lazım olmadığına etiqad;**

İbn Teymiyyə inanırdı ki, peyğəmbərlərin isməti yalnız Allahın hökmlərinin təbliğ olunması ilə əlaqədardır. O, bu barədə bir risalə də yazmışdı.

**e) İbn Teymiyyənin Allahdan başqasına and içmək barəsindəki**

---

[1] Qeyd etmək lazımdır ki, Allahın axirətdə görünəcəyinə e`tiqad İbn Teymiyyədən neçə əsrlər öncə mövcud olmuş və mürciədən bir qurupu da belə etiqada malik olmuşlar. Eləcə də bir qrup Allah üçün əzaların olmasına və Onun cism olmasına inanmışlar. (Fəqihi, Əliəsğər, "Vəhhabilər", "İntişarati-Səba", Tehran, 1352, 1-ci çap, səh.32)

[2] Himməti Həmayun, "Vəhhabigəri", səh.60

[3] Həmin mənbə, səh.63

**nəzəri;**

"İbn Teymiyyə deyir: Alimlərin fikir birliyinə əsasən Ərş, Kürsü, Kəbə, məlaikə və sair kimi əzəmətli məxluqlara and içmək caiz deyildir."[1] Bu barədə onun şagirdi İbn Qəyyim belə deyir: **"Allahdan başqasına and içmək böyük günahlardandır. Peyğəmbər (s) buyurmuşdur ki, "hər kəs Allahdan başqasına and içsə Allaha şərik qoşmuşdur."** Buna əsasən Allahdan başqasına and içmək kəbirə günahların başındadır."[2]

**ə) Peyğəmbərə (s) təvəssül etməyin, onu şəfaətçi qərar verməyin və ondan bir şey istəməyin şirk olması.**

"İbn Teymiyyə yuxarıdakı işlər barəsində deyir ki, əgər bir şəxs Peyğəmbərin (s) qəbrini ziyarət etdikdə məqsədi dua və salam deyil, Peyğəmbərdən (s) bir hacət istəmək olarsa və bu məqsədlə qəbrin yanında durub səsini ucaldarsa, belə bir şəxs Rəsuli-Əkrəmə (s) əziyyət vermiş, Allaha şərik qoşmuş və özünə zülmü rəva görmüşdür." Qəbir sahibinə təvəssül etmək barəsində isə deyir: "Qəbiri ziyarət edənlərin bəzilərinin məqsədi budur ki, hacətləri rəvac olsun. Onlar qəbir sahibini Allah dərgahına müqərrəb (yaxın) bildiklərinə görə onu Allah dərgahında vasitə qərar verir, onun üçün nəzir edir, qurbanlıq kəsir və qəbir sahibinə hədiyyə edirlər. Ziyarətçilərdən bəziləri öz mal-dövlətinin bir qismini qəbir sahibi üçün ayırır, bəziləri isə qəbir sahibinə məhəbbət göstərdiklərinə görə onun ziyarətinə gedir və qəbir sahibinin ziyarətinə getdikləri səfəri onun sağlığındakı ziyarətinə getdikləri səfər kimi hesab edirlər. Bunlar da bütü Allah hesab edən bütpərəstlər kimidirlər."[3]

İbn Teymiyyə onun öz inanclarının və nəzərlərinin əksinə olan hədislərin zəif olduğunu iddia edir. Belə ki, ziyarətlə əlaqədar nəql olunan (səhih) hədisləri zəif və düzgün olmayan hesab edirdi. Ayətullah ustad Cəfər Sübhani bu barədə belə yazır: **"İbn Teymiyyənin ilkin xəta və sapmalarını göstərən "təşbih" və "təcsim" əqidəsindən əlavə, o, müsəlmanların Peyğəmbəri-Əkrəmə (s) olan eşq və məhəbbət əqidəsini də oyun-oyuncağa çevirmiş, bir sıra batil və zahiri sözlərlə 700 illik sünnəni tənqid etmişdir."**[4]

Şübhəsiz, "İbn Teymiyyə hənbəli məzhəbinin irticaçı əqidəsini müdafiə etməkdə çox təəssübkeş idi. O, İmam Əhməd ibn Hənbəl kimi və hətta ondan bir neçə qat artıq əqidə ilə İslam məzhəblərində sonradan yaranan və müsəlmanlar tərəfindən əməl olunan hər növ yenilikçilik və məzhəbi

---

[1] Həmin mənbə, səh.70

[2] Həmin mənbə, səh.71

[3] Həmin mənbə, səh.73

[4] Sübhani Cə`fər, "Fərhəngi əqaid və məzahibi İslami", 1-ci cild, səh.218

əqidələrlə mübarizə aparır, onları şiddətlə tənqid edir və onların əleyhinə kitablar yazırdı. Bu məsələdə hamıdan artıq şiə məzhəbinin əqidə və əməlləri ilə müxalifətçilik edirdi. O, bu barədə “Minhacüs-sünnə”, “Ziyarətül-qubur” və “Əqaid” adlı kitablarında şiələrin əqidələrinə və əməllərinə qərəzçilik mövqeyindən yanaşaraq şiddətlə etiraz etmiş, onları batil və bidət saymışdır.”[1]

Aydındır ki, İbn Teymiyyədən dörd əsr sonra zahir olan Məhəmməd ibn Əbdül-Vəhhabın tənqidçi əqidələri də məhz İbn Teymiyyənin etirazçı fikirləri və üzdəniraq islahatçı tədbirlərinin davamı idi. Seyyid Möhsün Amulinin dediyi kimi: “Məhəmməd ibn Əbdül-Vəhhab və onun ardıcılları İbn Teymiyyənin tənqidçi əqidələrinin ardınca getmiş və qəbirlərin ziyarəti barəsindəki tənqidi əqidələrini İbn Teymiyyənin əqidəsi əsasında qurmuşlar.”[2]

İbn Teymiyyə ciddi məzhəbi təəssübə malik olduğundan[3] çox səthi və irticaçı fikir və əqidələrə malik idi. Onun hənbəli məzhəbindəki şiddətli əməli və ciddiyyəti səbəb oldu ki, ondan sonra o məzhəb sair müsəlmanların nəzərində mənfur sayılsın və sair İslami məzhəb ardıcılları tərəfindən onun ardıcıllarına bədbinlik yaranıb həmlələr olunsun. O, bundan əlavə özünün elm, fəlsəfə və istidlalla olan müxalifətləri ilə İslam mədəniyyətinin azad fəlsəfə və elminin köksünə sarsıdıcı zərbələr vurdu, azad fikirləşən müsəlmanları, məntiq və istidlal əhlini fəlsəfi və istidlali təfəkkürdən çəkindirdi və bunun əvəzində də müsəlmanları istər-istəməz məzhəbi təəssübə və irticaçı təfəkkürə doğru sövq etdi.

İmam Fəxr Razi yuxarıdakı mətləbə işarə edərək təkid edir: “İbn Teymiyyənin sünnəyə meyilli olan məzhəbi hərəkatı, xüsusilə hənbəli məzhəbində, ümumiyyətlə İslam dinində ondan sonra heç bir inkişafa nail olmadı və nəzərə çarpacaq nailiyyətlər əldə edilmədi. İbn Teymiyyənin və onun şagirdlərinin hədəf və nəzərlərinin əksinə olaraq onun tutduğu üsluba təqribən heç kəs tərəfindən diqqət yetirilmədi. Çünki, dövrü hakimiyyətinin siyasəti onun özünü və fikirlərini himayə etmədi. Əksinə, müəyyən yerlərdə onunla əməli mübarizəyə qalxdı.

---

[1] Fəzai Yusif, “Münazirati-imam Fəxr Razi”, səh.217

[2] Amuli Seyyid Möhsün, “Tarixçeyi-nəqd və bərrəsiye-vəhhabiha”, Seyyid İbrahim Ələvinin tərcüməsi, “Əmir kəbir” nəşriyyatı, Tehran 1365, səh.133

[3] İbn Teymiyyənin şiələrə qarşı şiddətli təəssübə malik olduğu şeylərdən biri də Əhli-beytin (ə) fəzilətlərini inkar etmək idi. O, kitabının bir yerində belə yazır: “Hər kəs Əli ibn Əbitalib (rəziyəllahu ənh) kimi saleh şəxsiyyət, yaxud ölü və diri şəxslər barəsində həddini aşsa və onda bir növ müqəddəslik olduğuna inansa, yə`ni onu dünya işlərində tə`sirli bilib ondan kömək istəsə, belə şəxs tövbə etməlidir. Əks halda qətlə yetirilməsi vacibdir.” (“Münazirati imam Fəxr Razi” kitabının 219-cu səhifəsindən)

Lakin hicrətin XII əsrində vəhhabilər tərəfindən hənbəli məzhəbində başqa bir hərəkat başlandı. Onların əqidələrinin əsası İbn Teymiyyənin əqidə və üslubunun üzərində qurulmuşdu ki, Səudiyyə Ərəbistanı dövlətinin onu himayə etməsi, hətta bəzilərinin dediyinə görə İngiltərə və qərb siyasətçilərinin nüfuzunun güclənməsi sayəsində hənbəli məzhəbinin o əsrdə bir daha yenidən canlanıb əhəmiyyət kəsb etməsinə səbəb oldu."[1]

## *İBN QƏYYİM COVZİYYƏ*

## *TƏRCÜMEYİ-HALI*

"Məfatihül-cinan" kitabının məllifi mühəddis Qumi özünün "Əl-kuna vəl-əlqab" adlı dəyərli kitabında İbn Qəyyim barəsində yazır: "Onun adı Məhəmməd ibn Əbu Bəkr Hənbəli olmuşdur..."[2] Dehxuda isə onu belə qeyd edir: "Şəmsəddin Əbu Əbdillah Məhəmməd ibn Əbu Bəkr ibn Əyyub Zəri 691-ci hicri ilinin səfər ayının 7-də (1292-ci il yanvarın 29-da) dünyaya gəlmişdir. Onun nə üçün "İbn Qəyyim Covziyyə" adlanmasına gəldikdə isə, bunun səbəbi onun atası, yaxud babasının Dəməşqdə "Covziyyə" mədrəsəsinin idarə olunmasını öhdəsinə alması idi."[3]

Şübhəsiz, İbn Qəyyimin atası "Covziyyə" mədrəsəsində işlədiynə görə hənbəlilərin rəy və əsərləri ilə tanış olmuşdur. Ehtimal verilir ki, bu məlumatlar uşaqlıq çağlarında onun övladına keçmişdir. Çünki, onu İbn Qəyyimin ustadlarından biri hesab etmişlər. İbn Qəyyimin həyatı, eləcə də ideoloji cəhətdən nə cür yetkinliyə çatması barədə heç bir məlumat yoxdur.

Onun şagirdlərinin, o cümlədən, İbn Kəsir və İbn Rəcəbin onun həyatı barəsində müəyyən mətləbləri qeyd etmələrinə baxmayaraq, İbn Qəyyimin uşaqlıq və yetkinlik dövrləri barəsində dəqiq məlumatları yoxmuş və əksər hallarda onun fikri cəhətdən yetkinliyə çatıb püxtələşdiyi dövrdəki elmi və dini şəxsiyyətinə işarə etmişlər. Onun öz yazıları da, hətta həyatının külliyyatı da uşaqlıq və cavanlıq dövrlərindəki vəziyyətini aydınlaşdırmır. Sanki, onun mədəni həyatı Təqiyuddin İbn Teymiyyənin elmindən bəhrələndiyi dövrlərdən başlayır. Əlbəttə, bu o demək deyil ki, İbn Qəyyim İbn Teymiyyənin hüzuruna çatdığı vaxtlardan qabaq fikri və mədəni həyata qədəm qoymamışdır. Şübhəsiz, o VII əsrin axırlarında və VIII əsrin əvvəllərində dövrün bəzi elmlərinə yiyələnmiş və o zamanın ustadlarından çoxunun yanında elm

---

[1] Fəzai Yusif, "Münazirati imam Fəxr Razi", səh.221-222
[2] Himməti Həmayun, "Vəhhabigəri", səh.75
[3] Dehxuda Əli, "Lüğətnamə", ibn Qəyyim kəlməsində

öyrənmişdir. Belə ki, o, İbn Əbil Fəth Bəli (709 h.q ildə vəfat edib) və Məcduddin Tunisinin (818 h.q ildə vəfat edib) huzurunda ərəb ədəbiyatını, o cümlədən Əbul Bədanın "Əl-müləxxəs"ini, İbn Malikin "Əlfiyyə"sini, İbn Usfurun "Kafiyətuş-şafiyə" və "Əl-müqərrib" kitabının bəzi hissələrini Məcduddin Sərrafinin yanında (729 h.q ildə vəfat edib) oxumuş, fiqhi kitablardan Əbül Qasim Hərəqinin "Müxtəsər", İbn Qüdamənin "Əl-muğni" kitablarını öyrənmiş, üsul və kəlamı Səfiyuddin Hindidən dərs almışdır. Eləcə də Fəxri Razinin "Əl-ərbəinu vəl-mühəssəl" kitabını onun yanında oxumuşdur... İbn Şirazidən, İbn Məktumdan, ibn Əbdid Daimdən, Təqiyuddin Süleyman Mütimdən, Şahabuddin Nablusidən və İbrahim ibn Məhəmməd ibn Cövhərin qızı Fatimədən hədis eşitmişdir. Əgər Mərağinin dedikləri düzgün olsa, İbn Qəyyim İbn Teymiyyənin hüzuruna çatmazdan əvvəl, yəni 712-ci hicri ilindən əvvəl sufiliklə də tanış idi və sufiliyə meyl göstərirdi. Bütün bunlarla belə, İbn Qəyyimin öz yazılarından və başqalarının onun barəsindəki uzun və ya qısa söhbətlərinin məcmusundan aydın olur ki, onun təhsili cavanlığının sonlarına yaxın dövrdə çiçəklənib təkmilləşmişdir. Yəni İbn Qəyyim 21 yaşında ikən İbn Teymiyyənin Qahirədən Dəməşqə qayıtdığı 712-ci ildə ona qoşulmuş və onunla 16 il bir yerdə olmuş və ondan çox faydalanmışdır...[1]

Həqiqətdə İbn Qəyyim, İbn Teymiyyənin ən fəal və işgüzar şagirdlərindən sayılırdı. Hətta bəziləri onu İbn Teymiyyənin səhabələrinin başçısı hesab etmişlər[2]. O, öz ustadının bütün fikir və əqidələrini qeydsiz-şərtsiz qəbul etmiş və onun xüsusi şəxsiyyətini qorumaqla yanaşı, həm də onun sözlərini nəql edərək yaymışdı. O da ustadı kimi dövrünün bütün elmlərində (təfsir, hədis, üsul və firui-fiqh) məharətli idi və "onun kimi, İbn Ərəbinin təlimlərindən qaynaqlanan ittihadiyyə yolu ilə qəti şəkildə müxalif idi. Lakin onun əksinə olaraq sufilikdən çox təsirlənmişdi və o dövrdə İslam ölkələrində çox şöhrətə malik olan Xacə Əbdüllah Ənsarinin "Mənazilüz-zairin" kitabına xüsusi maraq göstərirdi. İbn Qəyyim öz ustadına nisbətən çox az mübahisə edirdi. Lakin o əksər hallarda mövizə edərdi."[3]

Şagirdin ustadından (İbn Qəyyimin İbn Teymiyyədən) təsirlənməsi barəsində "Əd-dürərul-Kaminətu" kitabında belə nəql olunur: İbn Teymiyyənin məhəbbəti İbn Qəyyimə o qədər təsir etmişdi ki, onun sözlərindən heç bir vəchlə kənara çıxmır, bütün işlərdə onun sözü ilə kifayətlənirdi. Məhz o, ustadının kitablarını təhzib edərək (müəyyən

---

[1] "Böyük İslam Enskilopediyası", 4-cü cild, səh.498-499
[2] Həmin mənbə, səh.499
[3] Himməti, Həmayun, "Vəhhabigəri", səh.76

qədər xülasələndirərək) elmini yayırdı.” Bu barədə doktor Nəzar Rza, İbn Qəyyimin yazdığı “Əxbarun-nisa” kitabının müqəddiməsində belə yazır: “O İbn Teymiyyədən ən çox bəhrələnmiş, onun sözlərini və təfəkürünü qəbul etmiş və fikirlərini yaymağa başlamışdı. O, ustadı ilə əməl və rəydə şərik idi.”[1]

İbn Qəyyim İbn Teymiyyənin düşüncələri, rəyləri və təlimatı ilə tanış olduqdan sonra onun sözlərindən təsirləndiyinə görə Xəlilullahın (ə) məqbərəsinin ziyarətinə getmək səfərini inkar etdi və buna görə də həbs edildi. Bu hadisə 726-cı ildən qabaq baş verməliydi. Çünki, bu dövrdə bir daha olaraq ustadı İbn Teymiyyənin təəssübkeş fikir və rəyləri xatirinə Dəməşq qalasında həbs edilmişdi “və məhz həmin zindanda İbn Qəyyim Quran ayələrində dərindən fikirləşməyə başlamışdır.”[2]

728-ci hicri ilində İbn Teymiyyə öldükdən sonra İbn Qəyyim də zindandan azad edildi. Onun zindandan azad olduğu dövrdən Şam karvanı ilə həcc səfərinə getdiyi 731-ci ilə qədər mövcud şərait barəsində dəqiq məlumat yoxdur.[3] Amma aydındır ki, “ona maneçilik törədilirdi. Çünki, ölkənin dövlət adamları İbn Teymiyyənin yeni hənbəli məzhəbi müqabilində maneçilik törədirdilər.”[4] Bu maneçiliklərə baxmayaraq hənbəlilər onu İbn Teymiyyənin ən vəfalı və doğruçu nümayəndəsi hesab edərək “Covziyyə” mədrəsəsində onun imaməti ilə namaz qılırdılar. Bundan əlavə, İbn Qəyyim bu illərdə özünün bəzi əsərlərini yazmağa səy göstərirdi. İbn Teymiyyənin ardıcılları olan bəzi hənbəlilər də onun fətvalarını aşkar etmək üçün ona müraciət edirdilər. Ehtimal verilir ki, həmin illərdə onun dərs məclisləri də bərqərar olurdu.”[5] Belə ki, 736-cı il rəcəbin 2-də ilk dəfə olaraq Nəcmuddin ibn Xalixanın Dəməşqin Ğutə bağlarında “Tuma” və “Şərqi” qapısının darvazasının kənarında tikdiyi məsciddə xitabə söylədi.[6]

Şübhəsiz, İbn Teymiyyənin dərsləri 743-cü qəməri ilində daha ümumi və rəsmi xarakter aldı. “Çünki, həmin ilin səfər ayından etibarən, onu hənbəlilərin Dəməşqdəki mədrəsələrindən digər bir mühümü sayılan “Sədriyyə” mədrəsəsində tədrislə məşğul olduğunu görürük.”[7] O, bu mədrəsədə tədris etdiyi vaxt İbn Teymiyyənin fətvalarının bəzilərini xatırladırdı. Bu da onun Təqiyuddin Səbki kimi ən böyük

---

[1] Həmin mənbə, səfh9

[2] “Böyük İslam Enskilopediyası”, 4-cü cild, səh.494

[3] Demişlər ki, Əmir İzzuddin Abikin rəhbərliyi ilə Şamın həcc karvanında bir çox fəqihlər və mühəddislər də onlarla yanaşı idi. (“Vəhhabigəri”, Himməti, səh.77)

[4] Himməti Həmayun, “Vəhhabigəri”, səh.77

[5] “Böyük İslam Enskilopediyası”, 4-cü cild, səh.499

[6] Himməti Həmayun, “Vəhhabigəri”, səh.77

[7] “Böyük İslam Enskilopediyası”, 4-cü cild, səh.499

müxaliflərindən olan bəzi şəxslərin müxalifətinə səbəb olmuşdur[1]. İbn Qəyyim təqribən səkkiz il "Sədriyyə" mədrəsəsində tədris edərək hənbəli fiqhində şagird yetişdirdi və nəhayət 751-ci il rəcəb aynın 23-də Dəməşqdə dünyadan getdi. O, "Babus-səğir" qəbristanlığında öz anasının yanında dəfn edildi. Oğlu (Şərəfuddin Əbdüllah) "Sədriyyə" mədrəsəsində atsının yerində oturdu.[2]

## *İBN QƏYYİM COVZİYYƏNİ ŞAGİRDLƏRİ*

İbn Qəyyimin yanında çoxları şagirdlik etmişlər. Xüsusilə onun "Sədriyyə" mədrəsəsində tədrisi nəticəsində hənbəli fiqhində çoxlu şagirdlər yetişmişdi. Onlardan aşağıdakıları qeyd etmək olar:

1. İbn Kəsir. onun öz dediynə əsasən o, İbn Qəyyimə hamıdan artıq yaxın idi.
2. İbn Rəcəb. O, ustadından ömrünün axırına qədər bəhrələnmiş və özünü alim hesab etmişdir.
3. Şəmsuddin Məhəmməd ibn Əhməd ibn Əbdül Hadi Müqəddəsi Cəmmaili (744 h.q) O, VIII hicri əsrinin məşhur mühəddislərindəndir.
4. Şəmsuddin Məhəmməd ibn Əbdul Qadir Nablusi Hənbəli (797 h.q). O, İbn Teymiyyənin yazılarının çoxunu onun yanında oxumuş və fiqhi ondan öyrənmişdir. Bunlardan əlavə, İbn Qəyyimin məşhur sayılan tələbələrindən biri Burhanuddin İbrahimdir (767h. q). O, atasının yanında fiqh və nəhvi öyrənmiş, İbn Malikin "Əlfiyyə"sinə şərh yazmışdır. Digəri isə Şərəfuddin Əbdüllahdır ki, öz dövrünün fəzilətli adamlarından sayılırdı və atasının vəfatından sonra "Sədriyyə" mədrəsəsində tədris kürsüsündə oturmuşdu.[3]

## *İBN QƏYYİM COVZİYYƏNİN ƏQİDƏ VƏ RƏYLƏRİ*

## *TÖVHİD MƏSƏLƏSİ*

İbn Qəyyim sələfi məzhəbində idi və sələfilərin nəzərlərində əsər-

---

[1] O, fiqhi məsələlərdə Dəməşqin şafei qazil-qüzatı Təqiyuddin Səbki ilə ixtilafa düşdü. Lakin onların işləri heç vaxt ciddi mübarizəyə gətirib çıxarmadı. Bir dəfə müsabiqədə mühəllilin varlığı barəsində idi ki, (iki nəfərlik müsabiqədə iştirak edən üçüncü nəfər mühəllil adlandırılır. O, müsabiqədə iştirak edir, amma heç bir məbləğdə pul ödəmir.) İbn Qəyyim, İbn Teymiyyə kimi nəzər verdi və dedi ki, bu müsabiqədə mühəllilin varlığına ehtiyac yoxdur. Qazil-qüzat onu çağırdı və çarəsiz qalaraq əksəriyyətin rə`yinə tabe oldu. Bir qədər sonra bir daha təlaq barəsində İbn Teymiyyənin tə`limatlarına müvafiq olan bir neçə fətva verən Səbki ilə ixtilafa düşdü. Əmir Seyfuddin ibn Fəzl Bədri onunla rəqibini barışdırdı ("Vəhhabigəri" kitabından, 77-78-ci səhifələr).

[2] Himməti Həmayun, "Vəhhabigəri", səh.78

[3] "Böyük İslam Enskilopediyası", 4-cü cild, səh.500

əlamət görünməyən fəlsəfi, irfani və elmi məlumatların çoxunu qəbul etmirdi. "İbn Qəyyimin çoxlu yazılarında təkrar olunan rəylərin əsası tövhid məsələsidir... Çünki, tövhid məsələsi sələfilərin nəzərində ən əsaslı və ümdə məsələlərdəndir. O tövhidə yalnız elmi və ilahi yöndən diqqət yetirmir, həm də ona fərdi və ictimai davranışda mühüm bir qisməti əhatə edən insani əsil kimi baxırdı"[1]

## *QURANIN TƏFSİRİ VƏ ŞƏRHİ*

İbn Qəyyimin Quran, onun təfsiri və şərhi barəsindəki məlumatları da onun yazılarının böyük bir hissəsini əhatə edir. O öz təsəvvürlərinin çoxunu təkcə ustadının adına yazmamış, əksinə xırda surələr barəsində də kiçik təfsirlər yazmışdır. Bundan əlavə, özünün sələfiliyə meylinə uyğun olaraq təfsirlərdə də onların rəy və nəzərlərinə çox etimad edirdi. Amma bu, onun səhabələrin və tabeinin sözlərinə çox istinad etməsi mənasında o deyildi ki, özünün sələfiliyə uyğun olan istinbatlarında və "bədəli rəy" və etiqadlarında Quran ayələrini təfsir etməmiş olsun. O, batini firqələrin hamısının şərhlərini səhv və batil hesab etməkdən əlavə, İslamda baş verən üsul və fiqh əhlinin son dövrlərdəki ardıcıllarını özünə məftun edən şərhi bir cinayət hesab edirdi. O, "təfriqə hədisində" o kəsləri yolunu azmışlar hesab edirdi ki, onlar şərhlərə rəğbət edirdilər. Amma onun özü də bəzən Quranda şərhə yol verirdi.[2]

## *HƏDİS ELMİ*

İbn Qəyyimin vahid xəbərlərin tanınmasında seçdiyi yolu, hər hansı bir hədisin mövzu kimi tanınmasındakı mövcud olan qayda-qanunları göstərməsi və hədislər əsasında bir silsilə Peyğəmbər (s) həyat və fəaliyyətinin yazılması onun hədis və rəvayətlər barəsində tam məlumata malik olduğunu göstərir. Öz dövrünün fəqihləri sırasında "Müfti İbn Qəyyim" ünvanı ilə tanınmışdı və o, müxtəlif dövrlərə uyğun olaraq fətvaların, hökmlərin və işlərin idarə olunmasının dəyişilməsi nəzəriyyəsinə inanırdı. Onun nəzərinə görə, hakimlərin istifadə etməli olduqları hizbi siyasətlər, dövrün keçməsi və müxtəlifliyi ilə dəyişir və bəzilərinin səhvi bundadır ki, Rəsuli-Əkrəmin (s) və səhabələrin öz dövrlərində istifadə etdikləri bu kimi tədbirləri əbədi şəriət kimi qəbul etmiş və ondan kənara çıxmağı rəva bilməmişlər. Buna görə də qədimlərin tərəfindən görülən hər hansı bir tədbir varsa dəqiq şəkildə araşdırılmalıdır. Onun hərtərəfli və daimi qanun olmasımı, yoxsa dövrün məsləhətinə tabe olan zaman və məkan şərtləri ilə hüdudlanan bir tədbir

[1] Həmin mənbə, səh.500
[2] Böyük İslam Enskilopediyası", 4-cü cild, s səh.500

olmasını arşdırmaq lazımdır. İbn Qəyyim "Ət-turuqul-hikmətiyyə" kitabını məhz buna görə yazmışdı ki, çoxlu şahidlər gətirməklə keçmiş insanların camaatın hüququnu dirçəltmək üçün məhkəmə məqamında, cəmiyyətdəki işlərin idarə olunmasında və müsəlmanların ümumi mənfəətinin təmin olunmasında əqli tədbirlərdən necə istifadə olunmasını göstərsin. O, kitab və sünnədə gələn və icazə verilən üslubları məhdud hesab etmirdi.

İbn Qəyyimin əqidə və rəylərindən biri onun başqa məqsədlə deyil, yalnız ziyarət məqsədi ilə səfərə getməyin inkar edilməsi barəsində nəzəriyyəsini qeyd etmək olar. Belə ki, yuxarıda da qeyd edildiyi kimi, bu nəzəri bildirdiyinə görə onu həbs etmişdilər. O həm də inanırdı ki, qəbirlərin üzərində məscid və məqbərə tikmək əsla rəva deyildir.[1]

## *FƏLSƏFƏ, HİKMƏT VƏ SUFİLİK*

"Üsuli-dində və şəriət haqqında fəlsəfi düşüncə İbn Qəyyimin dövründəki fikri və ideoloji ənənələrdən biri idi ki, o da həmin fikirlərlə mübarizə aparmış və onu qeyri-dini fikir və ənənələr kimi qələmə vermişdi. O, hikmətdə İbn Teymiyyənin əsər və rəylərinin təsiri altına düşmüş, fəlsəfi rəylərin inkar olunmasında ustadının fəlsəfəçilərin sözlərini və məlumatlarını batil etmək üçün çox da təsiri olmayan sözlərinə nəzər salmışdır. İbn Qəyyimin təsəvvürünə görə fəlsəfənin mənşəyi elə bir dövrə gedib çatır ki, İblisin şübhələri ilə əql və nəqlin müarifəsindən (qarşılıqlı olaraq bir-birini təqdim etməsindən) başlanmışdır. İbn Qəyyim görkəmli yunan filosoflarından olan Sokratın tövhidçi, Allahın sifətləri ilə tanış olan və məada inanan bir şəxs olduğunu qəbul edirdi. O, bütlərə ibadət etməyi inkar edərək aləmin hadis olmasına inanan Əflatunu da qəbul edirdi. Lakin yunan əqli elmlərini rədd etdiyinə görə əksər hallarda Ərəstuya (Aristotelə) nəzər yetirirdi ki, İbn Qəyyimin nəzərinə görə o aləmi qədim hesab etmiş, lakin, başqa fəlsəfənin təsiri altına düşmüşdür. O, Ərəstunun sözlərinə etina edən, onu "birinci müəllim" adlandıran və onun məntiqini əqli istidlalın meyarı hesab edən filosofların çoxunu mülhidlər (dinsizlər) sırasında hesab edirdi."[2]

"İbn Qəyyimin fəlsəfə, eləcə də Farabi, İbn Sina, Məhəmməd ibn Zəkəriyya Razi və xüsusilə Xacə Nəsirəddin Tusi kimi filosoflar barəsində səthi yanaşmasına baxmayaraq, onun sufiliklə, xanəgah (şeyxlərin və dərvişlərin oturub-durduğu evlər) ədəbləri, eləcə də fəlsəfi irfanla qarşılaşması halları onun malik olduğu məlumata görə daha artıq

---

[1] Böyük İslam Enskilopediyası", 4-cü cild, səh.500
[2] Həmin mənbə, səh.501

baş verirdi. Onun bu barədə də təhqiqatçı və kamil mərifətdən faydalanmadığına baxmayaraq, onu mərifət əhlinin elminə agah olan, irfanın dəqiq məsələlərini anlayan, sufiliyin mətnlərini və sufinin böyük şəxsiyyətlərini tanıyan bir arif hesab etmişdilər...

Onun sözlərinin məzmunundan aydın olur ki, o, təsdiq olunması kitab və sünnədə görünməyən, yaxud sələfilər tərəfindən təsdiq edilməyən irfani təsəvvürləri və xanəgah ədəblərini qəbul etmir, hətta iddia edirdi ki, sufilərin vəziyyətlərini və məlumatlarını əməllə qarşılaşdırmaq, onun düz olub-olmamağını isə elm yolu ilə öyrənmək lazımdır.

İbn Qəyyimin xanəgah öyüd-nəsihətlərinə yazdığı tənqidlər və rədlər, eləcə də onun vəhdəti-vücuda inananlarla apardığı mübarizə o vaxt qüvvətləndi ki, İbn Teymiyyənin bu barədə yazdığı əsərləri üzərində fikirləşməyə başladı. Onun sufi öyüd-nəsihətlərinə irad tutmasına, onları xəvaricdən və mötəzilə sinfindən saymasına baxmayaraq, sufilərin inanclarına, ixtilaflarına və adətlərinin bəzilərinə edilən tənqidləri haqlı bilirdi. Çünki onlar kef əhlidir və sufiliyə aşiqcəsinə bağlıdırlar.

Lakin, məcmu etibarı ilə İbn Qəyyimin sözünün məğzi əslində xələf xanəgahların ardıcıllarına yönəlir və onları cəhalətdə ittiham edirdi. Amma Cüneyd, Bayəzid Bəstami, Səri Səqəti kimi sələf sufilər onun nəzərində Qurana və sünnəyə riayət edərək bu ikisinin arasında seyri-süluk edən ariflərdən hesab olunuru.”[1]

## *İBN QƏYYİM COVZİYYƏNİN ƏSƏRLƏRİ*

İbn Qəyyim bir çox elmi və etiqadi əsərlər yazmışdır. “Səxavi onun 52 əsərini qeydə almışdır.”[2] Amma onun nə qədər yazı və əsər yazması barəsində ixtilaf mövcuddur. Şübhəsiz, “İbn Qəyyimin əsərlərində bir neçə məsələyə diqqət yetirməliyik. Biri bundan ibarətdir ki, onun əsərləri dini-məzhəbi mübahisələri əhatə etdiyinə görə son yüz illiklərdə onun tərəfdarları, xüsusilə onun rəylərindən istinbat edən sələfilər qəsdən təhrifə yol vermişlər. Buna görə də onun əqidə və rəylərinin düzgün şəkildə araşdırılıb tənqid edilməsi gərək onun əsərlərinə yazılan tənqidi düzəlişlər, yaxud əsl nüxsələr əsasında baş versin. Digəri bundan ibarətdir ki, onun dini-mədəni nəzərlərinin və rəylərinin mənşəyi İbn Cövzi və İbn Teymiyyə kimi sələfilərin əsərləri olduğundan bu iki şəxsin əsərlərini İbn Qəyyimdən qabaqkı hənbəlilər də araşdırıb təftiş etmək və hətta düzəliş aparma nəticəsində kifayət qədər istifadə etmiş olsunlar. Eləcə də, İbn Qəyyimin məşğul olduğu mövzuların təkrar və müştərək olması, (ona çox əhəmiyyət verdiyinə görə) onun əsərlərinin

---

[1] Böyük İslam Enskilopediyası”, 4-cü cild, ssəh.51

[2] Həmin mənbə

araşdırılmasında nəzərə alınmaya bilməz.”[1]

İndi İbn Qəyyimin əsərləri barəsində qeyd olunan müqəddiməyə diqqət yetirməklə onun əsərlərini təqdim edirik: Cənab Humayun Himməti öz kitabının bir hissəsində İbn Qəyyimin əsrlərinin siyahısını belə qeyd etmişdir:

“Əlamul muqiin ən Rəbbil-aləmin”, (yaxud kamil müftinin İbn Teymiyyənin əqidələrinə müvafiq üsuli-dində yolgöstəricisi) “Bədayiul-fəvaid”, “Əxbarun-nisa”, “İğasətül-əfham min məkaidiş-şeytan”, “İğasətul-əfham fi hökmi təlaqil-ğəzbani vəs-səkran”, “Əttibyanu fi əqsamil-Quran”, “Cəlaul-əzham fis-səlati vəs-səlami əla xeyril-ənam”, “Əl-cəvabul-kafi limən səələ ənid-dəvaiş-şafi”, “Hadil-ərvah ila biladil-əfrah”, “Zadul-məad fi hədyi xəyril-ibad”, “Kitabus-səlati və hökmu tarikiha”, “Uddətus-sabirin və zəxirəruş-şakirin”, “Əl-kəlimut-təyyib”, “Təfsirul-müvəztəteyn”, “Mədaricus-salikin” (Xacə Əbdüllah Ənsarinin “Mənazilus-sairin” kitabına şərhdir və bunu hənbəli sufilərin məzhəbinin şah əsəri hesab etmək olar), “Ətturuqul-hökmiyyə”, “Əl-vabilus-səyyubu minəl-kəlmit-teyyib”, “Əssəvaiqul-mürsələtə ələl-cuhəmiyyəti vəl-müəttilə”, “Rovzətul-muhibbin və nuzhətul-muştaqin”.

Həmçinin qeyd olunur ki, İbn Qəyyim “siyasətdə İbn Teymiyyənin fikirlərindən ilham almışdır. Bu onun “Hisbə”, “Kitabus-siyasətiş-şəriyyə” adlı kitablarında qeyd olunmuşdur.” Üsuliddin haqqında yazdığı “Qəsidətun-nuniyyə” (Axırı «nun» hərfi ilə bitən qəsidə) əsas etibarı ilə «İttihadiyyə» əqidəsi ardıcıllarını rədd etmək üçün (şer şəklində) yazılan etiqadnamədir.[2]

Cənab Himmətinin inancına görə “hazırkı dövrdə də İbn Qəyyimin əsərləri təkcə vəhhabilərin arasında deyil, hətta sələfilərin, həmçinin Afrikanın şimalındakı İslami yığıncaqlarda çoxlu oxucuları vardır.” Şübhəsiz, İbn Qəyyim öz ustadı İbn Teymiyyə kimi etiqadi məsələlərdə çoxlu səhv və yanlışlıqlara düçar olmuşdur. Onların biri də Allahın hissi duyğularla görünə bilməsi məsələsidir ki, o özünün uzun-uzadı “Kafiyətuş-şafeiyyə” qəsidəsində İbn Teymiyyə kimi aşkar şəkildə bu xəta və yanlış mətləbi etiraf və bəyan etmişdir. Ümumiyyətlə, İbn Qəyyim də özünün ideoloji müəllimi və rəhbəri kimi etiqad bölməsində çoxlu səhvlərə və inhiraflara düçar olmuşdur. Onun fikirləri də vəhhabi firqəsinin banisi (yəni Məhəmməd ibn Əbdül-Vəhhab) tərəfindən istifadə olunmuşdur və vəhhabilərin dərin köklərə malik olan bu azğın fikirləri, eləcə də Əhməd ibn Hənbəl, İbn Teymiyyə və İbn Qəyyimin azğınçı fikirləri İslam cəmiyyətində çoxlu təfriqələrin və nifaqların yaranmasına

---

[1] Həmin mənbə

[2] Himməti Həmayun, “Vəhhabigəri”, səh.78-80

səbəb olmuşdur. Biz kitabın başqa bölməsində hənbəli məktəbinin, onun çox təəssübçü, puç əqidə və rəylərinin yaranmasında mühüm rol ifa edən Ali Əbdül-Hadi barəsində söhbət edəcəyik.

## *ALİ ƏBDÜL-HADİ*

Ali Əbdül-Hadi (Əbdül-Hadi sülaləsi) hənbəli məzhəbinin VII əsrdən sonrakı fəqihlərindən hesab olunur.[1] Onlar Şeyx Əhməd ibn Məhəmməd ibn Qüdamənin qardaşı Yusifin övladlarından olduğundan onların barəsində məlumat əldə etmək üçün əvvəlcə Ali Qüdaməni araşdırmalıyıq. Şübhəsiz, Ali Qüdamə əslən fələstinli və hənbəli məzhəbli bir sülalə olmuşlar. Onların içindən çoxlu fəqihlər, müsnədçilər, hafizlər və qazilər çıxmışdır ki, onların hənbəli məktəbinin yayılmasında göstərdikləri elmi-dini fəaliyyətlər Fələstin, Dəməşq, Misir, Bəəlbək və Bağdadda çox təsirlər qoymuşdur.

Ali-Qüdamə Nablosun tabeçiliyində yerləşən Cəmmail, yaxud Cəmmain kəndində yaşayan Qüdamə ibn Miqdam ibn Nəsir ibn Əbdüllaha mənsub edilir. Hazırkı dövrdə əsas etibarı ilə hənbəli məktəbi və Əhməd ibn Hənbəlin təlimləri əsasında qoyulan bu kəndin dini və məzhəbi işlərinin rəyasəti bu sülalənin öhdəsinədir. Həqiqətdə Ali-Qüdamənin elmi həyatı səlibçilərin miladi tarixi ilə V əsrin axırlarında və XI əsrin əvvəllərində Beytül-müqəddəsi işğal etdikləri zaman faəliyyətə başladı. Bu barədə Böyük İslam Enskilopediyasında belə qeyd olunur: "...492-ci h.q ilində (1099-cu miladi) Beytül-müqəddəsin səlib yürüşləri nəticəsində süqut etməsinin ardınca səlibçi əmirlər feodal surətinə düşdülər və camaatın ictimai və fərdi həyatına çoxlu əngəllər və təzyiqlər törətdilər. İşsizlik, ağır xərac vermək, həbs edilmək, hətta ayaqlarının kəsilməsi və bu kimi müxtəlif işgəncələr altında olan Cəmmail əkinçiləri və onun ətrafındakı kəndlərin sakinləri özlərinə təskinlik vermək üçün Şeyx Əhmədin sözlərinə itaət etdilər. Məhəmməd ibn Qüdamə və daha sonra onun oğlu Əhməd və nəvəsi Məhəmməd Əbu Ömər Cəmmail kəndinin dini işlərini öhdəsinə aldılar. O zamanda

---

[1] İbn Əbdül-Hadinin vəziyyəti və əhvalı barəsində çox az mə`lumat vardır. O da, ümumiyyətlə, ərəb dilindədir. Aydındır ki, onların araşdırılması çox vaxtı və geniş tədqiqatları tələb edir. Lakin bu sülalə barəsində "Böyük İslam Enskilopediyası"nın 2-ci cildində (87-95-ci səh.) qeyd olunan mə`lumatlara diqqət yetirməklə onun Ali Qüdamə ilə bağlılığını anlamaq olar. Qeyd olunmalıdır ki, o mənbə Ali Qüdamənin keçmiş tarixinə qısa bir nəzər saldıqdan və onun məşhur şəxsiyyətlərinin adını qeyd etdikdən sonra iki səhifədə ibn Əbdül-Hadinin (Ali Qüdamın bir şaxəsidir) məhşur şəxsiyyətlərindən söhbət açılır. Özü də bu sülalənin məşhur şəxsiyyətlərinin adına və necə, harada və kimdən hədis eşitməklərinə işarə olunmuşdur. Amma onların tarixi keçmişləri, mühüm tədbirləri, hənbəli fiqhindəki tə`sirləri və o fiqhi yaymaları qətiyyən araşdırılmamışdır.

səlibçilər tərəfindən Cammailə hakim olan Əhumən ibn Barizan əkinçilərin Şeyx Əhmədin ətrafına toplaşmalarını bəhanə edərək onları işdən çıxarıb onu öldürmək qərarına gəldi. Buna görə də Əhməd 551-ci h.q ilində (1156-cı miladi) Nuriddin Məhəmməd ibn Zəncinin fərmanı altında olan Dəməşqə köçdü. Bu da elmi fəaliyyətlərin hicri tarxi ilə VI əsrin ortalarından XI hicri əsrinə qədər davam etməsinə şərait yaratdı. Ali-Qüdamə əvvəlcə Dəməşqin "Əbu Saleh" məscidində olur və Şeyx Əhməd orada hənbəlilərə imamət edirdi. Amma Cəmmail və başqa kəndlərin əhalisinin çoxunun köçməsi orada köçkünlərin işini çətinləşdirdi və onların arasında çoxlu xəstəliklər yayılmağa başladı. Digər tərəfdən, hənbəli məzhəbinə malik olmaq da onlar üçün çoxlu çətinliklər törətdi. Təqribən üç ildən sonra "Əbu Saleh" məscidini tərk edib bundan əvvəl öz ölülərini dəfn etdikləri Qasiyun dağının ətəyinə köçdülər. Bundan sonra həmin məntəqə onların adına olaraq "Salehiyyə" adlandırıldı. Şeyx Əhməd orada "Deyrul-hənabilə"ni tikdi ki, hal-hazırda "Cameul-hənabilə" (hənbəlilərin mərkəzi) adlanır. Onun əsərləri hələ də qalmaqdadır. Sonra orada çoxlu evlər, bazarlar, mədrəsələr və məscidlər tikdilər. Beləliklə Salehiyyə dini və elmi fəaliyyət mərkəzindən birinə çevrildi və hənbəli məzhəbinin Dəməşqdə, Misirdə, Bəəlbəkdə və Bağdadda yayılmasını öhdələrinə aldılar. Ali-Qüdamə alimlərdən əlavə, çoxlu qazilər də yetişdirmişdir ki, Dəməşqin qazil-qüzatlıq vəzifəsi dəfələrlə onların öhdəsində olmuşdur.[1]

Qeyd olunanlara diqqət yetirməklə məlum olur ki, Ali-Qüdamə əvvəlcə İbn Hənbəlin, sonralar isə İbn Teymiyyənin əqidə və rəylərinin təsiri altında oldu (İbn Teymiyyənin özü də bu sülalənin şəxslərinin bəzi şagirdlərindən idi) və hənbəlilərin quru və təəssübkeş təlimlərini Dəməşqdə, Misirdə, Fələstində və Bağdadda yaydılar. Belə ki, sonralar, XII əsrdə Məhəmməd ibn Əbdül-Vəhhab (vəhhabiliyin banisi) o nahiyələrə etdiyi səfərdə Ali-Qüdamənin, xüsusilə bu sülalənin digər bir şaxəsi olan ibn Əbdül-Hadinin əqidə və rəylərinin təsiri altına düşdü. Özünün bəzi məlumatlarını da bu sülalədən əxz etdi. Ali Əbdül-Hadi – Ali-Qüdamənin şaxələrindən biri və Qüdamət ibn Miqdamın nəvəsi Yusifə mənsub edilir ki, İbn Hənbəlin səthi görüş və əqidələrinin (sonralar da xüsusilə İbn Teymiyyənin əqidələrinin) Fələstində, Misirdə, Dəməşqdə və Bağdadda inkşaf etdirilib rövnəqlənməsində böyük rol ifa etmişdir. Bu sülalənin hənbəli məzhəbində olan və hədisə meyl edən şəxsləri hədisləri əxz etməkdə (onların səhih, zəif və s. olmasına əsla diqqət yetirmədən) çalışdılar və onları sonrakı nəsillərə ötürməklə əməli olaraq çoxlu çətinliklərə və giriftarçılıqlara səbəb oldular. Məhəmməd

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.87-88

ibn Əbdül-Vəhhab hicri tarixi ilə XII əsrdə müxtəlif şəhərlərə (o cümlədən, ibn Əbdül-Hadinin hədis eşitdiyi və dediyi şəhərlərə) səfər etməklə əməli olaraq hənbəlilərin zahirə meyl edən və təəssübçü əqidələrinin, xüsusilə İbn Teymiyyə və onun şagirdlərinin əqidələrinin təsiri altına düşdü. Onun özündə də mövcud olan zəminələrə diqqət yetirməklə (bunlar sonradan qeyd olunacaqdır) İslam dünyasında sonralar atası Əbdül-Vəhhaba mənsub edilən və vəhhabi firqəsi kimi tanınan azğın bir firqənin bünövrəsini qoydu və Səudiyyə sülaləsinin qılınc və qüdrəti ilə Nəcdə və Hicaza hakim kəsilərək müsəlmanların arasında çoxlu nifaq, təfriqə və nifrətin yaranmasına səbəb oldu. Vəhhabilər kitab və sünnənin "müsəlmanları dostluq və məhəbbətlə bir-birinə qovuşdurmaq lazımdır, nəinki onların arasında nifrət və düşmənçilik yaradıb onların bəzilərini kafir saymaq, onları vurmaq, hörmətsizlik göstərmək və təcavüz etmək" buyuruğuna əməl etmədilər.[1] Çoxlu düşmənçiliklər müsəlmanların arasında kütləvi qarət və qətllərin mənşəyi oldu. İndi isə müxtəlif şəhərlərdə hədis deyən və hədis ya eşidən ibn Əbdül-Hadi kimi məşhur şəxs barəsində söhbət açırıq:

1. Əbdül-Məlik ibn Yusif ibn Məhəmməd ibn Qüdamə (622-ci h.q. 1225-ci miladi) bir fəqih və mühəddis kimi Əbul-Fərəc Yəhya ibn Mahmud Səqəfidən hədis rəvayət etmişdir

2. Şəmsuddin Əbu Əbdillah Məhəmməd ibn Əbdül-Hadi (550-658-ci h.q. 1155-1260-cı miladi). O, Məhəmməd ibn Həmzə Əbi Səqər, Əbdür-Rəzzaq Nəccar, Yəhya Səqəfi və sairlərdən hədis dinləmişdir. O, Şəhdətil-Katibədən icazə ilə hədis rəvayət edən axırıncı şəxsdir. Demyati və başqaları da ondan hədis rəvayət etmişlər. Nəhayət yaşı yüzdən artıq olduğu halda Nablosun tabeçiliyində olan Saviyə kəndində tatarların əli ilə öldürülmüş və orada dəfn edilmişdir.

3. İmadüddin Əbdül-Həmid ibn Əbdül-Hadi (658-ci h.q. 1260-cı miladi). O, Yəhya Səqəfidən, Əhməd Məvazinidən və başqalarından hədis eşitmişdir.

4. Məhəmməd ibn Əhməd ibn Əbdül-Həmid (699-cu h.q. 1300-cü miladi). O, Mötəmən ibn Qüməylə Vəylədanidən və atasının əmisi Məhəmməd ibn Əbdül-Hadidən hədis eşitmişdir. Qübeyti, İbn Rəvvah və başqaları ona hədis nəql etmək barəsində icazə vermişlər.

5. Əhməd ibn Əbdül-Həmid ibn Əbdül-Hadi (610-700-cü h.q. 1213-1300-cü miladi). O, Şeyx Müvəffəquddin, İbn Əbi Löqmə, İbn Racih, Musa ibn Əbdül-Qadir, Bəha, Əbul-Qasim ibn Sərsəri, İbn Zübeyr və

---

[1] Qəzvini Məhəmməd Hüseyn. "Firqeyi-vəhhabi və pasoxe şübhəhaye anha", tərcüməçi Əli Dəvani, Sazimani çap və İntişarat vizarəti fərhəng və irşadi İslami, Tehran, 3-cü çap, qış 1368, səh.115

başqalarından hədis rəvayət etmişdir. O, öz dövrünün ən böyük müsnədçilərindən sayılırdı.

6. İmaduddin ibn Əbdül-Həmid Məhəmməd ibn Əbdül-Həmid (660-707-ci h.q. 1262-1308-ci miladi). O, ibn Əbdüd-Daimdən hədis eşitmiş, rəvayət etmişdir. O, hənbəlilərin hakim və imamı idi.

7. Muhibbuddin Əbu Məhəmməd Əbdüllah ibn Məhəmməd ibn Əbdül-Həmid (651-707-ci h.q. 1253-1307-ci miladi). O, xətib Murdadan, İbrahim ibn Xəlildən, Əhməd ibn Əbdüd-daimdən, Kermanidən və başqalarından hədis eşitmişdir.

8. Təqiyuddin Əbu Məhəmməd Əbdüllah ibn Əyyub ibn Yusif (735-ci h.q. 1335-ci miladi). O, Əbul Fərəc ibn Əbu Ömərdən, Əbdür-Rəhman ibn Zeyndən, Fəxr ibn Buxaridən və başqalarından hədis eşitmişdir. O öz ömrünü elm öyrənmək, kitab nüxsəsi yazmaq və şahidlik etməklə keçirmişdir.

9. Şəmsuddin Məhəmməd ibn Əhməd ibn Əbdül-Hadi (705-744-cü h.q. 1306-1343-cü miladi). O, atasından və qazi Təqiyuddin Süleymandan, İbn Əbdüd-daimdən, İsa Mütimdən, Əhməd ibn Həccardan, Məhəmməd Zərraddan və başqalarından hədis eşitmişdir. Qazi Şəmsuddin ibn Müslimin, Təqiyuddin İbn Teymiyyənin yanında fiqhi öyrənmişdir. Ərəb dilini Əbul Əbbas Əndərşinin, qiraəti ibn Bəshiyanın yanında öyrənmişdir. “Sədriyyə” və “Ziyaiyyə” mədrəsələrində dərs deyirdi. Hədisdə, fiqhdə, təfsirdə, rical elmində, lüğətdə mahir bir şəxs idi və fətva verirdi. Öldükdən sonra Qasiyyunun ətəyində, Seyfuddin ibn Məcdin yanında dəfn edildi. Şəmsəddinin yazdığı çoxlu kitablardan bir neçəsi hal-hazırda da mövcuddur.

10. Əbdür-Rəhman ibn Məhəmməd ibn Əbdül-Həmid (656-749-cu h.q. 1285-1349-cu miladi). O, İbn Əbdüd-daimdən, Ömər Kermanidən, Əbdül-Vəhhab ibn Nasehdən, ibn Əbi Ömərdən, Fəxrdən, İsmail ibn Əqlanidən və başqalarından hədis eşitmişdir. Bağdadın vəziri onu Misrə göndərdi və o, yol əsnasında “Səhihi Müslüm”ü rəvayət etdi. Buna görə də çoxları ondan hədis rəvayət etmişlər. Sonra Şama qayıtdı və nəhayət Salehiyyədə vəfat etdi.

11. İmaduddin Əhməd ibn Əbdül-Hadi ibn Əbdül-Həmid (672-752-ci h.q. 1273-1351-ci miladi). O, Əbdür-Rəhman ibn Ömərdən, İbn Buxaridən, İbn Şeybandan, Zeynəb binti Məkkidən və başqalarından hədis eşidib rəvayət etmişdir. Onun oğlu Şəmsuddin Məhəmməd, İbn Rafe, Hüseyni və başqaları ondan rəvayət nəql etmişlər. Səftəri yazır ki, 730-cu h.q ilində (1330-cu miladi) Dəməşqdə öz yazısı ilə mənə icazə verdi.

12. Şəmsuddin Əbu Əbdillah Məhəmməd ibn Əbdüllah ibn Məhəmməd (688-769-cu h.q. 1289-1368-ci miladi). O, Fəxrdən və Seyf

Əli ibn Rəzidən hədis eşitmişdir. 691-ci h.q ilində (1291-ci miladi) və ondan sonra bir qrup ona hədis demək icazəsi verdi və İbn Şəraici və İbn Həcərin ustadı Əraqi, eləcə də Əbu Zərə ondan rəvayət nəql etmişlər.

13. Zeynuddin Əbdür-Rəhman ibn Əhməd (779-cu h.q. 1377-cu miladi). O, Təqiyuddin Süleymandan, Əbi Nəsir ibn Şirazidən, Həccardan və başqalarından hədis eşidib rəvayət etmişdir.

14. Şəhabuddin Əbul Əbbas Əhməd ibn Əbdül-Həmid (707-797 h.q = 1307-1395-cu miladi). O, İbnul İzz adı ilə məşhurdur. O Qasiyyunun ətəyində dünyaya gəlmiş və qazi Süleymandan, İsa Mütimdən, Fatimə binti Covhərdən, Təqiyuddin ibn Teymiyyədən, Hədiyyə binti Əsgərdən və başqalarından hədis eşitmişdir. Fəxr Tuzəri və Məkkədən digər bir qrup, Qüdsdən Zeynəb binti Şəkər, Misirdən İsmail ibn Ələm, Əbul Qasim ibn Rəşiq və başqaları, Dəməşqdən Qasim ibn Akir, İbn Şirazi və başqaları Bağdaddan İbn Dəvalibi və başqaları ona icazə vermişlər. Nəhayət fiqh öyrənib fətva icazəsi aldı və Dəməşqin böyük müsnədlərindən oldu. İbn Həcər də ondan icazə almışdır.

15. İmaduddin Əbu Bəkr ibn Əhməd ibn Əbdül-Hadi (799-cu h.q. 1369-cu miladi). O, Niyabiş ibn İmaduddin Əmali ibn Həsən ibn Zərqəveyhin yanında hədis öyrənmiş və Hicazda hədis rəvayət etmişdir. O, ibn Həcərə hədis rəvayət etmək icazəsi vermişdir.

16. Bürhanuddin İbrahim ibn Əhməd ibn Əbdül-Hadi (726-800-ci h.q. 1326-1398-ci miladi). O, Qazi adı ilə məşhurdur. Dörd yaşında ikən Həccarın dərslərində iştirak etmiş və Əhməd ibn Əli Məriridən, Ayişə binti Müslümdən, Zeynəb binti Kamaldan hədis eşitmişdir. Xutəni, Vani və Misirdən başqa bir qrup ona icazə vemişlər.

17. Məhəmməd ibn Əbdül-Hadinin qızı Fatimə (720-803-cü h.q. 1320-1401-ci miladi). O, Həccardan çoxlu hədis eşitmişdir. Şamdan Əbu Nəsir ibn Şirazi, Əbu Məhəmməd ibn Əsakir və başqaları Hələbdən Əbu Bəkr ibn Əbdüllətif və başqaları, Hümatdan Şərəf Barəzi, Həmsdən Əli ibn Əbdüllah ibn Məktum, Misirdən Hüseyn Kürdi və Əbdür-Rəhim Minşavi ona icazə vermişlər. O, 80 yaşında vəfat etmişdir.

18. Zeynuddin Ömər ibn Məhəmməd ibn Əhməd (803-cü h.q. 1400-cü miladi). O, Kamalın qızı Zeynəbdən, Əhməd ibn Əli Cəzəridən, Əbdür-Rəhim ibn Əbu Seyrdən hədis eşitmişdir. İbn Həcər Zeynəb binti Kəmalın mürafiqələrini onun yanında oxumuşdur. O Teymurun fitnəsində vəfat etmiş və Qasiyyunun ətəyində torpağa tapşırılmışdır.

19. Məhəmməd ibn Əbdül-Hadinin qızı Ayişə (723-816-cı h.q. 1323-1413-cü miladi). O, dörd yaşında ikən Əbul Abbas Həccarın dərsində iştirak etmişdir. "Səhihi Buxari"ni, Əbil Cəhimin hissəsini, Əmalini, İbn Əffanın qiraətini və başqa hədisləri Həccardan dinləmişdir. Həmçininn "Səhihi Müslüm"ü Şərəfuddin Əbdillah İbn Həsəndən və "Sireyi ibn

Hişam"ı Əbdül-Qadir ibn Mülukdan öyrənmişdir. O Bintul-füqəha bintul-Vasiti, Zeynəb bintul Kəmal və Zeynəb bintu Yəhya ibn Əbdüs-salamdan hədis eşidən və rəvayət icazəsi alan axırıncı şəxsdir. O, bacısı Fatimə ilə birlikdə çoxlu hədis müsabiqəsində iştirak etmiş və ona üstünlük qazanmışdır. Hələbdə İbrahim ibn Saleh ibn Əcəmdən, Humatda Şeyx Şərəfuddin Barəzidən, Əl-Xəlildə Bürhan Cəbəridən, Nablosda Əbdüllah ibn Yusifdən və başqalarından icazə almışdır. O, uzun ömür sürmüş və çoxlu hədis rəvayət etmişdir. Xüsusilə, çox səfər edən mühəddislər ondan hədis rəvayət etmişlər. Xətib Əbu Ömər Hənbəli, Hərəvinin "Zəmmul-kəlam"ının bir hissəsini ondan eşitmiş və İbn Həcər, Əbul Fəth Osmani ondan rəvayət etmişlər. O öz dövrünün müsnədi idi.

20. Bədruddin Həsən ibn Əhməd ibn Əbdül-Hadi (878-ci h.q. 1473-cü miladi). O, İbnul-Mübərrəd adı ilə məşhurdur və bir müddət Dəməşqdə qazinin nayibi vəzifəsini öhdəsinə almışdır.

21. Cəmaluddin Yusif ibn Həsən Əhməd (840-909-cu h.q. 1436-1503-cü miladi). O, "Əl-müqniə"ni Şeyx Təqiyuddin Cəzainin, Təqiyyuddin ibn Qundusun və qazi Əlauddin Mordavinin yanında oxumuş, qazi Burhanuddin ibn Müflih və Burhan Zərainin dərslərində iştirak etmişdir. İbn Həcər, İbn Əraqi, İbn Balisi, Cəmal ibn Hərəstan, Səlahuddin ibn Əbu Ömər, Nasirəddin və başqalarından hədis eşitmişdir. O hədis və fiqh elmini də bilirdi. Özü isə sufi idi və nəhv, sərf və təfsirdə müəyyən qədər biliyi vardı. O tədris etməklə və fətva verməklə məşğul idi və çoxlu kitablar yazmışdı. Şəmsuddin ibn Tulun onun tərcümeyi-halı barəsində böyük bir kitab yazmışdır.

Sonrakı fəsildə Məhəmməd ibn Əbdül-Vəhhabın, İbn Hənbəlin fikir və düşüncəsindən, İbn Teymiyyənin azğınçı və ifratçı fikirlərindən, onun şagirdlərinin rəylərindən və İbn Əbdül-Hadinin hədislərindən istifadə edərək öz firqəsinin binasını qoymasını və Ali-Səud sülaləsinin köməyi ilə onu necə yayması bəyan olunacaqdır.

**"Fəmən əzləmu mimməniftəra ələllahi kəzibən liyuzillənnasə biğeyri elm, innəllahə la yəhdil-qovməzzalimin"**

**"Elmi olmadan camaatı zəlalətə salmaq məqsədilə Allaha iftira yaxandan da bir zalım şəxs varmı? Həqiqətən, Allah zalım qövmləri hidayət etməz."**[1]

---

1 "Ən`am" surəsi 145-ci ayə

## VƏHHABİ FİRQƏSİNİN YARANMASI

### *ÜMUMİ NƏZƏR*

Vəhhabilik zahirpərəst, təxribatçı və fitnə-fəsad törədən bir məzhəbdir ki, yarandığı vaxtdan etibarən həmişə İslam aləmində acınacaqlı vəziyyətlər yaratmışdır. Bunun da dünya müsəlmanları və zəif təbəqələri arasında təfriqə salmaqdan, tövhidçilərin cərgələrini pozmaqdan, küfr və dinsizliyi gücləndirməkdən başqa bir səmərəsi olmamışdır.

Vəhhabilər iddia edirlər ki, onlar hər növ bütpərəstliyi və şirki aradan qaldırmaq fikrindədirlər. Buna görə də peyğəmbərlər və övliyalara təvəssül etməyi, ehtiyaclarını onlardan diləməyi, ilahi peyğəmbərlərin, salehlərin, pak insanların və zahidlərin qəbrini ziyarət etməyi qadağan və qeyri-qanuni bir iş hesab edirlər. Amma sözün əvvəlində aşkar şəkildə bəyan edirik ki, vəhhabilərin küfr və şirk ilə mübarizə aparmaq iddaları həqiqətdə günahsız müsəlmanları qətlə yetirmək, onlar arasında təxribat yaradıb fitnə-fəsad və virançılıq törətməklə nəticələnmişdir. İş o yerə çatmışdır ki, hətta demək olar ki, bu məslək özünün zahirpərəstlik, kobudluq, təxribatçılıq və təfriqə salmaq kimi təlimləri ilə əməli olaraq İslamın barışmaz və qatı düşmənləri olan istismarçıların əlində bir vasitəyə çevrilmişlər. İstismarçı qüvvələr öz məkrli siyasətlərində müsəlmanların vəhdətini pozmaq üçün onlardan istifadə edirlər.

Müsəlmanlarla düşmənçilik etmək, öz din qardaşlarını müşrik və kafir adlandırmaq, onları döymək, lənətləmək, söyüşə, nalayiq sözlərə və əzab-əziyyətə məruz qoymaq və s. kimi yaramaz işlər vəhhabilikdən çox çirkin və qorxulu bir çöhrə yaratmış, onları təxribatçı bir firqə şəklinə salmışdır (onların əməli şüarları təxribatçılıq, dağıntı, təfriqə salmaq və qəsavətlilikdir). “Şirk və bütpərəstliklə mübarizə” adı altında Allaha pərəstiş edən və dinə inanan sadə camaatı kütləvi şəkildə qırmaq, “tövhid şüarlarını dirçəltmək və şirklə mübarizə aparmaq” adı ilə böyük dini şəxsiyyətlərin və pak insanların qəbirlərini dağıtmaq vəhhabilərin ən adi işlərindəndir.

Həqiqətdə bu gün vəhhabilər düşmən dəyirmanına su tökür və istismarçıların mənfur niyyətlərinin icrası yolunda var-qüvvələri ilə çalışırlar. Onların İslam cəmiyyəti arasında nifaq yaradıb təfriqə salmaq, dünya istismarçı qüvvələrinə kömək etmək və küfrün müştərək cəhbəsini gücləndirməkdən başqa bir məqsədləri yoxdur. Bəli, Həzrət Əlinin (ə) təbiri ilə desək, onlar İslam paltarın tərsinə geymiş və əsl İslam məramlarından heç nə başa düşməmişlər. Əgər belə olmasaydı, onda necə mümkün ola bilər ki, bir insan kafirlərin və dinsizlərin qucağında olub tövhiddən dəm vursun və tövhidin məhv olunmasına çalışan

zalımlarla, peşəkar cinayətkarlarla sülh və dostluq bərqərar etsin?! Necə mümkün ola bilər ki, bir kəs müsəlmanların əleyhinə fəaliyyət göstərsin və bununla belə, yenə də tövhid (ibadətdə tövhid) iddiaları etsin?!

Burada vəhhabiliyin necə yaranmasını araşdırıb onu təhlil etməyə çalışacağıq.

### *VƏHHABİLİYİN BANİSİ MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHAB*

İslamın zühurundan keçən 1400 illik müddət ərzində insanlar bir çox şəxslər tərəfindən acınacaqlı hadisələrin şahidi olmuşlar. İslam tarixinin acı hadisələrinin əksəriyyətinin mənşəyi nəfsani istəklər, cah-cəlal axtarmaq, imanın süstlüyü və s. kimi şeylər olub İslam cəmiyyətinin öz içindən meydana gəlmişdir. Lakin istismarçıların və dünya hegemonluğuna can atanların gizli əlləri də orada müşahidə olunur. (Biz bu barədə sonrakı fəsildə ətraflı şəkildə araşdırma aparacağıq.) Müsəlman cəmiyyətləri tarixində ən təxtibatçı ünsürün bariz nümunəsi vəhhabi firqəsinin təsisçisi və banisi Məhəmməd ibn Əbdül-Vəhhabdır.

Cənab Fəqihinin bəyan etdiyi kimi: "Vəhhabi məzhəbi hənbəli məzhəbindən yaranmışdır. Vəhhabilərin bütün rəhbərləri də ümumi şəkildə ilk əvvəldən Peyğəmbərin (s) qəbrini ziyarət, ona təvəssül etməyi və ondan kömək istəməyi qadağan edən hənbəli alimlərindən olmuşlar. Əbu Məhəmməd Bərbəhari, İbn Bəttə, İbn Teymiyyə və onun şagirdlərindən olan İbn Qəyyim, Məhəmməd ibn Əbdül-Vəhhab hamılıqla hənbəli alimlərindən hesab olunur. Buna görə də vəhhabilər ilk əvvəldən də, hal-hazırda da özlərini Əhməd ibn Hənbəlin ardıcılları hesab edirlər."[1]

Həqiqətdə İbn Teymiyyənin ölümündən sonra sələfiçilik dəvətinin və Əhməd ibn Hənbəlin əqidəvi məktəbinin unudulmasına baxmayaraq[2], onun düşüncələri Məhəmməd ibn Əbdül-Vəhhabın Nəcddə zahir olduğu günə qədər kitablarda və kitabxanaların guşələrində qalmışdı. Məhəmməd ibn Əbdül-Vəhhab "onun (İbn Teymiyyənin) unudulmuş və "dəfn olunmuş" əsərlərini bir daha üzə çıxarır, onun yazılarını və sözlərini camaat üçün aldadıcı bir səviyyədə irəli çəkirdi."[3]

O, özünün etirazçı, təəssübkeş və "sünnətə meyl etmə" adlı əməlləri ilə müsəlmanların əməl və əqidələri, xüsusilə imamların və peyğəmbərlərin qəbirlərinin ziyarət olunması ilə şiddətlə müxalifətçilik edir, o əməlləri "şirk" və "bidət" adlandırırdı. Halbuki, "bidət dini təlim və göstərişlərin

---

[1] Fəqihi, Həmin mənbə, səh.24

[2] Sələfi və sələfilik barəsində sonradan söhbət olunacaq.

[3] Behişti Əhməd. "Şəxsiyyət və əndişehayi Kaşiful-ğita", kanuni nəşri əndişeyi islami, Qum, 1370, 1-ci çap, səh.52

hissəsi olmayan bir şeyi dinə daxil etməyə deyilir" və həqiqətdə müsəlman alimlərinin və rəhbərlərinin hamısı bidəti haram hesab etmişdir. Belə ki, bir hədisdə belə qeyd olunur:

**"Kullu bidətin zəlalətun və kullu zəlalətin finnar" (Hər bidət azğınlıq və hər azğınlıq cəhənnəm odunda olacaqdır.")**

Biz elə bu bölmədə (Məhəmməd ibn Əbdül-Vəhhabın fəaliyyət üslubu və seçdiyi yol bölməsində) vəhhabilərin bidət adlandırdığı və elə buna görə də onu yerinə yetirənlərin əməl və hərəkətlərini şirk və küfr, özlərini isə müşrik və kafir hesab etdikləri əməl və rəftarları bəyan edəcəyik. Amma hər şeydən əvvəl bunu qeyd etmək lazımdır ki, bidətin mənşəyi aydınlaşdırılmalıdır. Seyyid Möhsün Əminin təbiri ilə desək «Bidətin mənşəyi ya bu ola bilər ki, bir məsələnin necəliyində xəta üz vermiş olsun. Yəni hər hansı bir şəri məsələ filan mövzuya aid olub-olmaya bilər. Yaxud da bidət qoyan şəxsə təqlid olunur və camaat onun barəsində xoş gümanda olub onun işini sünnə hesab edir. Beləliklə də sünnə bidətlə qarışıq düşür. Sünnənin bidətə qarışmasının üçüncü bir amili də budur ki, bəziləri hər bir mövzu və məsələ barəsində şəriət tərəfindən aşkar və xüsusi bir bəyan verilməli olduğunu güman etmişlər. Bu sözü deyənlər bunu nəzərə almamışlar ki, barəsində xüsusi bəyan gəlib çatmayan həmin məsələ şəriət sahibinin ya mütləq, ya ümumi, yaxud da külli bəyanlarının içərisində mövcud ola bilər. Buna görə də biz hər hansı bir əməli o vaxt bidət hesab edirik ki, o əməl din təlimlərinin bir hissəsi olmadığı halda dini məqsədlə yerinə yetirilir. Vəhhabilər deyirlər ki, zikr demək və rəhmət göndərmək ona görə bidətdir ki, Peyğəmbərin (s) dövründə belə bir şey olmamışdır! (Bu da bir növ bidətdir.) Biz isə deyirik ki, bu əməlin şəri qanun olmasında təkcə bunu qeyd etmək kifayətdir ki, Allahı zikr etməyin, Peyğəmbərə (s) salavat göndərməyin, dua etməyin və sair kimi şeylərin şəriətdə üstün və bəyənilən bir əməl olmasını nəzərə alsaq, bu halda hər bir yerdə, hər bir zamanda şəri qayda olmadığını dedikdə bidət hesab olunmayacaqdır. Vəhhabilərin bidət saydıqları çox şeylər də buna misal ola bilər."[1] Sair müsəlmanların (vəhhabilərdən başqa) arasında mövcud olan və vəhhabilərin nəzərində bidət sayılan əməllər sonradan bəyan olunacaqdır.

Şübhəsiz, Məhəmməd ibn Əbdül-Vəhhab, İbn Hənbəlin, xüsusilə İbn Teymiyyənin, İbn Qəyyimin və İbn Əbdül-Hadinin rəy və fikirlərini araşdırıb mütaliə etməklə onlardan təsirlənmiş, İslama zidd olan vəhhabi firqəsinin əsasını Ərəbistanın Nəcd əyalətində qoymuşdur. (Adları qeyd olunanlar vəhhabiliyin ideoloji rəhbərləri hesab olunur). Sonralar bu

---

[1] Əl-əmin Möhsün. "Tarixçe və nəqd və bərrəsiye əqaid və amali vəhhabiha", tərcümə Seyyid İbrahim Seyid Ələvi, İntişarati Əmir Kəbir, Tehran, 1365, səh.115-117

əqidə tədricən bütün Ərəbistan yarımadasını əhatə etdi.

Burada "vəhhabi" məzhəbinin nə üçün belə adlandırıldığı və Məhəmməd ibn Əbdül-Vəhhabın qondarma firqəsinə belə ad qoyulduğu bəyan edilməlidir. "Vəhhabilər" kitabının müəllifi bu barədə yazır: "Vəhhabi kəlməsi vəhhabi firqəsinin banisinin atasına, yəni Əbdül-Vəhhaba mənsub edilir, lakin vəhhabilərin özləri bu mənsubiyyəti düzgün hesab etmirlər. Seyyid Mahmud Şukri Alusi (o, vəhhabi məzhəbinin tərəfdarlarındandır) deyir ki, "vəhhabi mənsubiyyəti"ni vəhhabi düşmənləri onlara aid etmişlər! Bu mənsubiyyət düzgün deyil. Onun rəhbərinin adı olan Məhəmmədə mənsub edilməli və Məhəmmədiyyə adlandırılmalıdır... Misirin məşhur yazıçısı Əhməd Əmin bu barədə deyir: "Məhəmməd ibn Əbdül-Vəhhab və onun ardıcılları özlərini "müvəhhid" (tövhidçi) adlandırır və "vəhhabi" adını da düşmənləri onlara vermişlər. Sonralar bu ad dillərə düşmüşdür... Vəhhabilərin özləri vəhhabi məzhəbini təzə bir məzhəb hesab etmir, əksinə deyirlər ki, bu məzhəb saleh sələflərin məzhəbidir. Buna görə də özlərini sələfilər adlandırırlar... Bunun səbəbi də budur ki, özlərinin əməl, rəftar və etiqadlarında saleh sələflərin, yəni Peyğəmbəri-Əkrəmin (s), səhabələrin və tabeinin ardıcılları olduğunu deyirlər."[1]

Cənab Ramazan Əl-Buti sələfiyyə və onun yaranması barəsində belə deyir: "Sələfilik təqribən son əsrlərdə yaranmış yeni bir cərəyandır ki, müsəlmançılıq iddiasını yalnız özlərinə aid olduğunu deyir və özlərindən başqa hamını kafir hesab edirlər. Onlar özləri özlərinə bu adı verərək saleh sələflərə mənsubiyyət paltarını geyir, məzhəbsizlik fəzasında vəhdət iddiası edirlər! Halbuki, vəhdətin əsasları ilə müxalifdirlər. Sələfiyyət, yəni vəhhabiyyətin zəminəsi olan şəxslər iddia edirlər ki, heç bir məzhəb mövcud deyildir və sələflərin, yəni səhabələrin, tabeinlərin və tabeinlərin tabeinlərinin dövrünə qayıtmaq lazımdır. Məzhəblərin əldə etdiyi bütün sərmayələri, yəni müxtəlif firqə alimlərinin uzun əsrlər boyu göstərdiyi yorulmaz səylərin nəticəsini, İslamın müxtəlif sahələrdə olan mədəniyyət xəzinələrini, İslami fiqh vasitəsilə yığıb topladıqları və hər bir əsrin ehtiyaclarına cavab verdikləri məsələləri kənara qoymaq lazımdır. Bununla da onlar məzhəbsiz bir İslamı seçmək istəyirlər. Sələfilər hamını dəvət edərək bir tərəfdən "Gəlin bütün məzhəbləri bir kənara qoyaq, vəhdətə doğru gedək" deyirlər. Digər tərəfdən isə, camaatı kafir adlandırmaqla qılınclarını siyirərək başqalarını İslam cəmiyyətindən çıxarmaq və onları kafirlər dəstəsinə qoşmaqla iddia edirlər ki, İslam cəmiyyətini vəhdət halına salırıq... Bu kimi "məzhəbsizliyə doğru dəvət" pərdəsi altında öz növbəsində bir məzhəb gizlənmişdir. Hətta bu dəvətin özü də bir növ məzhəbdir. Bu da donuşluğun əlində giriftar olan İslamı hərəkətsiz, ruhsuz, naqis,

[1] Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.19-24

bacarıqsız, cazibəsiz təsvir edən dardüşüncəli bir nəzər olub, kobudluq və təəssüb ruhunu dirçəltməklə yanaşı camaatın bir-birinə yaxınlaşması üçün mövcud olan hər bir yolu bağlayır və onun əvəzində çarpışmalar və bədbinliklər fəzası yaradır, hamını qılıncla müharibə etməyə çağırır."[1]

Bir sözlə, vəhhabilik təxribatçı və dağıdıcı bir firqədir, onların şüarları təxribat, məhv etmə, qəsavət və vəhşilikdən ibarətdir. Onlar öz ixtiyarlarında olan hər bir şeyi Allahın yeganəliyinə, Peyğəmbərin (s) risalətinə şahadət verən, namaz qılan, Allah evinin ziyarətinə gedən müsəlmanlarla müharibədə edirlər.

## *MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHABIN FƏRDİ, İCTİMAİ, ELMİ VƏ SİYASİ FƏALİYYƏTİ*

Məhəmməd ibn Əbdül-Vəhhab h.q tarixi ilə 1115-ci ildə Üyeynə şəhərində (Ərəbistanın Nəcd diyarının şəhərlərindən biridir) doğulmuşdur.[2] Onun atası bu şəhərin şəri məhkəmə və tədris işlərini öhdəsinə almışdı. Məhəmməd uşaqlıq vaxtlarında sünnülərin təfsir, hədis və əqaid kitablarını oxumağa maraq göstərirdi. Hənbəli fiqhini atasının yanında öyrənmişdi. (Atası hənbəli alimlərindən sayılırdı.)

Məhəmməd yeniyetməlik və cavanlıq dövrlərindən etibarən öz əqidəsində azğınçılığını göstərən iradlı sözlər danışır, xüsusilə Müsəyləmeyi Kəzzab, Səcca, Əsvəd Ənəsi və Təlieyi Əsədi kimi peyğəmbərlik iddiası edənlərin həyatını oxumağa həddindən artıq maraq göstərirdi. Onun müəllimləri uşaqlığının ilk çağlarından onun əqli cəhətdən azğın və kütbeyin olmasını başa düşmüşdülər. Onun atası Əbdül-Vəhhab oğlunun azğınçılıqda olduğunu hiss edir və həmişə onu danlayır, camaatı və öz ailəsini ondan uzaq olmağa çağırırdı.[3]

Məhəmməd ibn Əbdül-Vəhhab Üyeynədə ibtidai təhslini başa vurduqdan sonra elmini artırmaqdan ötrü səfərlər etməyi qərara aldı. Elə əvvəldən şan-şöhrət və təkəbbürlük xasiyyətinə malik olan Məhəmməd ibn Əbdül-Vəhhab öz arzularını həyata keçirmək üçün ətraf məntəqələrə səfərə çıxdı. O, əvvəlcə Hicazın mədəni və siyasi mühiti barədə çoxlu məlumat almaq üçün Mədineyi Münəvvərə və Məkkeyi Mükərrəmə

---

[1] Əlbuti, Həmin mənbə, səh.16

[2] Nəcd Ərəbistan yarımadasının böyük bir ərazisini əhatə edir ki, hal-hazırda onun bir qismi Səuddiyyə Ərəbistanın əzarisindən hesab olunur. Nəcd «uca və yüksək bir yer» mə`nasındadır. Nəcd diyarı ətraf nahiyələrdən üstün olduğuna görə belə adlandırılmışdır. Nəcdin mərkəzi Səudiyyə ölkəsinin rəsmi paytaxtı olan Riyaz şəhəridir. Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.137

[3] Əmini Məhəmməd Hadi. "Tarixi Məkkə" (Möhsin Axundinin tərcüməsi), dəftəri fərhəngi İslami, Tehran, 1372, 1-ci çap, səh.165

şəhərlərinə səfər etdi və beləliklə, özünü kiçik və çətin qəbilə həyatından xilas edə bildi. Qeyd olunmalıdır ki, Məhəmməd ibn Əbdül-Vəhhab atasının yanında İbn Teymiyyənin kitablarını da mütailə etdiyinə görə onun səthi və təəssübçü fikirlərinin təsiri altına düşdü.

Şübhəsiz, o, Mədineyi-Münəvvərəyə etdiyi səfərlərində Məhəmməd ibn Süleyman Kürdinin və Şeyx Məhəmməd Həyat Sindinin dərslərindən istifadə etmişdir. Lakin hənbəli fiqhinə qarşı malik olduğu quru və donuq təfəkkürün təsirindən bir sıra azğın əqidələr bəyan etməyə başladı. Buna görə də "onun ustadı onu dinsiz və azğın əsərlərini görərək deyirdi: «Allah-təala onu yolundan azdıracaq və Allahın bədbəxt bəndələri də onun səbəbi ilə yollarını azacaqlar."[1]

Mədinədə qısa müddət qaldıqdan sonra əvvəlcə Bəsrəyə, daha sonra Bağdada səfər etdi. Bu səfərdə İbn Teymiyyə və onun şagirdi İbn Qəyyim Covzinin, eləcə də İbn Əbdül-Hadinin rəy və fikirlərindən agahlıq əldə etdi. Daha sonra Kürdüstana, Həmədana və İsfahana səfərlər etdi. Bu barədə Cənab Müdərrisi Təbatəbai "Lüməüş-şübəhat fi siyrəti Məhəmməd ibn Əbdül-Vəhhab" kitabından nəql edərək belə yazır: "Şeyx öz vətənindən Bəsrəyə, oradan Bağdada, daha sonra İraq Kürdüstanına getdi. Oradan Həmədana gəldi və orada iki il qaldı. Daha sonra isə İsfahana getdi. İsfahanın "Abbasiyyə" mədrəsəsində 7 il qaldı. Bu müddətdə Mirzəcan İsfahaninin yanında "Təfsiru Quşçi"nin şərhini, Mir Seyid Şərifin "Şərhu Məvaqif" və Katibinin "Kəlimətu eyn" kitablarını oxudu. Sonra Reyə, oradan da Quma gəldi. Daha sonra Osmanlı ölkələrinə, Şama və Misrə getdi, Misirdən yenidən Ərəbistana qayıtdı."[2]

Məhəmməd ibn Əbdül-Vəhhabın İrana səfər edib-etməməsi, onun səfərinin hansı tarixdə baş verməsinə gəldikdə isə, tarixi mənbələrdən bu məsələnin hicri tarixi ilə XII əsrin ortalarında olduğu məlum olur. Bu barədə cənab Fəqihi belə yazır: "Məhəmməd ibn Əbdül-Vəhhabdan, eləcə də vahhabilərin əqidələrindən söhbət açan ən qədim fars dilli kitab Əbdür-Rəzzaq Dunbəlinin "Zeylu töhfətil-alim" kitabıdır. Bu kitabda şeyxin İsfahanda uzun müddət qalıb, bu şəhərin mədrəsələrində fiqh, üsul, sərf və nəhv öyrənməsi qeyd edilmişdir. Məhəmməd ibn Əbdül-Vəhhabın müasiri olan Mirzə Əbu Talib İsfahani onun İsfahana gəlib o şəhərdə elm və hikmət öyrənməsini, daha sonra İraqın və Xorasanın bir çox yerlərinə – Qəzvin sərhədinə qədər getməsinə işarə etmişdir. Digər

---

[1] Rəzəvi Seyyid Mürtəza, "Bərgi iz cinayati vahhabiha", Əli Ziyaninin tərcüməsi, Sazimani təbliğati İslami, 1368, 1-ci çap, səh.17

[2] Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.119-120

bir tarix isə qacarlar dövründə yazılan "Nasirux-Təvarix"dir ki, onda Məhəmməd ibn Əbdül-Vəhhabın İrana gəlişindən söhbət olunur."[1]

Məhəmməd ibn Əbdül-Vəhhabın İrana etdiyi səfərində diqqət yetirilməli və maraqlı məsələ "Hafiz və hibə" kitabının 336-cı səhifəsində qeyd olunanlardır. Orada belə deyilir: "Şeyx Məhəmməd İrana səfər etdi və orada şərq hikmətini, tüfəng və bir sıra müharibə ləvazimatını düzəltməyi, döyüş taktikasını öyrəndi."[2] Bu məsələ bəlkə də Məhəmməd ibn Əbdül-Vəhhabın şan-şöhrət arzusunda olduğuna gözəl bir sübut ola bilər. Çünki, onun ətraf məntəqələrə səfəri, çox güclü ehtimal üzrə, bu əsrin siyasi-mədəni mühitindən agah olmaq və münasib üslub seçməkdən ibarət idi ki, bu yolla da Ərəbistan yarımadasında dəyişiklik yarada bilsin. Bu nəzəriyyəni belə irəli sürmək olar ki, Məhəmməd ibn Əbdül-Vəhhabın Osmanlı imperiyasının nəzarəti altında olan məntəqələrə, eləcə də İrana etdiyi səfərlərdə əsas məqsədi bu imperatorluğun nə qədər qüdrətə malik olmasını, hakimiyyəti altında olan məntəqələri necə idarə etməsini və İrana hakim olan mövcud şərait araşdırmaq idi ki, bunlar barəsində müəyyən məlumat əldə etməklə gələcəkdə öz məqsədlərini çox asanlıqla həyata keçirə bilsin.

Şübhəsiz, onun İrana səfəri elə bir zamana təsadüf edirdi ki, Nadir şah (sonradan Əfşarilər silsiləsinin əsasını qoymuşdu) Səfəvi şahzadəsinin himayəsinin əksinə olaraq qüdrətə çatmaq və Səfəviləri tamamilə İran siyasəti səhnəsindən çıxarmaq istəyirdi.[3] Doktor Hairi Məhəmməd ibn Əbdül-Vəhhabın xüsusi zaman dövründə İsfahana səfərinə işarə edərək yazır: "Məhəmməd ibn Əbdül-Vəhhab Nadir şaha tac qoyulma mərasimi keçirilən ildə (1148-ci h.q. 1736-cı miladi) İsfahana getdi və dörd il müddətində o şəhərdə məşşa-işraq fəlsəfələrini və sufiliyi öyrəndi."[4]

Bir sözlə, Məhəmməd ibn Əbdül-Vəhhab o dövrdə İrana hakim olan mədəni-siyasi fəzadan agah olmaq (bunun özü də ayrılıqda araşdırılmalı bir məsələdir), həmçinin o dövrdə istismarçı qüdrətlərin (Hollandiya, Potuqaliya və İngiltərə) Fars körfəzi hövzəsində yerləşən ölkələrə qarşı rəqabətini nəzərə almaqla əvvəlcə Nəcd, daha sonra ətraf nahiyələrdə

---

[1] Həmin mənbə, səh.118-119

[2] Həmin mənbə, səh.119

[3] Qeyd olunmalıdır ki, əfqanlıların İrana hakim olmasından və Səfəvi silsiləsinin süquta uğramasından sonra Nadir şah əfqanlıları İrandan çıxarmaq və nəhayət özünün qüdrətə çatmaq arzusunu həyata keçirmək üçün canını əfqanlılarla müharibədən qurtaran bir Səfəvi şahzadəsindən istifadə etdi və onu yenidən təşkil etmək qərarına gəldi. Bu barədə əlavə mə`lumat almaq üçün İranın Səfəviyyə əsrinin axırları və Əfşariyyənin əvvəllərindəki tarixinə müraciət edə bilərsiniz.

[4] Hairi Əbdül-Vəhhab, "İran və cahani islam" Astani Qüdsi Rəzəvi nəşriyyatı, Məşhəd, 1368, 1-ci çap, səh.74

müəyyən dəyişikliklər etmək qərarına gəldi.[1]

Amma burada belə bir sual yaranır ki, görəsən Məhəmməd ibn Əbdül-Vəhhabın Şama və İraqa etdiyi səfərdə məqsədi nə idi? O, bu səfərlərdə hansı məsələləri izləyir, hansı əqidə və cərəyanları axtarırdı? Şübhəsiz, o, Nəcdin qəbilə icması şəklində yaşayan mühitində böyüyüb boya-başa çatmışdı və atasının hənbəli əqidəsinə malik olduğuna, həmçinin onun məhkəmə və tədris sahələrində çalışdığına görə hənbəli fiqhini, eləcə də bu barədə müəyyən tədbirlər görənlərin, xüsusilə İbn Teymiyyə və onun şagirdi İbn Qəyyim və İbn Əbdil Hadinin fiqhini araşdırmağa çox maraq göstərirdi. Buna görə də yuxarıda adları qeyd edilənlərin əqidə və rəyləri barəsində daha artıq məlumat kəsb etmək, eləcə də Osmanlı imperatorluğunun hakimiyyəti altında olan Şam və İraqın siyasi, ictimai və mədəni mühiti barədə məlumat əldə etmək üçün həmin məntəqələrə səfər etmişdi. Cənab Fəqihi Məhəmməd ibn Əbdül-Vəhhabın təlimlərinin mənşəyinə işarə edərək yazır: "... Şübhəsiz, Məhəmməd ibn Əbdül-Vəhhabın sözləri İbn Teymiyyənin rəylərindən qaynaqlanır. Vəhhabi firqəsinin böyük şəxsiyyətləri və yazıçıları, eləcə də başqa yazıçılardan bir qrupu bu məsələni aşkar şəkildə qeyd etmişlər... Bundan əlavə "Böyük İslam Enskilopediyası"nın yazdığına əsasən Şeyx Məhəmməd Dəməşqdəki hənbəli alimləri ilə əlaqə qurmuşdu və təbidir ki, hənbəli alimlərinin əsərlərindən, xüsusilə İbn Teymiyyə və onun şagirdi İbn Qəyyim Covziyyənin təlimlərindən bəhrələnmişdir..."[2]

Bu hadisələri və cərəyanları nəzərə almaqla aydın olur ki, Məhəmməd ibn Əbdül-Vəhhab xüsusi məsələləri izləyirdi ki, sonralar vəhhabiyyətin – İslama zidd olan məsləkinin əsasını qoysun. Bu zaman bəzi yazıçılar səhvən vəhhabi hərəkatının müsbət nəticələrindən biri kimi "İslam və Quranın əsas prinsiplərinə əsaslanan iqtidarlı dini hökumət icad etmək" kimi qeyd etmişdilər.[3] Halbuki, vəhhabiliyin donuqluq, təəssübkeşlik, irticaçılıq, geriçilik fikirləri və sair müsəlmanlar qarşısında dəlilsiz ciddiyyətləri və xudbinlikləri onların nəzərdə tutduqları dini hökumətin sarsılmasının və İslam cəmiyyətində təfriqənin, ikitiréliliyin yaranmasının səbəbi hesab olunurdu. Cənab Əmini bu barədə belə yazır: "Məhəmməd ibn Əbdül-Vəhhab İbn Teymiyyənin nəzərlərini necə icra etmək barəsində çox fikirləşdi. Nəhayət, bu qənaətə gəldi ki, zorakılıq və qılınc sayəsində "din və onun ilkin çiçəklənən intibah dövrünə qayıdış"

---

[1] Məhəmməd ibn Əbdül-Vəhhabın dövründə Fars körfəzi və orta şərq ölkələrində istismarçı qüdrətlərin hüzuru barəsində 2-ci fəsildə ətraflı söhbət olunacaq.

[2] Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.129-130

[3] Fəzai Yusif, "Münazirati imam Fəxr Razi", səh.247

adı ilə camaatın arasında iğtişaş, qorxu və vəhşət yaratsın ki, bununla da sadəlövh insanları aldada bilsin..."[1] Qeyd olunanları nəzərə almaqla xülasə şəkildə aşağdakıları qeyd etmək olar:

Məhəmməd ibn Əbdül-Vəhhab Üyeynədə qəbilə icması şəklində olan bir mühitdə dünyaya gəlmişdi. İbtidai təhsilini öz şəhərində atasının və başqalarının yanında başa vurmuş və ilk əvvəldən onun azğın əqidələri aşkar olmuşdu. Çünki, o, peyğəmbərlik iddiasında olanların həyatını mütailə etməyə çox maraq göstərir və İslam cəmiyyətində iğtişaş yaratmaq üçün müasir tipli əqidə və rəy əldə etmək istəyirdi. Amma qəbilə mühiti çox kiçik və bağlı olduğuna görə onun məlumatı həmin mühitin sərhədlərini aşmırdı. Buna görə də icma quruluşunda olan həmin cəmiyyətdən çıxaraq əsaslı dəyişiklik yaratmaq və dini-ictimai islahatçı olmaq fikrinə düşdü.

Aydındır ki, Məhəmməd ibn Əbdül-Vəhhab öz qərarını icra etmək üçün güclü bir dini-elmi arxaya ehtiyac duyurdu. İbn Teymiyyənin, İbn Qəyyimin və İbn Əbdül-Hadinin fikirləri (hənbəli fiqhi İbn Teymiyyənin donuqluq və təəssüb üzündən olan əqidələri və s.) onun öz elmi-mədəni məlumatlarının artıb güclənməsində təsirli oldu. O, Şama və İraqa səfər etməklə lazım olan xüsusi elmi-mədəni agahlıqları əldə etməkdən əlavə, dövrün siyasi və ictimai məsələlərini də araşdıraraq təhlil edirdi.

Şübhəsiz, "Nəcdin qəbiləvi həyatında və qohumluq əsasında qurulan cəmiyyətində dəyişiklik aparmaq – bir tərəfdən Osmanlı hakimiyyətindəki sarsıntı əmələ gəldiyinə, digər tərəfdən isə şərq ölkələrində dini baxımdan qüdrətli bir hakimiyyətin olmadığına görə (çünki, şiə məzhəbli Səfəvilər əfqanlıların əli ilə məğlub edilmişdi və Nadirin qüdrəti kəsb etdiyi vaxta qədər ölkədə iğtişaş hökm sürürdü. Hətta Nadir qüdrəti əlinə aldığı vaxtda belə, özündən aydın bir dini siyasət göstərməmişdi) bütün bunlar ibn Əbdül-Vəhhabın zahirdə dini islahat aparmaq, batində isə özünün məqampərəstlik məqsədlərini və qüdrət hərisliyini həyata keçirmək üçün tədbir görməsinə səbəb oldu." Amma Seyyid Əhməd Zeyni Dehlanın dediyi kimi, "onun rəylərinin əməli nəticəsi nəinki İslam cəmiyyətlərində dini islahat aparılmasına səbəb olmadı, əksinə bunun özü də saysız-hesabsız çətinliklər yaratdı."[2]

---

[1] Əmini Məhəmməd Hadi. "Tarixi Məkkə" (Möhsin Axundinin tərcüməsi), səh 171-172

[2] Zeyni Dehlan Seyyid Əhməd. "Fitneyi-vəhhabiyyət", Hamayun Himmətinin tərcüməsi, Məş`ər nəşri, bi-ta, bi-ca, səh.12

## *MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHABIN İLK RƏSMİ VƏ AŞKAR DƏVƏTİ*

Məhəmməd ibn Əbdül-Vəhhab Şama, İraqa və İrana çoxlu səfərlər etdikdən, elmi, dini və siyasi agahlıq əldə etdikdən sonra 1152-ci hicri ilində Nəcdə qayıtdı. Atası Üyeynədən Nəcdin böyük şəhəri olan Hərimələyə köçdüyünə görə o da həmin şəhərə köçməli oldu.

O, 1143-cü ildə (32 yaşında) Bəsrədə özünün ilk dəvətini başlaması,[1] nəticədə həmin şəhərdən qovulmasına baxmayaraq,[2] atasının Hərimələdə vəfat etdiyi 1153-cü ilə qədər (onun İrana gəlişindən 8 ay sonra) öz əqidələrini rəsmi şəkildə aşkar etmədi. (Bundan əvvəl atası və ustadları onun etdiyi söhbətlərindən, əməl və rəftarlarından onun əqidə azğınçılığında olmasından xəbərdar olmuşdular). O, "həmin ildə (1153-ci h.q. 1740-cı miladi) öz təfəkkürünün məhsulu olan "Kitabut-Tövhid" adlı bir kitab yazdı.[3] Atasının vəfatı ilə eyni zamanda Hərimələ şəhərində öz əqidələrini aşkar etdi və camaatın əqidə və əməlini inkar etməyə başladı. "Kəşful-irtiyab" kitabının müəllifi bu barədə yazır: Bu zaman (atasının ölümündən sonra) o daha da cürətləndi. Heç bir qorxu olmadan öz əqidələrini aşkar etdi və müsəlmanların hamısının fikir birliyində olduğu əməllərə həmlə etdi, dələduz və quldurlardan bir qrupunu öz ətrafında birləşdirdi."[4] Onun ixtira etdiyi məktəb sonralar onun atası Əbdül-Vəhhabın adı ilə "vəhhabi" adlandırıldı (bu barədə əvvəllər qeyd olunmuşdur). Elə bir məslək ki, bəzilərinin inancına görə İslam ölkələrinin mərkəzində səhvən "məzhəbi islahat və yeni həyat hərəkatı" adlandırılır.[5] Vəhhabi ayini təəssübkeş, çox səthi və donuşluq əsasında olan, təfriqə yaradan və nifaq salan bir dindir ki, müsəlmanları kafir hesab etmək onların əsas və ümdə şüarlarıdır.

---

[1] İbn Teymiyyənin fikirlərinin Şamda və onun ətraf məntəqələrində müvəffəqiyyət qazana bilməməsinin səbəbi həmin məntəqələrin elmi mövqeyi idi. Məhəmməd ibni Əbdül-Vəhhab da bu nahiyyələrdə əslində İbn Teymiyyənin fikir və rə`yləri olan öz nəzəriyyələrini əməli olaraq həyata keçirə bilmədi (əslində onun xammalı İbn Teymiyyənin fikirlərindən ibarət idi). Onun öz də`vətini aşkar etməsi ilə əlaqədar Nəcddəki müvəffəqiyyətləri barəsində sonralar söhbət edəcəyik.

[2] Fəzai Yusif, "Münazirati imam Fəxr Razi", səh.225

[3] Şeyx Məhəmməd və onun ardıcılları tövhid kəlməsinin və "la ilahə illəllah"ı elə mə`na edirlər ki, özlərindən başqa heç bir tövhidçi qalmır. Onlar deyirlər ki, Məhəmməd ibn Əbdül-Vəhhab tövhidə də`vət edirdi. Hər kəs onun dediyi tövhidi qəbul etsəydi özü və mal-dövləti amanda olardı. Əks halda malı başqalarına mübah saylırdı (Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.161-164)

[4] Əl-əmin Seyyid Möhsün, "Kəşfül-irtiyab" Seyyid İbrahim Ələvinin tərcüməsi, İntişarati Sepeher, Tehran, 1367, 3-cü çap, səh.6.

[5] Çahardəhi, yenə orda, səh.231

Ümumiyyətlə, Hərimələdə vəhhabi dəvətini qəbul etmək o şəhərin qəbilə icması şəklində yaşayan cəmiyyəti üçün ağır idi. Amma, vəhhabi yazıçıları İbn Əbdül-Vəhhabın Hərimələdə müvəffəqiyyət qazanmamasının səbəbini Həmyan qəbiləsinin əmr be mərufa və nəhy əz münkərə dəvət etməsi hesab edirlər! (Bu qəbilə Hərimələdə yaşayan iki qəbilədən biridir ki, çox yaramaz və əxlaqsız işlərlə məşğuldurlar.) Buna görə də onu qətlə yetirməyi qərara aldılar və o, bu hadisədən xəbər tutaraq şəhərdən qaçdı.[1] Amma "Hərimələ şəhərinin qəbilə rəisləri iki qəbilədən olub hər biri də rəyasət iddiası etdiyindən[2] "o, bu mərhələdə siyasi-dini baxımdan müvəffəqiyyət qazana bilmədi. Həqiqətdə qəbilə icması həyatında camaat öz rəislərinə tabe olaraq hər bir işi görür, rəis istəməzsə o işi yerinə yetirməzlər. Hər bir qəbilə rəhbəri öz qəbilələrinin qüdrətinin başında dayanır, o, hər nə əmr edərdisə icrası vacib olurdu.

Digər mühüm məsələ budur ki, o, Hərimələdə sakin olan qəbilələrin heç birindən deyildi. Buna görə də oranın əhalisi onun özü, rəyləri və nəzərlərindən tam agah deyildilər.

Buna görə də İbn Əbdül-Vəhhab yerini dəyişməyə məcbur oldu və öz məsləkini təbliğ etməkdə fəaliyyətini davam etdirmək üçün yeni bir şəhəri – Üyeynə şəhərini seçdi. Bu şəhərin seçilməsi onun üçün üç cəhətdən əhəmiyyət daşıyırdı. Biri bu idi ki, bura onun ilkin vətəni hesab olunurdu. Buna görə də camaat onun özü və ailəsi ilə müəyyən qədər tanış idilər. Həmçinin o, Üyeynədə sakin olan qəbilənin üzvü idi və oranın həyat, mühit, təfəkkür tərzi və siyasi məsələləri ilə yaxşı tanış idi. İkincisi, atasının Üyeynədə malik olduğu mənsəb – yəni hənbəli fiqhini tədris etməsinə və qəzavət kürsüsündə olmasına görə, camaat Əbdül-Vəhhab ailəsinə hörmət göstərirdi. Üçüncü məsələ budur ki, İbn Əbdül-Vəhhab Üyeynənin siyasi mövqeyi ilə tanış idi və Ehsa hakiminin nəzarəti altında idi, oranın əmiri Osman ibn Əhməd zahirdə camaata hökmranlıq etdiyinə görə Üyeynə şəhərini seçdi. O çalışırdı ki, mümkün olan hər bir vasitə ilə oranın əmirini özünün ixtira etdiyi məsləki qəbul etməyə vadar etsin. Bununla da çox güclü arxaya malik olsun və Ehsanın əmirinin nəzarətindən xaric olsun.

Üyeynədə Məhəmməd İbn Əbdül-Vəhhabın dəvətinin davam etməsinə görə "o bu dövrdə müsəlmanların xüsusi və ümumi təbəqələrindən həvayi-nəfsə tabe olan çoxlarını özü ilə həmfikir və həməqidə edə bildi... Buna görə də onun şan-şöhrəti yayılmağa başladı: hər bir yerdə və dini məclislərdə, hətta siyasi məclislərdə belə ondan və onun işlərindən

---

[1] Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.120-121

[2] Həmin mənbə, səh.120

söhbət gedirdi."[1] Onun şöhrətinin artmasına və işinin rövnəqlənməsinə səbəb olan ardıcıllarının və havadarlarının çoxluğu Ehsa hakiminin nigarançılığına səbəb oldu. Buna görə də o, Üyeynənin əmiri Osman ibn Əhməd ibn Müəmməri ibn Əbdül-Vəhhabı öz yolu üzərindən götürməyə vadar etdi. Məhəmməd ibn Əbdül-Vəhhab Nəcdə tam hakimiyyət vədəsini (onunla həmkarlıq edəcəyi təqdirdə) Osmana verməsinə baxmayaraq, o, hər an Üyeynəyə hücum etməsi gözlənən Ehsa əmirinin qorxusundan Məhəmmədi bu şəhəri (Üyeynəni) tərk etməyə məcbur etdi.

Məhəmməd ibn Əbdül-Vəhhab daha sonra Diriyyə şəhərinə getdi (Nəcd şəhərlərindən biridir). Oraya Ali-Səud sülaləsi hakim idi və oranın həyatı qəbilə və tayfa qayda-qanunları və mədəniyyəti əsasında cərəyan edirdi. Qeyd etmək lazımdır ki, qəbilə icmasında qəbilə üzvləri öz hakim və rəislərinə itaət edir, müharibə fərmanı, sülh bağlanması, yer dəyişmə, mühakimə və qəbilənin ən çox siyasi və ictimai məsələləri rəisin öhdəsinədir və bundan əlavə, o hər hansı ayini və məsləki qəbul edərsə və qəbilə üzvlərini də onu qəbul etməyə təşviq edərsə qəbilə üzvləri də bunu alqışla qəbul edirdilər.

Məhəmməd ibn Əbdül-Vəhhab da qəbilə icmasına hakim olan qayda-qanunları bildiyindən, qəbilə və onun rəisinin vəziyyətindən agah olduğuna görə öz hədəfini həyata keçirmək üçün Diriyyəyə yola düşdü. O, özünün şöhrətpərəstlik və rəyasət kimi hədəflərinə çatmaq üçün Diriyyəyə daxil olan kimi oranın hakimi Məhəmməd İbn Səudun yanına getdi və onu vəhhabiyyət dinini qəbul etməyə təşviq etdi. Bununla yanaşı onun Nəcdə və Ərəbistanın və sair məntəqələrinə hakim olacağını vəd etdi. Fəqihi bu barədə yazır: «Məhəmməd ibn Əbdül-Vəhhab Diriyyəyə gəlib Məhəmməd İbn Səudla razılaşdığı zaman Diriyyə əhalisi son dərəcə yoxsulluq və ehtiyac içində yaşayır, güzəranlarını təmin etmək üçün qan-tər içində işləyirdilər.."[2] O, Diriyyə camaatının vəziyyətindən agah olub Ali-Səudla razılaşmaya gəldiyinə görə özünün ixtira etdiyi dini təbliğ etmək üçün münasib şərait yarandığını gördü və Ali-Səudla razılaşıb öz dəvətini Diriyyədən başladı. O, həmin şəhəri vəhhabiliyi Nəcdin sair məntəqələrininə və Ərəbistan yarımadasının digər yerlərinə yaymaq üçün bir dayaq məntəqəsi kimi seçdi.

### *MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHABIN FƏALİYYƏT ÜSLUBU*

Məhəmməd ibn Əbdül-Vəhhab İbn Teymiyyənin, İbn Qəyyimin və İbn Əbdül-Hadinin rəy və fikirlərindən təsirlənərək vəhhabi məsləkini icad

---

[1] Fəzai Yusif, "Münazirati imam Fəxr Razi", səh.226

[2] Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.151

etdi. Şübhəsiz, “o da İbn Teymiyyə kimi, Hənbəli məzhəbində və həşv[1] əhli idi. İbn Teymiyyənin və onun şagirdi İbn Qəyyim və İbn Əbdül-Hadinin əqidələrini özü üçün örnək qərar verdi və bu yolda onlardan da artıq ciddiyyətlə fəaliyyət göstərdi. Nəhayət, bütün müsəlmanları kafir və müşrik hesab etdi. Bütün İslam ölkələrini hətta hələlik vəhhabilərin əlinə keçməyən Məkkeyi Mükərrəmə və Mədineyi-Münəvvərəni belə “darul-hərb” (müharibə evi) və “darul-küfr” (küfr evi) adlandırdı, müsəlmanlarla müharibə aparıb o müqəddəs məkanları işğal etməyi, bütün İslam şüarlarını, adət və mərasimlərini məhv edib dağıtmağı öz ardıcıllarına vacib etdi.”[2] Həqiqətdə o, özünün və Ali-Səudun hədəflərinə çatmaq üçün elə bir məzhəb ixtira etmişdi ki, imam Fəxr Razinin təbiri ilə desək, “yeni Hənbəli məzhəbi” adlandırılırdı.[3] Elə bir məslək idi ki, onun banisi camaatı ona dəvət etməkdə həddindən artıq təəssübkeşlik və donuqluq göstərir, bütün İslam firqələrini kafir hesab edir, onları cahil, nadan, müşrik və bidətçi adlandırırdı.[4] Vəhhabilər bidət, şirk və bütpərəstlik kimi sözlərin mənalarını genişləndirərək onları əql və şəriət nəzərində nə şirk, nə də bütpərəstlik olmayan məfhumlara da aid etmiş, bununla da İbn Teymiyyənin işini davam etdirərək İslam dünyasına çox böyük xəsarətlər vurmuş və müsibətlər yaratmışlar.

Mühəqqiqlərin əksəriyyəti bu əqidə barəsində müttəfiq fikirdədirlər ki, ibn Əbdül-Vəhhabın əqidə və rəylərinin “xammalı” İbn Teymiyyə, İbn Qəyyim və İbn Əbdül-Hadinin, xüsusilə əvvəldəkinin (İbn Teymiyyənin) əqidəsi təşkil edir. Bu nəzəriyyəyə diqqət yetirməklə “vəhhabi ayinini əhli sünnənin Əhməd ibn Hənbəlin təlimləri əsasında olan hənbəli fiqhinin məktəbi ilə qarışan sünnəçilik ideyalarının davamı hesab etmək

---

[1] Həşv – artıq sözləri, mövzuya dəxli olmayan sözlər, eyni fikri müxtəlif şəkillərdə təkrar etmə.

[2] Qəzvini Məhəmməd Hüseyn. “Firqeyi vəhhabi və pasoxe şübhəhaye anha” səh.21-22

[3] Fəzai Yusif, “Münazirati imam Fəxr Razi”, səh.227

[4] Vəhhabi firqəsinin sair müsəlman tayfalarına, xüsusilə on iki imam şiələrinə tutduqları iradlar müqəddəs İslam şəriəti tərəfindən qadağan edilməmişdir və onu heç bir cəzası yoxdur. Vəhhabilər bu kimi işlər barədə hər hansı bir hökm versələr Allahın kitabı və Peyğəmbərin (s) sünnəsinin əksinədir və hətta bid`ətdir də! Yə`ni dində olmayan bir şeyi dinə daxil etmək və elm olmadan hökm verməkdir. Bu ehtimalla onların dedikləri şeylər dini yönə malik olsa da belə ona dini ənənə hesab etmək olmaz. Buna əsasən, vəhhabilərin əməli müqəddəs şəriətdə tə`kidlə qadağan edilən işlərdəndir və mö`min şəxs də, Allahın kitabı, Peyğəmbərin (s) sünnəsi və səhabələrin üslubuna uyğun olan haqdan başqa əsasda hökm etməz. Deməli, hər kəs Allahın fərmanına müvafiq və “ma ənzələllah” (hər nə ki, Allah nazil edib) əsasında hökm etsə onun Allahın fərmanı əsasında hökm verməkdən başqa bir çarəsi yoxdur. Əks halda Allahın hökm etdiyindən başqa əsasda hökm vermiş olur! (Qəzvini Məhəmməd Hüseyn. “Firqeyi-vəhhabi və pasoxe şübhəhaye anha”, səh.106 və 240)

olar. Hənbəli alimlərindən olan Əhməd ibn Teymiyyənin əsərləri vəhhabilərin əqidə və rəylərində ən çox təsir qoymuşdur."[1] Ayətullah Cəfər Sübhani Məhəmməd ibn Əbdül-Vəhhabın İbn Teymiyyənin nəzəriyyə və fikirlərini dirçəltməyə xüsusi maraq göstərməsini qeyd etməklə yazır: "Onun (İbn Teymiyyənin) əqidəsinin yalnız xüsusi bir hissəsini öz dəvətinin mehvəri qərar verdi və orada tövhid və şirk məsələlərini irəli çəkdi. Peyğəmbərin (s) ziyarəti üçün səfərə getməyi, ona təvəssül edib əsərlərini təbərrük etməyi və qəbirlərin üzərində məqbərə tikməyi şirk hesab etdi."[2]

Burada bəhsin daha aydın olması üçün vəhhabilərin təxribatçı, təfriqə yaradan və təəssübçü əqidələrinin bəzilərini bəyan edirik.

"Şəxsiyyət və əndişehayi Kaşiful-ğita" kitabının müəllifi bu barədə yazır: "Bunların (vəhhabilərin) nəzərində qolbağı və yaxadan asılan dua, Allahdan başqasına and içmək, səbəb, illət və vasitələrə etiqad bəsləmək, qulam və kənizə "əbd" və "ümm" adı vermək şirkdir."[3] "Bunların nəzərinə görə şəhadət kəlmələrini demək və zat, sifət, fel və ibadət baxımından Allahın vəhdaniyyətinə etiqad bəsləmək kafi deyildir. Əksinə hər kəs bu işlərə etiqad bəslədiyi halda qəbirləri ziyarət etsə müşrikdir. Vəhhabilər tövhid məsələsində malik olduqları ifratçı nəzəriyyələrlə yanaşı, özləri Quran ayələrinin zahirinə istinad edərək Allah üçün cəhət olduğunu deyirlər. Halbuki, Allahın hər hansı bir cəhətdə olması Onun cisim olmasını zəruri edir, hər kəs də Allahı cisim hesab etsə kafirdir. Bundan da pisi budur ki, vəhhabilər Allahın zahiri əzası olmasına inanır və deyirlər ki, Allah birinci asimana enir..."[4] Ümumiyyətlə, "(vəhhabilər) inanırlar ki, dinin əsası Quran ayələri,

---

[1] Əsədi Məhmud. "Keyhani fərhəngi" aylıq jurnalı, şirkəti çap və İntişarati Keyhan, 1372, 105-ci nömrə, səh.45

[2] Sübhani Cə`fər, "Fərhəngi əqaid və məzahibi İslami", 1-ci cild, səh.283

[3] Məhəmməd ibn Əbdül-Vəhhab "Kəşfuş-şübəhat" risaləsində müsəlmanları 24 dəfədən artıq müşrik hesab etmiş, 20 dəfə kafir, müşrik, mürtəd, münafiq, tövhidi inkar edən, tövhid və Allah düşmənləri, İslam iddiaçıları, batil əhli, nadan və şeytanlar adlandırmış və həm də demişdir ki, nadan kafirlər və bütpərəstlər bu müsəlmanlardan ağıllıdırlar. Şeytan onların rəhbəri və onların başındadır (Qəzvini Məhəmməd Hüseyn. "Firqeyi vəhhabi və pasoxe şübhəhaye anha", səh.24-25)

[4] Behişti Əhməd. "Şəxsiyyət və əndişehayi Kaşiful-ğita", Kanuni nəşri əndişeyi islami, Qum, 1370, 1-ci çap, səh.93-94. Yuxarıdakı mətləbin izahında bu kitabda qeyd olunur ki, onlar "Fəcr" surəsinin 22-ci ayəsinin-**"və caə Rəbbukə vəl-mələku səffən səffa",** "Qaf" surəsinin 16-cı ayəsinin-**"və nəhnu əqrəbu iləyhi min həblil-vərid",** "Maidə" surəsinin 64-cü ayəsinin-**"bəl yədahu məbsutətani",** "Hud" surəsinin 39-cu ayəsinin-**"isnəil-fulkə bi ə`yunina"** və "Bəqərə" surəsinin 115-ci ayəsinin-**"fəsəmmə vəchullah"** ayəsinin zahiri mə`nasını götürərək Allahı üz, əl, göz, məkana malik olan bir varlıq və maddi varlıqlar kimi gedib-gələn bir şəxs hesab edirlər!

Peyğəmbərin (s) və səhabələrin səhih hədislərinin zahiri məfhumlarının əsasında qurulmalıdır. Onlar deyirlər ki, bu ayə və rəvayətlərə, heç bir dəyişiklik edilmədən istinad edilməli və onların zahiri məfhumlarına əməl olunmalıdır. Buna görə də müsəlmanların Quran ayələri və əsl hədislərlə müvafiq olmayan əməl və rəftarlarının Quran və İslam qanunlarından azğınlıq hesab edirlər."[1] Onlar qəbirləri ziyarət etməyi və peyğəmbərlərin, imamların və övliyaların pak ruhlarına təvəssül etməyi,[2] qəbirləri üzərində məqbərə düzəltməyi, onlara təbərrük etməyi, eləcə də şəfaətə etiqad bəsləməyi şirk hesab etmişlər.[3]

"Ərəbistanla tanışlıq" kitabında qeyd olunur ki, "ümumiyyətlə onun (İbn Əbdül-Vəhhabın) öz nəzəri ilə ayırd etdiyi və Rəsuli-Əkrəmin (s) və saleh sələflərin dövründə olmayan qayda-qanunları bidət və ona əməl edənlərin qətlini vacib hesab etmiş və "bu adət və qaydaların məhv edilməsi üçün ələ qılınc alıb cihad etmək lazımdır!" - deyə fətva vermişdir."[4] Aydındır ki, vəhhabilik ixtilaf yaradan və təfriqə salan bir ayindir və həqiqətdə (xəvaric kimi) özlərini müsəlmana oxşadan insanlar olub yersiz təəssübkeşliyə düçar olmuş və özlərinin cəhalət və təəssübünün dindarlıq və hidayət olduğunu təsəvvür etmişlər. Onlar bu

---

[1] Fəzai Yusif, "Münazirati imam Fəxr Razi", səh.237

[2] Məhəmməd ibn Əbdül-Vəhhab «qəbrə ibadət etməklə» «qəbri ziyarət etməyi» bir-birinə qarışdırmış və belə təsəvvür etmişdir ki, qəbri ziyarət etmək dedikdə qəbrə ibadət başa düşülür, halbuki qəbrin ziyarət olunması Allah evinin təvaf edilməsinə, Səfa və Mərva arasında sə`y əməlinə oxşayır. Belə ki, heç kəs "Allahın evini təvaf etmək elə evə ibadət etməkdir", yaxud "Səfa və Mərva arasında sə`y etmək elə onlara ibadət etməkdir" - deyə iddia edə bilməz. Hətta bir şəxsin zehninə belə gəlməz ki, qəbrin ziyarət olunması dedikdə pərəstiş nəzərdə tutulsun. (Şəxsiyət və əndişeyi Kaşiful-ğita, səh.91-dən nəqlən)

[3] Tamamilə aydın məsələdir ki, qəbirlərə təvəssül, ziyarət, təbərrük və onları təmir etmək qətiyyən şirk və bütpərəstliklə müqayisə oluna bilməz. Qəbri ziyarət edən şəxs nə ona pərəstiş edir, nə də onun sahibinə. Qalan işlər də eynilə bu cürdür. Allahdan başqasına pərəstiş etməklə, Allah dərgahına yaxın olan bəndələrdən birini, çətinliklərin həll edilməsi üçün yaxınlaşmaq arasında böyük bir fərq vardır. Şəfaətə e`tiqad bəsləmək də şəfaətçi şəxsə pərəstiş, yaxud onun ilahiləşdirilməsi deyil, əksinə günahkarın günahlarının bağışlanması üçün Allah dərgahına yaxın olan bir bəndənin vasitəçi qərar verilməsidir ki, bu da Allahın razılığı olmadan qeyri-mümkündür. ("Şəxsiyyət və əndişehayi Kaşiful-ğita", səh.88) Bundan əlavə, Məhəmməd ibn Əbdül-Vəhhab, eləcə də onun ardıcılları olan vəhhabilər inanırlar ki, əgər Allahdan başqasına seyyid və mövla deyilsə bu iş şirkdir. Halbuki, Peyğəmbəri-Əkrəm (s) Həmzəni "Seyyidüş-şühəda" (şəhidlərin ağası), özünü isə "Seyyidu bəni Adəm" (bütün Adəm övladlarının ağası), Həsən və Hüseyni (ə) behişt cavanlarının seyyidi, ağası kimi təqdim etmişdir. Labüd olaraq deməliyik ki, vəhhabilərin rəhbəri özlərini hətta Peyğəmbəri-əkrəmdən (s) sair ilahi övliyalaran belə artıq tövhidçi hesab edirlər! (Həmin mənbə, səh.94)

[4] Hövzeyi-nəmayəndegiye vəliyyi fəqih dər ümumi həcc və ziyarət, səh.119

təfəkkür tərzi ilə onların öz dinlərində olan sair müsəlmanları kafir və müşrik hesab edirlər.[1] Onların əsl hədəfləri müsəlmanlarla düşmənçilik etməkdir. Çünki, özlərindən başqa müsəlmanlara nisbət verdikləri şeylər, onlara rəva gördükləri zülmlər nə Qurani-Məciddə, nə də şərif Peyğəmbər (s) sünnəsində vardır. Həqiqətdə onlar Allahın kitabı və Peyğəmbərin (s) sünnəsinin əleyhinədir. Ayətullah Qəzvini bu barədə yazır: "... Onların (yəni vəhhabilərin) təəssübü buradadır ki, özlərini əhli-sünnə – yəni Peyğəmbərin (s) sünnəsinə və rəftarına əməl edənlər hesab edirlər. Halbuki, Peyğəmbərin (s) sünnəsi və şəriəti bütün müsəlmanlar üçündür, müsəlmanların, İslam alimlərinin və din rəhbərlərinin üslubundan əlavə, onların təsəvvürlərinin əleyhinədir və onların əməllərini rədd olunmuş sayırlar."[2] Həqiqətdə isə vəhhabilərin tədbirləri Allahın kitabı və Peyğəmbər (s) sünnəsinin əksinədir. Çünki, müsəlmanları bir-biri ilə sıx vəhdətə, səfa-səmimiyyətə dəvət edən Allahın kitabı və Peyğəmbərin (s) sünnəsinin əksinə olaraq, onlar müsəlmanları nifaqa, təfriqəyə, düşmənçiliyə sövq edir, onların arasında kin-küdurətə rəvac verirlər.

Məhəmməd ibn Əbdül-Vəhhab Diriyyədə qərarlaşdıqdan, öz mövqeyini möhkəmlətdikdən sonra Nəcdin rəislərinə və qazilərinə məktub yazaraq onların özünə itaət etmələrini istədi. Bir qrup qəbul etdi, digər bir dəstə isə onu istehzaya tutaraq rədd etdilər. O, yaranan bu fürsətdən özünün və Ali-Səud sülaləsinin şan-şöhrət və rəyasət arzularını həyata keçirmək üçün istifadə etdi və Diriyyə əhalisinə (onlar da düçar

---

[1] Məhəmməd Əbu Zöhrə deyir: Vəhhabilər İbn Teymiyyənin dediyinə heç bir şey əlavə etməmiş, sadəcə ondan daha artıq kəskin rəftar etmişlər. Onların işləri aşağıdakılarda xülasələnir:

a) Siqaret çəkmək kimi işləri şirk hesab etmişlər. Onlar xəvaric kimi, hər bir günahı küfr, böyük günah iş görəni isə kafir hesab edirlər.

b) Onlar təkcə təbliğlə kifayətlənməyərək deyirlər ki, həm bid`ətlə, həm də onların öz nəzərində bid`ət sayılan şeylərlə müharibə etməliyik.

v) Qəhvə və s. bu kimi şeyləri həm özlərinə, həm də camaata haram edirlər. Amma bu barədə sonralar, nisbətən mülayimlik göstərdilər.

q) Hər şəhər və kəndi ələ keçirdilərsə qəbirlərin üzərində olan zərihləri dağıtdılar.

d) Qəbirlərin üzərində olan əlamətləri də aradan götürdülər. Hicazda böyük din şəxsiyyətlərinin və Peyğəmbər (s) səhabələrinin qəbirlərini uçurtmaqdan belə əl çəkmədilər.

e) Bütpərəstliklə heç bir rabitəsi olmayan foto şəkil çəkməyi də qadağan etdilər. Amma saraydakılar ona e`tina etmədilər.

ə) Peyğəmbərin (s) mütəhhər qəbrinə pərdə çəkməyi bid`ət hesab etmiş və onun üzərindəki pərdəni dəyişməkdən imtina etmişlər ki, nəhayət örtülü qalıb aradan getsin ("Şəxsiyyət və əndişehayi Kaşifutul-ğita", səh.92 93)

[2] Qəzvini Məhəmməd Hüseyn. "Firqeyi vəhhabi və pasoxe şübhəhaye anha", səh.107

olduqları fəqirliyə və yoxsulluğa görə bu çətinliklərdən çıxmaq üçün bir yol axtarırdılar) Nəcdin itaətsizlik edən qəbilələrinin əleyhinə müharibə göstərişi verdi. "O, Nəcd əhalisi ilə təkrar döyüşdü, nəhayət onları şeyxin (Məhəmməd ibn Əbdül-Vəhhabın) itaətinə gətirdi və Ali-Səud Nəcdə və sair qəbilə sakinlərinə qələbə çaldı."[1]

Sonrakı fəsillərdə vəhhabilərin müxtəlif dövrlərdə keçirdikləri tədbirlər barəsində söhbət olunacaqdır. "Vəhhabilərin sair İslami firqələrə, xüsusilə şiələrə göstərdikləri qürur və çoxlu bədbinliklər onların İslam cəmiyyətində geri qalmasının ən mühüm amili oldu."[2]

## *VƏHHABİLİYİN MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHAB ÖVLADLARININ DÖVRÜNDƏKİ CİDDİ TƏDBİRLƏRİ*

Məhəmməd ibn Əbdül-Vəhhab, Məhəmməd İbn Səud ilə birləşdikdən sonra Diriyyə camatını sair Nəcd və Hicaz əhalilərinə hücum etməyə dəvət etdi. Vəhhabilərin malik olduqları əqidəni nəzərə almaqla (yalnız özlərini tövhid əhli bilib, sair müsəlmanları kafir hesab edərək qətlini vacib bilmələri) müsəlmanlara qarşı olan hücumlarına bəraət qazandırırdılar. Sonra Məhəmməd ibn Əbdül-Vəhhabla Ali-Səud sülaləsi arasında «siyasi evlənmək» baş verdi. Bununla da o ikisi bir-birinə daha artıq yaxınlaşdılar və vəhhabiyyətin genişlənməsi üçün çox ciddi cəhdlə çalışmağa başladılar.

Vəhhabilər Məhəmməd ibn Əbdül-Vəhhabın sağlığında Nəcdin sair məntəqələrinə tədriclə hakim kəsildi və Hicazın əmirlərini də tədhid edib qorxutdular. Onlar 1202-ci h.q ilində Hicaz məntəqəsinə təhdid və həmlələrini əməli olaraq həyata keçirdilər və siyasi mənafe əldə etmək, hakimiyyət dairəsini genişləndirmək və sair müsəlmanları səhnədən çıxarmaq üçün ciddi səy göstərməyə başladılar. Nəhayət, Məhəmməd ibn Əbdül-Vəhhab 1206-cı h.q ilində, 92 il zülm, İslama və müsəlmanlara xəyanət, irticaçılara və istismarçılara xidmət etdikdən sonra öldü və özündən elə bir məzhəb qoydu ki, o, müsəlmanlar arasında yalnız düşmənçilik, kin-küdurət və təfriqənin mənşəyi oldu, islam ölkələrinə çoxlu təcavüzlərin və kütləvi qırğınların əsasını qoydu. Məhəmməd ibn Əbdül-Vəhhabın ölümündən sonra onun dörd oğlu – Əbdüllah, Həsən, Hüseyn və Əli "Övladi-Şeyx" adı ilə məşhurlaşdı və atasından sonra, Ali-Səudun köməyi ilə vəhhabiliyin yayılıb təbliğ edilməsində, Ali-Səuda dini-siyasi qanunilik verməkdə və onun tədbirlərinə haqq qazandırmaqda təsirli rol ifa etdilər. Ayətullah Qəzvini bu barədə yazır: "Məhəmməd ibn Əbdül-Vəhhabın oğlanları və nəvələri öz əsərlərində

[1] Fəqihi, Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.154
[2] Fəzai Yusif, "Münazirati imam Fəxr Razi", səh.247

atasının və cəddinin yenicə qurulmuş məzhəb və məslək fikirlərini yaymaq, onları izah, təfsir və şərh etməkdə çox ciddi səy göstərdilər. Yəmən əmirlərindən və Məhəmməd ibn Əbdül-Vəhhabın müasiri olan Məhəmməd ibn İsmail Sənai özünün "Təthirul-etiqad" risaləsində, Seyyid Məhmud Alusi "Nəcd tarixi" kitabında, Şokani və başqaları da öz kitablarında onun dəvətini yaymaqda ciddi çalışır və vəhhabi məsləkinin genişlənməsinə səbəb olurdular."[1]

Məhəmməd ibn Əbdül Vəhhabın ölümündən sonra "böyük oğlu Əbdüllah onun proqramlarını davam etdirdi. Ondan sonra da Süleyman və Əbdürrəhman növbə ilə onun canişini oldular.[2] Xüsusilə, Süleyman son dərəcə təəssübkeş adam idi."[3]

Aydındır ki, bu dövrdə vəhhabilər öz məzhəblərinin yayılması və təbliğ olunması üçün çox təəssüblə səy göstərirdilər. Şeyxin övladları da bu barədə sair İslami məzhəblərə, xüsusilə şiələrə qarşı həddən artıq amansız idilər. Məhz onlar 1216-cı ildə vəhhabiləri İraqa hücum etməyə təşviq etdilər. Özlərinin təəssüb dolu fətvaları ilə (bu da onların zahirpərəstliyə və quru müqəddəsliyə əsaslanan əqidələrindən irəli gəlirdi) vəhhabilərin şiə rəhbərlərinin mübarək qəbirlərinə və şəhadət yerlərinə – Kərbəlada və Nəcəfdə həmlələrinə qanuniyyət verdilər və özləri də bu ordunun önündə hərəkət etdilər. Şiələrin üçüncü imamı İmam Hüseynin (ə) pak qəbrinə qarşı son dərəcə hörmətsizlik göstərib özlərindən insanlığa sığmayan yırtıcılıq və nadanlıq göstərdilər. Onların nəzərinə görə onlardan başqa bütün müsəlmanlar kafir və müşrikdirlər. Onların bütün əqidələri, adətləri, qayda-qanunları şirk və bütpərəstlik hesab olunur. Onlar İraqdan əlavə, Hicaza da hücum etdilər. Sair müsəlmanları həcc əməlindən məhrum etməkdən, "Bəqi"də Peyğəmbər (s) övladlarının və imamların qəbirlərini və salehlərin məqbərələrini dağıtmaqdan əlavə, Məkkeyi-Mükərrəmə-Mədineyi-Münəvvərədə kütləvi qırğınlar, vəhşiliklər törətdilər. Onların tarixdəki cinayətləri malik olduqları cahiliyyət və təəssüblərinin son həddini göstərir ki, bu hadisələr İslamiyyətdən neçə əsrlər öncə Ərəbistanda baş verən hadisələri xatırlatdırdı. Bu barədə unudulmaz mətləb – Şeyxin övladlarının vəhhabilərin yırtıcılıq və təəssübkeşlik əsasında olan

---

[1] Qəzvini Məhəmməd Hüseyn. "Firqeyi vəhhabi və pasoxe şübhəhaye anha", səh.30

[2] Şeyx Əbdür-rəhmanın dediyinə əsasən o, Şeyx Məhəmməd ibn Əbdül-Vəhhabın canişinlərindən idi və onun sözünə görə Peyğəmbər (s) hədislərinə əsasən qəbirlərin yanında çıraq yandıran, yaxud qəbrin üzərinə bir şey yazan və ya məqbərə düzəldən şəxslərə lə`nət olur. Hərçənd ki, həmin fətvanın hansı mənbədən istixrac olunduğu mə`lum olmur. Eləcə də qəbir əhlinin ziyarətinə getməyi, böyük din şəxsiyyətlərinin tə`kid etdiyi halda, hansı əsasda qadağan etmələri də mə`lum deyildir.

[3] Əl-əmin Möhsin. "Tarixçe və nəqd və bərrəsiye əqaid və amali vəhhabiha", səh.4

tədbirlərində fəal iştirak etmələri idi.

Vəhhabilərin hücumları və təhdidləri Osmanlı sultanını məcbur etdi ki, Məhəmməd Əli Paşadan onların qarşısına çıxmağı istəsin. Ayətullah Qəzvini öz kitabının bir hissəsində şeyxin övladlarının misirlilərin (Osmanlı sultanının əmri ilə) həmləsindən sonrakı taleyi barədə yazır: "...Tərəflər (İbrahim Paşa ilə vəhhabilər) arasında baş verən müharibələrdə, xüsusilə Diriyyə şəhərinin mühasirə olunub işğal olunmasında Ali-Səudun və Şeyx Məhəmməd ibn Əbdül-Vəhhabın adamlarından bir qrupu öldürüldü, yaxud edam edildi. O cümlədən, Şeyx Süleyman ibn Əbdüllah ibn şeyx Məhəmməd ibn Əbdüllah, İbrahim Paşanın Diriyyə əhli ilə sazişindən sonra təhdidlə onu tələb etdi (ona görə ki, o təhqir olunmuşdu) və göstəriş verdi ki, bir neçə nəfər onun qarşısında musiqi çalsınlar. Sonra onu oxlatdırıb öldürdü. İbrahim Paşa təqribən doqquz ay Diriyyədə qaldı. Bu müddət ərzində Ali-Səudun və Şeyx Məhəmməd ibn Əbdül-Vəhhabın nəslinin bütünlüklə Misirə sürgün edilməsinə dair hökm çıxardı. Onun fərmanı həyata keçirildi və bu iki sülalənin təqribən 400 nəfərdən ibarət olan üzvləri – qadın, kişi və uşaqları həbs olunaraq Misrə aparıldı. Onların çoxu da həmin yerdə edam olundular."[1]

Nəhayət, misirli qüvvələrin (İbrahim Paşanın rəhbərliyi ilə) Diriyyədən çıxmasından sonra Məhəmməd ibn Əbdül-Vəhhabın, Əli ibn Hüseyn ibn Məhəmməd ibn Əbdül-Vəhhab adlı nəvəsi (o Qətərə və Əmmana qaçmışdı) Diriyyəyə qayıtdı və yenidən vəhhabi məsləkini dirçəldib yaymağa başladı. Bundan əlavə, Məhəmməd ibn Əbdül-Vəhhabın oğlu Həsəndən Əbdürrəhman adlı bir oğlan qalmışdı ki, vəhhabilər Məkkeyi-Mükərrəməni işğal etdikləri vaxt o, şəhərin qazisi vəzifəsində çalışırdı və çox uzun (təqribən 100 il) ömür sürmüşdü. Onun Əbdül-lətif adlı bir oğlu da qalmışdı.

Sonralar da vəhhabilik Məhəmməd ibn Əbdül-Vəhhabın və Ali-Səud sülaləsinin əli ilə Ərəbistanda təbliğ olunub yayıldı və bu din həmin məntəqəyə hakim kəsildi ki, hal-hazırda da davam etməkdədir. Şeyxin övladları barəsində son sözü Robet Lisinin sözlərindən qeyd edirik:

Məhəmməd ibn Əbdül-Vəhhabın övladları onun ölümündən sonra Ali-Şeyx (yəni şeyxin ailəsi) adı ilə tanındı və bu günkü günə qədər Ərəbistanın sultanlar yaşayan məntəqəsində öz əsil-nəsəbini qoruyub saxlamışdır. Onlar Ali-Səudun onlarla qohum olduğu dörd ailədən biridir və alimlərin arasında böyük nüfuza malikdirlər. Onlar Ali-Səuddan sonra vəzirlər şurasında hamıdan irəlidirlər. Bu şurada 1981-ci ilin iyun ayında

---

[1] Qəzvini Məhəmməd Hüseyn. "Firqeyi vəhhabi və pasoxe şübhəhaye anha", səh.48-49

Ali təhsil nazirliyi, prokurolluq və əkinçilik nazirliyi Ali şeyxdən ibarət idi. Bu ailə həmçinin ordu və polis qüvvələrində də mühüm postları əllərində saxlamışlar.[1]

## *SÜNNÜ VƏ ŞİƏ ALİMLƏRİNİN VƏHHABİYYƏT ƏLEYHİNƏ TƏNQİDLƏRİ*

Məhəmməd ibn Əbdül-Vəhhab öz əqidələrini aşkar və camaatı ona dəvət etdikdən sonra alimlərdən böyük bir qrupu onunla müxalifətə qalxdılar. Əvvəldə qeyd etdik ki, Məhəmmədin azğınçılıqları aşkar olduqdan sonra əvvəlcə atası onunla müxalifətə başladı və ata-oğul arasında ixtilaf meydana gəldi. Amma o, vəhhabilik dəvətini aşkar etdikdən sonra onun qardaşı və hənbəli alimlərindən sayılan Süleyman ibn Əbdül-Vəhhab onun əqidələrini rədd etmək üçün "Əs-səvaqiqul-ilahiyyə fir-rəddi ələl-vəhhabiyyə" adlı bir kitab yazdı. Bu, sünnü alimləri tərəfindən vəhhabi əqidəsini rədd etmək üçün yazılan ilk kitab idi. Süleyman bu kitabda yazırdı: "Vəhhabilərin şirk və küfrə səbəb olan şey hesab etdikləri Əhməd ibn Hənbəldən qabaq və İslam imamlarının dövründə yaranmışdı. Çoxları onu inkar etmişlər. Lakin İslam imamlarından eşidilməmiş və ya rəvayət edilməmişdir ki, bu əməllərə mürtəkib olanlar kafir, yaxud mürtəd hesab olunsun və onlara qarşı cihad hökmü verilsin."[2]

Cənab Fəqihi, Məhəmməd ibn Əbdül-Vəhhab və onun əqidələrini rədd etmək üçün yazılan kitablar barəsində deyir: "Məhəmməd ibn Əbdül-Vəhhabın müasirləri və ondan sonrakı alimlər onun əqidələrini rədd etmək, yaxud ona nəsihət vermək üçün çoxlu kitablar yazmışlar."[3] *

---

[1] Lisi Robert, "Sərzəmini səlatin", 3-cü çap, isfənd 1367, səh.91

[2] Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.239

[3] * Əbu Hamid ibn Mərzuq Məkkə alimlərindən idi. O, "Əttəvəssulu ilən-Nəbiyyi və cəhələtul-vəhhabiyyin" kitabında Məhəmməd ibn Əbdül-Vəhhab ilə müasir olan sünnü alimlərinin onun əqidə və kitablarını rədd etməklə əlaqədar yazdıqları 40 kitabın adını qeyd edir. Onlardan aşağdakıları qeyd edə bilərik:

1-«Əssəvaiqul-ilahiyyə fir-rəddi ələl-vəhhabiyyə», Məhəmməd ibn Əbdül-Vəhhabın qardaşı Şeyx Süleyman İbn Əbdül-Vəhhabın yazdığı kitabdır.

2-Məhəmməd ibn Əbdül-Vəhhabın Mədinədəki ustadı Şeyx Məhəmməd ibn Süleyman Kürdinin yazdığı məqalə o İbn Əbdül-Vəhhabın qardaşı Şeyx Süleymanın kitabına təqriz yazmışdır.

3-«Təcridu seyfil-cihad limuddəil-ictihad» Bu, Məhəmməd ibn Əbdül-Vəhhabın ustadı Əbdüllah ibn Əbdül-Lətif Şafeinin kitabıdır. Kitabın adından da göründüyü kimi, Məhəmməd ibn Əbdül-Vəhhabın ustadı onu nəzər sahibi olan müctehid hesab etmir.

4-«Əssəvaiqu vər-rəud» Əfifuddin Əbdüllah ibn Davud Hənbəlinindir.

5-Əhməd ibn Əli Bəsri Şafeinin risaləsi.

6-Əbdül-Vəhhab ibn Əhməd Bərəkat Şafei Məkkinin risaləsi.

7-Şeyx Əta Məkkinin "Əssarimul-muhnədi fi unqin-nəcdi" adlı kitabı.

8-«Əs-suyufus-siqalu fi ə`naqi mən ənkərə minəl-övliya», Beytul-Müqəddəs alimlərindən birinin kitabıdır.

9-«Təhrizul-ətciya ələl-istiğasəti bil-ənbiya», Şeyx Əbdüllah ibn İbrahimin kitabıdır

10-«Əl intisaru lil-övliyail-əbrar», Şeyx Tahir Hənəfinindir.

11-Seyyid Ələvi ibn Əhməd Həddad demişdir ki, Məkkə, Mədinə, Ehsa, Bəsrə, Bağdad, Hələb, Yəmən və sair İslam şəhərlərində dördlük təşkil edən məzhəbin böyük alimlərinin Məhəmməd ibn Əbdül-Vəhhaba verdikləri cavabların – istər nəsr, istərsə də şe`r şəklində – sayı-hesabı yoxdur. Bəhreyn hənbəlilərindən və Ali Əbdür-Rəzzaqdan olan bir şəxs onların hamısını mənim üçün gətirmişdi ki, səfərdə olduğum üçün onun üzünü köçürmək mümkün olmadı. Amma onların hamısını mütailə etdim.

12-«Əl-əqvalu lil-övliyail-əbrar», Şeyx Tahir Hənəfi.

13-«Əl-əqvalul-mərziyyə fir-rəddi ələl-vəhhabiyyə», Şeyx Əta Dəməşqi.

14-«Ğovsul-ibad bəyanur-rəşad», Şeyx Müstafa Həmmami Misri. O, "Əl-əzhər"in alimlərindən idi rə 1368-ci hicri-qəməri ilində vəfat etmişdir.

15-«Səadətud-dareyn», Şeyx İbrahim ibn Osman Səmhudi.

16-«Ənnuquluş-şər`iyyə fir-rəddi ələl-vəhhabiyyə», Şeyx Həsən ibn Ömər Şətti Hənbəli Dəməşqi.

17-Peyğəmbərlərə və övliylara təvəssül etməyin hökmündə bir risalə, Şeyx Məhəmməd ibn Hüseyn Məxluf Maliki Misri, 1355-h.q ilində vəfat edib.

18-«Əl-məqalatul-vafiyə fir-rəddi ələl-vəhhabiyyə», Həsən Xəzbək. O, qadın və kişiliyindən asılı olmayaraq başı qırxmağı vacib, onu tərk edəni isə vacibul-qətl hesab edirdi. ("Firqeyi vəhhabi və pasox be şübehati an", səh.27-28-29)

Vəhhabilərin Hicazı işğal etdiklərindən sonra onların nəzəriyyəsinin rədd olunması üçün yazılan kitablar:

1-«Əl-usulul-ərbəə fi tərdidil-vəhhabiyyə», Xacə Məhəmməd Həsəncan Hindi.

2-«Əl münhətül-vəhbiyyə fir-rəddi ələl-vəhhabiyyə», Şeyx Davud Bəni Süleyman Nəqşbəndi Bağdadi, 1299-cu hicri ilində vəfat edib.

3-«Əl-fəcrus-sadiqu fir-rəddi əla münkirit-təvəssüli vəl-kəramati vəl-xəvariq», Cəmil Əfəndi Sidqi Vəhhabi.

4-«Şəvadihul-həqq fil-istisağəti liseyyidil-xəlq», Şeyx Yusif Pünhani Fələstini, 1350-ci h.q ilində vəfat etmişdir. O, həm İbn Teymiyyənin, həm də Məhəmməd İbn Əbdül-Vəhhabın nəzərini rədd etmişdir.

5-«Ət-təvəssülü bin-Nəbiyyi və cəhələtul-vəhhabiyyin», İbn Hamid ibn Mərzuq.

6-«Təthirul-fuad min ünsil-e`tiqad», Şeyx Məhəmməd Nəcib Mutii Hənəfi, "Əl-əzhər" universitetinin böyük alimlərindəndir.

7-«Kəşfun-nuri ən əshabil-qubur», Əbdül-Ğəni Əfəndi Nablosi.

8-«Seyful-əbraril-məsluli ələl-fuccar», Məhəmməd Əbdürrəhman Hənəfi.

9-«Seyful-Cəbbaril-məsuli ələl-ə`dail-əbrar», Şah Fəzl Rəsul Qadiri.

10-«Təhəkkümül-müqəllidin liməniddəa təcdidəd-din», Məhəmməd ibn Əbdül-Rəhman ibn Əfaliq.

11-«İzhaqül-batili fi rəddil-firqətil-vəhhabiyyət», İmamul-Hərəmeyn Məhəmməd ibn Davud Həmdani.

12-«Əl-məatul-fəridətu fil-məsailil-mufidə», Seyyid İbrahim Rəfai.

13-«Ziyaus-sudurul-münkirit-təvəssül bi əhlil-qubur», Zahirşah Miyan ibn Əbdül-Əzim (İstanbul çapı)

14-«Əl-ovraqul-Bağdadiyyətu fir-rəddi ələl-vəhhabiyyət», Şeyx İbrahim Ravi Samirrai

Bu kitabların sayı 42-yə çatır. Onlardan bəziləri aşağdakılardır:

1.Əhməd ibn Əli Bəzri Şafeinin risaləsi.

2.Əbdül-Vəhhab ibn Bərəkat Şafeinin risaləsi.

3.Şeyx Əttarinin "Əssarimul-hindi fi unuqun-Nəcdi" adlı risaləsi.

4."Əl-məqalatul-vafiyə fir-rəddi ələl-vəhhabiyyə", Möhsün Xəzbək.

5."Əl-əqvatul-məziyyətu fir-rəddi ələl vəhhabiyyə", Şeyx Əta Əlkəsəm.[1]

Vəhhabilərin İraqda (xüsusilə Kərbəlada) şiə rəhbərlərinin şərif qəbirlərinə və məqbərələrinə qarşı rəva gördükləri çirkin işlər və ağır cinayətlərə görə (gələn fəsillərdə onların barəsində söhbət olunacaq) şiələr vəhhabiyyətlə və onun banisi ilə müxalifətə qalxdılar, bu firqənin rədd olunması ilə əlaqədar çoxlu kitablar yazmağa başladılar.[2] "Şiə alimləri tərəfindən Məhəmməd ibn Əbdül-Vəhhabın batil əqidəsinin rədd olunması üçün yazılan ilk kitab Mərhum Şeyx Cəfər Kaşiful-ğitanın (1228-ci h.q ilində vəfat etmişdir) "Mənhəcur-rəşad" kitabıdır.[3] Bundan əlavə, mərhum Şeyx Ağa Bozorg Tehrani "Əz-zəriətu ila təsanifuş-şiə"

---

(Firqeyi vəhhabi vəpasox be şübehati an kitabı, səh.60-61)

[1] Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.239

[2] Vəhhabilərin barəsində şiə kitabları aşağdakılardır:

1. «Mənhəcur-rəşad», məşhur fəqih Şeyx Cə`fər Nəcəfi Kaşiful-ğita (1228-ci h.q-də vəfat edib)
2. «Məsiri talibi», Mirzə Əbu Talib İsfahani
3. «Töhfətül-alim», Mir Əbdül-Lətif Şuştəri
4. «Mir`atul-əhval cəhannəma», Ağa Əhməd Behbahani Kermanşahi
5. «Ər-rəddu ələl-vəhhabiyyət», Şeyx Məhəmməd Cavad Bəlaği
6-"Ər-rəddu ələl-vəhhabiyyət", Mirzə Məhəmməd Əli Ordubadi Qərəvi
7. «Kəşful-irtiyab ən ətbai Məhəmməd ibn Əbdül-Vəhhab», Seyyid Möhsün Əmin Amuli
8. «Əl-bərahinul-hələbiyyətu fi rəddi təşkikatil-vəhhabiyyət».
9. «Ər-rəddu ələl-vəhhabiyyət», Şeyx Hadi ibn Şeyx Abbas Kaşiful-ğita Nəcəfi
10. «Rəddi bər vəhhabiyyət», Şeyx Məhdi ibn Məhəmməd Əli Fiqihul-İslam İsfahani
11. «Əl-ayatul-bəyyinatu fi qəm`il-bidəi vəz-zəlalat», Şeyx Məhəmməd Hüseyn Kaşiful-ğita
12. «Əl-məşahidul-məşrufətu vəl-vəhhabiyyun», Şeyx Məhəmməd Əli ibn Məhəmməd Cə`fər
13. «Əl-hadi, rəddu kəşfiş-şübəhati Məhəmməd ibn Əbdül-Vəhhab», Şeyx Məhəmməd Hüseyn Fəlusi
14. «Kəşfun-niqab ən əqaidi Əbdül-Vəhhab», Seyyid Əli Nəqi Hindi
15. «Həzyun hiyəl-vəhhabiyyə», Şeyx Məhəmməd Cavad Muğinə
16. «Vəhhabilər», Əli Əsğər Fəqihi

Qəzvini Məhəmməd Hüseyn. "Firqeyi vəhhabi və pasoxe şübhəhaye anha", səh.61-62)

[3] Sübhani Cə`fər, "Fərhəngi əqaid və məzahibi İslami", 1-ci cild, səh.36

kitabında bu kitabların bəzilərinin adlarını qeyd etmişdir. O cümlədən:

1.“Əl-ovraqul-Bağdadiyyə”, Şeyx İbrahim Ravi Əraqi.

2.“Dəlili vaqei”.

3.“Sülhü ixvan”, Şeyx Davud Nəqşbəndi Bağdadi.

4.“Əl-mənqəhul-vəhbiyyə”.

5.“Əl-ayatul-bəyyinat”.

6.“Ər-rəddu ələl-vəhhabiyyə”, Şeyx Məhəmməd Cavad Bəlaği.[1]

Ümumiyyətlə, Məhəmməd ibn Əbdül-Vəhhabın həyatı və onun gördüyü işləri araşdırmaqla müsəlmanların və İslamın ziddinə olan vəhhabi məzhəbinin törətdiyi faciələrin nə qədər böyük olduğu aydın olur. Əmini bu barədə qeyd edir: “Tarixçilərin yazılarından belə aydın olur ki, Məhəmməd ibn Əbdül-Vəhhab öz həyatı boyu hər növ fitnə-fəsadın, qətl və cinayətin mənşəyi olmuş və müsəlmanlar arasında fitnə odunun şölələnməsində, düşmənçilik və çəkişmələrin qızışdırılmasında bir an olsun belə soyumamışdı. O, həqiqətdə bütün İslam dəyərlərinin və insani keyfiyyətlərin təxribatçısı idi, mömin, şərafətli və alicənab insanların hökumətini qəbul etməyən, dindən, bütün yaxşılıq və fəzilətlərdən ayrı düşən insanlar ona, öz hədəfində kömək etdilər.”[2]

Qeyd olunanlara diqqət yetirməklə məlum olur ki, Məhəmməd ibn Əbdül-Vəhhab İslama laqeyd və xain olan bir ünsür idi. Onun yaratdığı məslək İslamın, Quranın və şəriətin ziddinə idi. Belə ki, “Vəhhabilərin batil sözləri və əqidələri səbəbilə İslam barəsində onların nəzərindən təhqiqat aparıb araşdıran şəxslərin bəziləri İslam dinini quru və donuq, bütün zamanlara cavab verə bilməyən bir din kimi tanıtdırdılar.”[3] Bəli, bu kimi anlaşılmazlıq və sui-istifadələr bir sıra dinsiz, rəyasətpərəst, şan-şöhrət aşiqi, həvayi-nəfsə tabe olan və İslam dininə xəyanət edən bir neçə ünsürün qurduğu hiyləgərlik planları idi ki, onlar istismarçılara xidmət edib onların məramlarını irəli aparmaqda kömək etmişlər.

[1] Vəliyyi fəqihin nümayəndəliyi, Həmin mənbə, səh.124-125

[2] Əl-əmin Möhsin. “Tarixçe və nəqd və bərrəsiye əqaid və amali vəhhabiha”, səh.171

[3] Sübhani Cə`fər, “Fərhəngi əqaid və məzahibi İslami”, səh.31

## İKİNCİ HİSSƏ

### *VƏHHABİLİYİN YARANMASI VƏ İNKŞAF ETMƏSİ AMİLLƏRİ*

Birinci fəsildə vəhhabi firqəsinin ideoloji rəhbərləri, bu firqənin banisinin şəxsiyyəti haqqında, eləcə də vəhhabi məsləkinin necə yaranması, onun əqidə və üsullarının bir qismi ətraflı şəkildə bəyan olundu. Bundan qabaq qeyd olunanlara diqqət yetirməklə başa düşmək olar ki, Məhəmməd ibn Əbdül-Vəhhab sünnü məzhəbinin hənbəli firqəsinə tabe olan bir ailədə böyümüş, münasib şəraitlərdən istifadə edərək Ərəbistanda (Nəcddə) vəhhabi firqəsinin əsasını qoya bilmişdir.

Bu fəsildə isə vəhhabiliyin yaranıb inkşaf etməsində təsirli olan müxtəlif amilləri, bütün siyasi, iqtisadi, mədəni, ictimai yönlərdən, eləcə də coğrafi zona və beynəlminəl baxımdan araşdıracağıq.

İslam tarixi boyunda həmişə bəzi şəxslər, yaxud qruplar meydana gəlirdi ki, İslamı dərk edib başa düşməkdə təəssübə və donuşluğa meyl edirdilər. Peyğəmbəri-Əkrəmin (s) dövründə Mədineyi-Münəvvərədə bəziləri var idi ki, İslam barəsində özlərinin dar düşüncələri əsasında nəzər verir, hətta Peyğəmbərin (s) müqabilində belə dayanırdılar. Sonralar da Həzrət Əlinin (ə) xilafəti dövründə yaranan xəvaric də həmin dar düşüncəli və quru, yalançı müqəddəslər idi ki, o dövrün xüsusi şəraitinin tələbi ilə çox ağır cinayətlər törədib özlərindən vəsfəgəlməz qəsavət və daşürəklilik göstərirdilər. Bu da onların İslamın əhatəliyi ruhundan uzaq düşərək yalnız bir istiqamətdə nəzər salmalarından xəbər verirdi.

Xəvaric əməvilərin süqutundan sonra (132-ci h.q.) əməldə artıq nəzərə çarpacaq səviyyədə deyildilər. Amma onların quru təəssübləri və dar düşüncələri yenə də davam etməkdə idi.

Bir qədər dərindən diqqət yetirməklə demək olar ki, əshabi-hədis (əlbəttə, sünnülərin çərçivəsində) müəyyən qədər bu dəstənin içərisindədir. Onlar ayə və hədislərin zahiri mənalarını əldə etməyə çox ciddiyyət göstərir və daha artıq məlumat əldə edilməsilə nəticələnən fikirlərlə müxalifət edirdilər. Əhli-hədisin mərkəzi əsas etibarı ilə Ərəbistan, xüsusilə Məkkeyi-Mükərrəmə və Mədinə idi. Onların ardıcılları əsasən Ərəbistanın mərkəz və cənub nahiyələrində idilər. Sünnülərin fiqh imamlarından ikisi, yəni, Malik ibn Ənəs və Əhməd ibn Hənbəl, eləcə də “Sihahi-sittə”nin müəlliflərindən bir qrupu onların bünövrəsini qoymuşdular. Amma məlum səbəblərə görə Əhməd ibn Hənbəl onların arasında qəhrəman sayılır. Bu silsilə həmişə davam etmiş, Bəsrə, Kufə və Yəməni öz təsiri altına almışdır. İbn Həcər, İbn Teymiyyə, İbn Covziyyə, İbn Ərəbi (“Əl-qəvasimu minəl-qəvasim”

kitabının müəllifi) onların parlaq şəxsiyyətləridir. Onların hamısı şiəliklə kəskin mübarizə aparırdılar.

Başçısı Məhəmməd ibn Əbdül-Vəhhab olan vəhhabi firqəsi həmin tarixi cərəyanların məhsuludur. Əlbəttə, Əbdül-Vəhhab özünün sələf rəhbərlərinin elmi qüdrətinə və təcrübəsinə malik deyildi. Amma tarixi, təbii, ictimai və siyasi şəraitin tələbi ilə belə bir təfəkkürün binasını qoya bilmişdi.

Bu müqəddiməyə diqqət yetirməklə vəhhabi firqəsinin yaranıb inkşaf etməsinin müxtəlif amillərini araşdıracağıq ki, bəhs olunan mövzu gözəl şəkildə aydınlaşsın.

## *VƏHHABİLƏRİN YARANIB İNKŞAF ETMƏSİNDƏ ZONAL AMİLLƏR*

### *ALİ-SƏUD SÜLALƏSİNİN ÖZÜNƏ QANUNİYYƏT QAZANMAQ ÜÇÜN VƏHHABİYYƏTDƏN FAYDALANMASI*

Keçən fəsildə qeyd olundu ki, Məhəmməd ibn Əbdül-Vəhhab müxtəlif şəhərlərə etdiyi səfərlərdən sonra 1143-cü h.q ilində öz dəvətini Hərimələdə aşkar etdi. Bundan sonra onun məsləkini qəbul etmək üçün şərait münasib olmadığına görə o məntəqənin əhalisi onun əleyhinə qiyam etdilər və onu öldürmək istədilər. Məhəmməd ibn Əbdül-Vəhhab məcbur qalıb öz vətəni Üyeynəyə köçdü. Üyeynə öz şəraitinə görə nisbətən münasib olduğundan, burada dəvətini aşkar etdi (bu şərait və vəziyyətlər barəsində bu fəsildə söhbət açılacaq). Amma Məhəmməd ibn Əbdül-Vəhhabın bu şəhərdə müvəffəqiyyət qazanmasına baxmayaraq onun öz əqidəsilə əlaqədar məlumat və xəbərlər Ehsa hakiminə çatdıqda[1] o da Nəcddəki mənafeyinin təhlükəyə düşdüyünü gördü və Üyeynə əmirindən istədi ki, Məhəmməd ibn Əbdül-Vəhhaba kömək etməsin və mümkün olan yollarla onu qətlə yetirsin. (Üyeynə və Nəcdin başqa şəhərləri də Ehsa hakiminin hakimiyyəti altında idi; əlbəttə bu hakimiyyət sadəcə olaraq oradakı qəbilələrin bəzisindən bac-xərac almaq üçün təşkil olunmuşdu və Ehsanın həmişəlik hakimi deyildi). Vəhhabiliyin banisi Üyeynəni özü üçün və məsləki üçün əmin-amanlıq bir yer olmadığını gördükdə Riyaz şəhərinin 20 kilometrliyində yerləşən Dirriyyə şəhərinə köçdü.

---

[1] Əl-hisa yaxud Hisa çoxlu sulara və xurma bağlarına malik olan kiçik bir ərazidir. O, Qətifin cənub-qərbində iki mənzillik yolda yerləşir. Onun xurma bağları Dəməşqin Ğutəsi qədərdir. "Əl-müştərək" kitabında qeyd olunur ki, Ehsa – hisa kəlməsinin cəm formasıdır, hisa da suyun batdığı qumluq yerə deyilir. Belə ki, su həmin qumluqda batdıqdan sonra bərk topraq qatında toplaşıb yığılır. Ərəblər o qumları qazıb su çıxarırdılar. (Əbul Fidanın "Təqvimul-bildan" kitabı, Əbdül-Həmid Ayətinin tərcüməsi, Bunyadi-fərhəngi-İran nəşriyyatı, Tehran, 1349 h.ş, səh.135)

Vəhhabiyyət məhz bu şəhərdə kök saldı və öz əsaslarını möhkəmləndirdi. Diriyyədə hökumət Məhəmməd İbn Səudun rəhbərliyi ilə Ənizə (yaxud Üneyzə) qəbiləsinin ixtiyarında idi. “Nizami Ali Səud” kitabının müəllifi qeyd edir ki, Ali-Səud, Səud ibn Məhəmməd ibn Müqrinə mənsubdur.[1] O, 1148-ci h.q. (1735-ci miladi) ilində Ərəbistan yarımadasının bir hissəsinə hakim olmuşdur. Ali-Səud sülaləsi iddia edirdi ki, ondan yarım əsr qabaq Hani ibn Rəbiul Muridi və onun tayfası Nəcdə gəlmiş və bu məntəqədə (Diriyyədə) sakin olmuşdur. Amma Ali-Səudun tarixi və qeyri sənədlərdə əsər-əlaməti görünən ilk şəxsi Səud ibn Məhəmməddir. O, özü üçün Diriyyədə kiçik bir hakimiyyət yarada bilmişdi.”[2]

Ali-Səud Məhəmməd ibn Əbdül-Vəhhabın oraya gəlişindən əvvəl Diriyyədə Nəcdin sair qəbilələri və bədəvi ərəblər kimi yaşayırdılar. Başqa sözlə desək, “Səud sülaləsi Nəcdin əkinçiləri və şəhərlilərin çoxu kimi nisbətən şeyxliliyə yönələnlər idi. Xurma ticarəti və bəlkə də bir qədər at bəsləməklə rahat həyat sürürdülər. Qüdrətli olduqlarını hiss etdikləri zaman səhrada yaşayan qəbilələrə qəfildən hücum edirdilər. Halbuki, zəif olduqları vaxt bir guşəyə pənah aparırdılar. Onlar nisbətən müstəqil idilər və qətiyyən imperatorluq təşkil etmək fikrində deyildilər. Az ehtimal verilir ki, onların öz mürşidləri ilə əlaqəsi olmadan dünya onların barəsində bir şey eşitməmişdi. Lakin Məhəmməd ibn Əbdül-Vəhhab Səud sülaləsini yeni bir istiqamətə doğru çəkdi.”[3] Amma Məhəmməd ibn Əbdül-Vəhhab Diriyyəyə o zaman daxil oldu ki, oranın hökmranı Məhəmməd İbn Səud idi və o, “Nəcd və Hicaz mühitlərində təklikdə öz dəvətini yaya bilmədiyindən bu yolda yaranan əlaqələr ona

---

[1] “İn əst ayini vəhhabiyyət” kitabında Ali-Səudun əsil-nəsəbi və kökləri belə qeyd olunur: “Miladın 15-ci əsrində Ehsa şəhərində Ənizə qəbiləsində Mane adlı bir kişi yaşayırdı. Onun Nəcdin Mənfuh adlı bir kəndində Dir` adlı bir əmioğlusu var idi. Dir` var-dövlətli bir şəxs idi və qəbilə rəisi sayılırdı. İllərin birində Mane əmioğlusunu görmək üçün Ehsadan Nəcdə yola düşdü. Dir` öz torpaq sahələrindən iki böyük hissəni öz əmioğlusu Maneyə bağışladı, Mane bütün ailəsini Ehsadan Nəcdə köçürtdü və ona hədiyyə olunan torpaq sahəsində əkinçiliklə məşğul oldu. Bu şəxs Səudilərin əcdadları sayılır. Manenin vəfatından sonra oğlu Rəbiə onun əmlakının varisi oldu və camaatın torpaq sahələrindən bə`zilərini alaraq öz əmlakına qatdı, camaatı öz əmri altına keçirtdi və çox kiçik bir hökumət təşkil etdi. Rəbiədən sonra Musa, Musadan da sonra onun oğlanları İbrahim və Fərhat tərtiblə atasının yerində oturdular. Fərhatın Rəbiə və Müqrin adlı iki oğlu var idi. Müqrindən sonra Məhəmməd və Məhəmmədən də Səud adlı bir uşaq doğuldu. O da Səudiyyə sülaləsini başçısıdır.

[2] Fuiye Təlud. “Nizami Ali-Səud”, Nuriddin Şirazinin tərcüməsi, İntişarati fərəndiş, payız 1367, 1-ci çap, səh.20

[3] Leysi Rabert, Həmin mənbə, səh.85-86

kömək etdi və bu da Ali-Səudun onunla beyət etməsi idi.”[1] Bununla da Diriyyə şəhərində Məhəmməd ibn Əbdül-Vəhhabla Ali-Səud arasında ittihad müqaviləsi bağlandı. Cənab Əmininin yazdığı kimi: “Məhəmməd və Səudun hər biri özünü digərinin vasitəsi ilə gücləndirirdi: Səud öz hökumətini Məhəmməd ibn Əbdül-Vəhhabın dininə tabe olmaqla, Məhəmməd ibn Əbdül-Vəhhab isə öz məzhəbini Səud hökumətinin qılıncı ilə.”[2] Bu müqavilə 1158-ci h.q (1740-cı miladi) ildə bağlandı. Onun mühüm maddələrindən biri bu idi ki, Məhəmməd ibn Əbdül-Vəhhab başqa bir əmirin himayəsi altında olmasın.”[3] Həqiqətdə bu müqavilənin bağlanmasında əsas məqsəd və hədəf onların xüsusi mənafe və hədəflərini təmin etmək idi. Xüsusilə, “Nəcd camaatı qarət etməyə məşğul olan və öz iş üslublarını müharibə və qan tökmək əsasında quran əmirləri onunla (Məhəmməd ibn Əbdül-Vəhhabla) bir ittifaq qurdular ki, özlərinin məqam və şan-şöhrət arzularına daha yaxşı çata bilsinlər.”[4] Beləliklə, iki Məhəmmədin arasında ittihad müqaviləsi bağlandı və hər biri digərinə kömək etməyi öz öhdəsinə aldı. Xüsusilə, Ali-Səud bu müqavilənin bağlanmasından və vəhhabiliyi qəbul etməkdən istifadə edə bildi. Vəhhabilərin ideoloji köməyindən özlərinin ərazi iddialarına və hücumlarına qanuniyyət kəsb etməklə yanaşı, bu işlərə dini pərdə vurdular. Ustad Cəfər Sübhani öz kitabının bir hissəsində Ali-Səudun bu işdən necə gözəl bəhrələnməsini xatırladaraq deyir: “İbn Səud Şeyxlə bağladığı müqaviləsindən son dərəcə xoşhal idi. Lakin onun üçün iki şərt irəli sürüldü:

1. Əgər biz səninlə köməkləşib ölkələri fəth etsək qorxuruq ki, bizi tərk edərək başqa bir məntəqədə yaşayasan!

2. Biz meyvələrin yetişdiyi zaman Diriyyə camaatından vergi toplayacağıq. Qorxuruq ki, siz vergini qadağan edəsiniz.

Şeyx İbn Səudun cavabında dedi: “Mən heç vaxt səni başqasına dəyişmərəm. Allahın bizə nəsib etdiyi fəthlərdən çoxlu qənimətlər gələcək və səni bu vergilərdən ehtiyacsız edəcəkdir.”

Sonralar, bu iki ailənin arasındakı əlaqələrin möhkəmlənməsi üçün Diriyyənin əmiri şeyxin qızını öz oğlu Əbdül-Əzizə aldı və bununla da iki ailə arasında qohumluq münasibətləri bərqərar oldu. Bu əlaqələr indiyə qədər geniş səviyyədə qorunmuşdur.[5]

---

[1] Sübhani Cə`fər, “Fərhəngi əqaid və məzahibi İslami”, 1-ci cild, səh.283

[2] Əmini Məhəmməd Hadi. “Tarixi Məkkə” (Möhsin Axundinin tərcüməsi), səh.168

[3] Həmin mənbə, səh.75

[4] Behişti Əhməd. “Şəxsiyyət və əndişehayi Kaşiful-ğita”, kanuni nəşri əndişeyi islami, Qum, 1370, 1-ci çap, səh.78

[5] Sübhani Cə`fər, “Fərhəngi əqaid və məzahibi İslami”, 3-cü cild, səh.57-58

İki Məhəmmədin arasında baş verən danışıqlara və söhbətlərə diqqət yetirməklə onların əsas məqsədlərini anlamaq olar. O da bundan ibarətdir ki, Ali-Səud vəhhabiliyə və onun banisinə özünə qanunilik bağışlamaq üçün bir vasitə kimi baxırdı. O bu məsləki və onun banisini məhz buna görə himayə edirdi. Bütün çətinliklərə baxmayaraq, o, hər bir zaman xüsusilə öz maddi və iqtisadi mənafeyini bu ittifaqda axtarırdı. Diriyyədə Ali-Səudun özü və öz məzhəbi üçün təhlükəsiz bir sığınacaq olduğunu görən Məhəmməd ibn Əbdül-Vəhhab onlara iltizam və təminat verdi ki, öz məzhəbi himayə və köməklərini heç vaxt onlardan kəsməyəgəkdir (onların işinə qanunilik verməkdə, eləcə də yeni-yeni hücumlarına və işğallarına dini don geyindirməkdə). Başqa sözlə desək, Ali-Səud məzhəbinin əsas bünövrəsi vəhhabilik olacaqdı.

Beləliklə, Məhəmməd İbn Səud vəhhabiliyi qəbul etməklə siyasi və hərbi qüdrətə çatdı. Qüdrətin onun əlində təmərküzləşməsi ilə Məhəmməd ibn Əbdül-Vəhhaba söz verdi ki, onun məsləkinin yayılmasında bütün imkanlardan istifadə etsin. O da İbn Səuda zəmanət verdi ki, bu halda daha artıq qüdrət və sərvət əldə edəcəkdir. Qeyd olunanları nəzərə almaqla, "vəhhabiliyin Nəcddə və Hicazda yayılıb nüfuz etməsinin ən mühüm amili Ali-Səud oldu, onlar hətta vəhhabiliyi öz ölkəsinin rəsmi məzhəbi seçdi və bu əqidənin icrası üçün heç bir maneənin qarşısında diz çökmədi."[1]

Məhəmməd ibn Əbdül-Vəhhabın Diriyyəyə daxil olmasından başlayaraq Səudilərlə vəhhabilər arasında bağlılıq yarandı və bu bağlılıq o qədər möhkəmlənmişdi ki, Ali-Səudun tarixi boyu (vəhhabiliyi qəbul etdikdən sonra) onlarla vəhhabilərin arasında heç bir fərq gözə çapmırdı. Buna görə də bundan sonrakı mənbələrdə səudilərin adları və gördükləri tədbirlər vəhhabilərin adları və gördükləri tədbirlərlə yanaşı qeyd olunur. Seyyid Davud Ağayi "nə üçün Səudi rejimi vəhhabiləri öz ardınca çəkir?" - deyə verilən sualın cavabında yazır:

"Vəhhabilik Səudiyyə rejiminin "ömür şüşəsi" hesab olunur. Onsuz öz ayağı üstündə dayanıb, müstəqil ola bilməz. Necə ki, marksizm kommunist rejimlərinin davam gətirmə və ömür səbəbi idi. Səudi rejiminin vəhhabilərlə olan münasibəti də eynilə belədir. Onlar vəhhabilikdən heç vaxt üz çevirə bilməzlər. Amma onu, dövrün tələbinə görə öz fikir və səliqələrinə uyğun təfsir edə bilərlər."[2]

Üçüncü fəsildə qeyd edəcəyik ki, Ali-Səud vəhhabiliyi dövrün şəraitinə və zamanın tələbinə uyğun olaraq necə dəyişdirdi və öz məqsədlərini həyata keçirmək üçün ondan necə istifadə etdi.

---

[1] "Siyasət və hökumət dər Ərəbistani Səudi", Seyyid Davud Ağayi, səh.27

[2] Həmin mənbə, səh.44

Burada qeyd olunmalı məsələ budur ki, “vəhhabiliyin dini-siyasi təfəkküründə qüdrət əsas rol ifa etdiyinə görə qüdrət sahiblərinin, hətta İslamın ictimai həqiqətlərə tətbiq olunmasında belə xüsusi ixtiyarlardan istifadə etmələrinə səbəb olmuşdur.”[1] Həqiqətdə Ərəbistanda qüdrət ədalətdən daha artıq əhəmiyyət kəsb edir. Bunu da nəzərə almaq lazımdır ki, orada qüdrət nisbətən iftixar yaradan və qürur gətirəndir. “Bunlardan yaxşı şəkildə anlamaq olar ki, onlar İslama əsas etibarı ilə həyatın bütün sahələrinə nəzarət edən ideoloji bir sistem kimi baxmırlar.”[2] Onlar üçün hakimin və rəhbərin kim olması, hansı şərtlərə malik olması çox da əhəmiyyət kəsb etmir. Çünki, onların nəzərində əhəmiyyətli şey qüdrətin forması deyil, onun özüdür... (Onların nəzərində) ən mühüm olan şey budur ki, xalq arasında İslamdan söhbət getsin, ictimaiyyətdə İslamın zahiri qayda-qanunlarına riayət edilsin və islamiyyət donunda görünsün. Amma əgər qüdrət sahibləri zalım, fasiq və İslama etinasız olsalar, xüsusilə yadlar ölkə işlərinə dəxalət edib istilalar üçün şərait yaratsalar, bunun çox da əhəmiyyəti yoxdur...

Vəhhabiyyətin zahirdə quru və sərt olmasına baxmayaraq, hakim qüdrətə o qədər ixtiyarlar vermişdir ki, onlar əməli olaraq özlərinin fiqhi etiqadlarını və üsullarını görməzliyə vururlar. Yəni, rəy – sultanın rəyi və ictihad da onun qüdrəti əlindədir.[3] Vəhhabilərin rəhbər və rəhbərlik barəsində təfəkkür tərzi və ideologiyasının araşdırılmasından səudilərin bu məsləki qəbul etməsi və onun qalıb davam etməsində ciddi səy

---

[1] Məscid Camei Məhəmməd, “Vəhhabiyyət dər cəzirətul-Ərəb”, Əbrar qəzeti, 25-ci fərvərdin, 1365-ci il 165-ci nömrə, səh.4

[2] Səudiyyə hakimləri Əbdül-Əzizin dövründən indiyə qədər İslama yalnız öz qüdrət və mövqelərini möhkəmləndirilməsi və qoruyub saxlanması üçün bir vasitə kimi baxmışlar. Bu məqsədlərinə çatmaq üçün ən yaxşı yol bu olmuşdur ki, İslamı vəhhabiyyət çərçivəsində və əsl dini me`yarlardan xaricdə təqdim etsinlər. Vəhhabiyyətə istinad etməyin səbəbi təkcə bu deyildi ki, özləri onun əsasını qoyub yaysınlar. Əksinə buna görə idi ki, ondan daha yaxşı vasitə seçmək mümkün deyildi. Xüsusilə, bunu nəzərə alaq ki, bu ayin “sultan” və “vəliyyi-əmr” ünvanı, hətta “imam” adı ilə onları tam ixtiyarlı etmiş və sərbəst buraxmışdı. Nəcd alimlərinin gömrükü, teleqrafı tə`mir etmək və sultan Əbdül-Əzizlə müxalifət etməmək barəsindəki tarixi fətvalarında o imam kimi tanıtdırılmışdır. (“Əbrar” qəzeti, 27 fərvərdin 1365, 168-ci nömrə, səh.4

[3] “Siyasət və hökumət dər Ərəbistani Səudi”, Seyyid Davud Ağayi, səh.38-39

*Hal-hazırda vəziyyət elə deyildir ki, hicazlı, yaxud Səudi rejiminin tərəfdarı olan alimlər bu ölkənin daxilində və xaricində Səudi hakimlərinin xaricə bağlılığı, zülm, təcavüzkarlıqlar, fisq-fücur, eybəcərlik və əyyaşlıqlarından xəbərsiz olmasınlar. Amma bütün bunlara baxmayaraq, yenə də onların tərəfini saxlayır, heç olmazsa razılıq əlaməti olaraq sükut edirlər. Çünki onların çoxu bu qurumun öz sülalələrinin qalıb davam etməsini zəruri hesab edir, bə`ziləri də qüdrət qarşısındakı zərurətə əsasən onlara boyun əyirlər. (“Siyasət və hökumət dər Ərəbistani Səudi”, səh.39)

göstərməsinin səbəbini anlamaq olar. Səudilər vəhhabiləri onların əməl və tədbirlərinə qanuni don geyindirdiklərinə, onların hədəflərinə çatmaqda dini arxaları olduqlarına görə qəbul etdilər. Məhəmməd ibn Əbdül-Vəhhabın ailəsi ilə sıx əlaqə və ailəvi münasibət qurduqlarına görə özləri üçün böyük dini-siyasi mövqe kəsb edə bildilər. “Siyasət və hökumət dər Ərəbistani Səudi” kitabının müəllifi bu barədə belə yazır: “...Səudilər sülaləsi həmişə özünü elə qələmə verirdi ki, sanki, İslam dəyərlərinin keşikçisi və İslam hökmlərinin icraçısıdır.[1] Sultan Əbdül-Əziz və Səudiyyə Ərəbistanının banisi qərara almışdılar ki, özünün Qurandan və İslam qanunlarından bildiyi əsasda hökmranlıq etsin. “Cəmiyyətin Quran qanunları əsasında idarə olunması” Səudi sultanlarının ilk əvvəldən indiyə qədər müştərək şüarları olmuşdur. Buna baxmayaraq, hər bir zamanda onun barəsində şəxsi zövqlər və xüsusi məfhumları təqdim etmişlər.”[2]

Bu bəhsin axırında xarici yazıçılardan birinin Ali-Səudun vəhhabilikdən, Məhəmməd ibn Əbdül-Vəhhabın övladlarının da səudilərdən necə istifadə etməsi barəsindəki nəzərini diqqətinizə çatdırırıq. O, bu barədə yazır: “... Səudiyyə rejimi çox ayıqlıqla siyasi və məzhəbi qüdrətə arxalanmışdı. Səudiyyə padşahları ilk növbədə qəbilə başçıları idilər ki, onlar qüdrət mühafizləri ittihadının köməyi ilə, eləcə də sair məsul şəxslərin ailələri ilə evlənmək və münasibət qurmaq əsasında hökmranlıq edirdilər... Əsas etibarı ilə Məhəmməd ibn Əbdül-Vəhhabın nəslindən olan ölkə ruhaniləri səltənət və padşah ailələri ilə evlənirdilər, dövlət tərəfindən də onlara maddi yardım olunurdu. Həmçinin, hökumət məclislərində güclü nüfuza malik idilər.”[3]

---

[1] Mühüm məsələ budur ki, Ali-Səudun İslamı nə üçün istəməsi düzgün şəkildə dərk olunsun və bu üslubun səbəbi aydınlaşsın. Xüsusilə buna diqqət yetirək ki, Səudilərin çoxlunun sünnü alimlərinin nəzərində ehtiramla yad edilməsinin səbəbi onların İslamı vasitə qərar vermələridir. Bu məsələ Ərəbistan sərhədlərindən uzaqda, xüsusilə Pakistanda – şiələrin geniş və dərin köklərə malik olduğu bu ölkədə gözəl şəkildə müşahidə olunur... Hələ də Səudiyyə rejimini müdafiə etməyin lazım olmasına inananlar bu barədəki nəzərlərini imandan artıq daha çox siyasi xarakter daşıyan və sünnülərin əqidəvi çərçivəsində güclü bir mərkəziyyətin olmasının zəruri olması barədə nəzərlər və ikinci dərəcəli fikirlər, o cümlədən siyasi, hərbi, iqtisadi məsləhətlər, İslamın zahirinə əməl edən şərif hərəmlərdə və ərəblərin solçu və marksist hökumətlərin qarşısında nisbətən güclü bir qüdrət olduğuna görə onu müdafiə edirlər. (“Siyasət və hökumət dər Ərəbistani Səudi”, səh.42-43)

[2] “Siyasət və hökumət dər Ərəbistani Səudi”, Seyyid Davud Ağayi, səh.42

[3] Lapirus İram, “Tarixi cəvamei İslami dər qüruni-nuzdəhom və bistom” (Möhsün Müdir Şanəçinin tərcüməsi), İntişarati Asitani Qüdsi Rəzəvi, 1-ci çap 1376, səh.161

## *OSMANLI İMPERATORLUĞUNUN HİCAZ VƏ NƏCD HAKİMİYYƏTİ*

Osmanlı silsiləsinin zahir olması və onun Avropa-Asiya ölkələrindən çoxuna hökmranlıq etməsi ən mühüm tarixi hadisələrdən biri idi. Monqolların İslam ölkələrinə hücumundan, daha sonra isə həmin ölkələrdə mövqelərinin zəifləməsindən sonra Osmanlı imperiyası yarandı. Bu barədə Corc Zeydan belə yazır: "...Onlar (monqollar) İslam ölkələrinə müsəlmanların franklar, gürcülər və ermənilərin hücumları nəticəsində son dərəcə zəiflədikləri zaman hücum etmişdilər. Monqollar belə bir siyasi şəraitdə müsəlmanlara həmlə edərək Bağdadda Abbasi xilafətini məğlub etdilər, İslam ölkələrini ölümcül vəziyyətə saldılar. Bir müddət müsəlmanların arasından heç kəs qalxıb onların pərakəndəliyini nizama salmadı. Nəhayət bir tərəfdən Osmanlı sultanları, digər tərəfdən isə Səfəvi sultanları zahir olaraq yeni sünnü-şiə İslam hökumətlərini təşkil etdilər."[1] Osmanlıların qüdrətə çatmaları hicri tarixi ilə VIII əsrə (miladi XIII) təsadüf edir. Bu imperatorluq, Bizans (şərqi Roma) imperiyasının dağıldığı bir dövrdə Anadoluda və Balkan yarımadasında quruldu. "Onlar iki əsrlik hakimiyyətləri dövründə təkcə əvvəlki imperatorluğun ölkələrinə deyil – yəni Bizansda, Avropanın cənubunda və Anadoluda yerləşən ölkələrin cənubunda – üstəlik Macarıstan və Ərəb dünyasına da hakim oldu."[2] Aydındır ki, Osmanlı imperatorluğu hökuməti bərqərar etdikdən və öz əsaslarını möhkəmləndirdikdən sonra (cənubi-şərqi Avropa və Anadoludan əlavə) şərq ərəb dövlətlərinə və əvvəlcə müsəlman olan şimali Afrikaya da hakim kəsildi.[3]

Osmanlı dövləti qüdrətə çatdıqdan sonra öz sərhədlərini genişləndirməyə başladı. "Sultan Səlim 923-cü h.q (1517-ci miladi)

---

[1] Corc Zeydan, "Tarixi təməddüni İslam", Əli Cəvahir Kəlamın tərcüməsi, "Əmir Kəbir" nəşriyyatı, Tehran, 8-ci çap, 1373, 861-ci, səh.

[2] Stanford, "Tarixi imperatoriye Osmani və Türkiyeyi cədid" (Mahmud Ramazanzadənin tərcüməsi), İntişarati Astani Qüdsi Rəzəvi, 1-ci çap 1370, səh.19

[3] Osmanlı imperatorluğu 1326-cı miladi ilində vəfat edən Birinci Osmanın adı ilə bağlıdır. Onun canişini olan osmanlılar ölkə sərhədlərini genişləndirdilər. Nəhayət XVI əsrdə öz qüdrətlərinin ən yüksək səviyyəsinə çatdılar. Bu xilafət Macarıstan, Krım, Qara dəniz sahilləri, Balkan, o cümlədən bu günkü Yuqoslaviyanın böyük bir hissəsi (Yuqoslaviyanın dağılmasından əvvəlki sərhədləri), Çexoslovakiya (Çex və Slovak), Albaniya, Rumıniya, Bolqarıstan, Yunanıstan, Kipir, Əlcəzair, Tunis, Tripoli, Misir və həmçinin 1900-cu ilə qədər əllərində saxladıqları orta şərqin böyük bir hissəsini əhatə edirdi. Hətta 1822-ci ildə Misrin İngilislər tərəfindən işğal edilməsindən sonra Türkiyə hələ də o dövrdə qalib bir ölkə sayılırdı. (Lisi Robert, "Sərzəmini səlatin", 110-cu səhifəsinin vərəqaltı çıxarımından)

ilində Misiri fəth etməyə müvəffəq oldu."[1] Beləliklə Misirin ixtiyarında olan Hicaz və Nəcd də əməli olaraq Osmanlı imperiyasının nəzarəti altına keçdi. Lakin osmanlılar da əvvəlkilər kimi Ərəbistan yarımadasına (xüsusilə Hicazdan başqa məntəqələrə) çox diqqət yetirmirdilər. Bunun səbəbi bəlkə də Ərəbistanın daxili və xüsusi coğrafi vəziyyəti ola bilərdi. Ora kəskin kontinental (çox isti və yandırıcı) iqlimə malik idi. Əkinçilik üçün yararlı olmayan çoxlu səhraları, əraziləri vardı ki, orada hökumətin vəziyyətinin nə yerdə olması məlum deyildi. Çünki, oraya qəbilə icması hakim idi və hər bir nahiyədə yalnız qəbilənin rəisinin və ya hakiminin sözü qəbul olunurdu. Klevd Fuiyə böyük və kiçik dövlətlərin keçmiş dövrlərdən bəri Ərəbistan yarımadasına diqqət yetirməmələrinin səbəbi barəsində belə yazır: "... Peyğəmbərin (s) əsri istisna olmaqla, Ərəbistan yarımadası hazırkı əsrə qədər böyük hərəkatlardan kənarda qalır və Aşur, Misir, İran və Roma kimi böyük imperatorluqlar quraqlıq olan və əkinçilik üçün yararlı olmayan bu ölkəyə çox da diqqət yetirməmişlər. Ərəbistan yarımadasında yalnız Yəmənə diqqət yetirilmişdir. Hətta İslam xilafəti özünün ən yüksək qüdrətə çatdığı dövrdə xəlifələr öz paytaxtını Məkkeyi-Mükərrəmə və Mədinədə deyil, Dəməşqdə və Bağdadda yerləşdirirdilər ki, onlar iqtisadi və sterateji baxımdan nisbətən yaxşı mövqedə yerləşirdi. Axırıncı xilafət olan osmanlılar 896-cı hicri şəmsi (1517-ci miladi) ilində xilafət paytaxtını İstanbula köçürdülər. Ərəbistan Osmanlı dövlətinin idarə etdiyi bir hökumət şəklinə düşdü və bütün dünya müsəlmanlarının ziyarətgahı olan müqəddəs məkanlar istisna olunmaqla, Osmanlı imperatorluğu yalnız Ərəbistan yarımadasının sahildə yaşayan şeyxlərinin verdiyi müxtəsər vergi ilə kifayətlənirdi. Bunu da qeyd edək ki, daxili qəbilələrlə hökumət əleyhinə heç bir iş görməmək şərtilə işləri yox idi."[2]

Həqiqətdə Osmanlı imperatorluğunun Ərəbistan yarımadasına hakimiyyəti o nahiyələrdə yerləşən qəbilələrin zəif və ya qüdrətli olmasına, eləcə də Osmanlı sultanlarının qürətinə bağlı idi. Yəni hər vaxt bir qəbilə güclənsəydi (bu iqtidar və güclənmə ya bir qəbilənin başqa qəbilələrlə müqavilə bağlamasından yaranırdı, ya da başqa qəbilələrə qəfil hücumdan irəli gəlirdi) sair qəbilələrə, hətta osmanlıların hakimiyyəti altında olan digər nahiyələrin əleyhinə həmlə edir və mövcud şəraitdə heç olmazsa bir müddət iğtişaş yaradırdılar. Bunun əksinə olaraq, yarımadaya hakim olan qəbilələrin zəifliyi də Osmanlı dövlətinin onlara daha artıq hökmranlıq etməsinə səbəb olurdu.

---

[1] Ordiz professor Çarşi Li. Ozon, İsmail Həqqi, "Tarixi Osmani", İrəc Nobəxtin tərcüməsi, "Keyhan" nəşriyyatı, Tehran, payız, 1369, 1-ci çap, 2-ci cild, səh.459

[2] Fuiyə Klevd, "Nizami Ali-Səud", səh.18-19

Bu zaman Osmanlı imperatorluğunun Hicaza hökmranlığı başqa bir vəziyyətdə idi.[1] Seyyidi-Əzəmin, yaxud Məkkə əmirinin təyin edilməsi 1840-cı ildə Osmanlı türklərinin ixtiyarında idi. O zaman onlar Hicazı yeni bir vilayət kimi imperatorluğa əlavə etmişdilər.[2]

Osmanlıların o nahiyəyə diqqətini artıran şey orada Məkkə və Mədinə kimi müqəddəs İslam məkanlarının varlığı idi. Robert Lisi Hicaz barəsində yazarkən belə qeyd edir: "Hicaz diyarı... ümumiyyətlə sərvətli deyildir... Zahirdə o qədər də cazibəli ola bilməzdi. Hicazın kifayət qədər heç bir dəyərli təbii ehtiyatı, yaxud xammalı yox idi. Şəhərin balıqçıları öz ehtiyaclarını çox əzab-əziyyətlə təmin edə bilirdilər. Oranın əkinçiləri ən sadə həyat şəraiti ilə qənaətlənirdilər. Şəhərdə heç bir yerli peşə və sənət yox idi, xüsusi mədəniyyətə malik deyildilər, heç bir xarici qrup orada daimi yaşamırdı... Hicaz hər bir meyardan məhrum olmuş və geridə qalmış bir ölkə idi. Lakin onun qarşıq vəziyyəti və fəqirliyi gözə görünməz ixracatı – yəni müqəddəsliyi müqabilində müqayisə olunurdu."[3]

Robet Lisinin Hicaz barəsindəki sözləri daha artıq araşdırılmalıdır.[4] Lakin aydın məsələdir ki, Hicaz məntəqəsi dini baxımdan Osmanlı sultanları üçün xüsusi əhəmiyyət daşıyırdı. Onlar (sünnü məzhəbli müsəlmanlar) xilafət iddiasında idilər. Şərif Məkkə və Mədinə şəhərlərini özlərinə seçir, Hicazın təhlükəzliyini və onların qət etdikləri yolların təhlükəsizliyini öz öhdələrinə götürürdülər.

Əyan-əşraf da Osmanlı sultanları tərəfindən seçilməsinə və həqiqətdə onların Hicazdakı nümayəndələri olmasına baxmayaraq, mövcud şərait yarandıqda onu öz xeyirlərinə istifadə edərək sultanların əmr və göstərişlərindən boyun qaçırırdılar. Belə ki, Şərif Hüseyn Haşimi birinci dünya müharibəsində yaranan şəraitdən istifadə edərək istiqlaliyyət və xilafət iddiası etdi.

Sair məntəqələrdə, o cümlədən, Nəcd diyarında vəziyyət nəzərə çarpacaq dərəcədə fərqli idi. Əvvəldə də qeyd olunduğu kimi Nəcdə

---

[1] "Hicaz" – mane olmaq deməkdir. Bu ad çox böyük qayalıqları və təhlükəli uçrumları olan, Qırmızı dənizin sahilindəki çöllər boyunca yerləşən dağın olduğuna görə deyilir ki, oranı ortadakı səhralardan ayırırdı. Bu təbii bir sərhəd idi və Hicazın qərb sahillərində hədd-hüdud sayılırdı. "Sərzəmini səlatin", səh.142

[2] Lisi Robert, "Sərzəmini səlatin", səh.122

[3] Həmin mənbə, səh.124-125

[4] Belə nəzərə çarpır ki, "Sərzəmini səlatin" kitabının müəllifi Hicaz barəsində dəqiq mə`lumata malik deyilmiş. Xüsusilə Hicazın mədəniyyətindən söhbət açdığı zaman bu daha çox mə`lum olur. Halbuki, bu diyar (yə`ni, Mədinə şəhəri) İslam Peyğəmbərinin (s) vətəni idi. İslam da məhz həmin diyardan zahir olub dünyanın bütün yerinə yayılmışdır.

hakim olan idarə sistemi qəbilə icması və tayfa hakimiyyəti idi və onların qüdrət və iqtidarına əsaslanırdı. Nəcd diyarı xüsusi coğrafi mövqeyə malik olduğuna, əksər hissəsini səhralar və əkinçilik üçün münbit olmayan ərazilər təşkil etdiyinə, eləcə də onda çoxlu qəbilələrin yaşadığına görə müstəqil hakimiyyətə malik deyildi. Bu məsələ də oranın idarə olunmasını Osmanlı dövləti üçün çətinləşdirirdi. Buna əsasən, əvvəlcə də bəyan edildiyi kimi, Osmanlı sultanının Nəcdə hakim kəsilməsi onun və qəbilələrin qüdrət və ya zəifliyinə bağlı idi.

Səudilər sülaləsi hətta vəhhabiliyin yaranmasından öncə belə, qəfildən hücum edərək başqa qəbilələri öz istilası altına alırdı. Qəbilələrin (xüsusilə Nəcdə hakim olan qəbilələrin) ən mühüm xüsusiyyətləri müharibə və qan axıtmaq idi. Onlar öz həyatını məhz bu yolla davam etdirirdilər. Amma vəhhabiliyin yaranmasından, Səudiyyə sülaləsinin onu qəbul etməsindən sonra Nəcdin vəziyyəti dəyişdi. Vəhhabi-Səudi dini-siyasi ittihadının yaranması da sair nahiyələrin işğal olunması və qəbilə həyatının aradan qaldırılması üçün münasib şərait yaratdı. Belə ki, xarici yazıçılardan biri bu məsələyə işarə edərək yazır: "...(Bu ittihadiyyə) pərakəndə vəziyyətdə olan qəbilə qruplarını müttəhid bir hərəkat formasına saldı və onlar Ərəbistanın böyük bir hissəsini (Ərəbistan yarımadasını) öz ixtiyarlarına keçirdilər..."[1]

Osmanlı imperatorluğunda bir sıra dəyişikliklərin yaranmasına və islahatların aparılmasına səbəb olan bir dinin (vəhhabiliyin) bu imperatorluğun müəyyən nöqtələrində yaranması osmanlıların Ərəbistan yarımadasına hakim kəsildiyi vəziyyətindən xəbər verirdi. Bir tərəfdən Nəcdə hakim olan qəbilə quruluşu, digər tərəfdən də Nəcddəki bədəvi ərəblərin adət-ənənələri (sonralar buna işarə ediləcəkdir) Məhəmməd ibn Əbdül-Vəhhabın və İbn Səudun ondan öz xeyrinə istifadə edərək işə başlamalarına səbəb oldu. Onlar Nəcdin bir çox yerlərinə hakim kəsilməkdən əlavə Osmanlı imperatorluğunun sair məntəqələrinə hücum etdilər. Osmanlı imperatorluğunun, vahhabilərin meydana gəldiyi və Vəhhabi-Səudi ittihadiyyəsinin yarandığı dövrdəki vəziyyətini nəzərə almadan bu kimi amillərin araşdırılması qeyri-mümkündür.

Şübhəsiz, ərazilərin genişliyi, cəmiyyətin günbəgün artması, iqtisadi iflaslar, Osmanlı nümayəndələrinin müxtəlif məntəqələrdəki ləyaqətsizlikləri və s. kimi amillər imperatorluğun bir çox yerlərində qiyam və iğtişaşların yaranmasına, Osmanlı sarayında münasib olamayan vəziyyət və s. kimi bütün amillər də Osmanlı imperatorluğunun zəifləməsinə səbəb oldu. Bu imperatorluğun XVII-XVIII əsrlərdəki

[1] Lapirus İram, "Tarixi cəvamei İslami dər qüruni-nuzdəhom və bistom" (Möhsün Müdir Şanəçinin tərcüməsi), səh.28

münasib olmayan vəziyyəti ilə əlaqədar "Tarixi-cəvamei-İslami" kitabının müəllifi belə yazır: "XVII-XVIII miladi əsrində Osmanlı imperatorluğunda dərin dəyişikliklər yarandı, qüdrətin mərkəzdə təmərküzləşməsi yavaş-yavaş aradan qalxdı. Osmanlı imperatorluğunun genişlənməsinə son qoyulması ilə yanaşı, dövlət təşkilatları özünün idarə və hərbi imkanlarını əldən verdi. Xalq kütlələrinin qiyamı, iqtisadi tənəzzül və hərbi məğlubiyyətlər imperatorluğu aciz etmişdi. Yerli və tanınmış şəxsiyyətlər arasında vergi verən cəmiyyətlərin nəzarəti ilə əlaqədar keçmişdə baş verən örtülü mübarizələr artıq aşkar oldu və qüdrət mərkəzi hökumətdən yeniçərilərə, alimlərə və Osmanlı sülaləsinə keçdi ki, onlar da vilayətlərdə özlərinə yer tuta bildilər."[1]

Aydındır ki, "Osmanlı hökumətinin mürəkkəb quruluşu Süleymanın səltənətinin ortalarından daha geniş səviyyədə dağılmağa başladı və təqribən XII hicri əsrinin axırlarına (XVIII miladi əsri) qədər davam etdi. Bu dövr ərzində imperatorluğun qüdrəti get-gedə zəifləməyə başladı və müəyyən ölkələr imperatorluğun nəzarəti altından xaric oldu, xarici imperializmin istilası artmağa başladı və nəhayət XIX miladi əsrinin başlanğıcına yaxın bir ərəfədə bu imperatorluq elə bir vəziyyətə düçar oldu ki, "Avropanın xəstə adamı" kimi məşhurlaşdı."[2]

Həqiqətdə osmanlılar Ərəbistan yarımadasına qalib gəldikdən sonra məntəqədə baş verən bəlkə də ən mühüm hadisə Avropa, xüsusilə İngilis tacirlərinin Fars körfəzi ölkələrinə və Hind okeanına daxil olması idi ki, bu da öz növbəsində ingilislərin Fars körfəzi ölkələrinə hakim olub onları Fransa və Çar Rusiyasının nüfuzu dairəsindən çıxarması ilə nəticələndi; sonralar Ərəbistan yarımadasının müqəddəratının həll edilməsində ümdə rol oynadı. Haşimi əyan-əşrafları Osmanlı xəlifələrinin naib təyin etməsi ilə Hicaza hakim olmalarına baxmayaraq, Ərəbistan yarımadasının müəyyən məntəqələrində bəziləri Osmanlı xəlifəsinin əmrlərindən imtina etdilər və istiqlaliyyət fikrinə düşdülər. Bu barədə "Böyük İslam Enskilopediyası"nda belə qeyd olunur: "...İsmaili məzhəbində olan Məkrəmi sülaləsi Yəmənin şimal sərhədlərinin yaxınlığında yerləşən Nəhiran dərəsində, imam Zeydi Yəmən bu məntəqənin yüksəkliklərində, xəvaric Əmmanda və Bəni-xalid qəbiləsi Qətərin qərb nahiyələrində və Fars körfəzinin sahillərində istiqlaliyyət fikrinə düşmüşdülər. Bu zaman Ənzət ərəblərinin Məsalix qəbiləsindən olan Səud ibn Məhəmməd ibn Miqrin ibn Mərcan ibn İbrahim (1137-ci h.q. 1724-cü miladi) tədricən Diriyyədə və ətrafdakı kiçik məntəqələrdə

[1] Həmin mənbə, səh.442-443

[2] Stanford, "Tarixi imperatoriye Osmani və Türkiyeyi cədid" (Mahmud Ramazanzadənin tərcüməsi), səh.291

hökumət təşkil etdi. O vəfat etdikdən sonra onun oğlu Məhəmməd də Məhəmməd ibn Əbdül-Vəhhab ilə (vəhhabilərin başçısı) müqvilə bağladı. Onun canişinləri də bu yolla tədricən qüdrətlənib Ərəbistan yarımadasının mühüm bölmələrinə hakim oldular."[1]

Həqiqətdə Məhəmməd ibn Əbdül-Vəhhabın başladığı hərəkat Osmanlı xilafətinin ziddinə olan bir hərəkat da sayılırdı. Çünki, bu hərəkat osmanlıların hakimiyyət dairələrində qüdrət kəsb etmək və müxtəlif məntəqələri bu imperatorluğun əlindən çıxarmaq üçün baş verirdi. Bu barədə Həmid İnayət qəti şəkildə deyir: "Məhəmməd ibn Əbdül-Vəhhab bütün İslam məzhəbləri ilə (hənbəlilərdən başqa) mübarizə edirdi. Lakin onun dövründə osmanlılar ərəblərə hökmranlıq etdiklərindən onun hərəkatı osmanlıların ziddinə başlamışdı. Hənbəli məzhəbində olan Nəcdin Səudi əmirləri vəhhabi məzhəbini qəbul etdikdən sonra Ərəbistan yarımadasının böyük bir məntəqəsi və Şamın əraziləri onların hakimiyyəti altına keçdi. Bu zaman vəhhabilik Osmanlı qüdrəti üçün böyük bir təhlükəyə çevrildi..."[2]

Vəhhabilər tərəfindən Osmanlı padşahları üçün törədilən təhlükələr onların müqəddəs məkanlara hücum etdiyi, o nahiyələrdəki əhalini kütləvi şəkildə qırıb var-dövlətlərini qarət etdikdən sonra daha aydın sezilirdi. Bu da sultanın iqtidar və etibarına qarşı şəkk yaradırdı. "Osmanlı imperatorluğunun tarixi və yeni Türkiyə" kitabının müəllifi bu barədə yazır: "...Onlar özlərinin dağıdıcı hücumları ilə İraqa, Məkkə və Mədineyi-Münəvvərə kimi müqəddəs şəhərlərə hücum edərək sultanın Ərəbistan yarımadasının sair nahiyələrindəki etibar və iqtidarını təhlükə ilə üzləşdirdilər."[3]

Qeyd olunanlara diqqət yetirməklə aydın olur ki, osmanlıların Hicaz və Nəcddə (xüsusilə Nəcd əyalətində) zəif hakimiyyəti (daha dəqiq desək, hakimiyyətin olmaması) vəhhabiliyin yaranıb sürətlə inkişaf etməsinin əsas amili oldu. Belə ki, Məhəmməd ibn Əbdül-Vəhhab Osmanlı imperatorluğunun daxilində olan müxtəlif şəhərlərə çoxlu səfərlər etməklə əldə etdiyi dini məlumatlardan əlavə, müxtəlif siyasi məsələlər barədə də agahlıq əldə etmiş və anlamışdı ki, Osmanlı imperatorluğunun özünün geniş səviyyəli ərazisinə hakimiyyəti çox çətin və zəif halda baş verir və buna görə də Nəcdin müxtəlif məntəqələrinə hakim olan qəbilə üsul-idarəsi, eləcə də bədəvi ərəblərin etiqad, adət-ənənə və həyat

---

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.24-25

[2] İnayət Həmid, "Seyridər əndişeyi siyasiye ərəb", "Əmir kəbir" nəşriyyatı, Tehran, 1358, 2-ci çap, səh.7

[3] Stanford, "Tarixi imperatoriye Osmani və Türkiyeyi cədid" (Mahmud Ramazanzadənin tərcüməsi), səh.439

yaşayışı barəsindəki məlumatlarına istinad edərək bədəvilərin malik olduğu zəif və güclü cəhətlərdən istifadə etdi və mövcud vəziyyətin əleyhinə tədbir gördü. O, bədəvilərin ən mühüm xüsusiyyətlərindən (müharibə və qan axıdılması), eləcə də qəbilələrin ən ümdə xüsusiyyətlərindən (öz hakim və rəislərinə itaət etmək) istifadə edərək öz dinini aşkar etdi.

Tədricən vəhhabilik Nəcdin uzaq və ucqar mühitlərində və bədəvilərin arasında özünə yer açdı, Səudilər sülaləsinin köməyi ilə genişləndi, nəticədə Osmanlı sultanları və onların əraziləri üçün ciddi təhlükəyə çevrildi. Vəhhabilər əvvəlcə İraqa, sonralar isə Hicaza və islamın müqəddəs məkanlarına hücum etməklə Osmanlı sultanlarının heysiyyət və etibarını təhlükə ilə qarşılaşdırdılar. Buna görə də sultan onlarla qarşılaşmaq üçün əlavə qüvvələrdən (misirlilərdən) istifadə etmək fikrinə düşdü.

Belə bir sual yarana bilər ki, sultan nə üçün Məhəmməd Əli Paşanı öz məqsədi üçün seçmişdi? Cavabında demək lazımdır ki, həqiqətdə Məhəmməd Əli Paşanın qüdrəti sultanı qorxutmuşdu. Buna görə də vəhhabilərlə qarşılaşmaqda onu seçmişdi ki, "bir oxla iki dovşan vursun". Yəni, bir tərəfdən Məhəmməd Əlini vəhhabilərlə qarşı-qarşıya qoysun (çünki, ona Şama hakimiyyət vədəsi vermişdir) və bununla da heç olmazsa müəyyən müddətə qədər Misir tərəfindən imperatorluğu sarsıda biləcək təhlükənin qarşısını alsın, digər tərəfdən də osmanlıların öz daxilində olan digər bir düşmən (vəhhabilik) daxildən onu asayişini pozanları məğlub etsin.

Osmanlı sultanı bu tədbiri icra etməklə Səudilərlə müttəhid olaraq hərbi və siyasi qüdrət kəsb edən Məhəmməd Əli Paşanı yeni yaranmış vəhhabi ayinini məğlub etməyə məmur etdi. Sultan bir neçə dəfə Misirin Paşasına fərman verdi. Çox ayıq, siyasətçi və daha artıq mənfəət kəsb etmək əzmində olan Məhəmməd Əli də sultandan imperatorluğun müəyyən hissələrinin hökumətinin ona verilməsi ilə əlaqədar vədə almaqla vəhhabilərlə qarşılaşmaq üçün şəraiti münasib gördü. Məhəmməd Əli Paşanın vəhhabilər əleyhinə olan tədbirləri qısa müddətə qədər vəziyyəti osmanlıların xeyrinə dəyişdirdi. Unutmaq olmaz ki, misirlilər Nəcddə hakim olmalarına baxmayaraq, heç vaxt orada müstəqil bir hakimiyyət yarada bilmədilər. Bu özü də Nəcdin təbii, coğrafi və insani şəraitinə bağlı idi. Misirlilər Nəcdə qələbə çaldıqdan və oradan xaric olduqdan sonra vəhhabilər sürətlə onların yerinə keçdilər.

Məhəmməd Əli Paşa da lazım olan şəraitdə vəhhabilərin kökünü kəsə bilmədi, misirlilərin Nəcddən çıxmasından sonra vəhhabilər yenidən canlandılar. Onlar məntəqədə və beynəlxalq səviyədə mövcud olan şərait və mövqedən istifadə edərək Nəcdə və Hicaza hakim oldular, müstəqil

hökumət yaratdılar və osmanlıların bu məntəqədəki hakimiyyətlərinə əməli olaraq son qoydular.

## *ƏRƏBİSTANIN XÜSUSİ COĞRAFİ MÖVQEYİ*

Vəhhabilik dini Ərəbistan yarımadasında yaranıb genişləndi. Bu yarımada coğrafi mövqe baxımından "şimal yarım kürəsində, Asiyanın cənub qərbində yerləşir və yeddi dövlətdən – Səudiyyə Ərəbistanı, Yəmən respublikası, Əmman, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Bəhreyn və Küveytdən təşkil olunmuşdur. Səudiyyə Ərəbistanının sahəsi 2149690 $km^2$ olmaqla bu yarımadanın ən böyük ölkəsi sayılır. Bu ölkə ekvatordan şimalda, 16-32-ci coğrafi en dairəsində yerləşir. Şimaldan İordaniya və İraq, cənubdan isə Yəmən respuplikası və Əmmanla, şərqdən Küveyt, Bəhreyn, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Fars körfəzi, qərb tərəfdən isə Qırmızı dənizlə hüdudlanır."[1]

Ərəbistan yarımadasının ən mühüm coğrafi bölgülərindən biri onun bir-birindən ayrı olan üç əsas hissələrə bölünməsidir ki, aşağıdakılardan ibarətdir:

**1. Təhamə.** Bu diyar Qırmızı dənizin sahillərindən Nəcrana qədər davam edir. Bu yerdə hava çox qızmar olduğuna görə orada həyat çox çətindir və buranın "Təhamə" adlanmasının səbəbi elə budur.

**2. Nəcd.** Bu, Ərəbistan yarımadasının ən böyük hissəsini təşkil edir. Cənubdan Rübül-Xali, qərbdən Hicaz, şərqdən Ehsa və şimaldan İraq və İordaniya ilə sərhəddir. Bu ərazinin dəniz səviyəsindən hündürlüyü 150-1500 metrdir və buna görə də ora "Nəcd" deyilir (Nəcd – yüksək məntəqə deməkdir).

**3. Hicaz.** Bu Səudiyyə Ərəbistanının şimal-qərbində yerləşir və onun əsas hissəsi dağlıq məntəqələrdən təşkil olunmuşdur. Şimal tərəfdən "Əqəbə" körfəzi, qərb tərəfdən Qırmızı dəniz, şərq tərəfdən Nəcd və cənub tərəfdən Əsir ilə hududlanır."[2]

Ərəbistan yarımadası qızmar havaya, normal həyat üçün münasib olmayan quru iqlimə, əkinçilik üçün münasib olmayan torpağa malik olduğundan qədim dövrlərdən burada çoxlu iqtisadi çətinliklər yaranmış, buna görə də heç kəsin diqqət mərkəzində olmamışdır. Aşur, Misir, İran və Roma kimi imperatorluqlar da məhz bu səbəbə görə Yəməndən başqa bu nahiyələrin heç birinə diqqət yetirməmişlər. Bu məntəqə yalnız İslamın Ərəbistan yarımadasında zühur etməsindən sonra məşhurlaşdı.

Sonralar Əməvi və Abbasi xəlifələri Dəməşqdə və Bağdadda (bunlar

---

[1] Əzimi Ruqəyyətus-sadat, "Ərəbistani-Səudi", Xarici işlər nazirliyinin çap və nəşriyat müəssisəsi, 1375, 2-ci çap, səh.1

[2] Həmin mənbə, səh.2-3

strateji və coğrafi baxımdan çox böyük əhəmiyyət kəsb edirdilər) yerləşir, hətta Osmanlı xəlifələri də öz xilafət mərkəzlərini İstanbulda yerləşdirib Hicaz və Nəcd məsələlərinə çox baş qoşmadığına baxmayaraq, XVIII-XIX əsrlərdə beynəlxalq şəraitlərlə əlaqədar bu məsələ tamamilə dəyişildi.

Həqiqətdə Ərəbistanda zəngin neft yataqlarının kəşf olunub diqqət mərkəzində olmasından öncə bir tərəfdən İngiltərə, Fransa, Rusiya və s. kimi istismarçı və hegemon dövlətlərin rəqabətləri, digər tərəfdən isə Osmanlı imperatorluğuna zərbə vurmaq niyyəti həmin dövrlərdə Səudiyyə Ərəbistanının istismarçıların diqqət mərkəzində olmasına səbəb olmuşdu. Amma Nəcd ölkəsi vəhhabiliyin yaranıb inkişaf etməsilə əlaqədar xüsusi əhəmiyyət daşıdığına görə bu məntəqənin xüsusi coğrafi mövqeyi – istər təbii və iqlim baxımından, istərsə də tarixi, coğrafi və insani, eləcə də o diyarın əhalisinin (köçəri ərəblər) xüsusiyyəti baxımından araşdırılmalı məsələlərdəndir.

Aydındır ki, vəhhabilik dini Nəcddə kök atmış, elə buradan da başqa nahiyələrə yayılıb inkişaf etmişdir. Buna görə də Nəcdin xüsusi coğrafi mövqeyini araşdırmalıyıq. Məşhur tarixçi Qustav Le Bon Nəcd ölkəsi barəsində belə yazır: “... Bu, Ərəbistanın mərkəzində yerləşən dağlıq bir ölkədir. Çoxlu dağlar və qumlu səhralar onu hər tərəfdən əhatə edir. Vəhhabi dövlətinin yarandığı bu hissədə camaat təzəlikdə onun vəziyyətindən agah olmuşlar... Nəcd əhalisinin ən mühüm məşğuliyyəti əkinçilikdən ibarətdir.” Pletrov deyir: “Nəcd əyalətində yüksək kefiyyətli qarğıdalı, buğda və xurma hasil olduğundan, belə məlum olur ki, orada çox istedadlı və məharətli əkinçilər yaşayırlar...”[1]

Deməli, Nəcd Ərəbistan yarımadasının geniş əraziyə malik olan bir bölməsidir və hazırkı dövrdə Səudiyyə Ərəbistanının bir hissəsi hesab olunur. “Nəcd” kəlməsi yüksəklikdə yerləşən ərazi mənasınadır. O yer ətraf ərazidən hündür olduğuna görə belə adlandırılmışdır. Nəcdin mərkəzi olan Riyaz şəhəri hal-hazırda Ərəbistanın rəsmi dövlət paytaxtı hesab olunur. Nəcdin digər məşhur şəhərləri aşağıdakılardan ibarətdir:

Qəsim nahiyəsində iki şəhər – Ənizə və Bəridə, Sədir nahiyyəsində olan Zülfa şəhəri, Vəşəm nahiyəsində olan Səqra şəhəri, Ariz nahiyəsində olan Diriyyə şəhəri, Dəvasir qəbilələri və digər nahiyələri qeyd etmək olar. Nəcd cənubdan Əsir, Yəmamə və Əhqaf, şərqdən İraq, Ehsa və Qətif, şimaldan Şam səhrası və qərbdən Hicaz ilə sərhəddir.[2] “ Nəcd əyalətinin qızmar havası var, onda geniş səhralar və əkinçilik üçün

---

[1] Qustav Le Bon, “İslam və ərəb sivilizasiyası”, Xisarətül ərəb, Seyid Haşim Hüseyninin tərcüməsi. İntişarati İslami, Tehran, 1364, 1-ci çap 34-35

[2] Fəqihi Əliəsğər. “Vəhhabilər”, “İntişarati Səba”, Tehran, 1352, 1-ci çap, səh.137

yararlı olmayan ərazilər vardır. Oranın sakinləri köçəri həyat tərzi keçirir, hakimiyyət sistemi isə qəbilə və tayfa üsul-idarəsidir.

Ərəbistan yarımadasının mərkəzi hissələrində yaşayan ərəblər "bədəvi ərəblər" adlandırılır ki, onları sair ərəblərdən ayıran xasiyyətlərə və xüsusi ruhiyyələrə malikdirlər. "İslam və qərb sivilizasiyası" kitabının müəllifi onların barəsində yazır: "...Bu bədəvi ərəblər... çox kobud xasiyyətli və mədəniyyətsiz bir irqdir ki, onlarda heç bir tarixi nişanələr mövcud deyildir. Din və məzhəb məsələlərindən başqa (bu da onların içində nüfuz etmişdir) min illərdən bəri indiyə qədər onlarda heç bir dəyişiklik baş verməmişdir... Bədəvi ərəblər kiçik qəbilələrdən təşkil olunurdular. Bu qəbilələrin hər biri də bir şeyxin, yaxud əmirin nəzarəti altında idi... Qəbilə rəisi müharibələrdə qəbilənin sərkərdəliyini öhdəsinə alır və müharibə qənimətlərini bölüşdürürdü... Yerli yığıncaqlarda məclisin başında otururdu. Bunlar həmişə iki işdən biri ilə məşğuldurlar: ya müharibə, yaxud da heyvan bəsləmək. Ərəb qəbilələri arasında ən kiçik bəhanələrlə şölənənən müharibə odunun axırı yox idi... Bədəvi ərəblər üç şey ilə iftixar edirdilər: qılınc, qonaqpərvərlik, danışıqda söz ustadı olmaq. Ərəbistan yarımadasında, Suriya və Afrikada yaşayan bədəvi ərəblərin xüsusiyyətləri budur ki, azadlıq və hürriyyətə həddindən artıq maraq göstərirlər... Əgər hansısa bir zamanda bir şəxs onlara hakim ola bilibsə bu, onların arasında təfriqə salmaqdan başqa bir iş görə bilməmişlər."[1]

Həmin bədəvi ərəblərdən hesab olunan Nəcdin ərəb sakinləri "çox inadkar, arıq cüssəli adamlar idilər ki, şərab, yaxşı yeməklər, tütün, zərif paltarlar, hətta məscidləri üçün minarə və səcdə etmək üçün canamazları da inkar edirdilər."[2] Cənab Məscid Cameinin yazdığı kimi: "Onların (bədəvilərin) ən böyük ləzzətlərindən biri təxribatçılıqdır... Şübhəsiz, əgər bu göstərişlər vəhhabi təlimlərində mövcud olmasaydı, ardıcılları arasında onun cazibədarlığı nəzərə çarpacaq dərəcədə azalardı."[3]

Nəcdin coğrafi vəziyyəti barəsində bir neçə məsələni qeyd etmək zəruridir. Birincisi budur ki, o, Ərəbistan yarımadasının mərkəzi məntəqələrindən biridir və özünün xüsusi coğrafi mövqeyinə görə keçmişdə başqa yerlərə nisbətən tərk olunmuş bir yer hesab olunurdu. Buna görə də xarici hücumlardan amanda qalmışdı. Amma o diyardakı daxili çarpışmalar və müharibələr həmişə iqtidarlı bir dövlətin yaranmasına mane olmuşdu. Bundan əlavə, Nəcdin xarici aləmdən

---

[1] Qustav Le Bon, "İslam və ərəb sivilizasiyası", səh.61-62-64

[2] Lisi Robert, "Sərzəmini səlatin", səh.80

[3] Məscid Camei Məhəmməd, "Vəhhabiyyət dər cəzirətül-Ərəb", "Əbrar" qəzeti, 19 fərvərdin, 1365, 160-cı nömrə, səh.4

ayrılması böyük ideoloji hadisələr və ticarətlərdən də kənarda qalmasını gərəkli edirdi; belə ki, Peyğəmbərin (s) dövründə İslamın qəbul edilməsi müqabilində ən çox müqavimət Nəcd əhalisindən müşahidə edilmişdir. O həzrətin (s) vəfatından sonra da Diriyyədə Müsəyləmi Kəzzab kimi məşhur peyğəmbərlik iddiaçıları da həmin ərazidən çıxmışdı. Həqiqətdə Nəcd əhalisi heç vaxt möhkəm əqidəyə malik olmamışlar. Onlar, İslam qoşunları başqa ölkələrdə müharibə aparmağa məşğul olduqları zaman bidətçiliyə, dinsiz məzhəbi etiqadlara meyl edirdilər. Bu hadisə Məhəmməd ibn Əbdül-Vəhhabın vəhhabit məsləkini icad etdiyi XII əsrə qədər davam etdi və bəlkə də onun vəhhabi kimi yalançı məsləki və yeni bir dini yaratmasında müvəffəq olmasının ən mühüm dəlili bu qeyd olunanlar idi. Belə ki, ustad Cəfər Sübhani İbn Teymiyyəni və Məhəmməd ibn Əbdül-Vəhhabı (mövqe və şəraiti tanımaq baxımından) müqayisə etdikdə belə yazır: "... İbn Teymiyyə öz əqidə toxumlarını elə bir mühitdə səpmişdi ki, orada çoxlu İslam alimləri var idi. Hər biri də təklikdə onun təbliğini zərərsizləşdirə bilərdi. Misir və Şamın mühiti ən böyük İslam mərkəzi olan zaman orada yaşayan böyük mühəddislər, mühəqqiqlər və mütəkəllimlər çox asanlıqla onun dəvətini zərərsizləşdirə və İbn Teymiyyəni rüsvay edərək onun azğınçılıqlarını beşikdə boğa bilərdilər. Lakin Məhəmməd ibn Əbdül-Vəhhab Nəcddə, hər növ elm və bilikdən uzaqda olan, şirk və tövhid barəsində azacıq məlumatları olmayan, mütləq şəkildə Ali-Səudun qüdrəti sayəsində və şeyxin ixtiyarında olan çöl ərəblərinin arasında yaşayırdı. Aydındır ki, azdırıcı ideologiyalar məlumatı olmayan şəxslər arasında dərhal inkişaf edib yayılır."[1]

Vəhhabiliyin Nəcd diyarında yaranıb inkişaf etməsi və yayılamasının coğrafi amillərini aşağıdakı çərçivələrdə araşdırmaq olar:

## *1-NƏCDİN DİNİ MÖVQEYİ*

Bu barədə cənab Məscid Camei bir məqalə yazaraq qeyd edir: "... Bədəvilər din ruhiyyəsindən məhrum idilər. Dinə olan ehtiyac, itaət hissi və din müqabilində ibadət bu diyarın insanlarının ən mühüm xüsusiyyətlərindəndir... Bədəvilərin də, başqaları kimi, dinə ehtiyacları vardır. Amma dini öz ehtiyac və təfəkkürləri, möhtac olduqları ədalətli ictimai-siyasi sistem əsasında qəbul edirlər. Məhz buna görə də onlar özlərinin ehtiyac və istəklərinə uyğun olan dini hərəkətlər müqabilində dərhal müsbət cavab verirdilər. Bunun əksinə olaraq, öz ruhiyyələri və ehtiyacları ilə uyğun olmayan hərəkətlər müqabilində etinasızlıq

[1] Sübhani Cə`fər, "Fərhəngi əqaid və məzahibi-İslami", 3-cü cild, səh.66

göstərirdilər.” [1] Buna əsasən, bədəvi ərəblər dini qəbul etməkdə yalnız öz mənfətlərini güdür və özlərinin ruhiyyə və xüsusiyyətləri ilə müvafiq olan bir dini qəbul edirdilər. Vəhhabilik elə bir diyarda yaranıb inkişaf etdi ki, “dini baxımdan Ərəbistan yarımadasının sair nahiyələri ilə müqayisədə xurafatların və yanlış əqidələrin mərkəzi idi və səhih dini pirinsiplərlə ziddiyyət təşkil edirdi.”[2]

## *2-NƏCDİN SOSİOLOJİ MÖVQEYİ*

Məhəmməd ibn Əbdül-Vəhhabın təlimlərinin Nəcddə öz qardaşı və atasının müxalifəti ilə qarşılaşmasına baxmayaraq, bu əyalətin əhalisinin mövcud vəziyyətinə diqqət yetirməklə bu kimi müxalifətlərin heç bir təsiri olmadı. “Nəcd əyalətinin sakinləri son dərəcə sadə və bəsit həyat sürüb dini münaqişələrdən uzaqda idilər. Onların çox qızğın təsirli bəyanlarla olan hər bir təzə sözü qəbul etməyə hazırlıqları var idi və bunun özü də Şeyx Məhəmmədin xüsusiyyətlərindən idi. Onun məzhəbinin inkişaf edib yayılması amillərindən digər biri də bu idi ki, o dövrdə Nəcddə mövcud olan alimlərin heç biri sözün nüfuzu və bəyan qüdrəti baxımından Şeyx Məhəmmədə çatmırdı.”[3] O dövrdə Nəcd ucqar bir yer idi ki, oraya çox az adam gedirdi, çox az adam Nəcddən kənara səfər edirdi.

Nəcd sakinləri son dərəcə sadəlikdə yaşayırdılar. Onlar dünyada baş verən hadisələrdən xəbərsiz idilər, çox az hallarda kiminsə əqidə və fikirlərinin təsiri altına düşürdülər. Təbiidir ki, belə avam və sadə insanlar Şeyx Məhəmmədin təlimlərindən daha tez təsirlənər və təəssüblə onu müdafiə edər, hətta onun yolunda öz canlarından keçməyi belə, əsirgəməzdilər.

## *3-NƏCD ƏYALƏTİNƏ HAKİM OLAN QƏBİLƏ-İCMA QURULUŞU*

Vəhhabiliyin yaranıb sürətlə inkişaf etməsinin digər amillərindən biri də Nəcdə hakim olan qəbilə üsul-idarəsi idi. Qəbilə həyat tərzi ilə yaşayan Nəcddə qəbilə üzvləri hər bir işdə qəbilənin başçısına və ağsaqqalına itaət etdiklərindən, təbiidir ki, qəbilə başçısı hər hansı bir dəvəti qəbul etsəydi, onun fərmanı altında olan kəslər də həmin dəvəti qəbul edəcəkdilər. “Qəbilə başçılarından hər biri müəyyən adlarla Şeyx Məhəmmədlə razılaşıb ona qeydsiz-şərtsiz olaraq itaət edirdilər. Sonra Şeyx Məhəmmədin sözlərindən təsirlənərək ona qarşı təəssüb hissi keçirir, öz təsəvvürlərinə görə, dini göstərişlərin bir hissəsi sayılan hər

[1] Məscid Camei Məhəmməd, “Vəhhabiyyət dər cəzirətül-Ərəb”, “Əbrar” qəzeti, 17 fərvərdin, 1365, 159-cu nömrə, səh.4

[2] Fəqihi Əliəsğər. “Vəhhabiha”, “İntişarati Səba”, Tehran, 1352, 1-ci çap, səh.141

[3] Həmin mənbə, səh.86-87

bir işi çox alqışla qəbul edir, onun icra olunmasına ciddiyyətlə çalışırdılar."[1] Həqiqətdə Nəcd əhalisi öz əmirlərinə tabe idilər. Əmirlərin də fikri yalnız öz mənafelərini qoruyub-saxlamaq, inkişaf etdirmək və başqalarına qələbə çalmaq idi. "Nəcddə heç bir qayda-qanun yox idi, əmirlər və onların məmurları istədikləri hər bir şeyi edirdilər. Hər bir vilayətin bir əmiri var idi, əmirlər arasında da heç bir əlaqə mövcud deyildir."[2] Məhəmməd ibn Əbdül-Vəhhab məhz bu şəraitdən öz xeyrinə istifadə etdi. Səudilərlə ittihad müqaviləsi bağladıqdan sonra işi rövnəqləndi və özünə çoxlu ardıcıl toplaya bildi.

## *4-MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHABIN NƏCDDƏ XÜSUSİ TƏLİMLƏRİ*

Məhəmməd ibn Əbdül-Vəhhab Nəcddə yaşayan bədəvi ərəblərin arasında hakim olan qəbilə qayda-qanunlarına agah olduğuna görə öz dəvətini orada aşkar etdi və bununla da onları digər qəbilə və əyalətlərə qarşı təhrik edib qiyama hazırlaya bildi. Bu barədə cənab Fəqihi yazır: "Məhəmməd ibn Əbdül-Vəhhab "cihad" adı ilə müxaliflərlə mübarizə aparırdı. O, bu işi özünün əsas prinsipi seçmişdi ki, ona tabe olanlar digər qəbilə və nahiyələrə hücum etsinlər, düşmənlərinə qələbə çaldıqdan sonra onların mal-dövlətinə sahib çıxsınlar, ölkələrini işğal etsinlər. Bu işə adət edən bədəvi ərəblər ona üz gətirdilər. Xüsusilə, bunu nəzərə alaq ki, onların əksəriyyəti bir-biri ilə düşmən idilər, hər bir qəbilə digərinə hücum etmək üçün hazır idi. Digər məsələ də bu idi ki, Məhəmməd ibn Əbdül-Vəhhab avam xalq kütlələrini İslamın əvvəllərindəki dinə – saleh sələflərin adət-ənənələrinə dəvət edir və onları inandırmağa çalışırdı ki, ona tabe olacaqları surətdə elə Peyğəmbərin (s) səhabələri və tabeinləri kimi olacaqlar. O, öz sözləri ilə ərəblərdə belə bir hiss yaratmışdı ki, onlar yalnız özlərini tövhidçi, həqiqi müsəlman və Behişt əhli hesab edirdirlər. Belə güman edirdilər ki, əgər onun dəvəti yolunda öldürülsələr, yaxud kimisə öldürsələr əbədi səadətə nail olacaqlar!"[3]

Məhəmməd ibn Əbdül-Vəhhabın yeni dini təlimləri və göstərişləri bədəvi ərəbləri dünyaya tamahlandırdı və onların hərislik hislərini coşdurdu. Belə ki, onlar vəhhabiliyi öz dünyəvi mənafelərini təmin etməyə qadir olan bir yol hesab edirdilər. "Vəhhabiyyət dər cəzirətül Ərəb" məqaləsində bu barədə deyilir: "Möhtac bədəvi ərəb o kəsdir ki, ona nə başa düşməsini deyil, nə etməsini desinlər. Xüsusilə ona deyilənlərin öz zövq və ruhiyyəsinə, qəbiləsinin ictimai quruluşuna

---

[1] Fəqihi Əliəsğər. "Vəhhabilər", səh.87
[2] Həmin mənbə, səh.121
[3] Fəqihi, Əliəsğər. "Vəhhabilər", səh.146

uyğun olanlara daha çox meyl göstərirdilər. Vəhhabilik dəqiq şəkildə belə bir məsləkdir: Məhəmməd ibn Əbdül-Vəhhabın bu sözü, yəni yalnız vəhhabilərin müsəlman olub qalanların kafir olması və qətlinin vacibliyi səhrada köçəri həyat tərzi ilə yaşayan sadəlövh, kobud xasiyyətli, qan axıdan, bədəvi və eyni zamanda ac-yalavac ərəblərin arasında birdən-birə partlayış yaratdı. Nəcdin köçəri ərəbləri Məhəmməd ibn Əbdül-Vəhhabın rəvac verdiyi şeylərə tam mənada möhtac idilər. Onlar uzun müddət idi ki, vəhdət yaradan bir qanuni ideologiyanın varlığına ehtiyac duyur və fəqirlik, aclıq, sonu görünməyən qəbilə arası müharibələrin odunda yanırdılar. Buna görə də onun çağırışını cani-dildən qəbul edərək çox böyük bir dəşhətli və qorxulu qüvvəyə çevrildilər ki, uzun müddət rahat yuxunu müsəlmanlara haram etmişdir."[1] Beləliklə, vəhhabiyyət Nəcd bədəvilərini onların ən mühüm zati xüsusiyyəti olan müharibə və qan axıtmağa təhrik etdi və Ali-Səud da vəhhabilərlə birləşərək xüsusi qüdrət kəsb edə bildilər.

Ümumiyyətlə, vəhhabilər öz zatlarında hətta ilkin xalis ideologiyanın təşkil olunmasında belə, müsbət bir məcmuə deyildi. Həqiqətdə onların etiqad və əqidə prinsiplərinin təyin olunması və yaranmasının əsas amili "onların müsəlmanların islamdan əldə etdiyi şeylər içərisində, öz xoşlarına gəlməyən bir qismini inkar etmək" idi.[2] Vəhhabilərin düşüncəsi İslamın əzəmətini, mürəkkəbliyini və Quranın həqiqətini dərk etməyə qadir deyildi. Çünki, onların inanclarına görə İslamı həqiqi mənada və öz formasında tanıyan yalnız vəhhabilərdir. Cənab Məscid Camei bu barədə yazır: "Hər halda bu xüsusiyyətlərin məcmusu onun mənəvi yönlərinin ya tamamilə nəzərə alınmamasına, yaxud da özlərinin xüsusi zövq və istəklərinə uyğun təhrif olunmasına səbəb oldu. Vəhhabilər digər müsəlmanlara, xüsusilə İslamın mənəvi yönlərini nəzərə alan müsəlmanlara qarşı çox kobud və amansız müharibə aparmağı özləri üçün böyük dini vəzifə hesab etdiklərindən, bu qəddarlıqları şiələrə, sünnülər arasında da sufi firqələrinə qarşı yönəltdilər. Bu da onların tarix boyu davam edən yanlış təfəkkürlərindən irəli gəlirdi. Onlar İslamın zahiri mənalarından başqa hər növ düşüncəni küfr və mürtədlik hesab edirlər."[3]

Qeyd olunanların hamısına diqqət yetirməklə belə bir sual yaranır: Görəsən, vəhhabilik Nəcddən başqa bir mühitdə, eləcə də Nəcdin sosial və coğrafi şəraitindən başqa bir şəraitdə zahir olsaydı, yenə də Nəcddə onlara nəsib olan inkişafdan faydalanacaqdılarmı? Bu sualın cavabını

---

[1] Məscid Camei Məhəmməd, "Vəhhabiyyət dər cəzirətül-Ərəb", "Əbrar" qəzeti
[2] Həmin mənbə, səh.4
[3] Həmin mənbə

“Vəhhabiyyət” kitabının müəllifi belə bəyan edir: “... Zahirən cavab mənfidir. Çünki... vəhhabi ideologiyası Nəcddən başqa bir neçə məntəqəyə də nüfuz etdi və çox tanınmış insanlar onu yaymağa səy göstərdilər. Hətta vəhhabi dəvətçiləri Hindistanın Pəncab diyarında Şeyx Məhəmmədin və onun tabelərinin Nəcddə seçdikləri üslubdan istifadə etdilər. Amma bu səylərdən heç biri kifayət qədər nəticə vermədi.”[1]

Deməli, Ərəbistanın, xüsusilə vəhhabiliyin kök saldığı məntəqələrin (Nəcd diyarının təqribən yarısının) xüsusi coğrafi mövqeyi və şəraiti yeni vəhhabi məsləkinin yaranıb inkişaf etməsinə və yayılmasına daha çox təsir göstərdi və tədricən digər məntəqələrə də yayıldı.

## *HƏRİMƏLƏ, ÜYƏYNƏ VƏ DİRİYYƏ MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHABIN ƏQİDƏSİNİN YAYILDIĞI İLK YERLƏR*

Keçən fəsildə qeyd olundu ki, Məhəmməd ibn Əbdül-Vəhhab Üyeynə şəhərində dünyaya gəlmiş, Hənbəli məzhəbli bir ailədə böyüyüb boya-başa çatmış və bu məzhəbin əqidələri ilə müəyyən qədər tanış olmuşdu. O, Müsəyləməyi Kəzzab və s. kimi peyğəmbərlik iddiası edənlərin nəzər və rəylərini mütaliə etmişdi. Elə cavanlığının ilk dövrlərindən etibarən dində dəyişiklik yaratmaq sövdası onun başında dolanırdı.

Nəcd əyalətinin (əvvəllər oranın xüsusi coğrafi və ictimai mövqeyi barədə müəyyən qədər bəhs olundu) Hərimələ, Üyeynə, Diriyyə, Riyaz və sair kimi mühüm şəhərləri vardı. Bunlar (xüsusilə Diriyyə və Riyaz şəhərləri) vəhhabiliyin yaranıb genişlənməsində çox mühüm rol ifa etmişdi.

Adı çəkilən şəhərlərin əhalisi qəbilə icması və tayfa şəklində yaşayırdılar. Qəbilə mədəniyyəti onların həyatının əsasını təşkil edirdi. Qəbilə icmasında qəbilə rəisi və tayfa başçısı qüdrətin başında dururdu. Onun əmr və göstərişlərini icra etmək vacib idi. Qəbilə üzvləri də aralarında mövcud olan adət-ənənələrə çox ciddi şəkildə riayət edirdilər. Qəbilələrin ən mühüm xüsusiyyətləri müharibə və qarətçilikdən ibarət idi. Onlar öz güzəranını təmin etmək üçün bu iki mühüm məsələni icra etməyə məcbur idilər.

Nəcd şəhərlərinin əhalisi mədəniyyət baxımından çox da yüksək səviyyədə deyildi. Səbəbi də oranın xüsusi coğrafi mövqeyə malik olması idi. Geniş səhralar, kəskin iqlim, mədəniyyət mərkəzindən uzaq olmaq, qonşu ölkələrdəki mədəniyyətlərdən birbaşa, yaxud müəyyən yollarla bəhrələnməmək, münasib iqtisadi qüdrətə malik olmamaq, özlərinin xüsusi məişət çətinlikləri və s. qəbilələrin mədəniyyət səviyyəsinin çox aşağı olmasında xüsusi rol oynayırdı. Elə bu məsələ də,

[1] Fəqihi Əliəsğər. “Vəhhabiha”, “İntişarati Səba”, Tehran, 1352, 1-ci çap, səh.147

yəni Nəcd əyalətində sakin olan qəbilələrin ictimai inkişaf səviyyəsi və mədəniyyətinin aşağı olması onların öz adət-ənənələri və əqidələri ilə müvafiq olan hər növ təfəkkürü, məsləki və dini qəbul etməyə vadar edən əsas amil idi. Bu da onları, müharibə və qarətçilik xüsusiyyətlərinə bəraət qazandıra biləcək hər növ ideologiya və dinin qəbul olunmasına sövq edirdi. Buna əsasən vəhhabilik Ərəbistanın Nəcd diyarında belə bir şəraitdə yarandı və tədricən Ərəbistanın digər nahiyələrinə yayıldı.

Məhəmməd ibn Əbdül-Vəhhab ibtidai təhsilini öz doğulduğu Üyeynə şəhərində aldıqdan sonra Hənbəli məzhəbinin təlimlərini daha artıq mənimsəmək, eləcə də qonşu ölkələrin ictimai və siyasi şəraitinə yaxından tanış olmaq üçün Nəcdin müxtəlif şəhərlərinə və oradan da xaricə (Şam, İraq, İran) səfər etdi. Onun azğınçı fikir və əqidələri elə ilk əvvəldən atasını və ustadlarını şübhələndirdi. Onun heç bir sığınacaq yeri olmadığından çoxlu səfərlərdən sonra Nəcdə qayıtmağa məcbur oldu.

O, Nəcdə daxil olduğu ilk dövrdən Hərimələdə yaşayan atası və ailəsinə tabe olaraq oraya yollandı. Hərimələ Nəcdin mühüm şəhərlərindən biri hesab olunurdu və Üyeynənin yaxınlığında yerləşirdi. O həmin şəhəri özünün əqidələrini izhar etmək üçün münasib gördü. Amma atasının vəfatından sonra 1153-cü h.q. ilinə qədər öz dəvətini rəsmi şəkildə aşkar edə bilmədi. Bəlkə də bunun səbəblərindən biri, atasının ehtimal üzrə baş verəcək müxalifətləri ilə qarşılaşa bilməməsi idi.

Hər bir halda, Məhəmməd ibn Əbdül-Vəhhab atasının vəfatından sonra "Tövhid" adlı kitabını yazmaqla öz əqidələrini aşkar etdi və camaatın təəssüb üzündən olan səthi əməl və əqidələrində şübhələr yaratdı. O, Hərimələdə çox da müvəffəqiyyət qazana bilmədi. Səbəbi də o diyara hakim olan qəbilə əhval ruhiyyəsi, eləcə də qəbilə başçılarının onunla anlaşma əldə edə bilməmələri idi. Cənab Fəqihi öz kitabının bir qismində belə yazır: "Vəhhabi yazıçıları Məhəmməd ibn Əbdül-Vəhhabın Hərimələdə müvəffəqiyyət qazanmamasının səbəbini Həmyan qəbiləsinin (Hərimələdə məskun olan iki qəbilədən biridir və günah və yaramaz əməllərlə məşhurdur) əmr be məruf nəhy əz münkərə dəvəti hesab edirlər." Sonra o belə nəticə alır ki, onun səbəbi bu deyildi. Əksinə, Hərimələ şəhərinin rəisləri iki qəbilədən olduğuna və hər birinin digərinə rəis olmağı iddia etməsi[1] Məhəmməd ibn Əbdül-Vəhhabın öz əqidələrini yayıb təbliğ etməkdə müvəffəqiyyət qazanmasına mane olmuşdu. Bu məsələ çox əhəmiyyət kəsb edirdi. Yəni, iki rəisi olmaqla iki qəbilədən təşkil olunan və xüsusi şəraitdə yerləşən Hərimələyə hakim

[1] Fəqihi Əliəsğər. "Vəhhabiha", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.120-121

olan qəbilə sistemi vəhhabiyyəti – Məhəmməd ibn Əbdül-Vəhhabın tövsiyələrini qəbul etmək üçün münasib şəraitə malik deyildir. (Məhəmməd ibn Əbdül-Vəhhab bir qəbiləyə rəislik və qüdrət vermək əsasında fikirləşirdi). Buna əsasən yalnız bəzi vaxtlar məsləhət naminə yanaşı yaşayan o şəhərin iki qəbiləsinin arasındakı ixtilaflar vəhhabiliyin banisinin siyasi-dini baxımdan müvəffəqiyyət qazanmasına mane olurdu. Nəticədə, bir tərəfdən Hərimələdə məskunlaşan iki qəbilə arasındakı iqtidarın müvazinəti, digər tərəfdən isə Məhəmməd ibn Əbdül-Vəhhabın quru və təəssüb əsasında olan təlimləri (bu, əsas etibarı ilə camaatın əqidələrini hədəf tutmuşdu) onun Hərimələdə müvəffəqiyyət qazanmamasının amili oldu. Diqqət yetirmək lazımdır ki, onun müvəffəqiyyət qazanmamasının səbəbi daha çox bu ola bilərdi ki, o, mahiyyət etibarı ilə Hərimələdə sakin olan iki qəbilənin heç birinin üzvü deyildi və bəlkə də o yerin siyasi və ideoloji şəraiti ilə tam agah deyildir.

Məhəmməd ibn Əbdül-Vəhhab həmin dövrdə müvəffəqiyyət qazanmamasının ardınca öz doğulduğu yerə – Üyeynəyə qayıtdı. Ayətullah Sübhani onun bu şəhərdəki fəaliyyətləri barədə belə qeyd edir: “... Öz vətəninə daxil olduqdan sonra oranın əmiri Osman ibn Əhməd ibn Müəmmər ilə əhd-peyman bağladı ki, qarşılıqlı olaraq bir-birinə kömək etsinlər, əmir də icazə versin ki, o öz əqidələrini aşkar şəkildə təbliğ edə bilsin. Nəticədə Üyeynə də daxil olmaqla, Nəcd məntəqəsinin əmir yaşayan bütün məntəqələrinə hakim olsun. Məhəmməd ibn Əbdül-Vəhhab daha sonra əmirlə olan əlaqələrini möhkəmləndirmək üçün əmirin bacısı ilə evləndi. Əqd bağlandıqdan və səmimi həmkarlıq vədəsi verildikdən sonra Şeyx əmirə dedi: “Ümidvaram ki, Allah Nəcdi və ərəbləri sənə bağışlasın!”[1]

Məhəmmədin Üyeynədə gördüyü işlərdən biri də bu idi ki, camaatın etiqadlarını sarsıtmaq və inkar etmək üçün ciddi səylə çalışdı və “göstəriş verdi, camaatın ehtiram göstərdiyi ağacları kəsdilər, Zeyd ibn Xəttabın qəbri üzərində olan binanı və günbəzləri dağıtdılar.”[2] O, Üyeynədə dərs hövzəsi təşkil etdi və tədrisə başladı. Üyeynə və Nəcdin sair yerlərinin alimləri Şeyxin dəvətinin irəliləməsini gördükdə Ehsanın əmiri Süleyman ibn Məhəmmədə çoxlu məktublar yazaraq vəhhabiliyin günbəgün artmaqda olan təhlükələri barədə xəbərdarlıq edib onu dəf etməyə çağırdılar. “Ehsanın və Qətifin əmiri Süleyman Himyəri Üyeynənin əmirinə göstəriş verdi ki, bu fitnəni mümkün qədər tez bir zamanda yatırtsın, Şeyxi qətlə yetirsin. Üyeynənin əmiri Şeyxdən üzr

---

[1] Sübhani Cə`fər, “Fərhəngi-əqaid və məzahibi İslami”, 3 cü cild, səh.56-57

[2] Fəqihi Əliəsğər. “Vəhhabiha”, “İntişarati Səba”, Tehran, 1352, 1-ci çap, səh.147

istəyib Üyeynəni tərk etməsini tələb etmək məcburiyyətində qaldı."[1]

Məhəmməd ibn Əbdül-Vəhhabın öz dəvətini davam etdirmək üçün Üyeynə şəhərini seçməsinin aşağıdakı yönlərdə əhəmiyyəti var idi:

1. Üyeynə Məhəmməd ibn Əbdül-Vəhhabın doğulduğu yer və onun ana vətəni idi. O həmin yerin mövcud ixtilafları, məişət qaydaları, dini-siyasi təfəkkürləri, bir sözlə, oranın ictimai mühitinə agah idi və oranın əhalisi də həm onu, həm də ailəsini yaxşı şəkildə tanıyırdılar. Xüsusilə, onun atası Əbdül-Vəhhab o şəhərdə camaat arasında qəzavət və mühakimə mənsəbini öhdəsinə almışdır.

2. Üyeynənin əhalisi Məhəmməd ibn Əbdül-Vəhhabın ailəsinə qarşı xüsusi hörmət bəsləyirdilər. Çünki, onun atası uzun müddət hənbəli fiqhinin tədris edilməsini və qəzavət işini öhdəsinə almışdı. Buna görə də camaat onun övladları ilə tam başqa cür rəftar edirdilər.

3. Məhəmməd ibn Əbdül-Vəhhab Üyeynənin siyasi şəraitini və orada məskunlaşan qəbilə rəislərini yaxşı tanıyırdı. Üyeynə Ehsa hakiminə tabe olduğuna görə qəbilə rəisinin Ehsanın hakiminin siyasətləri ilə əlaqədar seçdiyi üslubda rol oynayırdı. Məhəmməd ibn Əbdül-Vəhhab çalışırdı ki, mümkün olan qədər Üyeynənin əmirini vəhhabiliyi qəbul etməyə təşviq etsin ki, güclü dini arxaya malik olaraq Ehsa əmirinin hakimiyyətindən çıxıb müstəqil olsun.

4. Məhəmməd ibn Əbdül-Vəhhabın Üyeynəni özünə mərkəz seçməsinin dördüncü dəlili Üyeynənin Ehsanın xüsusi iqtisadi mövqeyini ələ keçirməklə əlaqədar düşmənçiliyi idi. Məhəmməd ibn Əbdül-Vəhhab öz fəaliyyətlərini davam etdirmək üçün iqtisadi və siyasi arxaya ciddi ehtiyac duyurdu. Ehsa da bu məqsəd üçün münasib iqtisadi baza olduğundan vəhhabiliyin banisi öz siyasi bünövrəsini Ehsa məntəqəsinin iqtisadi qüdrəti ilə təkmilləşdirmək və Üyeynənin Ehsa əleyhinə olan düşmənçiliyindən bəhrələnmək istədi.[2]

Məhəmməd ibn Əbdül-Vəhhabın dəvətinin Üyeynədə davam etməsi nəticəsində "ümumi və xüsusi müsəlmanlardan çoxunu özünə ardıcıl etdi

---

[1] Sübhani Cə`fər, "Fərhəngi əqaid və məzahibi İslami", 3-cü cild, səh.56-57

[2] Bu günlərdə əmirliklərin şimal-qərb hissəsində çoxlu neft yataqları vardır. Bir əsr bundan öncə orada xurma və mirvari ticarəti yayılmış, bu da Ehsa məntəqəsini sərvətli bir yerə çevirmişdi. Türkiyənin fəthləri, 1870 və 1890-cı illərdə Ali-Səudun süqutunu sür`ətləndirdi. Çünki Riyaz Ərəbistanın mərkəzi qəbilələrinin itaətini cəlb etmək üçün Ehsanın gəlirinə ehtiyac duyurdu. 1865-ci ildə kapitan Poli vəhhabi imperatorluğunun sərvətini mühasibə etmək qərarına gəldi və bu nəticəyə çatdı ki, təqribən bu sərvətin yarısından çoxu Hüquq və Hisa nahiyəsindən əldə olunur. O dövrdə sözü gedən məntəqə əhalisinin təqribən dörddə biri Riyaz hökumətinin tərafdarları idi. Hisanın əldən verilməsi və məntəqənin 1871-ci ildə türklər tərəfindən işğal olması Ali-Səud üçün ağır zərbə hesab olunurdu. (1913-cü ildə Əbdül-Əziz yenidən Hisanı öz ixriyarına keçirmişdi.) Lisi Robert, "Sərzəmini səlatin", səh.111, 156-157

və özü ilə eyni əqidəyə gətirdi... Buna görə də onun şan-şöhrəti yayılmağa başladı. Hər bir yedə - dini, hətta siyasi yığıncaqlarda belə, onun işlərindən söhbət açılırdı."[1] Onun işinin şöhrət və əhəmiyyətinin artmasına səbəb olan ardıcıllarının və havadarlarının hərəkəti Ehsanın hakimi Osman ibn Əhməd ibn Müəmmərin nigarançılığına səbəb oldu və o, Üyeynənin əmirini məcbur etdi ki, Məhəmməd ibn Əbdül-Vəhhabı aradan götürməyə dair ciddi tədbir görsün.

Məhəmməd ibn Əbdül-Vəhhabın Osmana, Nəcd əyalətinə tam hakim kəsilmək vədəsi verməsinə baxmayaraq (onunla həmkarlıq etməsi şərtilə) hər an Üyeynəyə hücum etməsi ehtimalı verilən Ehsanın əmirinin qorxusundan Məhəmmədi o şəhəri tərk etməyə məcbur etdi. Məhəmməd ibn Əbdül-Vəhhab sonra Diriyyə şəhərinə gəldi. Vəhhabilik də məhz bu şəhərdə kök atıb yarımadanın digər məntəqələrinə yayıla bildi.

Diriyyə şəhəri coğrafi və strateji baxımdan xüsusi əhəmiyyətə malik idi. "Ərəb coğrafiyaçıları Nəcdin qədim şəhərlərinin ən böyüyü kimi Zəryə şəhərini qeyd etmişlər. Caci xəlifə o yerin adını yeni tələffüzə uyğun olaraq Diriyyə adlandıran ilk şəxs idi."[2] "Miratul-əhval" kitabında qeyd olunur ki, "Diriyyə Səudiyyə Ərəbistanın bir bölməsi olub Riyazın şimal-qərbində, 20 km. məsafəsində yerləşir. Bu şəhər Ali-Səudun sabiq paytaxtı idi, Vadiyi-hənifə də oradan keçirdi. Onun abad diyarlarından biri Məhəmməd ibn Əbdül-Vəhhab və onun sülaləsindən çoxlu alimlərin yaşayış məskəni olan Bəhiradır. Onun qəbri də həmin yerdədir. Diriyyə ilk dəfə olaraq 850-ci h.q. ilində abad edilmişdi. Məhəmməd İbn Səud oranın hakimi olmuş, 1157-ci h.q. ilində öz vətənindən Üyeynəyə qovulan Məhəmməd ibn Əbdül-Vəhhab da Diriyyədə yaşamış, həmçinin, Məhəmməd İbn Səud vəhhabi məzhəbini yaymağa başlamışdı."[3]

Qeyd olunanlara diqqət yetirməklə aydın olur ki, Diriyyəyə hakim olan qüdrət Ali-Səud idi və Diriyyənin cəmiyyətinə qəbilə və tayfa üsul-idarəsi hökm sürürdü. O şəhərin əhalisi Məhəmməd ibn Əbdül-Vəhhabın gəldiyi ilk dövrlərdə son dərəcə yoxsulluq və ehtiyac içində yaşayır, gündəlik məişətlərini təmin etmək üçün ciddi səylə işləyirdilər. Cəngavərlik və ətraf məntəqələrə təcavüz etmək ruhiyyəsi onların bütünlükdə varlığına hakim kəsilmişdi. Müharibə və hücum yolu ilə mənfəət axtarmaq, qənimət və sərvət əldə etmək onların nəzərində çox əhəmiyyətli bir məsələ idi. Məhəmməd ibn Əbdül-Vəhhab Diriyyənin

---

[1] Fəzai Yusif, "Münazirati imam Fəxr Razi", səh.226

[2] Ləstərnec "Coğrafiyayi sərzəminhayi xilafəti şərqi", Mahmud İrfanın tərcüməsi, şirkəti İntişarati elmi və fərhəngi, Tehran, 1367, 3-cü çap, səh.91

[3] Kermanşahi Ağa Əhməd ibn Məhəmmədəli, "Mir`atul-əhval cahannəma" "İntişarati ənsariyan", Qum, 1-ci çap, tir ayı, 1373, 1-ci cild, 216-cı, səhifənin vərəqaltı haşiyası

qəbiləvi cəmiyyətinin xüsusi mövqeyi ilə tanış olduqdan sonra öz ayin və məsləkini o şəhərin hakiminə təqdim etmək qərarına gəldi. Çünki, vəhhabiliyin hakim tərəfindən (qəbilə üsul-idarəsi ilə) qəbul olunacağı təqdirdə sair şəxslər də onu qəbul etməli idilər. Deməli, Məhəmməd ibn Əbdül-Vəhhab özünün xüsusi məqsədlərinə nail olmaq üçün Diriyyə şəhərinə daxil olan kimi birbaşa oranın hakimi Məhəmməd İbn Səudun yanına getdi və onu öz ayinini qəbul etməyə təşviq etdi. Nəhayət, onların arasında baş verən razılaşmaya əsasən Diriyyədə bir növ siyasi-dini ittihadiyyə yaradıldı. Beləliklə, vəhhabilik ayini bir tərəfdən Ali-Səudun sonrakı hərəkət və tədbirlərinə qanunilik verdi və ona dini arxa oldu. Digər tərəfdən də Ali-Səudun siyasi qüdrəti vəhhabiliyin təbliğ olunub yayılması üçün böyük bir arxa sayıldı.

Robert Lisi bu barədə yazır: "... Bu məsələ, yəni Diriyyə şəhərinin hakimi Məhəmməd İbn Səudun ibn Əbdül-Vəhhabın xəbərini Riyazın şimalında bir neçə kilometrliyində yerləşən Hənifə dərəsindəki xurma bağları arasında eşitməsi o ruhani şəxs üçün bir növ yaxşı şans sayılırdı. (Riyaz o dövrdə Ali-Səudun hökmranlığı altında deyildi.) Məhəmməd İbn Səud ona dedi: "Sizin diyarınızdan daha yaxşı olan bir şəhərə xoş gəlmisiniz!" Buna əsasən Məhəmməd ibn Əbdül-Vəhhab Diriyyənin şəriət hakimi oldu."[1]

Daha mühüm əhəmiyyət kəsb edən məsələ iki Məhəmmədin – Məhəmməd ibn Əbdül-Vəhhab ilə Məhəmməd İbn Səudun arasında baş verən sövdələşmə idi. Məhəmməd ibn Əbdül-Vəhhab İbn Səuda vədə verib dedi ki, vəhhabiliyi qəbul etdiyi və onun təbliğ edib yaydığı surətdə onun qüdrət və hakimiyyətinə öz ixtiyarında olan camaata və ətraf məntəqələrə hücumlarına dini don geyindirməklə yanaşı, bunu qanuni bir iş kimi qələmə versin. İbn Səud da iltizam verdi ki, vəhhabiliyi özünün hərbi qüdrəti ilə qoruyub genişləndirəcəkdir.

Məhəmməd ibn Əbdül-Vəhhab Diriyyədə vəhhabilik məsləkini yayıb genişləndirməyə və təbliğ etməyə başladı. "Siqaret çəkilməsi, rəqs və musiqi qadağan edildi... Ziyarətgahlar və bütün texniki vasitələr məhv edilib aradan aparıldı."[2] Robert Lisi bu barədə belə yazır: "... Nəcd ordusu vəhhabilərin yol göstərmələrindən təsirlənib Səud sülaləsinin rəhbərliyi ilə yırtıcılığa, vəhşiliyə başladılar. Onlar ölüm qarşısında etinasız idilər. Yalnız Allahın istəyi ilə (əlbəttə, vəhhabilərin nəzərində!) atəş açırdılar..."[3] Müharibə və qarətçilik, qan axıdılması və qəbilələrin qarət edilməsi kimi vəhşiliklərə dini cəhətdən don geyindirilirdi. Qəbilə

---

[1] Lisi Robert, "Sərzəmini səlatin", 1-ci cild, səh.82
[2] Həmin mənbə
[3] Həmin mənbə, səh.82

həyatı sürən Diriyyə əhalisində müharibə və qarətçilik ruhiyyəsi olduğuna görə də bir məsləkin onlara arxa durduğundan öz işlərini qanuni qələmə verir və çox xoşhal olurdular. Fəqihi ibn Bişr Nəcdin Diriyyənin vəhhabiliyi qəbul və ətraf məntəqələrə təcavüz etməsindən sonrakı vəziyyəti ilə əlaqədar belə deyir: "Mən (İbn Bişr) Diriyyə şəhərini bu tarixdən sonra səudilərin dövründə müşahidə etdim. Oranın əhalisi çox varlanmış, silahları qızıl-gümüşlə bəzədilmişdi; nəcib atlara minir, iftixarlı, bər-bəzəkli paltar geyir və bütün sərvət vəsaitlərindən istifadə edirdilər. Elə bir həddə çatmışdılar ki, dil onların firavanlığını bəyan etməkdə acizdir."[1] Diriyyə əhalisindəki bu dərin dəyişikliklər yalnız ətraf məntəqələrə etdikləri təcavüzlər sayəsində baş vermişdir. Onlar vəhhabi məsləkinin köməyi ilə özlərinə bəraət qazandıraraq öz təcavüzkarlıqlarını qanuni iş hesab edirdilər.

Beləliklə, Diriyyə Ərəbistanın Nəcd diyarında vəhhabi dininin təbliğ olunması üçün bir mərkəzə çevrildi və vəhhabilərin İslamın müqəddəs məkanlarına, o cümlədən, Məkkə, Mədinə, Kərbəla və Nəcəf şəhərinə hücumları oradan idarə olundu. İbrahim Paşa Misrinin Nəcdə hücum edib oraya qoşun yeritməsi zamanı Diriyyənin yerlə yeksan olunmasına və Ali-Səud hakimlərinin birinci hakimiyyət dövrünün sona çatmasına baxmayaraq, onların Nəcddən çıxmasından sonra Ali-Səuddan qalan vəhhabilər bir daha oranı təmir edib abadlaşdırdılar və tamamilə məhv olmasının qarşısını aldılar. Sonrakı fəsillərdə vəhhabilərin törətdiyi cinayətlər, eləcə də onların əleyhinə olan müxtəlif reaksiyalar araşdırılacaqdır.

## *VƏHHABİ TƏFƏKKÜRÜNÜN YARANMASINDA BEYNƏLXALQ ŞƏRAİTİN ROLU*

Bu bölmədə vəhhabiliyin yaranmasına təsadüf edən beynəlxalq şəraiti araşdıracaq, həmçinin bu şəraitin vəhhabi hərəkatının inkişaf edib yayılmasına necə təsir göstərdiyi barədə məlumat verəcəyik.

Vəhhabilik o dövrdə Osmanlı imperatorluğunun sərhədlərində yerləşən Ərəbistan yarımadasında yarandığını, həmçinin siyasi və tarix cəhətdən bu imperatorluğun dünyanın böyük ərazilərində təsirli olduğunu nəzərə alaraq belə qeyd etmək olar ki, osmanlıların qüdrətinin zəifləməsi vəhhabilərin yaranıb yayılmasında təsirli amillərdən biri olmuşdur.

Bu bölmədə həmin məsələnin müxtəlif yönlərini – istər daxili, istərsə də xarici amillərini nəzərə alaraq (həmin dövrdə) Osmanlı imperatorluğuna hakim olan daxili və xarici vəziyyəti araşdıracağıq. Əlbəttə, qeyd etməliyik ki, yuxarıda Osmanlı imperatorluğunun necə

[1] Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.151

yaranması ilə əlaqədar müəyyən mətləblər bəyan olundu. İndi isə osmanlıların qüdrətinin ən yüksək həddə olduğu dövrü, sonra isə onda baş verən enişli-yoxuşlu hadisələri araşdıracağıq.

Osmanlı imperatorluğu miladın XV-XVI əsrlərində özünün ən güclü dövrlərini yaşayırdı. Tarixin bu dövründə Avropa dövlətləri bu imperatorluğun qarşısını ala biləcək qədər qüdrətə malik deyildilər. Bu imperatorluğun geniş hüdudları Balkanda kiçik Asiyadan Ermənistana qədər, şimali Afrika və Misirə, şərqdə isə Suriya və Fələstin ərazilərinə qədər gedib çatırdı. Belə ki, Adriatik dənizi "Türk dəryası" adı ilə məşhurlaşmışdı. Osmanlı imperatorluğunun nisbətən uzun ömürlü olması o dövrdə dünyanın münasib siyasi şəraiti, sultanlardan bir neçəsinin ləyaqəti, bir neçə rəhbər işçilərinin camaata qarşı səmimi və iş bacaran olması, camaatın da onu himayə etməsi nəticəsində olmuşdu və onlar öz xoşbəxtliklərini Osmanlı hökumətinin davam etməsində görürdülər.

Hər bir tərəqqinin ardınca tənəzzül gəldiyi, eləcə də hər bir təvəllüd axırda xəstəlik və ölümlə sona çatdığı, həmçinin, İbn Xəldun və Vil Dorant kimi məşhur tarixçilərin mədəniyyətlərin tərəqqi və tənəzzülləri barədə xüsusi olaraq qeyd etdiklərinə əsasən Osmanlı imperatorluğu da bu qanundan istisna olunmurdu. XVI miladi əsrinin ikinci yarısı geniş ərazilərə malik olan Osmanlı imperatorluğunun süquta uğramasının əvvəlləri idi. Coğrafi, idarəçilik və qanunçuluq baxımından pərakəndəlik, iqtisadi və ictimai dəyişikliklər, Osmanlı dövlətinin dini xüsusiyyətlərinin zəifləməsi, dini və milli cəmiyyətlərin əsl mədəniyyətdən uzaq düşməsi nəhayət böyük Osmanlı imperatorluğunu dağıtdı.

Bu imperatorluğun dağılmasının ilkin əsər-əlamətləri onun padşahlarından biri olan Süleyman Başukuhun dövründə aşkar oldu və onun ölümündən sonra bu imperatorluq tənəzzülə doğru üz qoydu. Bacarıqsız sultanlar biri digərindən sonra rəyasət kürsüsünə oturdular və Osmanlı imperatorluğu bir neçə quru və dəniz döyüşlərində ağır məğlubiyyətə düçar oldu.

Saray məmurlarının hiylələri, hərəmxanalardakı xacələrin və qadınların təhrik olunması, dövlət aparatında baş verən eybəcər hallar ölkədəki siyasi və iqtisadi durumu aradan aparmışdı. Həm müsəlmanların, həm də məsihilərin iştirak etdiyi qiyamlar da günbəgün artmağa başladığı zaman, onların idarə sistemi dağıldı və dövlət başçıları biri-birinin ayağının altını qazmağa başladılar.

Ardıcıl iqtisadi böhranlar, çörək və sair kimi gündəlik tələbat mallarının bahalaşması, qərbdə hazırlanan ucuz qiymətli gümüş və sair məmulatların gətirilməsi, əmək haqqının azaldılması Osmanlı imperatorluğunun problemlərini daha da artırdı. Həmin dövrdə türk

mallarının qiymətinin qalxması nəticəsində xarici mallar sel kimi axıb ölkəyə gəlməyə başladı, şəhərlərdə və kəndlərdə xarici mal ticarəti rövnəqləndi. Sənətkarlıq və ticarət işi çiçəkləndi, müxtəlif siniflərin istehsal qüvvələri artdı. Amma qərb dünyasının əksinə olaraq sənətkarlığın və ticarətin Osmanlı imperatorluğunda genişlənməsi iqtisadi və ictimai inqilab yaratmadı.

Osmanlı imperatorluğunun tədrici olaraq tənəzzülə uğraması barəsində "Tarixi imperatoriye Osmani və Türkiyeyi cədid" kitabında belə qeyd olunur: "Osmanlı imperatorluğunun tənəzzülə uğraması tədricən baş verirdi, yəni onun süqutunun ilk mərhələsi bir neçə əsr öncə başlamışdı. Lakin quruluşun əsas qüdrəti və xüsusilə orta şərq cəmiyyətinin daxili qurluşunun bünövrəsi bu daxili inhirafın ciddi görünməsinin qarşısını alırdı. Avropa da uzun illər ərzində bu tənəzzülü dəqiq şəkildə ayırd edə, yaxud ondan öz xeyrinə istifadə edə bilməmişdi. Məhz buna görə də belə bir şəraitdə imperatorluq uzun illər davam gətirə bilmişdi. Hətta XVII miladi əsrinə qədər Osmanlı imperatorluğunun tənəzzülə uğraması hadisəsi avropalılar üçün çox da aşkar deyildi və bu da Osmanlı padşahlarına mövcud çatışmazlıqları bərpa etmək üçün münasib şərait və fürsət yaratmışdı. Amma onlar bunun qarşısında xudbinliyə düçar olub ölkə daxilində islahat işləri aparmaq fikrinə düşməmişdilər. Onlar bu fikrə artıq çox gec düşdülər."[1]

Ümumi şəkildə osmanlıların tənəzzülə uğraması iki cəhətdən araşdırıla bilər: biri xarici amillər, yəni istismarçı qüvvələrin və istilaçıların bu imperatorluqda törətdikləri işlər cəhətindən, digəri isə daxili amillər, yəni, bu imperatorluğun quruluşundakı inzibatsızlıqlar cəhətindən. Halbuki, həmin dövrdə qərb ölkələrində elmi-texniki inqilab özünün ilkin mərhələlərini keçirməkdə idi.

## *İSTİSMARÇI QÜVVƏLƏRİN OSMANLI İMPERATORLUĞUNDA APARDIĞI İŞLƏR*

Elmi-texniki inqilab və kapitalizmin inkişaf etməsinin ardınca avropalılar öz ölkələrinin xaricdə ticarət bazaları əldə etməsi üçün işgüzar fəaliyyətlərə başladılar. Onlar Osmanlı imperatorluğunun daxilinə nüfuz etmək üçün çox ciddi səylər göstərdilər və bu nüfuz da müxtəlif yollarla baş verirdi.

1570-ci miladi ilində osmanlıların Kipri ələ keçirmək üçün göstərdiyi səylər Venisu 5-ci pap Pyusa doğru çəkdi. Pap da ona maddi kömək göstərdi və Avropanın məsihi sərkərdələrini və İran şahını türklərin

---

[1] Stanford, "Tarixi imperatoriye Osmani və Türkiyeyi cədid" (Mahmud Ramazanzadənin tərcüməsi), səh.293-294

qarşısında müqavimət göstərməyə təşviq etdi. İkinci Filipp, İspaniyanın padşahı, Kuzimude Mədiçi, Duk Tuskani və İtaliya dövlətlərindən bir qrupu "türklərin əleyhinə müqəddəs ittihadiyyə" təşkil etdilər. Bu ittihadiyyənin hərbi dəniz donanması 1575-ci ildə isveçrəli Don Juvanın rəhbərliyi ilə əməliyyata başlayıb Le Pantoda osmanlıların dəniz donanmasını məğlub etdilər. Məsihi qüvvələri bu qələbədən sonra öz ittihadiyyələrini pozmalarına baxmayaraq Le Pantodakı məğlubiyyət osmanlıların dəniz donanmasının gücünü aşkar etdi və türklərin məğlubedilməzlik əfsanəsinə son qoydu. 1606-cı ildə Stivatorok müqaviləsi əsasında müharibə sona yetdi və bu da osmanlıların zəifləməsinin digər bir nümunəsi sayılırdı. Bu müqavilə o günlərdə "Osmanlıların xərac qoyanı" adı ilə tanınan İsveçrəni türklər qarşısında hər növ öhdəçilikdən azad etdi.

Vyana faciəsi (1672) və türklərin məsihi qüvvələri qarşısında məğlubiyyəti onların istilaçılıq siyasətlərinin qarşısını aldı və Osmanlı imperatorluğunun tənüzzülünün başlancığı oldu. Bu barədə C. Ş. Stanfort belə yazır: "Osmanlı ordusunun Vyananı ələ keçirmək üçün apardığı müharibədə məğlubiyyətə uğraması, Osmanlı-Avropa əlaqələrində yeni bir mərhələnin əsasını qoydu. Avropa dövlətləri Osmanlı qüvvələrində mövcud olan ciddi zəifliklərdən agah olduğu zaman hücum mövqeyində dayandılar. Bir əsr yarım ərzində osmanlılar özlərinin ardıcıl səylərinə baxmayaraq, ordunu yenidən qurmaq və islahat işlərini aparmaqda çox mühüm əraziləri əllərindən verdilər."[1]

Həqiqətdə Vyanadakı müqəddəratı həll edən məğlubiyyət Osmanlıların Balkandakı siyasi fəaliyyətlərinin qarşısını aldı və türklər hər bir böyük müharibədə öz ərazilərindən birini əldən verdilər.

"Vyanadakı qələbələr məsihi qüvvələri daha çox fəthlərə sövq etdi. Onlar "müqəddəs ittihadiyyə" təşkil etdilər və Osmanlı ordusunu daha artıq məğlubiyyətə düçar etdilər. Karlotis müqaviləsi (1699) osmanlıları məcbur etdi ki, bütün Macarıstana aid olan Sarlivitsi İsveçrəyə, Paduliyanı Polşaya, Muziyanı Venizə və Azovu Rusiyaya versin. Bununla belə, Türklər öz ordusunu yenidən qüvvətləndirərək Rusları məğlub etdilər və 1711-ci ildə bağlanan Prus müqaviləsi əsasında Azov dənizi yenidən türklərə qaytarıldı. 1715-1718-ci illərdəki müharibədə türklər Serbistanı orduya təslim etdilər. Lakin həmin dövrdə veniziləri Muriyadan və Egey dənizindəki adalardan qovub çıxartdılar."[2]

Xarici siyasət baxımından türklər üçün ən ümdə təhlükə Rusların

[1] Həmin mənbə, səh.375

[2] Stanford, "Tarixi imperatoriye Osmani və Türkiyeyi cədid" (Mahmud Ramazanzadənin tərcüməsi), səh.88-89

gücלənməsi idi. Osmanlılar ilk dəfə 1492-ci ildə ruslarla əlaqə qurmuşdular. “Bizans imperatorluğunun sonuncu hakiminin qardaşının qızı Sufiya ilə evlənmiş Üçüncü Eyvan özünü Bizans imperatorluğunun canişini hesab etdi və onların xüsusi əlaməti olan iki başlı qartalı özünə nişan seçdi. Lakin Eyvan Müxəvvəfin dövründən qabaq (1533-1584) osmanlılarla ruslar arasında Qara dənizin şimal məntəqələrinə və Qafqaza sahib olmaq barədə ixtilaf yarandı. XVI əsrin əvvəllərində və ondan sonrakı iki əsrdə osmanlılarla ruslar arasında çoxlu hərbi toqquşmalar və ixtilaflar baş vermiş və bu da qazaxlarla tatarlar arasında ardıcıl sərhəd toqquşmalarına gətirib çıxarmışdı. Böyük Pyotrun (1682-1722) dövründən XIX əsrə qədər Rusiya və İsveçrə çiyin-çiyinə olaraq türklərə qarşı vuruşdular və bundan sonra Rusiya təklikdə osmanlılarla mübarizəyə qalxdı. Yalnız 1711-ci və 1853-56-cı illərdəki müharibə (Krım müharibəsi) istisna olmaqla, türklər altı müharibədə Rusiyaya məğlub oldular.[1]

Osmanlılarla ruslar arasında bağlanan müqaviləyə əsasən Osmanlı imperatorluğunun böyük əraziləri – Krım yarımadasından Azov körfəzinə qədər Rusiyaya qatıldı. Amma ardıcıl müharibələrin ağır xərcləri Osmanlı dövlətini iqtisadi böhran və çətinliklərlə qarşılaşdırdı.

XVIII əsrin ortalarından etibarən, yəni 1747-1768-ci illərə qədər Osmanlı imperatorluğunun tarixində ən uzun müddətli sülh başladı. Çünki, “bu dövrdə şərqdə Nadir şah Əfşarın ölməsinə və iğtişaşlı bir dövrün yaranmasına baxmayaraq osmanlılar əldən getmiş sərhəd torpaqlarını yenidən qaytarmaq uğrunda müqavimət göstərdilər. Onlar avropalılar sarıdan da xatircəm idilər. Çünki, bu dövrdə Avropa dövlətlərinin başı əvvəlcə İsveçrədə canişinlik müharibəsinə (1740-1748), daha sonra isə yeddi müharibəyə qarışmışdı (1756-1763). Halbuki, osmanlı padşahları və böyük vəzirlər bu zamanda imperatorluğun bu müharibələrə qarışmasının qarşısını almağa çalışırdılar.”[2]

XVIII əsrin axırlarında və XIX əsrin əvvəllərində mövcud olan beynəlxalq şəraitlər, eləcə də böyük Fransa inqilabının təsirləri barədə sonradan söhbət olunacaqdır.

## *OSMANLI İMPERATORLUĞUNUN DAXİLİNDƏKİ QARIŞIQLIQLAR VƏ İĞTİŞAŞLAR*

Osmanlı imperatorluğu ərazisinin genişliyinə və əhalisinin çoxluğuna

[1] Həmin mənbə, səh.89

[2] Stanford, “Tarixi imperatoriye Osmani və Türkiyeyi cədid” (Mahmud Ramazanzadənin tərcüməsi), 1-ci cild, səh.425

görə öz daxilində bir çox çətinliklər və inzibatsızlıqlarla qarşılaşdı. Osmanlı dövləti hərbiçi qəbilə başçıları vasitəsi ilə idarə olunurdu və imperatorluğa çevrilən zaman bu quruluş yerli əşrafiyyət əsasında olan bürokratiyaya çevrildi. Kobud bürokratizim ticarətçi iqtisad yolunda bir vasitə, vətəndaşların təhlükəzlik və azadlığına isə maniə idi. Bu məsələ qərb kapitalizminin və əmtəələrin osmanlı ölkəsinə nüfuz etməsinin dəqiq şəkildə araşdırıldığı zaman daha da aydın olur. Kapitalizmin Osmanlı imperatorluğuna nüfuz etməsi nəticəsində əkinçilər mülkədarlar tərəfindən daha artıq istismar olunmağa başladı. Çünki, qərbin istehlak mallarının və bəzək əşyalarının məsrəf olunmasından daha çox pula ehtiyacı var idi və bu da kəndlilərə qoyulan vergilər, eləcə də əyalət və vilayətlərin vətəndaşlarına göstərilən təzyiqlərlə təmin olunurdu.

Osmanlı imperatorluğunda baş verən inzibatsızlıqlardan biri də türklərlə qeyri-türklər arasında bərabərsizliyin, ayrı-sekçiliyin olması idi. Belə ki, məsihilər və türk olmayan müsəlmanlar ölkənin idarə olunmasında heç bir rola malik deyildilər.

Sonralar bu dövlətin əleyhinə milli-azadlıq hərəkatlarının və çoxlu qiyamların yaranmasına şərait yaradan ümdə çətinliklərdən biri dil, irq və dini baxımdan vəhdətin olmaması, başqa sözlə, bu imperatorluğun bir neçə milliyyətdən təşkil olunması idi. Bəlkə də həmin bu amil Osmanlı imperatorluğunun uzun müddət davam gətirməməsinə səbəb olmuşdu.

Bununla əlaqədar diqqət yetirilməli digər bir məsələ hadisənin hərbi yönü idi. Belə ki, Osmanlı ordusu özünün hərbi təchizat sistemində yeni üslublara malik olmaması, müasir dövrdəki müharibələrdə istifadəyə yararlı olmayan silahlardan istifadə etməsi və modern silahlardan (xüsusilə digər dövlətlərlə qarşılaşmada) məhrum olması səbəbilə müharibələrdə çox da üstün hesab olunmurdu.

Bütün bu mənfi hallarla yanaşı, eləcə də osmanlı dövlətinin qərbin inkişafını hiss etdiyinə baxmayaraq mövcud vəziyyətin yaxşılaşdırılması üçün islahata münasib şərait yaranmadı. Bu barədə “Tarixi imperatori və Türkiyeyi-cədid” kitabının müəllifi yazır: “Bu dövrün bütün vaxtlarında (1747-1768) osmanlı padşahları müxtəlif cinahlar arasında baş verən siyasi rəqabətlərdən istifadə etməklə, hökumətin əsl məqamlarına çox sürətli dəyişiklik etməklə öz qüdrətini qoruyub-saxlaya bildilər. Amma xarici hücumların olmaması baş verən islahatların çoxunun (ondan əvvəlki üç on illik ərzində) get-gedə təsirsizləşib aradan getməsinə səbəb oldu. Əvvəlki sui-istifadələr yenidən başlandı. Dövlət məqamlarının satılması, rüşvətxorluq yayıldı və nəhayət, dərin köklərə malik olan infiliyasiya kimi çətinliklər, taun xəstəliyinin yayılması, yeyinti məsullarının çatışmazlığı, şəhərlərdə əhalinin çoxalması, işsizlik, qiyamçıların yaratdığı iğtişaşlar, ali rütbəli məqamların öz vəzifələrindən

imtina etməsi və s. hallar imperatorluğun hər bir yerinə hakim idi. Bu şəraitdə Misir, Suriya, İraq və Afrikanın şimalındakı əyalətlərdə yerli hərbi dəstələr qiyam etdi və onların əksəriyyəti özləri üçün müstəqil hökumət təşkil etdilər. Hakim təbəqənin üzvləri yenə də bu şəraitdən öz xeyirlərinə istifadə etdiklərinə görə ehtimal üzrə onların nəzərdə tutduqları mənfəəti təhlükə ilə qarşılaşdıran hər növ dəyişiklik və islahatla müxalifət edirdilər. Bəzən qiymətlərin sabitləşdirilməsi, yeni mühacirlərin öz vətənlərinə qaytarılması kimi bəzi fəaliyyətlər də şəhərdəki mövcud çətinlikləri həll etmək məqsədilə baş verirdi. Bəzən də dövlət məsullarının, vəziyyətin daha da ağırlaşmasının qarşısını almaq üçün gördükləri tədbirlər pərakəndə vəziyyətdə olduğuna görə çox da müvəffəqiyyət qazana bilmirdi.[1]

Digər tərəfdən, osmanlı hakimlərinin əyalət və vilayətlərin hərbi köməyinə ehtiyac duyması da öz ardınca bir çox çətinliklər gətirirdi. Sultan Əbdül-Həmidin (1774-1789) dövründə ölkə daxili çətinliklərin əsası hökumətin əyalətlərin yüksək məqamlı əyan-əşrafları üzərindəki iqtidarının əldən getməsi idi. Onlar hökumətin əyalətlərdə hərbi köməyinə olan ehtiyacından istifadə edərək Rusiya ilə müharibədə özləri üçün xəzinə toplamış, ordu və müstəqil idarə təşkilatları yaratmışdılar. Onlar, həqiqətdə sultanın iqtidarın zahiri barəsinə məlumatlarının əksinə olaraq mərkəzi hökumətdən ayrıca, müstəqil şəkildə əməl edirdilər. Anadoluda vilayətin ən yüksək və iqtidarlı fərdi Qara Osmanoğlu idi. O, cənub və qərb məntəqələrində böyük bir əraziyə nəzarət edirdi. Digəri isə fəlat mərkəzdəki nahiyələrinin çoxuna nəzarət edən Çapanoğlu idi. Canikli Əli Paşa oğlu adlı bir şəxs də şimal-şərq nahiyələrinə hökmranlıq edirdi. Osmanlıların Misir, Suriya, İraq, Ərəbistan kimi məntəqələrdə iqtidarının olmamasından törənən siyasi boşluq əsas etibarı ilə camaatın köməyi ilə deyil, bəzən osmanlı məqamlarının özünün ölkələrdəki qullarının köməyi ilə, bəzən də mövcud şəraitdən istifadə edərək mərkəzi dövlətdən ayrılmaq və müstəqil bir qüdrət təşkil etmək fikrində olan bədəvi qəbilələrin vasitəsi ilə təmin olunurdu. Misir qulları 1681-ci ildən sonra qiyam edərək hərbi və idarə məqamlarının çoxunu ələ keçirdilər. Onlara hakim olan cinah rəhbərləri, yəni qeyri-qanuni məqam olan Şeyxül-Bələd (şəhərin rəisi) ölkənin həqiqi hökmranlığını öhdəsinə alırdı. Halbuki, osmanlı hakimləri mərkəzi dövlətin göstərişinə əsasən, bacardıqları qədər müxtəlif cinahlar arasında təfriqə salmağa və düşmənçilik yaratmağa çalışırdılar. Qullardan təşkil olunan hər hansı bir cinahın ölkəni tam ələ keçirməyə və öz düşmənini aradan qaldırmağa müvəffəq olduğu bir dövrdə Osmanlı hakimiyyəti tamamilə aradan

[1] Həmin mənbə, 1-ci cild, səh.425-426

gedirdi. Yalnız belə şəraitlərdə osmanlı hökuməti birbaşa müdaxilə edirdi... Bu dövrdə Suriyadakı qulların məşhur rəhbəri Əhməd Cəzar Paşa idi (1804-cü ildə vəfat edib). O, əslində Əlibəy Kəbirin qullarından biri idi ki, sonralar İstanbulda osmanlıların xidmətinə keçmişdi. Cəzar Paşa Dəməşq və Əkkanın hökmranlığını ələ keçirmiş və orada yerli qiyamçıları məğlub etdikdən sonra öz nüfuz dairəsini Suriyaya, Livana və Fələstinə doğru genişləndirmişdi. Bu şəraitdə yalnız Livan dağlarındakı muxtariyyətin rəhbərləri tam müvəffəqiyyətlə onun iqtidarının genişlənməsinin qarşısında dayana bildilər. İraqlılar da Ömər Paşanın (1764-70) və Süleyman paşa Kəbirin (1780-1802) rəhbərliyi altında öz istiqlaliyyətlərini davam etdirə bildilər. Onların hər ikisi bədəvi tayfalarını İraqdan qovub çıxardılar. Sonra heç bir daxili düşmənlə qarşılaşmadan öz hökmranlığını davam etdirdilər. Onlar öz əyalətlərinin azacıq gəliri kimi müəyyən məbləği İstanbula göndərir və sultanın onları məğlub etməsi ilə əlaqədar göstərdiyi bütün səylər qarşısında ciddi müqavimət göstərirdilər.[1]

Bu şəraitlərin nəticəsində XVI əsrin sonunda Osmanlı imperatorluğu daxili qiyamlara və iğtişaşlara düçar oldu ki, hamısı da ölkənin daxili və xarici şəraitindən irəli gəlirdi. Həqiqətdə hərbi məğlubiyyətlər, Osmanlı imperatorluğunda yaşayan məsihilərin avropalılarla olan əlaqələrinin günbəgün artması və avropalıların da oraya hücum gətirməsi Osmanlı imperatorluğunun dövlət müxaliflərinin siyasi fəaliyyətlərini kəskinləşdirdi. Belə ki, bu dövlətin əleyhinə baş verən qiyamların əksəriyyəti ictimai və iqtisadi narazılıqlar idi ki, əksər hallarda milli və dini reaksiyalarla da qarışmışdı. Bunlardan biri də XVIII miladi əsrinin ortalarında mövcud şəraitin əleyhinə olan üsyankar vəhhabi hərəkatı idi və bu da Osmanlı imperatorluğunun qərb əyalətlərində bir sıra dəyişikliklərin mənşəyi olmuşdu.

Qeyd olunanlara diqqət yetirməklə demək olar ki, XVII əsrin sona çatması ilə beynəlxalq aləmdə əsaslı və ciddi siyasi dəyişikliklər baş verdi. XVIII əsrin axırlarında Rusiya, İsveçrə və Fransa osmanlılarla müharibə aparırdı. İngiltərə və Prus osmanlı hakimlərinin əli ilə islahat işləri görülməsini istəyir və onların ərazi genişləndirmək məqsədləri müqabilində rəqib sayılırdı. Çünki, ingilislərin nəzərinə görə osmanlıların yalnız ərazi bütövlüyü rusların nüfuzu müqabilində böyük bir istehkam və İngilis əmtəələrinin satışı üçün də yaxşı bir ticarət bazarı sayılırdı. XVIII əsrin axırlarında dünyaya hakim olan şərait barəsində Stanford belə yazır:

---

[1] Stanford, “Tarixi imperatoriye Osmani və Türkiyeyi cədid” (Mahmud Ramazanzadənin tərcüməsi),, 1-ci cild, səh.436-438

“...1789-1790-cı illərin qışında osmanlılarla müharibədə olan bütün Avropa ölkələri onlarla sülh müqaviləsi bağlamaq istəyirdilər. Katerina İsveçrənin Finlandiya ilə qarşılıqlı hücumuna girişmişdi. İsveçrənin padşahı ikinci Jozef Hollandiyanın və Macarıstanın milli-azadlıq hərəkatlarını boğmaq əmri vermişdi. Bundan əlavə, Fransa inqlabının başlanması səbəb oldu ki, üçlük təşkil edən ittihadiyyə şərqdə müharibənin dayandırılmasını tələb etsin ki, İsveçrə Avropadakı inqilabla mübarizə aparmaq üçün tədbir həyata keçirə bilsin və eyni zamanda Polşa Rusiyanın qərbə doğru irəliləməsi qarşısında bir sədd kimi özünün keçmiş mövqeyini qoruya bilsin. (Bütün bu hadisələr elə bir halda baş verirdi ki, osmanlıların paytaxtı olan İstanbulun işğal olunmasını daha tezləşdirirdi. Lakin imperatorluq hələ tam süqut etməmişdi)... 1787-1792-ci illərdə baş verən saysız-hesabsız müharibələr həqiqətdə hökuməti öz çatışmazlıqlarını təmin etmək üçün günbəgün anadolu və ərəb vilayətlərinin ordu məqamlarından asılı edir və bunun müqabilində rəsmi məqamları onlara tapşırırdı. Yaranan yeni şəraitlər onlara öz qüdrətlərini möhkəmləndirərək, ölkə sərhədlərini genişləndirmək imkanı vermirdi... “Yasi” sülh müqaviləsi bağlandıqdan sonra Avropa sülhnaməsi altı ilə qədər (1792-1798) davam etdi. Sultan Səlim yaranan bu şəraitdən – Polşanın ikinci və üçüncü dəfə olaraq bölüşdürülməsindən (əvvəlcə 1793-cü ildə, sonra isə 1795-ci ildə), həmçinin, Fransada baş verən inqilabdan öz xeyrinə istifadə etdi.[1]

Fransa inqilabının (1789-cu ildə) qələbə çalmasına baxmayaraq Osmanlı imperatorluğu dünyada baş verən hadisələr qarşısında yenə də məlumatsız idi. O, yalnız özünün xüsusi mənafeyini nəzərə alırdı. Fransa inqilabı Sultan Səlim Osmanlının dövründə baş vermişdi. Lakin o, və onun həmfikirləri əsas etibarı ilə inqilab məfhumundan heç bir təsəvvürə malik olmadıqlarından XVIII əsrdə baş verən belə bir böyük bir hadisədən heç də qorxuya düşməmişdilər.

Fransa inqilabından sonra Napoleon Bonapart burjuaziyanın mənafeyini qoruyan bir nümayəndə kimi Fransız qoşunlarının başında olaraq Avropanın ətraf məntəqələrinə, eləcə də Misirə qoşun yeritdi. İnqilabın başqa ölkələrə keçməsi ilə yanaşı olan bu hücumlar İngiltərə və Rusiyanı öz mənafeyinin fransızlar tərəfindən təhlükəyə düşməsindən qorxutmuşdu. Qərb dövlətlərinin Fransanın (böyük inqilabdan sonra) istilaçılıq siyasətləri ilə müxalifət etmələri Fransanın ziyanına tamam olmasına baxmayaraq, osmanlıların da xeyrinə deyildi və yalnız bu dövrdə Osmanlı imperatorluğunun parçalanmasının qarşısını müvvəqqəti olaraq aldı.

---

[1] Həmin mənbə, 1-ci cild, səh.448-460-461

Bizim bu mövzumuz ilə əlaqədar olan məsələ Napoleonun Misirə və Ərəbistanın Nəcd əyalətinə hücum etməsi idi. "Nizami Ali səud" kitabının müəllifi bu barədə yazır: "... Əgər Napoleon Misirə gedərək ingilislərin yolu üstündə bir maneə olmasaydı, eləcə də Misir ehramları və Əbuqir döyüşündə osmanlılarla döyüşməsəydi Nəcdin hakimləri özlərini büruzə verib ölkələrini genişləndirmək üçün fürsət tapmayacaqdılar... Fransızların osmanlılarla döyüş xəbəri Ərəbistanın hər bir mərkəz yerlərində nəinki inikas etmədi, üstəlik Aralıq dənizi sahillərində müharibəyə məşğul olan osmanlıların Ərəbistanın daxilinə kifayət qədər qoşun göndərməyə müvəffəq olmamalarına səbəb oldu...[1] Məhz bu səbəb də vəhhabilərin çox rahatlıqla öz sərhədlərini genişləndirməsinə şərait yaratdı.

Cənab Həmid İnayət XVIII əsrin ikinci yarısında osmanlıların daxili və xarici şəraiti barədə ümumi bir nəzər verərək bu məsələni gözəl şəkildə təsdiqləyir ki, "...XVIII əsrin ikinci yarısında Osmanlı ölkəsinin tabeçiliyində olan millətlər və Avropa dövlətləri, həmçinin onun daxili şəraiti ilə əlaqədar böyük dəyişikliklər yarandı. Bu dəyişikliklər qısa şəkildə aşağıdakılardan ibarət idi:

Osmanlıların başqa ölkələri istila etməsinin dayandırılması və bunun nəticəsində də qazanc və gəlir yollarının yüksək rütbəli sərkərdələrin üzünə bağlanması, Amerikadan qiymətli filizlərin gətirilməsi nəticəsində infliyasiyanın yaranması, Afrikanın ətrafında dəniz donanmasının işə düşməsi sayəsində Avropanın ticarət yollarının osmanlıların ixtiyarından çıxması, nəhayət 1769-cu ildə Osmanların Rusiya qarşısında məğlub edilərək (1774-cü ildə) "Xırda kənizçə" müqaviləsinin bağlanması ilə (bunun nəticəsində müsəlman əyaləti olan Krım Türkiyədən ayrıldı və Rusiya dövləti Osmanlı ölkəsində yaşayan ortodoks məsihilərinin rəsmi himayəçisi kimi tanındı) hakim quruluşun vəziyyəti də get-gedə pisləşirdi. Bir tərəfdən məhkəmə qüvvələri ardıcıl olaraq zülm və haqsızlıq əməllərinə qurşanır, digər tərəfdən isə osmanlıların hərbi qüvvəsinin mərkəzi olan "Yeni çəri" özünün keçmiş cəngavərlik və pəhləvanlıq hisslərini əldən verirdi. Buna görə də mərkəzi dövlət vilayətlərə olan hakimiyyətləri itirmiş və maliyyət alınması məsuliyyəti məcburi olaran yerli qolçomaqlara icarəyə vermişdi. Bu yerli qolçomaqlar da camaatla hökumətin arasında olan ziddiyyətlərin və fasilənin artmasına daha çox şərait yaradırdı.[2]

XIX əsrin başalanması ilə vəhhabilər Ərəbistandakı Osmanlı

---

[1] Fuiyə Klevd, "Nizami-Ali-Səud", s səh.22
[2] İnayət, "Seyri dər əndişeyi siyasiye ərəb", səh.10

hakimlərinə hər növ itaət və vəfadarlıqdan imtina etdilər, üstəlik müqəddəs şəhərlərə, İraqın daxilinə hücum etməyə başladılar və beləliklə də sultanın mövqeyini, onun İslamın himayəçisi adlandırılması cəhətindən təhlükəyə saldılar.

Vəhhabilərin bu hərəkətindən əlavə Anadoluda və Balkanda milli-azadlıq hərəkatı ilə əlaqədar Osmanlı imperatorluğunun əleyhinə bayram şənlikləri keçirilir və bu da qərb dövlətlərinin vasitəsi ilə himayə olunurdu. Sultan Səlimin Anadolu və ərəb vilayətlərindəki milli-azadlıq hərəkatları qarşısında qəti tədbir görə bilməməsi zahirdə Balkan kənarı ölkələrdə baş verən hadisələrə oxşar təhdidlər idi. Lakin həqiqətdə elə ciddi və təhlükəli idi ki, Səlimi özünə məşğul etmişdi. Osmanlı dövləti qərb ilə qarşılaşmaq üçün münasib imkanlara malik olmadığından Məhəmməd Əli Paşadan kömək istədi. Amma onun dəniz donanması qərb qüvvələrinin qarşısında heç bir iş görə bilmədi və buna görə də Naqarina və Adrinedə baş verən məğlubiyyətlərin (1828–1829) ardınca Balkan hövzəsində müəyyən ərazilər (Yunanıstan və Serbistan) Osmanlı imperiyasından ayrıldı.

XVIII əsrin sonlarında "Avropanın xəstə kişisi" adlanan Osmanlı imperatorluğu çoxlu əraziləri bir-birinin ardınca əldən verdi. Bu hadisələr də öz növbəsində Avropanın Osmanlı mirasına sahib çıxmaq qüdrətini gücləndirdi və onların şərq məsələsində rəqabətə girişməyə vadar etdi. Piro do Nun birinci dünya müharibəsi ərəfəsində Osmanlı imperiyasının vəziyyəti barəsində belə yazır: "... 1913-cü ildə təqribən bütün Avropa sərhədlərindəki ərazilərini əldən verən Osmanlı imperatorluğu Asiyada böyük ərazilərə malik olduğundan hələ də böyük bir qüdrət sayılırdı. Amma onun türk sakinləri yalnız sahil ərazilərinin yunanlar təşkil edən Anadoluda üstünlüyə malik idilər. İmperatorluğun sair yerlərində isə osmanlıların camaata olan hakimiyyəti müxtəlif idi. Yəni bu hakimiyyət kürdlərə, ermənilərə, xüsusilə ərəblərə qarşı yeridilirdi. Avropalıların nüfuz dairəsinin genişləndirilməsi üçün münasib şərait yaranmışdı və onlar Türkiyənin daxilində müqavimət dəstələrinin yaranmasını və ondan istifadə etməsini gözləyirdilər. Ümumiyyətlə, avropalılar istər böyük ticarət müəssisələrinin xərclərini təmin etmək, istərsə də Osmanlı imperatorluğuna maddi kömək etmək yolu ilə bu ölkəni nəzarət altında saxlayırdılar. Osmanlıların Balkan müharibəsində düçar olduqları məğlubiyyətlərdən sonra Avropa dövlətləri belə bir sualla qarşılaşırdırlar: Görəsən, Asiyada olan Türkiyə öz həyatını davam etdirə biləcəkmi? Çünki, Balkan əhalisinin əldə etdiyi müvəffəqiyyətlər, şübhəsiz, müəyyən mahiyyətə malik idi ki, ərəblərdə və ermənilərdə milli-azadlıq hərəkatlarını gücləndirirdi. Buna görə də

onlar öz məqsədlərini həyata keçirmək üçün məyyən tədbirlər həyata keçirmək qərarına gəldilər.[1]

Bu bölmədə deyilənlərin məcmusunu nəzərə almaqla başa düşmək olar ki, 18-ci əsrin ortalarında Ərəbistanın Nəcd əyalətində yaranan vəhhabiliyin inkişaf və sair məntəqələrə sirayət etməsinin əsas amili Osmanlı imperatorluğunun daxili vəziyyəti və beynəlxalq səviyyədə baş verən hadisələr idi. Bu hadisələr də osmanlıların əleyhinə çoxlu iğtişaşların və qiyamların baş verməsinə səbəb olurdu. Vəhhabilər də yaranan bu şəraitdən istifadə edərək Ərəbistanda özləri üçün qüdrət təşkil edə bildilər.

## *İNGİLİS MÜSTƏMLƏKƏÇİLİYİNİN VƏHHABİLİYİN İNKİŞAF EDİB GENİŞLƏNMƏSİNDƏ OYNADIĞI ROL*

İngilislərin istismarçılıq və müstəmləkəçilik siyasətləri islam aləmində təfriqə və bir-birini inkar etmək kimi fəzanın yaranmasında, digər islami firqələrə qarşı bədbinlik yaradılıb töhmət və yalan nisbəti verilməsində, bir-birini və islamın dəyərli şəxsiyyətlərini iftiraçılıqda müttəhim edilməsində, yeni-yeni firqə və məzhəblərin yaradılmasında ən ümdə və əsasalı səbəblərdən biri hesab olunur. Əgər istismarçıların müsəlman qüvvələri zəiflədib məhv etmək üçün istifadə etdikləri ən müvəffəq yolun onların arasında təfriqə və ixtilaf yaradıb, yeni-yeni saxta dinlər, məzhəblər və peyğəmbərlər icad edilməsi olduğunu desək, heç də mübaliğəyə yol verməmiş olarıq.

İstismarçı qüdrətlər islam ölkələrinə hakim kəsilib öz qüdrət və nüfuz dairələrini genişləndirmək, zəif ölkələrə hakim kəsilərək onların maddi və mənəvi sərvətlərini qarət etmək üçün həmişə cürbəcür əsaslı maneələrlə qarşılaşırdılar, onlar heç bir ölkəyə asanlıqla daxil ola bilmirdilər. Heç olmazsa daxil olduqları ilk anlarda yerli əhalinin ciddi müqavimətləri və bir çox digər maneələrlə qarşılaşırdılar. Çoxlu səbəblər camaatın hərəkətə gəlməsinə və təcavüzkar-istismarçı qüvvələr qarşısında dayanmağa səbəb olurdu. O cümlədən, milliyyət, dil, mədəniyyət, din və məzhəb kimi amilləri qeyd etmək olar.

Bu amillər içərisində istismarçıların hədəfi müqabilində çox möhkəm və mühüm bir sədd – camaat arasında dinin, özü də İslam kimi bir dinin qüdrəti və məzhəbin nüfuzu idi. Buna görə də istismarçıların özləri həmişə bu amilin qüdrətini etiraf etmişlər. İngilislərin qədim istismarçı nümayəndələri bu ölkənin ümumi məclislərində Quranı ələ alıb

[1] Dunun Pyer, “Tarixi rəvabiti beynənmiləl dər qərni nuzdəhom”, Qasim Səfəvinin tərcüməsi, Müavinəti-fərhəngiye-Astani-Qüdsi-Rəzəvi, birinci cap, 1370, ikinci cild, səh.305 -308

deyirdilər: “Avropa bilməlidir ki, nə qədər ki, bu kitab müsəlmanların yol göstərəni və onların əməl etdikləri bir kitabdır, bizim istismarçı siyasətlərimiz bu ölkələrdə heç vaxt möhkəmlənməyəcəkdir.” İslamın çiçəklənməsinə, intibahına yol açıldığı, onun hərəkətverici qüvvələrinin bir daha hərəkətə gəldiyi dövrdə, dünya ağalığına can atan bütün istismarçı qüvvələr İslamı öz yolları üstündə ən böyük maneə hesab edirdilər. Çünki islam dini, hər bir ünvanda olursa olsun, istismarçılığı, istilaçılığı və zorakılığı rədd edir və müsəlmanları zülm və zalımlar əleyhinə qiyama sövq edir. Əlbəttə, bu mübarizə təkcə müsəlmanlar üçün deyil, əksinə bütün məhrum və məzlum kütlələrin azadlığa çıxması üçün bir yoldur. Buna görə də bu din özünə vəzifə hesab edir ki, bütün azadlıqsevər hərəkatlara öz qüdrəti çatan qədər köməklik göstərsin.

İstismaçılar belə bir böyük və əzəmətli sədd ilə mübarizə aparmaq üçün iki yoldan istifadə etmişlər:

1-Birbaşa mübarizə.

Bu növ mübarizənin özü də iki cür baş verirdi:

a) Hərbi qarşılaşmalar yolu ilə; məsələn, islam ölkələrinə, o cümlədən, Liviya, İraq, Əfqanıstan və sair yerlərə səlib yürüşləri təşkil edib o yerlərin hərbi cəhətdən işğal olunması.

b) İslam hökmlərini təhrif edib əksinə cilvələndirmək, islama və onun müqəddəslərinə ittihamlar vurmaqla İslamın dini təlimlərinə hücum etmək.

2-Birbaşa olmayan yollarla mübarizə.

İstismarçı qüvvələr İslamla bu cür mübarizə apararkən üç yoldan istifadə edirdilər:

a) Müsəlmanların öz dinlərinə qarşı laqeyd münasibət bəsləməsi üçün onların arasında əxlaqsızlığın, fahişəliyin və fəsadın yayılması.

b) İslam ölkələrində ayrı-ayrı şəxsləri və qrupları bir-birindən ayırıb parçalamaq üçün millətçilik hisslərinin təhrik edilməsi.

v) Müsəlmanların arasında bədbinliyi artırıb ittihamların yayılması yolu ilə təfriqə və ixtilaf yaradılması.

İstismarçıların müsəlmanların əzəmət, iqtidar və ittihadını sındırmaq, onların arasında təfriqə və bir-birinə qarşı çıxmaq ruhiyyəsi yaratmaq üçün gördüyü tədbirlərdən biri firqəçilik, yeni-yeni məzhəblər yaratmaq və saxta dinlər icad etməkdən ibarətdir ki, onlar bunun vasitəsi ilə İslamı və müsəlmanların dini əqidələrini məhv etməkdən əlavə, özlərinin müsəlmanlar arasında təfriqə salmaqdan ibarət olan əsl hədəflərini həyata keçirirlər. “Şəxsiyyət və əndişehayi-Kaşiful-ğita” kitabının müəllifi yazır: “... İstismarçılar son bir neçə əsrdə çalışmışlar ki, islam ölkələrində “məzhəbi-dini islahatlar” və “yeni həyat” ünvanı ilə gizli hərəkatlar icad edərək onlardan öz məqsədləri üçün istifadə etsinlər.

Babiliyin, vəhhabiliyin, kəsrəviyyətin, şeyxçiliyin zahir olması, Məhəmməd ibn Əbdül-Vəhhab, Seyyid Əli Məhəmməd Bab, Mirzə Həsən Əli Bəha, Şeyx Əhməd Ehsai, Seyyid Kazim Rəşti, Əhməd Kəsrəvi kimiləri dini-siyasi səhnələrə daxil edib onların təbliğ edilməsi, eləcə də “23 il”, “Şeytan ayələri” və s. kitabların yayılması istismarçıların məkrli planlarından başqa bir şey deyildir. Bu da təbii olaraq qısa və yaxud uzun müddət ərzində onların istəklərinə uyğun olaraq yüksək nəticələr verirdi.[1]

Vəhhabilik də istismarçılar tərəfindən icad edilib inkişaf etdirilən bir firqədir. Çünki istismarçılar özlərinin məkrli hədəflərinə çatmaq üçün müsəlman şiələri arasında şeyxçiliyi, sünnülərin arasında isə vəhhabiliyi yaymaq qərarına gəlmişdilər. Belə ki, vəhhabilik siyasəti islam firqələrinin kafir hesab edilməsi, müsəlmanların arasında təfriqə salıb, risalət və vəhy əsərlərinin məhv edilməsi, zülm və təcavüzkarlıq əsasında qurulmuşdur.

İngilislər ilk dəfə olaraq XVII miladi əsrinin əvvəllərində ticarət məqsədləri ilə Fars körfəzində zahir olmuşdular. Məhz bu zaman İngilis istismarçıları əvvəlki müstəmləkələrə (Hindistana) daha artıq hakim kəsilmək və yeni müstəmləkləri ələ keçirmək fikrində idilər. Doktor Əmin İngilis istismarçılarının Fars körfəzinə daxil olduğu ilk dövrlərdən etibarən mövcud vəziyyət barəsində yazır: “... İngilislərin Fars körfəzindəki ölkələrlə əlaqəsi bərqərar olunan dövrdən sonrakı 150 il ərzində onlar Fars körfəzi ilə olan əlaqələri Portuqaliyanın və Hollandiyanın kəskin rəqabətinə baxmayaraq yerli qüvvələrlə, yəni yunanlar, osmanlılar və ərəblərin vasitəsi ilə öz mövqeyini qoruyub saxlaya bildilər.

İngilislər əsas etibarı ilə portuqaliyalılar və holandiyalılarla müqayisədə malik olduqları zəifliklərə görə məntəqədəki sultanlar, padşahlar və hakimlərlə daha çox mülayim rəftar edir, mötədil mövqelərini qoruyub-saxlayırdılar. Əlbəttə, zamanın keçməsi ilə bu məsələ onların böyük imtiyazlar əldə etməsinə səbəb oldu. Qeyd etmək lazımdır ki, ingilislərin məntəqədə əsas və ümdə məsuliyyətləri ticarət idi və elə ilk əvvəldən Şərqi Hind kompaniyalarının məmurları – istər Hindistanda, istər Fars körfəzində, istərsə də başqa yerlərdə – siyasi cərəyanlara daxil olmaqdan şiddətlə çəkinir və bütün səylərini ticarətə yönəltmişdilər. Lakin kompaniyalar ticarət işinin daha da asanlaşdırılması üçün siyasi hadisələrin bəzilərinə dəxalət etməyin lazım və zəruri olduğunu tədricən hiss etdilər. Buna görə də müharibələrə

---

[1] Behişti Əhməd. “Şəxsiyyət və əndişehayi Kaşiful-ğita”, Kanuni nəşri əndişeyi islami, Qum, 1370, 1-ci çap, səh.100

qarışmaq, sülh müqavilələri imzalamaq, siyasi müzakirələr aparmaq və müəyyən imtiyazlar almaq kompaniyaların əsas və ümdə fəaliyyətlərindən oldu.[1]

XVIII əsrin ortalarında ingilislərin Hindistanda və Fars körfəzi ölkələrindəki siyasət və mənafeləri gücləndi. Onlar Fars körfəzində daha artıq nüfuz əldə edə bilmişdilər. Bundan uzun müddət əvvəl də bu məsələ Britaniya siyasətlərinin ən aşkar növlərindən birinə çevrilmişdi. "Britaniya hökumətinin Hindistandakı təhlükəsizliyi o zaman daha yaxşı şəkildə təmin oluna bilərdi ki, Fars körfəzi ölkələri əməli olaraq britaniyalıların dəryaçası surətinə düşsün"[2] və "Ərəbistan tam mənada ingilislər üçün bir sipər olduğundan, bu ölkəni əldə saxlamaq onlar üçün həyati əhəmiyyət kəsb edirdi.[3] Buna əsasən, İngilis istismarçıları (Hindistanın təbii sərvətlərini qarət etməkdən ibarət olan məqsədləri barədə) tam xatircəm olmaq üçün arxadan da qafil olmamalı idilər.

Buna görə də XIX əsrin əvvəllərində İngiltərə ilə Əbu-zəbi, Dubey və Küveytin şeyxləri arasında bir müqavilə imzalandı ki, onun əsasında "sahildə yaşayan şeyxlər Britaniyanın himayəsini cəlb etmək müqabilində bağladıqları müqaviləyə əsasən öz tarixi siyasətlərinə nəzarəti onlara həvalə etdilər və bu himayə əvvəlcə Məsqət və Bəhreyn, sonralar isə Küveytdə müstəmləkəçilərin xidmətçiləri tərəfindən həyata keçirilirdi və Britaniyanın mənafeyi təhlükəyə düşməyəcəyi zamana qədər davam etdi.[4] Robert Lisi öz kitabının bir hisəsində ingilislərin XVIII əsrin axırlarında və XIX əsrin əvvəllərində Fars körfəzi əyalətində nüfuz etmələri barəsində belə yazır: "...Amerikalı missioner doktor Pol Hariyun öz xatirələrində qeyd edir ki, Fars körfəzində köçəri ərəblər, ərəb tacirləri, mirvari sükançıları, xurma əkinçiləri və İngilis dövlətinin qulluqçuları var idi.[5]

Buna əsasən ingilis istismarçı qüvvələri Fars körfəzinə nüfuz etdikdən sonra öz istismarçılıq siyasətlərini davam etdirmək üçün hətta yeni-yeni firqələr yaratmaq işindən belə çəkinmirdilər. Məhəmməd ibn Əbdül-Vəhhabın himayə olunma səbəblərindən biri də bu idi. Britaniya müxtəlif şəraitləri nəzərə almaqla vəhhabiləri bəzən güclü şəkildə, bəzi hallarda isə zəif şəkildə hamayə edirdi. Bunlar birinci dünya müharibəsindən əvvəl Osmanlı imperatorluğunda təfriqə salınmasına tərəfdar olmalarına

---

[1] Əl-əmin Möhsin. "Tarixçe və nəqd və bərrəsiye əqaid və amali vəhhabiha", səh.30 -31

[2] Lisi Həmin mənbə, 1-ci cild səh.107

[3] Halidi Fred, "Ərəbistani bisəlatin", Bəhram Əfrasiyabinin tərcüməsi, İntişarati kitabsəra, 1358, mordad, 1-ci cild, səh.44

[4] Lisi Robert, "Sərzəmini səlatin", 1-ci cild səh.108

[5] Lisi Robert, "Sərzəmini səlatin", səh.108 -109

baxmayaraq imperatorluğun xüsusi mövqeyini nəzərə almaqla bu imperatorluqda digər bir qüdrətin yaranmasını istəmirdilər. Çünki bu iş ingilislərin Hindistandakı mənafeyini təhlükəyə salırdı. (Belə bir şəraitdə Osmanlı imperatorluğunun dağılmaması Britaniyanın mənafeyini təmin edirdi.)

İngilis istismarçılarının (XIX əsrin axırlarında) vəhhabiliyin yaranıb inkişaf etməsindəki rolu daha aydın şəkildə nəzərə çarpır. Bu dövrdə Ali-Rəşid sülaləsi vəhhabilərə hakim kəsildi və onları Riyazı tərk edib Küveytə qaçmağa məcbur etdi (1891). Əbdür-Rəhman ibn Hüseyn öz ailəsi ilə Küveytə sığındı. "Amma Küveyt Şeyxi Məhəmməd Əs-Sabah onun Küveytə gəlməsinə mane oldu. Əbdür-Rəhman məcburi olaraq Nəcd səhrasına – Rübül-xaliyə üz gətirdi. İlk əvvəldə Bəni Mürrənin yanında, sonra isə bir müddət Əcman qəbilələri arasında yaşadı. Bundan sonra Qətərə gedib iki ay orada qaldı və nəhayət Osmanlı dövləti Əbdür-Rəhman üçün (ona məskunlaşmaq haqqı verməklə) müəyyən bir yer təyin etdi ki, yenidən müharibəyə başlamasının qarşısını ala bilsin. Osmanlılar tərəfindən təyin olunan və elə onlar tərəfindən də himayə olunan Məhəmməd Əs-Sabah da Əbdür-Rəhmana Küveytdə yer verdi və beləliklə bir müddətə qədər heç olmazsa vəhhabilərin qiyam və iğtişaşları aradan qaldırıldı.[1]

Amma 1901-ci ildə Küveytdə baş verən çevriliş vəziyyəti tamamilə dəyişdi. "Hindistana bir neçə dəfə səfər edən Mübarək əvvəllər öz çevrilişi barəsində ingilislərlə müzakirə etmiş və belə razılaşmışdı ki, onun Küveytdəki hökumətini rəsmi tanımaq müqabilində o bu məntəqəni osmanlıların himayəsindən çıxarsın və Britaniyanın himayəsinə keçirsin."[2] Nəhayət Mübarək Səbah (Məhəmməd Əs-Səbahın qardaşı) onun əleyhinə qiyam etdi və onu öldürdükdən sonra özünü Küveytin əmiri adlandırdı. Bu o zaman baş vermişdi ki, artıq ingilislər Osmanlı dövlətinin Ərəb ölkələrindəki qüdrətinə zərbə vurmaq və öz adamlarını ora hakim etmək qərarına gəlmişdilər. "Nizami Ali-Səud" kitabının müəlifi bu barədə belə yazır: "Təbiidir ki, ingilislər fürsəti qənimət saydılar və bununla da Berlin-İstanbul-Bağdad-Küveyt dəmir yolunun çəkilişi ləğv edilirdi (Almaniya osmanlıların müttəhidi idi)."[3]

Osmanlı sultanı Küveyt əmirinin ingilislərə meyl etdiyini hiss etdikdə Ali-Rəşidə kömək etməyə başladı və onu Küveytin əmiri ilə müharibə aparmağa təşviq etdi. Tərəflər arasında başlanan müharibədə Ali-Rəşidin

---

[1] Fəqihi, Həmin mənbə, səh.304

[2] Fuiye Fuiye Təlud. "Nizami Ali-Səud", Nuriddin Şirazinin tərcüməsi, İntişarati fərəndiş, səh.28

[3] Həmin mənbə

qələbə çalması labüd olduğu bir halda ingilis qüvvələri Küveyt əmirinin köməyinə gəldilər və Ali-Rəşid qoşunlarını geri oturtdular. Ali-Rəşid osmanlılardan gömək istədi, lakin onlarla ingilislərin arasında baş verən müzakirələrdə ingilislər artıq Osmanlı dövlətini Ali-Rəşidə kömək etməməsindən ötrü razı salmışdılar. Aydındır ki, bu məsələ britaniyalıların Fars körfəzindəki mənafeyi üçün çox əhəmiyyət daşıyırdı. Çünki, Küveyt əmirini süqut təlükəsindən xilas etməkdən əlavə, ingilislər də özü üçün Fars körfəzində möhkəm bir baza yarada bilmişdilər.

Ali-Rəşidin zəifliyi nəticəsində Əbdül-Əziz ibn Əbdür-Rəhman ibn Feysəl yaranan fürsətdən istifadə edərək vəhhabi dövlətini bir daha dirçəltdi. Buna əsasən Küveytin əmiri və ona göndərilən köməkçi qüvvələrin həmkarlığı, eləcə də ingilislərin verdiyi döyüş texnikası vasitəsi ilə Nəcdə və Ali-Rəşidə hücumunu gücləndirdi. Nəhayət, 1319-cu hicri qəməri il, şəvval ayının 4-ündə (14 yanvar, 1902) Riyaz şəhərini Ali-Rəşidin ixtiyarından çıxara bildi.

Əbdül-Əzizin Ərəbistanda olan bir İngilis generalına yazdığı məktubdan ingilislərin vəhhabilərin yenidən qüdrətə çatmalarında və ingilislərin istismarçılıq proqramlarının icrasındakı kömək və rolları aydın şəkildə gözə çarpır. O həmin məktubda Ali-Rəşidin hakimiyyəti altında olan Qəsim nahiyəsinə etdiyi həmləni qeyd etməklə bəyan edir ki, "Pərvərdigarın köməyi və sizin yardımınızla sübh açılmamış dəvələrimizi Üteytiyyə dağının yüksəkliklərinə çatdıra bildik."[1] Bundan əlavə, ingilislərin istismarçılıq planlarını Hindistanda İngilis qüvvələrinin baş komandanı general Lord Kerzinin 1903-cü ilin noyabr ayında Fars körfəzinin sahillərində yaşayan şeyxlərə etdiyi xitabından da gözəl şəkildə anlamaq olar. General onlara xitabən yazmışdı: "... Biz bütün qüvvələrdən öncə burada idik... Britaniya dövləti ən yüksək məqama malik olmalıdır... Biz keşməkeşlərlə üzləşdik və inzibatı, nizam-intizamı bərqərar etdik. Biz sizi qonşularınızın vasitəsi ilə məhv olmaqdan xilas etdik..."[2]

Riyazın işğal edilməsindən bir neçə ay sonra Əbdül-əziz Britaniyanın Fars körfəzindəki nümayəndəsindən istəyir ki, onun yeni hökumətini Britaniya ilə yaxşı münasibətdə olan bir dövlət kimi nəzərə alsın və Britaniyanın qarşılıqlı müqaviləsindəki ölkələrdən biri, həmçinin Əbu-zəbi, Dubey və Küveyt kimi şeyx yaşayan əyalətlərin bir hissəsi hesab etsin. (Bu da yalnız ingilislərin osmanlılar qarşısındakı qüdrətindən istifadə etmək məqsədi daşıyırdı.) Lakin "Əbdül-Əziz Küveytin əmiri

---

[1] Lisi Robert, "Sərzəmini səlatin", 1-ci cild, səh.104.
[2] Həmin mənbə, səh.107.

Mübarəkin Fars körfəzindəki təbii limanların ən yaxşısını ingilislərə təqdim etməsindən xəbəri yox idi. Halbuki Ali-Səud Ərəbistanın mərkəzi əyalətlərini iddia edən türklərlə çarpışma ehtimalından başqa britaniyalılara heç bir imtiyaz vermirdi."[1]

Bundan əlavə, osmanlıların şərqdə və Avropadakı mövqeyi ingilislər üçün müəyyən problemlər yarada bilərdi. Buna görə də İngiltərə müvəqqəti olaraq türklərlə, onların istədiyi kimi, Ərəbistanın daxili səhralarına hökmran olmasını qəbul etdi.

Bu mərhələdə vəhhabilərin istəyi cavabsız qaldı. Çünki ingilislər heç vaxt qəbilə rəqabətlərinə qarışmaq, həmçinin o dövrdə Nəcd ölkələrinə hakimiyyət iddiası edən osmanlıları incitmək istəmirdi.

Əbdül-Əzizin məğlub edilməsi üçün Osmanlıların 1904-cü ildə Ali-Rəşidlə apardıqları həmkarlıqlar onun rəqiblərinin məğlubiyyəti ilə nəticələndi. Çünki, "Türklər İbn Rəşidi, Nəcdlə əlaqədar iddialarında qaldığı vaxta qədər, azad qoymuş və Əbdül-Əziz ilə saziş imzalamışdılar (fevral, 1905). Bununla Səudilərin Nəcdə olan hakimiyyətlərini rəsmi şəkildə tanıyırdılar və Əbdül-Əziz də bunun müqabilində osmanlıların ağalığını qəbul edirdi.[2]

Osmanlı qüvvələri 1906-cı ilə qədər məntəqədə qaldı ki, Ali-Rəşid ilə vəhhabilər arasındakı müvazinəti qorusunlar. Amma Ali-Rəşidin "Rovzətul-mühənna" müharibəsində məğlub olması onların on il müddətində Ərbistanın şimalındakı hakimiyyətini əldən vermələrinə səbəb oldu. Türklər də Ənizədə və Bəridədə uzun müddət qala bilmədilər. Çünki "Rovzətul-mühənna" müharibəsindən sonra artıq Əbdül-Əziz məntəqədə inzibatın tənzim olmasına səy göstərmirdi və bunun nəticəsində türklər 1906-cı ildən etibarən tədrici olaraq öz qüvvələrini məntəqədən çıxarmağa başladılar. Bu da onların Ərəbistanın mərkəzindəki hüzuruna son qoyurdu."[3]

Bu dövrdən başlayaraq, ingilislərin vəhhabilərlə olan münasibəti və onların qarşısındakı siyasətləri yeni mərhələyə daxil oldu. Baxmayaraq ki, türklər Nəcd ölkələrinə malikiyyəti iddia edirdilər. Lakin ingilislərin nəzərində Əbdül-Əziz barəsində xatircəm oluna biləcək bir şəxs sayılırdı. Belə ki, Britaniyanın Küveytdəki siyasi nümayəndəsi kapitan Şekspir 1910-cu ildə özündən yuxarıdakı məqamlara bir məktubda ingilislərin Fars körfəzindəki daimi nümayəndəsi olan Serpersi Kaksa belə yazmışdı: "Əbdül-Əziz yaxşı bir adamdır. Onun aydın fikirləri vardır ki, ehtimal

---

[1] Həmin mənbə, səh. 112.
[2] Lisi, Robert, "Sərzəmini səlatin", 1-ci cild, səh.115
[3] Həmin mənbə, səh.119 -120

üzrə ərəblər içərisində başqalarından daha çox ona etimad etmək olar.”[1] Robert Lisi osmanlıların XX əsrin əvvəllərindəki vəziyyətini belə bəyan edir: “...1911-ci ildə İtaliya Tripoli məntəqəsinə (bugünkü Liviya) hücum etdi. Halbuki, bu yer osmanlılara aid idi. Sonrakı ildə yunanlar Makedoniyanı və Kərətin böyük bir qismini ələ keçirmək üçün Türkiyəyə hücum etdilər. Bu dövrə qədər Bolqarıstan, Bosnya və Qvineya sərhədləri böyük Osmanlı imperatorluğunun əlindən çıxmışdı. Osmanlı dövləti artıq dağılma ərəfəsində idi və türklər çox məyus halda öz qüvvələrini yaxın şərqdə yerləşdirdikləri bazalardan çıxarmağa başlayırdılar. Belə nəzərə çarpırdı ki, ərəblər də osmanlıların himayəsində olan sair xalqlar kimi, mövcud şəraitdə azadlıqlarını əldə edə bilərdilər. 1913-cü ildə Əbdül-Əziz Nəcdin şimalındakı “Əl-məcmə”də yenidən kapitan Şekspirlə görüş keçirdi və ona xəbər verdi ki, artıq Nəcd diyarını osmanlıların mütləq hökumətinin şərindən qurtarmağın və onların qüvvələrinin Ehsadan çıxarmağın vaxtı gəlib çatmışdır.”

Şekspir öz xatirələrində yazır: “Bir dost kimi Əbdül-Əzizə heç vaxt icazə verə bilməzdim ki, türklərin qüdrətini bu qədər az və əhəmiyyətsiz təsəvvür etsin... Digər tərəfdən də o, İngiltərə dövlətinin nümayəndəsi kimi öz vəzifəsinin tələbinə görə bu məsələni Əbdül-Əziz üçün aşkar edib bildirməli idi ki, əgər Ehsadakı türk qoşununa həmlə etməklə əlaqədar öz qərarında sabit qalsa Britaniya dövləti ona heç bir kömək edə bilməyəcəkdir.”[2]

Bir tərəfdən Osmanlıların malik olduqları mövqeyi görməməzliyə vura bilməyən, digər tərəfdən də öz müstəmləkələrini qoruyub saxlamaq istəyən ingilislər müvəqqəti olaraq türklərin ərazi bütövlüyündən tərəfdarlıq edirdilər. Bu məqsədlə 1913-cü ilin iyun ayında onlarla bir saziş imzaladılar və bu saziş əsasında yaxın şərq ölkələrini bir-birinin arasında bölüşdürdülər. Bu sazişin ikinci bəndində səudilərin on illik imperatorluğu “osmanlıların Nəcd məntəqəsi” adı ilə qeyd olunmuş, amma Səud sülaləsinə heç bir işarə edilməmişdi.”[3] Amma ingilislər bu dövrə qədər vəhhabilərlə müqavilə bağlamaq üçün heç bir fəaliyyət göstərmədiklərindən “1914-cü ilin yazında Əbdül-Əziz şimalda və Küveytdə yenidən osmanlıların nümayəndələri ilə görüşdü və o, Nəcdin hakimi və rəhbəri kimi seçildi. Lakin o, öz qərarlarında və hakimiyyətində müəyyən qədər müstəqil idi və bundan əlavə, xaricilərlə

---

[1] Həmin mənbə, 151.
[2] Lisi Robert, “Sərzəmini səlatin”, 1-ci cild, səh.153-154.
[3] Həmin mənbə, səh. 159.

müəyyən müqavilələr imzalamağa haqqı yox idi."[1]

Birinci dünya müharibəsi başlandıqdan sonra (1914) osmanlılar Almaniyanın xeyrinə olaraq müttəhidlərin cərgəsinə qoşuldular. İngilislər isə Ərəbistan yarımadasının daxilində müttəhidlər sırasında nifaq və təfriqə salmaq üçün səy göstərdilər ki, bunun vasitəsi ilə Osmanlı dövlətini daxildən ağır çətinliklərə düçar etsinlər. Buna əsasən, Əbdül-Əzizlə İngiltərənin nümayəndəsi Kaks arasında ilk dəfə olaraq 1915-ci ildə saziş imzalandı və "Əbdül-Əziz ölkəsinin xarici ticarətə rəhbərlik etməkdə və ticarət işlərində İngiltərəyə müəyyən imtiyazlar verdi. Onun müqabilində daxili və xarici düşmənləri qarşısında onu himayə və kömək etmələrini istədi. Britaniyanın hərbi himayələrə dair zəmanət verməsi türklərin mərkəzi Ərəbistan ölkələri üzərindəki hər növ iddiasına son qoydu."[2] Britaniya dövləti bilirdi ki, İbn Səudun qüdrəti çöl ərəblərinin və qəbilələrinin nəzarət altına alınıb onları itaətə vadar edilməsi üçün yaxşı bir amildir. Buna görə də ona etdiyi köməklər nəticəsində Əbdül-Əziz Ehsa məntəqəsini yenidən ələ keçirə bildi. Xüsusilə bunu nəzərə almaq lazımdır ki, Ali-Rəşid osmanlıların himayəsi və köməyi ilə Bəsrədə ingilislərin əleyhinə qiyam etmişdi və ingilislər Əbdül-Əzizin yenidən Ali-Rəşidlə mübarizəyə girişməsini istəyirdilər.

Amma ərəblərin arasında millətçilik hərəkatları genişlənirdi. Britaniya bu amildən istifadə edərək Hicazda Şərif Hüseyn Haşiminin varlığından öz xeyrinə istifadə etmək qərarına gəldi. İngiltərənin ərəb ölkələrindəki casusu Lorens öz xatirələrində belə qeyd edir: "Biz görürdük ki, şərqdə yeni bir amilə ehtiyac duyulur... Elə bir qüdrətə, yaxud irqə ehtiyac duyulurdu ki, say baxımından türklərlə qarşılaşa bilsin və ideoloji fəaliyyətlər baxımından da onlardan qabaqda olsun."[3] Bu mərhələdə Britaniyanın siyasəti Hicaza doğru istiqamətləndi və baş verən müzakirələrin ardınca Şərif Hüseyn osmanlıların əleyhinə qiyama başladı. Bununla yanaşı Britaniya dövləti Ali-Səudu yenə də Nəcddə saxladı ki, lazım olan vaxtlarda onlardan öz mənafeyinə istifadə etsin. Bundan əlavə, Britaniyanın siyasəti Ali-Rəşidin qorunmasını da tələb edirdi ki, Ali-Səud ilə Haşimilərin qüdrəti arasında müvazinət bərqərar edə bilsin. İzzətullah Dehqan öz kitabının bir bölməsində ingilislərin istismarçı və müstəmləkəçi məqsədlərinə işarə edərək yazır: "Böyük Osmanlı dövlətinin kiçik və zəif ölkələrə parçalanması, irq, dil, millət və

---

[1] Həmin mənbə.

[2] Həmin mənbə, səh.177-181

[3] Lorens, T.İ. "Həft rükni hikmət" (Lorensin Ərəbistandakı xatirələri), Məs`ud Keşavərzinin tərcüməsi, mətbuati Ətai müəssiəsi, Tehran, 1369, ikinci çap, 1-ci cild səh.111

s. kimi ixtilafların, milli ədavətlərin qızışdırılması, eləcə də İslam ölkələrinin ən mühüm mərkəzlərində xəbis İsrail şəcərəsinin və millətçilik duyğularının əkilib təhrik olunması və sair kimi hallar İslam paltarında olan casusların göndərilməsi və özlərini zahirdə müsəlman adlandıran şəxslərin hiylələri ələ çox da əlaqəsiz ola bilməzdi."[1]

Nəhayət, "birinci dünya müharibəsinin gedişində Osmanlı dövlətinin qüdrət və vəhdətini məhv edib aradan aparmaq əzmində olan, eləcə də Şərif Hüseyn və onun övladlarının zəiflədilməsi (onlara xilafət vədəsi vermişdir) məqsədini güdən İngiltərə gözlənilmədən vəhhabilərin rəisi olan Əbdül-Əziz İbn Səuddan istifadə etdi. Beləliklə də həm Osmanlı xəlifəsinin Hicaz məntəqəsindəki nüfuzunu Şərif Hüseynin əli ilə aradan apardı, həm də İbn Səuddan Şərif Hüseyn və sair kimilərin ehtimal üzrə gözlənən (xalq arasında) sevilmək və qüdrətə çatmaq təhlükəsini aradan apardı. Onun ərəb aləmindəki vəhdət və xilafətindən istifadə etdi... Beləliklə, ingilislərin silahları və sair köməkləri birbaşa və yaxud müxtəlif yollarla sel kimi axaraq Nəcdin çöllərinə gəlib çıxırdı. Əbdül-Əziz nəhayət 1924-cü ildə Şərifin tərəfdarlarını qəti şəkildə məğlub edərək qüdrəti ələ ala bildi."[2]

Belə nəticə alınır ki, İngilis müstəmləkəçiləri əvvəlcədən təyin olunmuş hiyləgərlik planları və məkrli tədbirləri ilə vəhhabiləri elə bir tərzdə himayə edə bildilər ki, Ərəb dövlətlərində öz mənafelərinin qorunması üçün münasib bir baza olsun. Vəhhabilər İngilis istismarçılarının siyasətlərinin davamında Ərəbistanın səltənət kürsüsünə oturdular və islama zidd olan vəhhabiyyət dinini çox şiddətlə təbliğ etməyə başladılar.

[1] Dehqan İzzətullah. "Peydayişi vəhhabiyyət və əqaidi an", Darul-kutubul-İslamiyyə, Tehran 1367 birinci çap, səh.18.

[2] Məscid Camei Məhəmməd, "Vəhhabiyyət dər cəzirətül-Ərəb", "Əbrar" qəzeti, səh.4

## ÜÇÜNCÜ HİSSƏ

### *ALİ-SƏUD HÖKUMƏTİNİN YARANIB FORMALAŞMASINDA VƏHHABİLƏRİN ROLU*

Yuxarıda qeyd olundu ki, Məhəmməd ibn Əbdül-Vəhhab öz ayinini aşkar etdikdən, Hərimələdə və Üyeynədə heç bir işdə müvəffəq olmadıqdan sonra Ali-Səudun mərkəzi olan Diriyyəyə getdi. O şəhərdə Diriyyənin əmiri Məhəmməd İbn Səudla müqavilə bağladı. Bununla da vəhhabi məsləkini siyasi və hərbi cəhətdən qüvvətləndirdi, Ali-Səudun siyasi qüdrəti də bu ittihad sayəsində möhkəmləndi.

Bu fəsildə Məhəmməd ibn Əbdül-Vəhhabın İbn Səudla ideoloji və siyasi cəhətdən bağlılığı və bu bağlılığın qarşılıqlı olaraq bir-birinə göstərdiyi təsirlər açıqlanmaqla vəhhabilərin müxtəlif dövrlərdə – Ali-Səudun hökmranlığından İranda İslam inqilabının qələbə çaldığı bir dövrə qədər gördükləri tədbirlər qeyd olunacaqdır.

Bu bölmədə səy olunmuşdur ki, "Böyük İslam Enskilopediyası" kitabından, Ali-Səud hökumətinin keçdiyi yolun müxtəlif dövrlərə bölünməsi ilə yanaşı, (əlbəttə, əsl mövzu azaldılmadan) vəhhabilərin müxtəlif zamanlardakı tədbirlərini qələmə alaq.

"Böyük İslam Enskilopediyası" kitabının "Tarixi Ali-Səud" blməsində Ali-Səudun tarixi aşağıdakı üç qismə bölünür:

a) Misirlilərin qələbə çaldığı dövrə qədər Diriyyədə kiçik bir dövlətin yaradılması.

b) İbn Rəşidin Nəcdi işğal edib oranı öz istilası altına aldığı vaxta qədər qüdrətə qayıtması.

v) İbn Səudun Riyaza hakim olması, yaxud Ali-Səud hökmranlığının yeni dövrünün başlanması.

(Həmin kitabda sonra belə xatırladılır:) İlk iki dövrün hakimləri və onların hakimiyyət illəri barəsində tarixi mənbələrdə çoxlu ziddiyyətlər və ixtilaflar gözə dəyir. Bu da həmin məntəqədə dövrin ərəblər arasında tarixçilərin mövcud olmasından əlavə, Ali-Səudun daxili rəqibləri, eləcə də Misir və Osmanlı qüvvələri ilə apardığı uzun müddətli müharibələrdən irəli gəlirdi."[1]

Bu bölmədə diqqətə çarpan əsas məsələlər vəhhabilərin mübarək qəbirlərə, həmçinin Məkkə, Mədineyi-Münəvvərə, Kərbəla və Nəcəf kimi müqəddəs məkanlara hücum etmələridir. Burada söz uzanmasın deyə, onları olduğu kimi bəyan etmirik. (Bu məsələlər dördüncü fəsildə araşdırılacıqdır).

---

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh-25.

## *MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHABIN ALİ-SƏUDLA İDEOLOJİ VƏ SİYASİ BAĞLILIĞI*

Keçən fəsildə vəhhabi məzhəbinin necə yaranıb inkişaf etməsinə işarə olundu və aydınlaşdırıldı ki, Məhəmməd ibn Əbdül-Vəhhab bu firqənin banisi kimi Əhməd ibn Hənbəl, İbn Teymiyyə, İbn Qəyyim Cövzi, İbn Əbdül-Hadi kimi şəxslərin düşüncə və təfəkkürlərindən təsirlənərək tədriclə bütün Ərəbistana şamil olan bir məsləki yaratdı. O, Nəcdin münasib mühitindən və əlverişli beynəlxalq şəraitdən də istifadə etdi və bu da vəhhabiliyin (xüsusilə Ali-Səudun kömədəkləri ilə) inkişaf edib yayılmasında təsirli oldu.

Məhəmməd ibn Əbdül-Vəhhab ixtira etdiyi məsləkin bünövrəsini Hərimələdə və Üyeynədə qoyduqdan sonra çox da nəzərə çarpacaq fəaliyyətlər göstərə bilmədi. Buna əsasən, Nəcdin digər şəhərinə – Diriəyyəyə köçdü. Ali-Səud sülaləsi qədim dövrlərdən o şəhərdə hakim olduğuna görə Şeyxin varlığını qənimət saydılar və öz arzularını həyata keçirmək üçün dini bir arxaya ehtiyac duyduqlarından onu gülərüzlə qarşıladılar.

Özü üçün güclü siyasi bir baza axtarmaq fikrində olan Məhəmməd ibn Əbdül-Vəhhab da Diriyyəni və Ali-Səudu öz etiqad və fikirlərini bəyan etmək üçün münasib olduğunu gördü. O, öz ayinini Ali-Səuda təqdim etdi və onları əmin etdi ki, bu məsləki qəbul etmələri siyasi səhnələrdə qələbə çalıb müvəffəqiyyətlərin əldə edilməsinə, ərazilərin artırılmasına çox kömək edəcəkdir. O dövrdə Diriyyə şəhərinin hakimi olan Məhəmməd İbn Səud da fürsəti qənimət sayaraq vəhhabiliyi (onun xeyrinə olan xüsusi əqidə və rəylərə görə) qəbul etdi.

Diriyyəyə hakim olan qəbiləvi cəmiyyət də öz hakimlərinə tabe olaraq vəhhabiliyi qəbul etdilər. Onlar iqtisadi cəhətdən münasib şəraitə malik olmadıqlarından vəhhabiliyin işğalçılıq fikirləri ilə yanaşı olan iddialarını öz arzuları ilə uyğun gördülər.

Buna görə də Diriyyə vəhhabiliyin yayılıb inkişaf etməsi üçün Ərəbistan yarımadasının sair məntəqələrindən daha münasib idi. Tarixçilərin qeyd etdiyi kimi, Ali-Səudun ərazi idialları məhz adı qeyd olunan şəhərdən, özü də vəhhabiliyin bayrağı altında həyata keçdi. Çünki qəbilələrin müharibə və qarətçilik əsasında qurulan təbiəti Ali-Səudun və Diriyyədə sakin olan qəbilələrin vücudundan aşkar şəkildə sezilirdi.

Nəticədə Məhəmməd ibn Əbdül-Vəhhab ilə Məhəmməd İbn Səudun arasında ideoloji və siyasi cəhətdən bir növ bağlılıq yarandı və hər biri özünü digərinin vasitəsi ilə gücləndirdi. Bundan əlavə, bu siyasi ittihadı qüvvətləndirmək üçün iki sülalənin arasında məsləhət üzündən olan siyasi qohumluqlar da baş verdi ki, bu da onların arasındakı əlaqələrin

daha da möhkəmlənməsinə gətirib çıxardı. Belə ki, bundan sonra vəhhabiləri Ali-Səuddan və Ali-Səudu vəhhabilərdən çox az hallarda ayırmaq mümkün olurdu.

Bu bağlılıq elə şiddətli idi ki, əgər Ali-Səud vəhhabiliyi himayə etməsəydi bu məsləkin hər an aradan getməsi ehtimalı var idi. Eləcə də Ali-Səud öz hədəf və xüsusi mənafelərinə nail olmaq üçün belə bir dini arxaya malik olmasaydı, bəlkə də Diriyyənin hüdudlarından kənara çıxıb Nəcdlə Hicazı işğal edə bilməzdi. Ali-Səud tarixinin heç bir yerində vəhhabilərin Ali-Səudla ziddiyyətdə olması gözə çarpmır. Buna görə də hər vaxt vəhhabilikdən söz gedirsə Ali-Səudla vəhhabiləri əsla bir-birindən ayırmaq mümkün olmur.

Sonrakı bölmələrdə Ali-Səud dövlətinin yaranmasında və onların müxtəlif dövrlərdəki hökmranlığı ilə əlaqədar vəhhabilərin gördüyü tədbirləri araşdıracağıq ki, onların Ali-Səudla bağlılıqları daha yaxşı şəkildə aşkar olsun.

## *MİSİRLİLƏRİN DİRİYYƏYƏ HAKİM KƏSİLDİYİ VAXTA QƏDƏR ALİ-SƏUD DÖVLƏTİNİN TƏSİS OLUNMASI*

Bu dövr Səudilər sülaləsinin qüdrət və hakimiyyətə çatdığı ilk dövrlər idi və bunun əsasında Səudi əmirlərindən: Məhəmməd İbn Səud, Əbdül-Əziz ibn Məhəmməd İbn Səud, Əbdüllah İbn Səud, Müşari İbn Səud hakimiyyətdə olmuşlar ki, onların hakimiyyəti h.q 1148-ci ildən 1235-ci ilə qədər (təqribən 87 il) davam etmişdir. Vəhhabilər məhz bu dövrdə Diriyyədə yaranmış və Ali-Səudla saziş bağlamaqla özləri üçün siyasi bir baza yarada bilmişdilər. İndi isə onların Nəcdin daxilində və xaricdə törətdikləri cinayətləri qeyd edirik.

## *VƏHHABİLƏRİN MƏHMMƏD İBN SƏUDUN (1735–1766) HAKİMİYYƏTİ DÖVRÜNDƏ TÖRƏTDİYİ CİNAYƏTLƏR*

1148-ci hicri qəməri ilindən etibarən Ərəbistan yarımadasının bir hisəsinə (Nəcdin bir hisəsinə) hökmranlıq edən Səud ibn Məhəmməd ibn Müqrin dünyadan getdikdən sonra onun dörd oğlu - Məhəmməd, Sünəyan, Fərhan, Müşari atalarından irs qalan kiçik əraziləri müştərək şəkildə idarə edirdilər. Sünəyanın ölümü ilə sair qardaşlar Məhəmmədə tabe oldular və beləliklə, Məhəmməd İbn Səud Nəcddə Ali-Səud dövlətinin həqiqi banisi oldu.

Məhəmmədin dövründəki ən mühüm hadisələrdən biri kimi Məhəmməd ibn Əbdül-Vəhhabın fəaliyyətlərinin güclənməsini qeyd etmək olar (belə ki, Səudilər sülaləsinin müqəddəratı məhz onun vasitəsi ilə dəyişdi və Ərəbistan yarımadasının böyük bir hissəsini də dəyişdirdi). O, Nəcd daxilindəki münasib və əlverişli şəraitdən, eləcə də beynəlxalq şəraitdən istifadə edərək Nəcddə saxta vəhhabi məsləkinin Səudi hökumətini yaratdı.

Məhəmməd ibn Əbdül-Vəhhab öz məqsədlərini həyata keçirmək üçün Diriyyəyə daxil oldu və oranın hakimi Məhəmməd İbn Səudla 1157-ci (yaxud 1158-ci) ildə saziş bağladı ki, bu da hər ikisinin bir-birinə bağlılığını göstərirdi. Beləliklə, vəhhabilər yeni bir yolda qərar tutdular. Onlar Ali-Səudun hərbi və siyasi köməklərindən istifadə edərək özlərinin istismarçı və işğalçı hərəkətlərini başladılar. "İnəst ayini vəhhabiyyət" kitabının müəllifi Məhəmməd ibn Əbdül-Vəhhabın vəhhabiliyin genişləndirilməsi üçün nəzərdə tutduğu təffəkür tərzini belə bəyan edir: "... Vəhhabilərin əməli prinsiplərinin ümdəsi və onların yeganə şüarları bu qısa cümlədə xülasələnir: "Ya vəhhabiyyət, ya da qılınc!" Buna görə də hər kəs vəhhabi məzhəbini qəbul etsə sağ-salamat qalır, hər kəs ondan imtina edərsə qanı hədər olur, övladları öldürülür və mal-dövləti qarət edilir."[1]

Bu təffəkür əsasında vəhhabiliyin yayılması və onların ərazilərinin kenişləndirilməsi üçün qanlı müharibələr baş vermişdi. Məhəmməd ibn Əbdül-Vəhhabın ilk proqramı Üyeynənin əmiri Osman ibn Müəmmərdən intiqam almaq idi. Ayətullah Cəfər Sübhani bu barədə belə qeyd edir: "... Şeyx onun (Osman ibn Müəmmərin) Ehsanın əmiri ilə gizli şəkildə yazışdığından agah olduğu və şeyxə xəyanət etmək məqsədində olduğunu bildiyi vaxt intiqamçılıq hissləri daha da şiddətləndi. Şeyx, Əhməd ibn Raşid və İbrahim ibn Zeyd adlı iki nəfəri göndərdi ki, Üyeynənin əmirinə sui-qəsd etsinlər. Buna görə də 1163-cü ilin Rəcəb ayında o, cümə namazını qılıb qurtardıqdan sonra müsəlladan (cümə namazı qılınan came məscid) çıxmamış qətlə yetirildi. Onun qətlindən üç gün sonra Şeyxin özü Üyeynəyə varid oldu və Məşari ibn Müəmmər adlı bir nəfəri oraya hakim təyin etdi."[2]

Vəhhabilik rəisinin Üyeynədə icad etdiyi vəziyyət camaatın razılığını təmin edə bilmədi. Camaat bu şəhər əmirinin əleyhinə qiyam etdilər. "Bu xəbər Şeyxə və Məhəmməd İbn Səuda çatdıqda onların göstərişi ilə dərhal bir qrup Üyeynəyə həmlə edib şəhərin əhalisini qanlarına qəltan

---

[1] Müğniyə Məhəmməd Cavad. "İnəst ayini Vəhhabiyyət", Seyyid İbrahim Ələvinin tərcüməsi, Tehran, 1351 -ci il, səh.117.

[2] Sübhani Cə`fər, "Fərhəngi əqaid və məzahibi İslami", 3-cü cild səh.58 -59

etdilər. Ağacları yandırıb quyuları doldurdular, kişiləri öldürüb qadınları əsir götürdülər və camaatın namusuna təcavüz etdilər."[1]

Bu hadisədən sonra hər iki Məhəmməd öz hakimiyyət dairələrini genişləndirmək üçün qəti qərara gəldilər. Məhəmməd ibn Əbdül-Vəhhab Nəcd əhalisinə məktub yazaraq onları öz ayinini qəbul etməyə çağırdı. Onun etiqadına əsasən yalnız o və Diriyyə əhalisi yeganəpərəst idilər. Bütün sair müsəlmanlar kafir hesab olunur, onların qətlə yetirilmələri vacibdir. Halbuki, bu fikir və rəy sadəcə bir bəhanə idi ki, bu yolla həm müsəlmanlara (onların azdırıcı əqidələrini qəbul etməyən müsəlmanlara) etdiyi həmlələrə bəraət qazandırsın, həm də Ali-Səud hakimləri müharibələrdə əldə olunan qənimətlərdən lazımi qədər istifadə etsinlər, öz qüdrət dairələrini genişləndirməkdən əlavə kifayət qədər qüvvəyə də malik olsunlar. Buna əsasən hər kəs vəhhabiliyi qəbul edirdisə, onların tərəfindən gələn xətərlərdən amanda idi. Amma vəhhabiliyin qondarma məzhəbini qəbul etməyənlər həmişə vəhhabilərin təəssübcəsinə və məğrurcasına hücumlarına məruz qalırdılar.

Vəhhabilər üçün (strateji və siyasi baxımdan) xüsusi əhəmiyyətə malik olan məntəqələrdən biri Riyaza hakim olmaq idi (Diriyyənin 20 km-də yerləşir).

O, şəhərə hakim olduqdan sonra ərazilərini genişləndirməkdən əlavə onları Ehsaya daha da yaxınlaşdırırdı. Vəhhabilərin Riyaz şəhərini necə ələ keçirmələri barəsində "Böyük İslam Enskilopediyası" kitabında belə deyilir: "... Məhəmməd ibn Əbdül-Vəhhab xüsusi əhəmiyyətə malik olan Riyaz şəhərini ələ keçirmək üçün oranın əmiri Dəhham ibn Dəvvası ona itaət etməyə çağırdı. Lakin Dəhham bunu nəinki qəbul etmədi, üstəlik Ali-Zəfir köçərilərindən bəzilərinin köməyi ilə vəhhabiliyi qəbul etmiş Mənfuhə əhalisinə hücum etdi... Bundan sonra Məhəmməd İbn Səud ilə Dəhham arasında ardıcıl surətdə uzunmüddətli müharibələr baş verirdi. "Şəyyab", "Əl-əbid" adları ilə məşğul olan müharibələr onlardan heç birinin xeyrinə tamam olmadı. Nəhayət 1735-ci ildə müharibədən yorulub cana gələn Dəhham, Məhəmməd İbn Səuda sülh təklifi irəli sürdü və Məhəmməd ibn Əbdül-Vəhhab vəhhabiliyin təbliğ olunması üçün oraya bir nümayəndə göndərdi. Bütün bunlarla belə, Dəhham sonrakı il sazişi pozdu və Məhəmməd İbn Səudun müxalifləri cərgəsinə qoşuldu. O, tədricən yeni məzhəbin yayılması ilə qarşılaşmaq və Məhəmməd İbn Səudun istilaçılıq tədbirləri ilə mübarizə aparmaq üçün öz qüvvələrini səfərbər etmişdi."[2]

---

[1] Həmin mənbə, səh-60.

[2] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.25.

Nəcdə hakim olan qəbiləvi üsul-idarə qəbilələrdən hansısa birinin digərinə hakim olmasını qətiyyən qəbul edə bilməzdi. Başqa sözlə desək, qəbilə tipli həyat – "tayfalar hökmranlığı" tipli bir cəmiyyətdir ki, orada hər bir əyalətin yalnız bir hakimi və əmiri vardır. Onlar da başqa əmirlərin onların öz ixtiyarlarında olan məntəqəyə nüfuz etməsi ilə müxalifdir.

Buna əsasən, Nəcddə sakin olan qəbilələrin vəhhabilərin işğalçılıqlarına qarşı müxalifətləri müəyyən qədər izah oluna bilər. Qəbiləvi cəmiyyətin mühüm xüsusiyyətlərindən əlavə, ani və ötəri bir ittihadları onları düşmən müqabilində müştərək cəbhəyə vadar edirdi. Yəni müxtəlif qəbilələr xüsusi bir dövrdə və tamamilə ayrı formada bir-biri ilə müttəhid olurdular ki, özlərinin müştərək düşmənlərinin ehtimal verilən təhdidlərini dəf etsinlər. Əlbəttə, bu kimi ittihadlar çox da davam gətirə bilmirdi. Çünki onlar yalnız öz mənfəətlərini ələ gətirmək məqsədi güdürdülər və bu zaman düşmən onların mənafelərini təmin etsəydi, bağladıqları sazişi çox asanlıqla pozur və öz qədim müttəhidlərinin əleyhinə iş görməyə başlayırdılar. Bu məsələ barəsində «Böyük İslam Enskilopediyası» kitabında belə deyilir: "(Vəhhabilərin 1168-ci hicri qəməri ilində Riyazı işğal etmələrindən bir il sonra onların müxalifləri müttəhid oldular...) Ehsadan Bəni-Xalid və Nəcrandan Ali-Mükrəmi kimi güclü qəbilə başçılarının və əmirlərinin bağlılığından təşkil olan vəhhabilərin müxalifət cəbhəsi əvvəllər vəhhabilərin itaəti dairəsinə keçmiş olan şəhər və qəsəbələrin bir qrupunu qiyama vadar etdi. Hərimələdə Süleyman ibn Əbdül-Vəhhabın camaatın yeni məzhəbin ziddinə və İbn Səudun işğalçılıqlarına qarşı qiyama təhrik etməsi də özünəməxsus rol oynadı. Həmçinin Nəcranın əmiri Həsən ibn Hibətullah da vəhhabilərin ordu sərkərdəsi Əbdül-Əziz ibn Məhəmmədin hücumunda öldürülmüş Yəmən qəbilələrindən bir qrupuna başçılıq edərək Nəcdə hücum etdi və vəhhabiləri çox ağır məğlubiyyətə düçar etdi. Vəhhabilərin fərmanından imtina edən Dəhham ibn Dəvvas da Ehsanın əmiri Ürəyəri nəcdlilərlə müharibə edib Nəcran əmirini ittihada dəvət etdi, amma Nəcran əmiri əsirləri mübadilə etdikdən sonra qayıtdı və Məhəmməd İbn Səudun oğlu Əbdül-Əziz, Üreyərin və Dəham ibn Dəvvasın ordusunu məğlub etdi. Bundan sonra qiyam etmiş qəbilələrə və qəsəbələrə hücum edərək onları yenidən öz itaətinə vadar etdi."[1]

Yuxarıda qeyd olunan mətləblərdən qəbilə ittihadiyyələrinin nə üçün tez bir zamanda məğlubiyyətə uğraması aydın olur. Belə ki, o zaman Nəcdin, Riyazın, Ehsanın və başqa qəbilələrdən olan əmirlərin

[1] Həmin mənbə, səh.25

vəhhabilər əleyhinə təşkil olunan ittihadiyyələri nəticə etibarı ilə Nəcran əmirinin geri çəkilməsi ilə zəiflədi və o ittihadiyyəyə ağır zərbə vurdu. Vəhhabilər də bundan istifadə edərək onlara qələbə çala bildilər.

Bundan sonra vəhhabi qüvvələri günbəgün güclənməyə başladı. Onlar Nəcd və Ərəbistan yarımadasının sair məntəqələrini işğal etmək üçün güclü hücumlara başladılar. Vəhhabilərin hərəkəti Məkkə şəriflərini özlərinə məşğul etmişdi. (Onlar Osmanlılar tərəfindən Məkkə və Mədineyi-Münəvvərəyə hakim idilər).

Osmanlı hakimi vəhhabi hərəkətindən ilk dəfə 1748-ci ildə xəbər tutdu. Nəcd və Hicaz Osmanlı dövlətinin bir hissəsi hesab olunduğundan tədricən onlar Nəcd problemini həll etmək və ümumiyyətlə vəhhabilər tərəfindən Ərəbistan yarımadasında törənən təhdidlərin qarşısını almaq üçün çarə fikrinə düşdülər. Əlbəttə, Osmanlı dövlətinin vəhhabilər əleyhinə tədbir tökməsi çox uzun çəkdi.

Məhəmməd İbn Səudun hakimiyyəti dövründə diqqət yetirilməli məsələlərdən biri onun Nəcdin daxili mühitinə hakim və öz qonşularından xatircəm olması idi. Yəni bünövrəsi yenicə qoyulmuş hökumətin öz mövqeyini möhkəmləndirmək üçün gördüyü tədbirlər də həmin məntəqədə baş verirdi. Məhəmməd İbn Səud da vəhhabiliyi qəbul etdikdən sonra çalışırdı ki, qəbiləvi hərbi qüdrətdən istifadə edərək vəhhabilərin bünövrəsini hərtərəfli şəkildə bərkitmək üçün Nəcdin sair qəbilələrinə hakim olsun və bu yolda müxtəlif məntəqələrə hakim kəsilmək üçün heç bir vasitədən əsirgəməsin. O, ələ keçirdiyi hər bir yerdə camaatı kütləvi şəkildə qırır, onların mal-dövlətlərini qarət edir və camaat arasında qorxu hissi yaradaraq hər növ müxalifəti susdururdu. Məhəmməd İbn Səudun Nəcran, Riyaz, Ehsa, Yəmən və sair yerlərin əmirlərinə qalib gəlmək üçün çox səy göstərməsinə baxmayaraq, fəaliyyətləri nəticə vermədi və onun işinin davamı oğlu Əbdül-Əzizə həvalə edildi. Hər bir halda, Məhəmməd İbn Səudun ətraf məntəqələrə hücumları və gördüyü tədbirlər vəhhabiləri yeni bir qüvvə ünvanı ilə təqdim etdi. Bundan sonra sair Səudi əmirləri özlərini vəhhabilərin canfəşanlıq göstərən müdafiəçiləri kimi qələmə verir və bu barədə özlərindən xüsusi və şiddətli təəssüb göstərirdilər.

Nəhayət, Məhəmməd İbn Səud təqribən 30 il hakimiyyətdən və Nəcdi ələ keçirdikdən sonra 1765-ci ildə Diriyyədə vəfat etdi və elə orada da torpağa tapşırıldı.

## *VƏHHABİLƏRİN ƏBDÜL-ƏZİZ İBN MƏHƏMMƏD İBN SƏUDUN HAKİMİYYƏTİ DÖVRÜNDƏ (1766–1803) GÖRDÜKLƏRİ TƏDBİRLƏR*

Məhəmməd İbn Səuddan sonra onun böyük oğlu Əbdül-Əziz vəhhabi hökumətinin idarə olunmasını qırx il müddətində öhdəsinə aldı. O, vəhhabiliyin genişləndirilməsində xüsusi təəssübə malik idi və məhz onun dövründə Kərbəlaya və Nəcəfə hücum etdilər və Kərbəlada çoxlu insani faciələr törətdilər.

Bundan əlavə, vəhhabilər Əbdül-Əzizin dövründə Məkkə, Mədineyi-Münəvvərə və Taif şəhərlərini işğal etdilər. Müqəddəs zərihləri və məkanları dağıdıb yerlə yeksan edərək, insanlığa zidd olan çoxlu faciələr törətdilər.

Məhəmməd ibn Əbdül-Vəhhab ilə Məhəmməd İbn Səudun arasında bağlanan sazişdən sonra Əbdül-Əziz də həmişə atası ilə yanaşı bu müqavilədə iştirak etmiş və vəhhabi ordusunun böyük bir hissəsinin sərkərdəliyini öhdəsinə almışdı. Sonra atası onu Məhəmməd ibn Əbdül-Vəhhabın razılaşması ilə canişinlik məqamına seçdi və Məhəmməd ibn Əbdül-Vəhhabın qızı ilə evləndi. O, "imam" ləqəbi alan Ali-Səudun ilk şəxsidir.[1]

Əbdül-Əziz ibn Məhəmməd vəhhabiliyin yayılması və öz ərazisinin genişləndirilməsi üçün çox çalışdı, Nəcd məntəqəsində ətraf qəbilələrlə (Bəni-Xalid, Ali-Mükrəmi, Müntəfiq və sair kimi qəbilələrlə) döyüşdü və "əvəlcə Büreydəni və Tənuməni tutdu. Sonra Riyazı ələ keçirmək üçün həmlə tədarükü gördü, lakin müvəffəqiyyət əldə etmədikdə, üzücü bir müharibəyə əl atdı. Riyaza həmlə etmək üçün Əl-ğəzvanəni qərargah seçdi və həmin vaxtda Qəsimə hücum edərək, Hilaliyyə şəhərini ələ keçirdi və qayıdan zaman Bəni-Xalid qəbiləsindən bir qrupunu ağır məğlubiyyətə uğratdı"[2]; amma vəhhabilərin tədbirləri cavabsız qalmadı. Ehsanın əmiri (Üreyər ibn Rəcin) Bəni Xalid və Üneyzə qəbilələri ilə əlbir olaraq Qəsimdə Büreydəni Ali-Səudun işğalından xaric etdi. Nəcdin əmiri də bir il sonra vəhhabilərin sərhəd məntəqələrinə və Zürmaya hücum etdi. Əlbəttə, çox da böyük müvəffəqiyyətlər əldə edə bilmədi.

Bu illərdə vəhhabiliyin Ərəbistan yarımadasındakı nüfuzları müqabilində müəyyən qədər müxalifətlərin baş verməsinə baxmayaraq, "müxalif əmirlərin arasında sıx həmkarlığın olmamasına və vəhhabiyyətin hərbi cinahının Əbdül-Əziz ibn Məhəmmədin sərkərdəliyi

---

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.26

[2] Həmin mənbə, səh.26

ilə möhkəm şəkildə təşkil olunmasına görə heç bir əsaslı iş görə bilmədilər. Əksinə Qəsim, Münəyx, Əz-zilfa, Yəmanə məntəqələrinin əhalisinin məğlubiyyətinə, eləcə də Dəlmin əmiri Zeyd ibn Zamilin vəhhabiyyətə təslim olmasına görə Əbdül-Əziz Şəmmərə dağından Fars körfəzinə qədər bir məntəqəni öz istilası altına keçirdi."[1] O cümlədən, o, Üreyərin Ehsadakı daxili ixtilaflarından istifadə edərək o məntəqənin cənub bölməsinə hakim oldu və EHsanın şimal məntəqələrini də ələ geçirmək üçün münasib şərait yaratdı.

Əbdül-Əziz ibn Məhəmməd Nəcddə əldə etdiyi müvəffəqiyyətlərdən sonra Hicaza hücum etdi. Məkkəni ələ keçirib Şərif Qalibi işdən götürmək üçün müəyyən tədbirlər gördü. Əvvəllər qeyd olunduğu kimi, Məkkə şərifləri vəhhabilərin Nəcddəki işlərindən çox nigaran idilər və çarə düşünürdülər.

Əvvəlcə Şərif Məsudun (1165-ci h.q), sonra isə Şərif Əhmədin (1195-ci h.q) Məkkə alimləri və vəhhabilər arasında təşkil etdikləri elmi mübahisələrdən sonra vəhhabilərin əqidələrinin batil olması isbat edildi. Buna uyğun olaraq "Vəhhabilər Şərif Məsudun öldüyü vaxta qədər Həcc əməllərindən məhrum olundular. Şərif Məsuddan sonra onun qardaşı Şərif Müsaid ibn Səid Məkkənin hakimi oldu. Vəhhabilər həcc icazəsi almaq üçün bir nəfəri onun yanına göndərdilər. Lakin o da icazə verməkdən imtina etdi."[2] 1769-cu ildə vəhhabilərdən bir qrupu Şərif Mənsuru (Məkkə Şərifinin yaxın adamlarından idi) əsir tutdular, amma Əbdül-Əziz onları buraxdırdı. 1186-cı hicri ilinə qədər vəhhabilər əvvəldə olduğu kimi, yenə də həcc əməllərindən məhrum idilər. "Şərif, Allah evini ziyarət etmək barədə vəhhabilərə icazə verməsinə baxmayaraq bu şərti irəli sürmüşdü ki, onlar cizyə versinlər. Lakin onlar cizyə verməkdən imtina etdilər."[3] Bu məsələ də onların yenidən həcc əməllərindən məhrum olmasına səbəb oldu.

Vəhhabilər Nəcddə əldə etdikləri müvəffəqiyyətlər və qələbələrdən sonra Hicaza üz tutdular. Əbdül-Əziz Səud ilə Məkkə-Mədinənin hakimi Şərif Qalib arasındakı çarpışmalar vəhhabilərin 1202-ci hicri qəməri ilində həcc əməllərindən məhrum olunduqdan sonra onları kafir adlandırdığı zaman başlandı. Həmin məsələ də vəhhabilərin əlinə bir bəhanə verdi ki, Hicaza doğru hərəkət etsinlər. Lakin onlarla Şərif Qalib arasında baş verən ilk çarpışmada vəhhabilər məğlub oldular və müvəqqəti olaraq geri çəkilmək məcburiyyətində qaldılar. Vəhhabilərin

---

[1] Həmin mənbə, səh.26

[2] Fəqihi, Həmin mənbə, səh.298

[3] Həmin mənbə, səh.299

ilk məğlubiyyəti ilə əlaqədar “Böyük İslam Enskilopediyası” kitabında belə qeyd olunur: “...Şərif Qalib öz nüfuzu altında olan məntəqələrdən vəhhabilər əleyhinə kömək istədi. Çoxlu adam kömək üçün onun ətrafına yığışdı və Şərif Qalibin qardaşı Şərif Əbdül-Əziz ibn Müsaidin rəhbərliyi ilə Nəcdə doğru hərəkət etdilər. Əbdül-Əziz Səudi də öz əli altında olan qəbilə və şəhərlərdən cəngavərlər topladı. Əvvəlcə Həsən ibn Müşariyə, Şərifin tərəfdarı olan köçərilərə həmlə etmək əmrini verdi. O da öz qoşunlarından bir qrupunu Vadid-Dəvasir əhalisi ilə müharibəyə göndərdi. Özü isə Müteyr ərəblərinə və Həsən Düveyşin ardıcıllarına hücum etdi və onları çox ağır məğlubiyyətə düçar etdi. Bu işdən çox qorxuya düşən Əbdül-Əziz, Şərif Qalibdən kömək istədi və o da böyük bir ordu ilə qardaşına qoşuldu. Amma özünün Şəra qəsəbəsinə etdiyi ilk hücumunda məğlub oldu və dərhal Məkkəyə qayıtdı. Vəhhabilər Hicaz əmirinin tərəfdarlarını məğlub etməyin davamında Müteyr və Şəmmərə qəbilələrinə hücum etdilər və əvvəlcə onları geri oturtdular. Lakin axırda özləri məğlub oldular.[1]

Əbdül-Əziz ibn Məhəmmədin hakimiyyəti dövründə baş verən mühüm hadisələrdən biri vəhhabiliyin rəisi olan Məhəmməd ibn Əbdül-Vəhhabın 1792-ci ildə ölməsi idi. O, 92 il ömür sürdükdən, İslama və müsəlmanlara böyük xəyanətlər etdikdən, istismarçılara və mürtəce qüvvələrə layiqli xidmət etdikdən sonra müsəlmanların arasında nifaq və təfriqənin bariz nümunəsi olan bir ayin yaratdı. O, özündən sonra quru, təəssübkeş və ruhsuz bir din yadigar qoyub getdi.

Vəhhabilərin Hicazdakı müharibələr əsnasında gördüyü işlərdən biri Ehsaya hakim olmaq üçün çalışmaq idi (əvvəllər bu nahiyənin iqtisadi və strateji əhəmiyyəti bəyan olundu). Əbdül-Əziz 1792-ci ildə Ehsanın bir qismini öz ixtiyarına keçirməsinə baxmayaraq, oranın tam istilası dörd il çəkdi. Bu hadisələrlə eyni zamanda İraq tərəfindən vəhhabilər əleyhinə müəyyən tədbirlər görülürdü. Vəhhabilərin gördüyü işlərdən və istilaçılıq fikirlərindən agah olan Bağdad valisi Süleyman Paşa onların müəyyən bir vaxtda İraqa da hücum edəcəklərini ehtimal verərək 1212-ci hicri qəməri ilində Əli Paşanı bir ordu ilə Nəcdə göndərdi. Eyni zamanda bir neçə məntəqədə döyüşməyə qüdrəti olan vəhhabilər də əvvəllər işğal etdikləri yerləri qoruyub saxlamaq və yeni-yeni məntəqələri işğal etmək fikrində idilər. Buna əsasən Əli Paşa ilə saziş bağlayıb söz verdilər ki, İraqın Hicaz bölgələrinə toxunmasınlar və İraqın da özünə hücum etməkdən çəkinsinlər.

Vəhhabilərin Bağdad valisi ilə bağladıqları sazişi çox da davam etmədi. Çünki “müxaliflər hərəkətə gəldilər və Bağdadın valisi Süleyman Paşanı

[1] “Böyük İslam Enskilopediyası”, 2-ci cild, səh.26

(o, lap əvvəllərdən vəhhabilərin əleyhinə müştərək cəhbənin yaradılması fikrində idi) məcbur etdilər ki, Bəni Müntəfəq əmiri olan Süveyni ibn Əbdüllahı Əbdül-Əzizin müxalif qüvvələrinə hakim seçsin. Süveyni də Süleyman Paşanın himayələri və eləcə də Ali-Zəfir kimi qəbilələrin ittihadı ilə bir qoşun topladı, əvvəlcə Bəsrəyə, oradan da Ehsaya getdi. Digər tərəfdən, Şərif Qalib də Osman Müzayifinin sərkərdəliyi ilə bir qoşunu Ali-Səudla müharibəyə göndərdi. Bu qoşun Əbdül-Əzizin müttəhidlərindən sayılan və Qəhtandan olan Ali-Rəvaqa hücum etdi. Lakin onlara qələbə çala bilmədi. Süveyni də Şubakda düşərgə saldı və vəhhabilərin ərazilərinə hücum etmək üçün oranı qərargah seçdi (1797), amma çox keçməmiş vəhhabilərin tərəfdarı olan Bəni-Xalid qəbiləsindən olan bir nəfərin vasitəsi ilə qətlə yetirildi və onun topladığı ordu pərakəndə vəziyyətə düşdü...

Həmin dövrlərdə əksəriyyəti Əl-ətban qəbiləsindən olan Hicaz ərəblərinin bir qurpu vəhhabiliyi qəbul etdilər. Bu da Şərif Qalibə çox ağır oturdu və o, böyük bir qüvvə ilə vəhhabilərin itaətinə keçən qəhtanlıları məğlub etmək üçün Məkkədən çıxdı. Lakin onların arasında baş verən müharibədə Şərif Qalib tab gətirə bilmədi və müharibəni dayandırdı. Artıq özünün yalqız qaldığını görən Şərif Qalib Hicaz qəbilələrinin çoxunun Əbdül-Əzizə qoşulduğunu, yaxud onun tərəfindən məğlub edildiyini görürdü. Xüsusilə, öz qardaşı da vəhhabiliyə iman gətirmiş və Əbdül-Əzizin hakimiyyətini qəbul etmişdi.”[1] Şərif Qalib və Əbdül-Əziz sülh müqaviləsi bağladılar və həcc yolu vəhhabilərin üzünə açıldı. Bu məsələ barəsində Cənab Fəqihi belə yazır:

“... Bu münasibətlə əlaqədar olaraq Nəcdin əmiri 1214-ci ildə və ondan sonrakı ildə həccə getdi. Bu da vəhhabi əmirlərinin yerinə yetirdiyi ilk həcc sayılırdı... 1215-ci hicri qəməri ilində Əbdül-Əziz öz oğlu Səud, eləcə də Nəcd köçəriləri və camaatından təşkil olunan bir qrupla Məkkəni ziyarət etmək və həcc əməllərini yerinə yetirmək məqsədilə Məkkəyə yola düşdü. Yol əsnasında Əbdül-Əziz çox yorğun olduğuna görə qayıtdı. Oğlu Səud həcc əməllərini yerinə yetirdi və Məkkədə Şərif Qalib ilə görüşüb müəyyən danışıqlar apardı.[2]

Əbdül-Əziz Səudi ilə Bağdad valisinin arasında baş verən razılaşmalar, digər tərəfdən də Şərif Qaliblə bağlanan saziş nəticəsində Əbdül-Əziz öz ərazilərini Bəhreyn, Əmman və Fars körfəzi əyalətlərinə doğru genişləndirməyə fürsət tapdı.

Vəhhabilər qarşıya çıxan şəraitdən bəhrələnərək Salim Əl-həriq adlı bir

---

[1] Həmin mənbə, səh.26 27

[2] Fəqihi Əliəsğər. “Vəhhabilər”, “İntişarati Səba”, Tehran, 1352, 1-ci çap, səh.300 -301

nəfərin sərkərdəliyi ilə Əmmana qoşun göndərdilər. Ali-Xəlifənin köməyi ilə Bəhreynin Zübarə məntəqəsini Sultan Məsqitdən geri aldılar (1800-ci il). Sonra oranın hökmdarı Səqər Qasimi də vəhhabilərə tabe oldu (1801-ci il). Beləliklə, Vəhhabilər Fars körfəzi məntəqəsində böyük bir ərazidə öz nüfuzlarını genişləndirdilər və bir neçə il ərzində Bəhreyni, Əmman qəbilələrini, xüsusilə Casimi qəbiləsini öz itaətlərinə vadar edə bildilər.[1]

Vəhhabilərin Əbdül-Əziz Səudinin hakimiyyəti dövründə gördükləri işlərdən biri onların Kərbəla və Nəcəfə etdikləri hücumlardır. 1802-ci ilin aprel ayında Əbdül-Əzizin oğlu Səudun etdiyi hücumun səbəbi vəhhabi etiqadının islamın gövhəri ilə uyğun gəlmədiyini deyən şiələrdən intiqam almaq və onlarla daha artıq müharibə aparmaq idi. Onlar Kərbəlaya hücum etdilər və müqəddəs məkanları dağıtdıqdan sonra oranın əhalisinin çoxunu qılıncdan keçirdilər."[2] Vəhhabilərin üçüncü imam Həzrət İmam Hüseynin (ə) mütəhhər hərəmində törətdikləri cinayətlər və faciəli hərəkətlər dördüncü fəsildə qeyd olunacaqdır.

Vəhhabilər 1803-cü miladi ilində Nəcəfi-Əşrəfə hücum edib şəhəri mühasirəyə aldılar. Lakin camaatın kəskin müqavimət göstərdiyinə və möhkəm qalaların mövcud olduğuna görə oranı işğal edə bilmədilər.

Onlar 1216-cı hicri qəməri (1803) ilində Taif şəhərini, sonrakı ildə isə Məkkə və Mədinə şəhərlərini işğal etdilər. Taifdə kütləvi qırğınlar törətdilər. Məkkə və Mədinədə isə müqəddəs zərihləri dağıtdılar.[3] Vəhhabilər Hicaza hakim olduqdan sonra Şərif Qalibin qardaşı Şərif Əbdül-Muini Hicazda onun canişini təyin etdilər. Sonra Nəcdə qayıtdılar və öz ərazilərini Ehsada, Bəhreyndə və Küveytdə genişləndirməyə başladılar. Vəhhabi olmuş Ali-Səudun əraziləri bu dövrdə "Fəratın sahillərindən və Sirhan vadisindən başlayaraq Rəsul-Xeyməyə, Əmmana qədər, Fars körfəzi məntəqələrindən başlayaraq Hicazın bütün sərhədlərinə və Əsir məntəqəsinə qədər davam edirdi."[4]

Nəhayət vəhhabilərin ikinci əmiri Əbdül-Əziz ibn Məhəmməd İbn Səud 40 il işğalçılıq, qarətçilik, kütləvi qırğınlar və viranlıqlar törətdikdən sonra və vəhhabilərin Taifi işğal etdiklərindən sonra 1803-cü ildə qətlə yetirildi. Belə xəbər yayılmışdır ki, onu Hacı Hüseyn Səbzvari adlı bir şiə müsəlman qətlə yetirmişdir ki, bu da onun Kərbəlada törətdiyi

---

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.27

[2] Həmin mənbə, səh.27

[3] Vəhhabilərin Kərbəla, Nəcəf, Taif, Məkkə və Mədinədə törətdikləri cinayətlər dördüncü fəsildə müfəssəl şəkildə qeyd olunacaqdır.

[4] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.27

cinayətlərin cəzası hesab olunurdu.”[1]

Şiələr vəhhabiliyə qarşı böyük bir maneə olduğundan, onların vəhhabilərin təssübkeş və qarətçilik hərəkəti qarşısındakı qüdrət və əhəmiyyətini aşkar şəkildə görmək olar. Çünki zülm ilə mübarizə, hər növ ruhsuz, kor-koranə təəssüb və donuqluqla mübarizə aparmaq şiəliyin zatında gizlənmişdir.

Tarix boyu şiələr öz məsum imamlarından (ə) nümunə götürməklə (həm fərdi həyatda, həm də daxili və xarici siyasətdə) İslam və müsəlmanların əleyhinə tamam olan hər bir hərəkət qarşısında müqavimət göstərərək şəhadət həddinə qədər irəliləmiş, müsəlmanların və İslamın izzətini müdafiə etmişlər. Aydındır ki, onlar bu yolda Ələvi şiələrinin əzəmətini xətərə salan hər hansı bir hərəkətlə şiddətlə qarşılaşacaqdılar. Buna görə də şiələrin vəhhabilərin quru və ruhsuz hərəkətləri qarşısında müqavimətini nümunə olaraq göstərmək olar.

## *VƏHHABİLƏRİN SƏUD İBN ƏBDÜL-ƏZİZİN RƏHBƏRLİYİ DÖVRÜNDƏKİ CİNAYƏTLƏRİ (1803–1814)*

Səud ibn Əbdül-Əziz 1887-ci miladi ilində Məhəmməd ibn Əbdül-Vəhhabın təklifi ilə vəliəhdlik məqamına seçildi və atasının qətlindən sonra vəhhabiliyin rəisliyini öhdəsinə aldı. O, həm öz hökmranlığı həm də atasının dövründə müntəzəm olaraq ətraf məntəqələrə yürüşlər edir, vəhhabi ərazilərini genişləndirirdi. Buna görə də Səudi yazıçıları ona “Kəbir” ləqəbi vermişdilər.[2]

Səud ibn Əbdül-Əziz hakimiyyətə keçdikdən sonra böyük bir ordu yaradaraq öz ərazilərini genişləndirməyə, ətraf məntəqələrə hücum etməyə başladı. O, Bəsrəyə hücum edib o şəhəri mühasirəyə almaqdan əlavə, “Hicazda itaətsizlik edən bəzi qəbilələri məhv etməyə başladı, Təyma və Xeybəri işğal etdi, sonra da Əmman sərhədlərinə hücuma keçdi. Məsqitin əmiri Sultan ibn Həmid ibn Səid onunla qarşılaşmaq üçün Osmanlı dövləti ilə Ali-Səudun əleyhinə müttəfiq oldu. Lakin qətlə yetirildi. Bununla belə, Səudun Əmmanı və Fars körfəzinin cənub sahillərinin hər bir yerini ələ keçirmək üçün göstərdiyi səylər şərqi Hind kompaniyasının dəxaləti ilə məğlubiyyətə uğradı.”[3]

“Müasir islam hərəkatları” kitabının müəllifi bu barədə belə yazır: “Vəhhabilər əmir Səudun rəhbərliyi dövründə Fars körfəzinin bütün məntəqələrindəki nüfuzlarını genişləndirməyə başladılar, Bəhreyni və Küveyti işğal etdilər (1803), sonra isə sahil şəhərlərini ələ keçirdilər.

---

[1] Fuiyə Klevd, “Nizamo Ali-Səud”, səh.23

[2] Fəqihi Əliəsğər. “Vəhhabilər”, “İntişarati Səba”, Tehran, 1352, 1-ci çap, səh.176

[3] “Böyük İslam Enskilopediyası”, 2-ci cild, səh.27

Əmman məntəqələrinin əhalisi də vəhhabiliyi qəbul etdi. Şərqi Hind kompaniyasının himayəsi altında olan Məsqitin hakimi ilə də çarpışma baş verdi. Lakin onun qarşısında məğlubiyyətə uğradıqdan sonra (1806) qərara aldılar ki, İngilisin şərqi Hind kompaniyasının əmlakına və bayrağına ehtiram qoysunlar.”[1]

Burada diqqət yetirilməli məsələ Britaniya müstəmləkəçilərin məntəqədə yerləşməsi idi. İngilislər vəhhabiləri himayə etmələrinə baxmayaraq, hər yerdə onların həmlələri Britaniyanın mənafeyini xətərə salsaydı dərhal onlara xəbərdarlıq edir və onların mənafeyinə riayət edilməsinin zərurətini xatırladırdı.

Səudun rəhbərliyi dövründə baş verən mühüm hadisələrdən biri vəhhabilərin onun başçılığı ilə müqəddəs Kərbəla şəhərinə hücum etməsidir. 1806-cı ildə baş verən bu dəhşətli hücum şəhər camaatının kəskin müqaviməti ilə qarşılaşdı və qalalardakı istehkamlara görə vəhhabilər məğlubiyyətə uğradı. Səudun hakimiyyəti dövründə digər mühüm məsələ vəhhabilərin Hicazda ərazi iddiaları idi. Onlar Hicaza hücumlarının davamında Məkkeyi-Mükərrəmə və Mədineyi-Münəvvərə şəhərlərini işğal etdilər (1805–1806), Şərif Qalib naçar qalıb onlara itaət etməyi qəbul etdi. Buna görə də öz yerində qaldı. Onlar daha sonra Yənbu limanını ələ keçirdilər. Lakin Nəcran, Cəddə və Şamı ələ keçirməkdə müvəffəq olmadılar. Cənab Fəqihi Səudun dövründə vəhhabiliyin Hicazda necə genişləndirməsi ilə əlaqədar belə yazır: “... Səudun dövründə vəhhabi məzhəbi Hicaz nahiyəsində də yayılırdı. Çünki Şərif Qalib özünün Hicazda qalan nüfuzunu qoruyub saxlamaq istədiyinə görə vəhhabilərin qarşısında tam mənada təslim oldu və bu da vəhhabi məzhəbinin Hicazda yayılmasına gətirib çıxardı...”[2]

Səudun Hicazda ərazi idialarındakı əsas məqsədi “Məkkənin şərafətli adamlarının nüfuzunu azaldıb onları aradan götürmək, eləcə də məntəqədə Osmanlı hakimlərinin nüfuzunu xətərə salmaq idi.” Buna əsasən, o, Hicazı ələ keçirdikdən sonra ilk növbədə Məkkə şəriflərinin nüfuzunu azaltmaq üçün onları özünə tabe etdirdi, sonra Osmanlı Sultanı ilə müxalifət etmək üçün onun adını xütbələrdən çıxartdırdı. Məkkə və Mədinənin qazisini şəhərdən çıxardı (o, Osmanlı Sultanı tərəfindən bu iki şəhərdə qəzavət məqamını öhdəsinə almışdı).

Hakimiyyətinin dairəsi Qırmızı dənizdən Fars körfəzinə qədər genişlənən Səud Şamın (Hələb, Dəməşq və sair yerlərin) görkəmli şəxsiyyətlərinə məktub yazmaqla onlardan vəhhabi ayinini qəbul etmələrini istədi və bac-xərac vermələrini tələb etdi.

[1] Müvəssəqi Seyyid Əhməd. “Conbeşhayi İslamiye müasir”, 1364-cü il, səh.146

[2] Fəqihi Əliəsğər. “Vəhhabilər”, “İntişarati Səba”, Tehran, 1352, 1-ci çap, səh.347

Bundan əlavə, o, Hələb şəhərinin ətraf kəndlərinə hücum etdi, Fələstin diyarının sərhədlərinə qədər irəlilədi və Xəzrə-movtu mühasirəyə aldı. Səudun Şamı, İraqı və Fələstini vəhhabiləşdirmək üçün göstərdiyi səylər məğlubiyyətə uğradı.

Səudun Hicazın, Şamın, İraqın, Fələstinin müxtəlif ərazilərinə hakim kəsilmək üçün göstərdiyi səylər, müxtəlif qəbilələrdə kütləvi qırğınlar törədib camatın mal-dövlətini qarət etməsi, öz şəxsi nəzərinə görə onların bütpərəstlik təzahürləri olan adət-ənənələrini məhv etməsi, qədim etiqadlarda qalmağı təkid edən ruhaniləri edam etməsi və sair işləri müxtəlif məntəqələrdə vəhhabilərin əleyhinə qiyamlara səbəb oldu.

Vəhhabilərin Ərəbistan yarımadasındakı irəliləyişləri və onların Məkkə və Mədinəyə hakim kəsilmələri özünü şərif hərəmlərin (Məkkə-Mədinənin) mühafizəçisi hesab edən Osmanlı Sultanı üçün ağır başa gəldi. Çünki Sultanın etibar və heysiyyətinə xələl gəlirdi. Buna görə də Babi-Aliye-Osmani bu çətinlikdən çıxmaq üçün çarə düşünməyə balşladı. Bu məqsədlə 1806-cı ildə Misirin hakimi Məhəmməd Əli Paşanı vəhhabiləri məğlub edib Məkkə və Mədinədən çıxarmaq üçün şərif Hərəmlərə göndərdi.

Osmanlı Sultanın vəhhabilərlə qarşılaşmaq üçün Misirin Paşasına verdiyi fərmandan Məhəmməd Əli Paşanın onların əleyhinə əməli tədbirlər gördüyü vaxta qədər altı il keçməsinə baxmayaraq bu tədbiri sürətləndirən şey vəhhabilərin Hicazın, Şamın, İraqın ətraf məntəqələrində törətdiyi hücumları, qətl və qarətləri idi. Bu barədə "Böyük İslam Enskilopediyası" kitabında belə deyilir: "...Özünün müntəzəm olmayan müharibələrindən, ərəb əmirlərinin Ali-Səudun nüfuzu ilə qarşılaşmaq üçün təhriklərindən və vəhhabiyyətdən şiddətli təhlükə hiss edən Babi-Ali, Məhəmməd Əli Paşadan onlarla müharibəyə qalxmasını istədi. 1811-ci ilin oktyabrın axırlarında və ya noyabrın əvvəllərində Misir qüvvələri Tosun paşanın sərkərdəliyi ilə (o, Məhəmməd Əlinin oğlu idi) ilk hücumlarını başladılar.[1]

Misirlilərin vəhhabilərə hücumları ilk mərhələdə məğlubiyyətlə qarşılaşdı. Amma onlar öz qüvvələrini tez bir zamanda nizama salıb yardımçı qüvvələrin gəlişindən sonra vəhhabilərə hücum edib onları ağır tələfatlara düçar etdilər. Özünü Misir qoşunlarının qəfil hücumları qarşısında görən Səud heç bir iş görə bilmədi. Onlarla sülh bağlamağa çalışdı, amma onun səyləri heç bir nəticə vermədi. Nəhayət Səud ibn Əbdül-Əziz 28 aprel 1814-cü ildə 68 il nikbətli ömür sürdükdən, İslam və müsəlmanlar üçün çoxlu çətinliklər yaratdıqdan sonra prostat vəzində

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild səh.27

iltihaba mübtəla olaraq Diriyyədə öldü.[1]

Səudun barəsində bunu qeyd etmək kifayətdir ki, o Məhəmməd ibn Əbdül-Vəhhab məktəbinin yetirməsi idi və onun yanında iki il dərs oxumuşdu, üstəlik, "vəhhabilikdə öz atasından da təəssübkeş idi. O, müsəlmanların Allah evini ziyarət etməsinə mane olur, öz müxaliflərini kafir hesab etməkdə həddini aşırdı." [2] Nəhayət, İslam və müsəlmanlara, xüsusilə şiə aləminə bir ömür xəyanət və zülm etdikdən, günahsız insanları qətlə yetirib mal-dövlətlərini qarət etdikdən sonra sağalmaz bir xəstəliyə tutularaq öldü.

## *VƏHHABİLƏRİN ƏBDÜLLAH İBN SƏUDUN HAKİMİYYƏTİ DÖVRÜNDƏKİ CİNAYƏTLƏRİ (1814-1818)*

Əbdüllah İbn Səud atasının ölmündən sonra hakimiyyətə keçdi. Əxlaqi xüsusiyyətlərinə görə vəhhabiliyi müdafiə etməkdə ən inadkar adam idi.[3] Bu yolda çox çalışdı, amma onun Misir və Osmanlı qüvvələri ilə qarşılaşması özünün ərazi iddalarını davam etdirərək başqa məntəqələrə hakim kəsilməsinə fürsət vermədi.

Əbdüllah hakimiyyətə çatdıqdan sonra misirlilərin (vəhhabilərin əleyhinə olan) hücumları ilə qarşılaşdı. Həqiqətdə vəhhabilər özlərinin təxribatçı hücumları ilə İraqın daxilinə, eləcə də Məkkə və Mədinə kimi müqəddəs məkanlara hücum etməklə Ərəbistanın sair yerlərində Sultanın iqtidar və etibarını xətərə saldılar.[4] Buna görə də Məhəmməd Əli Paşa Osmanlı sultanının fərmanı ilə vəhhabilərin əleyhinə (Səudun dövründə) tədbir gördü.

Əbdüllah qüdrətə çatdığı zaman misirlilərin ardıcıl həmlələri qarşısında çox çətinlik çəkirdi. Bu zaman Məhəmməd Əli Paşa və onun oğlu Tosun Paşa vəhhabilər əleyhinə olan hücumlarını genişləndirdilər. Əbdüllahın hakimiyyətinin ilk ilində onun qardaşı Feysəl Misir ordusu qarşısında ağır məğlubiyyətə uğradı, Məhəmməd Əli Türbəti işğal etdikdən sonra Əsirə hücum etdi.[5] Amma bir qədər sonra Məhəmməd Əli ona çatan xəbərlərdən qorxduğuna görə, Misirdə əmin-amanlığın olmaması və qiyam ehtimalı verildiyinə görə Misirə qayıtdı və vəhhabilərlə müharibənin davam etdirilməsini Tusun Paşaya tapşırdı (1815). Tusun

[1] Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.253

[2] Əmini Məhəmməd Hadi. "Tarixi Məkkə" (Möhsin Axundinin tərcüməsi), səh.171

[3] Əl-əmin, Möhsin. "Tarixçe və nəqd və bərrəsiye əqaid və amali vəhhabiha", səh.57

[4] Stanford, "Tarixi imperatoriye Osmani və Türkiyeyi cədid" (Mahmud Ramazanzadənin tərcüməsi), səh.438

[5] "Böyük İslam Enskilopediyası", 2-ci cild səh.27

Paşa öz hücumlarını davam etdirdi və həmin ildə Nəcdə gedərək Rəsul-Meynəni tutdu.

Sonra Əbdüllah onun qarşısında bir iş görə bilmədiyi üçün onunla saziş bağladı. "Saziş bu əsasda bağlandı ki, Əbdüllah Osmanlı Sultanının Ali rəhbərliyini rəsmi olaraq tanısın və Misirin hakimiyyətinə itaət etsin."[1] Sonra Tosun Qahirədə qiyam xəbərinin yayılmasının ardınca oraya qayıtdı və "1231-ci hicri qəməri ilində taun xəstəliyindən vəfat etdi.[2] Vəhhabilərlə sülh bağlamaqdan narazı olan Məhəmməd Əli Paşa digər bir oğlu – İbrahim Paşanı vəhhabilərlə müharibəyə göndərdi ki, onların işini qurtarsın." İbrahim öz hücumlarını 1816-cı ildə başladı və Qəsimin cənub şəhərlərini və Nəcdi biri digərindən sonra öz ixtiyarına keçirdi."[3] Bundan sonra Nəcd məntəqəsində misirlilərlə vəhhabilərin arasında baş verən ən mühüm və müqəddərati müharibədə Diriyyənin şəhər darvazasına çata bildi. İbrahim Paşa oranı "1818-ci ilin aprel ayından etibarən mühasirəyə aldı və bu mühasirə beş ay davam etdi. Nəhayət oranı öz əlinə keçirdi."[4] Klevd Fuiye Diriyyənin işğal edilməsindən sonrakı hadislərlə əlaqədar yazır: "Diriyyə yerlə yeksan edildi, xurma bağları tamamilə dağıdıldı, Ali-Səudun böyük iddiaları bu mərhələdə sona çatdı."[5]

Sonra İbrahim Paşa Əbdüllahı ailəsi ilə birlikdə Qahirəyə göndərdi. Məhəmməd Əli Paşa da onu 1434-cü ilin məhərrəm ayının 19-da yoldaşları ilə birlikdə İstanbula, Osmanlı xəlifəsinin yanına göndərdi. Osmanlı dövləti onları şəhərdə gəzdirdi və Əbdüllahı "Humayun" babında, qalanlarını isə başqa yerlərdə dağıtdılar (1818-ci ilin dekabr ayı)."[6] Əlbəttə, sürgün olunanlardan bəziləri Misirə göndərildi və orada həbs edildilər. Sonra İbrahim Paşa Müşari ibn Əbdüllahı Nəcdə hakim və misirli bir Paşanı da Hicazın hakimiyyətinə təyin etdi. Özü isə 1819-ci ilin ortalarında Misirə qayıtdı.

İbrahim Paşanın Nəcddən çıxmasından sonra Müşari vəhhabilərin rəhbərliyini öhdəsinə aldı və özünün Diriyyədəki mövqeyini möhkəmlədə bildi. Amma onun sonradan gördüyü tədbirlər, yəni Üyeynənin əmiri Müəmmərlə qarşılaşmaq və misirlilərin əleyhinə olan digər fəaliyyətləri Məhəmməd Əli Paşanın Misirdən Hüseynbəyi,

---

[1] Həmin mənbə, səh.27

[2] Əl-əmin, Möhsin. "Tarixçe və nəqd və bərrəsiye əqaid və amali vəhhabiha", səh.59

[3] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.28

[4] Həmin mənbə, səh.28

[5] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.23

[6] Əl-əmin Möhsin. "Tarixçe və nəqd və bərrəsiye əqaid və amali vəhhabiha", səh.61

Müşarini məğlub etmək üçün göndərməsinə səbəb oldu və o da Müşarini tutub Misirə göndərdi. Lakin Müşari yol əsnasında öldü.[1] Daha sonra misirlilər tərəfindən təyin olunan hakim Diriyyəyə hökmranlıq etdi.

Bu barədə diqqət yetirməli məsələ İngilis nümayəndələrinin, İbrahim Paşa ilə vəhhabilərə qələbə çaldıqdan sonra görüşləri idi. "Gahşomare ruyidadhayi tarixi müasiri Xavərmiyane" məcmuəsində 1819-cu illərin hadisələri bəyan olunan zaman qeyd olunur ki, bu ildə kapitan Sadlir İngiltərənin Bombeydəki nümayəndəsi ünvanı ilə İbrahim Paşa ilə görüşdü və misirlilərin fəthləri münasibətilə onu təbrik etdi. Rəsul-Xeyməni ələ keçirmək üçün həmkarlıq etməyi təklif irəli sürdü. Bu da göstərir ki, Britaniya müstəmləkəçiləri öz nüfuzlarına qanunilik bağışlamaq üçün misirlilərlə həmkarlıq təklifini irəli sürmüşdülər. Həqiqətdə öz məqsədlərinə çatmaq istəyən Britaniya müstəmləkəçiləri hər yerdə bu mənafe daha artıq təmin olunurdusa ora doğru meyl göstərirdilər. Buna əsasən, bu dövrdə misirlilər Hicaza və Nəcdə hakim kəsildiklərindən, Fars körfəzi sahillərini və Əmman dəryasını qərargah seçən ingilislər təhlükə hiss edərək qərara aldılar ki, müəyyən yollarla İbrahim Paşanın bundan artıq yerlərə göz dikməsinin qarşısını alsınlar (o yerlərə ki, Britaniyanın mənafeyini təhlükəyə salırdı).

Misirlilərin Mutan döyüşü nəticəsində Diriyyəyə hakim kəsilməsi ilə vəhhabi hökmranlığının ilk dövrü sona çatdı və vəhhabilərin arasında və ümumiyyətlə, Nəcd məntəqəsindəki qiyamlara, iğtişaşlara, ixtilaf və təfriqələrə şamil olan bir dövran başlandı ki, bu da vəhhabilərin ikinci dəfəki hakimiyyət dövrlərinə qədər davam etdi.

## *VƏHHABİ HÖKMRANLIĞININ İKİNCİ DÖVRÜ*

### *VƏHHABİLƏRİN İBN RƏŞİDİN NƏCDƏ HAKİM OLDUĞU DÖVRƏ QƏDƏRKİ QÜDRƏTİ*

Misirlilər Nəcddən çıxdıqdan və Diriyyə dağıdıldıqdan sonra orada hərc-mərclik və iğtişaş hökm sürürdü. Klevd Fuiye bu barədə yazır: "...Osmanlılar müqəddəs İslam məkanlarına hakim kəsildikdən sonra türklər, adətləri üzrə, Ərəbistanın daxili məntəqələrinə etinasız yanaşdılar."[2] Bu şərait nəticəsində Nəcdin daxili vəziyyəti iğtişaşlı idi və vəhhabilər yenidən qüdrətə çatmaq üçün bir daha səy göstərirdilər.

Vəhhabilərin birinci və ikinci hikmranlıqları arasındakı zaman dövründə yadellilər bu iğtişaşlardan və hərc-mərclikdən istifadə etdilər. Belə ki, "daxili vəziyyətin çox ciddi bir iğtişaşla, böhranla üzləşdiyi 1235-ci h.q ilində ingilislərin dəniz qoşunlarından bir qismi topla təchiz

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.28
[2] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.24

olunmuş hərbi gəmilərlə birlikdə Rəsul-Xeyməyə hücum edərək şəhəri işğal etdilər. Camaat qaçdı. İngilislər şəhəri dağıtdılar."[1]

Diriyyənin misirlilər tərəfindən viran edilməsindən təqribən üç il sonra Türki ibn Əbdüllah bir sıra lazım və zəruri imkanlardan istifadə etmək, eləcə də mövcud hərc-mərclikdən, böhran və iğtişaşlı vəziyyətdən sui-istifadə edərək Riyaz qalasında özü üçün qərargah yaratmaq fikrinə gəldi. Bu qala Diriyyənin 25 km-liyində yerləşirdi. Sonralar həmin yer vəhhabilərin strateji və texniki bazalarına çevrilmişdi.

Bu bölmədə Riyaz şəhərində ikinci vəhhabi hökumətinin təşkil olunmasından İbn Rəşidin oraya hakim kəsildiyi dövrə qədər vəhhabilərin yaşadığı şərait araşdırılacaqdır.

## *TÜRKİ İBN ƏBDÜLLAH (1821-1834)*

Türki ibn Əbdüllah misirlilərin Diriyyəyə hücum etdikləri zaman Südeyir şəhərinə qaçdı və Müşarinin ölümündən sonra Üyeynənin əmiri İbn Müəmmərlə döyüşdü və nəhayət, vəhhabilərin 1821-ci ildə törətdikləri cinayətlərə qarşı edilən qiyamlar nəticəsində vəhhabilərin rəhbərliyini əlinə aldı. Misirlilər tərəfindən təyin olunan hakimi işdən götürdükdən sonra Diriyyədə ikinci dəfə olaraq vəhhabi hökumətini yaratdı.

Osmanlılar da Türki ibn Əbdüllahı məğlub etmək üçün Hüseyn bəyin sərkərdəliyi ilə bir qoşun göndərdilər. O Diriyyəni və Riyazı ələ keçirdi, Türki də Riyazdan qaçdı (1820-1821).

Türki iki il sonra misirlilərin Nəcddəki zəifliklərindən istifadə etməklə, eləcə də vəhhabilərdən kömək almaqla Riyazı ələ keçirdi. Buna əsasən, "onun hökuməti ilə qüdrət Əbdül-Əziz ibn Məhəmməd sülaləsindən Əbdüllah ibn Məhəmmədin sülaləsinə keçdi. O, 1827-ci ildə misirliləri Şəmmərdən qovub çığardı və Hailin əmiri Saleh ibn Əli və Şəmmərin əmiri ilə sülh bağladı. 1830-cu ildə Ehsanı işğal etdi. Daha sonra Bəhreyn, Qətər və Əmmana doğru üz tutdu."[2] O, öz hökmranlığı dövründə daim müharibə aparır və ətraf məntəqələrin əhalisi ilə döyüşürdü. Nəhayət 1834-ci ildə Məhəmməd Əli Paşa tərəfindən təchiz və himayə olunan Müşari ibn Əbdür-Rəhmanın əli ilə qətlə yetirildi.

## *MÜŞARİ İBN ƏBDÜR-RƏHMAN İBN MÜŞARİ*

Müşari, İbrahim Paşanın Misirə sürgün etdiyi adamlardan biri idi. O, Misirdə böyüyüb boya-başa çatdı və Məhəmməd Əli Paşanın etdiyi

---

[1] Qəzvini Məhəmməd Hüseyn. "Firqeyi vəhhabi və pasoxe şübhəhaye anha", səh.52

[2] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.28

himayələr nəticəsində qüdrəti Türkinin əlindən aldı, özü də bir neçə müddət vəhhabilərin rəisi oldu.

Müşarinin qüdrəti necə ələ keçirməsi barəsində "Böyük İslam Enskilopediyası" kitabında belə qeyd olunur: "... Türkinin işi şiddətləndikdə Məhəmməd Əli Paşa onunla qarşılaşmaq üçün Müşarini öz himayəsi altına keçirdi. Müşari 1826-cı ildə Nəcdə daxil oldu, Türki ibn Əbdüllah onu çox mehriban qarşıladı və Mənfufənin rəisi təyin etdi. Lakin bir qədər sonra onu vəzifəsindən azad edərək Riyaza qaytardı. Türkinin hakimiyyətinə tamah gözü dikən və zahirdə onun Mənfufə hökmranlığından çıxarılmasına səbəb olan Müşari Məkkəyə, Şərif Məhəmməd ibn Ovnun yanına getdi. Amma kömək tapmadığı zaman Türkinin yanına qayıtdı və peşmançılığını bildirdi. Lakin sonrakı il misirlilərin himayəsi ilə Əmir Türkini qətlə yetirdi və özü hökumət kürsüsünə əyləşdi."[1]

Həqiqətdə biz vəhhabi rəhbərliyinin ikinci dövründə – misirlilərin onlarla qarşılaşmasında siyasətin dəyşildiyinin şahidi oluruq. Bu dövrdə, əvvəlki dövrün əksinə olaraq, (misirlilər vəhhabilərin əleyhinə birbaşa hərbi tədbirlər görürdülər) qədimdən mövcud olan "təfriqə sal və hökm sür" siyasətinin misirlilər tərəfindən icra olunduğunu görürük. Onlar Ali-Səudun yaxın adamlarından bəzilərinin himayəsi ilə çalışırdılar ki, bu dövrdə Nəcd məntəqəsinə və vəhhabilərə hakim kəsilsinlər. Amma onun özü heç vaxt Nəcd xüsusi çoğrafi mövqeyinə görə (istər qeyri-münasib abu-hava və iqlim şəraitinə, istərsə də coğrafi şəraitə görə) uzun müddət orada qala bilmədi və buna görə də yeni siyasəti icra etməklə heç olmazsa öz məqsədlərini müəyyən qədər həyata keçirə bilərdi.

Vəhhabi hakimiyyətinin ikinci dövründə onların arasında təfriqə və ixtilafların olduğunu görürük. Bunun özü də bu dövrdə vəhhabi hökumətlərinin möhkəmlənməməsinin əsas amilidir. Belə ki, 1236-1319-cu h.q illərində (Əbdül-Əziz ibn Əbdür-Rəhman bu dövrdə vəhhabilərin qüdrətini yenidən dirçəldə bilmişdi) 12 vəhhabi əmiri biri digərindən sonra hakimiyyətə keçdi. (Onların əksəriyyəti qısa müddətdə hakimiyyətdə olmuşdular).

Həqiqətdə vəhhabilərin ikinci hakimiyyət dövründə daxildə stabilliyin olmamasının səbəbi daxili problemlər və ixtilaflardan əlavə osmanlıların, misirlilərin və Ali-Rəşidin məntəqədəki fəal siyasətləri idi. Onlar çalışırdılar ki, vəhhabilərin qüdrətinə son qoysunlar. Çünki vəhhabilər (müqəddəs islam məkanlarına qarşı hörmətsizlik etdiklərinə görə) Osmanlı sultanının etibar və heysiyyətini təhlükəyə salmışdılar və misirlilərin vəhhabilərə qalib gəlməsi Osmanlı Sultanından Şam və onun

[1] Həmin mənbə, səh.28

ətraf məntəqələrində imtiyaz əldə edilməsinə səbəb olurdu. Nəcdə hakim olmaq istəyən vəhhabilər kimi güclü bir qoşunun varlığına dözə bilməyən Ali-Rəşid də müxtəlif yollarla onları məhv etməyə çalışırdı.

Bu dövrdə Britaniyanın məkrli və gizli siyasətləri də nəzərdən qaçırılmamalıdır. İngilislər Nəcdin müxtəlif məntəqələrində yaranan müəyyən zaman-məkan şəraitlərində müəyyən rol oynayırdılar. Onlar gizli şəkildə vəhhabiləri gücləndirir və osmanlılar tərəfindən onların məhv edilməsinin qarşısını alırdılar.

Əvvəldə işarə edildiyi kimi, Müşari 1248-1249-cu h.q illərində iqtidarı Türkidən alaraq vəhhabilər üzərində rəhbərliyi öz öhdəsinə aldı. Amma onun hakimiyyəti çox da uzun sürmədi və qırx gündən (başqa nəzərə görə iki aydan) sonra onun qətli ilə eyni zamanda Feysəl ibn Türki vəhhabilərə hökmranlığı öhdəsinə aldı.

### *FEYSƏL İBN TÜRKİ (1834-1838)*

Feysəl də Misirə sürgün olunan vəhhabilərdən biri idi. Bir nəzərə görə o, 1827-ci ildə Misirdən qaçıb Nəcdə gələ bilmişdi. Daha sonra o, öz atasının qoşununun sərkərdəliyini öhdəsinə almış və vəhhabilərin müxalifləri əleyhinə müharibəyə başlamışdı. Türki Müşarinin əli ilə qətlə yetirildiyi zaman Feysəl Qətif nahiyəsində, Ali-Səud və vəhhabilərlə müxalif olan əmirlərlə mübarizə aparırdı. Bu zaman sürətlə Riyaza doğru qayıtdı və atasının intiqamını aldıqdan sonra vəhhabilərə rəhbərliyi öz öhdəsinə aldı. Feysəlin bu tədbiri osmanlılar və misirlilərlə birbaşa qarşılaşmaq sayılırdı, çünki o, onlar tərəfindən təyin olunan hakimi qətlə yetirmişdi. Buna görə də Məhəmməd Əli Paşaya əmr olundu ki, Osmanlı və Misir qoşununun başında olaraq bir daha vəhhabiləri cəzalandırsın.

Qeyd olunmalıdır ki, ingilislər bu dövrdə "Fars körfəzi sahillərində bir müddət ciddi fəaliyyətə başlamış və həmin dövrdə Yəmənin fəal mərkəzlərindən olan Qırmızı dənizdə və Ədən körfəzində qərarlaşmışdılar."[1] İngilis müstəmləkəçiləri də hadisələrin gedişatına yaxından nəzarət edir və bunun ardınca özlərinin əlaltısı olan hakimləri məntəqədə yerləşdirmək istəyirdilər.

"Osmanlılar Yəməni fəth etmək və ingilislərlə qarşılaşmaq üçün dörd ordu göndərdilər. Bu qüvvələrə göstəriş verilmişdi ki, Ərəbistanın inadkar qəbilələrini də məhv etsinlər."[2]

Misir və Məhəmməd Əli Paşa tərəfindən göndərilən orduların bir qismi Xurşid Paşanın sərkərdəliyi ilə Nəcddən keçərək Deyləm çölündə Feysəli məğlub etdi. Bu dəfə misirlilər Xalid İbn Səudu himayə edirdilər.

---

[1] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.24-25.

[2] Həmin mənbə.

Feysəl tutulduqdan və Misirə sürgün edildikdən sonra o, vəhhabi hökumətinin rəhbərliyini öhdəsinə aldı (1839) və misirlilər yenidən Riyaz, Ehsa və Qətifə hakim kəsildilər.

### *XALİD İBN SƏUD (1840-1842)*

Xalid İbn Səud misirlilərin himayəsi ilə öz rəqibinə qalib gələ bildi. O, təqribən iki il müddətində vəhhabilərə hökmranlıq etdi və misirli qüvvələr Nəcddən çıxdıqdan sonra sair rəqibləri ilə döyüşə başladı. Bu zaman Əbdüllah ibn Sənyan ibn İbrahim (o, vəhhabilər tərəfindən himayə olunurdu) fürsəti qənimət sayaraq Xalidin əleyhinə qiyam etdi və nəhayət 1258-ci h.q ilində Xalidə qalib gəldi, onu Riyazdan çıxardıqdan sonra vəhhabilər üzərinə hökmranlığı öz öhdəsinə aldı. Xalid də Cəddədə məskunlaşdı. Nəhayət 1861-ci ildə dünyadan getdi. Onun hökmranlıq illəri vəhhabilərin arasında ixtilaf və təfriqənin baş alıb getdiyi, onların əksər hallarda daxili çətinliklərlə üzləşdiyi dövrə təsadüf edirdi.

### *ƏBDÜLLAH İBN SƏNYAN İBN İBRAHİM (1842-1843)*

Vəhhabilərin köməyi ilə qüdrəti ələ alan Əbdüllah ibn Sənyan da hakimiyyət kürsüsündə uzun müddət qala bilmədi. Təqribən bir ildən sonra Feysəl ibn Türki Riyazı mühasirə edərək ona qələbə çaldı və nəhayət, o da zindanda vəfat etdi.

Aydındır ki, Diriyyənin 1334-cü h.q ilində süquta uğramasından sonra həm Nəcd məntəqəsində, həm də vəhhabilərin arasında iğtişaş və hərc-mərclik hökm sürürdü. Qüdrət iddiaçıları bir-biri ilə rəqabətə başlamışdı. Buna görə də onlardan heç biri uzun müddət hakimiyyətdə qala bilmədilər. Digər tərəfdən də Nəcdin qeyri-münasib və gərgin vəziyyəti Ali-Rəşidin, osmanlıların, misirlilərin və ingilislərin xarici siyasətlərini fəallaşdırdı və onların Nəcdin, xüsusilə vəhhabilərin daxili işlərinə nüfuz etməsini sürətləndirdi.

### *FEYSƏL İBN TÜRKİ (1843-1865)*

Feysəl Nəcddə ilk hökmranlığından beş il əvvəl bir daha vəhhabilərə rəhbərliyi öhdəsinə almışdı. Misirdə həbsdə olduğu zaman oradan qaçdı və bir nəzərə görə, Misir padşahlarından birinin köməyi ilə zindandan qaçıb bir daha Nəcddə vəhhabilərə hökmranlığı əlinə aldı.

Cənab Fəqihi Feysəl barəsində belə yazır: "...Feysəl Ali-Səudun iqtidarlı və tədbirli əmirlərindən biri idi. O, yaranmış fitnəni müvəqqəti olaraq sakitləşdirdi və bir neçə illik hərc-mərcliyin ardınca əmin-amanlıq və aramlıq bərqərar etdi. Sonra öz əhatə dairəsini genişləndirdi."[1] O,

[1] Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.367

1846-cı ildə “Osmanlıların Ali ağalığını və onlara xərac verməyi qəbul etdi və Ali-Səudun Nəcd əyalətindəki hökmranlığını möhkəmləndirə bildi.[1] Feysəlin daxili və xarici siyasət baxımından öz hökmranlığını davam etdirməsi üçün çalışmasına baxmayaraq, qısa müddətdən sonra “Nəcd və onun ətraf məntəqələrində yenidən iğtişaşlar, ixtilaflar və narazılıqlar yarandı.”[2] Feysəl onları yatırtmaq üçün çox çalışdı, lakin müsbət nəticə əldə edə bilmədi. Onun 1865-ci ilin dekabr ayında ölməsindən sonra vəhhabilərin hökumətində daxili ixtilaflar və çəkişmələr hələ də qalmaqda idi və (Feysəlin nəvəsi) Əbdül-Əziz qüdrətə çatdığı vaxta qədər bu ixtilaflar davam etdi.

Nəhayət, Feysəl 23 il hökmranlıqdan sonra 1865-ci ildə dünyadan getdi və oğlu Əbdüllah ibn Feysəl onun yerinə keçdi.

## *ƏBDÜLLAH İBN FEYSƏL İBN TÜRKİ (1865-1871)*

Feysəlin ölümündən sonra oğlu Əbdüllah Riyazda qüdrəti öhdəsinə aldı, amma onun rəhbərliyinin ilk dövrlərindən onunla qardaşı Səud arasında vəhhabilərə hakimiyyət məsələsi barədə ixtilaflar dərinləşdi. Xərc və Əflah nahiyələrində hökmranlıq edən Səud ibn Feysəl Əbdüllahın əleyhinə qiyam etdi və Həfufu ələ keçirə bildi.

Səudun hücumlarının daha da genişlənmə ehtimalı verildiyi zaman Əbdüllah onun qarşısında bir iş görə bilmədi və əvvəlcə Ğənizədə ibn Səlimin yanına, daha sonra Haildə ibn Rəşidin yanına pənah apardı (bunların hər ikisi vəhhabilərin düşmənlərindən sayılırdı) ki, onların köməyi ilə yenidən qüdrətə keçsin. Amma ona bu cəhətdən kömək olunmadığından Bağdadın hakimi Midhət paşanın yanına getdi ki, heç olmazsa bu yöndən öz bəxtini sınasın. Midhət Paşa Əbdüllahın ixtiyarına bir qədər qoşun verdi ki, qardaşı Səudun əleyhinə istifadə etsin. Amma o, təkcə Ehsanı öz ixtiyarına keçirə bildi, lakin Riyazı ələ keçirmək üçün göstərdiyi cəhdlər nəticə vermədi və nəhayət altı il rəhbərlikdən sonra onunla qardaşı Səud arasında ixtilafların kəskin şəkildə davam etdiyi bir dövrdə öz yerini qardaşına verdi.

## *SƏUD İBN FEYSƏL İBN TÜRKİ (1871-1874)*

Feysəlin ölümündən sonra Səud Xərc və Əflaha hakim idi. Qardaşı Əbdüllah da Riyazda qüdrəti ələ aldıqdan sonra onun əleyhinə qiyam etdi və özü vəhhabilərin qüdrət kürsüsünə oturdu. “Onun dövründə Nəcd Ali-Səudun hakimləri arasında bölüşdürüldü.”[3] Vəhhabilərin arasında

[1] “Böyük İslam Enskilopediyası”, 2-ci cild, səh.29
[2] Fəqihi Əliəsğər. “Vəhhabilər”, “İntişarati Səba”, Tehran, 1352, 1-ci çap, səh.367
[3] “Böyük İslam Enskilopediyası”, 2-ci cild, səh.29

ixtilaf və təfriqə günbəgün artırdı, amma Səud çalışırdı ki, Ehsanı əlinə keçirsin. Lakin bu işdə müvəffəqiyyət əldə edə bilmədi və nəhayət Üyeynəni ələ keçirmək üçün İbn Rəbian ilə apardığı müharibədə yaralanıb Riyaza qayıtdı, 1874-cü ildə dünyadan getdi.

## *ƏBDÜLLAH İBN FEYSƏL İBN TÜRKİ (1875-1887)*

Səudun ölümündən sonra qardaşı Əbdüllah ikinci dəfə olaraq vəhhabilərin rəhbərliyini öhdəsinə aldı. O, 1296-cı hicri qəməri ilində Ğənizə şəhərini ələ keçirdi, Bəridəni mühasirəyə aldı, amma Hailin əmiri Məhəmməd ibn Rəşid vuruşub Bəridəni mühasirədən çıxartdı və onu Riyaza doğru geri çəkilməyə məcbur etdi.

Əbdüllahın ölkə daxilindəki ən böyük çətinliyi "Səud övladlarının onunla müxalif olması idi. Bu ixtilaf çox şiddətlənərək Əbdüllahı zəiflədirdi. 1300-cü hicri qəməri ilində Əbdüllahın hökumətində baş verən zəiflik və süstlük nəticəsində "Osmanlı dövləti Ehsa və Qətif şəhərlərini onun əlindən çıxartdı. Qəsim şəhərinin əhalisi də onun əmrinə itaət etməkdən imtina etdilər və Osmanlı dövlətinə itaət etməyə başladılar. İbn Səud hökmranlığının ən zəif həddə çatdığı bu dövrdə belə bir xəbər yayılmışdı ki, İngilis dövləti onu himayə edir."[1] Həqiqətdə Britaniya müstəmləkəçiləri vəhhabilərin məğlub olunmasının qarşısını aldılar və onları himayə etməklə həyatlarını davam etdirdilər.

Əbdüllah ilə Səudun oğlanları arasında baş verən çarpışmalar və ixtilafların ardınca qardaş oğlanları əmiyə hakim kəsildi və onu tutub əsir etdilər. Ali-Rəşid yaranan fürsətdən istifadə edərək Riyazı ələ keçirmək üçün ora hücum etdi. Vəhhabilərə hakim olan zəiflik Ali-Rəşidin Riyaza hakim olması ilə nəticələndi. Onlar sonra Əbdüllahı Hailə, Səud oğlanlarını isə Xərcə sürgün etdilər.

Qeyd olunmalıdır ki, Ali-Rəşidin Riyaza hücum etməsinin səbəblərindən biri Əbdüllahın, öz qardaşı oğlanlarının əlindən qurtarmaq üçün onlardan kömək istəyi olmuşdur ki, bu da İbn Rəşidin vəhhabilərə üstünlük qazanmasına və onlara qələbə çalmasına səbəb oldu. Belə ki, Ali-Rəşid Əbdüllahın yerinə Səlim adlı bir şəxsi Riyaza hakim təyin etdi və birbaşa vəhhabilərin daxili işlərinə müdaxiləyə başladı. Nəhayət, Əbdüllah Haildə bir müddət qaldıqdan sonra Riyaza qayıtdı və 1887-ci ildə elə orada dünyadan getdi.

---

[1] Qəzvini Məhəmməd Hüseyn. "Firqeyi vəhhabi və pasoxe şübhəhaye anha", səh.52 -53

## *MƏHƏMMƏD İBN SƏUD İBN FEYSƏL*

"Böyük İslam Enskilopediyası" kitabında Məhəmməd İbn Səud barəsində belə qeyd olunur: "Onu Ali-Səudun hakimləri cərgəsində hesab etmək olmaz. Amma demişlər ki, az bir müddət Ali-Səudun hakimiyyət dairəsində hökmranlıq etmiş, sonra öz yerini əmisi Əbdür-Rəhmana vermişdir. O, Ehsada osmanlıların əleyhinə baş verən qiyamın rəhbəri idi (1878). Əmisi Əbdüllah onu həbs etmişdi. Lakin 1879-cu ildə azad olundu və vəhhabilərin rəhbərliyini əlinə aldı. Sonra bu vəzifədən kənara çəkilərək Bəhreynə getdi (1886) və nəhayət 1888-ci ildə Xərcdə Şəmmər casuslarının birinin vasitəsi ilə öldürüldü."[1]

## ƏBDÜR-RƏHMAN İBN FEYSƏL (1891)

Klevd Fuiye Əbdür-Rəhman barəsində belə yazır: "Səud sülaləsinin ilk şəxsinin Məhəmməd ibn Əbdül Vəhhabın qızı ilə evlənməsinin nəticəsi olan Əbdür-Rəhman siyasi qüdrətdən məhrum idi, lakin vəhhabi firqəsinin rəhbəri kimi tanınırdı."[2]

Həqiqətdə Əbdür-Rəhmanın dövründə "Şəmmər əmirləri, yəni Ali-Rəşid çox böyük qüdrətə malik idi və Ərəbistanın şimalında ən güclü dövlət sayılırdı."[3] Onlar hətta vəhhabilərin daxili işlərinə belə, müdaxilə edirdilər. Səlim də onların tərəfindən vəhhabilərə hökmranlıq edirdi. Əbdür-Rəhman bir neçə dəfə Riyaz əhalisini Səlimin əleyhinə təhrik etmək istəyində olmasına baxmayaraq, hər dəfə məğlubiyyətə uğramışdı. "Nəhayət Səlim mübarək Ramazan ayı münasibəti ilə onunla görüş keçirdiyi zaman Əbdür-Rərhman onu öz evində qətlə yetirdi."[4] Məhəmməd ibn Rəşid Əbdür-Rəhmanın onlara təyin etdiyi hakimi, yəni Səlimi qətlə yetirdikdən sonra Riyazı mühasirəyə aldı (1891). Əbdür-Rəhman həm canı təhlükəyə düşdüyü üçün, həm də şəhər əhalisinin gecə ikən onu tutub düşmənə təhvil verməsini ehtimal etdiyindən ailə üzvləri ilə birlikdə şəhərdən qaçdı. Əvvəlcə Ehsaya getdi və oradan Küveytə yollandı. Beləliklə, Nəcd Ali-Rəşid dövlətinin bir əyalətinə çevrildi.

İbn Rəşid, Əbdül-Əziz ibn Əbdür-Rəhmanın, küveytlilərin və igilislərin köməyi ilə Riyazı onların əlindən çıxardığı vaxta qədər Nəcddə hökmranlıq edirdi. Onlar şəhərdən qaçan Əbdür-Rəhmanın yerinə Məhəmməd ibn Feysəli təyin etdilər.

İbn Rəşid Feysəl ibn Türkidən sonra vəhhabilərin arasında yaranmış kəskin ixtilaflardan istifadə edərək vəhhabi əmirlərinin vəzifədən

---

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.29
[2] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.5
[3] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.29
[4] Fuiyə, Klevd, "Nizami-Ali-Səud", səh.25

çıxarılması və ya vəzifəyə təyin olunması işlərində dəxalət etməklə əməli olaraq öz əlaltılarını hakim etdi.

Nəhayət, Məhəmməd ibn Feysəlin Riyazda ölmü ilə Ali-Səud hökumətinin Nəcddəki rəhbərlərinin ikinci dövrü də sona çatdı və onların əraziləri ibn Rəşidin ixtiyarında qaldı.

Vəhhabi rəhbərliyinin ikinci dövrünü araşdırmaqla belə nəticə alınır ki, onu ümumi şəkildə bir dövr adlandırmayılıq (1234-1319-cu hicri qəməri).

Bu dövrdə vəhhabilər və onların rəhbərlərinin cüzi məsələləri ilə əlaqədar dəqiq məlumat yoxdur. Bunun özü də həmin dövrdə vəhhabilərdə baş verən işlərin incəlikləri barəsində məlumat olmadığını göstərir. Bəlkə də bunun dəlillərindən biri həmin dövrdə vəhhabi rəhbərlərinin hökumətində sabitliyin olmamasıdır. Çünki bir tərəfdən vəhhabi tarixçiləri həmin dövrdə vəhhabilərin vəziyyət barəsində dəqiq məlumat verə bilməmişlər. Digər tərəfdən də həmin dövrdəki tarixi əlyazmaların çoxunun məhv edilməsi ehtimal verilir.

Bu dövrdə ən mühüm məsələ vəhhabilərin arasında qüdrəti ələ keçirməklə əlaqədar kəskin daxili ixtilafların baş verməsi və günbəgün artması olmuşdur. Vəhhabi rəhbərləri əsas etibarı ilə daxili işlər və qüdrətin genişləndirilməsi barəsində fikirləşdiyindən, Nəcd əyalətində ictimai asayiş çox az hallarda bərqərar olurdu. Bundan əlavə, həmin dövrdə vəhhabilərin keçmişdəki ixtiyarlarından söhbət getmir.

Bu dövrdə misirlilərin vəhhabilərlə qarşılaşmaqdakı sayasətinin tamamilə dəyişdiyini görürük. Belə ki, onlar vəhhabilərlə birbaşa qarşılaşmaq, eləcə də onlarla hərbi toqquşmanın ardınca gələn müxtəlif çətinlikləri aradan qaldırmaq əvəzinə inandığı və etimad etdiyi vəhhabi şəxsləri himayə edirdilər ki, vəhhabilərə rəhbərliyi öhdəsinə alsınlar. Belə ki, bu dövrün axırlarında Ali-Rəşid də misirlilərin həmin siyasətindən istifadə etmiş, Riyazı ələ keçirməklə vəhhabilərə hakim ola bilmişdi.

## *İBN SƏUDUN RİYAZA QƏLƏBƏSİ, ALİ-SƏUD RƏHBƏRLƏRİNİN YENİ DÖVRÜNÜN BAŞLANMASI*

Vəhhabi rəhbərliyinin üçüncü dövrü təqribən 80 ildən sonra, Ali-Səudun şimal qonşusu olan Ali-Rəşid tərəfindən məğlub olmasından sonra başlanır. Bu dövr XX əsrin əvvəllərindən başlayaraq bugünkü günə qədər davam etməkdədir.

Bu dövrdə vəhhabiyyət cərəyanında əsaslı dəyişikliklərə rast gəlmək olar. Çünki beynəlxalq şəraitə diqqət yetirməklə bu cür dəyişikliklər lazım və zəruri idi. Vəhhabilərin Nəcdə hakim olmalarının yeni dövrünü

Əbdül-Əziz ibn Əbdür-Rəhman ibn Feysəl qoymuşdur. O, Ali-Rəşidi məğlub etməkdən əlavə, Hicaza da hakim kəsilə bilmişdi. Birinci və ikinci dünya müharibələri, zəngin neft yataqlarının kəşf olunması, Amerika ilə siyasi və iqtisadi əlaqələrin bərqərar edilməsi və bəzi başqa mühüm məsələlər XX əsrdə vəhhabilərin siyasi həyatında dəyişikliklərin yaranmasına səbəb oldu.

Bu bölmədə vəhhabilərə rəhbərliyi öhdəsinə alan şəxslərin müxtəlif daxili və xarici siyasətlərini, vəhhabilərin öz hökmranlıqları dövründə gördüyü tədbirləri, eləcə də vəhhabi cəmiyyətinə hakim olan şəraiti aydınlaşdıracaq, sonra isə İran İslam inqilabının qələbəsi və bu hadisədən sonra vəhhabilərin gördüyü təxribatçılıq əməllərini qeyd edəcəyik. Çalışacağıq ki, İran İslam inqalabından əvvəl və sonra vəhhabilərin siyasətində baş verən dəyişiklikləri ətraflı şəkildə bəyan edək.

### *VƏHHABİLƏRİN İBN SƏUD ADI İLƏ MƏŞHUR OLAN ƏBDÜL-ƏZİZ İBN ƏBDÜR-RƏHMAN İBN FEYSƏLİN DÖVRÜNDƏ GÖRDÜYÜ İŞLƏR (1902-1953)*

Əbdül-Əziz ibn Əbdür-Rəhman vəhhabi rəhbərlərinin ən böyüyü və ən qüdrətlisi olaraq Səudiyyə Ərəbistanının banisi, eləcə də həmin ölkənin ilk padşahı sayılır. O, Ali-Rəşidi məğlub etdikdən və Riyaza hakim kəsildikdən sonra vəhhabilərin əldən getmiş hakimiyyətlərini dirçəldə bildi. Onun Riyazı necə ələ keçirməsini araşdırmazdan qabaq vəhhabilərin üçüncü dövrdə yenidən qüdrətə çatmalarının münasib şəraitini araşdırırıq.

Tarixçilərin yazdığına görə, Feysəldən sonra Ali-Səudun vəziyyəti, öz aralarında yaranan müxalifət və mübarizələr səbəbi ilə çox böhranlı bir vəziyyətə düşüb zəifləməyə, süqut etməyə doğru sürükləndi və nəticədə Ali-Rəşid onlara qələbə çaldı.

Ali-Rəşidin vəhhabilərə hakim olmasının ardınca (Əbdül-Əzizin atası) Əbdür-Rəhman ibn Feysəl öz ailəsi ilə birlikdə Riyazdan qaçaraq Küveytə sığınmaq istədi, "amma Küveytin şeyxi Məhəmməd Əs-Səbah onun bu ölkəyə daxil olmasına mane oldu. Əbdür-Rəhman məcbur qalaraq Nəcd səhralarına (Rubül-Xaliyə) üz gətirdi. İlk əvvəl Bəni-Mürrə tayfasının yanında, daha sonra isə Əcman qəbiləsində qaldı. Bundan sonra Qətərə gedərək iki ay orada yaşadı."[1]

Sonra Osmanlı dövləti Əbdür-Rəhmanın qiyam və iğtişaşlarının qarşısını almaq üçün hər ay onun üçün altmış qızıl lirə pul təyin etdi. Bu işin nəticəsində də Küveytin əmiri Əbdür-Rəhmanı bu ölkəyə buraxdı.

[1] Həmin mənbə, səh.304

Çünki Məhəmməd Əs-səbah bu dövrdə osmanlılar tərəfindən təyin olunmuşdu və onların tərəfindən də himayə edilirdi.

Həqiqətdə osmanlılar Əbdür-Rəhman üçün maaş təyin etməklə "kiçik iğtişaşların qarşısını almaq istəyirdilər və bu məbləğ də onun yenidən müharibəyə girişməsinin qarşısını alırdı."[1] Beləliklə, türklər heç olmazsa müəyyən müddətə qədər vəhhabi iğtişaşlarının qarşısını ala bilmişdilər.

1901-ci ildə Küveytdə mühüm bir hadisə baş verdi ki, bu da vəziyyəti tamamilə dəyişdirdi. Bu hadisə Mübarək Əs-səbahın öz qardaşı Məhəmmədin əleyhinə dövlət çevrilişi etməsi idi. Bu qiyam onun qətlə yetirilməsi ilə bitdi. Bu hadisə düz ingilislərin Osmanlı sultanlarının ərəb ölkələrindəki nüfuzuna zərbə vurub öz əlaltılarını hakimiyyətə gətirmək qərarına gəldikləri vaxt baş vermişdi. Klevd Fuiye bu çevriliş barəsində belə yazır: "... Hindistana bir neçə dəfə səfər edən Mübarək öz çevrilişi barəsində əvvəlcə ingilislərlə müzakirə etmiş və belə razılaşmışdılar ki, onun Küveytdəki hökmranlığını rəsmi tanıtdırmaq müqabilində o da Küveyti osmanlıların himayəsi altından çıxartsın və Britaniyanın himayəsi dairəsinə daxil etsin... İngilislər bu fürsəti qənimət saydılar. Xüsusilə, bunun vasitəsilə Berlin-İstanbul-Bağdad-Küveyt dəmir yolunun çəkiliş layihəsi məhv olurdu. (Çünki, Almaniya osmanlıların müttəhidi idi) və ingilislərin Hindistan-Britaniya arasındakı rabitəsinə təminat verən və ingilislərin himayəsində olan zəncirvari hökumətlər Fars körfəzinin axırına qədər yayılırdı..."[2]

Osmanlı hökuməti Küveytin ingilislərə meyl etdiyini gördüyü zaman Küveyt əmirinin düşməni olan Əbdül-Əziz Rəşidin (Şəmmərin əmiri) köməyinə tələsdi və onu Küveyt əmirinin əleyhinə müharibəyə təşviq etdi.

Qeyd olunur ki, "...1318-ci hicri qəməri ilində tərəflər arasında baş verən müharibədə Küveyt şeyxi məğlub oldu və İbn Rəşid Küveytin darvazalarının arxasına qədər hücum etdi. Amma gözlənilmədən geri çəkilmək məcburiyyətində qaldı. Çünki o, dəniz yolu ilə gəlib onun yolu üzərində dayanan İngilis qoşunları ilə qarşılaşmışdı. İngilislər nəsihət yolu ilə ona dedilər ki, məsləhət qayıtmaqdadır. Əgər bundan başqa bir iş görərsə, ağır toplarla və güclü qoşunlarla onu tar-mar edəcəklər... İbn Rəşid Ali Osmanidən kömək istəmək qərarına gəldi. Lakin İstanbul-London arasında baş verən müzakirələrdə ingilislər Osmanlı dövlətini İbn Rəşidə kömək etməmək barədə qane etmişdilər.[3]

Həqiqətdə bu hadisənin faydası hamıdan artıq Britaniyaya çatırdı,

---

[1] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.27

[2] Həmin mənbə, səh.28

[3] Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.305

çünki həm Fars körfəzində özü üçün mövqe yarada bilmiş, həm də Küveyt əmirini hücum təhlükəsindən amanda saxlamışdı. Bundan əlavə, Əbdül-Əziz ibn Əbdür-Rəhman İbn Rəşidin ordusuna baş verən məğlubiyyət və zəiflikdən də lazımi qədər istifadə etdi və vəhhabilərin əldən getmiş hökumətini yenidən dirçəltdi. Buna əsasən, Əbdül-Əziz Küveytin əmiri onun üçün tədarük görülən qüvvələrdən istifadə etməklə, eləcə də ingilislərin müvafiq nəzər və həmkarlığına görə (ingilislər nəzərdə tutmuşdular ki, Nəcddə öz əlaltılarını hakim etsinlər) Nəcdə və Ali-Rəşidə hücumlarını başladı. Bu barədə "Böyük İslam Enskilopediyası" kitabında belə deyilir: "... İngilislər Ali-Rəşidin müxalifləri olan ərəblərdən birlik (koalisiya) yarada bildilər. Bu da Şeyx Mübarək Əbdül-Əzizin başçılığı ilə vəhhabi məzhəbli qəbilələr və İraqın cənubundakı qəbilələrin birindən təşkil olunmuşdu. Əbdül-Əziz Riyaza hücum etdi. Özünün ilk hücumunda müvəffəqiyyət qazanmamasına baxmayaraq, 1902-ci ilin yanvarın 14-də oranı fəth edə bildi."[1] Daha sonra 1320-ci h.q ilində Nəcdin cənub qisminə, 1321-ci ildə isə Sədirə, Şəm və Qəsimə hakim kəsildi. Ali-Rəşidin vəhhabilərlə çarpışmaları və mübarizələrində Osmanlı dövləti Ali-Rəşidin xeyrinə əməl edirdi. Buna baxmayaraq 1324-cü h.q ilində Osmanlı türklərinin Nəcddən çıxması onları çətinliklə qarşılaşdırdı. Belə ki, həmin ildə Ali-Rəşid əmiri olan İbn Münəb qətlə yetirildi, Əbdül-Əzizin fikri onun tərəfindən müəyyən qədər asudə oldu və bu yolla vəhhabilər Əbdül-Əzizin rəhbərliyi ilə əldən getmiş hökmranlığını bir daha geri qaytara bildilər. Riyazı ələ keçirməklə Nəcdin sair məntəqələrini, daha çox Hicazı ələ keçirmək üçün tədarük gördülər.

Əbdül-Əziz Riyazda hökumətinin bərqərar olmasından sonra "tacirlərdən borc aldı və onu çoxlu döyüş təchizatı almaq, eləcə də Küveytdən məharətli atıcılar almaq üçün xərclədi."[2] Bundan sonra "öz qüvvələrini genişləndirmək və sabitləşdirmək üçün müxtəlif vəhhabi mərkəzləri və yaşayış yerləri yaratmağa başladı. Onların sakinlərini "ixvani tovhid", yaxud "yeganəpərəstlik qardaşları" adlandırdı ki, bu da həqiqətdə vəhhabilərin dini-hərbi təşkilatından ibarət idi... Bu təşkilat həm qəbilələr arasında qan axıdılmasının qarşısını almaq, kin-küdürəti məhv etmək, həm də səhradakı köçəri həyat sürənləri daimi olaraq məskunlaşdırmaq üçün bir vasitə idi."[3]

Cənab Fəqihi "İxvan" təşkilatının yaranması barəsində belə yazır: "... İbn Səud öz nəzəriyyəsini icra etmək üçün Nəcdin alimi Şeyx Əbdüllah

---

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.30
[2] Lisi Robert, "Sərzəmini səlatin", səh.96
[3] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.30

ibn Məhəmməd ibn Əbdül-Lətifdən istədi ki, bütün camaatın və köçəri ərəblərin başa düşə biləcəyi sadə dildə və hənbəli məzhəbi əsasında kitablar yazıb bütün qəbilələrin arasında yaysın. İbn Səud həmçinin Şeyx Əbdüllahın şagirdlərindən bir qrupunu xətib və yol göstərən adı altında qəbilələrin arasına göndərdi. Beləliklə, çöl ərəbləri arasında dini bir atifə yarandı və bu tədbirlərin məcmusundan "İxvan" firqəsi əmələ gəldi."[1]

Həqiqətdə ixvançıların hərbi qüvvələri vəhhabilərin hərbi cəhətdən müvəffəqiyyət əldə etmələrində ən önəmli amil sayılırdı. İbn Səud da "İxvan cəngavərlərinin köməyi ilə istəyirdi ki, Müteyr, Üyeynə, Hərb və Əcman qəbilələrindən istifadə edərək səhrada yaşayan qəbilələrin ayrılıq və müstəqillik iddialarını məğlub etsin, Ərəbistan yarımadasında təmərküzləşmiş bir dövlətin əsasını qoysun. Bundan əlavə, o, Ali-Səud ilə vəhhabilər arasında ittihad yaratmaq üçün verdiyi tarixi iltizamına təkid etmək üçün əxlaqi göstərişlər və qanunun icrasının tam qüdrətini alimlərə həvalə etdi. O, Qaziyi-Əzəm Şeyx Əbdüllah ibn Əbdül-Lətifi hər gün öz hüzuruna qəbul edirdi. O, qazinin qızı ilə də evləndi.[2]

Vəhhabiliyi araşdırarkən bu dəvətin Səudi dövləti ilə eyni səviyyədə tanınması bu həqiqəti göstərir ki, dövlət siyasətləri vəhhabi risalətinin tanıtdırıcısıdır və buna görə də onların siyasətdəki təəssübkeşlik və inadkarlıq xüsusiyyətləri XX əsrdə vəhhabilərə məxsus üslublardan hesab olunur.[3]

Hər bir halda, Əbdül-Əziz vəhhabilərə qarşı seçdiyi siyasətlə ixvan firqəsinin hərbi qüvvələrindən istifadə edərək çoxlu məntəqələri öz ixtiyarına keçirə bildi. Onun ərazi iddiaları birinci dünya müharibəsindən əvvəl Nəcd və onun ətraf məntəqələri ilə xülasələnirdi. Amma birinci dünya müharibəsinin başlanmasından sonra vəziyyət tamamilə dəyişildi.

1914-cü ildə birinci dünya müharibəsinin başlanması ilə eyni zamanda Ərəbistan yarımadasında üç böyük və qüdrətli cinah hakim idi: Hicazda Şərif Hüseyn, Nəcddə İbn Səud və Nəcdin şimalında Şəmmər qəbilələri arasında Rəşid sülaləsi hökmranlıq edirdi. Bundan əlavə, Ərəbistan

---

[1] İxvan firqəsi islam firqələrindən heç birini tövhidçi hesab etmir və onları öz məramlarına də`vət edirdilər. Onlar Ərəbistanın şərq nahiyələrində yaşayan şiələr barəsində deyirlər: "Biz şiələr barəsində belə fətva veririk ki, Əbdül-Əziz onları İslama tabe olmağa vadar etməli, onların öz məsləklərindəki şüarlarını aşkar etməyin qarşısını almalıdır ki, onlar məcbur olub Allahın və Peyğəmbərin (s) dininə tabe olsunlar, Əhli-beytdən (ə) və başqalarından olan salehləri öz hacətlərinin rəva olunması üçün çağırmasınlar." ("Siyasət və hökumət dər Ərəbistani Səudi" kitabından, səh.34 Seyyid Davud Ağayi)

Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.446

[2] Lisi Robert, "Sərzəmini səlatin", 1-ci cild səh.97

[3] Lisi Robert, "Sərzəmini səlatin", səh.97

yarımadasının zahiri hakimiyyəti Osmanlı dövlətinin öhdəsinə idi və Britaniya müstəmləkəçiləri də osmanlıların qəlbinə nüfuz etmək və onun daxilində təfriqə yaratmaq üçün müntəzəm surətdə çalışırdılar. Osmanlı dövləti müharibədə Almanlara tərəfdar cinaha keçən zaman Britaniya müstəmləkəçiləri bu dövlətə zərbə vurmaq, onu zəiflətmək və dağıtmaq üçün Ərəb ölkələrində öz nüfuz dairələrini genişləndirməyə başladılar. Britaniya müstəmləkəçilərinin siyasətlərinin inkişaf etməsi ilə "öz casuslarından iki zabiti nəzərdə tutulan siyasəti icra etmək üçün Şərif Hüseyn və İbn Səuda doğru göndərdilər."[1] Belə ki, Tomas Eduard Lorensi (1888-1905) Şərif Hüseynin düşərgəsinə, Vilyam Şekspiri isə (1876-1915) Səudilərin yanına göndərdi. Şekspirin İbn Səudla İbn Rəşidin arasında baş verən müharibədə öldürülməsindən sonra özünü islamçı kimi göstərən və adını Əbdüllah qoyan Hari Sinnət Can Yericer Filini (1885-1960) göndərdi ki, İbn Səudu Osmançı müttəhidlərinin əleyhinə qiyama hazırlasın."[2] İngilislər müharibənin davam etdiyi müddətdə çalışırdılar ki, öz mənafeylərini qorumaqla yanaşı Şərif Hüseynlə İbn Səud cinahını gücləndirsinlər. Buna görə də cənab Dərvişpurun inandığı kimi, "ingilislər Osmanlı dövlətini dağıtmaq və bu böyük İslam imperatorluğunu parçalamaq üçün ərəblərin etirazlarından, onların millətçilik hisslərindən və istiqlaliyyət ruhlarından istifadə etdi, yarımadanın hakimləri arasına nüfuz edərək qüvvələr tarazılığını öz xeyrinə dəyişdirə bildi."[3] Cənab Cəfər Sübhani kitabının bir hissəsində İngilis müstəmləkəçilərinin ərəb ölkələrini həm bir-birindən, həm də Osmanlı imperatorluğundan ayırmalarını, həmçinin Ali-Səuda diqqət yetirmələri barəsində yazır: "Ali-Səud birinci dünya müharibəsindən və Osmanlı imperatorluğunun dağılmasından əvvəl çox zəif idi və Nəcddən kənara çıxa bilmirdi. Lakin böyük müstəmləkəçi dövlət olan Britaniyanın Osmanlı imperatorluğunu dağıtmaq qərarına gəldiyi gündən etibarən hər bir məntəqədə millətçilik ruhiyyəsini və milli məsələləri dirçəltməyə başladı. Ərəb dövlətlərində də qövm-qəbilə məsələsi ingilislərin əlaltılarının və qərb fikirli ziyalıların vasitəsi ilə yayılmağa başladı. Sonra çox əlverişli bir şəraitdə və istismarçı dövlətlərin həmkarlığı ilə Osmanlı imperatorluğu dağıdıldı. Ərəb ölkələri kiçik dövlətlər şəklinə salındı və onlardan öz məqsədləri üçün istifadə etmək tamamilə asan oldu. Belə ki, hər bir məntəqədə öz əlaltılarını hakimiyyətə təyin etdilər

---

[1] "Tarixi dövləthayi islami və xanədanhayi hökumətgər", Sadiq Səccadinin tərcüməsi, birinci çap səh.190

[2] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.30

[3] Dərvişpur Höcətullah. "Bərrəsiye pədiyeyi nasionalizm dər cahani ərəb", 1-ci çap, səh.13

və bu hadisələrin gedişatında Ali-Səuda vədə verdilər ki, Osmanlı türklərini qovduqdan sonra Nəcd və Hicaz məntəqəsi onların ixtiyarında olacaqdır."[1]

Əbdül-Əziz ingilislərlə bərqərar etdiyi rabitələr əsnasında daxili siyasət yönündə öz ərazi iddialarına başladı. O, 1921-ci ildə oğlu Feysəlin köməyi ilə Şəmmərin əmirlər yaşayan yerlərinin hamısını (bu zaman Ali-Rəşidin hakimiyyəti altında idi) öz torpağına qatdı və beləliklə də Hicazı ələ keçirmək və Şərif Hüseyni hakimiyyətdən salmaq üçün şərait yarandı. Həqiqətdə bu tədbir (Hicazı ələ keçirib Şərif Hüseynin işdən götürülməsi) artıq Osmanlı xilafətinə son qoyulduğu zaman (1924) hazırlanmışdı.

Osmanlı xilafəti dağılıb məhv olduqdan sonra Şərif Hüseyn darhal özünü müsəlmanların xəlifəsi adlandırdı. Bu iş də ingilislərin xoşuna gəlmirdi. Çünki onlar məntəqədə böyük bir islam imperatorluğunun yenidən qüdrətlənməsinə heç vaxt dözə bilməzdilər.

Buna əsasən, ingilislər Şərif Hüseynin rəqibini, yəni İbn Səudu onun əleyhinə qiyama təhrik etmək fikrinə düşdülər və bu barədə çox hiyləgər və məkrli planları icra etdilər. Onlar vəhhabilər üçün maddi çətinliklər yaratmaq istədilər ki, daha çox gəlirli olan əraziləri işğal edib öz ixtiyarlarına keçirməyə vadar etsinlər. "Böyük İslam Enskilopediyası" kitabında bu barədə belə deyilir: "... Belə məlum olur ki, ingilislər İbn Səuda öz maddi köməklərini kəsməklə həqiqətdə onun əlini Şərif Hüseynə hücum etmək üçün açıq qoymuşdular. İbn Səudun Hicaza getməyə daha da əzmli edən məsələ Nəcd hacılarının Şərif Hüseyn tərəfindən Məkkəyə daxil olmasının qadağan olunması barəsində elan idi."[2]

Bu və bu kimi bir çox amillər nəticəsində vəhhabi məsləkli İbn Səud 1924-cü ilin sentyabr ayında Hicaza hücum etdi. Belə ki, "Hicaza hücum zamanı Məkkənin əmiri Şərif Hüseynin düşmənlərindən və bədxahlarından olan və Məlik Əbdül-Əziz İbn Səud tərəfindən təyin olunan Şərif Xalid İbn Luiyy vəhhabilərlə yanaşı idi.[3] Vəhhabilərin Hacaza hücumu Taif şəhərinin işğal olunması ilə başlandı. Onlar bu şəhəri işğal etdikdən sonra camaatı kütləvi şəkildə qıraraq çoxlu yaramaz işlərə əl atdılar. Daha sonra Məkkə və Mədinə şəhərlərini işğal etdilər. Belə ki, deyilənlərə görə vəhhabilər Məkkə və Mədinəyə hakim kəsildikdən sonra "Bəqi" qəbristanlığındakı şərif məqbərələri dağıtmağa

---

[1] Sübhani Cə`fər, "Fərhəngi əqaid və məzahibi İslami", 1-ci cild səh.283 -284

[2] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.37

[3] Qəzvini Məhəmməd Hüseyn. "Firqeyi vəhhabi və pasoxe şübhəhaye anha", səh.54

başladılar. Bunun nəticəsində İran, İraq və digər müsəlman ölkələrindən İbn Səuda etirazlı teleqraflar göndərilməyə başladı.[1]

Şərif Hüseynin öz oğlu Əlinin xeyrinə olaraq kənara çəkilməsinə baxmayaraq şərif sülaləsini hakimiyyətdən salmaq və özləri Hicaza hakim olmaq məqsədində olan vəhhabilər bu dəyişikliyi qəbul etmədilər. Onlar 1344-cü ildə Cəddə ilə Mədinəni işğal etdikdən sonra Hicaza istilaçılıqlarını təkmilləşdirdilər. Əbdül-Əzizdən sonra 7-si yanvar 1926-cı ildə "Nəcd və ətraf məntəqələrin sultanı" ünvanı ilə taxtda oturdu."[2]

Burada diqqət yetirilməli əsas məsələ 1343-cü h.q ilində təəssübçü vəhhabilər tərəfindən Məkkədə islam abidələrinin və qəbirlərin dağıdılması, Mədinədə isə "Bəqi" qəbristanlığındakı imamların (ə) mübarək qəbirlərinin yerlə yeksan edilməsi idi. Bu ildə vəhhabilər Əbdül-Əzizin fərmanı və vəhhabi müftisinin fətvası ilə bir daha İbn Abbas büqəsini, eləcə də Taifdəki sair qəbirləri, Əbdül-Müttəlibin, Əbu Talibin, Həzrət Xədicənin qəbirlərini, Həzrət Zəhranın doğulduğu yeri və Cəddədə Həzrət Həvvaya mənsub edilən qəbri dağıtdılar. Cənab Cəzairi bu barədə belə yazır: "...(Vəhhabilər Mədinəni ələ keçirdikdən sonra) Osmanlı işçilərini oradan çıxardıb "Bəqi" qəbristanlığındakı İmamların (ə) qəbirlərini, eləcə də sair qəbirləri, o cümlədən, Peyğəmbərin (s) oğlu İbrahimin qəbrini, o Həzrətin (s) zövcələrinin və Həzrət Əbülfəzin (ə) anası Ümmül-Bəninin, Peyğəmbərin (s) atası Əbdüllahın, İmam Sadiqin (ə) oğlu İsmailin qəbrini (bu qəbir İsmailiyyə firqəsinin nəzərində çox möhtərəm sayılır), Osman ibn Əffanın, Malik ibn Ənəsin və digər səhabə və tabeinlərin qəbirlərini dağıdıb tamamilə yerlə yeksan etdilər... "Bəqi" qəbristanlığındakı qəbirlərin İsfahanda düzəldilərək Mədinəyə gətirilən zərihlərini – İimam Həsən (ə), İmam Zeynül-Abidin (ə), İmam Baqir (ə) və İmam Sadiqin (ə) qəbirləri üzərindən götürdülər. Peyğəmbərin (s) əmisi Abbasın, Əsədin qızı (Əli ələyhissəlamın anası) Fatimənin "Bəqi" qəbiristanlığında dörd imamın qəbri ilə bir yerdə məhv etdilər.[3] Həqiqətdə vəhhabilər tərəfindən "Bəqi"dəki imamların qəbrinin dağıdılması, Məkkə və Mədinədəki təxribatçılıq işləri islam ölkələrinin əhalisini və xüsusilə alimlərini, o cümlədən, İran və İraq alimlərini dəhşətə gətirdi. Onlar ehtimal verirdilər ki, vəhhabilər Həzrət Peyğəmbərin (s) müqəddəs qəbrini də dağıda bilərlər. Bu barədə "Böyük İslam Enskilopediyası" kitabında belə qeyd olunur: "Camaat namazı və

---

[1] Fəqihi Əliəsğər. "Vəhhabilər", "İntişarati Səba", Tehran, 1352, 1-ci çap, səh.231 -232

[2] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.31

[3] Qəzvini Məhəmməd Hüseyn. "Firqeyi vəhhabi və pasoxe şübhəhaye anha", səh.55-56

elmiyyə hövzələrində dərslər tətil edildi. Ümumi matəm elan olundu. Müsəlmanlar matəmə batdılar və əzadarlıq dəstələri təşkil etdilər. Alimlərin təklifi ilə İranın o zamankı dövləti tədqiqat aparmaq üçün Hicaza bir heyət göndərdi. Amma bunun heç bir nəticəsi olmadı. Çünki artıq iş-işdən keçmişdi. Mərhum Seyyid Həsən Müdərris 10 səfər 1344-cü h.q ilində bu barədə ali məclisdə nitq söylədi."[1] Aydındır ki, vəhhabilərin səthi və təəssübkeşlik üzündən olan tədbirləri İran və İraq ölkələrinin əhalisini və alimlərini çarə qılmaq fikrinə salmışdı. Amma vəhhabilər əleyhinə birbaşa hərbi tədbirlər keçirilməsi üçün siyasi şərait münasib deyildi.

Bir sözlə, İbn Səud Hicazı ələ keçirdikdən sonra Britaniyanın köməklərindən son dərəcə istifadə etdi. Həqiqətdə onun Hicazdakı qələbələri siyasi-hərbi bir qələbə idi. O, vəhhabilərin başçısı olduğuna görə vəhhabilər də qələbəyə nail oldular. Cənab Məscid Camei bu mətləbi qeyd edərək yazır: "Həqiqət bundan ibarətdir ki, İbn Səudun Hicaza qələbə çalması əslində hərbi-siyasi bir qələbə idi və vəhhabiyyətlə heç bir əlaqəsi yox idi. İbn Səud ingilislərin birbaşa və ya müəyyən yollarla etdiyi köməklər nəticəsində qüdrəti ələ keçirdi və vəhhabilərin başında olduğundan, vəhhabilər də onun vasitəsi ilə qələbəyə çatdılar... (XIX əsrin əvvəllərində) onları mütəşəkkil səviyyəyə çatdıran və islam ölkələrinə doğru axıdan da məhz vəhhabilər idi. Amma burada (Əbdül-Əzizin hicaza qələbəsində) vəhhabilik elə qüvvələrin qələbəsinə vasitə olmuşdular ki, o bu hərəkatın başlanıb qələbəyə çatmasının əsl amili deyildi. Bunu da inkar etmək olmaz ki, İbn Səud öz məktəbinin təlim və prinsplərindən öz qüvvələrini nizamlamaq və təmərküzləşdirmək, onları təhrik etmək, onların fədakarlıq və müqavimət hisslərini təhrik etmək üçün mümkün qədər istifadə etdi. Belə ki, onun qələbələri tədrici idi və şübhəsiz, bu ardıcıl qələbələrin özü də elə bir təyinedici və qüvvəli amil idi ki, onların vəhhabiliyə imanının güclənməsində təsirli idi və bunun özü də onların çoxunun təhrik olunması ilə nəticələndi. Nəhayət əvvəlcə Məkkənin, sonra isə Mədinənin fəth olunması vəhhabiləri öz məktəblərinin "haqq" olmasına inamlarını qat-qat artırdı. Çünki onların nəzərindən İbn Səud öz qüvvələri ilə öz ordusunda olanların ideoloji imanlarını təhrik etdi və onu mümkün olan ən yüksək həddə çatdırdı."[2]

Buna əsasən, İbn Səud özü üçün qüdrət və mənafe kəsb etmək yolunda vəhhabilərdən sadəcə bir vasitə kimi istifadə etdi. Eləcə də, o, ayinin

[1] "Böyük İslam Enskilopediyası", səh.57

[2] Məscid Camei Məhəmməd, "Vəhhabiyyət dər cəzirətül-Ərəb", "Əbrar" qəzeti, 160 səh.4

təəssübkeşlik üzündən olan nəzərləri də onun "İxvan" cəmiyyətinin təşkil olunması və ərazi iddialarının genişləndirilməsində çox təsirli oldu.

Ustad Cəfər Sübhani vəhhabi ayini və ondan sonrakı (yəni Əbdül-Əzizin Hicaza hakim olmasından sonrakı) ayinlərin genişlənməsi ilə əlaqədar belə yazır: "... Ali-Səudun bu iki məntəqəyə (Nəcd və Hicaza), xüsusilə şərif hərəmlərə hakim kəsilməsi nəticəsində vəhhabi təbliğatı genişləndi. Sələfilik əqidəsində böyük bir canlanma yarandı, Nəcd və Hicazın hakimi – Əbdül-əziz İbn Səud vəhhabilik fikirlərinin yayılması nəticəsində müəyyən qrupları son dərəcə amansızlıqla qorxutmaqla, qılınc və süngü gücünə diz çökdürtdü və qələm sahiblərinə, yazıçılara maddi köməklər edərək onları ələ aldı və nəhayət, Nəcddə və Hicazda, hətta bəzi xarici ölkələrdə belə, qəzet və jurnallar Nəcd sultanını rəsmi olaraq tərifləməyə başladılar. Sələfiçilik üslubunu İslamda nicat səbəbi hesab etdilər. Lakin bu hərəkat, özü üçün müəyyən bir dalğa yaratmasına baxmayaraq, çox da sürətli deyildi ki, bütün maneələri aşıb keçə bilsin.

Ərəbistanın Zəhran məntəqəsində zəngin neft yataqlarının kəşf olunması nəticəsində Ali-Səudun keçmiş sövdaları əməli olaraq həyata keçdi və neftin külli miqdarda gəlirindən bu ayinin müxtəlif surətlərdə yayılmasına səy göstərildi. Bütün məntəqələrdəki yazıçı və müəllifləri bacardıqları qədər ram edirdilər ki, onların əleyhinə heç bir şey yazmasınlar. Onlar müəyyən bir qrupu da rəsmi olaraq özlərinə xidmətçi seçmişdilər.

Şərif hərəmlərdəki mürtəce sələfilik hərəkatı çox ziyanlı nəticələr verdi və onların zəhərli təbliğatları qədim İslam tarixi əsər və abidələrinə doğru yönəlmişdi. Belə ki, "tövhidə çağırış və şirk əsərlərinin məhv edilməsi" adı ilə müsəlmanların qədim həyata malik olmasının nişanələri olan islami əsərlərin çoxunu məhv etdlər. Lakin bunun əvəzində bəzi müşriklərin adları dirçəldildi. Bazarların, küçələrin adı onların adı ilə "zinətləndirildi", hətta "tarixi əsər və abidələrin qorunması" adı ilə yəhudilərin Xeybər və Kəb ibn Əşrəf qalaları yenidən təmir edildi.[1]

Qeyd olunanlara diqqət yetirməklə anlamaq olar ki, vəhhabilər Hicazı ələ keçirdikdən sonra malik olduqları təəssübçülük və donuq fikirliliklə əksər İslam əsər və abidələrini dağıtmağa və öz məsləklərini yaymaq üçün hər bir yoldan istifadə etməyə başladılar.

Əbdül-Əziz 1927-ci ilin yanvar ayında Nəcd və Hicaza rəsmi şəkildə padşah olduğunu elan etdiyi zaman onun ilk və əsas fikri öz qüdrətinin əsaslarını möhkəmlətmək idi. Ərəbistanın dövlət büdcəsinin və abadlıq işlərinin əsası həcc mərasimindən təmin olunduğundan İslam dünyası

[1] "Fərhəngi əqaid və məzahibi islami", 1-ci cild səh.283-284

tərəfindən öz hökumətinin rəsmi şəkildə tanınmasına səy göstərirdi.[1] Amma həmin məqsədlə təşkil olunan konfransda yalnız Hindistan müsəlmanları onun dəvətinə müsbət cavab verdilər.[2]

Bundan sonra İbn Səud daxili siyasətlə əlaqədar vəhhabi məsləkində müəyyən islahatlar aparmağa başladı. Çünki artıq o başa düşürdü ki, ölkəni vəhhabiliyin təəssübkeş, quru və bədəvilərə məxsus olan təlimləri əsasında idarə etmək olmaz. Buna əsasən, "O, vəhhabi məsləkinin özündə müəyyən islahatlar apardı. Teleqraf, radio, telefon, işıq, avtomobil və sair kimi müasir məişət vasitələrindən istifadə etməyin zəruri olduğunu vəhhabi alimlərinə qəbul etdirdi. Eləcə də vəhhabiliyin quru və əməli olmayan prinsiplərindən çoxunu mötədil vəziyyətə gətirdi və hətta onların bəzilərini ümumiyyətlə nəzərə almadı. Qəribədir ki, bu işləri görmək üçün bəzən zorakılıq yolundan da istifadə edildi.[3]

Aydındır ki, vəhhabi səudilər yaranan hər bir münasib şəraitdə İslam barəsində öz meylləri və mənafeyi əsasında nəzər verirlər. Belə ki, ona əməl edilməsi əvvəla onların "İslama əməl etmək və onun hökmləri ilə uyğunlaşmaq" barəsindəki iddialarını təsdiq edir. İkincisi istilaçıların məntəqədə hazır olub öz niyyətlərini davam etdirmələrinə şərait yaradır. Cənab Məscid Camei bu barədə yazır: "... Əbdül-Əzizin bu barədə apardığı bəzi islahatlar və hətta zorakılıqlarla yanaşı... əməldə İslamın zahiri göstərişinə riayət edir, xüsusilə, İslam hüdudlarına çox ciddi şəkildə əməl edirdi. Bu da onun dövrünün tələbi idi... Çünki əvvəla, oğurluq, qətl, təcavüz və qarətdən başqa bir şey anlamayan rəhimsiz və qan axıdan çöl ərəblərini bu yoldan başqa bir yolla sakitləşdirməklə əmin-amanlıq bərqərar edib öz hakimiyyətini möhkəmlədə bilməzdi. İkincisi, o, İslama əməl etməsini iddia edirdi və heç olmazsa islam hökmlərinin bir qisminə, xüsusilə adi camaat üçün hiss olunan qədərinə əməl etməyi bu iddiasında həyata keçirirdi..."[4]

İbn Səudun daxili işlərlə əlaqədar apardığı islahatlardan biri kimi onun qəzavət və məhkəmə orqanlarında apardığı islahat işlərini qeyd etmək olar. Belə ki, 1927-ci ilin avqust ayında məhkəmə işlərinin islah edilməsi üçün bir fərman verdi və bunun əsasında klassik bədəvi qanunu ləğv edildi. Onun yerinə şəri qəzavət (özü də məhz vəhhabilərin qəbul etdiyi şəri qəzavət) üslubunda olan qəbilə adəti keçirildi və onun tərəfindən bu işlərə müəyyən qazilər təyin olundu. Həqiqətdə "məhkəmə sistemində

---

[1] Linça Fiski Corc "Tarixi xavərimiyanə", doktor Hadi Cəzairinin tərcüməsi, səh.493

[2] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.57

[3] Məscid Camei Məhəmməd, "Vəhhabiyyət dər cəzirətül-Ərəb", səh.4

[4] Məscid Camei "Məhəmməd, Vəhhabiyyət dər cəzirətul-ərəb", səh.4

islahat işləri aparılması qəbilə sistemini yerindən tərpətdi və mərkəzi dövlətin qüdrətini çox artırdı."[1]

Bundan sonra Əbdül-Əziz 1932-ci ilin sentyabr ayında "Nəcd və Hicazda iki dövlət şəklində olan sultan ittihadiyyəsinin rəsmi şəkildə vahid Səudiyyə Ərəbistanı (Əl-məmləkətul-ərəbiyyətus-Səudiyyə) dövləti şəklinə salınmasını elan etdilər."[2]

Vəhhabilərin idarəçilik sistemindəki nəzərə çarpacaq məsələ "bütün dövlət məqamlarının yalnız Ali-Səuddan olan şəxslərin əlində təmərküzləşməsi idi."[3] Bu da Əbdül-Əziz ibn Əbdür-Rəhmanın hakimiyyətinin əvvəllərində icra olunmuşdu. O, öz nəslindən olan şəxsləri təşkilat və ya idarələrin başçısı təyin edirdi. Bunun nəticəsində də vəhhabi hökmranlığı daha da möhkəmlənirdi. Vəhhabilərin Ərəbistana hakimiyyətindən bir neçə on il keçməsinə baxmayaraq, hal-hazırda da bütün həssas vəzifələr, eləcə də idarə, dövlət və sair kimi yerlərdəki əsaslı işlər vəhhabi səudilərin əlindədir və bunlardan başqa heç bir rəis və ya müdir tapmaq olmaz.

İbn Səudun daxili siyasətdəki ən əsas və ümdə çətinliklərindən biri "İxvan" təşkilatı və onların gördüyü tədbirlər idi. Onun ən böyük daxili düşməni Müteyir qəbiləsinin böyük şeyxi və "İxvan" təşkilatının rəhbəri Feysəl Düveyş idi. Bu təşkilat "Dövlət vergilərinin azaldılmasını, yeni ixtira olunan avtomobil, teleqraf və sair kimi vasitələrdən istifadə edilməməsi və İraq qarşısında cihad edilməsini istəyirdi." Onlar malik olduqları şiddətli təəssüblərlə yanaşı həmişə sərhədləri iğtişaşlı edirdilər. Bu da İraqda böyük neft yataqlarından bəhrələnmək imtiyazına malik olan ingilislər üçün çox təhlükəli idi. Buna görə də İbn Səudu "İxvan" təşkilatı ilə qarşılaşmağa məcbur etdilər. Nəhayət o ingilislərin köməyi ilə daxili qiyamçılara və "İxvan" təşkilatına qalib gələ bildi.

İbn Səud daxili problemləri həll etdikdən sonra məntəqənin siyasi səhnəsində zahir olmaq üçün qərb, ərəb və qeyri-ərəb dövlətləri ilə siyasi əlaqələrini möhkəmləndirməyə başladı. O qonşu ərəb dövlətləri ilə dostluq və qardaşlıq əhd-peymanı bağlamaqla həm qəbilələrin ehtimal verilən qiyamları sarıdan yaranan nigarançılığını aradan qaldırdı, həm də qonşularla gözəl əlaqələr bərqərar etməklə Ərəbistanı özlərinin ata-baba yurdu olmasını iddia edənlərin təhlükəsini aradan qaldırdı.

Nümunə üçün, İbn Səud 1930-cu ildə Küveytlə qarşılıqlı ticarət və sərhəd ixtilaflarının aradan qaldırılması ilə əlaqədar müqavilə bağladı, üç ildən sonra İordaniya ilə dostluq və qarşılıqlı anlaşma müqaviləsi

---

[1] "Siyasət və hökumət dər Ərəbistani Səudi", Seyyid Davud Ağayi, səh.33

[2] Həmin mənbə, səh.35

[3] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.32

imzalandı və 1936-cı ildə İraqda haşimi sülaləsi ilə əlaqələrini yaxşılaşdırdı.

İbn Səudun silahlandırılmasını və iqtisadi cəhətdən himayə olunmasını öhdəsinə alan Britaniya artıq özü ilə həmpeyman olan ölkələri məntəqədə də bu siyasətin davamına saldı. Britaniya İbn Səudla bağladığı 1927-ci il müqaviləsinə əsasən onu himayə etməkdən əlavə Ərəbistanın kamil və mütləq istiqlaliyyətini də rəsmi olaraq qəbul etdi. Həmçinin İbn Səud 1929-cu ildə Almaniya ilə dostluq və əməkdaşlıq müqaviləsi imzaladı. O, qonşu ölkələrlə sərhəd ixtilaflarını aradan qaldırmaq üçün 1353-cü h.q ilində yəmənlilərlə, Əsir, Nəcran, Cizan məntəqələri ilə əlaqədar müharibənin sona çatmasından və Təhamənin işğal olunmasından sonra imam Yəhya Bədr ilə dostluq müqaviləsi imzaladı.

1929-1933-cü illərdə dünyaya iqtisadi böhran hakim idi və bu zaman həcc ziyarətçilərinin sayının azalmasına, 1931-32-ci illərdə quraqlıq baş verdiyinə və eləcə də xurmalarının yaxşı satılmadığına görə Ərəbistanın iqtisadi vəziyyəti çox qeyri-münasib bir şəraitdə idi.

Bu çətinliklər İbn Səudu vadar etmişdi ki, oğlu Feysəli kredit almaq üçün Avropaya göndərsin. Feysəl 1932-ci ildə Avropaya səfər etdi. Onun kredit istəyinə diqqət yetirilmədiyinə görə Moskvaya getdi və orada Stalin tərəfindən alqışla qarşılandı. Çoxdan bəri məntəqəyə və Fars körfəzinin sularına nüfuz etmək üçün münasib şərait yaranmasını gözləyən ruslar Feysəlin oraya gəlişini qənimət saydılar və onun istəyinə müsbət cavab verdilər. Amma Britaniyanın göstərdiyi fəaliyyətlər rusların öz məqsədlərinə çatmasına mane oldu (ingilislər rusların Feysələ verdiyi təkliflərdən agah olmuşdular).

Artıq yeni bir imtiyaz verilməsinin vaxtı çatmışdı; vəhhabi səudilər öz iqtisadi problemlərini aradan qaldırmaq üçün (bunun əsas hissəsi daxili istehlakdan irəli gəlirdi) qərblilərə neft barəsində imtiyaz vermək məcburiyyətində qaldılar. Qərblilərin bu imtiyazları almaq üçün göstərdiyi səylər günbəgün şiddətləndi. Avropa və Amerika neft şirkətləri bu ilahi nemətdən istifadə etmək üçün ciddi şəkildə çalışdılar. Nəhayət “Standart Ovil Kaliforniya” neft şirkəti vəhhabi Səudilərə kredit vermək müqabilində Ərəbistanın şərqində neft ixracını 1932-ci ildən etibarən 66 il ərzində qəsb etdilər.

Ərəbistanda neftin kəşf edilməsi və çıxarılması əsaslı dəyişikliklərə səbəb oldu və vəhhabilərin iqtisadi vəziyyətində çevriliş yaratdı. Belə ki, Məscid Camei bu barədə yazır: “...Bu yeni və qüdrətli amil (neftin kəşf olunması) həm Ərəbistana, həm də vəhhabiliyə çox sıçrayışlı bir təsir qoydu. Neftin gəliri Səudi əmirlərinin gözünü işıqlandırdı və onlara göstərdi ki, yaşadıqları dünya daha böyük, daha gözəldir. Bu da onların

ixtiyarını əlindən aldı."[1]

1939-cu ildə ikinci dünya müharibəsinin başlanması ilə eyni zamanda, beynəlxalq vəziyyət dəyişdi, Ərəbistan da bu dəyişiklikdən kənarda qalmamışdı. İbn Səud müharibənin əvvəlində döyüşən tərəflər qarşısında müəyyən və sabit mövqe tutmamışdı. Amma buna baxmayaraq (o, müharibə başlamazdan əvvəl Almaniya və İtaliya ilə hərbi müqavilə, Yaponiya ilə dostluq və ticarət əlaqələri imzalamışdı). Amma Almaniya və İtaliya İbn Səudu özlərinin mehvər qüvvələrinə meylli etmək üçün onu çox təzyiqlərə məruz qoydular. Amma bunlara baxmayaraq İbn Səud müharibənin axırlarına qədər konkret bir mövqeyə malik olmadı. Yalnız müharibənin axırlarında qələbə çalanlara meyl göstərməyə başladı.

"Böyük İslam Enskilopediyası" kitabında belə qeyd olunur: "Əbdül-Əziz dünya müharibəsinin başlanması, neft istehsalının aşağı səviyyədə olması və hacıların azalmasına görə iqtisadi çətinlikdə olduğundan, Amerika və İngiltərə dövlətlərindən kredit istədi və xatırlatdı ki, onun istəyinə diqqət yetirilməzsə neft ixracının qarşısı alınacaqdır."[2]

Amerika İngiltərəyə verdiyi kredetin bir hisəsini İbn Səuda verdi. Amerikanın siyasətində daxili neftin yerinə xarici neftdən istifadə etmək zərurəti qarşıya çıxdığından (1940-cı ilə qədər İbn Səudun sarayında onların heç bir nümayəndəsi yox idi və Ərəbistan neftinin kəşf edilib çıxarılmasını yalnız amerikanların xüsusi şirkətləri öhdələrinə almışdı) 1943-cü ilin may ayında Ərəbistanla siyasi əlaqələr yaratdılar və "Aramku" neft şirkətinin işə düşməsi ilə Amerika müharibəni dünyanın bu tərəfindən idarə edilməsi üçün Zəhran hava limanında gizli bir qərargah təsis etdi. Bununla da Britaniyanın müstəmləkəçiliyi sona çatdı və ikinci dünya müharibəsi Amerikanın Ərəbistana nüfuz etməsi üçün dönüş nöqtəsi oldu. 1945-ci ildə Ruzvelt ilə Əbdül-Əziz arasında Amerikanın "Kuinsi" adlı hərbi gəmisində baş verən danışıqlar zamanı Amerikanın məntəqədəki müstəmləkəçilik siyasətləri genişləndi. Bu görüşün ardınca İbn Səud almanların əleyhinə çıxdı və bununla da müharibənin qalibləri sırasına keçdi.

Amerikanın prezidenti Ruzveltin İbn Səudla görüşündə diqqət yetirilən məsələ Fələstin məsələsi və yəhudilərin orada məskunlaşdırılması idi. Aydın olduğu kimi, amerikalılar sionistlərin orta şərqdə məskunlaşmasına şərait yaratmışdılar və əlbəttə, bu kimi səylər tamamilə diplomatik və hiyləgərlik yolları ilə həyata keçirilirdi.

Həqiqətdə amerikalılar vəhhabilərin firavanlıq, eyş-işrətçilik, həddindən artıq israfçılıq və pulpərəstlik kimi xüsusiyyətlərini yaxşı

[1] Məscid Camei Məhəmməd, "Vəhhabiyyət dər cəzirətül-Ərəb", səh.4
[2] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.33 34

şəkildə dərk etmiş və onların şan-şöhrət istəklərini təmin etməklə Ərəbistanın neft hasilatı rayonlarına daha geniş nüfuz etmək üçün lazımi şəraiti yaratmışdılar.

Müntəzəm və dəqiq bir idarə sisteminin olmaması, eləcə də həddindən artıq iqtisadi çətinliklər, ikinci dünya müharibəsindən irəli gələn qeyri-münasib şəraitlər və bir sıra digər amillər səbəbi ilə 1945-ci ildə Əbdüllah Məndili adlı bir təyyarə sürücüsü tərəfindən İbn Səudun əleyhinə çevriliş yaradıldı ki, bu da nəticəsiz qaldı.

İqtisadi çətinliklər, iqtisadiyyata hakim olan infliyasiyalar, çıxarılan neftin (müharibə, təhlükəsizliyin olmaması və s.-yə görə) satılmaması "Aramko" fəhlələrinin üsyanına səbəb oldu. Bu üsyanın sürətlə yatırılmasına baxmayaraq gələcəkdə vəhhabilərin əleyhinə daha bir qiyam və ya tətil üçün şərait yaratdı.

İbn Səudun gördüyü tədbirlərdən biri 1945-ci ildə "ərəb ittihadiyyəsi protokolu"nu imzalaması idi. "Ərəb birliyinin yaradılması istiqamətində atılan ilk addımlar bu ittihadiyyənin təşkil edilməsi ilə əlaqədar təşkil edilən (1944-cü il, oktyabr) ilk konfransda İbn Səudu və Misirdəki Məlik Faruğu bir-birinə yaxınlaşdırmaları idi."[1]

Vəhhabi səudilərin etibar və heysiyyətinə ciddi zərbələr vuran məsələ 1947-ci ildə Fələstin ərazilərində təşkil olunan yəhudi dövlətinin qarşısında onların ciddi reaksiya göstərməmələri idi. Bu dövlətin Fələstində yaradılması ilə əlaqədar Amerikanın Birləşmiş Millətlər Təşkilatındakı müsbət rəyinin ardınca İbn Səudun bu acı həqiqəti qəbul etməsinə baxmayaraq (əlbəttə, onların mənafeyi amerikalılar tərəfindən təmin olunan vaxta qədər bu işlə çox da müxalifət etmirdilər). İslam və ərəb dünyasında o zaman qəbul ediləcək bir rəhbər olmadığından, vəhhabi səudiləri zəif reaksiya göstərdiyinə görə etibardan saldı. Vəhhabilər bu baxımdan ciddi zərbəyə məruz qaldılar. Xüsusilə, onların etibarı əsasən, birinci Ərəb-israil müharibəsində (1948) ərəblərin cəbhəsinə yalnız bir qrup əsgər göndərdikləri zaman aradan getdi.

İbn Səud 1949-cu ildə çalışırdı ki, Suriyaya kredit verməklə o ölkəni, Haşimi sülaləsinin nüfuzu dairəsindən çıxarsın və neft kəmərlərini tam xatircəmliklə Suriyadan keçirə bilsin. İbn Səudun bu səyləri Haşimi xanədanının İordaniyada və İraqdakı tədbirlərinin ardınca baş vermişdi: onlar "böyük bir Suriya yaradılması fikrini irəli sürmüşdülər." Səudiyyə Ərəbistanı da bu tədbirlə kəskin şəkildə müxalifət edirdi. Əgər Aramko şirkətinin Suriyaya verdiyi maddi köməklər olmasaydı, İordaniya və İraq hakimlərinin fikirlərinin gerçəkləşəcəyinə hər vaxt ehtimal verilirdi.

Həqiqətdə Ərəbistandakı Amerika neft şirkətləri öz mənafeyini kəsb

---

[1] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.88

etmək üçün hər növ siyasi müdaxiləyə hazır idilər. Onlar casus təşkilatlarının köməkləri ilə bir çox gizli məsələlərdən agah oldular və onu öz xeyirlərinə dəyişdirmək üçün tədbir gördülər. Nümunə üçün, vəhhabilərin problemlərindən biri onların sair ölkələrlə olan sərhəd ixtilafları idi. Bir tərəfdən vəhhabilərin ərazi iddiaları, digər tərəfdən isə bu ruhiyyənin yenidən canlanması vəhhabi İbn Səudu həmin yerləri işğal etməyə daha da sövq edirdi. Vahe Bərimi həmişə Ərəbistanla Əmmanın və Əbu-zəbinin Britaniya tərəfindən himayə olunan əmirlikləri və krallıqları arasında ixtilaflı məsələ idi.

Vəhhabilərin o məntəqəni ələ keçirmək üçün göstərdikləri səylər ingilislərin müdaxiləsi ilə məğlub edildi. Bu hadisələrdən vəhhabilərin imperialist ruhiyyələrini daha yaxşı şəkildə dərk etmək olar.

Qeyd olunmalıdır ki, vəhhabilərin Bərimidəki ərazi iddiaları Əbdül-Əzizin oğlu Məlik Səudun dövrünə qayıdır. Vəhhabilərin neft yolu ilə əldə etdikləri qazancların Amerika neft şirkətlərindən aldıqları kreditlərin hamısı İbn Səudun "Suriyaya kredit vermək, abadlıq işləri görmək, ölkə büdcəsini tənzim və icra etmək, təlim-tərbiyə, kənd təsərrüfatı, ticarət və nazirliklərinin təsis olunması, xəstəxana və mədrəsələrin tikilməsi kimi işlərinə sərf olunurdu."[1]

Nəhayət, İbn Səud 51 illik qətl və qarətlə yanaşı olan hökmranlıqdan, günbəgün ərazi iddiaları etməkdən, müsəlmanların dininə və izzətinə (xüsusilə Fələstin məsələsində) xəyanət və zülm etdikdən sonra 73 yaşında dünyadan getdi.

## *VƏHHABİLƏRİN SƏUD İBN ƏBDÜL-ƏZİZİN HAKİMİYYƏTİ DÖVRÜNDƏKİ CİNAYƏTLƏRİ (1953-1964)*

Məlik Səud atasının ölümündən sonra 1953-cü ildə hakimiyyətə gəldi. O "ümumiyyətlə beynəlxalq aləmdə baş verən hadisələrə etina etmir, yalnız ailə və tayfalar arasında baş verən dostluq və düşmənçilikləri nəzərə alırdı. Lakin İbn Səudun böyük oğulları başa düşmüşdülər ki, zəmanə artıq dəyişilmişdir və üslublarında müəyyən dəyişikliklər edilməlidir. Buna əsasən, şah Səudun dövründə ilk islahatlar aparıldı. Bu islahatlar əsas etibarı ilə nisbi xarakter daşıyırdı və xarici işlər, iqtisadiyyat, müdafiə, daxili işlər və beynəlxalq əlaqələr adlı nazirliklər əvvəlcədən yaradılmışdı... Səudun dövründə də, atasının dövründə olduğu kimi, iqtisadiyyatda hərc-mərclik hökm sürürdü və padşah dünyada baş verən hadisələrə qarşı laqeyd idi."[2] Məlik Səud hakimiyyətə keçdiyi ilk dövrdən qardaşı Feysəllə ixtilafa başladı. Feysəl

---

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.34

[2] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.100-101

özünü qardaşından daha artıq hakimiyyətə layiq bilirdi. Bu məsələ də onun Məlik Səudun dövründəki fəaliyyətlərindən sezilirdi. O cümlədən, ölkənin məsul vəzifələrini ələ keçirmək, yad dövlətlərlə siyasi və iqtisadi müzakirələrə rəhbərlik, Məlik Səudun qarşısında ciddi mövqe tutmaq və s. kimi işlərlə çalışırdı ki, islahatları təkcə xalq arasında sevilmək üçün deyil, həm də qüdrəti ələ keçirmək üçün aparsın və hakimiyyətə çatmaq üçün şərait yaratsın.

Feysəl 1953-cü ildə Məlik Səudun rəisliyi ilə təşkil olunan kabinədə solçuların himayəsi ilə "azad şahzadələr" adlandırılan saray sülaləsini xarici işlər nazirliyinə və baş nazirliyinin müavinliyinə keçirə bildi. Azad şahzadələr qrupu "liberal əqidələrə malik idilər və ictimai-siyasi səhnələrdə ifrat dərəcədə islahatlar aparılmasını istəyirdilər. Onlar əmir olmalarına baxmayaraq, Səud hakimiyyətində yalnız öz məqsədlərini irəli aparmaq üçün bir növ açıq siyasi fəza görürdülər. Bu cavan şahzadələr Əsas Qanun yazılmasını, Milli Məclis yaradılmasını və Ali Məhkəmənin təşkil edilməsini istəyir və bu məqsədlərinə hansı yolla çatmalarını fikirləşirdilər."[1]

Azad şahzadələr qrupunun rəhbərliyini qardaşlardan Tüllal ibn Əbdül-Əziz adlı birisi öhdəsinə almışdı. O, bir müddət Ərəbistanın Avropadakı nümayəndəliyini öhdəsinə aldıqdan sonra qərbin dövlət quruluşundan ilham aldığı fikirlərlə ölkəsinə qayıtdı. Həqiqətdə azad şahzadələr qrupunun vəhhabilərin siyasi səhnəsində təsirləri və rolları bu dövrdə daha çox əhəmiyyət kəsb edirdi. Feysəl öz qardaşı Səudun hakimiyyəti dövründə onunla aşkar ziddiyyətdə idi.

Məlik Səudun ölkə daxilindəki gördüyü tədbirlərdən biri onun hərbi sistemdə apardığı islahatlar idi. O, "İxvan cəmiyyətinin qədim şəbəkəsində olan çöl ərəblərindən bir qrupunu ağ ordu adı ilə yeni qüvvələrin tərkibinə daxil etdi. Bugünkü Səudiyyə dövranında ağ ordu, Milli Qvardiya adı ilə tanınır."[2]

Məlik Səudun padşahlıq dövründə irəli çəkilən məsələlərdən digər biri onun Misir və Nasiri ideologiyası barəsindəki siyasətləri idi. Həqiqətdə Nasirin 1954-cü ildə hakimiyyətə çatmasından sonra onun fikir və düşüncələri ərəblərə çox dərin bir təsir qoydu. Nasirin imperializimin ziddinə olan təbliğatları ilə yanaşı olan pan-ərəbizim nəzəriyyəsi ərəblərin millətçilik duyğularını həyəcanlandırdı. Eləcə də Nasirin qeyri-ərəb qüvvələri ilə hər növ ittihadın inkar edilməsi və yalnız ərəblərin bir-biri ilə ittihad bağlamasına dair təkid əsasında olan müsbət bitərəflik nəzəriyyəsi ərəblərin həyəcanlandırılmasında daha çox rol oynadı.

---

[1] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.121

[2] "Siyasət və hökumət dər Ərəbistani Səudi", Seyyid Davud Ağayi, səh.114

Nasirin yeni fikirləri məntəqədə çox sürətlə yayıldı və Ərəbistanın modernləşməsinə kömək məqsədilə göndərilən misirli müəllimlər, mütəxəssislər, hüquqşünas və həkimlərin köməyi ilə o ölkədə yayılmağa başladı. Həqiqətdə Nasirin inqilabçı fikirləri Misirdən sair Ərəb ölkələrinə yayıldı və öz təsirini günbəgün göstərməyə başladı.

Məlik Səud Nasirin düşüncələrindən təsirlənərək "bir tərəfdən siyasi blokadadan qurtarmaq, digər tərəfdən isə İngilislər tərəfindən İordaniya və İraqdakı himayə olunan haşimilər müqabilində dayanmaq üçün Misirlə dostluq siyasətlərini irəliyə çəkdi. O, Bağdad müqaviləsinə daxil olmaqdan imtina etdikdən sonra 1955-ci ildə Misir və Suriya ilə ayrı-ayrılıqda iki müdafiə müqaviləsi imzaladı, eləcə də Misir və Yəmənlə də belə bir müqavilə bağladı."[1] Məlik Səud ingilislərin Süveyş kanalından, Qırmızı dənizdən və Fars körfəzindən çıxırılması, eləcə də son zamanlar Bağdadda ingilislərlə həmkarlıq müqaviləsi bağlayan İordaniya və İraq hökumətləri ilə müxalifət etmək üçün Nasirlə müştərək mövqeyə malik idi. Vəhhabilər öz ərazi iddiaları barəsindəki tamahlarını icra etmək üçün İngiltərəni tərk etmək istəyirdilər.

Buna əsasən, vəhhabilər Bərim Vahəsinə sahib olmaq üçün "neft dollarları diplomatiyası"ndan istifadə edərək çalışırdılar ki, Aramko mütəxəssislərinin nəzərinə görə çox zəngin neft ehtiyatlarına malik olan həmin məntəqəni işğal etsinlər. Hətta vəhhabilərin "dollar diplomatiyası" da beynəlxalq hüquqşünasların təhrik edilməsini və onların xeyrinə olaraq tədbir görülməsini fəallaşdırdı. Amma onların həmin yeri ələ keçirmək üçün göstərdiyi səylər ingilislərin müdaxiləsi ilə təsirsizləşdi. Nəticədə səudilər ingilislərlə müzakirə etməyə məcbur oldular və bu barədə bir müqavilə də imzaladılar. Nəhayət, Vahə Bərimi barəsindəki iddialarından əl çəkdilər. Misir-Səudiyyə mehvəri Suriyanın onlara qoşulması ilə üçbucaq şəklində bir ittihadiyyəyə çevrildi ki, (Suriyanın özünün iki Haşimi qonşusu olan İraq və İordaniya ilə münaqişəli məsələləri var idi) İngiltərənin tərəfdarı və Bağdad müqaviləsinin üzvləri olan ölkələrin əleyhinə müştərək müdafiə siyasətlərini həyata keçirsinlər. İngilislərin və fransızların maddi mənafelərini təhlükəyə salan Nasirin inqilabçı fikirləri nəticəsində onlar Misirə daha artıq təzyiq göstərərək onu təhdid etdilər. Lakin bu təhdidlər nə qədər artırdısa Nasirin ərəblər arasındakı sevimliliyi də bir o qədər artırdı. Onun sevilməsi elə bir mərhələyə çatdı ki, Nasir ərəblərin arasında son dərəcə böyük nüfuz qazandı. Hətta, İraq və İordanya padşahları da Misirin prezidenti qarşısında əks mövqe tutmağa cürət etmədilər. O, 1955-ci ildə Məkkəyə etdiyi ziyarət səfərində Ərəbistan əhalisi tərəfindən çox alqışla

---

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.4

qarşılandı. Bu da vəhhabi məsləkində olan Məlik Səud üçün gələcəkdə ciddi bir təhlükə yarada bilərdi. Nasir Ərəbistanda Səudi rəhbərlərindən istədi ki, neft kimi böyük bir (iqtisadi) silahdan ərəblərin hədəfə çatmasında istifadə etsinlər və öz düşüncələrini onlara nəql etdirsinlər. Həqiqətdə Misirlə Ərəbistan arasında bağlanan birliyin əksinə olaraq bu ittihadın mehvəri təəccüblü və münasib olmayan bir ideya idi. Çünki Nasirin inqalabçı rejimi ilə Səudun irticaçı rejimi arasındakı aşkar ziddiyyətlər görünürdü.

Bu müddəanı isbat etmək üçün Süveyş kanalının milliləşdirilməsindən sonrakı hadisələrə diqqət yetirmək lazımdır. Nasir Ərəbistandan qayıtdıqdan sonra İsgəndəriyyədə Süveyş kanalını milliləşdirdi (1956-ci il, 26 iyun). Bu da həmin nahiyənin İngiltərə, Faransız və İsrail tərəfindən işğal olunması ilə nəticələndi. Bu tədbir nəticəsində "Səudiyyə padşahlığı özünün ingilislərlə və fransızlarla olan diplomatik əlaqələrini kəsdi və zahirdə də neftin bu iki ölkəyə ixrac edilməsini dayandırdı. Halbuki, Belçika, Hollandiya, Almaniya və İtaliya yolu ilə bu iki ölkənin neft sifarişləri təmin olunurdu. Bundan da mühümü budur ki, səudilər onlarla Misir arasında 1955-ci il 17 oktyabrda imzalanan dostluq və müdafiə müqaviləsinə əməl etmədilər. Bu müqavilənin ikinci maddəsində qeyd olunurdu ki, tərəflər təcavüzə məruz qaldıqda bir-birinə kömək etməli, özlərində mövcud olan bütün imkanlardan, o cümlədən, hərbi qüvvələrdən təcavüzün dəf edilməsi, sülh və əmin-amanlığın bərqərar edilməsi üçün istifadə etməlidirlər. Amma səudilər buna əməl etmədilər."[1]

1957-ci ilin yanvar ayında vəhhabilərin ərəblərin Misir və Suriya ilə həmrəyliyini bildirməklərini baxmayaraq bu ittihad da əvvəldə olduğu kimi çox zəif idi. Vəhhabi siyasətində nəzərə çarpacaq məsələ onların öz hədəflərinə çatmaq yolunda qüdrətli cinahlara meyl etmələrini, eləcə də həmişə qüdrətdə olmaq istəklərini qeyd etmək olar. Çünki ingilislər məntəqənin qüdrətli cinahı olduğu vaxta qədər vəhhabilər o ölkəyə sıx bağlı idilər. Amerika beynəlxalq meydana gəldikdən və məntəqə siyasətində aşkar olduqdan sonra onların yeni ərbablarına asılılıqları daha da artdı. Nasir ərəblərin arasında artıq nüfuza malik olduğu zaman vəhhabilər Nasirə doğru meyl etdilər ki, əməldə qüdrət karvanından geridə qalmasınlar.

Tarixin bu dövründə də Məlik Səudun siyasətlərindən biri Amerikanın istilaçılıq və imperialist siyasətləri cərgəsinə qoşulmaq idi. Belə ki, o "Ayzen Haver" tezini qəbul etdi və amerikalıların mənafeyini təmin etmək üçün çalışdı.

---

[1] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.109-110

Nasirin sovetlər ölkəsinə meyl etməsi nəticəsində Amerikada dövri prezident tərəfindən irəli sürülən “Ayzen Haver” tezi bu əsasda idi ki, şərqdə mövcud olan boşluq rusların hər növ tədbirindən öncə, Amerika vasitəsi ilə doldurulmalı və bu zaman qərb düşərgəsi halqasında yerləşən ölkələrə iqtisadi və hərbi köməklər göstərilməlidir. Nəhayət, ərəblərin arasında çox təsirli rol ifa etmək üçün Səud Amerikaya səfər etdi və orada “iki ölkə arasında yeni müqavilə imzalandı ki, bu da 1951-ci ildə imzalanan müqavilənin bir növ təkmilləşdiricisi idi. Bu müqavilədə Amerika Birləşmiş Ştatları öhdəsinə alırdı kı, səudilərin hərbi qüvvələrini yenidən təşkil etsin, onlara yeni müharibə texnikası versin, öz iqtisadi köməklərini də davam etdirsin. Xüsusilə, Dəmmam limanının genişləndirilməsi barəsində münasib kömək vədəsi verdi... Bunun müqabilində Səud Amerikaya Zəhran limanından beş il müddətində pulsuz istifadə etmək üçün razılıq verdi və onun məntəqədə nəzərdə tutduğu planı həyata keçirməyi öhdəsinə aldı ki, nəticədə Amerikanın qeydsiz-şərtsiz himayələrindən bəhrələnsin. Bu müqavilə Ərəb ölkələrinə və Nasirə qarşı bir növ müharibə hesab olunurdu.”[1]

Məlik Səud bu müqaviləni Amerika ilə bağladıqdan sonra Ərəbistana qayıtdı və yeni müttəfiqlər axtarmağa başladı. Bu zaman İordaniya və İraqın Haşimi padşahlarına üz gətirdi və hətta 1957-ci ildə şah Hüseynin əleyhinə İordaniyada hazırlanmış çevrilişi yatırtmaq üçün oraya hərbi qüvvə də göndərdi.

Bu zamandan etibarən Ərəb ölkələri iki hissəyə bölündü. Onlardan biri Nasirin tərəfdarları olan ölkələr idi ki, mütərəqqi hesab olunurdular. Digəri isə Səudiyyə Ərəbistanının düşərgəsi olan mühafizəkarlar idi. Sonuncu düşərgə Ərəbistan, İraq və İordaniyanı əhatə edirdi ki, öz aralarında ittihadiyyə yaratmış və inqilabi hərəkatlara qarşı mübarizə aparmağı qərara almışdılar. Bundan əlavə Məlik Səud özünün Misir və Suriya ilə əlaqələrini kəsdi və çalışdı ki, Livanda Kamil Şəmun ilə olan əlaqələrini möhkəmləndirsin, Bəhreyn əmirlikləri ilə olan ixtilaflarını həll etməklə özünü ərəblərin mötədil rəhbəri kimi göstərsin. Eləcə də Ərəbistan, Küveyt və Bəhreyn ölkələrindən təşkil olunmuş federasiyanın yaradılması planı, Ərəbistanın onun rəhbərliyini öhdəsinə almaq fikrində olması nəticəsində icra olunmadı. Səudun Məsqit və Əmman krallıqları ilə, eləcə də Əmarat və Əbu-zəbi sultanları ilə rabitə qurması barəsindəki səyləri nəticə vermədi. Onun “Ayzen haver” tezində qərarlaşması Nasirlə olan əlaqələrini gərginləşdirdi, səudilərin hakimiyyətində də dərin böhranlar yarandı. Bu dövr hadisələri ilə əlaqədar “Böyük İslam Enskilopediyası” kitabında belə qeyd olunur:

[1] Həmin mənbə, səh.111

“...Səudun qardaşları, xüsusilə həmişə öz nüfuzunun genişlənməsi fikrində olan qardaşı Feysəl, Məlik Səuddan istədi ki, ya şah qardaşlarını oğlanları ilə bərabər hüquqdan bəhrələndirsin, ya da icra işlərində Feysəlin xeyrinə iş görməkdən əl çəksin. Məlik Səud axırıncı təklifi qəbul etmədi. Lakin 1958-ci ilin martın 10-da bəzi qanunlar çıxartdı ki, onun əsasında icra işləri baş nazirlik məqamına çatan Feysələ həvalə edildi. Lakin siyasi qüvvələr Səudun öz əlində qaldı. Baş nazirə ixtiyar verilmişdi ki, ölkə işlərini sahmana salmaq üçün müəyyən tədbirlər görsün. Bu iki qanun padşahın qüdrətini məhdudlaşdırdı, vəzirlərin qüdrətini isə artırdı. Öz yanında Feysəl kimi bir rəqibi görməyə tab gətirməyən Məlik Səud 1960-cı il dekabırın 21-də onu işdən çıxartdı və özü Səudi sülaləsindən olmayan altı nəfərin iştirakı ilə bir dövlət kabinəsi təşkil etdi, daxili islahatlar aparmaq, «Əsas Qanun»u tənzim etmək üçün yeni proqramlar irəli sürdü. Azad şahzadələrin yazdığı təzə «Əsas Qanun» qəbul olundu və bu da göstərdi ki, Səudiyyə Ərəbistanı mütləq padşahlıqdan məşrut padşahlığa keçmişdir. Bu zaman iki ümumi idarə - biri iş, biri isə ictimai məsələlər üçün yaradıldı, iqtisadiyyat naziri olan əmir Təllalın başçılığı ilə bir komitə də yaradıldı və proqram hazırlamaq onun öhdəsinə qoyuldu. Dövlət təşkilatlarında qanunsuzluqlarla mübarizə aparmaq üçün məhkəmə yaradıldı və nazirlər kabineti qərara aldı ki, Zəhrandakı hərbi hava qüvvələri üçün icarəyə verilən hərbi təlim düşərgələrinin icarə müddəti uzadılmasın. Səudi sarayındakı müftidən də istənildi ki, dövlətin qanun və qərarları onun rəyi və nəzəri olmadan icra olunmasın. Əmir Təllal müxalifətə başladı. Lakin şah müftinin rəyinə tərəf çıxdı. Təllalın ölkənin iqtisadi vəziyyətinin sahmana salınması barəsində göstərdiyi səylər də Səudun müxalifəti ilə qarşılaşdı. Onun enerji şirkətlərinin milliləşdirilməsi ilə əlaqədar verdiyi təklif rədd olundu. «Əsas Qanun»un icra olunması gündən-günə təxirə salındı, nəhayət bəzi iğtişaşların yaranmasına səbəb oldu. Şah bu iğtişaşların cavabında 1961-ci ilin sentyabr ayında azad şahzadələri və Təllalı dövlət kabinetindən çıxartdı və öz oğlanlarını onun yerinə qoydu.”[1]

1336-cı hicri şəmsi ilində Feysəl cərrahiyyə əməliyyatı üçün Amerikaya getdi və qayıdan zaman Riyaz ilə Qahirənin arasında yaranan gərginliyi aradan qaldırmaq üçün özünün Bağdad müqaviləsi ilə müxalifətini təkidlə yenidən bəyan etdi və müsbət bitərəflik siyasətinin tərəfdarı olduğunu bildirdi. (Qeyd olunmalıdır ki, bundan əvvəl Səud ilə Nasirin arasında müəyyən ixtilaflar yaranmışdı.)

Feysəl Amerikadan qayıtdıqdan sonra yenidən baş nazirlik vəzifəsinə

---

[1] “Böyük İslam Enskilopediyası”, 2-ci cild, səh.35

çatıb tam səlahiyyət sahibi oldu və Ali-Səudun Amerikaya hərtərəfli xidmət əsasında qurulan yeni siyasətlərini icra etməyə başladı. O, daxili vəziyyətdə müəyyən dəyişikliklər yaratmaq üçün bəzi islahat işləri apardı ki, onlardan biri də saray xərclərinin azaldılmasıdır. O, bu yolla Aramkodan kredit almaq istəyirdi. Onun bu məsələ barəsindəki fəaliyyətləri vəhhabilərin Misir və Nasirin müxalifləri olan şəxsiyyətlər və qruplara olan köməklərinin kəsilməsinə səbəb oldu. Nasirin Zəhran məntəqəsini Amerikaya icarəyə verilməsi əsasında olan istəyində qeyd olunmuşdu ki, Amerikanın orada heç bir silah anbarı yoxdur. Beləliklə də Nasirin özünə qarşı münasib rəyini cəlb edə bildi.

Feysəlin əsas etibarı ilə dövlət qulluqçuları, tacirlər və hərbçilərə aid olan islahat işləri onu ümumxalq nəzərində xəsis bir adam kimi canlandırdı və camaatın, hətta Nasirin fikirlərinin təsiri altında olan hərbiçilərin belə narazıçılığına səbəb oldu. Feysəlin apardığı islahatlar nəticəsində bəzi nəzər sahibləri onun yenilikçi, yeni növ Ərəbistan dövləti yaratmaq istəyən bir şəxs kimi təqdim etdilər. “Amma məşrutə səltənətindən söhbət açılanda qəzəbləndi, millət kəlməsini eşitmək istəmədi... O, nümayəndələr seçilməsi barəsində danışmaq belə istəmədi. Çünki qorxurdu ki, onlar təbii rəhbərlərin yerini tutsunlar və Səudiyyə ölkəsini məhvə sürükləsinlər. Həqiqətdə, onun nəzərində hökumətdəki məqam silsilələri rəy verənlərin rəyi əsasında ola bilməzdi.”[1] Deməli, Feysəlin baş nazir vəzifəsində çalışarkən məqamında apardığı islahatlara baxmayaraq Səudi padşahlarının qüdrətini azaltmaq fikrində deyildi.

Feysəlin apardığı islahatlardan bəziləri onunla Səud arasındakı ixtilafları artırdı və bununla da bir daha istefa vermək məcburiyyətində qaldı. Seyyid Davud Ağayi yazır ki, “1960-cı ilin başlanğıcındakı on illiklərdə Səud və Feysəlin ardıcıl dəyişməsi ilə neft kontraktları əleyhinə olan əks-imperialist mövqelər, Təllal ilə öz qardaşları arasında yaranan ixtilaflar, Sənada dövlət çevrilişi və respublikaçıların qələbəsi, Misir qoşunlarının Ərəbistanın cənubuna və Yəmənə göndərilib bu məntəqələrdə qərarlaşdırılması və s. kimi işlərin hamısı rəy sahiblərinin və mütəxəssislərin nəzərində Ərəbistanı təhlükəsizliyin pozulduğu bir məntəqə kimi qələmə verirdi.”[2]

Yəmən barəsinə gəldikdə isə, o, ölkədə respublikaçıların hakimiyyətə gəlməsinə səbəb olan hadisələr nəticəsində Feysəl bir daha ölkə işlərini idarə etmək üçün Məlik Səud tərəfindən seçildi və bu dövrdə o daha fəal rol oynaya bildi. Nəhayət, iqtidara gəldi.

Yəməndə imam Əhmədin vəfatından sonra İmam Məhəmməd Bədr

---

[1] Fuiyə Klevd, “Nizami-Ali-Səud”, səh.129 130

[2] “Siyasət və hökumət dər Ərəbistani Səudi”, Seyyid Davud Ağayi, səh.121

onun canişini oldu. Bitərəf bir siyasət seçdiyinə və Misir əmtəələrini o ölkəyə qaytardığına görə səudilərin etimadını qazandı, lakin hakimiyyətə gəlməsindən bir həftə sonra çevriliş baş verdi və hakimiyyət general Əbdüllah Səllalın əlinə keçdi. O, Qahirə ilə dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə çalışırdı. Buna görə də dərhal Misirdən hərbi kömək istədi. Beləliklə, Nasir strateji və siyasi bir mövqe əldə edə bildi. Çünki, Ərəbistanın şimalında respublika tipli İraq dairəsinə, qərbdə Misir və cənubda Yəmən olmaqla Ərəbistan kamil mühasirədə qaldı.

Nasir həmçinin Yəmən çevrilişi ilə ingilislərin Ədəndən çıxacağına ümid bəsləyirdi. Suriyada Nasirin tərəfdarlarının qüdrətli olmamalarına baxmayaraq Bəs partiyası əsla səltənət tərəfdarı deyildi və buna görə də ingilislərə və amerikalılara sığınırdı. Süveyş məğlubiyyətindən sonra hələ də baş qaldırmayan ingilislər birbaşa çarpışmağa hazır deyildilər. Amerika da sovetlər ölkəsinin Kubada raket bazası yaratması və 1962-ci ilin oktyabr ayında Sovet hökuməti ilə müharibə ərəfəsinə gəlib çıxdığından Amerikanın yeni prezidenti Can Biydu adlı bir nəfəri Qahirəyə səfir göndərdi ki, Misir ölkəsi sovetlərə qoşulmasın.

O, öz raportunda Yəmən çevrilişinin formalaşmasında Nasirin əqidə və fikirlərinin rolunu təsirli hesab etmişdi. Səud Yəmən krallığını silahlı müdafiə etməyə qərara aldı. Əlbəttə, Ali-Səudun sair üzvləri onu daha artıq ehtiyatlı davranmağa tövsiyyə edirdilər. Səudun Yəməndəki krallıqları himayə etməsi ilk əvvəl çox gərkin vəziyyət yaratdı. Ərəbistanın BMT-dəki nümayəndə heyətinin başçılığını öhdəsinə alan Feysəl Kenedinin Amerikanın Səudiyyə Ərəbistanın ərazi bütövlüyü və təhlükəsizliyi bərəsindəki himayəsini cəlb edə bildi. Halbuki, Kenedi Feysəlin istədiyinin əksinə olaraq Yəmən respublika quruluşunu rəsmi olaraq tanımışdı. Bu dəfə vəzirlər şurasında iştirak edən Səudun qardaşları və şahzadələr onun Sənaya hərbi hücumunun qarşısını aldığından Məlik Səud bir daha özünü yalqız gördü və çarəsiz qalaraq Feysəli ölkə işlərini idarə etmək üçün həmkarlığa dəvət etdi. Feysəl ölkəyə daxil oldu və dövlət kabinetini təşkil edib baş nazirliyi və xarici işlər nazirliyini öz əlinə aldı. “Amerikalıların nəzərinə görə Məlik Səud mürtəcelərin və geridə qalmışların nümayəndəsi, həmçinin qəbiləvi meyarların tərəfdarı idi. Halbuki, əmir Feysəl xüsusi nəzər və məharətə malik idi. O, islahatçıların himayəsini cəlb edib Ərəbistanı yenidən tərəqqiyə malik olmağa vadar edə bilərdi. O, az bir maneələrlə özünü zaman və məkanla mümkün qədər uyğunlaşdıra bilərdi.

Səudi rejimi daxildə müxalifsiz olmağına baxmayaraq əsas və ümdə təhlükə xaricdən, o cümlədən, Nasirin millətçilik fikirləri, inqilabçılıq düşüncələri, xüsusilə şimali və cənubi Yəməndən gələn fikirlər idi.

Misirin rəhbəri Nasir pan-ərəbizim fikirlərinin nüfuz etməsində bayraqdar hesab olunduğundan, Amerika çalışırdı ki, Səudiyyə rejimini belə bir coşğun selin qabağında bir maneəyə çevirsin, özü də bu təhlükədən amanda qalsın. Buna əsasən, yaranan bütün fürsətlərdən gözəl şəkildə istifadə edərək Feysəli hər tərəfli himayə etdi və öz məqsədinə nail oldu."[1]

Amerika Ərəbistanı himayə etməklə öz qüvvələrini Zəhran hərbi hissəsinə qaytardı və bu ölkənin Yəmənlə sərhəddində hava hücumundan müdafiə xətti icad etdi. Bu dövrdə Misirin hava qoşunları Nəcran və Cizanın sərhədlərinə hücum edərək müəyyən xəsarətlər vurdu ki, bu da Feysəlin Nasirdən rəsmi şəkildə ayrılmasına səbəb oldu. Feysəl ingilislərin himayəsini qazanmaq üçün Ərəbistanın Britaniyanın himayəsi altında olan Vahi Bərimi barəsindəki iddialarından əl çəkdi. İngilislər Yəməndəki yeni hakimiyyəti rəsmi olaraq qəbul etmədiklərindən 1963-cü ilin yanvar ayında onların arasında yenidən diplomatik əlaqələr yaradıldı. İngilislər ümidvar idilər ki, Amerikanın Ərəbistandakı istismarçı mövqeyini sındıracaq və heç olmazsa casus şəbəkələri vasitəsi ilə hadisələrin gedişatına daxil olacaqlar. Amma ümumiyyətlə ingilislər artıq əvvəlki qüdrətlərini əllərindən verdilər və onların görə biləcəyi ən böyük iş dolayı yolla himayədarlıq etmək idi. Buna görə də bir qrup muzduru, bir qədər də (İsraildə hazırlanan) yüngül silah - avtomat və pleymotları Ərəbistana təhvil verdilər.[2]

Nəhayət, Nasir 1963-cü ildə Yəmən respublikaçılarını himayə etmək məqsədi ilə "Ramazan" adlı böyük bir əməliyyat keçirdi. Feysəl yenidən onların arasında vasitəçilik etməkdən ötrü Amerikaya sığındı. Amerika Ərəbistana hərbi qüvvə göndərməklə ehtimal verilən hücumların qarşısını almaqdan ötrü Feysələ tövsiyə etdi ki, ölkə daxilində əsaslı islahatlar aparsın. Bu islahatların aparılması da qonşularla sülh şəraitində olmağı tələb edirdi ki, onun da başında vəhhabi hökuməti dayanır.

Həqiqətdə qərbliləri, xüsusilə amerikalıları səudilərin yerinə başqa bir münasib adamı seçməyə vadar edən şey onun xarici siyasətindəki zəifliklərdən əlavə, daxili siyasətdə də uğursuzluğu idi. Çünki Məlik Səud daxili siyasətdə əxlaqi pozğunluğa düçar olan bir diktator idi. Firavanlıq və eyş-işrət düşkünü ruhiyyəsinə malik olduğuna görə ölkəni müflisləşdirib iqtisadi tənəzzülə doğru çəkmişdi.

Tərdicən Səudiyyə padşahlığının dəyişdirilməsi zərurəti yaranmışdı. Belə ki, Feysəlin yenidən baş nazir vəzifəsinə keçməsi ilə Səud müalicə məqsədi ilə Amerikaya səfər etdi. Feysəl də bundan istifadə edərək saray

[1] Həmin mənbə, səh.123 124

[2] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.136 137

xərclərində qənaətlə davrandı. Milli qvardiyanın böyük bir hissəsini Yəmən sərhədlərinə göndərdi (bunların daxildə qalması Feysəlin öz hədəflərini icra etməsinə təhlükə törədirdi). O, çalışırdı ki, Səudi ilə qədimdən düşmənçilik aparan Şəmmər qəbiləsini, eləcə də ifratçı və azad şahzadələri öz ətrafına toplasın. Xarici siyasətdə də Yəmən ilə sərəhdlərin təyin olunması bərəsində müqavilə bağlamışdı. Məlik Səud Amerikadan qayıtdıqdan sonra Feysəlin gördüyü tədbirlərdən nigaran oldu. Lakin şahzadələrin, o cümlədən, liberalların onunla həmrəy olmasına, ölkənin əsas idarə işlərinin Feysəlin etimad etdiyi şəxslərin ixtiyarında olduğuna görə heç bir iş görə bilmədi. Buna əsasən, Feysəl 1964-cü ildə təşkil olunan ərəb ölkələri başçılarının yığıncağında Səudu Ərəbistanın nümayəndəsi adı altında Qahirəyə göndərdi. Qahirədə Nasir tərəfindən alqışla qarşılanan Səud həm onunla, həm də Yəmənin prezidenti Əbdüllah Səllal ilə görüşdü, Yəmən respublikasının rəsmi olaraq tanınmasında öz himayəsini bildirdi. Bu məsələ Feysəli bir təhlükə ilə qarşılaşdırdı və öz məqsədlərini həyata keçirmək qərarına gəldi.

"Böyük İslam Enskilopediyası" kitabında belə qeyd olunur: "... Məlik Səud Riyaza qayıtdıqdan sonra bir daha özünün tam səlahiyyət və ixtiyarlarını tələb etdi. Lakin Feysəl və ondan da artıq saray xanədanları onun istəyinə əhəmiyyət vermədilər. Yüksək rütbəli məsulların və şeyxlərin yığıncağında qərara alındı ki, Məlik Səud dövlətin sadəcə olaraq prezidenti adı ilə qalsın və icra işləri Feysələ həvalə edilsin. Lakin Məlik Səud bunu qəbul etmədi. Şeyxlərin və ruhani alimlərin 1964-cü ilin mart ayında təşkil etdikləri yığıncaqda əvvəlki yığıncağın qərarları qəbul olundu və 1964-cü ilin noyabr ayında Məlik Səud rəsmi bir bəyannamə ilə öz vəzifəsindən azad edildi və Feysəl kral taxtına əyləşdi. Səud 1965-ci ilin yanvar ayında Feysələ bir məktub yazaraq onu ölkənin qanuni padşahı hesab edərək ona vəfadar qalacağı barədə and içdi. Amma çox keçmədən Feysəllə mübarizə aparmaq üçün Əbdün-Nasirə üz gətirdi və xüsusi bir ordu yaratmağa çalışdı. 1967-ci ilə qədər öz vaxtının çoxunu Afinada keçirən Məlik Səud Əbdün-Nasirin köməyi ilə Yəmənə getdi. O, ölkə inqilabçıları ilə görüşdü və Nasiri özünün ən yaxın dostu hesab etdi. Sonra Afinaya qayıtdı və 1969-cu ildə orada dünyadan getdi."[1]

Beləliklə, Feysəl ilə Səudun arasında ixtilaflar Feysəlin xeyrinə tamam oldu və o, öz qardaşını hakimiyyətdən uzaqlaşdıraraq onu öz əlinə ala bildi.

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.36

## *VƏHHABİLƏRİN FEYSƏL İBN ƏDBÜL-ƏZİZİN RƏHBƏRLİYİ DÖVRÜNDƏKİ TƏDBİRLƏRİ (1964-1975)*

Feysəl Ali-Səudun ən məşhur rəhbərlərindən idi. O, atası Əbdül-Əzizin Ali-Rəşid və Məkkənin şərifləri ilə apardığı müharibələrdə də iştirak etmişdi; atasının ölümündən və qardaşı Səudun hakimiyyətə gəlməsindən sonra onunla ixtilafa başladı və onu hakimiyyətdən uzaqlaşdırmağa çalışdı. O dövrdə Məlik Səudun ölkənin bütün işlərində bacarıqsızlığından istifadə etməklə və islahat tədbirlərini irəli sürməklə əvvəlcə xarici işlər naziri daha sonra isə baş nazir vəzifəsinə çata bildi və bununla da onun üçün hakimiyyətə gəlməkdən ötrü zəmin yarandı.

Feysəl iqtidara çatdıqdan sonra öz ixtiyar və səlahiyyətlərini artırdı. Baş nazir, xarici işlər naziri və ordunun ali komandanlığı vəzifələrini şəxsən öz öhdəsinə götürdü. Qardaşı Xalidi özünün müavini, daha sonra canişini seçdi.

Seyyid Davud Ağayi bu barədə belə yazır: "Səudiyyə Ərəbistanının hökuməti Feysəlin dövründə çox fəal xarici siyasətə malik idi. Feysəlin diplomatiyasının mehvəri 1960-cı illərdə Nasirin milli-azadlıq hərəkatları ilə ziddiyyət təşkil edirdi. Feysəlin dövründə ərəblərlə İsrail arasında iki böyük müharibə (1967 və 1973-cü illərdə) baş verdi. İki Yəmən məsələsi, İraqın vəziyyəti, Suriya, Əmmanda Zəhar hərəkatı, 1973-cü ildə neft blokadası və sair kimi hadisələr Feysəlin hakimiyyət illərinə təsadüf edirdi.[1]

Feysəl 1962-ci ildə Məkkədə bir konfrans təşkil etdi. Onun əsas məqsədi iştirak edənlərin əsası Səudiyyə ölkəsi tərəfindən qoyulan və beynəlxalq meyarlarla da uyğun olan prinsiplərə dəvət edilməsi idi. Buna əsasən artıq sair islam rəhbərləri də bu fikirlərdən istifadə edərək Səudiyyə islamını özlərinə örnək götürə bilərdilər. Bu da Nasirin millətçilik hərəkatının qarşısını alırdı. Çünki o, iddia edirdi ki, vəhhabi məzhəbi yolu ilə Camal Əbdün-Nasirin Ərəbistanda irəli çəkilən ifratçı millətçilik nəzəriyyələrini rədd etmək olar.

Feysəl pan-islamizm nəzəriyyəsini irəli çəkməklə Nasirin millətçiliyi ilə mübarizəyə başladı və bu zaman vəhhabi islamının İslam ölkələrində irəliləyişi üçün istifadə etdi. O, öz fikirlərini yaymaq və nüfzunu artırmaq üçün 1965-1966-cı illərdə doqquz Afrika və Asiya ölkəsinə: İordaniya, Sudan, Tunis, Kenya, Mali, Mərakeş, İran, Türkiyə və Pakistana) səfər etdi və onları Nasirin cəbhəsi ilə mübarizəyə çağırdı. Həmçinin, pan-islamizm nəzəriyyəsini gücləndirmək üçün bir-birinə kömək olmalarına çalışdı. Bu işdə İordaniya və Liviya sultanları onu

[1] "Siyasət və hökumət dər Ərəbistani Səudi", Seyyid Davud Ağayi, səh.125

himayə etdi. Amma Suriya və İraq rəhbərləri onun pan-islamizm nəzəriyyəsini mütləq monarxiyanın qorunub saxlanması üçün müştərək bir sığorta olaraq təqdim etdilər.

1965-ci ildə Feysəl ilə Nasir arasında Yəmən hadisələri barəsində bir müqavilə imzalandı və "belə qərara alındı ki, Feysəl Yəmənin inqilabi dövlətinin hərbi işlərinə müdaxilə etməkdən, İmam Əl-Bədrə kömək etməkdən əl çəksin. Misir dövləti də söz verdi ki, öz qüvvələrini Yəməndən geri çağırsın. Səudilərin Misirdə dondurulmuş olan bəzi sərmayələrini azad etsin."[1] Həqiqətdə Feysəl və Nasirin bu müqavilədəki əsas hədəfi hər birinin öz məqsədini yerinə yetirmək üçün ödəməli olduğu ağır gəlirlərin aradan qaldırılması idi. Bundan əlavə, Feysəl nəzərdə tutmuşdu ki, onun Nasirlə düşmənçiliyinin aradınca ehtimal verilən təhlükələrdən qorunsun. Buna əsasən, Nasir Ərəbistana etdiyi səfərdə Feysələ təklif edib bildirdi ki, İngilis qüvvələrinin Yəmənin cənubundan çıxarmaqla eyni zamanda Misir dövləti öz qüvvələrini oradan çıxarmağa razıdır. Feysəl də Yəməndə hakimiyyət uğrunda mübarizə aparanları himayə etməməsin söz verdi.

Bu müzakirələrdə Feysəlin əsas məqsədi qüvvələrin yeniləşdirilməsi, ordunun sahmana salınması və gücləndirilməsi, həmçinin məntəqənin siyasi səhnəsində fəal olması idi. Buna görə də Nasir ingilislərin təyin olunmuş vaxtda Yəməni boşaltmayacaqlarından və Feysəlin İran şahı ilə müzakirə aparmasından agah olduğu zaman lazım olan hər vaxta qədər misirli qüvvələr Yəməndə qalacaqlarını bildirdi. Bundan əlavə, səudilərin daxili müharibələrdə məhv edilməsi ilə əlaqədar uzun müddətli strateji planlar irəli sürmüşdü. Bu barədə cənab Şirazi belə yazır: "...Belə nəzərə çarpır ki, o zaman şərqdə biri Ərəbistan yarımadasının xalq birliyinin (onlar Ərəbistan respublikası yaratmaq fikrində idilər), digəri isə əmir Təllalın və şahzadələrin havadarlarının vasitəsi ilə bir-birindən ayrı ən azı iki məkrli plan cızılmışdı."[2]

Beləliklə, Feysəl ölkədaxili çətinliklər və təhlükələrlə qarşılaşdı. Bu dövrdə Britaniya dövləti Ərəbistan yarımadasının Fars körfəzinin Şeyx yaşayan məntəqələrində ödəməli olduğu ağır büdcəyə görə öz hərbi qüvvələrini məntəqədən çıxartdı. İngilis qoşunlarının məntəqədə olmamasından yaranan boşluğu İran şahı doldurdu. Ərəbistan da Amerika düşərgəsində qərar tutdu (İran şahı da həmin cərgədə idi) və məntəqənin müdafiə məsuliyyəti Feysələ həvalə edildi.

Ərəbistanın hərbi büdcəsi kəskin şəkildə artmağa başladı. Çünki, ingilislər vəhhabilərin ağ ordusuna təlim vermələrindən əlavə qərb

---

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.37.

[2] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.144

silahlarını sel kimi Ərəbistana axıtmağa başladılar. Feysəl qərb düşərgəsinə daxil olmaqla çalışırdı ki, Nasirin millətçilik və sosialist təmayülləri qarşısında "müqəddəs İslam məkanlarının qoruqçusu" ünvanı ilə öz mövqeyini möhkəmlədə bilsin.

Feysəl öz hədəflərinə çatmaq üçün müsəlman dövlətləri arasında "islam müqaviləsi" yaratmaq təklifini irəli sürdü. Yalnız Pakistan, Türkiyə, keçmiş İran, Mərakeş, Sudan və İordaniya kimi mühafizəkar və mürtəce rejimlər Feysəlin təklifini təsdiq etdilər (onlar öz mövqelərindən qorxurdular). Amma onun Nasirə və onun düşüncələrinə zərbə vurmaq üçün göstərdikləri səyləri Nasirin onun əleyhinə apardığı ifşaçılıq təbliğatları ilə qarşılaşıb aradan getdi. 1967-ci ildə Ərəb-İsrail müharibəsinin başlanması Feysəli, Nasirin onun əleyhinə görə biləcəyi tədbirlərdən amanda saxladı.

Amerikanın Feysəllə Nasir arasında yaratdığı ixtilaflarda əsas hədəfi vəhhabilərin mümkün qədər sürətlə silahlandırılması və özlərinin yararsız hala düşmüş və istifadəsiz sayılan silahlarını onlara satmaqdan əlavə, mütərəqqi İslam-Ərəb fikirləri müqabilində vəhhabi rejimini himayə etmək idi. Feysəl də baş verən müxtəlif hadislərdə özünün Amerikaya bağlılığını göstərirdi.

1967-ci ildə Ərəb-İsrail müharibəsinin başlanması ilə eyni zamanda Feysəl yalnız İordaniyaya kiçik bir ordu göndərməklə kifayətləndi və onu da İsrail özünün bütün hədəflərinə nail olduqdan sonra müharibə meydanına daxil etdi. Feysəlin bu tədbiri bir növ nümayiş idi, siyasi xarakter daşıyırdı və ümumxalq fikirlərinin təzyiqindən törənmişdi. O, müharibənin müqəddəratından nigaran olmaqdan daha çox ölkə daxilində amerikalı ərbablarının əleyhinə baş verəcək hərəkatlardan nigarançılıq hissi keçirirdi. Belə ki, müharibənin başlanmasından sonra "Ərəbistan əhalisi Amerikanın Zəhrandakı konsulluğuna hücum etdilər. Rəsut-Tənvirədə iş o yerə çatdı ki, silahlı atışmalar başlandı və həm amerikalılardan, həm də ərəblərdən bir neçəsi yaralandı. Feysəl ordu başçılarından bir neçəsini tutdu və hərbi hökumət qanunlarına keçdi."[1]

Feysəlin amerikalılara və onun qərbdəki müttəhidlərinə zərbə vurulmasının qarşısını almaq üçün gördüyü tədbirlərə baxmayaraq, (ərəblər tərəfindən göstərilən) daxili və xarici təzyiqlər nəticəsində zahirdə Amerikaya və İngiltərəyə olan neft ixracı kəsildi. Hətta Ərəb ölkələri başçılarının konfransında (Xartum, 1967) "Ərəb mütəhhid respublikası"na meyl göstərdi. Amma altı günlük müharibənin İsrailin xeyrinə tamam olması və Nasirin məhv edilməsi nəticəsində Amerikaya neft embarqosunu qısa zaman nəzər ərzində ləğv etdi və onun müttəhid

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.34

ərəb respublikasına olan meylləri sona çatdı.

Ərəblərlə İsrail arasında baş verən ikinci müharibə Feysəl üçün xarici siyasət səhnəsində böyük bir mövqe hesab olunurdu. Çünki onun ən böyük düşməni olan Nasir siyasi və iqtisadi cəhətdən məğlubiyyətə uğramışdı. Bu da Nasirin Məlik Səudun himayəsindən (o zaman Qahirədə yaşayırdı) məhrum edilməsinə səbəb oldu, nəticədə onu ölkədən ixrac etdi və öz qüvvələrini də Yəməndən geri çağırdı. Feysəl də Misirə və xəsarət görmüş sair Ərəb ölkələrinə ildə 135 milyon dollar məbləğində pul verməyi qəbul etməklə Nasirə cavab verdi. Beləliklə, ərəblər arasında qərar qəbul etmə məsələsi Qahirədən Riyaza köçrüldü.

"Siyasət və hökumət dər Ərəbistani Səudi" kitabının müəllifi Ərəbistanın bu dövrdəki tarixi barəsində belə yazır: "... Ərəbistanın xarici siyasəti hər bir halda şərqdən uzaqlaşmış və qərb ölkələrinə yaxınlaşmışdı. Bu siyasət Feysəlin dövründə son dərəcə sürətlə güclənməyə başladı. Feysəl öz siyasətlərini izah etmək və özünə bəraət qazandırmaq üçün qərbin və Amerikanın başçılığı ilə olan zorakı rejimləri ilə eyni vaxtda iddia edirdi ki, kommunizm və sionizm bir sikkənin iki üzüdür və beynəlxalq səviyyədə olan məkrli planları da məhz bu ikisi təşkil edir. Bəlkə də o, kommunizmi sionizmə oxşatmaqla onunla olan gərgin münasibətləri izah etmək istəyirdi."[1] Eləcə də o, özünün qərb imperalizminə qarşı olan meyllərinə də bəraət qazandırırdı.

Altı günlük müharibə sona çatdıqdan sonra Feysəl "qərbin, xüsusilə Amerikanın neft şirkətləri ilə olan həmkarlıq dairəsini daha da kiçiltdi. 1967-ci ildə Küveytlə Səudiyyə Ərəbistanı belə razılığa gəldilər ki, neytral zonadakı neft ixracını Amerika və Yapon şirkətlərinə versinlər. 1968-ci ildə neft istehsal və ixrac edən Ərəb dövlətləri təşkilatı (OPEK) Səudiyyə Ərəbistanı, Küveyt və Liviyanın iştirakı ilə bağlandı və Ərəbistanın neft naziri onun idarəsini öz öhdəsinə aldı."[2]

Qəzzafinin Liviyada İdris şaha qələbə çalması Feysəlin fikirlərini tamamilə dəyişdirdi (İdris şah Feysəllə birlikdə opekin təsisçilərindən idi.)

O, "daxili siyasətdə hər növ yeni islahatlarla müxalifətə qalxdı və siyasət səhnəsində də özünü get-gedə qərbə bağladı. Bununla eyni zamanda yenidən bir islam cəbhəsi qurmaq fikrinə düşdü."[3] Feysəlin islam cəbhəsi yaratmaqla əlaqədar səyləri Qəzzafinin Ribatda İslam ölkələri konfransında onunla kəskin rəftar etdiyinə görə 1968-ci ildə boşa çıxdı. Bu konfrans mühafizəkar ərəblərlə ifratçı ərəblər arasında

[1] "Siyasət və hökumət dər Ərəbistani Səudi", Seyyid Davud Ağayi, səh.131
[2] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.37
[3] Fuiyə Klevd "Nizami-Ali-Səud", səh.57

parçalanma yaratdı ki, onların mübarizə təbliğatlarının əsas mehvəri Fələstin məsələsi idi. Son hadisələrdə Feysəl və onun mühafizəkar, mürtəce cinahı yalnız öz xeyirlərinə hərəkət etdilər. Belə ki, Feysəl qanlı sentyabr hadisəsində heç bir reaksiya göstərmədi[1] və on iki ildən sonra israillilər fələstinliləri Livandan çıxarmaq və onlara qarşı daha artıq vəhşiliklər törətmək istədikləri vaxtda Feysəl hətta cinayətkarcasına olan bu əməliyyatları televiziyada göstərməkdən belə boyun qaçırtdı.

Feysəl daxili siyasətlər zəminində ağ ordunun (Səudiyyə polisinin) köməyi ilə öz daxili problemlərini müəyyən qədər həll edə bildi. Bundan əlavə, o, bir tərəfdən millətçilik təhlükəsinin aradan getməsi, digər tərəfdən də neftdən gələn külli miqdarda gəlir nəticəsində Ərəbistan cəmiyyətində müəyyən dəyişikliklər edə bildi. İbn Səudun İslamın zahiri göstərişlərinə əməl etməkdə çox ciddi olması Feysəlin dövründə də davam etdi.

“Bü cür rəftar və əməl son əlli ildə, yəni Əbdül-Əzizin 1925-ci ildə hakimiyyətə çatmasından Feysələ sui-qəsd edildiyi vaxta qədər nə bir çətinlik yaratdı, nə də Ali-Səudun qüdrətinin möhkəmlənib davam etməsindən başqa bir şeylə nəticələndi. Xüsusilə, beşinci onilliyin ortalarından altmışıncı illərin əvvəllərinə qədər bu rəftarlar səudilərə kömək etdi ki, özlərinin sevimli və qüdrətli rəqiblərinin qarşısında (daim onları mübarizəyə çağırırdı) zəifliklərinə və sevimli olmamalarına baxmayaraq, davam edə bilsin.”[2]

Cənab Məscid Camei vəhhabilərlə əlaqədar məqalələrinin bir qismində Ali-Səud qüdrətinin möhkəmlənib davam etmə dəlillərini belə yazır: “...İbn Səudun əlli il müddətində qazandığı müvəffəqiyyətlərdə əsas məqsədi bu idi ki, ictimai, iqtisadi, əxlaqi və mədəni şəraitlərin məcmusu geniş xalq kütlələri ilə əlaqədar olduğundan onlarda çox da dəyişiklik etməsin. Düzdür, qırxıncı illərin axırlarında Səudiyyə cəmiyyətinə külli miqdarda sərvət sel kimi axıb gəlirdi. Amma əsas məsələ bu idi ki, bu sərvət əməli olaraq məhdud adamlar arasında bölüşdürülüb sərf edilirdi. Camaat, xüsusilə böyük şəhərlərdə yaşamayanlar bu dəyişikliklərdən tamamilə təcrid olunmuşdular, yaxud da ona şahid olduqları halda qəbilə adət-ənənələrinin möhkəmləndirilməsi, ölkənin genişliyi, əhalinin az və pərakəndə vəziyyətdə olması, cəmiyyət mərkəzləri arasında fəal və geniş

---

[1] 1349-cu ildə dörd səudiyyə təyyarəsi “Fəth”in (Fələstinin azadlığı üçün xalq cəbhəsi) şaxələrindən biri tərəfindən oğurlanıb qaçırıldı. Onun üçü İordaniyanın Davson təyyarə limanında patrladıldı. Bu hadisədən bir neçə gün sonra Məlik Hüseyn İordaniyada Fələstin qüvvələrini şiddətlə məhv etdi. Onları kütləvi şəkildə qırdı və qanlı sentyabr hadisələrini törətdi (Nizami-Ali-Səud, səh.158).

[2] Məscid Camei Məhəmməd, “Vəhhabiyyət dər cəzirətul-Ərəb”, səh.4

əlaqələrin olmaması, səhrada yaşamaq təbiəti, şəhər həyatına nifrət və onun ardınca gələn xüsusiyyətlər, islam adı ilə hökmranlıq edən mütləq monarxiya, müxalifləri islama zidd adı qoyularaq edam edilməsi, xarici dünya ilə ideoloji, mədəni əlaqələrin, mətbuat fəaliyyətlərinin olmaması, savadsızlığın yüksək dərəcədə olması, özlərini hər bir şeydən ehtiyacsız hesab edən bədəviliyə məxsus xüsusi qüruru və bundan əlavə çoxlu amillər nəticəsində camaatın böyük bir qismi xarici aləmdə baş verən hadisələrdən ümumiyyətlə xəbərsiz qaldılar. Özbaşınaçılıq edən hakimlər camaatdan xəbərsiz olaraq onların bütün sərvətlərini mənimsəyib, hətta kiçik qisminin belə onlara verilməsinin qarşısını alırdılar."[1]

Aydındır ki, altmışıncı illərin əvvəllərindən etibarən neftdən əldə olunan külli miqdarda sərvətin, eləcə də xarici sənaye mallarının sel kimi axaraq Ərəbistana gəlməsi bu ölkəni tamamilə dəyişdirdi. Amma bu dəyişikliklər sair ictimai və siyasi yönlərə təsir edə bilmədi. "Təhlilçilər Feysəlin islahatçı proqramlarını icra etməkdə müvəffəqiyyət qazanmamasının səbəbini orada mövcud olan ictimai quruluş, keriçilik, fəqirlik və köhnə adət-ənənələr hesab edirlər."[2]

Amma Feysəlin özü "atasından irsən yetişmiş qüdrət və mövcud olan quruluşu qoruyub saxlayırdı. Başqa sözlə desək, səhranın siyasi-ictimai quruluşu və ailə tipli rəhbərliyi hakimiyyətdə idi və özündə iqtisadi dəyişikliklərə qeyri-təbii şəkildə yer verirdi. Yeni həyatın tələblərindən, o cümlədən, demokratiya, mətbuat azadlığı, ictimai və siyasi hüquqlar, azad düşüncə və s. kimi şeylər Ərəbistan cəmiyyətinə yeni məhsullardan istifadə etsələr də lüks mallardan başqa bir şey gətirməmişdi.[3]

Həqiqətdə Feysəlin siyasəti Məhəmməd ibn Əbdül-Vəhhabın nəvələrindən ilham alırdı və Amerikanın göstərdiyi köməklər vəhhabilərin aradan getməsinə mane olurdu. Belə ki, "o, nəşriyyatı müsadirə etdi və həm ərəb, həm də qeyri-ərəb dillərində olan qəzetlərin ölkəyə gətirilməsində çoxlu məhdudiyyətlər qoydu."[4] Feysəlin işə ciddi yanaşması nəticəsində onun əleyhinə müəyyən müqavimətlər başlandı. Bu barədə Seyyid Davud Ağayi belə yazır: "... 1969-cu il Səudiyyə rejimi üçün çox təhlükəli bir dövr idi. Müxaliflərin əsas etibarı ilə Yəməndən idarə olunan təxribatçı əməliyyatının genişlənməsinə baxmayaraq, iki çevriliş planı zərərsizləşdirildi. Onlardan biri Yusif Təvilin rəhbərliyi ilə olmuşdur. O, 1925-ci ildə səudilərin əleyhinə təşkil olunmuş millətçilik hərəkatının rəhbərinin oğlu idi. Onun qrupu dövlət

---

[1] Həmin mənbə

[2] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.155

[3] Məscid Camei Məhəmməd, "Vəhhabiyyət dər cəzirətul-Ərəb", səh.4

[4] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.37

binalarını partlatmaq, iğtişaş və hərc-mərclik yaratmaqla rəhbərliyə çatıb respublika təyin etmək istəyirdi. Bununla eyni zamanda Zəhranın hava qüvvələri akademiyasının rəisi polkovnik Davud Ruməq özünün qırıcı təyyarələrini hazırlamışdı ki, Feysəli sonrakı uçuşunda Ərəbistanın bir guşəsində qətlə yetirsin (qeyd olunan bu iki sui-qəsd Amerikanın təhlükəsizlik qüvvələri tərəfindən kəşf edilərək zərərsizləşdirildi."[1]

Feysəl xarici siyasətdə Əbdün-Nasirin sovetlər ölkəsinə yaxınlaşmasına, səudilərin isə qərbə meylli olduğuna görə heç vaxt həqiqi və uzunmüddətli bir razılaşma əldə edilə bilmədi. Hətta son zamanlarda çalışırdı ki, Afrikanın qərbindəki ərəb dövlətlərindən (Tunis və Mərakeş) Ərəb müttəhid respublikası müqabilində Suriya, Sudan və Liviyanın iştirakı ilə mötədil bir bağlılıq yaratsın.

Nasirin ölümündən sonra Feysəl Ənvər Sadatla müəyyən qədər razılaşma əldə edə bildi. Ənvər Sadat Nasirin Ərəb sosializimi və Ərəb dövlətlərinin sovet ölkəsinə bağlılığı ilə əlaqədar siyasətlərinin məğlubiyyətə uğrayacağına inanırdı. "Feysəl inanırdı ki, Amerikanın İsraili himayə etməsi sovet hökumətinin Misirlə olan sıx əlaqəsinə görə idi və əgər Misir Moskva ilə əlaqələrini kəsərsə, artıq Amerikanın İsraili himayə etməsinə heç bir əsas olmayacaqdır. Çünki Amerika İsraili "Azad dünya" səngəri kimi qələmə vermişdi, Nikson da Ayzen Haver kimi, Süveyş kanalı hadisələrində mövqe seçərkən israilliləri Sina səhrasından geri çəkilməyə və işğal olmuş əraziləri boşaltmağa məcbur edəcəkdi. Ənvər Sadat razı olmuşdu ki, amerikalılar Sina səhrasından geri çəkilməyə zəmanət versələr ruslar da oradan çıxsınlar[2] və bu da sonralar icraya qoyulan Kemp-Devid sülh müqaviləsi üçün bir zəminə yaratmışdı ki, Sadatla Feysəl arasındakı razılaşmanın və yaxın əlaqələrin bərqərar olunması ilə nəticələndi.

1970-ci illərdə orta şərq ölkələrində baş verən siyasi hadisələrin hamısı bir növ neft məsələsi ilə əlaqədar idi və neft istehsal edən ölkələrin istəklərinin həyata keçməsində təsirli oldu. Ramazan müharibəsi (1973-cü ildə İsraillə ərəblər arasında baş verən dördüncü müharibə) bu hadisələrdə xüsusi əhəmiyyət daşıyırdı.

Ramazan müharibəsinin başlanması ilə eyni zamanda Feysəl Ənvər Sadatı bu əməliyyatdan çəkindirdi (Feysəl heç vaxt təsəvvür etməzdi ki, Misir ordusu İsrail əleyhinə müvəffəqiyyətli bir əməliyyat keçirməyə qadir olsun) və əvəzində buna razı oldu ki, Amerikanı təhdid edib desin ki, əgər İsrailin müzakirəyə məcbur edilməsi üçün bir tədbir görməzsə öz neft istehsalını gündə yeddi milyon barel qədər azaldacaqdır. İsrailin

[1] "Siyasət və hökumət dər Ərəbistani Səudi", Seyyid Davud Ağayi, səh.128 129
[2] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.159

ərəblər üzərində hərbi qüdrətinə əmin olan Amerika neft istehsal edən ölkələrin qərb əleyhinə təhdidlərindən nigaran deyildi. Digər tərəfdən, 1352-ci hicri şəmsi ilində Səudiyyənin Ali neft şurasının rəyasətini öhdəsinə alan Fəhd elan etdi ki, Ərəbistan Amerikaya bir qədər fürsət verməlidir ki, öz siyasətlərini dəyişdirsin. Həmçinin bitərəf ölkələrin Əlcəzairdəki konfransında (1352-ci il şəhrivərin 11-də) ümumiyyətlə neft silahından istifadə edilməsi məsələsi irəli sürülmədi. Ərəblərlə İsrail arasında dördüncü müharibənin başlanmasından sonra "Səudiyyə rəhbərləri Amerikaya bağlılığımı, yoxsa Ərəb və müsəlmanlarla həmrəyliyin bidirmək arasında sərgərdan qalmışdı."[1] Şübhəsiz, bu müharibə nəticəsində ərəbləri və inkişaf etmiş ölkələri gizlin neft böhranı ilə agah etdi.

Neft istehsalının azaldılması o qədər davam etmədi ki, qərb ölkələrinə iqtisadi cəhətdən bərpa olunmaz bir xəsarət vura bilsin. Amma bu, neft məhsullarının qiymətlərinin kəskin şəkildə artmasına gətirib çıxartdı. Bu vəziyyət qərbdə "Neft Şoku" adı ilə tanındı. Qərb ölkələri və dövlətləri özlərinin bir neçə illik iqtisadi böhranını dəf edə bilməkdə bacarıqsız olduqlarını onların üzərinə atdılar.

"Nizami-Ali Səud" kitabının müəllifi vəhhabilərin Amerika ilə sıx bağlılıqları və ondan tərəfdarlıq etmələri barəsində belə yazır: "...Öz taleyini qərbə bağlılıqda görən Feysəl və Fəhd istəyirdilər ki, qərb səbatlı və qüdrətli olsun, siyasi hərc-mərclikdən irəli gələn mühüm iqtisadi böhranlardan uzaqda olsun. Buna görə də dünya bazarlarında neftin qiymətini azaltmaq üçün öz neft istehsalını birdən-birə kəskin şəkildə artırdı. Belə ki, hətta gündə bazara on milyon barel neft çıxartdı və neft istehsal edən sair ölkələri də bir qədər mülayimləşməyə məcbur etdi."[2]

Feysəlin Amerikaya kəskin şəkildə tərəfdarlıq etməsi və onun havadarı olması ərəblərin nəzərində məhkum olunur və İsrailə havadarlıq kimi hesab olunurdu. Buna əsasən, ümumxalq kütlələrin nəzərini cəlb etmək üçün o, 1352-ci hicri şəmsi ilində Fələstin Azadlıq Hərəkatına Riyaz şəhərində ofis açmağa icazə verdi. Səudiyyə sultanı inanırdı ki, İsrailin keçmiş hərbi müvəffəqiyyətlərinin əsası onun xarici silahlara malik olmasındadır. Buna görə də neft blokadası ilə onların hərəkətini nisbətən ləngitmək olar. Feysəl "çox sadəlövhcəsinə ümidvar idi ki, Amerikanı bu çarpışmalardan uzaq saxlayacaq. Lakin o dövrdə Amerika prezidenti Niksonun cavabı bu idi: "Biz xarici siyasətlərimizi milli mənafeyimizi nəzərə almaqla tənzim edəcəyik və heç vaxt icazə verməyəcəyik ki, İsrail

---

[1] Həmin mənbə, səh.162

[2] Fuiyə Klevd, "Nizami-Ali-Səud", səh.167

quyunun dibinə düşsün!”[1]

Feysəl hələ təzə-təzə başa düşürdü ki, Amerika zahiri taktikalarına və camaatı aldatmasına baxmayaraq ərəbləri, neftə sahib olsalar da belə, heç vaxt İsraildən üstün hesab etməz. Buna görə də Beytül-Müqəddəsi işğal edən sionistlərin zatı və mahiyyəti Amerikada sionist tərəfdarları və ölkə başçıları ilə eynidir, onların arasında heç bir fərq yoxdur.

Feysəl 1963-cü ilin oktyabrın 19-da müharibənin başlanması ilə bütün neft məhsullarının Amerikaya göndərilməsini dayandırdı. O bu yolla öz rəhbərliyini gücləndirmək istəyirdi. Amma onun neft embarqosu Amerikanın xeyrinə idi. Çünki gələcəkdə ərəblərin arasında vəhhabi rəhbərliyindən öz xeyrinə istifadə edə bilərdi.

Neft oktyabr müharibəsində siyasi bir təzyiq adı altında işlədildi və onun ardınca da qiymətlərin artması ilə sanki dünyanın siyasi-iqtisadi durumu dəyişildi. Orta şərqin əhəmiyyətli və həssas məntəqələrinin mərkəzləri, xüsusilə Ərəbistan yüksək neft hasilatından əlverişli istifadə etdi... Amerika da yaranan bu şəraitdən bəhrələndi və “Kisincerin Riyaza və Tehrana diplomatik səfərləri ilə fəallaşdı. Kisincerin öz səfəri ilə məntəqənin hərbi vəziyyətələrinə nəzarəti İranda şahın öhdəsinə, iqtisadi vəziyyəti isə (Ərəbistanda) vəhhabilərin öhdəsinə qoydu. Beləliklə, hər iki ölkə Amerikanın siyasətləri istiqamətində hərəkət etməyə başladı.

Cənab Məscid Camei 70-ci illərin əvvəllərində vəhhabilər və onların vəziyyətləri barəsində belə yazır: “Səudiyyə cəmiyyəti 70-ci illərin əvvəllərində bütün zahiri dəyişikliklərə və istilahatlara baxmayaraq, elə Əbdül-Əzizin dövründə olan bir cəmiyyət idi və onda heç bir mühüm və əsaslı dəyişiklik baş verməmişdi ki, islamın və vəhhabiliyin təfsirində bir yenilik olsun. Amma bu dövrdən sonra cəmiyyət istər-istəməz müəyyən dəyişikliklərə məruz qaldı; əlbəttə, bu da Səudiyyə hakimlərinin xoşuna gəlmirdi. Amma bu dəyişikliklərə səbəb olan təzyiqlər elə güclü və dərin köklərə malik idi ki, onların meyyili olmaması və hətta rəhbərlərin kütləvi təzyiqlər emal etməsi ilə zərərsizləşdirilə bilməzdi. Təzyiqlər günbəgün artmaqda idi. Onun inkişaf edib yayılması üçün də münasib şərait var idi. Xüsusilə, səudilər öz siyasi mövqelərini qoruyub saxlamaq üçün (bu, 1973-cü il neft enbarqosundan yaranmışdı) öz batini meyyillərinin əksinə olaraq bəzi ictimai, iqtisadi və mədəni dəyişikliklər aparmağa, islahatlar etməyə razı oldular. Bu islahatların baş verməsi yolunda ən mühüm maneə Feysəlin özü idi ki, 1975-ci ildə müəmmalı şəkildə qətlə yetirildi.”[2]

Feysələ qarşı edilən sui-qəsd ilə əlaqədar “Böyük İslam

---

[1] “Siyasət və hökumət dər Ərəbistani Səudi”, Seyyid Davud Ağayi, səh.139

[2] Məscid Camei Məhəmməd, “Vəhhabiyyət dər cəzirətul-Ərəb”

Enskilopediyası” kitabında belə qeyd olunur: “...1975-ci ilin mart ayının 25-də Məlik Feysəlin qardaşı oğlu Feysəl ibn Müsaid Peyğəmbəri-Əkrəmin (s) təvvəlüdünü təbrik etmək bəhanəsi ilə onun əlini öpmək mərasimində şahı güllə ilə qətlə yetirdi. Qatili də sonralar xalq içərisində edam etdilər.”[1]

Həqiqətdə bir neçə müddət öncə Səudiyyə sülaləsinin öz arasında baş verən ixtilaf və çəkişmələr nəhayət Feysəlin qətli ilə nəticələndi və “bəzi vaxtlar ona sui-qəsd edilməsi iki təffəkkürün - islahatçı və islahata zidd olan təfəkkür arasında gizlin müharibə kimi qiymətləndirilən terror aktı naşı bir hakimiyyət idarəsində baş verməmişdi. Hər halda Feysəl və onun fikirləri aradan qaldırıldı və onun həmrəyləri də hakim iqtidardan götrüldü... Və bu da Əbdül-Əzizin, eləcə də onun təfsir etdiyi islamın və onun vəhhabiliyin tənəzzülə uğramasının əvvəlləri idi.”[2]

Feysəlin qətlə yetirildiyi dövrlər Ərəbistanın ən böyük neft ölkəsi kimi tanındığı bir dövrə təsadüf edirdi. 1973-cü ildəki neft embarqosundan sonra neftin qiyməti birdən-birə artmağa başladı və həqiqətdə Feysələ sui-qəsd edilməsi yeni həyatda başqa meyarların qəbul edilməsinə doğru bir yol açılması idi. Belə bir vaxtda Ərəbistanın sonrakı rəhbərlərinin dediyinə görə, bu ölkə sərhədlərin qorunması və təhlükəsizliyin bərqərar edilməsi üçün ona ehtiyaclı idi. “Belə bir şəraitdə Feysəlin siyasətlərini irəli aparmaq mümkün deyildi. O, ölkənin idarə olunmasında qəbilə yönlü rəhbərlikdən istifadə edir və islahatlar müqabilində ciddiyyət göstərirdi... Eləcə də səudilərin təhsil almış yeni nəslinə əhəmiyyət vermirdi. Əlbəttə, onun inanıb əməl etdiyi şey 70-ci illərin əvvəllərinə qədər nəinki ona faydalı deyildi, əksinə, ümumiyyətlə zəruri də sayılırdı və güclü ehtimala əsasən ona riayət etmədən çox-çox əvvəllər hökumət səudilərin əlindən çıxmışdı. Xüsusilə, o dövrdə Nasir və millətçilik təfəkkürləri geniş yayılmışdı və Nasir Ərəbistanın cənub sərhədlərində qoşun yerləşdirmişdi, azacıq sarsıntı və tərəddüdün bərpa olunmaz nəticələr verəcəyi ehtimalı verilirdi.[3]

Qeyd olunanlara diqqət yetirməklə aydın olur ki, Feysələ qarşı sui-qəsd edilməsi vəhhabilərin daxili və xarici siyasətlərində ümdə dəyişikliklərin baş verməsinə səbəb oldu. Bu da Xalidin, Fəhdin və onların canişinlərinin dövründə yaranmışdı.

---

[1] “Böyük İslam Enskilopediyası”, 2-ci cild, səh.37
[2] Məscid Camei Məhəmməd, “Vəhhabiyyət dər cəzirətul-Ərəb”
[3] Həmin mənbə

## *VƏHHABİLƏRİN FEYSƏLDƏN SONRA İRAN İSLAM İNQİLABINA QƏDƏR GÖRDÜYÜ İŞLƏR*

Feysəldən sonra onun qardaşı Xalid səltənət kürsüsünə oturdu. O, əyyaş şahzadələrin kamil nümunəsi və dünyanın hər bir yerindən qafil idi. Gözlənilmədən hərəmxanalardan çıxaraq taxtda oturmuşdu. O, "siyasi işlərə çox da maraq göstərmirdi. Bu zəmində göstərdiyi fəaliyyətlərdən ən ümdəsi taxta çıxmasından ibarət idi. Bundan əlavə onun gördüyü işlərdən biri də (1939-cı ildə) Fələstin məsələsi ilə əlaqədar Ceymz London konfransını keçirmək idi. Xalid bundan sonra siyasəti bütünlüklə tərk etdi və bədəvi qəbilələr arasında yaşamağa başladı. Bununla belə, Feysəl onu vəliəhdliyə və 1965-ci ildə isə baş nazirin müavini vəzifəsinə təyin etmişdi."[1]

Xalid əyyaş və sadəlövh bir adam idi. Güclü ehtimala görə Feysələ qarşı terror aktından yaranan gözlənilməz şok vəziyyəti və vəhhabi quruluşunun dağılmasından yaranan qorxu nəticəsində cürətlə, heç bir şey fikirləşmədən Feysəlin canişini təyin olundu. O əvvəldə öz sələflərinin siyasətini davam etdirəcəyini bildirməsinə baxmayaraq, bu dövrdə də siyasi məsələlərə çox da maraq göstərmədi, icra və qanunçuluq işlərini əməli olaraq öz qardaşına – vəliəhdi olan Fəhd ibn Əbdül-Əzizə həvalə etdi.

O dövrdə ərəb dünyasına hakim olan siyasi şərait elə bir vəziyyətdə idi ki, Ərəbistan neftdən hasil olan dollarlarla və daha güclü bir cazibənin olmamasına görə, qərb blokunun və Amerikanın himayələrindən istifadə edərək ərəb dövlətlərinin mərkəzinə çevrildi. Artıq Qahirə özünün qədimki ideyalarından əl çəkmiş və sair ərəb ölkələri də hər biri xüsusi bir çətinliyə düçar olmuşdu. Fars körfəzinin sahil məntəqələrində yaşayan sərvətli şeyxlər də o qədər kiçilib əhəmiyyətsiz olmuşdular ki, heç vaxt böyük iddialar edə bilmirdilər. Xüsusilə onlar və vəhhabi səudilər əməldə bir vahidi təşkil edirdilər. Buna əsasən, ərəblərin gözləri Riyaza və onun siyasətlərinə dikilmişdi. Belə bir şəraitdə Səudiyyə rəhbərləri Əbdül-Əziz və Feysəl kimi bir şey deyib əməl etməyi nə bacara bilir və nə də istəyirdilər. Onlar başa düşmüşdülər ki, öz mövqelərini qoruyub-saxlamaq, qüdrət və nüfuzlarını möhkəmləndirmək üçün bütün siyasət sahələrində yeni fikirlər və islahatlar aparmağa məcburdurlar. Xüsusilə, 70-ci illərin əvvəllərində məntəqədə yeni bir qüdrət yarandı və o da İmam Xomeyninin rəhbərliyi ilə İran İslam inqilabının əzəmətli qələbəsi idi ki, bu da səltənət rejiminin strukturunu tamamilə lərzəyə gətirib sarsıtmış, dünyada bir sıra ümdə dəyişikliklərin

[1] "Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.37

yaranmasına səbəb olmuşdu.

Cənab Məscid Camei Ərəbistanın 1973-1979-cu illərdəki vəziyyəti barəsində belə yazır: "...Həqiqət bundan ibarətdir ki, Feysələ sui-qəsd edilməsi ilə İran şahının süqutu arasındakı zamanda (1973-1979), xüsusilə 1973-cü ildə Səudiyyə Ərəbistanın və vəhhabilərin daxilində baş verən iğtişaş və çəkişmələr oraya hakim olan sərgərdançılıq və pərakəndəlik dövrüdür. Pul sel kimi axmağa başlamışdı. Özü də ağır zülmə, sinfi ziddiyyətlərə düçar olan, azad rəqabətin olmadığı, ictimai və iqtisadi quruluşun köhnəldiyi bir dövlətdə. Səudilər əvvəlcədən hazırlıqları olmadığı halda, gözlənilmədən özlərini ərəb dünyasının mərkəzində və strateji cəhətdən dünyanın ən həssas və mühüm ölkələri sırasında gördülər. Lakin uzun müddət belə bir mövqeyin yaranacağına inana bilmirdilər. Onlar hər bir şeydən qafil olaraq külli miqdarda olan milli sərvətləri israf etməyə başlayaraq cəmiyyəti öz halına buraxdılar. Bu müddət ərzində nə təsirli bir qüdrət var idi, nə də güclü bir proqram. Yüksək vəzifəli şəxslərdən hər biri yalnız özünə məşğul idi və ətrafında baş verən hadisələrdən tamamilə qafil idi. Xüsusilə, bunu nəzərə alaq ki, hər şeydən xəbərsiz, xəstə və huşu az olan bir fərd qüdrət başında idi..."[1]

Qeyd olunanlara diqqət yetirməklə o dövrdə Ərəbistana hakim olan vəziyyəti gözəl şəkildə anlamaq olar. O dövrdə vəhhabilər neftdən əldə olunan külli miqdarda pullardan faydalanırdılar. Amma bu sərvətlər yalnız vəhhabi xanədanına nəsib olmuşdu və onlardan başqaları bundan qətiyyən bəhrələnmirdilər. Kəskin sinfi ixtilaflar, ictimai ziddiyyətlər və iqtisadi ədalətsizliklər, zülm və zorakılıq ölkəyə hakim idi. Ümumxalq kütlələri fəqirlikdə, miskinlikdə və səfalətdə yaşayırdılar, camaata vicdan və mətbuat azadlığı verilməmişdi. Cəmiyyətə siyasi bir irticanın hakim olduğu belə bir şəraitdə bir sıra dəyişikliklərin və islahatların aparılması zəruri idi. "Vəhhabilik Ərəbistan yarımadasında" məqaləsinin müəllifi bu barədə belə yazır: "...Artıq qüdrət şeyxlərin və onların köhnə fikirli nüfuzlu varislərinin əlində deyildi. Əməli olaraq yeni təhsil almış təbəqələr aparıcı rola malik idilər. Sel kimi axmaqda olan bu sərvətlərin xərclənməsi xarici mütəxəssislərin, texnoloqların və fəhlələrin ölkə daxilinə gəlməsini zəruri edirdi. Onların kənarında da müxtəlif tikinti şirkətləri, müəssisələr, ticarət mərkəzləri var idi və onların ardınca da iqtisadi köməklər almaq məqsədi ilə gələn diplomatik heyətlər görünürdü.... Artıq Ərəbistanı 50-60-cı miladi illərindəki siyasət əsasında qurmaq olmazdı.[2]

Buna əsasən, vəhhabilikdə bir daha dəyişiklik edilməsi lazım və zəruri

---

[1] Məscid Camei Məhəmməd, "Vəhhabiyyət dər cəzirətul-Ərəb"

[2] Həmin mənbə

idi. Birinci dəfə İbn Səudun (Əbdül-Əzizin) dövründə islahatlar aparılmış və dini nəzəriyyələr baxımından vəhhabiləri Ərəbistan cəmiyyətinə hakim etmişdilər. Bu dəfə bir fərd deyil, əksinə yeni zərurətlər və təzyiqlər aparıcı rola malik idi.

Cənab Məscid Camei bu barədə belə yazır: "Fars körfəzi məntəqələrində yaşayan Şeyx əyalətlərini, xüsusilə Səudiyyə Ərəbistanını, sair ərəb və müsəlman rəhbərlərindən çoxunu şok vəziyyətinə salan şey onların heç vaxt gözləmədikləri halda İran İslam inqilabının qələbə çalması idi. Şahın müxtəlif siyasi, tarixi, mədəni və bəzi hallarda dini səbəblərdən ərəb rəhbərləri tərəfindən nifrətlə qarşılanmasına baxmayaraq, bu, ehtiram qoyulacaq bir qüdrətə malik idi. Belə ki, məntəqənin və eləcə də onun ictimai əmin-amanlığın və asayişin qorunmasındakı siyasi rolu qərblilərin və ona uyan hakimlərin xeyrinə idi və bu barədə əsaslı rol oynayırdı. Xüsusilə, 60-cı illərin axırlarında tədricən məntəqənin hərbi və iqtisadi qütbünə çevrilmişdi və kommunizmə və sovet hökumətinə qarşı zidd mövqe tutduğundan Fars körfəzində yaşayan şeyxlər onun barəsində xatircəm idilər və onun qüdrət və qərarına inanırdılar... Şahın qərb siyasətləri kommunizmə və ruslara zidd olan siyasətlərinin şüası altında idi. Amma onun bütün qüdrət, şövkət və əzəmətinin bir neçə ay ərzində dini hərəkat müqabilində böyük bir qar yığınının günəş qarşısında əriyib aradan getdiyi kimi məhv olub aradan getdiyini gördükdə, onun gözlənilməz süqutundan və məntəqədə olmamasından yaranan boşluqdan vəhşət hissi keçirməkdən əlavə, öz vəziyyətləri, qüdrətləri və sabitlikləri, həmçinin qərb və Amerika tərəfindən himayə olunma dərəcələri barəsində nigarançılıq hissi keçirdilər. Xüsusilə, İranda inqilabın qələbəsi ilə bütün müsəlman əyalətlərini bir sıra həyəcan və iğtişaşlar bürümüşdü.[1]

Sonrakı bölmədə İran İslam inqilabı ilə qarşılaşmada vəhhabiliyin daxilində, eləcə də Səudiyyə cəmiyyətində baş verən dəyişiklikləri araşdıracağıq.

## *İRAN İSLAM İNQİLABININ ƏZƏMƏTLİ QƏLƏBƏSİNDƏN SONRA VƏHHABİLƏRİN GÖRDÜYÜ İŞLƏR*

Həqiqətdə 70-ci illərin əvvəllərində vəhhabilərin daxili və xarici siyasətlərində, eləcə də onların Səudiyyə cəmiyyətinə hakim olan din prinsiplərində dəyişikliklər baş verirdi. Amma İranda İslam inqilabının əzəmətli qələbəsi ilə bu dəyişikliklər bir daha şiddətləndi. 1979-cu ildə baş verən bu inqilab Səudi siyasətlərindən daha artıq vəhhabiləri öz təsiri altına aldı.

---

[1] Həmin mənbə

Şübhəsiz, XX əsrin bu böyük hadisəsi – həm dünya, həm də məntəqə səviyyəsində əzəmətli islami hadisə olan bu inqilab vəhhabi səudiləri və onların himayədarlarını qəflət yuxusundan oyatdı. Onlar başa düşdülər ki, öz keçmiş siyasətlərini davam etdirəcəkləri təqdirdə gözlənilmədən qüdrətləri sarsılacaq və cəmiyyət həll olunmaz böhranlı vəziyyətə düçar olacaqdır. Bəlkə də bunun ən yaxşı nümunəsi "İxvanul-müslimin"ə meyl edən və vəhhabi Səudi xanədanının səltənəti ilə müxalifət edən bir qrupun hərəkatı idi ki, Cəhiman əl-Ətibi və Məhəmməd ibn Əbdüllah Qəhtaninin başçılığı ilə, 1979-cu miladi ilində baş vermişdi.[1] "Vəhhabiyyət Ərəbistan yarımadasında" məqaləsinin müəllifi bu barədə yazır: "Bu qiyamın tarixi, əqidəvi və kəlam baxımından malik olduğu əhəmiyyət və dəyərinə nəzər yetirməklə, qeyd etmək lazımdır ki, belə hərəkatların baş verməsinin özü də 70-ci on illikdə Ərəbistana hakim olan riyakarlıq, dinsizlik, fəsad və zülmə ən yaxşı dəlildir. Bu şəraitdən yaranan təzyiqlər o qədər üzücü və təhrikedici idi ki, Ətibi və onun havadarlarını məcbur etmişdi ki, bütün dini və qeyri-dini sərhədləri sındırsın, öz hərəkatının qanuni olmasını izah etmək üçün Məhdəviyyət pirinsipinə üz gətirsinlər."[2]

Həqiqətdə Ətibinin qiyamı səudilərə göstərdi ki, onların sonsuz fəsadları, rüsvayçılıqları və dinsizlikləri cəmiyyəti onların əleyhinə qiyama səsləyir. Buna görə də İran təcrübələri və onun ardınca baş verən hadisələr Ərəbistanda da baş verib onlara öyrətdi ki, "Cəmiyyətin mümkün olan ən az razılığını cəlb etmədən, eləcə də inkişaf amilləri və inqilabi fikirlərin nüfuzu zəminələrini aradan qaldırmadan sabit qala bilməzlər. Buna görə də ictimai, iqtiqsadi və mədəni zəminlərdə münasib şərait yaratmaq və bununla da öz siyasi həyatlarını davam etdirmək üçün çalışdılar."[3]

Bir müddət anlaşılmaz vəziyyətdə qaldıqdan, onların istəklərinin əksinə olaraq baş verən və sonralar da baş verməkdə olan hadisələrlə əlaqədar

---

[1] Hərəkatın rəhbərliyini Cəhiman əl-Ətibi və Məhəmməd ibn Əbdüllah Qəhtani öhdələrinə almışdılar. 1979-cu ilin noyabrın 20-də 200-300 nəfərlik silahlı bir dəstə (onların əksəriyyətini yəmənli, misirli və küveytli dini tələbələr təşkil edirdi) Qəhtaninin rəhbərliyi ilə Məscidül-həramı ələ keçirtdilər və 22 gün müqavimət göstərdikdən sonra məğlub oldular. E`lan etdilmişdi ki,bu hadisələrdə dövlət qüvvələrindən 127 nəfər ölmüş, 461 nəfər yaralanmış, qiyamçılardan isə 117 nəfər öldürülmüş və qalanları da əsir tutulmuşdu. 1980-cı ilin yanvar ayında tutulanlardan başda Əl-Ətibi olmaqla 63 nəfər gizli şəkildə aparılan sür`ətli mühakimədən sonra dəstələrə bölündü. Hər dəstəni bir şəhərə göndərdilər və 1980-cı il yanvarın 9-da şəhərlərin meydanlarında hamısının boynu vuruldu. ("Böyük İslam Enskilopediyası", 2-ci cild, səh.38

[2] Məscid Camei Məhəmməd, "Vəhhabiyyət dər cəzirətul-Ərəb"

[3] Həmin mənbə

nigarançılıq hissi keçirdikdən sonra nəhayət bu nəticəyə çatdılar ki, öz dini siyasətlərində yenidən nəzər verməlidirlər; bununla da cəmiyyətdə baş verə biləcək böyük dəyişiklikləri və ondan qaynaqlanan qüvvələri nəzarət altına alsınlar (bu qüvvələr onların qüdrət və hakimiyyətlərini təhdid edirdi). Əlbəttə, bu mühasibələr vəhhabi səudilərin qüdrət və bacarıqlarından çox-çox üstün idi. Buna görə də Səudi məqamlarının öz xarici himayəçiləri olan müşavirlərinin (amerikalılar və qərblilər) tövsiyələrindən kömək almadan bu nəticəyə çatmaları çox zəif bir ehtimaldır. Diqqət yetirmək lazımdır ki, bu tövsiyələr məhz İranda şahın süqutundan sonra irəli çəkildi və bu da göstərirdi ki, şahın süqutundan sonra qarşılaşdığı məğlubiyyətdən sonra (başqa sözlə, bu hadisə qəfildən baş vermişdi) öz mənafelərini Səudiyyə rejiminin qalıb davam etməsində görənlər belə tövsiyələr etmişdilər.

Bir daha vəhhabilərin hakim ideologiyasında dəyişiklik və islahat edilməsi lazım idi ki, bununla da yeni şəraitlə uyğunlaşa bilsinlər. Məscid Camei bu barədə belə yazır: "Təqribən demək olar ki, səudiləri yenidən nəzər verməyə məcbur edən amillərin ən mühümü təhsil almış yeni nəslin yayılıb inkişaf etməsi və orta səviyyəli bir təbəqənin yaranması idi. Onlar aşkarda nə öz hakimlərini bəyənirdilər, nə də onların bədəvi ərəblərə məxsus olan adətlərinə təqlid edirdilər. Eləcə də onların dini əqidələrini də qəbul etmir, üstəlik mövcud dini əqidələri məsxərəyə qoyurdular.

Deməli, vəhhabilər öz daxili siyasətlərində və zəif əqidə ideologiyasında yeni nəzərlər verməli, islahatlar aparmalı idilər. Bunun səbəbi də ictimai və siyasi zərurətlərdən əlavə, yeni həyatın tələbinə görə ruhi, psixoloji və əxlaqi hazırlıqlar idi ki, onun üçün də 20-30 il əvvəl baş verən iqtisadi və siyasi dəyişikliklər zəmin yaratmışdı. Vəhhabiləri bu dəyişikliyə vadar edən mühüm amillər yeni ziyalı nəslin artması və orta səviyyəli bir təbəqənin yaranması idi ki, bu çox sürətlə inkişaf etmişdi. Buna görə də onlar hər növ tarixi, mədəni, hətta sinfi şəxsiyyətə belə, malik deyildilər. "Onların İslamdan uzaq olmaqla yerli mədəniyyət arasında olan müştərək cəhətləri, qərbə qarşı gülünc surətdə vurğunluqları, qərb məhsullarına, əxlaq və qanunlarına həddindən artıq aşiq olmaları idi." Əlbəttə, vəhhabilərin klassik rəhbərlərinin əsas müşküllərindən biri bu idi ki, yeni nəslin, təhsil almış qruplarından bir dəstəsi islama, əsl dinə və dəyərlərə qayıtmaqdan başqa bir şey düşünmürdülər. Bunlar həmin şəxslərdirlər ki, hal-hazırda da islam ölkələrinin və Səudiyyə Ərəbistanının çox yerlərində də böyük bir inqilabi kütlə hesab olunurlar.

Özünü vəhhabiyyətin himayəçisi və qoruqçusu hesab edən klassik vəhhabi rəhbərləri cəmiyyəti yeni nəslin, təhsil almış təbəqənin istəkləri

əsasında idarə etməyə məcbur olurdular və vəhhabi hakimiyyətində də müəyyən mötədillik baş verirdi.

Vəhhabi səudiləri daim hiyləgərlik siyasətləri ilə Ərəbistana hakim olmaq istəmişdilər ki, bu vasitə ilə öz hakimiyyətlərini, istilaçılıqlarını davam etdirsinlər və milli sərvəti yaxşı qarət edə bilsinlər. Məscid Camei vəhhabilərin hiyləgərlik siyasətləri barəsində belə yazır: “Səudilər bir tərəfdən qərbə meyl edən ziyalı təbəqəsini özünə cəzb etmək (onlar əməldə qüdrəti ələ almış və qərblilərin birbaşa, yaxud müəyyən yollarla olan himayələrindən bəhrələnirdilər), digər tərəfdən də dinə şiddətlə rəğbət bəsləyən inqilabçı ziyalılar müqabilində qərar tutmuşdular. Bu da səudilərin qarşılaşdıqları çıxılmaz vəziyyətdən biri idi və onların riyakarlıq siyasətlərinin ən mühüm amillərindən sayılırdı. Səudilər İslam barəsində riyakar bir siyasət davam etdirdilər. Əməldə fəsad, əxlaqsızlıq və qeyrətsizlik kimi işləri yayır, digər tərəfdən də İslamın zahirinə riayət edirdilər ki, dinsizlik ilə mütəhhim olunmasınlar. Bu gün vəhhabilərin yerini digər ünsürlər tutmasa da, heç olmazsa onlarla eyni səviyyədə olan şeylər - ərəb millətçiliyindən tutmuş, kitablar, jurnallar və qəzetlər vasitəsi ilə gətirilən yeni fikirlər tutur.

Aydındır ki, bu dəyişiklik və islahatlar vəhhabilərin tarix boyu üzləşdiyi şeylərdir ki, müasir dövrdə islam firqələrindən heç biri onunla qarşılaşmamışlar. Bunun səbəbi bir tərəfdən odur ki, vəhhabiyyət Hicazın hakim sistemində qüvvədə olan ideologiyadır. Digər tərəfdən də onların zat və batinində olan zəiflikləri ilə əlaqədardır. Buna görə də vəhhabiyyət öz əsalətlərinin əldən verilməsi və onun əqidə prinsipləri ilə ziddiyyət təşkil edən islahatları qəbul etmək məcburiyyətində qalmışdılar. Buna əsasən, bu sahədə ciddi səylər göstərilmişdir ki, vəhhabiyyət yeni həyat və mədəniyyətlə uyğunlaşdırılsın. Bu mədəniyyət və həyat da əməldə Səudiyyə ölkəsində yeni yaranmış və qərblilərə təqlidçilikdən başqa bir şey bilməyən təbəqənin mədəniyyət və səpgisindən ibarət idi. Onlar, zahirdə bunu etməyə müvəffəq olsalar da tələm-tələsik halda gördükləri tədbirləri səthi və məzmunsuzdur.

“Ərəbistan yarımadasında vəhhabiyyət” məqaləsinin müəllifi səudilərin və onların xarici müşavirlərinin öz problemlərini həll etmək üçün vəhhabiyyətə üz gətirmələrinin səbəbi barəsində belə yazır: “Ən mühüm dəlil budur ki, onlar bu vasitə ilə əvvəla, əsl islam mədəniyyətini, insani təşkilatları məhv etmək, eləcə də öz əsl köklərinə qayıtmaq istəyən narazı xalq kütlələrinin nüfuz qazanıb formalaşmasının qarşısını almaq istəyirdilər ki, onlar ayağa qalxmasınlar. Onlar İslamın qüdrətli mədəniyyətindən ilham almaqla vəhhabiyyət tərəfindən təhrif edilib məhv olmasına baxmayaraq, hər an və hər bir halda çox təhlükəli idi. İkincisi, onlar elə bir ideologiyaya ehtiyac duyurdular ki, onun vasitəsi

ilə keçid mərhələsini ötə bilsinlər. Bu ideologiya da iqtisadi, ictimai və mədəni sahələrdə müxtəlif və uzun müddətli proqramların həyata keçirilməsinə zəmin yaratsın. Başqa sözlə desək, onun köməyi və əhəmiyyəti qərbin hakim iqtisadi və mədəniyyəti içərisində həzm edilməkdən ibarətdir...

Hər bir halda fəqirliyin və zülmün hakim olması və digər çoxlu səbəblər nəticəsində bu məhrum kütlələr əməldə qapalı bir cəmiyyət formasında qalmışdılar. Bunun nəticəsində də onların fikri, ruhi, əxlaqi dəyərləri və nəhayət bütün mədəniyyətləri də çox təhlükəli və qəbul ediləsi mümkün olmayan vəziyyətdə qaldı. Siyasi, iqtisadi və mədəni yolları istismarçıların əlində olan geridə qalmış bütün ölkələrdə vəziyyət belədir. Onlar həmişə təhlükə törədəcək bir qruplarla qarşılaşır. İstismarçı qüvvələr həmişə belə hərəkatlardan qorxmuşlar. Çünki, qərbə bağlı olan mövcud fasid və yaramaz hakimiyyəti təhdid edən şey cəmiyyətin daxilində, özü də məxfi olan bu halətlərdir ki, onların ruhuna və canına hopmuşdur, həm də çox müqavimətli və güclüdür. Daha maraqlısı budur ki, təkcə daxili zalımların, yaxud onların himayəçisi olan istismarçıların müqabilində, adətən, qərb mədəniyyətinin zatən üstün və haqq olması ilə çıxış edən mübariz qruplar da olur. (Ətibinin qiyamı da bu mübarizələrdən bir nümunə idi.) Mövcud olan bu xətərli qrupları məhv edərək onların inkişaf etməsinin qarşısını ala bilən yeganə amil əvvəla, onların həyat şəraitinin dəyişilməsi, yalnız istehlakıçı qüvvələrə çevrilməsi, cəmiyyətin onlara bağlı olan mədəni və ictimai hasarının nisbətən zəiflədilməsi, digəri isə onların etimad etdiyi ünsürlərdən ibarət olan ideologiyanın qəbul edilməsi və həmçinin rəhbərlik sistemi tərəfindən təlqin olunan siyasətlərlə müvafiq olub razılaşmadır.

Qeyd olunanlara diqqət yetirməklə demək olar ki, vəhhabi səudilər də İslam İnqilabından sonra və eləcə də Məkkədə Ətibinin uğur qazanmayan qiyamından sonra bu nəticəyə gəldilər ki, Ərəbistana öz hakimiyyətlərini davam etdirmək və İslama zərbə vurmaq üçün müəyyən tədbilər görməlidirlər. Buna görə də var-qüvvələri ilə çalışırdılar ki, ucqar yerlərdə və məntəqələrdə mövcud olan mübarizə ocaqlarına nüfuz etsinlər, onların iqtisadi, ictimai və mədəni quruluşunu tamamilə dəyişsinlər və bu yolda ixtiyarlarında olan bütün imkanlardan istifadə etsinlər. Köçəri qəbilələri ev tikilənə qədər çadırlarda yerləşdirilməsi, onlar üçün iş yeri düzəldilməsi, onların yaşadığı yerlərə yol çəkilməsi, işıq və elektrik enerjisinin istifadəyə verilməsi, soyuducu və kondisonerlərdən tutmuş zinət əşyalarına qədər, xüsusilə video kimi avadanlıqların gətirilib yayılması və s. kimi işlərdən istifadə etdilər ki, bu kimi şeylər neft çıxarılan əyalətlərdə əksər hallarda pulsuz paylanırdı. Belə yerlərdə yerli əhali əsas etibarı ilə şiə idilər və İslam İnqilabının

qələbəsindən sonra həmin məntəqələrdə müəyyən qədər iğtişaşlar gözə dəyirdi.

Belə bir sual yaranır ki, görəsən, vəhhabi səudilər daxili siyasətlərdə vəziyyəti öz xeyrinə dəyişməkdə gördükləri tədbirlərdə müvəffəq oldularmı? Cavabında demək lazımdır ki, onlar bu barədə müəyyən qədər müvəffəqiyyət qazandılar və bunun dəlillərindən birini ərəblərin, xüsusilə Ərəbistan ərəblərinin ruhiyyələrində, digərini isə onların özünə məxsus olan ictimai və mədəni rabitələrində, yeni dəyişikliklərlə mübarizə aparmaqda bu rabitələrin qadir olmamasında axtarmaq lazımdır. Ruhiyyə baxımından ərəblər, xüsusilə onların çöl ərəbləri bəzək əşyalarına çox meyl göstərirdilər. Buna görə də onların istehlakçı ehtiyaclarını təmin etmək onları müti etmək üçün bir amil idi.

Şübhəsiz, qəbilə və tayfa rəbitələri ərəblər arasında xüsusi əhəmiyyətə malikdir. Buna görə də Ərəbistanda və ümumiyyətlə, Ərəb yaşayan orta şərqdə ictimai qurumlar qəbilə rabitələri əsasındadır. Bu rabitələrin də güclü olması mümkündür. Lakin qan-qəbilə təəssüblərinə kəskin vəfadar olduqlarına görə baş verən yeni dəyişikliklər müqabilində məğlub olmaqdan əlavə, əsilliklərini və cəmiyyətin dəyərlərini qorumağa da kömək etməyə qadir olmayacaqdı. Ərəbistan cəmiyyətində də mədəniyyət özünün geniş mənasında islamdan deyil, qəbilə-icma quruluşundan təsirlənən bir mədəniyyət mənasınadır. Belə bir cəmiyyətdə əhəmiyyət kəsb edən şey qəbilə mədəniyyətləri və əlaqələridir; bu ikisi də öz növbəsində artıq deyil, yalnız qəbilə aralarında mövcud olan əlaqələrin qorunub saxlanmasına və güclənməsinə kömək edir. Buna görə də qəbiləvi iftixarları və heysiyyətləri ilə əlaqədar olan yeni dəyişikliklərlə qarşılaşarkən ciddi müqavimət göstərirlər. Bu, əsl qayda olduğundan bu çərçivədən xaricdə olan hər bir dəyişiklik müqabilində geriyə çəkilirlər. Daha aydın desək, bir səudiyyə ərəbi üçün mühüm məsələ budur ki, qəbilə əlaqələrini qoruyub saxlasın. Onun üçün öz qəbiləsindən olanların hansı şəraitdə yaşayıb inkişaf etmələri, necə təlim alıb tərbiyələnmələri çox da əhəmiyyət kəsb etmir. İstər onların tərbiyəsi islami olsun, istərsə də qeyri-islami, istər dindar bir şəxs, vətənə, istiqlaliyyətə və öz cəmiyyətinə bağlı adam olsun, istərsə də olmasın. Səudiyyələrin müvəffəqiyyət qazanması da həmin məsələ ilə bağlıdır. Onlar öz milli həyat quruluşlarını qısa müddət ərzində dəyişdirdilər. Halbuki, nəzərə çarpacaq ciddi bir müqavimətlə qarşılaşmadılar və çox hallarda da camaat onların gördüyü tədbirləri alqışla qarşıladılar.

Cənab Məscid Camei ərəb ölkələrinə hakim olan qəbiləvi həyat tərzi, ictimai əlaqələr və onların bu cərəyanlardan təsirlənməsi barədə belə yazır: “...Ərəb ölkələrində qorxulu diktaturanın, xüsusilə qəbiləvi

əlaqələrin inkişaf etməsi, daha uzaq keçmişə malik idi. Qəbilə əlaqələrinin hər şeydən üstün tutulması, bütün sair dəyərlərin onun şüası altında qalması, eləcə də bir qəbilənin bütün ölkəyə hakim kəsilməsi bu əlaqələrin daha güclənməsinə səbəb olmuşdur. Qəbilə həyatı əsasında qurulan bu ölkələr qüdrəti ələ aldıqları üçün həqiqətdə ölüm-dirim mübarizəsinə qalxırdılar; ya qüdrəti tam şəkildə ələ keçirməli, ya da süstləşib qüdrətdən əl çəkməli idirlər ki, bu hal da qəbilənin bütün fərdlərini intiqamçılıq və qanlı mübarizə ərəfəsinə gətirib çıxarırdı.

Bu hadisənin ardınca iki nəticə gəlir: Birincisi, bu işlər qəbiləyə mənsub olan kin-küdurətə və zorakılığa gətirib çıxarır. İkincisi, qəbilə daxilindəki bağlılıqları daha da möhkəmləndirir... Bu cərəyan da kor-korana şəkildə artmağa başlayır. Təbiidir ki, belə şəraitdə hakim quruluş hər gün daha sərt mübarizə aparır. Ərəb ölkələrinin çoxunda azadlıq və demokratiya üçün şəraitin günbəgün gərginləşib daha da qeyri-münasib olması, həmçinin diktatorların daha artıq zorakılıqla hakim kəsilməsinin səbəbi də əsas etibarı ilə bundan ibarətdir. İraq, İordaniya, Bəhreyn, Suriya və Ərəbistan bunun ən yaxşı nümunələridir.

Həqiqətdə İranda İslam inqilabının qələbəsindən sonra səudilər vəhhabiyyətin bir qədər dəyişdirilməsi və öz daxili siyasətlərində yenidən baxış fikrinə düşdülər ki, bunun vasitəsi ilə vəhhabiyyət onların həm qısa müddətli, həm də uzun müddətli hədəf və proqramlarını təmin etməyə bir vasitə olsun, qüdrət və hökumətlərini sabit saxlaya bilsinlər. Buna əsasən, yenicə zühur etmiş vəhhabiyyət – Feysəlin vəhhabiyyəti istehlakçı mədəniyyət və səudilərin orta səviyyəli təbəqələrinin təqlidçiliyindən ibarətdir. Bundan da təhlükəlisi budur ki, saray müftiləri, başqa sözlə desək, vəhhabi mədəniyyətinin keşikçiləri birbaşa camaatın klassik əxlaqi və etiqadi əsaslarını dağıdan yeni mədəniyyətin genişlənib nüfuz etməsinə kömək edir, fəsad ünsürləri müqabilində sükut yolunu seçir, bu işlərə laqeyd yanaşırdılar. Səudilərin böyük riyakarlığı bununladır ki, özləri proqram irəli sürməklə əməli olaraq camaatın dini və əxlaqi əsaslarının dağılmasına kömək edir, digər tərəfdən isə iddia edib deyirlər ki, islami dəyərlərin qoruqçusudurlar...

Səudiyyə hakimləri İslamın modernləşdirilməsi cərəyanında qərb ölkələrində təhsil almış ziyalıların himayəsindən lazımınca bəhrələnirdilər. Onların inancına görə İslam dini hakim tağut dəyərlərində həll olunmalı, zəmanənin rənginə boyanmalı, mövcud hadisələrdən təsirlənməlidir.”[1]

“Ərəbistan yarımadasında vəhhabiyyət” məqaləsinin müəllifi vəhhabiyyətin 80-cı illərdəki xüsusiyyətlərini belə qeyd edir: “80-cı

[1] “Siyasət və hökumət dər Ərəbistani Səudi”, Seyyid Davud Ağayi, səh.42 -48

illərin vəhhabiyyəti Feysəlin və Əbdül-Əzizin vəhhabiyyətinin modernləşdirilmiş formasıdır. Ərəbistan heç bir çətinlik olmadan qərbin iqtisad çarxında həzm olunmuş, qərb dövlətləri onun iqtisadi həyatının ayrılmaz bir hisəsinə çevrilmişdi; bu ölkəyə hakim olan rejimin həyatının davam etdirilməsi üçün böyük bir dayaq sayılırdı. Buna görə də 80-cı illərdə Feysəlin vəhhabiyyəti Səudi ölkəsində istehlakçı mədəniyyətin orta təbəqədəki təqlidçilərin hasilindən əmələ gəlmişdi. Əlbəttə, bu qarşılıqda əsas orta təbəqədən olanların mədəniyyətidir. Bu ikisi də bir-birin ilə müxalif olduğundan məhz vəhhabiyyət rəqibin xeyrinə olaraq geri çəkilmişdir. Səudiyyə Ərəbistanında daxili vəziyyət, radio, televiziya, eləcə də mətbuat (istər daxildə çap olub yayılsın, istərsə də xaricdəki səudilərin idarəçiliyi və sərmayəsi ilə çap olub gətirilərək Hicaz məntəqəsində yayılsın) yeni yaranmış bu vəhhabiyyətin xüsusiyyətlərini bəyan edə bilər. Xüsusilə, əvvəllər şiddətli reaksiya göstərdikləri şeylərə qarşı indi süstlük və səhlənkarlıq göstərirlər. Daha təhlükəlisi budur ki, bu vəhhabiyyət ya birbaşa cəmiyyətə nüfuz edir, camaatın klassik əxlaq və etiqadlarını xarab etmək üçün onlara kömək edir, ya da belə bir hədəfi izləyən və əsas etibarı ilə fitnə-fəsadı yayan amillər müqabilində laqeyd mövqe seçir."[1]

Qeyd olunmalıdır ki, vəhhabiliklə əlaqədar qeyd olunan və bu dövrdən sonra da bəyan olunacaq məsələlər Feysəlin ölümündən sonrakı dövrə, yəni Xalidin və xüsusilə Fəhdin hakimiyyəti dövrünə aiddir. Fəhd 1982-ci ilin iyul ayının 13-də onun ölümündən sonra Ərəbistanda hakimiyyətə gəlmişdir və hal-hazırda da oraya padşahlıq üsul-idarəsi ilə hakimiyyət edir.

Bu bölmədə vəhhabilərin şiəlik barədə, xüsusilə İran İslam inqilabından sonra şiə aləmi barədəki nəzəriyyələri bəyan olunacaqdır ki, onların şiələrlə çox qədimdən olan düşmənçilikləri aydın olsun. Şübhəsiz, İran İslam inqilabının qələbəsindən sonra vəhhabi ideoloqları və onu idarə edənlər (səudilər) şiəlik və İslam inqilabı ilə əlaqədar nəzərlərində dəyişiklik yaratdılar. Vəhhabiyyət ilk əvvəllərdən şiələrə münasib nəzər yetirmirdilər, xüsusilə İslam inqilabından sonra onların şiələrə qarşı tutduğu mövqe daha da kəskinləşdi. Çünki, onlar daim bundan qorxurdular ki, inqilab dalğaları onların ölkəsinə gəlib çatsın, zəif xalq kütlələri onların əleyhinə qiyam etsin və səltənət sütunlarını sarsıtsınlar. Buna görə də şiələrin əleyhinə hər ayda, yaxud hər həftədə bir məcmuə, jurnal, yaxud kitab yazılırdı.[2] Həqiqətdə bu günkü dövrdə siyasi səhnədə olan vəhhabiyyət də (özü də əslində yaranmış

---

[1] Həmin mənbə

[2] Sübhani Cə`fər, "Fərhəngi əqaid və məzahibi İslami", 3-cü cild, səh.65

vəhhabiyyətdən tamamilə fərqli bir vəhhabiyyət) özlərini təbliğ etmək, həmçinin şiəliklə və İslam inqilabı ilə mübarizə aparmaq fikrindədir. Çünki, vəhhabiyyət özünün əsl formalaşmasında çox quru təəssüb, kobud təlimlər və məntiqsiz əqidə prinsiplərindən ibarət olan bir məcmuə idi ki, hətta hazırkı Ərəbistanın geridə qalan nahiyələrində də onlar qəbul olunmur və heç kəs ona əməl etmir.

Buna əsasən, vəhhabiyyətin şiəliklə olan düşmənçilikləri dərin köklərə malikdir. "İslam inqilabı əleyhinə mədəni müharibə" kitabının müəllifi yazır: "Vəhhabiyyətin bütün fəaliyyətləri İslamın təbliğ olunması və müsəlmanların müdafiə olunması adı ilə yerinə yetirilirdi. Onlar şiəni şirkin ən mühüm başçılarından hesab edir, onların əleyhinə mübarizə aparmağı ən mühüm dini vəzifə hesab edirdilər."[1] O, öz kitabının bir hissəsində vəhhabiyyətin həm şiələrlə, həm də sünnülərlə düşmənçilik aparmasına və onların keçmiş tarixlərinə işarə edərək yazır: "Vəhhabilər İslam inqilabının qələbəsindən sonra şiələrin əleyhinə kəskin mübarizə aparmaqdan əlavə, sünnülərlə də münaqişədə, düşmənçilikdə idilər. Əlbəttə, vəhhabilər müxtəlif siyasətlərlə sünnüləri öz cəbhələrində birləşdirmək istəyirdilər, öz yazılarında belə bildirirdilər ki, vəhhabilər sünnülərin müxtəlif firqələri ilə kəskin ideoloji təzadda deyillər. Onlar bu üslubu da marksistlərdən öyrənmişdilər. İslam inqilabının qələbəsindən sonra vəhhabilər çalışırdılar ki, sünnülərin himayələrini cəlb etməklə şiələr əleyhinə olan fəaliyyətlərini təmmərküzləşdirsinlər sünnülərə qarşı mövqelərindən geri çəkilmək və onlara ürək yanğısı göstərməklə, onlara maddi köməklər etsinlər, şiələri müşrik və kafir kimi tanıtdırmağa çalışsınlar və qeyri-şiə qüvvələrinin hamısını şiələr əleyhinə səfərbər etsinlər. Vəhhabi üslublarının dəyişilməsi xüsusilə öz siyasətləri baxımından idi. Çünki İran İslam inqilabı yeni bir hadisə idi və məntəqənin padşah üsul-idarəsi əsasında qurulmuş hökumətləri üçün çoxlu təhlükələr törədə bilərdi. Belə ki, bu hərəkat İranda 37 illik şah hakimiyyətinə son qoymuşdu. İkincisi, həqiqətdə Amerika tərəfindən təyin olunan hökumətlər, o cümlədən, Ərəbistan hökumətinin əlaltısı sayılan şah rejiminin süqutu nəticəsində Ərəbistan bu məsələni öz öhdəsinə götürmək istəyirdi. Üçüncüsü, İran İslam respublikasının OPEK təşkilatında tutduğu yeni üslublar Ərəbistan üçün müəyyən çətinliklər törədə bilərdi. Vəhhabilərin malik olduqları bütün imkanlara və göstərdikləri bütün fəaliyyətlərə baxmayaraq hələ də bir iş görə bilməmişdilər. Üstəlik müxtəlif İslam firqələrinin onlara qarşı nifrətləri günbəgün artmaqda idi."[2]

---

[1] Mənsuri Cavad, "İslam inqilabı əleyhinə mədəni müharibə", səh.70

[2] Məscid Camei Məhəmməd, "Vəhhabiyyət dər cəzirətul-Ərəb"

Vəhhabilər külli miqdarda neft satışından əldə olunan imkanlardan istifadə edərək istər islam ölkələrində, istərsə də qeyri-islam ölkələrində aclıqda yaşayan müsəlmanlar arasına nüfuz edə bildi. Həmçinin imperialist qüvvələrin və onlara bağlı olan ölkələrin hərtərəfli köməkləri sayəsində hal-hazırda da özlərinin şiə və İslam inqilabı ilə qarşılaşmasındakı vəzifələrini davam etdirirlər. Cənab Məscid Camei vəhhabilərin şiəlik və İran İslam inqilabı ilə düşmənçiliyinin dəlilləri barəsində belə yazır: "Vəhhabilərin şiəlik və İslam inqilabı ilə düşmənçiliklərinin dəlilləri kimi onların hədəfinin İslamı təqdim etmək, onun xalisliyini və əsalətliyini müdafiə etmək, bidətləri və əyri düşüncələri ondan ayırmaq məqsədi güdməsidir... Onların həqiqi məqsədi isə şiəliyi və İslam inqilabını qeyri-islami bir formada tanıtdırmaqdır. Onlar bu işdən heç də çəkinmirdilər və öz iddialarına görə şiəlik qədər heç bir amil İslamı və müsəlmanları təhdid etmir, hər bir müsəlmanın vəzifəsi onların əleyhinə amansız müharibə aparmaqdır... Vəhhabilərin hal-hazırda İslam inqilabının müsbət nəticələrini zərərsizləşdirmək, onunla qarşılaşmaq, onun dünyanın hər bir yeri ilə əlaqəsini kəsmək və qeyri-islami formada təqdim etməkdən başqa bir fikirləri yoxdur. Amma onların bütün bu tədbirləri şiəliyin İslam inqilabının ideologiyası ünvanı ilə məhv edilməsi olduğundan, onların təbiri ilə saxta bir firqə adlandırılır və onların İslamla mübarizə aparmaqdan, İslam libasında İslama zidd olan təxribatçılıq siyasətlərini irəli aparmaqdan başqa heç bir məqsədləri yoxdur. Buna görə də onların fəaliyyətlərindən qaynaqlanan nəticələr İslamın gələcək tarixində də öz təsirini göstərəcəkdir."[1]

Vəhhabilər bu iddialarla yanaşı, özlərinin azğın bir firqə olduğundan qafildirlər. Onların hədəfi camaatı günbəgün daha şiddətlə istismar etmək, onlardan bəhrələnmək, İslamda doqmatizmi yaymaq, islami ideallarında yüngülvari və səthi nəzər vermək, Ərəbistan ərəblərinin əqidəvi və mədəni cəhətdən yüksəlməsinin qarşısını almaqdır ki, bunun vasitəsi ilə ölkədəki sonsuz sərvətləri mənimsəyə bilsinlər. Bu yolda Amerika və qərb istismarçıları da onlarla çiyin-çiyinə qədəm götürür və bu hədəfə çatmaq üçün heç bir şeyi əsirgəmirlər.

Vəhhabilərin İslam inqilabı və onun ideologiyası olan şiəliklə mübarizə aparmaqda xüsusi vasitələri vardır və bu vasitələrdən öz hədəflərinə çatmaq üçün istifadə edirlər. Cənab Mənsuri vəhhabilərin şiəliklə və İslam inqilabı ilə zidiyyətdə olmaları vasitələrini sayır ki, biz onların xülasəsini aşağıda qeyd edirik:

a) Vəhhabilərin xüsusi coğrafi mövqedə yerləşməsi. Onlar iki şərif

---

[1] Həmin mənbə, səh.72

hərəmin Məkkə və Mədinənin kənarında yerləşir və bu firqənin ixtiyarında məhz bu baxımdan xüsusi imtiyazlar vardır.

b) Neft satışından əldə olunan külli miqdarda maddi imkanlar.

v) Dünya istismarçılarının siyasi və təbliğat baxımından heç bir şeyi vəhhabilərə əsirgəməmələri. Başqa sözlə desək, Ali-Səudun əsl yol göstərənləri Avropa müstəmləkəçiləridir. Onlar üçün Amerika və İsrail tərəfindən poroqram hazırlanır.

q) Orta şərqdə, xüsusilə dünyanın başqa ölkələrində şiəliyin əksinə təbliğat aparmaq üçün münasib şəraitin mövcud olması.

ğ) Şərq və qərbin Ərəbistanda vəhhabi rejiminin təbliğatlarını himayə etməsi.

Buna əsasən, İran İslam inqilabının qələbəsindən sonra vəhhabilər yuxarıda qeyd olunan vasitələrdən istifadə edərək şiəliyi əleyhinə olan böyük düşmən hesab edib, Amerika, qərb ölkələri və İsrailin siyasətlərini İslam inqilabının əleyhinə tənzim etdilər. Çünki “Səudiyyə hakimləri Amerikanın təhlükəsizliyini və iqtisadi mənafeyini təmin etmək üçün xüsusi rol ifa etməyi öz öhdələrinə almışlar. Neftdən gələn gəlirin böyük bir qismini Amerika banklarına, silahqayırma kompaniyalarına verməklə, OPEK təşkilatına gündə bir maneə yaratmaqla, İraq-İran müharibəsində Amerikanın xeyrinə olaraq məlumat toplaması üçün “Avaks” təyyarələrinin alınmasına, Fars körfəzi ölkələri şurasının təşkil edilməsi və s. bunların hamısı İran İslam inqilabının müqabilində hərbi bir məcmuə təşkil edirdi; gündəlik üç yüz min barel neftin İraqın hesabına və Küveytin razılığı ilə satılması ilə Amerikaya və qərbə gözəl xidmət etdiyini göstərirdi. Buna görə də təhqiqatçılardan biri “İran-İraq müharibəsində Ərəbistanı İranın əleyhinə işləyən bir ölkə hesab etmiş və bu müddəanı (yəni vəhhabilərin İraqı müharibəyə təhrik etmələrini) isbat etmək üçün aşağıdakı dəlilləri (biz onu xülasə şəkildə qeyd edəcəyik) irəli çəkir:

a) İraq bu yürüşdə Ərəbistanın köməklərindən faydalanır.

b) İrandakı hərbi hissələr barəsində məlumatlar, eləcə də ordu bölmələrinin yerləşdiyi yerlər və onların məkanlarının dəyişməsi kimi işlər Ərəbistandakı amerikanın “Avaks” təyyarələri vasitəsi ilə əldə olunub İraqa verilirdi.

v) Neftin qiymətinin birdən-birə enərək 28 dollardan 10 dollara düşməsində Ərəbistanın keçmiş neft naziri Zəki Yəmanin hiylələri daha aşkar şəkildə görünməkdədir.

Hər bir halda vəhhabilər İran İslam inqilabının qələbəsindən sonra inqilabçı fikirlərin öz sərhədlərindən içəri daxil olmasından qorxu hissi keçirərək mümkün olan hər bir vasitə ilə bu kimi fikirlərin məntəqədə və xüsusilə öz ölkələrində yayılmasına mane olurdular. Sözümüzün

sonunda onların İranda İslam quruluşu bərqərar edildikdən sonra gördüyü tədbirlərdən bəzilərinə (onlar bu tədbirləri inqilabçı fikirlərin sərhədlərdən içəri nüfuz etməsinə mane olmaq, eləcə də inqilab və şiəliklə zidd olduqlarına görə görürdülər) işarə edirik:

1) İranda İslam inqilabı qələbə çaldığı vaxta qədər Ərəbistan dövləti hacılar üçün heç vaxt istirahət və asayiş vasitələri yaratmaq fikrində olmamışdı. Amma bundan sonra təhlükə hiss etdiyinə görə bu kimi yerlər yaratmağa başladı. Özünü İslamın himayəçisi və şərif hərəmlərin xidmətçisi kimi təqdim etdi.

2) Ölkə daxilində gördüyü tədbirlərdən ikincisi ölkənin idarə olunması üçün şəxslərin seçilməsində çox məhdud şəkildə azadlıq verməsi idi. Həmin məqsədlə ziyalı sinifləri üçün müəyyən məhdud ixtiyarlar vermiş, fəqir ailələrə köməkliyi artırmışdı. Bu yolla da çalışırdı ki, daxildəki narazılıqları müəyyən qədər azaldaraq aradan aparsın; siyasi baxımdan da Milli Məclisin təşkil olunmasına və Əsas Qanunun yazılmasına başladı.

3) Mədəni-maarif baxımından ali və orta məktəb, kitabxana və sairə təlim ocaqlarını gücləndirməyə başladı. Bu zəminlərdə müəyyən sərmayələr ayırdı ki, ölkənin gələcəyi üçün kadrlar hazırlaya bilsin. Onlar Mədineyi-Münəvvərədə, eləcə də bir neçə başqa şəhərdə “İslam” adlı universitetlər yaratdılar ki, cavanların ölkə daxilində təhsil almasına şərait yaransın.

Onların mədəni-maarif tədbirlərindən digəri qərb mədəniyyətinin töhfəsi olan əxlaqsızlıq və fəsadın yayılmasıdır. Dünya ağalığına can atanlar bunu təcrübə etmişdilər ki, camaatın gələcəyə olan ümidini əllərindən almaq üçün ilk növbədə onlara yaxşı və firavan şərait yaratmaq, daha sonra onların arasında fəsadı yaymaq lazımdır. Bu mərhələlər Ərəbistanda da eynilə icra olunmaq vəziyyətindədir.

4) Daxildəki tədbirlərlə yanaşı, Ərəbistandan xaricdə də müəyyən fəaliyyətlər göstərildi. Dünyanın müxtəlif yerlərində mədrəsələr, məscidlər, dini binalar təsis olundu. Məsələn, Malaziyada beynəlxalq İslam universiteti təsis olundu ki, dünyanın cənub və qərbindəki tələbələrin təhsil almasına şərait yaratsın.

Xarici fəaliyyətlərdən ən ümdəsi kimi müxtəlif kitab və jurnalların çap edilərək dünya səviyyəsində yayılması idi. İslam inqilabının qələbəsindən öncə Ərəbistan xaricdə ən çoxu iki jurnal çap edirdi. Halbuki, inqilabdan sonra bu jurnalların sayı ona çatdı və onların hər birinin tirajı da milyondan artıq idi. Maddi imkanlardan istifadə edərək digər ölkələrdə müxtəlif jurnalların imtiyazlarını alır, yaxud yeni jurnallar buraxmağa başlayırdılar. Nümunə olaraq, Londanda yüz min tirajla çap olunan “Əl-Məcəllə” jurnalının təqribən iyirmi min cildi

Misirə göndərilirdi. Vəhhabilərin çap etdiyi kitabların müştərək fəsilləri şiəliyin və İranın əleyhinə təbliğat aparmaq idi.

Radio kütləvi informasiya və təbliğat vasitələrində ən mühümüdür. Ərəbistan çox yüksək səviyyəli bir radio qurşağından istifadə edərək dünyanın böyük bir hissəsində təbliğat apara bilərdi.

5) Ərəbistanın siyasi, hərbi və mədəni məsələlərlə əlaqədar ölkədən xaricdə gördüyü tədbirlərdən biri də Fars körfəzi ölkələri həmkarlıq şurasını təşkil etməsi idi. Bu şura siyasi və hərbi yönlərə malik olmaqdan əlavə, mədəni təsirə də malik idi. Məntəqədən çatan xəbərlər göstərir ki, vəhhabilər Fars körfəzinin cənub haşiyəsində yerləşən ölkələrə çox nüfuz etmişlər. Məsələn, Qətər və Birləşmiş Ərəb Əmirlikləri dövlətlərində ziyalı sinfindən yüzlərlə nümayəndə Ərəbistan institutlarında təhsil alaraq imam-camaat və mübəlliğ adı altında şəhərlərə və kəndlərə göndərilir, mədəni faliyyətlərini davam etdirirlər. Fars körfəzi ölkələri şurasına daxil olan ölkələrdə şiələrlə mübarizə siyasəti qəbul olunaraq icraya qoyulmuşdur. Bu siyasət Ərəbistanın daxilində də çox şiddətlə davam etdirilir. Ərəbistan dövləti şiələri İran İslam respublikasının ilkin mədəni ocağı hesab edir. Bir neçə il bundan öncə iranlı və qeyri-iranlı şiələri ölkədən ixrac etmişdir. Küveytdə, Bəhreyndə və Fars körfəzinin digər ölkələrindəşiələrləmübarizə siyasəti icra olunmuşdur. Həqiqətdə bu tədbirlər İslam inqilabı təffəkürünün genişlənib onların öz ölkələrində və camaat arasında yayılmasından qorxan bütün dövlətlərdə icra olunur.

Vəhhabilərin 1366-cı hicri şəmsi ilində (31 iyul, 1987) iranlı şiə hacıların əleyhinə törətdiyi vəhşiliklər, insaniyyətə zidd cinayətlər və yaramaz əməlləri onların Məkkədəki şiələr və İran İslam inqilabında yaşayan şiələr əleyhinə aşkar düşmənçiliyini göstərirdi. Bundan əlavə vəhhabilərin müharibədən təzə çıxmış bir ölkədə – İranın sərhəd məntəqələrinə çox incə məkrliklə nüfuz etmələri, hələ də müharibə vəziyyətində olan Əfqanıstana müdaxilə edərək Taliban hərəkatına maddi kömək adı ilə etdiyi müdaxilələr əsla qəbul oluna bilməz.

## *VƏHHABİLƏRİN SİYASİ VƏ HƏRBİ TƏDBİRLƏRİNİN ARAŞDIRILMASI*

Keçən fəsillərdə qeyd olundu ki, vəhhabilər təəssübkeş bir firqə kimi hənbəli firqəsindən ayrılmışdılar. XII hicri əsrinin əvvəllərindən etibarən tədricən Ərəbistanda özünün əsl inkişafına Nəcd ərəblərinin arasında başladı və Nəcddən başqa Hicaza da hakim kəsilə bildi.

Həmçinin deyildi ki, vəhhabi ayini özünün fikir və əqidələrini Əhməd ibn Hənbəlin (IV hicri əsrində yaşamışdır) təlimlərindən almışdır. O, öz əqidə və fikirlərini yaymaq üçün İbn Teymiyyənin, İbn Qəyyimin və İbn Əbdül-Hadinin səylərindən lazımi qədər istifadə etdi. Xüsusilə, Əhməd

ibn Hənbəlin təlimlərindən qaynaqlanan təəssübkeş nəzərləri nəzərə almamaq olmaz.

Məhəmməd ibn Əbdül-Vəhhabın Ərəbistanın siyasi səhnəsinə gəlişi ilə bütün islami firqələrə, xüsusilə şiələrə qarşı olan kəskin mövqeləri artmağa başladı və Məhəmməd ibn Əbdül-Vəhhab vəhhabiliyin banisi sayıldı.

Həmçinin deyildi ki, vəhhabilər İngilis kimi istismarçı dövlətlərin əlində bir vasitə olmaqdan əlavə, onlar geniş Osmanlı imperiyasını məhz bunun vasitəsi ilə parçalamağa başlamışdılar. Bu da müsəlmanlar arasındakı vəhdəti zəiflətmək və onların arasına təfriqə salmaqdan başqa bir məqsəd güdmürdü və istismarçıların mənafeyi istiqamətində idi.

Azğın vəhhabi firqəsinin ilkin yaranış yeri olan Ərəbistanın Nəcd nahiyəsi siyasi və sitarateji cəhətdən, eləcə də bədəvi ərəblərin ictimai və siyasi görüşlərinin inkişaf etmədiyinə görə o firqənin Nəcd diyarında yaranıb inkişaf etməsinə şərait yaratdı və tədricən Ərəbistanın bütün məntəqələrinə doğru genişləndi.

Vəhhabilər öz bünövrələrini Nəcddə möhkəmlətdikdən sonra İraqa, Kərbəlaya, Nəcəfə hücum etdilər ki, onların törətdikləri cinayət və qətl-qarət hadisələri tarix mənbələrində gözəl şəkildə nəzərə çarpır. Bu fəsildə vəhhabilərin Nəcddən xaricdə hərəkat və faliyyətlərini açıqlamaqdan əlavə, XIII hicri əsrinin əvvəllərində Məkkə əmirinin apardığı mübarizələrə, onun müqəddəs Məkkə-Mədinə kimi yerlərə necə hakim kəsilməsi və orada törətdiyi cinayətlərə də işarə edəcəyik. Həmçinin onların İraqda, xüsusilə İmam Hüseynin (ə) mübarək hərəmində – Kərbəlayi-Müəllada törətdikləri cinayətləri və bu işlərin şiələrə göstərdiyi təsirləri açıqlayacağıq.

Buna əsasən, bu fəsildə əsl bəhsdən heç bir şey azaltmadan mövzuları iki hissədə araşdıracağıq. Birinci hissədə Şərif Qalibin vəhhabilərlə apardığı mübarizələr, onların Hacaza neçə hakim olmaları və Məkkəni, Mədinəni, Taifi işğal etdikdən sonra törətdikləri cinayətləri araşdıracağıq. Həmin tədbirlər və fəaliyyətlər sayəsində Məkkənin əmiri Şərif Qalibin vəhhabilərlə qarşılaşmaqda nə kimi işlər gördüyünü bəyan edəcəyik.

İkinci hissədə isə vəhhabilərin İraqda hərbi-siyasi nüfuzunun genişlənməsi, onların şiələrin müqəddəs şəhərlərinə – Kərbəla və Nəcəfə necə hakim olmaları, onların həmin yerlərdə törətdikləri cinayətləri, o yerlərə hücumlarının nəticələri və xarici aləmdə inikasını araşdıracağıq.

## *VƏHHABİLƏRİN HÜCUMLARI VƏ SƏUDİLƏRİN BUNA QARŞI GÖSTƏRDİKLƏRİ REAKSİYALAR*

Osmanlı xilafəti malik olduğu geniş ərazilərə görə onun davam

gətirməsi şübhəli, süquta uğaraması isə çox da uzaq nəzərə gəlmirdi. X h.q əsrinin axırlarında və bütövlükdə XI əsrdə daxildə baş verən müxtəlif qiyam və hərəkatlar Osmanlı imperatorluğunu təhdid edirdi. Belə ki, bu təhdid XII h.q əsrinin əvvəllərində (XVII miladi əsri) Ərəbistan yarımadasını da əhatə etmişdir. Çünki bu nahiyə böyük imperatorluğun sərhədlərində dini-siyasi birliyin və müstəqil dövlətin olmamasına görə daha çox ixtilafa düçar olmuşdu. Məkkənin şərifləri Osmanlı Sultanı tərəfindən təyin olunurdu və onların qüdrət dairələri yalnız Hicaz idi. Sair nahiyələrdəki müxtəlif qəbilələr özlərini müstəqil şəkildə idarə edirdilər. Belə ki, Nəcran dərəsində və Yəmənin şimal sərhədlərində hökumət İsmaili məzhəblilərin və Mükrəmi xanədanın əlində idi, Zeydi məzhəblilər Yəmənin yüksəkliklərində, xəvaric Əmmanda, Bəni Xalid qəbiləsi Qətərin qərb nahiyələrində və Fars körfəzinin haşiyələrində hər biri müstəqil şəkildə hökmranlıq edirdi. Nəcddə Məsalex qəbiləsindən Səud xənədanı və Diriyyədə Ənzə ərəbləri mərkəzi hökumətin haşiyələrində özləri üçün bir hökumət yaratmışdılar.

Bir tərəfdən vahid hakimiyyət və müstəqil məzhəbin, başqa sözlə, siyasi-dini ittihadın olmaması, digər tərəfdən isə bağlılıq və eyni zamanda kəskin təəssüb əsasında qurulmuş qəbilə həyatı, mövcud şəraiti elə vəziyyətə salmışdı ki, sui-istifadəçilər ictimai və siyasi boşluqdan öz xeyirlərinə istifadə edərək özlərinin xüsusi hədəflərinə çatmaq üçün hər növ tədbir görməkdən çəkinmirdilər.

Əsas və diqqət yetirilməli məsələ İngilis istismarçılarının Fars körfəzi məntəqəsində yerləşməsi idi. Bu zaman ərzində onlar mühüm xarici bir amil kimi yalançı məzhəb ididaçılarını təşviq etməkdə daha təsirli idi.

Həqiqətdə elmi, ədəbi və iqtisadi dəyişikliklər renesans adı altında Avropada baş verdi. Sonralar texniki inqilab qalibində Avropada, xüsusilə İngiltərədə baş verən hadisələr istismarçı Britaniya dövlətini məcbur etdi ki, bir tərəfdən özünün istehsal etdiyi əmtəələrin satışı üçün münasib bazar yaratmaq, digər tərəfdən də yeni qurulmuş texniki zavodların xammalını əldə etmək üçün şərqə diqqət yetirsin. Buna görə də istismarçı hədəflər çərçivəsində Misir və Hindistanı diqqət mərkəzində saxlayaraq bu iki ölkəni sair şərq ölkələri ilə yanaşı istismar edirdilər.

Qoca istismarçı dövlət olan Britaniya Hindistan yarımadasında özü üçün böyük bir mənafe yaratmışdı və onun qorunması üçün özünün siyasi və ticarət rəqiblərinə, o cümlədən, Fransa, Rusiya və Osmanlı dövlətlərinə zərbə vurmaq, Fars körfəzində nüfuzunu genişləndirmək, qacarlar dövründə İranı zəiflətmək, digər tərəfdən də böyük Osmanlı imperatorluğunun daxilində iğtişaşlar törətməklə Osmanlı Sultanın əleyhinə müəyyən hərəkatlar yaratmaq kimi işlər onun daxildəki

qüdrətini tənəzzülə uğradırdı.

## *MƏKKƏ ƏMİRİNİN VƏHHABİLƏRLƏ APARDIĞI MÜBARİZƏ (1205-1220-Cİ H.Q)*

Məhəmməd ibn Əbdül-Vəhhab XII hicri əsrinin əvvəllərində özünün vəhhabi məsləkini Ərəbistanın Nəcd diyarında təsis etdikdən sonra Diriyyənin hakimi və oranın qəbilə rəisi Məhəmməd İbn Səud ilə bir əhd-peyman bağladı. Bu müqavilə əsasında Məhəmməd ibn Əbdül-Vəhhab razılaşdı ki, vəhhabiliyi Ali-Səudun dini əsası qərar versin və bu yolda onların bütün təcavüzlərinə dini don geyindirsin. Bunun əvəzində də Məhəmməd İbn Səud vəhhabiyyəti himayə etməsini bildirsin.

İki Məhəmməd arasında yaranan siyasi-dini ittihadın ardınca Ali-Səudun hücumları dini pərdə altında başlandı. “Məhəmməd İbn Səud işin əvvəllərində öz hakimiyyəti dairəsində olan ərazilərin sərhədlərindəki nahiyələrə hücum etdi. Vəhhabi məzhəbinin yayılmasını əldə əsas tutaraq çöl ərəblərini hədəf qərar tutdu.”[1] Sonra strateji əhəmiyyətə malik olan Riyaz şəhərinə hücum etdi, Ali-Səudla Riyazın əmiri arasında uzun müddətli çarpışmalar nəticə vermədiyi zaman tərəflər arasında sülh müqaviləsi bağlandı və vəhhabiyyətin təbliğ olunması üçün mübəlliğlərin Riyaza göndərilməsinə şərait yarandı (1735-ci il). Sonrakı il Riyazın əmiri Ehsa və Nəcranın əmirləri ilə təşkil etdiyi ittifaqda vəhhabiliyin təbliği ilə müxalifətə başladı. Digər tərəfdən Süleyman ibn Əbdül-Vəhhab da Nəcdin şəhərləri olan Hərimələdə vəhhabiyyətin əleyhinə müəyyən tədbirlər gördü.

Məhəmməd İbn Səudun oğlu Əbdül-Əziz Hərimələdəki qiyamı yatırtmaqla Riyaz əmirlərinin üçlük təşkil edən ittihadiyyəsini sarsıdaraq Nəcranın əmiri ilə əsirlər mübadiləsi etdi və Riyaz və Ehsanın ordularını məğlub etdi.

Vəhhabi qoşunları artmağa başlayan zaman bütün Nəcd diyarını işğal etmək fikri onların beynində dolaşırdı. Qeyd olunmalıdır ki, Hicaz və Məkkə şəriflərinin vəhhabiyyətin Nəcddə genişləndirilməsi və yayılması ilə əlaqədar vəziyyətini nəzərdən qaçırmaq olmaz. Möhsin Əl-Əminin “Kəşfül-irtiyab” kitabında yazdığına görə vəhhabi alimləri 1165-ci h.q ilində şərif Məsudun hökmranlığı dövründə, eləcə də 1195-ci h.q ilində şərif Əhmədin hökmranlığı dövründə Məkkə alimlərinin israrı ilə vəhhabilərlə elmi mübahisələr aparmağa məcbur oldular. Onların əqidələrinin batil olması sübuta yetdi və onlar həcc ziyarətinə getmə

[1] “Böyük İslam Enskilopediyası”, 2-ci cild, səh.25

haqqından məhrum olundular.

Vəhhabilərin Nəcd diyarındakı əraziləri işğal etməsi Məkkə şəriflərini də qorxutmuş və onları vadar etmişdi ki, həmin nahiyələrdə baş verən xoşagəlməz hadisələri türk sultanına çatdırsınlar. Mühəqqiqlərin inancına görə, birinci dəfə vəhhabiyyətin və İbn Səudun xəbəri rəsmi şəkildə Osmanlı sarayına 1747-ci ildə çatmışdı. Bu xəbərin Ali-Baba çatması osmanlılarda vəhhabiyyətin inkişafının qarşısını alma fikirlərini canlandırdı. Amma 65 il çəkdi ki, osmanlılar vəhhabilərin əleyhinə hərbi tədbirlər keçirmiş olsun.

1765-ci ildə Məhəmməd İbn Səudun Diriyyədə ölümündən sonra oğlu Əbdül-Əziz onun canişini oldu. O, atasının həyatı dövründə ətraf məntəqələrə yeridilən orduya sərkərdəlik edirdi. O, öz qüdrətini möhkəmləndirmək üçün atasının dövründəki hücumları genişləndirdi, Nəcdin bir çox yerlərini işğal etmək, Ehsa və Qətifi ələ keçirməklə vəhhabiliyi Fars körfəzi sərhədlərinə qədər genişləndirə bildi.

Cənab Fəqihi vəhhabilərin Hicaz və Məkkə şərifləri ilə rabitələri barəsində belə yazır: “Vəhhabilər şərif Məsudun vəfatına qədər həcc əməllərindən mərhum idilər. Şərif Məsuddan sonra onun qardaşı şərif Müsaid ibn Səid Məkkənin əmiri oldu və vəhhabilər həccə getmək icazəsi almaq məqsədi ilə bir nəfəri onun yanına göndərdilər. Lakin o icazə verməkdən imtina etdi. (1186-cı h.q ilinə qədər bu minvalla davam etdi. Şərif Sərur əmisi Şərif Əhmədin yerində Məkkənin hakimliyini öhdəsinə alan vaxta qədər vəhhabilər həcc əməllərini yerinə yetirməkdən mərhum idilər.) Şərif Sərur vəhhabilərə Allah evini ziyarət etmək icazəsini bu şərtlə verdi ki, cizyə versinlər. Lakin onlar cizyə verməkdən imtina etdilər. Bu haqq 1202-ci h.q. ilinə qədər onlar üçün qalırdı. Lakin bu ildə Şərif Sərurun canişini Şərif Qalib həmin haqqı onlardan aldı və vəhhabilərin rəhbərləri Əbdül-Əziz ilə müharibəyə hazırlaşdı.

Vəhhabilərin Ərəbistan yarımadasına hücum etməsi və onların nüfuzları müqabilində bəzi qəbilələr tərəfindən müəyyən müqavimət və müxalifətlərin olmasına şahidik. Amma müxalif əmirlər arasında ittihadın və həmrəyliyin olmaması, vəhhabilərin hərbi cəhətdən üstün olmaları bütün ittihadiyyələri sarsıtmışdı. Belə ki, vəhhabilərlə müxalifət edən çoxlu qəbilələrin itaət etməyə başlamaları Əbdül-Əziz Səudinin hakimiyyət dairəsini Cəbəli-Şəmmərdən Fars körfəzi sahillərinə qədər genişləndirmişdi, Nəcd və onun ətraf məntəqələrindən malik olduğu iqtidarla yanaşı şərif Qaliblə Hicazda müharibə etməyə tam hazırlaşmışdı.

Bəzi mühəqqiqlər ingilislərin ifa etdiyi rol və onların vəhhabiləri Şərif Qalibin əleyhinə müharibiyə təşviq etməsi ilə əlaqədar məkrli planlarını bəyan etmişdilər. Cənab Xalisi bu barədə belə yazır: “Onların

(ingilislərin) müqabilində ciddi müqavimət göstərən və onlarla sazişə yol verməyən əmirlərdən biri – əmir Məsud ibn Səid ibn Zeyd, onun oğlu Əhməd və nəvəsi Qalib idi. Onların hamısı “Məkkənin şərifi” adı ilə tanınırdı. Sonuncusu ingilislərin istəkləri müqabilində təslim olmadı. Bu iş nəticəsində vəhhabilər ingilislərin təhriki ilə şərif Qaliblə təqribən əlli dəfə müharibə aparmışdılar.”[1]

Buna əsasən, bir tərəfdən vəhhabilərin təcavüzkarlıq və işğalçılıq siyasətləri, digər tərəfdən də istismarçı İngilis dövlətinin məkrli planları onların zahirdə yeni ayinlərini təbliğ etmək və Hicaz əhalisinin vəhhabiyyətə yönəlməsi üçün bir amil olmuşdu. Lakin onlar batində özlərinin siyasi və iqtisadi hədəflərinə çatmaq üçün Hicaza qoşun yeridirdilər.

Vəhhabilərin Hicaza hücumlarının ardınca Məkkənin əmiri şərif Qalib onlarla müharibəyə hazırlaşdı ki, onları geri qova bilsin. Şafeilərin müftisi Əhməd Zeyni Dehlan vəhhabilərin Məkkənin əmirləri ilə apardığı müharibə barəsində belə yazır: “Şərif Qalib 1205-1220-ci h.q. illərində vəhhabilərlə əllidən artıq müharibə aparmışdı. Tərəflər arasındakı çarpışmaların ilk mərhələsi də doqquz il davam etdi və onların arasında on beş mühüm müharibə baş verdi, lakin işə birdəfəlik xitam verilmədi.”

“Tarixçeyi nəqd və bərrəsiye əmal və əqaidi vəhhabiha” kitabının müəllifi 1205-1206-cı h.q illərində baş verən müharibələr barəsində belə yazır: “Şərif 1205-ci h.q ilində altı yüz cəngavər və qardaşı Əbdül-Əzizlə, eləcə də bir neçə tayfa ilə birlikdə vəhhabilərlə mübarizəyə getdi. O, Əriqud-dəsəm adlı yerə qədər irəlilədi və Nəcd kəndlərindən bir neçəsini öz ixtiyarına keçirtdi. Həmçinin Ənizə, Bəsam qəsəbələrini mühasirə etdi və sonra qayıdaraq 1206-cı ildə qardaşı Əbdül-Əzizin sərkərdəliyi ilə yenidən bir qoşun təşkil etdi. Məqsədi də Əbdül-Əziz Məhəmməd ibn Səudun dininə yönələn qəbilələrlə mübarizə aparmaq idi. Bu müharibədə Türbət, Rinə və Bişəyə qədər irəlilərdi və bütün qəbilələri özünə itaətə vadar etdikdən sonra Məkkəyə qayıtdı.”

Müharibələrin ilk iki ilində şərif Qalib müəyyən qədər müvəffəqiyyətlər əldə edə bildi. Lakin (hərbi qüvvələrə kəskin ehtiyac duyulduğundan) həmin məntəqələrdə daimi qüvvələr yerləşdirmədiyinə görə qayıtmağa məcbur oldu və həmin məsələ, yəni hicazlıların sürətlə qayıtması da vəhhabilərin yenidən həmin məntəqələrə hakim kəsilməsinə səbəb olurdu.

Doktor Əmini şərif Qalibin həmin vaxt apardığı mübarizələr barəsində belə yazır: “1208-ci hicri qəməri ilində Osman Müzayiqinin sərkərdəliyi

[1] Məhəmməd Baqir Xalisi, “Vəhhabiyyət əz didqahi əhli-təsənnün”, səh.8

ilə bir ordu vəhhabilərlə müharibəyə göndərildi. İbn Qeyhan "Əqilan" adlı bir yerdə qarşıya çıxdı və Osman Müzayiqi ilə şiddətli müharibə apardı. Bu müharibə Osmanın qələbəsi ilə sona çatdı və o, İbn Qeyhanın bütün dəvələrini müsadirə etdi. Lakin İbn Qeyhan yenidən hücuma keçib Osmanı məğlubiyyətə uğratdı. Amma öz dəvələrini geri ala bilmədi. 1209-cu ildə şərif Qalib digər bir qoşunla və Əbdül-Müinin rəhbərliyi ilə vəhhabilərin təəssübkeş adamlarından olan Hadi ibn Qirmələ ilə müharibəyə hazırlaşdı. Əbdül-Müin onu təhdid etdiyinə görə Hadi qaçdı. Bundan sonra İbn Səudun tabeçilərindən olan İbn Qətnanın ardınca gedib onu öz sarayında mühasirə etdi və sonra tutub şərif Qalibin yanına göndərdi. İbn Qətnan şərifdən onu əfv etməsini istədi. Şərif də onu bağışlayıb azad etdi. Lakin öz şəhərinə çatan kimi düşmənə çevrilərək tüğyançılığa başladı. Əbdül-Müin bir nəfəri onu qətlə yetirməyə məmur etdi. O, İbn Səudun tabelərinin yığıldığı yerə getdi. Onlardan bir neçəsini öldürdü və sonra Məkkəyə qayıtdı. 1210-cu hicri qəməri ilində də şərif Qalib Seyyid Nasirin rəhbərliyi ilə bir qoşun hazırlayıb döyüşə göndərdi. Seyyid Nasir vəhhabilərlə apardığı müharibədə onlardan bir neçəsini öldürdü və sağ-salamat qayıtdı. Yenidən Seyyid Fəhid ibn Əbdüllahın rəhbərliyi ilə bir qoşun hazırlayaraq vəhhabilərlə müharibəyə göndərdi, daha sonra Fəraşəyə tərəf hərəkət etdi və İbn Qeyhanın rəhbərliyi ilə qəhtanilərdən bir qrupu ilə qarşılaşdı və onlarla müharibə aparıb bir neçəsini öldürdü, mal-dövlətlərini müsadirə etdi. Sonra Qəhtan şeyxlərindən olan İbn Şəzirlə qarşılaşdı. Daha sonra bir neçə nəfəri Türbətdə saxladı və özü qayıtdı. Bundan sonra Seyyid Nasirin sərkərdəliyi ilə böyük bir qoşun hazırladı. Onlar Şəmasa qədər irəliləyib gözlənilmədən vəhhabilərlə qarşılaşdılar. Tərəflər arasında qanlı müharibə baş verdi, çoxları öldürüldü və Seyyid Nasir Məkkəyə qayıtdı. 1211-ci ildə Seyyid Fəhidin sərkərdəliyi ilə böyük bir qoşun təşkil etdi və qoşunun bir bölməsini Firməyə göndərdi. Onların da bir neçəsi öldürüldü. Sonra vəhhabi ayinini qəbul etmiş olan Bəni-Hərb qəbiləsinə qəfil hücum etdilər, Rovğun-niama tərəf hərəkət etdilər. Burada Həcilaninin sərkərdəliyi ilə böyük bir iğtişaşçı qrupla qarşılaşdılar. Onların arasında şiddətli müharibə baş verdi və tərəflərdən çoxu öldürüldü. Sonra Bəqərə adlı bir məntəqədə Hadi ibn Qərmələ ilə müharibə apardı. Onlardan bir neçəsini öldürüb əsir tutdu. Qərmələnin dəvəsini və atını qənimət alıb Məkkəyə qayıtdı. Sonra şərif Qalibin onun üçün hazırladığı ordunun köməyi ilə Rinəni öz ixtiyarına keçirtdi. 1212-ci hicri qəməri ilində yenidən Seyyid Fəhidin sərkərdəliyi ilə bir ordunu Hərbdəki vəhhabiləri məğlub etmək üçün Əriqüd-dəsəmə göndərdi. Bu dəfə də çoxlu qənimətlərlə qayıtdılar. Daha sonra Seyyid Mübarəkin sərkərdəliyi ilə bir qoşun hazırlandı. Hərb vəhhabilərinin bir qrupu Əl-

elm adlı məntəqədə hücuma məruz qaldılar, Seyyid Mübarək onların mal-heyvanlarını qənimət aldı. Yol əsnasında qırx beş nəfər vəhhabi ilə rastlaşıb onları qətlə yetirdilər. Geri qayıtmaq istədikdə Şərif Qalib onların qayıtmaması əmrini verib onlara kömək etmək üçün Seyyid Sədin başçılığı ilə bir qoşun göndərdi. (Şərif Qalib də Fəran məntəqəsində onlara qoşuldu və "Qəhtan", "İbn Qərmələ", eləcə də "Rinə" qəbilələrinə hücum etdilər.) Şərifin qoşunu Rinəyə qayıdıb orada da döyüşdülər və xurma ağaclarını kəsib məhv etdilər."[1]

Birinci mərhələdə (1205-1213-cü h.q illər) Şərif Qaliblə vəhhabilərin arasındakı müharibələrdə əksər hallarda qələbə şərif Qalibə nəsib olurdu. Vəhhabilər bu mərhələdə Hicazın bəzi qəbilələrinə hakim kəsilə bildilər. Səbəbi də onlara qəbilə üsul-idarəsinin hakim olması idi ki, qəbilə rəisinə itaət etmək zəruri və əhəmiyyətli bir məsələ idi. Buna görə də qəbilə rəisinin vasitəsi ilə hər növ dəyişiklik bütün qəbilə üzvlərinin qəbul etməsi demək idi. Vəhhabilər də özlərinin xüsusi hədəflərinə görə qəbilə rəislərini təhdid etməklə, yaxud şirnikləndirməklə özlərinə tərəf çəkirdilər.

1212-ci h.q ilinin axırında Məkkənin əmiri ilə vəhhabilərin arasında şiddətli çarpışma baş verdi ki, bunun da nəticəsi şərif Qalibin məğlubiyyətə uğrayaraq Məkkəyə qayıtması oldu. Sonra 1313-cü h.q ilinin cəmadiyus-sani ayında tərəflər arasında sülh müqaviləsi bağlandı. Bunun nəticəsində də "hər iki tərəfin sərhədləri, əlləri altında olan qəbilələr müəyyən olundu. Bu müqavilədə həm də münaqişənin tərk edilməsi barədə öhdəçilik verildi və qərara alındı ki, vəhhabilər də həccə gedə bilsinlər, hamısının təhlükəsizliyi təmin olunsun."[2]

"Məkkə tarixi"nin müəllifi bu sülh müqaviləsinin sonrakı bəndləri haqqında belə yazır: "...Onların alimlərindən sayılan Həməd ibn Nasir həmin ildə bir dəstə adamla birlikdə həccə gəldilər. Vəhhabilərin başçısı isə həccə gəlmədi. Səbəbi də bu idi ki, o zaman Bağdadın hakimi Süleyman Paşa kəndxuda Əlibəyin başçılığı ilə onunla müharibə etmək üçün bir ordu göndərib onları mühasirəyə almışdı. Lakin vəhhabilərin hiylələri nəticəsində qoşun dağıldı və başçıları da fərar etdi. Hicri qəməri tarixi ilə 1214-cü ildə Səud ibn Əbdül-Əziz həcc mərasimini yerinə yetirmək üçün çoxlu camaatla birlikdə Məkkəyə gəldi. O, açıq havada qurulmuş bir xeymədə şərif Qaliblə görüşdü. Hicri qəməri tarixinin 1215-ci ilində İbn Səud yenə də iyirmi mindən çox bir qoşunla birlikdə Məkkəyə yola düşdü. Məkkəyə çatmamışdan öncə Məhəmməd ibn

---

[1] Əmin Məhəmməd Hadi. "Məkkənin tarixi", Axundinin tərcüməsi, səh.78-79, 177

[2] Həmin mənbə, səh.179

Nasirin vasitəsilə şərif Qalibə otuz beş at və on dəvə hədiyyə göndərdi. Şərif Qalib hədiyyələri qəbul edib əvəzində onun üçün başqa hədiyyələr göndərdi. O, Səud gəlməmişdən qabaq onların əhd-peymanlara vəfalı olmayacaqlarından qorxub lazımi tədbirlər tökdü. Təsadüfən, Səud da öz qoşunu ilə birlikdə Məkkəyə daxil olub "Ərəfat" səhrasında düşərgə saldı. Zil-hiccə ayının 12-də Səud və Şərifin tərəfdarları arasında ixtilaf düşdü. Nəticədə hər iki tərəf silaha əl atdılar. Lakin Şərif Qalib öz tərəfdarlarını bu işdən çəkindirdi. Nəhayət, Səud hacılarla birlikdə gün batmamışdan öncə Minadan geri qayıtdı..."

Vəhhabilər Şərif Qaliblə sülh müqaviləsi bağladıqdan sonra sakit qalmadılar, öz məqsədlərini həyata keçirmək məqsədilə qəbilələr arasında ixtilaf yaratmaq üçün müxtəlif hiylələrə əl atdılar. "Xülasətül-kəlam" kitabının müəllifi bu barədə belə yazır: "Səud sülh müqaviləsi bağladıqdan sonra yorulmaq bilmədən hiylələrə əl atır, ərəblərin Şeyx Məhayil və Şeyx Bariq kimi başçıları və böyük şəxsiyyətləri ilə gizli şəkildə məktublaşırdı. Bu iki ərəb şeyxi ərəb qəbilələrinin əqidələrini batil hesab edirdilər. İş o yerə çatdı ki, sülh müqaviləsi pozuldu, Hicazda yaşayan bütün qəbilələr vəhhabi məzhəbinə üz gətirdilər..."

Vəhhabilərin əhd-peymanlara əməl etməyib Hicazda yaşayan qəbilələri vəhhabi etmələri, başqa sözlə xaincəsinə işlətdikləri hiylələri nəticəsində Şərif Qaliblə onlar arsında olan sülh müqaviləsi pozuldu, aralarında yenidən ixtilaf yarandı və müharibə başladı. Xüsusilə, "Üseyr", "Təhamə" və "Bəni-Hərb" qəbilələrinin Səudun tərəfdarları sırasına daxil olaraq Şərif Qalibə çoxlu əzab-əziyyət vermələri onların arasında yenidən ixtilafın büruz etməsinə və müharibənin başlanmasına səbəb oldu. Bir neçə il ərzində onların arasında on üç müharibə baş verdi və Taif məntəqəsinin işğal edilməsi ilə nəticələndi.

Hicazda yaşayan qəbilələrin vəhhabi məzhəbinə üz gətirmələrinin səbəbi vəhhabilərin siyasətləri, təhdidləri, xüsusilə qəbilə başçılarını maddi köməklər etməklə qane etmək idi. Digər tərəfdən isə qəbilə başçıları Şərif Qalibin nəzarəti altından çıxıb azad və sərbəst olmaqları üçün səy göstərirdilər. Vəhhabilərin onlara verdikləri vədələri də onların bu məzhəbi qəbul etmələrinə səbəb oldu. Çünki hər kəs onların mənafeyini təmin etsəydi, ona meyl göstərirdilər. Xüsusilə, pul, məqam və qüdrətdən söz açıldıqda, öz keçmiş əhd-peymanlarını yaddan çıxarıb onları pozurdular.

Ümumiyyətlə, vəhhabilər tərəfindən sülh müqaviləsi pozulduqdan sonra Şərif Qalib vəhhabi məzhəbinə üz gətirən qəbilələrə əzab-əziyyət vermək üçün öz vəzirini Qənfəzəyə göndərdi. O da onları öz hakimiyyəti altına ala bildi. Bundan əlavə, Şərif Qalib Hüllə məntəqəsinin əhalisinin vəhhabi olmaqlarından xəbərdar olduqda, başda Seyyid Nasir ibn

Süleyman olmaqla bir qoşunu oraya göndərdi və orada yaşayan vəhhabiləri məğlub etdilər. Şərif Qalib Hülləni qoruyub saxlamaq üçün Seyyid Mündili məmur etdi. Vəhhabilər isə Həşrin başçılığı ilə Hülləyə hücum etdilər, əvvəlcə məğlubiyyətlə üzləşdilər. Lakin hiyləyə əl atmaqla, eləcə də Hüllə əhalisinə xəyanət etməklə şəhərə hakim oldular. Şərif Qalib, Seyyid Səd Qəttadinin başçılığı ilə bir qoşunu vəhhabi məzhəbini qəbul etmələri barədə xəbər çatan Yəmən sahilindəki ərəblərə tərəf göndərdi və onlar da oraya qalib gəldilər. Sonra həmin zamanlar – hicri qəməri tarixi ilə 1216-cı ildə vəhhabilər İraqa tərəf gəlib öz ideyalarını orada yaymağa başladılar.

Məkkə padşahının vəhhabilərlə apardığı mübarizənin davamında, vəhhabilərin Hicaz vilayətinə hücum çəkmələri diqqəti cəlb edən məsələlərdən biridir. "Vəhhabilər tarixi" kitabının müəllifi bu barədə belə yazmışdır: "Həmin ildə – hicri qəmərinin 1216-cı ilində belə xəbər çatdı ki, iki hissədən təşkil olunan böyük bir vəhhabi ordusu hərəkət edərək gəlir. Bir dəstə Seyyid Səd Qəttadinin qoşunu ilə döyüşməyə başladı. Amma döyüşə bilmədiklərini gördükdə, onunla müharibəni saxladılar. İkinci dəstə isə Qənfəzəyə hücum etdi, Əbu Bəkr ibn Osman (Qənfəzə məntəqəsinin hakimi) onları şiddətlə məğlub etdi. 1217-ci h.q ilinin əvvəllərində Məd ibn Şarr və Şeyx Məhayil on iki min nəfərdən ibarət bir qoşunla Qənfəzəyə tərəf hərəkət etdib oranın hakimi ilə mübarizə apardılar. Lakin ağır məğlubiyyətə uğradılar. Səud Yəmən məntəqəsini öz hakimiyyəti altında gördükdə, Salim ibn Şəkbanı Zəhranda yaşayan qəbilələrə hakim təyin etdi. O, bu qəbilələr arasında ixtilaf yaradıb vəhhabi olan ərəbləri onlar üçün rəis seçirdi. Bu hadisədən xəbərdar olan Şərif Qalib Əbdül-Əziz İbn Səuda bir məktub yazaraq onların əhd-peymanlara sadiq qalmalarını tələb etdi. Onların hər biri də yazdıqları cavab məktublarında bu işə görə üzr istəyib deyirdilər: "Bunlar yalan şayiələrdir və bəziləri fitnə-fəsad törədib sülh müqaviləsini pozmaq üçün belə yalan xəbərlər yayırlar."[1]

Sonra şərif Qalib öz tərəfindən Zəhrana bir nümayəndə göndərdi ki, orada baş verən hadisələri ona çatdırsın. Xəbərin düzgün olmasını bildikdən sonra öz bacısı əri olan Osman ibn Əbdür-Rəhman Müzayiqini Əbdül-Möhsin, Müqəttənin şeyxi İbn Həmədi və başqalarını sülh müqaviləsini yenidən tənzim etmək üçün Diriyyəyə göndərdi.

Diriyyədə vəhhabilərin hiylə və yalanları yenidən başlandı. Bu dəfə onlar Osman Müzayiqiyə söz verib dedilər ki, sənin Məkkəyə hakim olmağına yardım edəcəyik. Bununla da, Osman Müzayiqi vəhhabiliyi qəbul etdi, Məkkənin padşahı şərif Qalibə xəyanət edərək Məkkədə,

---

[1] Həmin mənbə, səh. 20-21.

Mədinədə və Taifdə vəhhabiliyi yaymaq üçün vəhhabilərlə həmkarlıq etməyə başladı. Bunun əvəzində, Əbdül-Əziz Səudi Taifin hakimliyini ona tapşırıb həmin şəhərdə yaşayan bütün qəbilə başçılarına məktub yazdı və Müzayiqinin hakim olmasını xəbər verdi. Möhsin Əl-Əmin, Osman Müzayiqinin Taifə hakim olması və bu işdə vəhhabilərin rolu barəsində belə yazır: “Osman Müzayiqi Diriyyədən çıxdıqdan sonra Taifə bir günlük yol qədər olan Übeyla adlı bir məntəqədə öz yoldaşlarından ayrılıb oradakı qalada sakin oldu. Həmin məntəqənin qəbilə başçılarına məktub yazdı və onlar da ona tabe olacaqlarını elan etdilər. Eyni zamanda Şərif Qalibin qardaşı və Taifdəki nümayəndəsi Şərif Əbdül-Müinə də bir məktub yazıb onu vəhhabi məzhəbinə dəvət etdi. “Tənhə”, “Nəfə” və “Əsəmə” qəbilələri də ona qoşuldular. O, bu qəbilələrə arxalanıb “Ovf” və “Ərəc” qəbilələri ilə döyüşdü və onları öz hakimiyyəti altına aldı. Bu zaman şərif Qalib üç mindən ibarət bir qoşunu Taifə göndərdi. Osman Müzayiqi də sakin olduğu qaladan – Übeyladan çıxıb Taifə tərəf hərəkət etdi. Taifin hakimi Şərif Əbdül-Müin də Taifdən hərəkət edib Ərəcə çatdıqda onunla Müzayiqi arasında döyüş başlandı. Bu, Müzayiqinin məğlubiyyətinə səbəb olmadı və o, Übeyladakı qalaya pənah apardı. Şərif Qalib və şərif Əbdül-Müinin qalanı ələ keçirmək üçün göstərdikləri səylər heç bir nəticə vermədi. Sonra Müzayiqi qaladan çıxıb Taifi mühasirəyə aldı. Bişənin hakimi Salim ibn Şəkban böyük bir qoşunla ona kömək etdi. Həmin gecə Şərif Qalibin ətrafına toplaşan ərəblər pərakəndə oldu. Böyük şəxsiyyətlərdən bəziləri Məkkəyə qayıtdılar. Sonra Şərif Qalib, Müzayiqinin və ibn Şəkbanın Məkkəni ələ keçirmək üçün hərəkət etmələrindən xəbərdar oldu.

Buna görə də o, öz ətrafındakı ərəblərə pul verib Taifdə qalmalarını və oranı qoruyub saxlamalarını tələb etdi, özü isə Məkkəyə qayıtdı. Lakin Taifdə olanların arasında ixtilaf və pərakəndəlik yarandı. Dəxil ibn Hüveyb müxalifət edərək vəhhabilərə qoşuldu və Şərif Qalibin Məkkəyə hərəkət etməsini onlara xəbər vedi. Vəhhabilər Taifə doğru hərəkət etdilər. Onlardan Əbdüllah adlı bir şəxs qabağa düşüb Taifə daxil oldu, şəhər camaatının təhlükəsizliyini təmin etmək üçün bir miqdar pul xərcləyib onlar üçün aman istədi. Əbdüllah vəhhabilərdən aman almaq üçün İbrahimin evindən çıxdı. Taif əhalisindən bir nəfər minarədən ona tərəf bir ox atıb onu öldürdü. Vəhhabilər bu hadisədən xəbərdar olduqda, şəhərə hücum etdilər. Şəhərin ətrafında şəhəri qoruyub saxlayan və onların qarşısını alacaq bir kəs olmadığından asanlıqla şəhərə daxil olub hamını, hətta uşaqları belə qətlə yetirdilər. Anaların qucaqlarındakı südəmər körpələrin başlarını kəsdilər. Şəhərdən çıxıb qaçanları təqib

edib çoxlarını öldürdülər."[1]

Vəhhabilərin Taifdə insaniyyətlə zidd olan vəhşicəsinə törətdikləri bu faciə bir çox tarixi mənbələrdə qeyd edilmişdir. Cəmil Sədaqi Zəhavi bu barədə belə yazır: "...Vəhhabilərin Taifi fəth etdikləri zaman törətdikləri çirkin əməllərdən biri xalqı kütləvi şəkildə qırmaq, uşaqlara və qocalara rəhmsizlik etməkdən ibarət idi. Onlar südəmər körpələrin başlarını öz analarının qucağında kəsir, Quran öyrənməklə məşğul olan dəstəni qətlə yetirirdilər. Yaşayış evlərində heç bir kəs qalmadığı üçün məscidlərə və dükanlara hücum gətirib orada olan hər bir kəsi, hətta namaz qılan, rüku və səcdə halında olanları belə öldürdülər. Onların arasında olan şərif müshəfləri, "Səhihi Buxari", "Səhihi Müslüm", fiqh və hədis barəsində yazılmış digər kitabları küçə-bazarlarda ayaq altına atdılar. Bu hadisə hicri qəməri tarixi ilə 1217-ci ildə baş vermişdi."[2]

Taif vəhhabilərin vasitəsilə işğal olunduqdan sonra Osman Müzayiqi ora hakim təyin edildi. Hadisəni Səuda yazılı şəkildə xəbər verdikdə çox xoşhal oldu. O, bu zaman Diriyyə ilə yeddi günlük yol fasiləsində yerləşən Dehna adlı məntəqədə sakin idi və İraqla müharibə etmək üçün hazırlıq görürdü.

Diqqəti cəlb edən məsələlərdən biri də qəbilələrin və qəbilə başçılarının pul və maddi şeylər vasitəsilə aldanıb öz əqidələrindən dönmələri idi. Hətta Şərif Qalib də Taifdən çıxmamışdan və Məkkəyə tərəf hərəkət etməmişdən öncə bəzi qəbilə başçılarını bu üsulla (bir miqdar pul verməklə) şəhəri qoruyub saxlamağı tövsiyə etmişdi.

Başqa bir məsələ də budur ki, qəbilə başçılarının bu xüsusiyyətlərini başa düşən vəhhabilər Şərif Qalibin əksinə olaraq öz məqsədlərinə nail olmaq üçün onları pul və məqamla aldadırdılar. Vəhhabi səudilərin hiylə ilə irəli apardıqları siyasətləri nəticəsində Osman Müzayiqini ələ alaraq böyük müvəffəqiyyətlər əldə edə bildilər.

Taifin nüfuzlu şəxsləri xəyanət etdikdən, eləcə də şəhər əhalisi arasında ixtilaf və ayrılıq yarandıqdan sonra vəhhabilər oraya hücum edib camaatı öldürür, mal-dövlətlərini qarət edir, evlərini yandırır, müxtəlif növ vəhşiliyə əl atır və insaniyyətə zidd olan faciələr törədirdilər. Onların bu hərəkətlərinin səbəbi bəlkə də, bir tərəfdən öz qüdrətlərini göstərib digər qəbilələrin və tayfaların vəhhabilərlə mübarizə fikirlərini unutdurmaqları, digər tərəfdən də, belə hərəkətlərlə öz səslərini Məkkə və Mədinə şəhərlərinə çatdırmaq ola bilərdi ki, sonradan başqaları vəhhabilər müqabilində ciddi müqavimət göstərməsinlər.

Vəhhabilər Taifi ələ keçirdikdən sonra Hicaz vilayətini, o cümlədən

---

[1] Həmin mənbə, səh. 22-23-24.

[2] "Vəhhabilər", Cəmil Sədaqi Zəhavi səh. 301-302.

Məkkə, Mədinə və Cəddə şəhərlərini ələ keçirmək üçün hərəkət etdilər. Elə bu zaman şərif Qalib vəhhabilərin əleyhinə qiyam etmək üçün çoxlu məktublar yazmaqla və elçilər göndərməklə yüksək vəzifəli şəxslərdən yardım istəmişdi. Lakin həmin vaxta qədər Sultan Osman bu məsələyə ciddi yanaşmamışdı. Çünki onun başı daxili ixtilaflar və çəkişmələrlə qarışmışdı. Vəhhabilərlə mübarizə aparmaq barəsində Misirin hakimi Məhəmmədəli Paşaya tapşırdığı göstərişlər hələ də icra olunmurdu.

Vəhhabilər Məkkəni ələ keçirmək fikrində idilər. Lakin bu zaman həcc mərasimi gəlib çatmışdı və Şamdan, Misirdən və digər məntəqələrdən çoxlu zəvvar gəlib Məkkədə bir yerə toplaşmışdı. Buna əsasən, vəhhabilər zahirdə Məkkə zəvvarlarının qətlə yetirilməsinin qarşısını almaq, batində isə bu zəvvarların sayının çox olmasından qorxu hissi keçirdiklərindən hələ heç bir iş görmək istəmədilər ki, ordu tədarükü görsünlər.

Məkkə şəhərinin məşhur alimləri Nəcd alimlərinin məktublarını alıb vəhhabilərin Taif şəhərində bir çox ağır cinayət törətmələrindən xəbərdar oldular. Məhz bundan sonra vəhhabilərin kafir olmalarına dair hökm verdilər. Bunun ardınca Məkkə əmirinə onlarla mübarizə aparıb cinayətlərinin qarşısını almağı və bu işdə yubanmamağı, həmçinin ona kömək edib bu müqəddəs cihadda onunla birgə olmağı bütün müsəlmanlara vacib bildilər və elan etdilər ki, hər kəs hər hansı bir üzrü olmadan bu işdən imtina etsə günahkar, hər kəs də onlarla döyüşsə mücahiddir (Allah yolunda vuruşan şəxslərdəndir) və hər kəs onların əli ilə öldürülsə şəhiddir. Amma vəhhabilərin Taifdə vəhşicəsinə törətdikləri cənayətlər və təhdidlər Məkkə əhalisi və həcc zəvvarları arasına təfriqə salıb, vəhhabi səudilərin tədriclə Məkkəyə daxil olmalarına zəmin yaratdı. “Tarixçe və nəqd və bərrəsiye əqaid və amali vəhhabiha” adlı kitabın müəllifi Taifin vəhhabilər tərəfindən işğal olunmasından sonra Məkkənin necə işğal edilməsi barəsində belə yazır: “...Səud Taifi işğal etdikdən sonra sürətlə Hicaza doğru hərəkət edib yolda İbn Şəkban və onun tərəfdarları ilə görüşdü. Məkkənin yaxınlığındakı Üyeynə adlı kəndə çatdıqda, Məkkə əhalisi və Allah evinin zəvvarları onların gəlişindən xəbərdar olub son dərəcə qorxub vəhşətə düşdülər. Həmin ilin hacıları arasında Sultan İbn İmam Müsqit, Nəqib Məliki, Şam və Misr zəvvarlarının başçısı Əbdüllah Paşa və Osmanbəy Quci, eləcə də onlarla birlikdə gələn bir çox zair ordu hazırladılar. Təsadüfən Səud həmin il həcc mərasiminə gəlməmişdi. Həcc mərasimi sona çatdıqdan sonra Şərif tərəfindən bir şəxs nida edib camaatı cihada səslədi. Cəddənin valisi Paşa öz qoşunu ilə birlikdə hərəkət edib iki gün ərzində Səudu geri çəkilməyə məcbur etdi. Şərifin Kəbə zəvvarlarının başçılarını vəhhabilərlə döyüşə təşviq etməsi ilə əlaqədar səyləri heç bir nəticə vermədi. Onların Səuda

yazdıqları birinci məktubun cavabında onun təhdidləri ilə üzləşdilər. Allah evinin zəvvarlarının başçıları ilə Şərif arasında yaranan ixtilaflar nəticəsində Səuda ikinci bir məktub göndərildi. Onun cavabında Səud onları təhdid etməkdən əlavə həm də əmr vermişdi ki, Allah evinin zəvvarları üç gün ərzində Məkkəni tərk etsinlər. Səudun bu təhdidli əmrindən sonra zəvvarlar Məkkədən hərəkət etməyə başladılar. Məkkənin böyükləri və ağsaqqalları bir yerə toplaşıb Şam zəvvarlarının başçısının yanına gəldilər və onların Məkkədə bir gün də qalmalarını xahiş etdilər. Lakin o, bu təklifi qəbul etmədi. Şam zəvvarlarının karvanı 1218-ci hicri qəməri ili Məhərrəm ayının 5-də, sabahı da Misir hacıları öz başçıları ilə birlikdə Məkkədən çıxdılar. Şərif Paşa da yalqız qaldığı üçün Cəddəyə tərəf hərəkət etmək məcburiyyətində qaldı."[1]

Şərif Qalib bir tərəfdən Məkkə əhalisi arasında ixtilaf və təfriqənin yaranmasını, digər tərəfdən də Şam, Misir və Cəddə zəvvarlarının Məkkədən çıxmasını gördükdə, özündə vəhhabilərlə mübarizə aparmaq qüdrəti olmadığını hiss edib Cəddəyə qaçdı. Tədqiqatçılardan bəziləri də açıq şəkildə bu məsələni qeyd edərək demişlər: "Şərif Qalib qüdrət və qüvvəsinin az olmasına və digər İslam hacılarının onu himayə etməməsinə görə məcburiyyət qarşısında qalıb Məkkəni tərk etdi və Cəddəyə qaçdı."[2] Amma bunların hamısını nəzərə alsaq da Şərif Qalib Məkkəni tərk etməməli idi. Çünki onun özü camaatın vəhhabilərin əleyhinə qiyam etməsi üçün ittihad mehvəri ola bilərdi.

Məkkədə siyasi ixtilafın yaranmasına və nəticədə camaatın vəhhabilərə qarşı müqavimət göstərə bilmədiklərinə görə Şərif Əbdül-muin Səudla məktublaşıb Məkkə əhalisi üçün aman istədi. Bununla yanaşı, vəhhabilərə itaət etməyi bildirdi və onlardan Məkkənin hakimliyini istədi. Səud da Məkkə xalqına aman verib Əbdül-muini oraya hakim təyin etdi ki, münasib bir vaxtda Məkkə əhalisi ilə də ciddi rəftar etsin. Möhsin Əl-Əmin vəhhabilərin Məkkəyə daxil olması barəsində belə yazır: "Məhərrəm ayının 8-də Səud ehram paltarı geyinmiş halda Məkkəyə daxil oldu, təvaf və səy etdi, təqribən yüz dəvə qurbanlıq kəsdi və Mühəssəbdə, Şərifin bostanında düşərgə saldı. (Tarixdə yazılır ki, vəhhabilərin qoşunu ilə birlikdə Məkkəyə gələn Əbdül-əziz Səud idi. O, 1218-ci hicri qəməri tarixinin Məhərrəm ayının 10-da hacıların qayıtmasından iki gün sonra Məkkəyə çatdı.) Beləliklə, Əbdül-əziz Məhəmməd İbn Səud çox rahatlıq və asanlıqla Məkkəyə daxil oldu və

---

[1] Əl-əmin, Möhsün. "Tarixçe və nəqd və bərrəsiye əqaid və amali vəhhabiha", tərcümə Seyyid İbrahim Seyid Ələvi, səh. 25-26.

[2] "Müəssiseyi mütaliatiye tarixi xavəri-miyanə", "Süruş" nəşriyyatı, Tehran, 1-ci çap, 1369-cu il, 1-ci cild, səh.18.

camaat bir yerə toplaşıb onunla beyət etdilər. O, bir az söhbət etdikdən sonra qəbirlərin, məqbərələrin və s.-nin dağıdılaraq yerlə yeksan edilməsinə dair hökm verdi."[1] Vəhhabilər Məkkəyə daxil olduqdan sonra dərhal qəbirləri və məqbərələri uçurtmağa başladılar və onları yerlə yeksan etdilər.

Cənab Fəqihi öz kitabının bir hissəsində vəhhabilərin Məkkə şəhərinə daxil olmaları və onların bu şəhərdə törətdikləri əməllər barəsində belə yazır: "Nəhayət, vəhhabilər Məkkəyə daxil olub, orada on dörd gün qaldılar və bu müddət ərzində camaatı tövbə etdirir, öz gümanlarına əsasən onların İslamını təzələyir və öz əqidələrinə əsasən şirk sayılan təvəssül, qəbirləri ziyarət etmək kimi məsələləri qadağan edirdilər. Elə bu zaman qəbirləri və məqbərələri uçurtmağa başladılar. Əlbəttə, "Müəlla" qəbiristanlığındakı məqbərələri uçurtduqdan sonra Peyğəmbər (s), Əbu Bəkr və Həzrət Əlinin (ə) doğulduqları yerin üzərindəki məqbərəni də uçurtdular. Eləcə də Xədicənin (ə) məqbərəsini, Zəm-zəm quyusunun üzərində olan tikilini və Kəbədən uca olan bütün tikililəri uçurub dağıtdılar. Vəhhabilər məqbərələri uçurtduqları zaman musiqi çalır, şer və mahnı oxuyur, qəbirlər üzərində tikilən binalara nalayiq sözlər deməkdə həddini aşırdılar. Nəhayət, üç gündən sonra bütün məqbərələri uçurdub dağıtdılar. İbn Bişr deyir ki, onlar bu işi gördükləri zaman yeganə Allaha yaxınlaşırdılar. Axırda da onların hamısını yerlə yeksan etdilər."[2]

Diqqəti cəlb edən məsələ budur ki, vəhhabilərin nəzərində Allah-taala tərəfindən qəbul edilən yeganə firqə onların firqəsidir və sair İslam firqələri məqbul sayılmır. Onların Allah yanında heç bir dəyər və qiyməti yoxdur. Buna əsasən onlar özlərinin batil əqidələrini, azdırıcı hərəkətlərini, təxribatçılıq və töhmətlə yanaşı olan əməllərini digər İslam firqələrinə, xüsusilə şiələrə nisbət verirdilər. Cənab Nurəddin Çahardehi vəhhabilərin ümumi əqidələri barəsinə belə qeyd etmişdir: "Vəhhabilərin əqidələrinə əsasən bütün İslam firqələri – şiə və sünnülər müşrik və kafir olub bütpərəstlər zümrəsindəndirlər. Onlar Peyğəmbərin (s) və imamların (ə) qəbirlərini ehtiramla yad etməyi bidət və bir növ bütpərəstlik hesab edirdilər."[3] Kaş, dini mühəqqiqlər, elm və bəsirət sahibləri bu barədə tədqiq edəydilər. Görəsən, vəhhabi, yoxsa sair İslam firqələrinin hansı biri haqlıdır?! Halbuki, tarix göstərir ki, hər bir

---

[1] Əl-əmin, Möhsün. "Tarixçe və nəqd və bərrəsiye əqaid və amali vəhhabiha", tərcümə Seyyid İbrahim Seyid Ələvi, səh. 17.

[2] Fəqihi, Həmin mənbə, səh. 307-308.

[3] "Vəhhabiyyət və onun kökləri", Nurəddin Çahardehi, "Fəthi" nəşriyyatı, 1363-cü il, Tehran, 1-ci çap, səh. 147.

günahdan təmiz, pak-pakizə, məsum olan Əhli-beytin (ə) həqiqi ardıcılları, başqa sözlə, imamiyyə şiələri həqiqi İslamın və Məhəmmədin (s) həqiqi dininin ən gözəl ardıcıllarıdır. Əlbəttə, İranda İslam inqilabının qələbə çalması və Həzrət Məhəmmədin (s) gətirdiyi həqiqi İslam dininin hakim olması sayəsində artıq bu barədə heç bir şəkk-şübhə qalmır.

Vəhhabilərin Məkkə şəhərində gördükləri vəhşiliklər və yaramaz işlər, törətdikləri çirkin əməllərin biri də bu idi: "Onlar Məscidül-həramda bəzi namazların yerinə yetirilməsinin qarşısını alır və göstəriş verirdilər ki, sübh namazını Şafei, zöhr namazını Maliki, əsr namazını Hənbəli, axşam namazını Hənəfi məzhəbinə uyğun və işa namazını isə hər kəs necə istəsə qılsın. Eləcə də cümə namazını müfti (Məkkənin müftisi) qılsın... Vəhhabilər camaatın siqaret çəkməsini qadağan etdilər və onları məcbur etdilər ki, başqalarından kömək diləməsinlər, qəbirlərin üzərində məqbərə tikməsinlər, qəbirləri öpməsinlər, eləcə də onların (vəhhabilərin) şirk hesab etdikləri işləri yerinə yetirməsinlər... (Səud) Məkkə alimlərinə göstəriş verdi ki, Məhəmməd ibn Əbdül-Vəhhabın kitablarını və onun əqidələrini "Kəşfüş-şübəhat" adlı risalədən öyrənsinlər. Onlar da bununla müxalifət etməyə cürət edə bilmirdilər."[1]

Səud 1218-ci hicri qəməri ilində Cəddəni ələ keçirmək üçün Məkkədən hərəkət etdi. Cəddənin vəhhabilərin vasitəsilə səkkiz günlük mühasirəyə alınması onlar üçün məğlubiyyətdən başqa bir nəticə vermədi. Çünki Səuda Diriyyədən və Nəcddən çatan bəzi xəbərlər Nəcddə əmin-amanlığın aradan getməsindən, ixtilafın yaranmasından və əcəmlərin Diriyyəyə hücum etməsindən xəbər verirdi. Buna görə də məcbur oldu ki, Məkkəyə qayıtmadan birbaşa Diriyyəyə doğru hərəkət etsin.

Vəhhabilərin əmirinin Hicazdan çıxdığı və Şərif Qalib üçün füsət yarandığı bir vaxtda, o, özünü sürətlə Məkkəyə çatdırıb vəhhabiləri həmin şəhərdən qovdu. Sonra Taif və onun ətrafında Müzayiqi (vəhhabilərin yeni rəisi) ilə döyüşdü. Həmçinin Sultan Osmaninin yanına məktublar və qasidlər göndərdi. Vəhhabilərlə mübarizə etmək üçün ondan kömək istədi. Babi-Ali də türk əsgərlərindən bir neçəsini muzdur kimi onun üçün göndərdi.

Belə nəzərə gəlir ki, Səud Cəddəni mühasirə etməyi tərk etdiyi və Hicazdan xaric olduğu zaman orada özünün vəhhabi hakimlərinə əmr etmişdi ki, Cəddəni işğal etmək üçün səy göstərsinlər. Vəhhabi əmirinin göstərişi nəticəsində Bişənin hakimi İbn Şəkban və Taifin hakimi Osman Müzayiqi 1219-cu hicri qəməri ilinin Məhərrəm ayında yenidən Cəddəni mühasirəyə aldılar. Vəhhabilərin tarixini yazan təhqiqatçılardan biri bu

---

[1] Əl-əmin, Möhsün. "Tarixçe və nəqd və bərrəsiye əqaid və amali vəhhabiha", tərcümə Seyyid İbrahim Seyid Ələvi, səh. 29-30.

barədə belə yazmışdır:

"...İbn Şəkban və Müzayiqi 1219-cu ilin Məhərrəm ayında on iki min nəfər cəngavərlə birlikdə Cəddəni mühasirəyə almaq üçün hərəkət etdilər. Şərif Qalib Məkkənin ətrafını möhkəmləndirdi. Çünki, o bilirdi ki, onlar Cəddəni ələ keçirə bilməyəcəklər. O, əmr verdi ki, camaatın hamısı hərəkət etsinlər. Camaat da hamılıqla silahlanıb Zahirə gəldilər və orada yeddi gün qaldılar. Lakin Cəddə şəhərini mühasirədə saxlayan vəhhabilər üç gün qaldılar. Onlar gündə bir dəfə şəhərə hücum edirdilər, amma şəhərin topxanası onları pərakəndə vəziyyətə salır, onlar da məcburyyət qarşısında qalıb yenidən öz çadırlarına qayıdırdılar. Onlardan o qədər adam ölmüşdü ki, arxlar və çalalar onların cəsədləri ilə dolmuşdu. Belə ki, 10-20 nəfəri bir yerdə dəfn edirdilər. Onlar vəziyyəti belə gördükdə qaçmağa başladılar..."[1]

Vəhhabilər bu dəfə də Cəddənin mühasirəsində məğlubiyyətə uğradıqları üçün geri çəkilmək məcburiyyətdə qalıb öz düşərgələrinə qayıtdılar. Bundan sonra, Şərif Qalib Hicazın müxtəlif məntəqələrinə hərbi qüvvə göndərməyə başladı. Bu barədə gəlib çatan bəzi xəbərlər vəhhabilərin əmin-amanlığı, nizam-intizamı bir-birinə vurmaqda göstərdikləri fəaliyyətlərini bildirir. Onların əksər hərəkətləri karvanlara hücum edib onların mal-dövlətlərini qarət etməkdən, yollarda əmin-amanlığı pozmaqdan, Hicazda yaşayan qeyri-vəhhabilərə zərbə vurmaq üçün gözlənilməz siyasətdən bəhrələnməkdən, bir sözlə, onların arasında qorxu və vəhşət hissi yaratmaqdan ibarət idi.

Bəhsimizin bu hissəsində Möhsin Əl-Əmininin Şərif Qalibin vəhhabilərlə üzləşməkdə gördüyü bəzi hərbi tədbirləri barəsindəki nəzərini qeyd edirik: "...Şərif böyük şəxsiyyətlərin birinin sərkərdəliyi ilə quru yoldan Hüseyn Ağanın başçılıq etdiyi yüz türk süvarisini və dəniz yolu ilə türklərdən ibarət olan başqa bir ordunu Reyhanın vəziri Müfərrəh Ağa Ətiqin başçılığı ilə yemək-içmək və döyüş sursatı ilə dolu olan on böyük gəmini Leysə doğru göndərdi. Bu qoşun Leysə çatdıqda müharibə etmədən və qan tökmədən şəhər əhalisi təslim oldular. Bundan sonra quru qoşunları gəlib çatdı. Üç gündən sonra dörd min vəhhabi onlara hücum etdi. Onların arasında ağır döyüş başlandı və vəhhabilərin məğlubiyyəti ilə sona yetdi və onlardan çoxu öldürüldü. Quru qoşunun başçısı Şərif Həsən də qətlə yetirildi. Türklər öldürülmüş vəhhabilərin başlarını bir yerə yığıb Şərif Qalib üçün göndərdilər. O da bu başları Məkkənin kənarında ağaclardan asdı. Camaat da tamaşa etmək üçün oraya getdilər. Sonra Şərif Qalib başqa bir ordu hazırlayıb Leysə göndərdi. Amma onlar orada bir kəs də belə tapa bilmədilər. Sonra

---

[1] Həmin mənbə, səh. 33.

aralarında iki yüz əlli türk süvarisi olan digər bir qoşunu oraya göndərdi və onlara əmr verdi ki, sərhəd qoşunları kimi Mədrədə qalsınlar. Onlar orada üç ay qaldılar. Bu zaman türklər məntəqənin ab-havası ilə uyğunlaşmayıb xəstələndilər və buna görə də onların əksəriyyəti Məkkəyə qayıtdılar. Orada qırx nəfərdən artıq qalan olmadı... (Bundan əlavə) xəbər çatdı ki, vəhhabilərdən iyirmi süvari Müğəmməsə gəlmiş və oranı qarət etmişlər. Çöl ərəbləri də fürsətdən istifadə edib Məkkənin ətrafını qarət etmişlər. Şərif on dörd süvari və iyirmi ox atandan ibarət kiçik bir qoşunu Müğəmməsə göndərdi. Lakin orada heç bir kəsi tapa bilmədilər. Suləyə tərəf hərəkət etdikləri zaman beş yüz nəfərdən ibarət bir qoşun gördülər. Onların arasında müharibə başlandı. Şərifin göndərdiyi qoşunun sayı az olsa da, vəhhabilərə qalib gəlib onların çoxunu qətlə yetirdilər və onları məğlubiyyətə uğratdılar. Mal-dövlətlərini qənimət götürdülər. Ölmüş vəhabbilərin başlarını nizələrə taxıb Məkkəyə qayıtdılar..."[1]

Möhsin Əl-Əmin bəzi yerlərdə qoşunun sayını qeyd etməmişdir, buna baxmayaraq, söhbətlərindən belə aydın olur ki, vəhhabilər Hicazın ətraf məntəqələrində fəaliyyət göstərərək məntəqəyə hakim olan əmin-amanlığı pozurdular. Bu zamanlar da Şərif Qalibin ordusu onların bu fəaliyyətlərinin qarşısını almaq üçün onlarla silah ilə davranırdılar.

Vəhhabilər daha sonra Hicazın qərbində yerləşən Yənbu şəhərini ələ keçirmək üçün çalışırdılar. Çünki bu şəhər strateji baxımdan yüksək əhmiyyətə malik idi. Əgər onu ələ keçirə bilsəydilər Şərif Qalibə təzyiq göstərə bilərdilər. Yənbu şəhərini mühüm əhəmiyyətli göstərən məsələlərdən biri də Məkkə əmirinin və ordusunun insan qüvvələri və hərbi təchizatı idi. Baxmayaraq ki, Babi-Ali tərəfindən vəhhabilərlə mübarizə aparmaq üçün heç bir əsaslı kömək olunmurdu. Lakin Sultan Osmaninin Şərif Qalibə etdiyi məhdud köməkləri də çox vaxtlar Yənbu nahiyəsindən təmin olunurdu. (Yənbu iki hissədən ibarət idi: Quru ərazilər və Qırmızı dəniz sahilləri). Buna əsasən, vəhhabilər Yənbunu işğal etməklə bəlkə də Məkkə əmirinin bu hərbi qoşun və ordunun təmin olunma mənbəsinin bağlaya bilərdilər. Ümumiyyətlə, onu xarici köməklərdən naümid etmək istəyirdilər ki, onu öz ixtiyarlarına almağa şərait yaransın. Qeyd etmək lazımdır ki, Misirin valisi Məhəmməd Əlipaşanın sonradan (Sultan Osmaninin hiyləsi ilə) vəhhabilərlə mübarizə aparmaq istədiyi zaman vəhhabilərin işğalı altından çıxartdığı ilk məntəqə Yənbu nahiyəsi idi.

1219-cu hicri qəməri ilində vəhhabilərin vasitəsilə Yənbunun necə işğal edilməsi barəsində bunu demək lazımdır ki, Şeyx Hərb və onun

[1] Həmin mənbə, səh. 33-35

qəbiləsi vəhhabiliyi qəbul etdikdən sonra Şeyx Cüheynə ilə birlikdə Yənbunu mühasirə etdilər. Daxildə vəhhabiliyi qəbul edən, zahirdə isə bunu aşkar etməyən İbrahim Rəvayəti Yənbunun hakimi vəzir Məhəmməd Hicrinin yanına göndərdilər. "İbrahim onu qorxutdu və aldatdı. İşlərin gedişini onun üçün çox çətin qələmə verdi. Onun müharibə fəndlərindən heç bir məlumatı olmadığı üçün aman istədi. Halbuki, əgər o, bu işləri görməsəydi də vəhhabilərin gücü ona çatmazdı. Nəhayət, vəhhabilər Yənbuya daxil olub oranın əhalisini qətlə yetirdilər."[1] Oranın hakimi Məhəmməd Mücri şəhərdən qaçıb Məkkəyə doğru hərəkət etdi. Lakin orada xəyanətlə ittihamlanaraq Şərif Qalibin vasitəsilə dar ağacından asıldı.

Zahirən vəhhabiliyin Nəcd və Hicaz qəbilələrinin rəislərinin vasitəsilə qəbul edilməsinin dəlillərindən biri də istismarçı yönlü mənafelərdir. Çünki özünün qonşu məntəqələrə (ehtimal verilir ki, onların arasında keçmişdən ixtilaflar və çəkişmələr mövcud imiş) hücum etməsini bu məsləki qəbul etməklə izah edir və vəhhabiliyi yaymaq bəhanəsilə öz məqsədlərini həyata keçirirdilər. Bu məsələ (Nəcd və Hicazda) vəhhabi olan müxtəlif qəbilələrin bir çox rəisləri və əmirləri barəsində düzgündür; Məhəmməd İbn Səuddan tutmuş, Yənbu şəhərəni işğal edən Şeyx Hərb və Şeyx Cüheynə kimi digər şəxslər də bunun nümunələrindəndir.

Şərif Qalib Yənbu şəhərini vəhhabilərin işğalı altından çıxarmaq məqsədilə şəxsən özü Cəddəyə doğru yollandı və "əsgərlər və müharibə avdanlığı ilə təchiz olunmuş on gəmi hazırladı. Həmin ordunun yarısı öz qoşunu, yarısı isə türklərdən ibarət idi."[2] Türklər vəhhabilərlə rəsmi şəkildə üzləşmədilər. Lakin Hicazdan onlara göndərilən yardımlar nəticəsində Məhəmməd Əlipaşa Şərif Qalibə yardım etmək məqsədilə Hicaza tərəf yalnız bir ordu göndərdi. Bundan əlavə, Şərifin Cəddə şəhərində yaşadığı müddətdə İbrahim Rəvayətinin xəyanətinin üstü açıldı və Yənbu hakiminin taleyinə düçar oldu.

Beləliklə, Şərif Qalibin ordusu üç gün müharibə etdikdən sonra Yənbunu vəhhabilərin işğalı altından çıxrtmağa və onların böyük bir qismini qətlə yetirməyə müvəffəq oldular.

Yənbuda çoxlu müvəffəqiyyətlər əldə edən Şərif Qalib on gün müddətində Müzayiqini Taifdə mühasirədə saxladı, sonra heç bir nəticə əldə etmədən Məkkəyə qayıtdı. Bu zaman Leys və Sədiyyədə vəhhabilərlə döyüşməyə başladılar. Hər iki tərəf çoxlu tələfat verdilər. Həmçinin İbn Şəkban (Bişənin hakimi) və Müzayiqi (Taifin hakimi)

[1] Həmin mənbə, səh. 35.
[2] Həmin mənbə, səh. 35.

sakit qalmayıb Məkkənin ətraf nahiyələrində camaatı öldürür və oranın əmniyyətini pozurdular. Bu işlə əlaqədar 1219-cu hicri qəməri ilində camaatın bir dəstəsi bu fitnə və çəkişmələr nəticəsində Kəbənin ziyarətinə gedə bilmədilər."[1]

Hicazın ətraf nahiyələrində məntəqəyə hakim olan əmin-amanlığı pozan vəhhabilər Şərif Qalibin nəzarəti altında olan Məkkə ilə sair şəhərlər arasında yaranan daxili ixtilaflar əmin-amanlığın olmaması nəticəsində hacıların Məkkəyə ziyarətə gəlmədikləri üçün Şərif Qalibin qarşılaşdığı iqtisadi böhranlar, Məkkənin vəhhabilərin vasitəsilə hər tərəfdən mühasirə edilməsi, Şərif Qalibə Babi-Ali və Şam hacılarının əmiri və hakimi İbrahim Paşa tərəfindən əsaslı köməklər olunmaması və s. kimi digər amillər nəticəsində Məkkənin əmiri daxildən yavaş-yavaş süstlük və zəifliyə düçar oldu və onun vəhhabilərlə sülh bağlamasına zəminə yaratdı.

Həmin vaxtlar Məkkənin ətrafında yaşayan ərəblərin çoxu vəhhabilərlə beyət etmişdilər. Səud da öz hakimlərinə – Üseyrin hakimi Əbdül-Vəhhab Əbu Nöqtəyə, Bişənin hakimi Salim ibn Şəkbana və Taifin hakimi Osman Müzayiqiyə göstəriş verdi ki, Məkkəni kəskin mühasirəyə alıb şəhərə gələn yemək ehtiyatlarının qarşısını alsınlar. 1219-cu hicri qəməri ilinin Zil-həccə ayının axırlarında başlanan və 1220-ci ilin Zil-qədə ayına qədər davam edən bu hadisə nəticəsində fəqirlik və bahalıq şəhər əhalisinə üz gətirdi. Belə ki, "camaat şiddətli aclıq nəticəsində köhnə dəriləri, dəvənin turşumuş və iylənmiş südlərini bişirdikdən sonra yeyirdilər. Hətta pişik, it və hər bir heyvanın ətini yeyir, qan içirdilər... Camaatın çoxu aclıqdan ölürdü."[2]

Məkkənin mühasirəsindəki və camaatın çətinliklərinin artmasındakı ibrətamiz və əhəmiyyətli məsələ Məkkə böyükləri və sərvətlilərinin vəhhabiliyə üz gətirmələridir. Bu da göstərir ki, yüksək təbəqədən olan insanlar, böyük şəxsiyyətlər, əşraf-əyanlar və sərvətlilər müəyyən bir çətinliklə üzləşsələr düşmənin xeyrinə qalxan və mübarizə səhnəsindən qaçan ilkin şəxslər olurlar. Vəhhabilər Şərif Qalib üçün müxtəlif çətinliklər yaratdıqdan sonra şəhəri mühasirədən çıxarmağa qadir olmadıqlarını gördülər. Bu zaman öz tərəfindən onun yanına bir nümayəndə göndərib sülh istədilər. "Hineynədən olan Əbdürrəhman ibn Nami adlı bir vəhhabi alimi Şərif Qalibin yanına gəlib onunla sülh bağlamaq barəsində söhbət etməyə başladı. Belə bir şərt də qoydu ki, Şərif onların Allah evini ziyarət etməyə və sonra öz məntəqələrinə qayıtmalarına icazə versin. Əlbəttə, camaatın hamısı vəhhabilərin

---

[1] Həmin mənbə, səh. 36.

[2] Həmin mənbə, səh. 42.

hökuməti altında, Məkkə şəhəri isə Şərifin hakimiyyəti altında olsun. Həmçinin, Hineynəni qaytarmağı, maddi və cani zərərlərin öhdəsindən gəlməyi öz üzərinə götürdü. Bir sözlə məsləhət gördükləri hər bir şeyin zərərini ödəməyi qəbul etdi, Məkkə əhalisi ilə mülayim və mehribancasına davranmağı söz verdi."[1] Sonra Səudu bu hadisədən xəbərdar edib onun cavabını gözlədilər. Vəhhabilər şəhərə daxil olub Məhərrəm ayının on birinə qədər orada qaldıqdan sonra çıxıb getdilər. Şərif Qalib (1220-ci hicri qəməri ilində) Məkkəni, Cəddəni, Yənbunu və onların ətraf nahiyələrini sahmana salmaq üçün bir fürsət tapdı. Həmin ildə Səudun tərəfindən (Diriyyədən) bir neçə qasid Şərifin yanına gəlib Məhəmməd ibn Əbdül-Vəhhabın əqidələrinin bərqərar edilməsi ilə əlaqədar məktubları ona verdilər. Bu, vəhhabilərin Məkkəyə nüfuz etmələrinin başlanğıcı idi.

Sultan Osmani tərəfindən heç bir yardım almayan Məkkə əmiri son dərəcə zəifləmişdi. Vəhhabilərlə zahirdə xoş davranırdı. Lakin daxildə Osmanlı dövləti ilə daim əlaqədə idi. Məktub yazır, onları Məkkə və digər şəhərləri vəhhabilərin əllərindən çıxartmaq üçün bir ordu göndərməyə təşviq edirdi. Digər tərəfdən də Sultan Osmanlı sultanı Misirin hakimi Məhəmməd Əlipaşanın yanına qasidlər göndərməklə onu Ərəbistan yarımadasında vəhhabilərin işini tamamlamağa əmr edirdi. Bəlkə də Misirin hakimi Əlipaşanın vəhhabilərin əleyhinə gec qalxmağın əsas dəlili bu ola bilər ki, o, Şərif Qalibin hərbi qüvvəsinin kifayət qədər zəifləməsini gözləyirdi ki, Misir qüvvələrinin daxil olduğu zaman onlara qarşı tamamilə hərbi üstünlükləri olsun.

Cənab Fəqihi vəhhabilərin Mədinə şəhərində gördükləri fəaliyyətləri barəsində belə yazmışdır: "...Vəhhabilər 1220-ci hicri qəməri ilində Mədinəni ələ keçirtdilər. Mədinəni ələ keçirtməklə Səud Peyğəmbərin (s) hərəmində mövcud olan bütün qiymətli əşyaları öz ixtiyarına keçirtdi. Bu zaman Məkkə və Mədinənin Osmanlılar tərəfindən olan qazisini Mədinədən qovdu. Sonra qəbirlər üzərində tikilən məqbərələri və binaları uçurtmağa başladı."[2]

Vəhhabilər Məkkənin qaziliyini Şeyx Əbdül-həfizə, Mədinənin qaziliyini isə bu şəhərin bəzi alimlərinə tapşırdılar. Onlar camaata Peyğəmbərin (s) qəbrini ziyarət etməyi qadağan edirdilər. "Tarixi-Məkkə" kitabında vəhhabilərin 1221-ci hicri qəməri ilində Mədinəyə hücumlarının elan edilməsi ilə yanaşı belə göstərilir: "(Vəhhabilər) 1221-ci hicri qəməri ilində Mədineyi-Münəvvərəyə hücum edib şəhərə daxil oldular və orada olan məqbərələri, o cümlədən "Bəqi" qəbiristanlığında

[1] Həmin mənbə, səh. 42.

[2] Həmin mənbə, Fəqihi, səh. 310

yerləşən imamların məqbərələrini uçurtdular..."[1]

Beləliklə, həcc karvanlarının həcc mərasiminə gəlişi kəsildi və Məkkə-Mədinə vəhhabilərin hakimiyyəti altında olduğuna görə hacılar bir neçə il həccə gedə bilmədilər. Belə ki, "1221-ci hicri qəməri ilində Şam hacılarının və 1222-ci ildə Misr hacılarının karvanının həccə gəlişi kəsildi. İraqda həcc proqramı dörd il, Şamda üç il və Misrdə də iki il dayandırıldı."[2]

Vəhhabilərin Şərif Qaliblə sülh etməsi nəticəsində yavaş-yavaş Hicazın hamısı vəhhabilərin ixtiyarına keçdi. Onlar öz məslək və ayinlərini güclü şəkildə təbliğ etməyə başladılar və öz müxalifləri ilə də şiddətlə davranırdılar.

Vəhhabilərin Hicaza qələbə çalmalarından bir neçə il sonra misirlilər tərəfindən onların əleyhinə hərbi hərəkat başlandı. Bu, Sultan Osmaninin və Misir hakimi Əlipaşanın vəhhabilərlə etdikləri ciddi rəftarlarının başlanğıcı idi. "Nizami Ali Səud" kitabının müəllifi bu barədə belə yazmışdır:

"...Bu zaman bəzi məsələlərdən və xarici müharibələrdən çıxan Osmanlı imperiyası da əks hücumlara başladı. Misirin hakimi Məhəmməd Əlipaşa bu hərəkatın rəhbəri oldu. Misir qüvvələri Tosun oğlu Məhəmməd Əlinin başçılığı ilə 1191-ci hicri şəmsi ilində (1812-ci miladi ilində) Mədinəni, sonrakı ildə isə Məkkəni aldılar. 1193-cü hicri şəmsi (1814-cü miladi) ilində Səudun kürsüsündə əyləşən Əbdüllah məcburiyyət qarşısında qalıb çəkişmələri tərk etmək barəsindəki müqaviləni imzaladı..."[3]

---

[1] "Bəqi" qəbiristanlığı Mədinənin şərqində, Sovr darvazasının birləşdiyi bir yerdə yerləşən böyük bir qəbiristanlıqdır. Onun divarı üç zər` hündürlüyündə olub daşdan və əhəngdən tikilmişdi. Dörd qapısı vardı. Orada imamlardan dördü – İmam Həsən (ə), İmam Səccad (ə), İmam Məhəmməd Baqir (ə) və İmam Cə`fər Sadiq (ə) dəfn olunmuşdur. Həmçinin bu qəbiristanlıqda Peyğəmbərin (s) əmisi Abbas və qızı Fatimeyi-Zəhra (s) da dəfn olunmuşdur. (Fəqihi, Həmin mənbə, səh. 410-411.)

[2] Əl-əmin Möhsün. "Tarixçe və nəqd və bərrəsiye əqaid və amali vəhhabiha", tərcümə Seyyid İbrahim Seyid Ələvi, səh. 5-184.

[3] Klevd Fuiyə, səh. 23.

Mündəricat


MÜQƏDDİMƏ ... 3
BİRİNCİ BÖLMƏ ... 4
VƏHHABİ FİRQƏSİNİN YARANMASI VƏ ONUN İDEOLOJİ RƏHBƏRLƏRİ ... 4
ƏHLİ-SÜNNƏ VƏL-CƏMAƏT ... 4
ƏHLİ-SÜNNƏ VƏ ONUN TARİXİNDƏKİ DƏYİŞİKLİKLƏR ... 4
ƏSHABİ-RƏY ... 6
ƏSHABİ-HƏDİS ... 6
ƏHLİ-HƏDİSİN TARİXİNƏ BİR BAXIŞ ... 8
VƏHHAB İLƏRİN İDEOLOJİ RƏHBƏRLƏRİ ... 10
ƏHMƏD İBN HƏNBƏL (164-241 HİCRİ QƏMƏRİ)* ... 10
ƏHMƏD İBN HƏNBƏLİN ELMİ VƏ İCTİMAİ MÖVQEYİ ... 16
ƏHMƏD İBN HƏNBƏLİN ETİQADLARI ... 17
İBN HƏNBƏLİN ƏSƏRLƏRİ ... 19
ƏHMƏD İBN HƏNBƏLİN FİQHİ ... 20
ƏHMƏD İBN HƏNBƏLİN ÜSULİ-FİQHİ ... 20
1. NƏQLİ DƏLİLLƏR ... 20
2. QEYRİ-NƏQLİ YOLLAR ... 21
ƏHMƏD İBN HƏNBƏLİN FİQHİNİN TARİXİ İNKİŞAFI VƏ YAYILMASI ... 22
SƏLƏFİLİYİN LÜĞƏTDƏKİ VƏ İSTİLAHDAKI MƏNASI ... 26
SƏLƏFİLƏRİN NƏZƏRİNDƏ TÖVHİD ... 27
SƏLƏFİLƏRİN NƏZƏRİNDƏ SÜBUTİ VƏ SƏLBİ SİFƏTLƏR ... 27
*SƏLƏFİLƏRİN ƏMƏL VƏ RƏFTARLARI* ... 28
ƏHMƏD İBN TEYMİYYƏ ... 29
TƏRCÜMEYİ-HALI ... 29
İBN TEYMİYYƏNİN MÜXALİFLƏRİ VƏ MÜDAFİƏÇİLƏRİ ... 39
İBN TEYMİYYƏNİN ƏSƏRLƏRİ ... 42
İBN TEYMİYYƏNİN ƏQİDƏ VƏ RƏYLƏRİ ... 43
İBN QƏYYİM COVZİYYƏ ... 48
TƏRCÜMEYİ-HALI ... 48
İBN QƏYYİM COVZİYYƏNİ ŞAGİRDLƏRİ ... 51
İBN QƏYYİM COVZİYYƏNİN ƏQİDƏ VƏ RƏYLƏRİ ... 51
TÖVHİD MƏSƏLƏSİ ... 51
QURANIN TƏFSİRİ VƏ ŞƏRHİ ... 52

HƏDİS ELMİ ... 52
FƏLSƏFƏ, HİKMƏT VƏ SUFİLİK ... 53
İBN QƏYYİM COVZİYYƏNİN ƏSƏRLƏRİ ... 54
ALİ ƏBDÜL-HADİ ... 56
VƏHHABİ FİRQƏSİNİN YARANMASI ... 62
ÜMUMİ NƏZƏR ... 62
VƏHHABİLİYİN BANİSİ MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHAB ... 63
MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHABIN FƏRDİ, İCTİMAİ, ELMİ VƏ SİYASİ FƏALİYYƏTİ ... 66
MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHABIN İLK RƏSMİ VƏ AŞKAR DƏVƏTİ .. 71
MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHABIN FƏALİYYƏT ÜSLUBU ... 73
VƏHHABİLİYİN MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHAB ÖVLADLARININ DÖVRÜNDƏKİ CİDDİ TƏDBİRLƏRİ ... 78
SÜNNÜ VƏ ŞİƏ ALİMLƏRİNİN VƏHHABİYYƏT ƏLEYHİNƏ TƏNQİDLƏRİ ... 81
İKİNCİ HİSSƏ ... 85
VƏHHABİLİYİN YARANMASI VƏ İNKŞAF ETMƏSİ AMİLLƏRİ ... 85
VƏHHABİLƏRİN YARANIB İNKŞAF ETMƏSİNDƏ ZONAL AMİLLƏR ... 86
ALİ-SƏUD SÜLALƏSİNİN ÖZÜNƏ QANUNİYYƏT QAZANMAQ ÜÇÜN VƏHHABİYYƏTDƏN FAYDALANMASI ... 86
OSMANLI İMPERATORLUĞUNUN HİCAZ VƏ NƏCD HAKİMİYYƏTİ ... 92
ƏRƏBİSTANIN XÜSUSİ COĞRAFİ MÖVQEYİ ... 99
1-NƏCDİN DİNİ MÖVQEYİ ... 102
2-NƏCDİN SOSİOLOJİ MÖVQEYİ ... 103
3-NƏCD ƏYALƏTİNƏ HAKİM OLAN QƏBİLƏ-İCMA QURULUŞU ... 103
4-MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHABIN NƏCDDƏ XÜSUSİ TƏLİMLƏRİ 104
HƏRİMƏLƏ, ÜYƏYNƏ VƏ DİRİYYƏ MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHABIN ƏQİDƏSİNİN YAYILDIĞI İLK YERLƏR ... 106
VƏHHABİ TƏFƏKKÜRÜNÜN YARANMASINDA BEYNƏLXALQ ŞƏRAİTİN ROLU ... 112
İSTİSMARÇI QÜVVƏLƏRİN OSMANLI İMPERATORLUĞUNDA APARDIĞI İŞLƏR ... 114
OSMANLI İMPERATORLUĞUNUN DAXİLİNDƏKİ QARIŞIQLIQLAR VƏ İĞTİŞAŞLAR ... 116
İNGİLİS MÜSTƏMLƏKƏÇİLİYİNİN VƏHHABİLİYİN İNKİŞAF EDİB GENİŞLƏNMƏSİNDƏ OYNADIĞI ROL ... 123
ÜÇÜNCÜ HİSSƏ ... 133
ALİ-SƏUD HÖKUMƏTİNİN YARANIB FORMALAŞMASINDA VƏHHABİLƏRİN ROLU ... 133
MƏHƏMMƏD İBN ƏBDÜL-VƏHHABIN ALİ-SƏUDLA İDEOLOJİ VƏ SİYASİ BAĞLILIĞI ... 134
MİSİRLİLƏRİN DİRİYYƏYƏ HAKİM KƏSİLDİYİ VAXTA QƏDƏR ALİ-SƏUD DÖVLƏTİNİN TƏSİS OLUNMASI ... 135

VƏHHABİLƏRİN MƏHMMƏD İBN SƏUDUN (1735–1766) HAKİMİYYƏTİ DÖVRÜNDƏ TÖRƏTDİYİ CİNAYƏTLƏR........................................................135
VƏHHABİLƏRİN ƏBDÜL-ƏZİZ İBN MƏHƏMMƏD İBN SƏUDUN HAKİMİYYƏTİ DÖVRÜNDƏ (1766–1803) GÖRDÜKLƏRİ TƏDBİRLƏR .....140
VƏHHABİLƏRİN SƏUD İBN ƏBDÜL-ƏZİZİN RƏHBƏRLİYİ DÖVRÜNDƏKİ CİNAYƏTLƏRİ (1803–1814) ..........................................................................145
VƏHHABİLƏRİN ƏBDÜLLAH İBN SƏUDUN HAKİMİYYƏTİ DÖVRÜNDƏKİ CİNAYƏTLƏRİ (1814-1818)..................................................................148
VƏHHABİ HÖKMRANLIĞININ İKİNCİ DÖVRÜ............................................150
VƏHHABİLƏRİN İBN RƏŞİDİN NƏCDƏ HAKİM OLDUĞU DÖVRƏ QƏDƏRKİ QÜDRƏTİ..........................................................................150
TÜRKİ İBN ƏBDÜLLAH (1821-1834) ..................................................151
MÜŞARİ İBN ƏBDÜR-RƏHMAN İBN MÜŞARİ ...........................................151
FEYSƏL İBN TÜRKİ (1834-1838) ......................................................153
XALİD İBN SƏUD (1840-1842)..........................................................154
ƏBDÜLLAH İBN SƏNYAN İBN İBRAHİM (1842-1843).................................154
FEYSƏL İBN TÜRKİ (1843-1865) ......................................................154
ƏBDÜLLAH İBN FEYSƏL İBN TÜRKİ (1865-1871) .....................................155
SƏUD İBN FEYSƏL İBN TÜRKİ (1871-1874) ...........................................155
ƏBDÜLLAH İBN FEYSƏL İBN TÜRKİ (1875-1887) .....................................156
MƏHƏMMƏD İBN SƏUD İBN FEYSƏL.....................................................157
ƏBDÜR-RƏHMAN İBN FEYSƏL (1891)....................................................157
İBN SƏUDUN RİYAZA QƏLƏBƏSİ, ALİ-SƏUD RƏHBƏRLƏRİNİN YENİ DÖVRÜNÜN BAŞLANMASI ..................................................................158
VƏHHABİLƏRİN İBN SƏUD ADI İLƏ MƏŞHUR OLAN ƏBDÜL-ƏZİZ İBN ƏBDÜR-RƏHMAN İBN FEYSƏLİN DÖVRÜNDƏ GÖRDÜYÜ İŞLƏR (1902-1953)..................................................................................159
VƏHHABİLƏRİN SƏUD İBN ƏBDÜL-ƏZİZİN HAKİMİYYƏTİ DÖVRÜNDƏKİ CİNAYƏTLƏRİ (1953-1964)..................................................................173
VƏHHABİLƏRİN FEYSƏL İBN ƏDBÜL-ƏZİZİN RƏHBƏRLİYİ DÖVRÜNDƏKİ TƏDBİRLƏRİ (1964-1975)...........................................183
VƏHHABİLƏRİN FEYSƏLDƏN SONRA İRAN İSLAM İNQİLABINA QƏDƏR GÖRDÜYÜ İŞLƏR..................................................................193
İRAN İSLAM İNQİLABININ ƏZƏMƏTLİ QƏLƏBƏSİNDƏN SONRA VƏHHABİLƏRİN GÖRDÜYÜ İŞLƏR ...................................................195
VƏHHABİLƏRİN SİYASİ VƏ HƏRBİ TƏDBİRLƏRİNİN ARAŞDIRILMASI 207
VƏHHABİLƏRİN HÜCUMLARI VƏ SƏUDİLƏRİN BUNA QARŞI GÖSTƏRDİKLƏRİ REAKSİYALAR.......................................................208
MƏKKƏ ƏMİRİNİN VƏHHABİLƏRLƏ APARDIĞI MÜBARİZƏ (1205-1220-Cİ H.Q)...............................................................................210